**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi**

**P O L İ S A K A D E M İ Y A S I**

**“Kriminalistika” kafedrası**

# “K R İ M İ N A L İ S T İ K A”

**fənni üzrə mühazirələr toplusu**

**Bakı – 2006**

***Müəlliflər*:**

Polis Akademiyasının "Kriminalistika" kafedrasının rəisi, polis polkovnik –leytenantı Allahverdi Mahmudov

Polis Akademiyasının "Kriminalistika" kafedrasının baş müəllimi, polis polkovnik –leytenantı Nəriman Hüseynov

Polis Akademiyasının "Kriminalistika" kafedrasının baş müəllimi, polis polkovnik –leytenantı Şair Abdurahmanov

Polis Akademiyasının "Kriminalistika" kafedrasının müəllimi, polis mayoru Ələkbər Allahverdiyev

**Rəy verənlər:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi

Azərbaycan Respublikası DİN-in Kriminalistik Tədqiqatlar İdarəsi

## *MÜNDƏRİCAT*

***Önsöz***.............................................................9

***Mövzu 1. Kriminalistika elm və tədris fənni kimi***

1.Kriminalistika elminin anlayışı, predmeti və vəzifələri......11

2.Kriminalistika elminin yaranma tarixi..............................14

3.Kriminalistika elminin sistemi və metodları......................20

***Mövzu 2. Kriminalistik eyniləşdirmə***

1.Kriminalistik eyniləşdirmənin anlayışı, mahiyyəti, növləri və elmi əsasları.................................................................27

2.Qrup mənsubiyyətinin müəyyən edilməsi...........................34

3.İstintaq hərəkətlərinin keçirilməsində və maddi sübutların tədqiqində kriminalistik eyniləşdirmənin tətbiq edilməsi..37

***Mövzu 3. Kriminalistik profilaktika. Proqnozlaşdırma və diaqnostika***

1.Kriminalistik profilaktikanın anlayışı, mahiyyəti və vəzifələri..41

2.Kriminalistik proqnozlaşdırmanın anlayışı, mahiyyəti və obyektləri........................................................................48

3.Kriminalistik diaqnostikanın mahiyyəti, obyektləri və vəzifələri…......................................................................53

***Mövzu 4. Kriminalistik texnikanın ümumi***

*müddəaları*

1.Kriminalistik texnikanın anlayışı. Texniki-kriminalistik vasitələrin təsnifatı və tətbiqi prinsipləri...........................59

2.Obyektlərin aşkar edilməsində, qeyd edilməsində və götürülməsində istifadə edilən texniki-kriminalistik vasitələr...66

3.Obyektlərin tədqiq edilməsinin texniki-kriminalistik vasitələri və metodları...................................................................68

***Mövzu 5. Kriminalistik fotoqrafiya, video və səsyazma***

1.Kriminalistik fotoqrafiyanın anlayışı, prinsipləri və vəzifələri...................................................................71

2.Əksedici və tədqiqedici fotoqrafiyanın metodları...............76

3.İstintaq hərəkətlərinin aparılmasında fotoşəkil və kinofilm çəkmənin, videoyazının tətbiqi.........................................85

***Mövzu 6. Kriminalistik izşünaslıq (trasologiya)***

1.İzşünaslığın anlayışı, elmi əsasları, əhəmiyyəti və obyektləri. İzlərin əmələgəlmə mexanizmi və təsnifatı.........................97

2.İnsanın əl, ayaq izləri, sındırma alətlərinin, nəqliyyat vasitələrinin izləri, onların aşkar edilməsi, götürülməsi və qeyd olunması...............................................................102

3.Mikroobyektlərin anlayışı, onların aşkar edilməsi, qeyd edilməsi, götürülməsi və istifadə olunması.......................127

***Mövzu 7. Kriminalistik silahşünaslıq***

1.Kriminalistik silahşünaslığın anlayışı, sistemi və vəzifələri. Kriminalistik ballistikanın anlayışı və obyektləri. ...............134

2.Odlu silahlar, döyüs sursatları və onların tətbiqi nəticəsində əmələ gələn izlərin xüsusiyyətləri. ..................................138

3.Atılmış giliz və gülləyə görə silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi. Soyuq silahlar............................................................................150

***Mövzu 8. Yazının və sənədlərin kriminalistik tədqiqi***

1.Sənədlərin kriminalistik tədqiqi. Sənədlərin təsnifatı...........154

2.Yazının və yazı xəttinin anlayışı, onun ümumi və xüsusi əlamətləri. Sənədlərin saxtalaşdırılması üsulları..................157

3.Cinayətin açılmasında sənədlərin kriminalistik tədqiqinin əhəmiyyəti. Sənədlərlə davranış qaydaları..........................168

***Mövzu 9. Zahiri əlamətlərinə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsi***

1.Zahiri əlamətlərə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsinin mahiyyəti. Zahiri əlamətlərin təsnifatı.172

2.İnsanın zahiri görünüşünün "şifahi portret" metodu əsasında təsvir edilməsi qaydaları................................................ 157

3.İnsanın zahiri görünüşü haqqında məlumatlardan istintaq, əməliyyat axtarış və ekspert təcrübəsində istifadə olunması.. 168

***Mövzu 10. Kriminalistik qeydiyyat***

1.Kriminalistik qeydiyyatın anlayışı, növləri və əhəmiyyəti... 187

2.Əməliyyat- məlumat qeydiyyatı......................................191

3.Kriminalistik qeydiyyatın aparılması qaydaları və köməkçi məlumat kolleksiyaları..................................................196

***Mövzu 11.* Kriminalistik taktikanın əsasları**

1. Kriminalistik taktikanın anlayışı, mahiyyəti və digər elmlərlə əlaqəsi....................................................................200
2. Kriminalistik taktikanın sistemi və vəzifələri.......................206
3. Kriminalistik taktikanın struktur elementləri, onlardan cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında istifadə edilməsi............................................211

***Mövzu 12.* Kriminalistik fərziyyələr və kriminalistik fəaliyyətin plan–təşkilatı təminatının əsasları**

1. Kriminalistik fərziyyələrin anlayışı, növləri və mahiyyəti.......................................................................218
2. Kriminalistik fərziyyələrin qurulması və yoxlanması..........226
3. İstintaqın təşkili və planlaşdırılmasının mahiyyəti və prinsipləri.......................................................................228
4. Planlaşdırma elementlərinin ardıcıllığı və onunun forması.........................................................................232

***Mövzu13.*İbtidai istintaq zamanı müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin və xüsusi biliklərdən istifadə edilməsinin əsasları**

1. İbtidai istintaq zamanı müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin mahiyyəti, formaları və əsasları........................................................................236
2. İbtidai istintaq zamanı xüsusi biliklərdən istifadə edilməsinin mahiyyəti, formaları və əsasları.......................250

### *Mövzu* 14. İstintaq baxışı taktikası

1. Baxış istintaq müayinəsinin anlayışı, növləri və vəzifələri..262
2. Hadisə yerinə baxışın mərhələləri və onların mahiyyəti.....269
3. Hadisə yerinə baxışın nəticələrinin rəsmiləşdirilməsi........ 288

### *Mövzu 15. Axtarış, götürmə və tutulma taktikası*

1. Axtarışın anlayışı, növləri, vəzifələri, taktiki və psixoloji əsasları........................................................................296
2. Götürmənin anlayışı, prosessual əsasları və keçirilmə qaydası........................................................................311
3. Tutulmanın anlayışı və taktiki üsulları. Müxtəlif şəraitlərdə tutulmanın xüsusiyyətləri..................................................314

### *Mövzu 16 Dindirmə və üzləşdirmə taktikası*

1. Dindirmənin anlayışı, mahiyyəti və növləri................345
2. Dindirmənin psixoloji əsasları.............................348
3. Dindirməyə hazırlıq və onun keçirilməsinin taktiki üsulları358
a) Şahidin dindirilməsi taktikası................................................360
b) Zərər çəkmiş şəxsin dindirilməsinin taktiki üsulları.................364
v) Şübhəli şəxsin dindirilməsi taktikası.......................................367
q) Təqsirləndirilən şəxsin dindirilməsi taktikası..........................371
4. Üzləşdirmə taktikası. Dindirmənin nəticələrinin rəsmiləşdirilməsi................................................................... 376

## *Mövzu 17. İfadələrin yerində yoxlanılmasının taktikası*

1. İfadələrin yerində yoxlanılmasının anlayışı, mahiyyəti və vəzifələri.....................................................................37 9
2. İfadələrin yerində yoxlanılmasına hazırlıq və keçirilməsinin taktiki xüsusiyyətləri....................................................387
3. İfadələrin yerində yoxlanılmasının nəticələrinin rəsmiləşdirilməsi...........................................................393

## *Mövzu № 18.İstintaq eksperimenti taktikası*

1. İstintaq eksperimentinin anlayışı, növləri və əhəmiyyəti.. 397
2. İstintaq eksperimentinə hazırlıq və keçirilməsinin taktiki üsulları....................................................405
3. İstintaq eksperimenti nəticələrinin rəsmiləşdirilməsi və qiymətləndirilməsi.......411

## *Mövzu № 19.Tanınma üçün təqdimetmə taktikası*

1. Tanınma üçün təqdimetmənin mahiyyəti, növləri və psixoloji əsasları.........................................414
2. Tanınma üçün təqdimetmənin mərhələləri.................419
3. Tanınma üçün təqdimetmənin taktiki aspektləri..........424
Tanınma üçün təqdimetmənin nəticələrinin rəsmiləşdirilməsi...431

Ədəbiyyat……………………………………………………432

# ÖN SÖZ

Kriminalistika elmi bir əsrdən artıq dövr ərzində cinayətkarlıqla mübarizə sahəsində özünün layiqli töhfələrini verməkdədir. Kriminalistika mərhələ-mərhələ inkişaf etmiş, müasir tələblərə cavab verən elmi-texniki vasitələrin tətbiqi üzrə səmərəli üsul və metodlar, istintaq hərəkətlərinin təşkili, həyata keçirilməsinin taktiki və psixoloji üsulları, həmçinin son zamanlar təşəkkül tapmış yeni növ cinayətlərin araşdırılma metodikası ilə bağlı tövsiyələr işləyib hazırlamışdır. Kriminalistika elminin inkişafı ilə bağlı son illər respublikamızda elmi-tədqiqat işləri aparılmış, elmi məqalələr dərc olunmuş, yeni monoqrafiyalar və digər tədris-metodik vəsaitlər nəşr etdirilmişdir.

Bu dərs vəsaiti ulu öndərimiz Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi” haqqında 18 iyun 2001-ci il və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 26 may 2004-cü il tarixli “Azərbaycan dilinin orfoqrafiya qaydaları barədə” fərmanlarının tələblərinə müvafiq olaraq kriminalistika elmi sahəsində ilk dəfə latın qrafikalı azərbaycan əlifbası ilə nəşr olunmuşdur.

Dərs vəsaitinin hazırlanmasında BDU-nun “Kriminalistika və məhkəmə ekspertizası” kafedrasının professoru K.Q.Sarıcalinskayanın redaktəsi ilə 1999-cu ildə ilk dəfə azərbaycan dilində nəşr edilmiş “Kriminalistika” dərsliyi əsas tutulmuş, həmçinin Azərbaycan Respublikasının son illərdə qəbul edilmiş qanunlarından, normativ hüquqi aktlarından və kriminalistika sahəsində xarici ölkə alimlərinin əsərlərindən istifadə olunmuşdur.

Kitab, kriminalistika elminin anlayışı, predmeti, sistemi, krminalistik eyniləşdirmə, diaqnostika, kriminalistik fotoqrafiya, səsyazma və videoyazı, trasologiya, ballistika, qabitoskopiya, sənədlərin kriminalistik tədqiqi, kriminalistik qeydiyyat sahələrinin elmi müddəalarını özündə birləşdirərək, kriminalistik nəzəriyyə və kriminalistik texnika hissələrini əhatə edən 10 fəsildən ibarətdir.

Dərs vəsaiti hüquq fakültələrinin tələbələri, Polis Akademiyasının müdavim və dinləyiciləri, müəllimlər, hüquq-muhafizə orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur.

# Mövzu 1:

## *Kriminalistika elm və tədris fənni kimi*

PLAN:

1. Kriminalistika elminin anlayışı, predmeti və vəzifələri.
2. Kriminalistika elminin yaranma tarixi.
3. Kriminalistika elminin sistemi və metodları.

### *Sual 1. Kriminalistika elminin anlayışı, predmeti və vəzifələri*

Cinayətkarlıqla mübarizədə mühüm əhəmiyyət kəsb edən elmlərdən biri də kriminalistikadır. Kriminalistika terminini ilk dəfə olaraq XIX əsrin ikinci yarısında Avstriya kriminalisti Hans Qross işlətmişdir. Kriminalistika cinayətlərin araşdırılması, açılması və qarşısının alınmasında təbii və texniki elmlərin nailiyyətlərindən istifadə edərək, istintaq təcrübəsinin təhlili və ümumiləşdirilməsi nəticəsində yaranmışdır. Bilavasitə kriminalistika tərəfindən cinayətkarlığa qarşı mübarizə aparmaq üçün elmi nöqteyi-nəzərdən hərtərəfli işlənib hazırlanmış və müasir dövrün tələblərinə cavab verə bilən texniki, taktiki və metodik üsul və vasitələr hazırlanmış və hal- hazırda onlardan uğurla istifadə edilir. Eyni zamanda, kriminalistika cinayətlərin vaxtında, obyektiv və tam açılmasını, həmçinin cinayət mühakimə icraatı qarşısında duran vəzifələrin həllinə nail olunmasını təmin edir. Kriminalistika cinayətlərin törədilməsinə imkan və şərait yaratmış səbəblərin aydınlaşdırılması, kriminalistik profilaktikanın təsir obyektlərinin müəyyən edilməsi, eyni zamanda konkret şəxslərin cinayətkar

fəaliyyətinin dayandırılması, qarşısının alınması üçün digər profilaktik tədbirlərin həyata keçirilməsində də böyük əhəmiyyət kəsb edir. Kriminalistikanın predmeti onun inkişaf tarixi ilə paralel tədqiq edilmiş və təkmilləşdirilmişdir.

Kriminalistikanın predmeti ilə bağlı ədəbiyyatlarda İ.N.Yakimovun, İ.N.Trequbovun, V.M.Şaverin, A.İ.Vinberqin və digər kriminalist alimlərin fikirləri mövcuddur. Lakin 1986-cı ildə kriminalist-alim R.S.Belkin kriminalistikanın predmetinə yeni və tam anlayış vermişdir. O, kriminalistikanın predmetinə qanunauyğunluqlar anlayışını və informasiya terminini əlavə etmişdir.

R.S.Belkin kriminalistikanın predmeti ilə öyrənilən qanunauyğunluqlardan aşağıdakıları göstərmişdir:

- maddi qanunların inkişafı üzrə obyektiv reallıq kimi cinayətin mexanizmi qanunauyğunluğu;
- cinayət və cinayətkar haqqında informasiyanın yaranma prosesinin qanunauyğunluğu;
- sübutların yığılması, tədqiqi və qiymətləndirilməsi prosesinin qanunauyğunluqları;
- cinayətin törədilmə mexanizminin qanunauyğunluqları və onlar haqqında məlumatların dərk edilməsi, məlumatların tədqiqi əsasında texniki vasitələrin, üsulların və metodiki tövsiyyələrin işlənib hazırlanması.

K.Q.Sarıcalinskaya kriminalistikaya verilən anlayışları ümumiləşdirərək, onun predmetini belə xarakterizə etmişdir: “Kriminalistika baş vermiş cinayət hadisəsinin xüsusiyyətləri nəzərə alınmaqla onun istintaqı, açılması və qarşısının alınması məqsədilə həmin cinayəti xarakterizə edən və məlumat daşıyıcılarında əks olunan maddi və digər izlərin əmələ gəlmə mexanizminin qanunauyğunluqlarını müəyyən

etməklə, eyni zamanda, cinayət-prosessual qanunvericiliyin normalarına riayət etməklə onların aşkar edilməsi, götürülməsi və rəsmiləşdirilməsində istifadə edilən texniki vasitələr, taktiki üsul və metodlar haqqında elmdir".

Sübutların yığılması, tədqiqatı, qiymətləndirilməsi təhqiqat, ibtidai istintaq və məhkəmə baxışında həqiqəti müəyyən edilməsi üçün böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, sübutlarla iş dörd mərhələyə bölünür: *sübutların yığılması, sübutların tədqiqi, sübutların qiymətləndirilməsi, sübutlardan istifadə edilməsi.*

Sübutların yığılması öz növbəsində aşağıdakı mərhələlərdən ibarətdir: 1) *Sübutların aşkar edilməsi;* 2) *Sübutların qeyd edilməsi. Bu mərhələ* cinayət-prosessual qanunvericiliyin normaları əsasında həyata keçirilir; 3) *Sübutların götürülməsi.* Bu mərhələ isə sübutlardan gələcəkdə cinayət prosesində istifadə edilməsi və onların cinayət işinə əlavə olunmasını təmin edir; 4) *Sübutların saxlanılması*. Cinayət işi üzrə əldə olunan maddi sübutlardan istintaq və məhkəmə prosesində istifadə edilməsi üçün onların saxlanılması vacib şərtlərdən biri hesab olunur.

Sübutlarla işin ikinci mərhələsi onların tədqiqidir. Bu mərhələdə sübutlar tədqiqat aparan şəxs, müstəntiq və xüsusi biliklərin tətbiqi zərurəti yarandıqda isə onların qərarı əsasında ekspert tərəfindən həyata keçirilir. Bu prosedur da Cinayət-Prosessual Məcəlləsinin normaları ilə tənzimlənir. Sübutların qiymətləndirilməsi üçüncü mərhələyə aiddir. Sübutların qiymətləndirilməsi məntiqi proses olub, onların ehtimal dərəcəsini, nisbiliyini, mövcudluğunu, onlar arasında əlaqələrin xarakterini, əhəmiyyətini, obyektiv həqiqəti müəyyənləşdirmək üçün onlardan istifadə olunmasını bildirir. Sübutların qiymətləndirilməsi aşağıdakıları müəyyənləşdirir:

- mövcud olan faktın bir sübut kimi istifadə olunması mümkünlüyünü;

- həmin faktın iş üzrə yığılmış faktlara aid olmasını;

- bu sübutun iş üzrə yığılmış digər sübutlarla əlaqəsi və bu əlaqənin əhəmiyyətini;

- həqiqəti müəyyənləşdirmək üçün bu sübutun əhəmiyyətini;

- bu sübutun cinayət prosesinin sonrakı mərhələlərində necə istifadə olunmasını.

Sübutların yığılması, tədqiqatı, qiymətləndirilməsi bir-biri ilə sıx şəkildə bağlıdır. Dördüncü mərhələ isə sübutlardan istifadə olunması ilə bağlıdır. Sübutlardan təhqiqat, ibtidai istintaq, məhkəmə prosesində istifadə olunur. Sübutlardan istifadə olunması prosesi də spesifik xüsusiyyətlərə malik olub, bu prosesdə yaranmış şəraitdən asılı olaraq, müvafiq üsullar tətbiq olunmaqla həyata keçirilir.

Kriminalistikanın obyektlərini bir tərəfdən cinayətkarlıq, digər tərəfdən ibtidai araşdırma, məhkəmə baxışı, cinayətin profilaktikası təşkil edir. Müasir dövrdə isə kriminalistik biliklərdən mülki-hüquqi, iqtisad məsələlərinin həllində də istifadə olunur.

Qeyd etmək lazımdır ki, kriminalistikanın obyektləri olan cinayət, cinayətkarlıq – cinayət hüququ, kriminologiya, məhkəmə statistikası, cinayət prosesi, əməliyyat-axtarış fəaliyyəti, məhkəmə psixologiyası və digər elm sahələri tərəfindən də öyrənilir. Sadalanan elmlərdən hər biri bu obyektləri öz spesifik vəzifələrinin həlli üçün öyrənir.

Kriminalistikanın məzmununu təşkil edən ən başlıca bilik mənbələri cinayətlərin açılması və istintaqı ilə bağlı istintaq, məhkəmə və ekspert təcrübəsi təşkil edir. Eyni zamanda, kriminalistikanın formalaşmasında xüsusi elmlərin rolu da böyük əhəmiyyət kəsb edir. Bunlara ilk

növbədə  təbabət, biologiya, psixologiya, məntiq, fizika, kimya, riyaziyyat, sosiologiya, idarəetmə, statistika və digər elm sahələrini göstərmək olar.

Bir elm kimi kriminalistikanın qarşısında çoxşaxəli vəzifələr durur. Onları ümumi və xüsusi vəzifələrə ayırmaq olar.

Kriminalistikanın ümumi vəzifələrinə aiddir:

- spesifik vasitələr, üsullar və metodlarla cinayətlərin tez və tam açılması, cinayət işi üzrə bütün halların müəyyən edilməsi və cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə kömək göstərmək;
- spesifik vasitələr, üsullar və metodlarla cinayətlərin qarşısının alınmasına kömək göstərmək.

Kriminalistikanın xüsusi vəzifələrinə aiddir:

- kriminalistikanın predmetinə aid olan obyektiv həqiqətin qanunauyğunluqlarının gələcəkdə də dərk edilməsi;
- cinayətlərin açılması və araşdırılmasının mövcud vasitə, üsul və metodlarının təkmilləşdirilməsi və yenilərinin yaradılması;
- cinayətlərin qarşısının alınmasının mövcud vasitə, üsul və metodlarının təkmilləşdirilməsi və yenilərinin yaradılması.

### *Sual  2. Kriminalistika elminin yaranma tarixi*

Hər bir elmin yaranma tarixi və inkişaf mərhələsi olduğu kimi, kriminalistika elminin də özünəməxsus inkişaf tarixi vardır. Bir sıra başqa hüquq elmləri kimi kriminalistika elmi də ilk dövlət və hüquq yaranan vaxtdan yaranmış və inkişaf etmişdır. Başqa sözlə, dövlət yaranıb, onun qoyduğu qanun-qayda pozulub, birinci cinayət baş verdiyi andan onun araşdırılması, yəni cinayəti törətmiş şəxsi müəyyən etmək, cinayətin törənmə şəraitini,

mexanizmini və doğuran səbəbi müəyyənləşdirmək zərurəti meydana çıxmışdır.

Bu vaxta qədər, yəni müasir dövrə qədər gəlib çıxmış tarixi abidələr, yaddaşlar, tapıntılar, əsərlər, əlyazmalar, incəsənət əsərləri o vaxtlar üçün kriminalistik xarakterli təklif və əsasnamələr cinayətin mexanizmi, cinayətin iştirakçıları, sübutların toplanması, qiymətləndirilməsi və istifadə edilməsi qanunauyğunluqları, istintaq və məhkəmə təhqiqatının xüsusi vasitə və metodları, cinayətin qarşısının alınması, cinayətləri açan şəxslərin peşəkarlığı barədə məlumatlar verir.

Qərbi Avropanın, Amerikanın və Asiyanın inkişaf etmiş dövlətlərində kriminalistika 100 ildən çox inkişaf tarixinə malikdir. Adları bütün dünyada məşhur olan böyük kriminalist alimlər: H.Qross, F.Qalton, A.Bertilyon, R.Qeys, E.Lokar və bir çox başqaları məhz bu ölkələrdə yaşayıb fəaliyyət göstərmişlər.

Avropa ölkələrində kriminalistika XIX əsrin ikinci yarısında elm sahəsi kimi formalaşmağa başlamışdır. Avstriyalı Hans Qross Avropada kriminalistika elminin banisi hesab edilir. Onun tərəfindən ilk dəfə Praqanın Karlova Universitetində kriminalistika kafedrası yaradılmışdır.

XIX əsrin 80-ci illərindən başlayaraq müxtəlif hüquq jurnallarında o dövrün kriminalistlərinin əsərləri çap olunmağa başladı ki, bu da kriminalistik biliklərin geniş yayılmasına kömək etdi.

1878-ci ildə Rusiya texniki cəmiyyətinin tərkibində fotoqrafiya şöbəsi yaradılmışdır.

1889-cu ildə Sankt-Peterburq dairə məhkəməsi yanında E.F.Burinski tərəfindən məhkəmə fotoqrafiyası laboratoriyası yaradılmışdır. 1903-cü ildə polis bölmələrinin tərkibində daktiloskopik bürolar təşkil

edilmiş, 1906-cı ildə isə həmin laboratoriyalar dövlət müəssisələrinə çevrilərək fəaliyyətinin əsas istiqamətini ekspertizaların (sənədlərin texniki-kriminalistik tədqiqi) həyata keçirilməsinə yönəltmişdir.

Azərbaycan Respublikasında kriminalistika sovet kriminalistikasının tərkib hissəsi kimi, onun təsiri altında yaranmış və formalaşmışdır.

1926-cı ildə Bakı cinayət-axtarışı şöbəsinin tərkibində elmi texniki hissə fəaliyyət göstərmişdir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 18 avqust 1926-cı il tarixli qərarı ilə Səhiyyə Xalq Komissarlığına respublikada tibbi ekspertizaya rəhbərliyi cəmləşdirmək tapşırılmışdır. Bu məqsədlə yaradılan məhkəmə-tibb ekspetizasının məhkəmə kimyəvi laboratoriyası Bakı cinayət axtarışı elmi-texniki hissəsinin tərkibində idi. 1938-ci ildə Bakı Ədliyyə Xalq Komissarlığı yanında kriminalistik kabinet yaradıldı. 1935-ci ildə Xalq Daxili İşlər Komissarlığının cinayət-axtarış şöbəsi nəzdində kriminalistika laboratoriyası təşkil olundu. 1950-ci ildə şöbənin tərkibində tədqiqatlar aparmaq üçün xüsusi laboratoriya yaradılmışdı. Elmi texniki şöbənin tərkibində laboratoriyanın təşkil edilməsi prosesi 10 il davam etmiş və 60-cı illərdə burada daktiloskopiya, ballistika, xətşünaslıq və s. laboratoriyalar mövcud olmuşdur. Həmin illərdə Naxçıvan MSSR-də və Gəncə şəhərində elmi-texniki şöbələr yaradılmışdır.

1948-ci ildə Azərbaycan Dövlət Universitetinin "Cinayət hüququ" kafedrasında kriminalistika kabineti təşkil olunmuşdur. Hal-hazırda BDU-nun aparıcı müəllimlərindən biri olan professor K.Q.Sarıcalinskaya 1949-cu ilin oktyabr ayından 1950-ci ilin dekabr ayınadək xüsusi ekspert hazırlığı keçmiş və həmin laboratoriyada xətşünaslıq və trasoloji ekspertizaları keçirmişdir.

Qeyd edilməlidir ki, Sovet hakimiyyətinin mövcud olduğu 70 il ərzində kriminalistika fənni üzrə Azərbaycan dilində dərslik olmamışdır.

1999-cu ildə professor K.Q.Sarıcalinskayanın redaktəsi ilə Azərbaycan dilində "Kriminalistika" dərs vəsaitinin nəşr olunması mühüm tarixi əhəmiyyətə malik oldu.

1 iyun 1956-cı ildə, sonradan Azərbaycanın məşhur alim kriminalistlərindən biri olan professor C.H.Mövsümovun daxil olduğu Ədliyyə Nazirliyinin Bakı elmi-tədqiqat kriminalistik laboratoriyası yaradılmışdır.

Laboratoriyanın rəhbəri F.E.Davudov digər ekspert müəssisələrin işinin təşkili ilə tanış olmuş və lazımi texniki bazanın yaradılması istiqamətində işlər görmüşdür. Həmin laboratoriyada xəttin və sənədlərin texniki tədqiqatı üzrə ilk eksperetiza keçirilmişdir.

Azərbaycan Nazirlər Sovetinin qərarı ilə 15 dekabr 1960-cı ildə qeyd olunan laboratoriyanın əsasında respublika Nazirlər Sovetinin Hüquq Komissiyası nəzdində Azərbaycan Məhkəmə Ekspertizasının Elmi-Tədqiqat İnstitutu yaradıldı.

1961-ci ildə Firudin Eynulla oğlu Davudov Azərbaycan Məhkəmə Ekspertizasının Elmi-Tədqiqat İnstitutunun direktoru vəzifəsinə təyin olunmuşur. Həm də bununla yanaşı, o, ADU-da kriminalistika fənnini tədris etmişdir. Nəinki Azərbaycanda, həm də sovetlər birliyinin digər respublikalarının qabaqcıl krimnalistlərdən biri olan F.E.Davudov həmin illərdə məhkəmə ekspertizasının təşkilati və elmi əsasları barədə çoxlu məqalələr dərc etdirmişdir: 1965-ci ildə "Cinayətlərin xəbərdar edilməsində məhkəmə ekspertizası və ekspert müəssisələrinin rolu", 1967-ci ildə "Məhkəmə ekspertizasının təşkilati və prosessual problemlərinin

inkişafı”, 1972-ci ildə “Ölkənin ekspert müəssisələrində işin təşkili” və s.

Hüquq elmləri doktoru, professor F.E.Davudov ilk dəfə olaraq Azərbaycan dilində yazılan mətnlərin tədqiqat metodikasını işləyib hazırlamış, xətşünaslıq metodunun yaradılmasını elmi cəhətdən əsaslandırmışdır.

Kriminalistika elminin yeni konsepsiyası R.S.Belkin tərəfindən 70-ci illərdə işlənib hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, kriminalistlərin əksəriyyəti ümumi kriminalistika nəzəriyyəsinin yeni strukturunu dəstəklədi. Sonradan onun tərəfindən üç cilddən ibarət “Sovet kriminalistika kursu” daha da təkmilləşdirildi.

Keçmiş İttifaq miqyasında bu kimi yeniliklər Azərbaycana da sirayət edirdi. Azərbaycan Məhkəmə Ekspertizasının Elmi-Tədqiqat İnstitutunun direktoru vəzifəsində F.E.Davudovdan sonra işləyən İ.Ə.Əliyev məhkəmə ekspertizasının ümumi nəzəriyyəsinin, kriminalistika və kriminologiya problemlərinin orijinal konsepsiyası ilə çıxış etdi. O, 80-ci illərin əvvəllərində cinayətlərin xəbərdar edilməsi və ekspert profilaktikası istiqamətində elmi araşdırmalar aparmışdır.

İdris Əli oğlu Əliyev hesab edirdi ki, məhkəmə ekspertizasının ümumi nəzəriyyəsi aşağıdakı hissələrdən ibarət olmalıdır: ümumi nəzəriyyənin metodoloji əsasları; ekspert fəaliyyətinin obyektləri, subyektləri və məsələləri; ekspert fəaliyyətinin strukturunda metod və metodikalar; məhkəmə ekspertizasının infrastrukturu və prosessual funksiyası; məhkəmə ekspertizasının fərdi nəzəriyyəsi. O, hər bir hissənin ayrılıqda strukturunu da təklif edirdi. İ.Ə.Əliyevin bu konsepsiyası bir sıra rus kriminalistləri tərəfindən də qəbul edilirdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyul 1991-ci il tarixli 239 saylı qərarı ilə Azərbaycan ETMEİ-nin bazasında Azərbaycan Elmi-Tədqiqat

Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu yaradıldı. Hal hazırda bu qurum Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi adlanır.

Son vaxtlar MEM-də kriminalistikanın nəzəri və metodoloji problemləri ilə əlaqədar tədqiqatlar aparılır.

Hal-hazırda MEM-ə tanınmış alim, hüquq elmləri doktoru F.M.Cavadov rəhbərlik edir. O, Mərkəzin müasir tələblər səviyyəsində fəaliyyət göstərməsinə, yeni elmi-texniki vasitələrlə təminatına geniş yer verir və məhkəmə ekspertizası nəzəriyyəsinin ən aktual problemləri ilə bağlı tədqiqatlar aparır.

Hələ 1930-cu illərin ortalarında keçmiş milis idarələrinin nəzdində kriminalistika laboratoriyası yaradılmışdı. Sonralar daxili işlər idarələrinin strukturunda müxtəlif ekspertizaların keçirilməsi üçün elmi-texniki şöbələr fəaliyyət göstərmişdir.

1981-ci ildən Azərbaycan Respublikası DİN nəzdində ekspert kriminalistika şöbəsi (EKŞ) fəaliyyətə başlamışdır.

18 may 1992-ci ildə Azərbaycan Respublikası DİN-in əmri ilə Ekspert-Kriminalistika İdarəsi (EKİ) yaradıldı.

Həmin vaxtdan etibarən BBPİ-də, Sumqayıt, Gəncə şəhər daxili işlər idarələrində, Naxçıvan MR DİN-də ekspert- kriminalistika şöbə və bölmələri EKİ-nin tabeliyində fəaliyyət göstərmişdir.

EKİ təşkil olunduqdan sonra bir sıra yeni növ ekspertiza tədqiqatları da aparılmağa başlanmışdır. İdarədə 20 növə yaxın ekspertiza tədqiqatları aparılmışdır.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 30 iyun 2001-ci il tarixli "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq

edilməsi haqqında” Fərmanı ilə həmin idarə Kriminalistik Tədqiqatlar İdarəsi (KTİ) adlandırılmışdır.

Azərbaycan Respublikasında kriminalistika elminin inkişafında mühüm xidmətləri olmuş professor K.Q.Sarıcalinskayanın rəhbərliyi altında 1980-ci illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində “Kriminalistika və məhkəmə ekspertizası” kafedrasının təşkil edilməsi bu sahədə dönüş yaratdı.

Hələ 1975-ci ildə K.Q.Sarıcalinskayanın C.H.Mövsümovla birlikdə Azərbaycan dilində nəşr etdirdiyi “Kriminalistika texnikası” kitabının dərs vəsaiti kimi elmin inkişafında və tədris olunmasında böyük rolunu xüsusilə qeyd etmək vacibdir.

BDU-nun “Kriminalistika və məhkəmə ekspertizası” kafedrasında elmin mükəmməl şəkildə tədris olunması ilə bərabər, elmi-tədqiqat işləri də aparılır.

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında 1992-ci ildə “Kriminalistika” kafedrası yaradıldı. Hələ 1950-ci ildə milis məktəbində tsikllər formalaşmışdı. Bu tsikllərin hər birində kiçik şuralar yaradılmışdı. “Hüquq fənləri” tsiklinin doqquz üzvü var idi. Hüquq tsiklində “Kriminalistika” fənni tədris olunurdu.

Hal-hazırda “Kriminalistika” fənninin tədris edilməsinin müdavim və dinləyicilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində mühüm rolu vardır. “Kriminalistika” kafedrasında yaradıldığı gündən etibarən tədrisin keyfiyyətini artırmaq və müasir dövrün tələblərinə uyğun ixtisaslı polis kadrlarının hazırlanması məqsədilə Azərbaycan dilində fənn üzrə çoxlu tədris vəsaitləri hazırlanmış, elmi məqalələr dərc edilmiş və elmi-tədqiqat işləri aparılmışdır.

Qeyd etmək lazımdır ki, “Kriminalistika” elmi daim inkişafda olan bir sahədir. Hazırkı dövrdə cinayətkarlıqla mübarizənin daha mütəşəkkil aparılması üçün

kriminalistikanın metod və vasitələrinin daimi təkmilləşdirilməsi tələb olunur. Ona görə də ölkəmizdə “Kriminalistika” elminin inkişafını müasir tələblər səviyyəsinə yüksəltmək məqsədilə, bu istiqamətdə qabaqcıl dünya təcrübəsini öyrənmək və təhlil etmək əsas amillərdən biridir.

### *Sual 3. Kriminalistika elminin sistemi və metodları*

Kriminalistika elminin sistemi 4 hissədən ibarətdir:

1. Kriminalistikanın ümumi nəzəriyyəsi.
2. Kriminalistik texnika.
3. Kriminalistik taktika.
4. Ayrı-ayrı növ cinayətlərin araşdırma metodikası (kriminalistik metodika).

Kriminalistikanın nəzəri və metodik əsasları hissəsinə aiddir: kriminalistikanın sistemi, vəzifələri, metodik əsasları, onun inkişafının əsas istiqamətləri və kriminalistik eyniləşdirmənin əsasları.

Kriminalistik texnika ibtidai istintaq, təhqiqat və məhkəmə orqanları tərəfindən maddi sübutların toplanması və tədqiq olunmasında, kriminalistik ekspert idarələrində tədqiqat məqsədləri üçün istifadə olunan texniki vasitə və metodların sistemi deməkdir.

Kriminalistik texnika hissəsinə aiddir:

a) *texniki vasitələr*, müxtəlif aparatlar, alətlər, materiallar və s.;

b) *texniki üsullar* – bu, maddi sübutların toplanması üsulları deməkdir. Məsələn, görünməyən əl-barmaq izlərinin aşkar edilməsi üsulları, müxtəlif izlərin götürülməsi üsulları və s.;

c) *sübutların tədqiqat metodikası*. Buna müxtəlif tədqiqatların mahiyyəti və xarakteri haqqında tövsiyələr, həmçinin kriminalistik və digər ekspertizalar aiddir.

*Kriminalistik taktika* – bu, kriminalistikanın mühüm bir sahəsi olub, ədalət mühakiməsi vəzifələrinin səmərəli yerinə yetirilməsi məqsədilə cinayət-prosessual qanunvericiliyinə ciddi riayət etmək yolu ilə məntiq və psixologiya elmlərinin müddəaları, habelə istintaq təcrübəsinin ümumiləşdirilməsi əsasında ibtidai istintaqın və məhkəmə baxışının plana uyğun təşkilindən, istintaq və məhkəmə hərəkətlərinin, habelə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin taktiki üsullarından bəhs edir.

*Taktiki üsul* – bu, ibtidai və məhkəmə istintaqının səmərəli, məqsədyönlü və effektiv aparılması qaydaları, həmçinin istintaq hərəkətləri aparan şəxsin davranış qaydaları deməkdir. Cinayətin istintaqı zamanı müxtəlif istintaq hərəkətləri keçirilir. İstintaq baxışı, eksperiment, tutulma, götürmə, tanınmaya təqdim etmə və s. hər bir istintaq hərəkətinin keçirilməsində kriminalistik taktiki üsullardan istifadə olunur. Effektiv nəticə əldə etmək üçün taktiki üsulların müstəntiq tərəfindən düzgün tətbiq olunmasından çox şey asılıdır. Belə bir nəticəyə gəlmək olar ki, kriminalistik taktika və texnika bir-biri ilə sıx əlaqədardır.

*Ayrı-ayrı cinayətlərin araşdırma metodikası* – bu, elmi müddəalar sistemi olub və onlar əsasında araşdırmanın təşkili, həyata keçirilməsi məqsədi ilə hazırlanan tövsiyələr sistemidir. Cinayətlərin qarşısını almaq üçün kriminalistik texnikanın və taktikanın üsulları bilavasitə istintaqın metodikasında nəzərə alınır. İstintaq və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini istintaq metodikası müəyyənləşdirir. Bir sözlə, istintaq metodikası konkret cinayətlərin araşdırılmasında istintaq

hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin ardıcıllığının və xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan yaradır.

Kriminalistikanın bu hissəsi cinayət qanunvericiliyində nəzərdə tutulmuş cinayətlərin araşdırma metodikasını özündə cəmləşdirir. Onların təsnifatı cinayət qanunvericiliyinə əsaslanır. Məsələn, oğurluq, soyğunçuluq, quldurluq, qəsdən adam öldürmə, zorlama, saxta pul hazırlama, təbiəti mühafizə qaydalarının pozulması, şəxsiyyətin həyatı və sağlamlığı əleyhinə cinayətlər, vəzifə cinayətləri və s. Bundan əlavə, ayrı-ayrı cinayətlərin araşdırma metodikası cinayətlərin kriminalistik xarakteristikasına görə də fərqlənir. Çünki hər bir cinayətin törədilməsi şəraiti, üsulu müxtəlifdir. Cinayətlərin kriminalistik xarakteristikasına görə onları ayrı-ayrı qruplara bölmək olar. Qeyd etmək lazımdır ki, kriminalistikanın əsas vəzifələrindən biri də cinayətlərin kriminalistik xarakteristikasının ayrı-ayrı elementlərini cəmləşdirərək, cinayətin istintaqını təmin etməkdir. Cinayətin kriminalistik xarakteristikası əsasında istintaq fərziyyələri, planlaşdırma, ayrı-ayrı istintaq hərəkətlərinin keçirlməsi və onların ardıcıllığı müəyyənləşdirilir, istintaqın ilkin və sonrakı mərhələlərində görüləcək işlər planlaşdırılır.

Araşdırma metodikası cinayət və cinayət-prosessual qanunvericiliyin normalarına əsaslanaraq həyata keçirilir.

Cinayətlərin araşdırma metodikası kriminalistikanın müstəqil hissəsi olub, istintaq təcrübəsində əldə edilmiş nailiyyətlərə, cinayət və cinayət-prosessual qanunvericiliyin normalarına əsaslanaraq, cinayətin açılmasını, qarşısının alınmasını və əsasən cinayətin istintaqının obyektiv, vaxtında, hərtərəfli və səmərəli həyata keçirilməsini təmin edir.

Kriminalistik metodika kriminalistikanın başqa hissələri olan kriminalistik texnika və taktika ilə sıx bağlıdır. Məsələn, kriminalistik texnika izləri aşkar edib qeyd edir, metodikada isə onların maddi sübut kimi istifadə olunması məsələsi həll olunur. Kriminalistik taktika isə ayrı-ayrı istintaq hərəkətlərinin həyata keçirilməsi üsullarını müəyyənləşdirir və onlardan cinayətin istintaqında istifadə olunur. Cinayətlərin qarşısının alınması kriminalistika elminin predmetinin əsasını təşkil edir. Başqa hüquq elmlərindən fərqli olaraq kriminalistikanın bu aktual problemə münasibəti daha böyükdür. Cinayətlərin qarşısını almaq daxili işlər orqanlarının əsas vəzifəsidir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsində deyilir ki, "Təhqiqat aparan şəxs, müstəntiq, prokuror və məhkəmə cinayətin baş verməsinə kömək etmiş halların aydınlaşdırılması və bu halların aradan qaldırılması üçün tədbirlər görməlidirlər". Gələcəkdə biz kriminalistikanın digər mövzularında bu aktual sual üzərində ayrıca dayanacağıq.

Başqa elmlər kimi kriminalistika da müəyyən elmi metodlar tətbiq etməklə öz vəzifələrini həll edir. Metod, həqiqətə yanaşma, dərk etmə, təbiətin və ictimai həyatın öyrənilməsi, tədqiqi, hər hansı məqsədə çatmaq vəzifələrinin həlli üsullarıdır.

Kriminalistikanın metodları iki qrupa bölünür: ümumi və xüsusi.

Ümumi metodlar aşağıdakılardır:

- tədqiq etmə;
- ölçmə;
- təsvir etmə;
- müqayisə etmə;
- eksperiment.

Bu metodlar kriminalistikada olduğu kimi, başqa elmlərdə də istifadə olunur.

*Tədqiq etmə* – bu, hər hansı hadisənin və obyektin məqsədyönlü öyrənilməsidir. Məsələn, hadisə yerinin şəraitinin öyrənilməsi və qeyd edilməsi üçün müstəntiq hadisə yerinə baxış keçirir. Kriminalistik tədqiqatın obyektləri təkcə əşyalar yox, həm də insanlar, hadisələr və s. ola bilər.

*Ölçmə* – bu metod hər hansı obyektin, cismin ölçüləri və onlar arasında olan əlaqəni xarakterizə edir. Kriminalistikada ölçmə obyektlərin, əşyaların müxtəlif xüsusiyyətlərini - miqdar, çəki, hərarət və həcmini göstərir. Məsələn, məhkəmə-tibbi eksperti meyitin bədən temperaturunu və ətrafdakı havanın temperaturunu ölçüb, ölümün dəqiq vaxtını müəyyən edir, bu da cinayətin açılmasında mühüm amillərdən biri sayılır.

*Təsvir etmə* – bu, obyektlərin əlamətlərini göstərməkdir. Məsələn, obyektin ölçüsü (böyük, balaca) forması, rəngi və s. Təsvir etmədə bəzi obyektlərin əlamətləri tam, bəzilərində isə qismən göstərilir. Məsələn, divardan asılan tablonun cinayət işinə heç bir aidiyyəti yoxdursa, müstəntiq hadisə yerinə baxış zamanı onun əlamətlərini protokolda ətraflı təsvir etmir, ancaq həmin tablo cinayətin obyekti olduqda isə müstəntiq onun bütün əlamətləri - forması, rəngi, mövzusu, harada və kim tərəfindən yerinə yetirilməsi və s. barədə məlumatları protokolda təsvir etməlidir.

*Müqayisə etmə* – bu, eyni vaxtda iki eyni növ obyektlərin xüsusiyyətlərinin və əlamətlərinin tədqiq edilməsidir. Müqayisəli tədqiqatda faktlar, əşyalar, hadisələr və s. tədqiq oluna bilər. Məsələn, hadisə yerindən götürülmüş əl-barmaq izlərinin şübhəli şəxsin əl-barmaq izləri ilə müqayisə edilməsi, hadisə yerində tapılmış giliz üzərindəki izlərlə təqsirləndirilən şəxsdən

götürülmüş silahdan eksperimental olaraq atılan giliz üzərindəki izlərin müqayisə edilməsi.

*Eksperiment* – bu, kriminalistikada xüsusi elmi metodlardan biridir. Eksperimentdə tədqiq olunan obyektin, hadisənin mahiyyəti, yaranma mexanizmi və metodları müəyyənləşdirilir. "Eksperiment" latın sözü olub ″sınaq″ deməkdir.

Xüsusi kriminalistik metodlar. Xüsusi kriminalistik metodlar kriminalistikada metodlar sisteminin ikinci qrupunu təşkil edir. Xüsusi metodlar başqa elmlərdə deyil, ancaq kriminalistikada istifadə olunur. Xüsusi kriminalistik metodlar daha iki qrupa bölünür: 1) texniki - kriminalistik metodlar; 2) struktur - kriminalistik metodlar.

Texniki - kriminalistik metodlar – kriminalistika texnikası sahəsində istifadə olunur. Bunlara fotoqrafiyada , trasologiyada, məhkəmə ballistik, xətşünaslıq ekspertizasında və başqa sahələrdə tətbiq olunan elmi tədqiqat metodları aiddir. Struktur kriminalistik metodlar kriminalistik taktika və metodika sahəsində istifadə olunur.

Struktur-kriminalistik metodlar - bu, kriminalistikada müəyyən struktur-kriminalistik metodların qurulması deməkdir. Bunlara istintaqın planlaşdırılması, taktiki üsulların, ayrı-ayrı cinayətlərin istintaq metodikasının əsas elementləri aiddir.

Kriminalistikada qeyd olunan xüsusi metodlardan başqa, digər sahəvi elmlərin metodlarından da istifadə olunur. Bu metodlar kriminalistikanın inkişaf prosesi ilə əlaqədar olaraq təkmilləşir və inkişaf edir.

Fiziki və kimyəvi metodlar – bu metodlar kriminalistikada geniş istifadə olunur. Bunlara molekulyar, spektroskopik, rentgen struktur analizi, xromotoqrafik, polyaroqrafik analiz və başqaları aiddir.

Antropoloji və antropometroloji metodlar – meyitin şəxsiyyətinin onun sümük qalıqlarına görə müəyyən edilməsində, şifahi və sintetik portretlərin hazırlanmasında istifadə olunur. Məsələn, kəllə sümüyünə əsasən sifətin bərpa edilməsi və s. Demək olar ki, bu metodun inkişafı kriminalistika elminin ümumi inkişafı ilə sıx bağlıdır.

Sosioloji metodlar – bu metodlardan istifadə edilərək, cinayətin törədilməsinə kömək göstərən səbəb və şəraitlər, cinayətin gizlədilməsi, onun törədilməsi üsulları sosioloji tədqiqat və anketləşdirmə metodları ilə müəyyənləşdirilir.

Kibernetik metod – kriminalistikada kibernetik metod aşağıdakı istiqamətlərdə istifadə olunur:

a) müxtəlif obyektlər haqqında məlumatların toplanması və onların ilkin avtomatlaşdırılması;

b) ilkin məlumatların işlənməsində avtomatik qurğulardan və elektron hesablayıcı maşınlardan istifadə olunması;

c) məlumatların kodlaşdırılmasının avtomatlaşdırılması və onların elektron hesablayıcı maşınlara ötürülməsinin təmin edilməsi;

ç) sübutetmə prosesinin riyazi modellə tədqiq edilməsi.

Demək olar ki, kriminalistikada yeni metodlar əsasən 3 istiqamətdə hazırlanır.

I istiqamət – kriminalistika elmində mövcud metodlar bazası əsasında əldə olunmuş metodları inkişaf etdirmək və yeni metodlar hazırlamaq. Məsələn, kriminalistika təcrübəsində izlərin surətini götürmək üçün istifadə olunan polimer metallar istintaq təcrübəsi üçün böyük əhəmiyyətə malikdir. Bu üsulla lülə kanalının surətini çıxartmaq məhkəmə-ballistik tədqiqat üçün böyük əhəmiyyət kəsb edir.

II istiqamət – başqa elmlərin metodlar bazası əsasında formalaşır. Məsələn: fizika, riyaziyyat, biologiya, kimya və s.

III istiqamət – isə I və II istiqamətlərin birləşməsindən irəli gələrək həyata keçirilir.

Mövcud və yeni əldə edilmiş kriminalistik elmi tədqiqat metodlarını qiymətləndirmək üçün aşağıdakı meyarlardan istifadə olunur:

a) metodun elmi əsaslılıgı, yəni kriminalistik tədqiqatlar üçün istifadə olunan metodların elmi əsası yoxdursa, onlardan istifadə etmək qeyri-mümkündür;

b) metodun effektivliyi - istifadə olunan metod qoyulmuş məqsədə nail olunmasını təmin etməlidir;

c) metodun təhlükəsizliyi, yəni tətbiq edilən metod, tədqiqat aparan şəxsin və başqa şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaratmamalıdır;

ç) metodun tətbiq edilməsi mümkünlülüyü.

Kriminalistik tədqiqatlarda tətbiq edilən hər hansı bir metod etik normalara zidd olmamalıdır.

Başqa elmlərin metodlarından fərqli olaraq kriminalistik metodlar cinayətkarlığa qarşı mübarizədə istifadə olunur və onlar cinayət və cinayət - prosessual qanunvericiliyin normalarının tələblərinə müvafiq olaraq həyata keçirilir.

Hər hansı bir metodun effektivliyi və qiyməti maddi sübutların aşkar olunmasında və qeyd edilməsində, təbqiqində özünü göstərə bilir.

# Mövzu 2:

## *Kriminalistik eyniləşdirmə*

PLAN:

1. Kriminalistik eyniləşdirmənin anlayışı, mahiyyəti, növləri və elmi əsasları.
2. Qrup mənsubiyyətinin müəyyən edilməsinin mahiyyəti.
3. İstintaq hərəkətlərinin keçirilməsində və maddi sübutların tədqiqində kriminalistik eyniləşdirmənin tətbiq edilməsi.

### *Sual 1. Kriminalistik eyniləşdirmənin anlayışı, mahiyyəti, növləri və elmi əsasları*

Görkəmli kriminalist, professor S.M.Potapovun 1940-cı ildə yazdığı "Kriminalistik eyniləşdirmənin prinsipləri" adlı əsərindən sonra bu problemlə bağlı məsələlər kriminalist hüquqşünas alimlərin həmişə diqqət mərkəzində olmuşdur.

Kriminalistlərin eyniləşdirmə problemlərinə böyük marağı onunla bağlıdır ki, eyniləşdirmə istər cinayət, istərsə də mülki işlər üzrə sübutetmə prosesində xüsusi

rol oynayır. Artıq kriminalistik eyniləşdirmə cinayət və mülki işlər üzrə obyektiv həqiqətin müəyyən olunmasında, bu və ya digər faktların varlığını və ya yoxluğunu sübut edən elmi üsula çevrilmişdir. İstintaq və məhkəmə təcrübəsində tez-tez obyektlərin eyniləşdirilməsi ilə əlaqədar istintaq hərəkətləri yerinə yetirilir. Məsələn, şəxsin, meyitin və ya hər hansı bir əşyanın eyniləşdirilməsi. Ən çox isə eyniləşdirmə ilə əlaqədar kriminalistik ekspertizalar təyin olunur.

Ekspert-kriminalistlər tərəfindən eyniləşdirmə aparılaraq, cinayətlərin açılması və təqsirli şəxsin ifşa edilməsi üçün cinayət işində həlledici əhəmiyyətə malik rəylər verilir.

Kriminalistik eyniləşdirmə haqqında təlim kriminalistika elmi üçün ümumi nəzəri əhəmiyyətə malikdir. Eyni zamanda, onun cinayət prosesinin sübutetmə nəzəriyyəsi üçün də böyük əhəmiyyəti vardır. Kriminalistik eyniləşdirmə araşdırma zamanı bütün sübutetmə mərhələlərində öz təcrübi tətbiqini tapır, yəni bütün sübutetmə mərhələlərində ona ehtiyac duyulur və ondan geniş istifadə edilir.

Müasir dövrdə kriminalistik eyniləşdirmə nəzəriyyəsi dedikdə, biz məhkəmə sübutları əldə etmək üçün maddi obyektlərin, onların əkslərinə görə ümumi prinsiplər əsasında eyniləşdirilməsi barədə təlim başa düşürük.

Bu nəzəriyyə fəlsəfi dərketmə nəzəriyyəsinin kateqoriyaları olan: eynilik, müxtəliflik, fərdilik, davamlılıq, xassə, əlamət kimi kateqoriyalara istinad edərək, onlara əsaslanır.

Maddi aləmin gerçəkliyinin dərk edilməsi prosesi zamanı eyniləşdirmə xüsusi yer tutur.

Məntiqi aspektdə götürsək, istənilən obyektin, predmetin dərk edilməsi eyniləşdirmə prosesi ilə həyata keçirilir.

Öz istiqamətinə və sübutetmə əhəmiyyətinə görə kriminalistik eyniləşdirmə müxtəlif ola bilər. Giliz üzərində olan izlər üzrə silahı müəyyən etmək olur. Hadisə yerindən götürülmüş əl-barmaq izlərinə əsasən onu qoyan şəxsi müəyyənləşdirib və bununla da həmin şəxsin hadisə yerində olması sübuta yetirilir. Hadisə yerində qalmış avtomaşının fara şüşəsinin qırıqlarının şübhəli şəxsin avtomaşının farasının qalıq hissəsi ilə tamlıq təşkil etməsi müəyyən edilir. İtkin düşmüş şəxsin kartoçkası ilə tanınmayan meyitin xarici əlamətlərini müqayisə etmə yolu ilə onun şəxsiyyəti müəyyənləşdirilir.

Dialektik eyniləşdirmə haqqında materialist təlim – hər bir maddi aləmin obyektinin fərdiliyinə, təkrar - olunmazlığına əsaslanır. Bu isə o deməkdir ki, maddi aləmin hər bir obyekti təkrarolunmaz, fərdi, yalnız özü ilə eyni olan və ona oxşar obyektlərdən fərqlənən obyektdir.

Kriminalistik eyniləşdirmə – iş üzrə həqiqəti müəyyən etməyə kömək edən bir vasitədir.

Kriminalistik eyniləşdirmə haqqında təlimin kriminalistika elmində böyük nəzəri və təcrübi əhəmiyyəti vardır. Eyniləşdirmə, sübutların toplanması, istintaq və məhkəmə orqanlarının fəaliyyətində və bu məqsədlə aparılan müxtəlif növ kriminalistik ekspertizaların aparılmasında tətbiq edilir.

Eyniləşdirmə prosesində izi qoyan obyektin müəyyən edilməsi məqsədilə izdə əks olunan əlamətlər ehtimal olunan izi qoyan obyektin əlamətləri ilə müqayisə edilir.

Eyniləşdirmə istintaqı aparılan cinayət hadisəsi ilə bağlı obyektlərin eyniyyət məsələsini və hadisə ilə bağlı əlaqəsini müəyyən etmək məqsədi ilə aparılan müqayisəli tədqiqatdır.

Obyektin eyniliyi dedikdə, hər şeydən əvvəl, həmin obyekti xarakterizə edən əlamətlərin başqa obyektlərdə,

o cümlədən ona oxşar, yaxud həmin növ və ya cinsdən olan obyektlərdə təkrar olunması və bunlardan fərqlənməsi başa düşülür.

Kriminalistik eyniləşdirmə nəzəriyyəsi aşağıdakılardan ibarətdir:

- xüsusi nəzəriyyə;
- eyniliyin müəyyənləşdirilməsi prosesi;
- dərketmə metodu;
- obyektlərin bir-birinə bağlılığının müəyyənləşdirilməsi faktı.

Kriminalistik eyniləşdirmənin metodoloji əsasları:

- fərdilik;
- nisbi davamlılıq;
- obyektlərin bir-biri ilə əlaqəsi.

Eyniləşdirmənin obyektləri:

1) subyektinə görə:
   - müstəntiq;
   - ekspert;
   - hakim;
   - əməliyyat müvəkkili.
2) obyektinə görə:
   - sənədlər;
   - əşyalar;
   - canlı şəxslər;
   - heyvanlar.
3) əksetmə xarakterinə görə:
   - maddi qeyd olunmuş şəxsə görə;
   - fikri obraza görə;
   - təsvirə görə;
   - ümumi əmələ gəlmə əlamətlərinə görə.

Eyniləşdirmə prosesində 2 obyekt iştirak edir:

a) eyniləşdirən;
b) eyniləşdirilən.

Eyniləşdirmə prosesində müəyyən edilməli olan obyekt eyniləşdirilən obyekt adlanır.

Eyniləşdirilən obyektin müəyyən edilməsi üçün vasitəçi rolunu oynayan obyektlərə isə eyniləşdirən obyekt deyilir.

Kriminalistik eyniləşdirmə haqqında təlimin kriminalistika elmində böyük nəzəri və təcrübi əhəmiyyəti vardır. Eyniləşdirmə məhkəmə sübutlarını tədqiq etmək məqsədilə istintaq, təhqiqat və məhkəmə orqanlarının fəaliyyətində və bu məqsədlə aparılan müxtəlif növ kriminalistik ekspertizalarda tətbiq edilir.

Beləliklə, kriminalistik eyniləşdirmə–araşdırılan hadisənin hazırlanması, törədilməsi, gizlədilməsi zamanı maddi aləmin obyektlərinin şəraitlə və digər obyektlərlə qarşılıqlı təsiri nətijəsində yaranmış əkslərin uyğunlaşdırılması məqsədi ilə istifadə olunan prinsiplər, elmi cəhətdən əsaslandırılmış metodlar və vasitələr sisteminə deyilir.

Kriminalistik eyniləşdirmə heç də müxtəlif obyektlərə xas olan bütün xüsusiyyətlərə və əlamətlərə əsaslanmır. Eyniləşdirmə aparılarkən obyektin xarici formasının fərdiliyinin böyük əhəmiyyəti vardır. Eyniləşdirilən obyekti müəyyən etmək üçün onun maddi əksdə, yaxud izdə qoyduğu əlamətlər müəyyən qərara gəlmək üçün kifayət qədər olmalıdır. Maddi obyektlərin eyniliyinin müəyyən edilməsindən fərqli olaraq qrup mənsubiyyətinin müəyyən edilməsi ümumi eyniləşdirmə əlamətləri əsasında aparılır.

Hadisələrin və proseslərin vəziyyətinin öyrənilməsində kriminalistik diaqnostika mühüm əhəmiyyət kəsb edir.

Kriminalistik diaqnostikanın ümumi vəzifəsi obyektiv həqiqətin müəyyən edilməsi, obyektlərin (hadisələrin)

xüsusiyyətlərini, vəziyyətlərini öyrənməkdən, izah etməkdən ibarətdir.

Eyniləşdirmə və diaqnostikanın məqsədləri ümumi olsa da (törədilmiş cinayət hadisəsi ilə bağlı sübutları müəyyən etmək), onların həll etdikləri vəzifələrin mahiyyəti müxtəlifdir. Eyniləşdirmə zamanı söhbət fərdi obyekti müəyyən etməkdən, ikinci halda isə hadisənin baş verdiyi konkret şəraiti müəyyən etməkdən gedir. Hər iki məsələ bir-biri ilə sıx əlaqəlidir. Belə ki, izlərin yaranma şəraitinin müəyyən edilməsi bütün hallarda obyektin həmin izlərə görə eyniləşdirilməsi ilə müşayiət olunur.

Diaqnostik tədqiqat prosesində hadisələrin baş vermə səbəbləri, mexanizmi, obyektlərin xüsusiyyətləri haqqında müəyyən nəticələrə gəlmək mümkündür. Məsələn, yol-nəqliyyat hadisəsi zamanı mövcud izlərin kompleks diaqnostik təhlili vasitəsi ilə nəqliyyat vasitələrinin toqquşduğu ana qədərki surətlərini, hərəkət istiqamətini, toqquşma yerlərini, hərəkət trayektoriyalarını, sonrakı yerdəyişmələrini və s. müəyyən etmək olur.

Eyniləşdirilən obyektlərin - onların izlərinə, yaxud digər əkslərinə görə müəyyən edilməsi, yuxarıda qeyd etdiyimiz kimi həmin obyektlərin fərdiliyinə və nisbi sabitliyinə əsaslanır. Hətta kütləvi şəkildə standarta müvafiq istehsal olunan əşyalar (məmulatlar) özlərinin bir sıra xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Bu kimi fərdi əlamətlər əşyanın həm istehsalı, həm də istismarı prosesində əmələ gəlir. Lakin hər bir əşya göstərilən fərdi xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də ümumi əlamətlərə malikdir. Bu baxımdan eyniliyi oxşarlıqdan fərqləndirmək lazımdır. Məlumdur ki, eyni cinsdən, yaxud eyni növdən olan əşyaları bir-birinə yaxınlaşdıran bir sıra ümumi oxşar cəhətlər vardır. Lakin bu, əşyaların eyni

olması demək deyildir. Eyniləşdirmə prosesinin vəzifəsi belə oxşarlığı deyil, obyektin eyniliyini müəyyən etməkdir.

Eyniləşdirmə obyektlərinin sabitliyini nəzərə almaq lazımdır. Çünki, obyektlərin fərdiliyi, nisbi sabitliyi həmin obyektlər üzrə eyniləşdirmə aparılmasına imkan verən mühüm şərtlərdəndir. Obyektlərin sabitliyi nisbi xarakter daşıyır və konkret şəraitdən asılı olaraq müxtəlif dərəcədə dəyişikliyə uğrayır. Eyniləşdirmə obyektlərinin xarakterindən və xassələrindən asılı olaraq onların sabitlik dərəcəsi də müxtəlif olur. Bu mülahizədən sonra belə bir nəticəyə gəlmək olur ki, bir qrup obyekt nisbi sabit, digər qrup obyekt az sabit xassəyə malik olur. Məsələn, kriminalistik eyniləşdirmənin obyekti olan əlin ovucunda və barmaqlar üzərindəki papilyar naxışlar daha çox sabit xassəyə malikdir. İnsan anadan olandan ölənədək həmin papilyar xətlər nisbi dəyişkən qalır. Papilyar xətlərin sabitliyi dəri örtüyünün funksiyası və anatomik quruluşunun xüsusiyyəti ilə izah olunur. Dəri örtüyünün qoruyucu funksiyası papilyar xətləri mexaniki, termik və digər xarici təsirlərdən qoruyur və beləliklə, papilyar xətlərin nisbi sabitliyini təmin etmiş olur. Hətta papilyar xətlər yüngül xəsarət aldıqda, yaxud müxtəlif alətlər vasitəsilə müəyyən zədəyə məruz qaldıqda belə, bir müddətdən sonra bərpa olunur və əvvəlki vəziyyətini alır.

Nisbətən az sabitlik xassəsinə malik eyniləşdirmə obyektlərinə yazı xəttini misal gətirmək olar. Yazı xətti şəxs tərəfindən qəsdən, xarici, psixoloji, fiziki, sərxoşluq, xəstəlik, icra edənin vəziyyəti və s. kimi başqa amillərin təsiri nəticəsində dəyişilə bilər. Adətən, həmin dəyişikliklər yazı xəttinin sabitliyini tam deyil, qismən dəyişir. Belə hallarda yazı xəttinin sabitlik əlamətləri qalır və eyniləşdirmə prosesinin həyata keçirilməsi üçün kifayət edir. Yumşaq materialdan hazırlanmış məmulatlar

kriminalistik eyniləşdirmənin obyekti kimi az sabitlik xassəsinə malik olur. Çünki mütəmadi istismar nəticəsində onlar sabitliyin bəzi əlamətlərini itirər ki, bu da eyniləşdirmənin aparılması üçün kifayət etmir.

Beləliklə, obyektlərin sabitlik dərəcəsindən asılı olaraq müxtəlif xarici təsirlər nəticəsində onlarda olan ilk əlamətlər öz keyfiyyətini itirir. Bəzən bu əlamətlər o dərəcədə keyfiyyətini itirir ki, eyniləşdirmə aparmaq belə mümkün olmur. Eyniləşdirilən obyektlərin ilk əlamətlərində dəyişikliklər işin açılmasında marağı olan şəxslər tərəfindən qəsdən, yaxud kənar şəxslər tərəfindən təsadüfən də edilə bilər. Elə bu səbəbdən eyniləşdirmə aparan şəxs eyniləşdirmə obyektlərinin nə kimi dəyişikliklərə məruz qala bilməsini müəyyən etməli və istintaq prosesində bunu nəzərə almalıdır.

Kriminalistik eyniləşdirmənin mühüm şərtlərindən biri də eyniləşdirilən obyektlərin eyniləşdirmə əlamətlərinin özündə əks etdirmək qabiliyyətinə malik olmasıdır.

Eyniləşdirilən obyekt onun qoyduğu maddi əkslərə əsasən müəyyən edilir və bu maddi əkslər isə müxtəlif formada ola bilər. Belə maddi əkslər iz şəklində ayrı-ayrı predmetlərdə, insanın bu və ya digər vərdişi şəklində, cinayətkarın, yaxud ayrı-ayrı əşyaların fotoşəkillərində, əşyanı və ya cinayətkarı müşahidə edən şəxsin həmin əşya və ya cinayətkar haqqında təsəvvürü şəklində ifadə oluna bilər.

Beləliklə, eyniləşdirmə iki üsulla: birincisi, insanın yaddaşına, yaxud təsəvvürünə görə obyektin eyniliyinin müəyyən edilməsi; ikincisi, qoyduğu maddi əksə görə (əl, barmaq, ayaq izləri, sındırma alət izləri və s.) onun eyniləşdirilməsi ilə aparıla bilər.

Eyniləşdirilən obyektin onu müşahidə edən şəxsin təsəvvürünə görə əldə edilən məlumatlar əsasında

müəyən edilməsi, şəxsin həmin obyekti nə dərəcədə qavraması, yadda saxlaması və onu sonradan təsəvvüründə canlandırması kimi psixi proseslərin tədqiq edilməsini tələb edir. Belə tədqiqatlar texniki xarakter daşımadığı üçün dindirilmənin, tanınma üçün təqdim etmənin və digər istintaq hərəkətlərinin taktiki üsulları əsasında aparılır.

Eyniləşdirilən obyektlərin qoyduqları maddi əkslərə, yəni onların izlərinə, yaxud foto şəkillərinə, yaxud insanın bu və ya digər vərdişinə əsasən eyniləşdirilməsi elmi-texniki üsul və vasitələrin tədbiq edilməsini tələb etdiyi üçün, belə tədqiqatlar mütəxəssislər tərəfindən aparılır.

Eyniləşdirilən obyektlərin qoyduğu maddi əkslərin hansı formada ifadə olunmasından asılı olmayaraq, eyniləşdirmə üçün bunların əhəmiyyəti onunla izah olunur ki, həmin əkslər adətən, onu yaradan obyektin xarici quruluşunun bir sıra xarakterik xüsusiyyətlərini özündə əks etdirir.

Eyniləşdirilən obyektin müəyyən edilməsində onun xarici quruluşunun xarakterik xüsusiyyətinin izdə nə dərəcədə əks olunmasının həlledici əhəmiyyəti vardır. İzin yaranma mexanizmindən və şəraitindən, habelə izi qoyan və üzərində iz qalan obyektlərin xassələrindən asılı olaraq müxtəlif keyfiyyətdə özündə əks etdirmə qabiliyyətinə malikdir.

Başqa bir misal: adi torpaqda iz onu xarakterizə edən mühüm əlamətləri bir qayda olaraq özündə əks etdirmə qabiliyyətinə malikdirsə, narın qumda qalan belə izlər əsasən keyfiyyətsiz olur. Çünki narın qum həddən artıq səpələnmə xassəsinə malik olduğu üçün ayaqqabı izi əmələ gələrkən, nəinki onun xarakterik əlamətləri, hətta ümumi ölçüsü belə düzgün əks olunmur və belə izlər əksər hallarda eyniləşdirmə üçün yararsız olur, yaxud pardaxlanmış, nikkelləşmiş, habelə səthi hamar

olan digər əşyaların səthində papilyar xətlər açıq-aydın əks olunduğu halda, səthi hamar olmayan əşyalarda (dəridə, parçada, işlənmiş ağacda və s.) qalan belə izlər keyfiyyətsiz olur.

Eyniləşdirilən obyektlərin maddi əksləri, yaxud izləri bir qayda olaraq onu qoyan obyektin bütün xarakterik əlamətlərini özündə əks etdirir. Şəraitdən və izin əmələ gəlmə mexanizmindən asılı olaraq, izdə onu əmələ gətirən obyektin bəzi əlamətləri natamam əks olunur, bəzi əlamətləri isə tamamilə əks olunmur. Bir sıra hallarda isə belə əlamətlər müxtəlif variantlarda əks olunur. Məsələn, hadisə yerində cinayətkarın hərəkətini xarakterizə edən bir neçə ayyaqabı izi tapıla bilər.

Aydındır ki, belə izlər onu qoyan ayaqqabının əlamətlərini eyni dərəcədə özlərində əks etdirə bilməz. Bu izlərin bir qismi isə ayaqqabı altlığının fərdi xüsusiyyətlərini müxtəlif variantlarda özündə əks etdirə bilər (məsələn, pəncədə olan yamağın müxtəlif variantlarda izlərdə əks olunması).

Bütün bunlar göstərir ki, tədqiqat aparan kriminalist-ekspert eyniləşdirilən obyektlə yanaşı, həmin obyektin qoyduğu əkslərin əmələ gəlmə şəraitini və mexanizmini müəyyən etməyə çalışmalı və bu yolla alınan məlumatlardan düzgün nəticə çıxartmağı bacarmalıdır.

### *Sual 2. Qrup mənsubiyyətinin müəyyən edilməsi*

Eyniləşdirmə prosesinin vəzifəsi maddi obyektlərin eyniliyini müəyyən etməkdir. Lakin yuxarıda qeyd etdiyimiz kimi, bir sıra hallarda obyektiv səbəblərdən buna nail olmaq mümkün olmur.

Bəzi eyniləşdirilən obyekti müəyyən etmək üçün onun qoyduğu maddi əksdə, yəni izdə obyekti xarakterizə edən əlamətlər müəyyən qərara gəlmək üçün kifayət

qədər olmur. İzdə ayaqqabının fərdi xüsusiyyətləri deyil, yalnız ümumi formasının əks olunması və ya mövcud izlər üzrə onun fərdi əlamətlərinin aşkar edilməsi metodunun işlənilməsi (məsələn, qana görə onun qrup mənsubiyyətinin müəyyən edilməsi), yaxud izi qoyan obyektin itməsi və ən nəhayət, bəzi obyektlərin fərdi müəyyən quruluşa malik olması (məsələn, mürəkkəb, emal, yapışqan və s.) həmin obyektlər üzrə eyniləşdirmə aparılması faktını aradan qaldırır. Bu kimi hallarda istintaq orqanları belə maddi obyektlərin qrup mənsubiyyətinin müəyyən edilməsi ilə kifayətlənməli olurlar. Qrup mənsubiyyətinin müəyyən edilməsi dedikdə, istintaqı aparılan hadisə ilə əlaqədar olan bir və ya bir neçə obyektin müəyyən məlum qrup obyektlərə aid olması başa düşülür. Maddi obyektlərin eyniliyinin müəyyən edilməsindən fərqli olaraq qrup mənsubiyyətinin müəyyən edilməsi ümumi eyniləşdirmə əlamətləri əsasında aparılır (obyektin ümumi forması, ölçüsü, markası, sistemi, buraxılışı və s.). Bu, həmçinin obyektlərin müəyyən qrup əlamətlərin və xassələrin tədqiq edilməsi yolu ilə də müəyyən edilir.

Müəyyən qrup əlamətləri həmin qrupdan olan obyektlərin hamısına aid olan əlamətlərdir. Məhz elə bu səbəbdən də həmin növ və ya cins obyektlər üçün belə əlamətlər ümumi əlamətlər sayılır. Cins, yaxud növ özü-özlüyündə şərti anlayışdır. Məsələn, növ dedikdə, bir halda ümumiyyətlə odlu silahları, başqa bir halda qısa lüləli əl silahlarını, daha başqa halda isə tapançanı başa düşmək olar. Odur ki, obyektlərin qrup mənsubiyyətini müəyyən edərkən, aşkar edilən əlamətlərin təkcə sayını deyil, bunların spesifikliyini, yəni həmin əlamətlərin daha geniş növ, yaxud daha dar cins, növ obyektlərə aid olmasını nəzərə almaq lazımdır. Belə ümumi əlamətlər təbii ki, konkret eyniliyi müəyyən etmək üçün əvvəlcədən

müqayisə edilən obyektlərin ümumi əlamətləri müqayisə edilməklə aydınlaşdırılır, obyektin qrup mənsubiyyəti müəyyən edilir. Məsələn, hadisə yerində aşkar edilmiş əl-barmaq izləri ilə izin qoyulmasında şübhə edilən şəxsin daktilokartaya köçürülmüş əl - barmaq əkslərinin tədqiqi, ümumi əlamətlərə müraciət edilməsi ilə başlanır. Əgər tədqiqat nəticəsində müqayisə edilən əl - barmaq izlərində olan papilyar naxışların növünün şübhə edilən şəxsin əl-barmaq papilyar naxışlarından fərqləndiyi müəyyən edilərsə, bu zaman xüsusi əlamətlərin müqayisəsinə başlanılır. Əgər müqayisə edilən əl-barmaq əksində olan papilyar xətlərin müxtəlif növ xətlər olduğu müəyyən edilərsə (hadisə yerindən aşkar edilmiş əl - barmaq izinin papilyar xətti qövsi, şübhə edilən şəxsin əl - barmaq papilyar xətti dairəvi), bu vəziyyət hər iki barmaq əkslərinin müxtəlif şəxslərə aid olmasını qəti göstərməklə, tədqiqatın davam etdirilməsini aradan qaldırır. Deməli, bəzən qrup mənsubiyyətinin mövcud olması faktı obyektlərin eyniliyini qəti şəkildə rədd edir.

Qrup mənsubiyyətinin müəyyən edilməsinin cinayət işinin müvəffəqiyyətlə başa çatdırılmasında nə kimi əhəmiyyətə malik olmasını aşağıdakı misaldan daha aydın görmək olar:

«E»-nin meyiti onun yaşadığı kəndin yaxınlığındakı meşədə tapılır. Müayinə zamanı meyitin yanında tüfəng və cibində bir neçə patron tapılır. Tüfəngi müayinə edərkən onun bir lüləsindən atəş açılmış, digər lülədə olan patronun isə atılmamış, patron qabında qalması müşahidə edilir. «E»-nin meyiti yarıldıqda bədənində 12 ədəd əldəqayırma qırma tapılır. «E»-nin öldürülməsi faktının müəyyən edilməsi üçün onun bədənində tapılan qırmaların, cibində və ona məxsus ov tüfəngin lüləsində qalmış patronun içərisindəki qırmalarla eyni tərkibdə olub-olmamasının aydınlaş-dırılması xüsusi əhəmiyyət

kəsb edir. Bu məqsədlə aparılan ekspertiza hadisə yerindən götürülən qırmaların tərkibinin meyitin bədənindən çıxarılan qırmaların tərkibindən fərqləndiyini göstərmişdir. Ekspert tərəfindən verilən bu rəy həmin işdə özünü öldürmə deyil, qəsdən adamöldürmə cinayətinin olması fərziyyəsini irəli sürməyə əsas verməklə, cinayət işinin istintaqını düzgün istiqamətə yönəltməkdə mühüm rol oynamışdır. Qrup mənsubiyyətinin müəyyən edilməsinin əhəmiyyəti yuxarıda qeyd edilənlərlə bitmir. Qrup üzrə aparılan eyniləşdirmə nəticəsində fərqi müəyyən etməli olan obyektin aşkar edilməsini asanlaşdırmaq üçün yoxlanılan obyektlərin dairəsi məhdudlaşır və bununla yanaşı aşkar olunmuş izi qoya bilən konkret əşyalar, yaxud şəxslər haqqında fərziyyələr qurmağa, beləliklə də həmin əşya və ya şəxslərin axtarılmasının məqsədəuyğun təşkil edilməsinə imkan yaradır.

## *Sual 3. İstintaq hərəkətlərinin keçirilməsində və maddi sübutların tədqiqində kriminalistik eyniləşdirmənin tətbiq edilməsi*

Kriminalistik ekspertizanın köməyi ilə həyata keçirilən eyniləşdirmə tədqiqatı əsasən aşağıdakı mərhələlərdən ibarətdir:

1. Eyniləşdirmənin məqsədinin müəyyən edilməsi və
   tədqiqata hazırlıq;
2. Eyniləşdirmə obyektlərinin ayrılıqda tədqiqi;
3. Müqayisəli tədqiqat;

4. Müqayisəli tədqiqatın nəticələrinin qiymətləndirilməsi.

Eyniləşdirmə tədqiqatının göstərilən mərhələri sıx əlaqədə olub, biri digərini tamamlayır. Kriminalistika üzrə dərslikdə tədqiqata hazırlıq eyniləşdirmə tədqiqatının müstəqil bir mərhələsi kimi qeyd edilmir. Bu vəziyyət həqiqətə heç də uyğun deyil. Başqa tədqiqatlarda olduğu kimi, eyniləşdirmə tədqiqatında da ona hazırlıq tədqiqatın üzvi hissəsini təşkil edir.

Eyniləşdirmə tədqiqatına hazırlıq, ekspert tədqiqatının ilkin mərhələsidir. Bu mərhələdə cinayət işinin materialları öyrənilir, tədqiqatın vəzifələri və onun həcmi müəyyən edilir və nəhayət, eyniləşdirmə obyektləri müayinədən keçirilir.

Təbiidir ki, cinayət işinin bütün materialları deyil, eyniləşdirmənin aparılması üçün bilavasitə əhəmiyyəti ola bilən materiallar öyrənilməlidir. Belə materiallar öz məzmunu etibarı ilə ekspertə eyniləşdirmə əlamətlərinin düzgün qiymətləndirilməsinə kömək etməyə imkan yaradır. Eyniləşdirmə tədqiqatına hazırlıq mərhələsində ekspert eyniləşdirmə obyektlərinin dairəsini və ekspertiza prosesində həll edilməli olan məsələləri müəyyən edir. Bundan sonra eyniləşdirmə obyektləri və müqayisəli tədqiqat aparmaq üçün tədqiq olunan nümunələr müayinə edilir. İstər eyniləşdirilən obyektlərin, istərsə də nümunələrin müayinəsi zamanı ekspert həmin materiallara əsasən qoyulan suallar üzrə eyniləşdirmənin aparılmasının mümkünlüyünü aydınlaşdırır.

Ekspert, ekspertizaya təqdim olunan nümunələri müayinə etməklə yanaşı, bunların həm də qoyulan tələblərə nə dərəcədə əməl edilməklə alınmasını da yoxlamalıdır. Məsələn, əgər tədqiq olunan mətn qrafit qələmlə şagird dəftəri vərəqində icra edilmişsə, mətnin icra edilməsində şübhə edilən şəxsdən yazı nümunələri

ğötürərkən, həmin növ qələmdən və kağızdan istifadə edilməsi məsləhət görülür. Nümunələr tədqiqat aparmaq üçün yararsız olduqda ekspert əlavə nümunələrin əldə edilməsi üçün müstəntiqə müraciət etməlidir.

Ekspertizaya təqdim olunan materiallar (izlər və ya digər əkslər) eyniləşdirmənin aparılması üçün kifayət qədər əlamətlərə malik olmadıqda, yaxud tədqiqat aparmaq üçün yararsız olduqda, bu zaman, ekspert tədqiqatı davam etdirmədən eyniləşdirmənin aparılmasının mümkün olmaması haqda rəy verir. Əksinə, ekspert, ekspertizaya təqdim edilən materialları eyniləşdirmənin aparilması üçün kifayət qədər hesab edirsə, o, tədqiqatı davam etdirir.

Ekspert tədqiqatının 2-ci mərhələsində ekspertizaya göndərilən eyniləşdirmə obyektləri ayrılıqda tədqiq olunur. Bu zaman eyniləşdirilən obyektlərin xassə və əlamətləri öyrənilir. Əvvəlcədən müəyyən edilməli olan obyektin ümumi və xüsusi əlamətləri, sonra isə yoxlanılan obyektin əlamətləri aydınlaşdırılır. Eyniləşdirmə obyektlərinin ayrılıqda tədqiq edilməsi zamanı aşkar edilən eyniləşdirmə əlamətlərinin əmələ gəlmə mənbəyi və onların xüsusiyyətləri təklikdə mükəmməl öyrənilir və bu əlamətlər arasında olan qarşılıqlı əlaqə aydınlaşdırılır.

Eyniləşdirmə əlamətləri – maddi obyektlərin maddi aləmdə qarşılıqlı əlaqələri nəticəsində əks olunmuş xassələri olub, əks olunmuş obyektlərin eyniləşdirilməsi məqsədi ilə istifadə olunur

Eyniləşdirmə əlamətləri mənşəyinə görə xüsusi və alınma, digər əlamətlərlə əlaqəsinə görə asılı və müstəqil, müəyyən əlamətlərə malik obyektlərin say çoxluğuna görə cins (qrup) və fərdi, təbiətinə görə qanunauyğun və təsadüfi, eyniləşdirmə prosesində əhəmiyyətinə görə fərqləndirici və eyniləşdirici, əlamətin obyektə aid oima müddətinə görə sabit və nisbi, obyektə münasibətinə

görə ümumi və xüsusi, xarakterinə görə kəmiyyət və keyfiyyət kimi təsnifləşdirilir.

Ekspert, tədqiqat zamanı obyektlərdə əmələ gələn təsadüfi, yaxud xarakterik olmayan əlamətləri obyekti xarakterizə edən spesifik əlamətlərdən fərqləndirməli və aşkar etdiyi əlamətlərin məhz yalnız həmin obyekt üçün xarakterik olmasına tam inanmalıdır. Beləliklə, eyniləşdirmə obyektlərinin ayrılıqda tədqiqatı təklikdə eyniləşdirilən və eyniləşdirən obyektlər şəklində hərtərəfli və mükəmməl tədqiq edilməsi ilə aparılır. Eyniləşdirmə tədqiqinin 3-cü mərhələsində müqayisəli tədqiqatda eyniləşdirilən obyektlərin xassə əlamətləri dəqiq və mükəmməl müqayisə edilir. Həmin xassə və əlamətlərdən hansılarının uyğun gəlməsi və hansılarının fərqlənməsi aydınlaşdırılır. Eyniləşdirmə obyektlərin xüsusiyyətlə-rindən asılı olaraq müqayisəli tədqiqat əsasən aşağıdakı 3 üsul ilə aparılır:

a) tutuşdurma;
b) obyektləri üst-üstə qoyma;
c) obyektləri birləşdirmə.

**Tutuşdurmada** obyektin eyniləşdirmə əlamətləri digər obyektin həmin əlamətləri ilə bir-bir müqayisə edilir. Belə tutuşdurma obyektin özü, yaxud onların fotoşəkilləri üzrə aparıla bilər. Bu zaman ən əvvəl ümumi əlamətlər bir-bir tutuşdurulur. Eyniləşdirmə əlamətlərinin tutuşdurulması prosesində müxtəlif optik cihazlardan və mikroskoplardan istifadə olunur.

Müqayisəli tədqiqatın **obyektləri üst-üstə qoymaqla** aparılması üsulu əsasən möhürlərin və ştampların onların əksləri üzrə eyniləşdirilməsi zamanı tətbiq olunur. Obyektlərin eyniləşdirmə əlamətlərini müqayisə etmək məqsədi ilə həmin obyektlər üst-üstə qoyulur. Bu zaman obyektlərin hər ikisinin, yaxud birinin şəffaf olması (diapozitiv şəklində) tələb olunur. Üst-üstə

qoyulan obyektlərin eyniləşdirmə əlamətləri uyğun gəldikdə, bir obyekti xarakterizə edən vahid əks alınır. Eyniləşdirmə obyektlərinin birləşdirmə üsulu ilə müqayisə edilməsində obyektlər, yaxud onların fotoəksləri bir-birinə yaxın məsafədə qoyulur və obyektlərin eyniləşdirmə əlamətləri uyğun gəldikdə, biri digərinin davamını təşkil edir.

Müqayisə edilən **obyektlərin hissələrinin birləşdirilməsini** müqayisəedici mikroskopların (MBS - 9, yaxud MB - 2) köməyi ilə də həyata keçirmək olar. Müqayisəli tədqiqatların bu üsulu kəsmə, sürtünmə izləri üzrə eyniləşdirmə aparılarkən daha şox tətbiq olunur.

Eyniləşdirmə tədqiqatının son mərhələsində müqayisəli tədqiqatının nəticələri qiymətləndirilir. Bu zaman tədqiq olunan və müqayisə edilən obyektlərin həm uyğun gələn, həm də fərqlənən əlamətləri dərindən tədqiq edilir və qiymətləndirilir. Adətən, eyniliyin mövcud olub-olmaması məsələsi qrup əhəmiyyətinə malik olan əlamətlərin müqayisə edilməsi ilə əlaqələndirilir. Eyniləşdirmə obyektlərinin qrup əlamətləri onların müqayisə edilməsi ilə başlanır. Eyniləşdirmə obyektlərinin qrup əlamətləri uyğun gəldikdə bu vəziyyət bəzən fərdi əlamətlərin qiymətləndirilməsinə keçmədən eyniliyin mövcud olması haqda rəyə gəlməyə imkan verir.

Lakin qrup əlamətləri uyğun gəlmədikdə, eyniliyin mövcud olmaması barədə tələsik nəticə çıxarılmamalıdır, bunun qrup əlamətləri dərindən öyrənilməlidir. Uyğun gələn və fərqlənən qrup əlamətləri məsələnin həllinə əsas vermədikdə, fərdi əlamətlərin qiymətləndirilməsi başlanır.

Eyniləşdirmə obyektlərinin fərdi əlamətlərinin uyğun gəlməsi, eynilik haqqında müsbət fikrə gəlmək üçün hələ də tam əsas ola bilməz. Uyğun gələn fərdi əlamətlər həm kəmiyyətcə, həm də keyfiyyətcə kifayətedici olmalı, alınan nəticələr isə elmi üsul və vasitələrin tətbiq

edilməsi əsasında əldə edilməlidir. Müqayisəli tədqiqatın nəticələrinin qiymətləndirilməsi ekspertin xüsusi biliyinə və peşə təcrübəsinə əsaslanmalı və onun daxili inamından irəli gəlməlidir. Eyniləşdirmə tədqiqatında ekspert aşkar edilən əlamətlərin sabitliyini, konkret növ, yaxud cins obyektlərdə bu əlamətlərə nə dərəcədə təsadüf edilməsini və onların müstəqilliyini müəyyən etməklə aydınlaşdıra bilər.

# Mövzu 3:

## *Kriminalistik profilaktika. Proqnozlaşdırma və diaqnostika*

PLAN:

1. Kriminalistik profilaktikanın anlayışı, mahiyyəti və vəzifələri.
2. Kriminalistik proqnozlaşdırmanın anlayışı, mahiyyəti və obyektləri.
3. Kriminalistik diaqnostikanın mahiyyəti, obyektləri və vəzifələri.

### *Sual 1. Kriminalistik profilaktikanın anlayışı, mahiyyəti və vəzifələri*

Cinayətin açılması və istintaqı, təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi ibtidai araşdırma orqanlarının vəzifələrini tamamlamır. Qanun cinayətin qarşısının alınması üzrə onların üzərinə xüsusi vəzifələr qoyur. Azərbaycan Respublikası CPM-in 221-ci maddəsində deyilir: «İbtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etməlidir. Bu halları müəyyən edilməsinə zərurət olduqda müstəntiq, müvafiq hüquqi və ya vəzifəli şəxsin ünvanına cinayətin

törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərir. Lakin deyilənlərlə müstəntiqin profilaktik fəaliyyəti tam bitmir. Törədilmiş cinayət hadisəsinin baş verməsinin səbəb və şəraitinin müəyyən edilməsi özü-özünə xəbərdaredici rol oynayaraq, eyni zamanda, müstəntiqin digər profilaktik tədbirlərin görməsi üçün əsas kimi özünü göstərir. Onların sırasına aşağıdakıları aid etmək olar:

1) törədilmiş cinayətlərin aşkar edilməsi və açılması. Bu yolla ancaq konkret şəxsin cinayət fəaliyyətinin qarşısını almaq deyil, həmçinin profilaktik əhəmiyyət kəsb edən cəzasının labüdlüyünü təmin etməkdir;

2) müəyyən hallarda müəyyən üsullarla konkret növ cinayətin törədilməsinə kömək göstərən səbəb və şəraitin aradan qaldırılması;

3) tərbiyəedici və xəbərdaredici tədbirlərin xarakteri:

4) ümumprofilaktik tədbirlər, eyni zamanda, kütləvi informasiya vasitələrinin, əmək kollektivlərinin, milli ənənələrin imkanlarından istifadə edilməsi.

Müstəntiqin və digər hüquq-mühafizə orqanlarının fəaliyyəti ölkədə cinayətkarlığın tam kökünü kəsə bilməz. Tarix göstərir ki, cinayətkarlıq istənilən ictimai quruluş üçün xarakterik haldır. Profilaktik fəaliyyətin əsas vəzifəsi heç də cinayətkarlığın kökünü tam kəsməkdən ibarət deyil. Bu fəaliyyətin əsas vəzifəsi cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərini səmərəli şəkildə aşağı salmaqdan, onun cəmiyyətə və dövlətə təsirini azaltmaqdan, vətəndaşların şəxsi təhlükəsizlik səviyyəsini yüksəltməkdən, onların maraqlarını qorumaqdan ibarətdir. Profilaktik fəaliyyətin bu məqsədlərinə catmaq üçün müstəntiqin, təhqiqat aparan şəxsin rolu çox böyükdür. Cinayət işi üzrə həqiqət o vaxt müəyyən olunmuş hesab olunur ki, sübutetmə

predmetinə daxil olan bütün hallar tam, obyektiv və hərtərəfli müəyyən edilmiş olsun.

Həmin sübut edilməli halların dairəsinə cinayətin baş verməsinin səbəb və şəraitinin müəyyən edilməsi də aiddir. Məlum səbəblərdən qanun, sübutetmə predmetinə aid ola bilən cinayətin baş verməsi səbəb və şəraitinin tam siyahısını verə bilmir. Belə ki, qanun tələb edir ki, yetkinlik yaşına çatmayanlar barəsində icraat zamanı müəyyən edilməli hallarda, yetkinlik yaşına çatmayanın həyat və tərbiyə şəraiti (CPM-in 429-cu maddəsi) anlaqsız və ruhi xəstələr tərəfindən törədilmiş cinayətin əməlləri ilə bağlı məhkəmə tərəfindən törədilmiş əməlin səbəbi kimi həmin kateqoriyadan olan şəxslərin ruhi xəstəliyi müəyyən edilsin.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, hər bir cinayətin baş verməsinin səbəb və şəraitinin müəyyən edilməsi ilə bağlı qanunun tələbləri deklorativ xarakter daşıyır. Cinayətin səbəbi mürəkkəb kateqoriya olub, bir çox sosial və digər amillərlə şərtlənir. Ona görə də ədəbiyyatlarda söhbət, adətən cinayətin səbəbindən deyil, onun baş verməsinə kömək göstərən hallardan gedir.

Cinayətin törədilməsinə kömək göstərən halların müəyyən edilməsi ibtidai araşdırmanın gedişatında müəyyən edilməlidir. Ona görə də ilkin istintaq hərəkətlərinin planı tərtib olunanda və bu planın əsasını təşkil edən fərziyyələrin qurulmasında cinayətin baş verməsinə kömək göstərən halların müəyyən edilməsi üçün konkret məqsədyönlü hərəkətlər nəzərdə tutulmalıdır. Məsələn, əgər mühafizə olunan obyektdən kənar şəxslərin oğurluğu barədə fərziyyə yoxlanılırsa, onda həmin obyektdə mühafizə rejimi, mühafizənin təşkili, siqnalizasiya qurğularının vəziyyəti, əmlakın çıxarılmasına buraxılış vərəqələrinin verilməsi qaydaları

ilə əlaqədar hərəkətlər planda göstərilməlidir. Cinayətə kömək göstərən hallar haqqında mühüm məlumatları istintaq baxışı yolu ilə almaq olar. Belə ki, quldurluq faktı ilə bağlı hadisə yerinə baxış keçirərkən, müstəntiq, küçə işıqlarının nasaz olmasını, əvvəllər kənar şəxslərin daxil olmasının qarşısını alan hasarların, onların daxil olması üçün əlverişli şərait yaratmaq məqsədilə dağıdılmasını və s. qeyd edə bilər.

Əldə düzəltmə cinayət alətlərinə baxış keçirərkən alətin hansı şəraitdə, hansı dəzgahda, cihazda, qurğuda, hansı materiallardan, detallardan hazırlandığını müəyyən etməyə imkan verir. Müstəntiq, cinayətkarlar tərəfindən sındırılmış maneələrə, bağlayıcı mexanizmlərə baxış keçirərkən onların konstruksiyasında olan çatışmazlıqları, müəyyən edilmiş qaydalara uyğun gəlməməsi barədə məlumatlar əldə edə bilər.

Hər hansı müəssisədən oğurlanmış predmetlərə baxış keçirərkən, onların hansı emal mərhələsində oğurlanması oğurluğun vaxtı, yeri haqqında müəyyən mülahizələrin irəli sürülməsinə şərait yaradılır.

Baxış zamanı mütəxəssisin iştirakı isə cinayətkar üçün əlverişli şərait yaradan halların tam müəyyən edilməsinə kömək göstərir. Mütəxəssis bu cür hallara müstəntiqin diqqətini cəlb edir. Bəzi hallarda isə mütəxəssis bilavasitə bu məqsədlə baxışın keçirilməsinə dəvət olunur.

Cinayətin baş verməsinə kömək göstərən halların müəyyən edilməsinin səmərəli vasitələrindən biri də şübhə edilən şəxsin yaşayış və iş yerində axtarışın aparılmasıdır. Belə ki, axtarış zamanı əldə düzəltmə silahların, saxta sənədlərin hazırlanması üçün qurğuların, saxlanc yerlərinin sındırılması üçün istifadə olunan alətlərin tapılması, onların şübhə edilən şəxsin iş yerində, kustar üsulla qeyri-adi şəraitdə hazırlandığını müəyyən

edir. Axtarış zamanı mülki dövriyyədən götürülmüş əşyaların tapılması isə, onların əldə edilmə mənbəyi, onların maneəsiz olaraq mülki dövriyyəyə buraxılması və ya cinayət alqı-satqısına çevrilməsi və başqa məsələlərin həlli üçün şərait yaradır.

Şübhəli şəxsin, təqsirləndirilən şəxsin, zərərçəkmiş şəxsin və şahidlərin dindirilməsi yolu ilə müstəntiq cinayətin profilaktikası üçün əhəmiyyətli məlumatlar əldə edir. Dindirmə yolu ilə ancaq ibtidai araşdırılması aparılan cinayətin törədilməsinə kömək göstərən hallar müəyyən olunmur, həm də yeni cinayətlərin törədilməsinə kömək göstərə biləcək hallar da müəyyən edilir.

Şübhəli şəxsin, təqsirləndirilən şəxsin dindirilməsi zamanı onlarda qəsdin formalaşması, onun hansı səbəbən yaranması, hansı motivlərlə cinayət törədilməsi aydınlaşdırılmalıdır. Cinayət törətmiş şəxsdən cinayət əməlinin törədilməsini asanlaşdıran hallarla bağlı sualları aydınlaşdırmaq çox mühüm əhəmiyyət kəsb edir. Dindirilən şəxslərin dairəsi cinayətin törədilməsinə kömək göstərən halların xarakterindən asılıdır. Belə ki, müxtəlif növ talamalarla (oğurluq, dələduzluq, israf etmə və s.) bağlı cinayət işləri üzrə maddi qiymətli əmlakın mühafizəsi, xammalların və məhsulların obyektdən çıxarılması və daşınması, qeydə alınmamış artıqlığın yaradılması və s. məsələlərlə əlaqədar obyektin mühafizəsini həyata keçirən əməkdaşlar və mühasibat şöbəsinin əməkdaşları dindirilməlidir.

Şəxsiyyətə qarşı törədilən zorakı faktları, xuliqanlıq faktları ilə bağlı şahidlərin dindirilməsi zamanı polis orqanlarının fəaliyyətində olan çatışmazlıqlar, kommunal xidmətlərinin, stadion rəhbərliyinin vəs. orqanların, müəssisələrin işlərində olan boşluqların yaranması barədə məlumatlar əldə edilir.

Zərər çəkmiş şəxsin ifadələri əsasında isə polis əməkdaşlarının öz vəzifə səlahiyyətlərini aşması, cinayət qəsdi barədə verilmiş ərizə və şikayətlərlə bağlı müvafiq tədbirlərin görülməməsi, cinayətin qeydə alınmasını əsassız imtina olunması, şəxsin qeyri-qanuni tutulması və digər neqativ faktların müəyyən edilməsi mümkündür. Onu da qeyd etmək lazımdır ki, cinayətin törədilməsinə zərər çəkmiş şəxsin viktim davranışı da kömək göstərə bilər. Buna görə dindirmə zamanı bunları da aydınlaşdırmaq lazımdır.

İstintaq eksperimenti cinayətin törədilməsinə kömək göstərən halların müəyyən edilməsi üçün müəyyən qədər şərait yaradır. Bu zaman cinayət törətmiş şəxsin maneələrdən necə keçmə və bağlayıcı qurğuların konstruksiya çatışmazlıqları, mühafizə siqnalizasiya qurğularında olan çatışmazlıqlar, müəyyən texnoloji proseslər, maddi qiymətlərin məsrəf olunması haqqında əhəmiyyət kəsb edən məlumatlar əldə etmək olar.

Cinayətin törədilməsinə kömək göstərən hallarla əlaqədar ekspert qarşısında konkret sual qoymaq olar: məsələn, avtotexniki ekspert qarşısında nəqliyyat vasitəsinin texniki vəziyyəti necədir, yol şəraiti ilə bağlı hansı hallar yol-nəqliyyat hadisəsinin baş verməsinə səbəb olmuşdur və i.a. Hətta ekspert qarşısında belə bir sual qoyulmadıqda, digər sualların cavablarında bu məsələ öz əksini tapır. Məsələn, neft məhsullarının ekspertizasında benzinin tərkibində aşağı çeşidli benzinin və ya digər mayenin olması faktı müəyyən edilərsə, onda bu, dələduzluq əməlinin bütün hallarının aydınlaşdırılması üzrə müstəntiq uçün kifayət qədər əsas yaradır.

Əgər ekspert rəyi güman xarakterli olarsa, cinayətin törədilməsinə kömək göstərən hallara aid keçirilmiş tədqiqatların aralıq nəticələri müstəntiq tərəfindən

profilaktik tədbirlərin görülməsi üçün müəyyən əsas verə bilər. Belə hallar ekspert tərəfindən öz təşəbbüsü əsasında da müəyyən edilə bilər. Belə hallar barədə ekspert öz rəyində məlumat verir. Əgər bu hallar əlavə tədqiqat tələb etmirsə, onda belə halların araşdırılması ekspertin dindirilməsinin əsas predmetinə çevrilir.

Ümumiyyətlə, məhkəmə ekspertizası idarələrinin profilaktik fəaliyyəti iki əsas formada – prosessual və qeyri-prosessual formada həyata keçirilir.

Prosessual forma ekspert tərəfindən müstəntiqin və ya məhkəmənin tapşırığına əsasən iş üzrə əhəmiyyətli halların, o cümlədən cinayətin törədilməsinə şərait yaradan səbəblərin və şəraitin aydınlaşdırılması üçün zəruri olan, elmi cəhətdən əsaslandırılmış cavabların verilməsi, yaxud yuxarıda qeyd etdiyimiz kimi, ekspertin şəxsi təşəbbüsü ilə bu cür faktların müəyyənləşdirilməsi kimi müəyyən edilmişdir.

Profilaktik fəaliyyətin qeyri-prosessual formaları aşağıdakılardır:

1.ekspert təcrübəsinin sistematik öyrənilib ümumiləşdirilməsi və ümumiləşdirmənin nəticələri əsasında təşkilati-texniki xarakterli profilaktik təkliflərin işlənib hazırlanması, bu məqsədlə elmi-təcrübi tədqiqatların aparılması;

2.prokurorluq, istintaq, məhkəmə, həmçinin dövlət idarəetmə orqanları və ictimai orqanlar tərəfindən aparılan profilaktik tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmə;

3.hüquq pozuntularına şərait yaradan səbəb və şəraiti təhlil edən mühazirə və məruzələrlə mətbuat, radio və televiziya vasitəsilə əhalinin məlumatlandırılması;

4.ictimai təşkilatların və dövlət idarəetmə orqanlarının tapşırığı üzrə ümumiləşdirmə və tədqiqatların aparılması.

Məhkəmə ekspertiza idarələri sistematik olaraq cinayətin törədilməsinə şərait yaradan amillərin aşkar edilməsi məqsədi ilə tədqiqatların aparıldığı cinayət işləri və ekspertiza materiallarını öyrənir və ümumiləşdirir, həmin əsaslar üzrə təşkilati-texniki profilaktik tədbirlər işləyib hazırlayırlar.

Konkret təşkilatlara, müəssisələrə, idarələrə təqdimatların göndərilməsi profilaktik işin səmərəliliyi barədə fikir yürütməyə əsas verir.

Belə ki, 1998-1999-cu illər ərzində cinayət işləri üzrə məhkəmə yol-nəqliyyat hadisələri ekspertizası laboratoriyası tərəfindən yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə 90-a yaxın profilaktik məktub-təqdimat hazırlanaraq, Təhsil Nazirliyinin rayon şöbələrinə, respublikanın və Bakı şəhərinin rayon dövlət yol polisi şöbələrinə və digər ünvanlara göndərilmişdir.

Profilaktik təqdimat həm bir ekspertizanın nəticəsinə görə, həm də ekspert təcrübəsinin nəticələrinə görə hazırlana bilər.

Cinayətin törədilməsinə kömək göstərən halların müəyyən edilməsində müstəntiqə əməliyyat orqanlarının daha çox köməyi olur.

Qanun ibtidai araşdırma zamanı müstəntiq tərəfindən bir sıra profilaktik tədbirlərin görülməsini tənzimləyir. CPM-in 221-ci maddəsinə əsasən ibtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şərait) müəyyən etməlidir. Bu halları müəyyən etməyə zərurət olduqda, müstəntiq müvafiq hüquqi və ya vəzifəli şəxsin ünvanına cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərilməsini göstərir. Məcəllənin 221.2-ci maddəsinə əsasən cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi

haqqında müstəntiqin təqdimatına baxılması məcburidir, nəticəsi barədə bir ay müddətində müstəntiqə yazılı məlumat verilməlidir.

Təqdimatda baş vermiş cinayət hadisəsi, cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər, cinayətin baş verməsinə kömək göstərən halların xarakteri barədə məlumatlar əks olunmalıdır.

Əgər müstəntiqin sərəncamında konkret xəbərdaredici tədbirlərin görülməsi üçün kifayət qədər material varsa, onda müstəntiq həmin xəbərdaredici tədbirləri təqdimatda sadalamalıdır. Həmin xəbərdaredici tədbirlərin sırasında cinayətin baş verməsinə kömək göstərən halların yaranmasında konkret vəzifəli şəxsin cavabdehlik məsələsinə baxılması da təklif olunur.

Əgər müstəntiq konkret xəbərdaredici tədbirlərin verilməsi iqtidarında deyilsə, onda o, həmin tədbirlərin istiqamətini göstərməklə kifayətlənə bilər.

Qanun təqdimatın çıxarılması vaxtını dəqiq göstərmir. Fikrimizcə, ibtidai araşdırma zamanı cinayətin törədilməsinə kömək göstərən bütün hallar müəyyən edildikdə müstəntiq müvafiq təqdimat çıxarır. Bu o demək deyil ki, təqdimat ancaq cinayət işi başa çatdıqdan sonra verilə bilər. İbtidai araşdırma zamanı cinayətin törədilməsinə kömək göstərən hallar müəyyən edildikdə, istənilən mərhələdə müstəntiq müvafiq təşkilatlara, idarələrə, müəssisələrə təqdimat göndərə bilər.

Müstəntiqin təqdimatı prosessual sənəd sayılır və onun bir nüsxəsi cinayət işinə əlavə olunur.

Qanun tələb edir ki, müstəntiqin göndərdiyi təqdimata müvafiq görülən tədbirlər barədə bir ay müddətində cavab verilsin. Təqdimata verilən cavabda konkret olaraq kim tərəfindən hansı tədbirlərin görülməsi göstərilməlidir. Müstəntiq isə təqdimat əsasında təklif edilmiş xəbərdaredici tədbirlərin həyata keçirilməsinə

birbaşa nəzarət etməlidir. Bəzi hallarda bu məqsədlə müstəntiq əmək kollektivlərinin, digər ictimai qurumların köməyindən istifadə edə bilər.

İbtidai istintaq prosesində, həmçinin bu proses başa çatdıqdan sonra müstəntiq profilaktik tədbirlər həyata keçirmək məqsədilə idarə, müəssisə kollektivləri qarşısında, kütləvi informasiya vasitələrində, radio və televiziya vasitəsilə tərbiyəedici və profilaktik xarakterli çıxarışlar edə bilər.

### *Sual 2. Kriminalistik proqnozlaşdırmanın anlayışı,mahiyyəti və obyektləri*

Əksetdirmə nəzəriyyəsi mövcud obyektiv qanunauyğunluqların dərk edilməsində elmin rolunu müəyyənləşdirərək elmi proqnozlaşdırma bazasına xidmət edir. Proqnozlaşdırma xüsusi bilik sahəsi kimi müxtəlif təbiətli obyektlərin inkişafının qurulması metodlarının ümumi prinsiplərini və proqnozların hazırlanması prosesinin qanunauyğunluqlarını öyrədir. Proqnozlaşdırmanın məqsədi elmi qabaqcadan görmənin işçi metodlarını yaratmaqdır.

Elmi qabaqcadan görmə dedikdə, bu mövcud və ya hələ baş verməmiş, lakin müşahidə edilməyən hadisələrin, proseslərin baş verməsinin zəruriliyi və ya ehtimallığı haqqında əsaslandırılmış fikirdir.

Kriminalistik ədəbiyyatlarda proqnozlaşdırma barədə fikirlər 1967-1969-cu illərdə yaranmışdır. Kriminalistik proqnozlaşdırmaya dair məsələlər R.S.Belkinin, A.N.Dulovun, Q.L.Qranovskinin, A.M. Larinin işlərində təhlil olunmuşdur.

Kriminalistik poqnozlaşdırma bir sıra xüsusiyyətlərə malikdir: cinayətin halları barədə ilkin məlumatların tam olmaması, işin nəticəsində marağı olan şəxslər tərəfindən

istintaqın uzun müddət davam etməsi, istintaq şəraitinin dinamikliyi, istintaq səhvlərinin yüksək olması və s.

Kriminalistik proqnozlaşdırmanın ümumi predmetini istintaqı aparılan cinayətin halları və bu cinayət işi üzrə istintaq mexanizmi təşkil edir.

Proqnozlaşdırma istintaq fəaliyyətini təşkil edən hər bir elementindən keçir: ilkin məlumatların təhlili, fərziyyələrin qurulması, planlaşdırma, taktiki və təşkilati qərarların qəbul edilməsi, nəzarət, əks əlaqə, daha yüksək səviyyədə dövrənin təkrar olunması.

Kriminalistik proqnozlaşdırma ümumi proqnozlaşdırmanın bazası əsasında inkişaf edir. Bu prosesin nəticəsi proqnozdur, müəyyən məlumatların təhlilinə əsaslanaraq hadisələrin, proseslərin baş verməsinin mümkünlüyü barədə nəticədir. Proqnoz bilavasitə proqnozlaşdırılan obyektin keçmişdən indiyə və indidən gələcəyə olan inkişaf qanunauyğunluqlarını və tendensiyaları xarakterizə edir.

Proqnozlaşdırmanın mahiyyətini gələcək haqqında məlumatlar təşkil edir. Nəzərə almaq lazımdır ki, hadisələrlə bağlı elmi uzaqgörənlik nisbətən ictimai xarakter daşısa da, bir sıra xüsusiyyətlərə malikdir. Burada ilk növbədə, subyektiv faktoru nəzərə almaq lazımdır. Çünki istənilən ictimai proses təfəkkür və iradəyə malik insanlar tərəfindən həyata keçirilir.

İkinci tərəfdən, elmi uzaqgörənlik ictimai həyatın təzahürü olub, təkamül nəzəriyyəsinə əsaslanır, çünki cəmiyyətin hər bir üzvü öz məqsədi və maraqları çərçivəsində hərəkət edir.

Üçüncüsü isə, elmi uzaqgörənlik həmişə cəmiyyətin müəyyən təbəqə və qruplarının maraqları ilə bağlı olur, ona görə də onlar proqnozlaşdırmanın həyata keçirilməsinə ya kömək edir, ya da maneəçilik törədirlər.

Elmi proqnozlaşdırmanın məntiqi əsasını ekstropolyasiya təşkil edir.

Proqnozlaşdırma məqsədilə ekstropolyasiyanın tətbiqi aşağıdakı elementlərlə şərtləndirilmişdir:

1. proqnozlaşdırma üçün ilkin məlumatlar – obyekt və ya proses, onların əlaqələri, keçmişi və gələcəyi haqqında biliklər;
2. proqnozlaşdırma üçün əsas – obyektlərin və ya proseslərin zəruri və ya ehtimal inkişaf istiqamətləri haqqında biliklər;
3. proqnozlaşdırma üzrə əməliyyat;
4. proqnozun mahiyyət və etibarlılıq nöqteyi - nəzərdən qiymətləndirilməsi;
5. proqnozun realizə edilməsi.

Kriminalistik proqnozlaşdırmanın mahiyyətinə aiddir:

1. onun anlayışı və ümumi metodoloji əsasları;
2. onun əsas istiqamətləri;
3. olkin məlumatların anlayışı, mahiyyəti və növləri;
4. metodikalar;
5. proqnozların qiymətləndirilməsinin meyarları və metodları;
6. proqnozların realizə edilməsi yolları.

Proqnozlaşdırma kriminalistikada iki istiqamətdə mümkündür.

**1-ci istiqamət –** bu elmi tədqiqatların və onların nəticələrinin proqnozlaşdırılması. Bu mənada o, ümumiyyətlə elmin inkişafının proqnozlaşdırılmasına bərabərdir. Belə proqnozlaşdırma üçün ilkin məlumatlar elmin müasir vəziyyəti və təcrübənin tələbatı, əsasını isə kriminalistikanın ümumi nəzəriyyəsi təşkil edir. Proqnozlaşdırmanın obyekti ayrı-ayrı elmi istiqamətlər ola bilər, hansı ki, onların perspektivi, ehtimal səmərəliliyi, praktiki fəaliyyəti müəyyən olunur.

**2-ci istiqamət –** kriminalistik aspektdə cinayətkarlığın və onunla mübarizənin vasitələri, formaları və metodlarının proqnozlaşdırılması.

Kriminalistik proqnozlaşdırmanın sadalanan, həmçinin digər istiqamətləri müəyyən təhlillərə, təcrübənin ümumiləşdirilməsinə, bəziləri isə məlum statistik məlumatların təhlilinə əsaslanır. Belə ki, kriminalistika (xüsusi və ekspert) təcrübəsində cinayətlərin törədilməsinin müəyyən üsullarının proqnozlaşdırılmasının çoxsaylı üsulları məlumdur. Belə hallarda proqnozlaşdırma aşağıdakı qaydalara tabe olur:

Məsələn, ekspert idarəsində seyf qıfıllarının konstruksiya qüsurlarından istifadə edilməklə seyflərin sındırılması barədə materiallar yığılır. Belə materiallar proqnozlaşdırma üçün ilkin məlumatlar sayılır. Belə hallarda proqnozlaşdırma üçün əsas cinayətin törədilməsi üsulu və cinayət qəsdinin xarakteri əsasında qanunauyğun əlaqələr haqqında biliklər təşkil edir. Bunlar əsasında isə ekspert idarəsi proqnozun həyata keçirilməsi üçün konkret tövsiyyələr sistemini hazırlayır. Həmin tövsiyələr sırasında qıfıl konstruksiyasının dəyişdirilməsi təklif oluna bilər.

Kriminalistik proqnozlaşdırma üçün ilkin məlumatlar tərkibinə görə eyni cinsli deyil. Onlar müxtəlif ola bilər:

**I. Elmi məlumatlar:**

*Kriminalistik nəzəriyyənin ümumi müddəaları və xüsusi kriminalistik nəzəriyyə.*

Kriminalistika ilə qarışıq elmlərin və kriminalistikada istifadə olunan digər elm sahələrinin məlumatları.

**II. Statistik məlumatlar:**

*Cinayətkarlığın, onun ayrı-ayrı növlərinin dinamikasının kəmiyyət xarakteristikası.*

Cinayətkarlığın açılma dərəcəsini tədqiq edən orqanların işinin keyfiyyətinin kəmiyyət xarakteristikası.

Kriminalistik elmi tədqiqatların kəmiyyət xarakteristikası: onların qiyməti, cəlb olunan əməkdaşların sayı, aparaturalardan istifadə olunma dərəcəsi və s.

**III. Təcrübi məlumatlar:**

- cinayətlərin törədilməsinin yeni üsulları, cinayət qəsdlərinin yeni müxtəlifliyi, qəsdin yeni növ predmetləri haqqında məlumatlar;
- cinayətlərin törədilməsinə kömək göstərən təşkilati və texniki xarakterli səbəb və şəraitlər haqqında məlumatlar;
- cinayətlərin törədilməsinə kömək göstərə bilən, yaranması ehtimal olunan şəraitlər haqqında məlumatlar;
- məhkəmə tədqiqatının metodları və vasitələri ilə bağlı çatışmazlıqlar və səhvlər barədə məlumatlar;
- məhkəmə tədqiqatı təcrübəsində yaranmış yeni üsul və vasitələr haqqında məlumatlar.

Əlbəttə ki, bu siyahı nümunəvi xarakter daşıyır. Əgər ciddi desək, bu məlumatların istifadə edilməsi elmi təhlil, ümumiləşdirmə və sistemləşdirmə tələb edir.

**Kriminalistik proqnozlaşdırmanın metodikası.** Meto-dikanın müəyyənləşdirici komponenti proqnozun işlənib hazırlanmasında tətbiq edilən metod və ya metodlar sistemidir. Kriminalistikada proqnozlaşdırmanın ən geniş yayılmış növlərinə ekstropolyasiyanı, modelləşdirməni və ekspert qiymətləndirilməsini aid etmək olar.

Müasir dövrdə bu sahədə modelləşdirmə, eyni zamanda riyazi metodların tədqiqi imkanları məhduddur. Çünki proqnozlaşdırma üçün ilkin məlumatların çox hissəsi statistik uçotla əhatə olunmur. Bu da öz növbəsində kriminalistik proqnozlaşdırmanın dəqiqliyinə mənfi təsir göstərir.

Kriminalistik elmi proqnozlaşdırmanı və təcrübi, empirik uzaqgörənliyi fərqləndirmək lazımdır. Empirik uzaqgörənlik müstəntiq, əməliyyat müvəkkili, ekspert öz şəxsi təcrübəsinə əsaslanaraq gündəlik fəaliyyətində istifadə edir. Məsələn, istintaq şəraitinin qiymətləndirilməsində, proses iştirakçılarının şəxsiyyətlərinin öyrənilməsində və s. Buna elmi proqnoz demək olmaz, çünki belə uzaqgörənlik ilkin məlumatlara əsaslansa da, müəyyən etmə metodikaları əsasında deyil, intuisiya əsasında formalaşır.

Empirik uzaqgörənlik – bu, müəyyən şəxslərə, onların davranışlarına, hərəkətlərinə, konkret maddi obyektlərə, hadisələrə, proseslərə aidiyyəti, olan, konkret vaxt şəraitində realizə olunan konkret təcrübədə, real şəraitdə həyata keçirilən proqnozdur. Empirik uzaqgörənliyin obyektlərinə aiddir:

**1.**sübutetmə prosesinin iştirakçıları – şahidlər, zərərçəkmişlər, şübhəli şəxslər, təqsirləndirilən şəxslər, hal şahidləri, onların davranışları, hərəkətləri, cinayət işinin nəticəsində marağı olan şəxslər tərəfindən istintaqa qarşıdurma aktı, mütəxəssis şəxslərin rəyləri;

**2.**maddi obyektlər – maddi sübutlar, sənədlər, digər obyektlər, eyni zamanda canlı şəxslər və meyitlər, mənşəyi məlum olmayan obyektlər, onların yerləşdiyi yer, təbiəti, keyfiyyəti, davamlılığı, dəyişməzliyi, dəyişmə surəti və dəyişmənin nəticələri (təbii, süni);

**3.**istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin nəticələri, konkret cinayət işi üzrə bunların istifadə edilməsinin nəticəsi, neqativ nəticələrin və taktiki riskin minimuma endirilməsi imkanları, taktiki kombinasiyaların nəticələri;

**4.**müstəntiqin, istintaq orqanı rəhbərinin, prokurorun, məhkəmənin, əməliyyat müvəkkilinin qəbul etdiyi prosessual və taktiki qərarlar və onların nəticələri.

Empirik uzaqgörənliyin əsaslarına aşağıdakılar xidmət edir:

a) obyektlərin, hadisələrin tipik inkişafı haqqında ümumiləşdirilmiş təsəvvürə malik elmi kriminalistik proqnozlar;

b) empirik uzaqgörənlik obyektinin seçilməsi üçün baza model kimi xidmət edən, ehtimal olunan cinayətkarı xarakterizə edən konkret cins və növ cinayətlərin kriminalistik xarakteristikası;

c) kriminalistika, psixologiya, məntiq və s. sahələrdə olan baza bilikləri;

ç) ixtisas təcrübəsi – kollektiv və şəxsi;

d) müstəntiqin intuisiyası.

Empirik uzaqgörənlik kriminalistik fərziyyələrin yoxlanılmasına, istintaq planına əlavələrin, dəyişikliklərin edilməsinə, əməliyyat məlumatlarının realizə edilməsinə, ən başlıcası isə müstəntiq tərəfindən daha səmərəli taktiki qərarların qəbul edilməsinə imkan yaradır.

Empirik uzaqgörənlik qeyri-müəyyən şəraitdə müstəntiqin zəruri hərəkətlər komponentidir.

## *Sual 3. Kriminalistik diaqnostikanın mahiyyəti, obyektləri və vəzifələri*

İlk dəfə olaraq V.A.Snetkov «Kriminalistik diaqnostikanın problemlərı» (1972) əsərində «diaqnostik ekspertizalar» termini yaratmışdır.

Sonralar «diaqnostik tədqiqatlar» termini Q.Qranovskinin elmi əsərlərində (1974) öz əksini tapmışdır. Müasir dövrdə cinayətlərin açılmasında,

cinayət işləri üzrə ayrı-ayrı halların müəyyən edilməsində, proseslərin vəziyyətinin öyrənilməsində kriminalistik diaqnostika böyük rol oynayır. Kriminalistik diaqnostika obyektlərin, hadisələrin mahiyyətini açır, dərk edir.

Diaqnostika yunan «*diaqnosis*» sözündən olub 3 mənada səslənir: dərk etmə, fərqləndirmə, müəyyən etmə.

Kriminalistik diaqnostikanın ümumi vəzifəsi obyektiv həqiqətin müəyyən edilməsi, obyektlərin (hadisələrin) xüsusiyyətlərini, vəzifələrini öyrənməkdən, izah etməkdən ibarətdir.

Kriminalistik diaqnostikanın predmetini obyektlərin, onlarda baş verən dəyişikliklərin, belə dəyişikliklərin səbəblərini, törədilmiş cinayət hadisəsi ilə əlaqəsini müəyyən etmək məqsədi ilə xüsusiyyətlərin və ziddiyyətlərin tədqiqi kimi qeyd etmək olar.

Kriminalistik diaqnostikanın ümumi vəzifələrini aşağıdakı kimi təsnifləndirmək olar:

a) cinayət hadisəsinin məkan quruluşunun müəyyən edilməsi (cinayət harada və hansı şəraitdə baş verməsi, nəqliyyat vasitələrinin konkret toqquşma yeri, əldə olunan izlərin hansı cinayət hadisəsinə aidiyyəti olması);

b) hadisənin ayrı-ayrı mərhələlərinin mexanizminin müəyyən edilməsi (maneənin sındırma istiqaməti və xarakteri, toqquşma anında nəqliyyat vasitələrinin qarşılıqlı vəziyyəti, saxta pul nişanlarinin hazırlanma üsulu və s.);

c) hadisə yerinin şəraitinin maddi quruluşunun müəyyən edilməsi (bu şəraitin obyektlərinin xassəsi və vəziyyəti necədir, cinayət alətinin seçilməsi, cinayətin gizliliyinin təmin edilməsi və s.);

ç) cinayət hadisəsinin zaman xarakteristikasının müəyyən edilməsi (hadisə nə vaxt baş verib, onun törədilməsi üçün nə qədər vaxt tələb olunub).

Kriminalistikada diaqnostik vəzifələr aşağıdakı kimi təsnifləşdirilir:

1.Obyektin xassələrinin və vəziyyətinin diaqnostik öyrənilməsi.

a) bilavasitə onun tədqiqi zamanı;

1.1. Obyektin əvvəlcədən müəyyən xarakteristikalara uyğunluğunu müəyyənləşdirmək üçün onun xassəsinin və vəziyyətinin tədqiqi (məsələn, təqdim edilmiş silah odlu silaha aiddirmi).

1.2. Obyektin faktiki vəziyyəti onun eyni qrup obyektlərdən fərqli cəhətləri (məsələn, təqdim olunmuş silah sazdırmı və atəş üçün yararlıdırmı).

1.3. Obyektin ilkin vəziyyətinin müəyyən edilməsi (məsələn mexaniki dəyişikliyə məruz qalmış yazının ilkin məzmunu necə olmuşdur).

1.4. Obyektin xassəsinin dəyişməsinin səbəb və şəraitinin müəyyən edilməsi (məsələn, tətiyə təsir göstərmədən bu silahdan atəş açılmanın texniki səbəbi nədir).

b) obyektin əksinə görə:

1.5. Obyekt üzərində əks olunan izlərin olmasının və onların məlumatlılıq dərəcəsinin müəyyən edilməsi (məsələn, butulka şüşəsi üzərində əl-barmaq izləri varmı, əgər varsa onlar eyniləşdirmə üçün yararlıdırmı).

1.6. Obyektin əksinin əmələ gəlməsi zamanı onun xassəsinin və vəziyyətinin müəyyən edilməsi (məsələn, yazı xəttini icra edən şəxs hansı vəziyyətdə olmuşdur).

1.7. Əksdə qeyd olunmuş obyektin xassə dəyişikliklərinin səbəbinin müəyyən edilməsi (məsələn, tədqiq olunan iz yolunda sağ və sol addımlar arasında ciddi fərq nədən ibarətdir).

2. Hərəkətlərin, obyektlərin və ya onların əkslərinin tədqiqinin nəticələrinə əsasən kriminal şəraitin inteqral diaqnostikası.

2.1. Nəticələr üzrə hadisənin mexanizmi və halları haqqında mülahizələri söyləmə imkanının müəyyən edilməsi (məsələn, yol - nəqliyyat hadisəsi ilə əlaqədar hadisə yerində aşkar olunmuş izlərə əsasən nəqliyyat vasitələrinin toqquşma yerini müəyyən etmək olarmı).

2.2. Hadisənin ayrı-ayrı mərhələlərinin müəyyən edilməsi (məsələn, yol- nəqliyyat hadisəsinin ilkin mərhələsində toqquşmaya qədər digər nəqliyyat vasitələrinin hərəkət istiqamətləri və rejimi necə olmuşdur).

2.3. Hərəkət mexanizminin və onun dinamikasının müəyyən edilməsi.

2.4. Hadisələrin baş vermə vaxtının (müddətinin), xronoloji ardıcıllığının müəyyən edilməsi (məsələn, tətbiq edilən sındırmanın üsulundan asılı olaraq ona nə qədər vaxt sərf olunmuşdur).

2.5. Hərəkətin yerini, onun sərhədini müəyyən etmək (məsələn: piyada yolun hansı hissəsində vurulmuşdur).

2.6. Hadisə iştirakçılarının qarşılıqlı vəziyyətini müəyyən etmək (məsələn, atəş zamanı atəş açanla zərər çəkənin qarşılıqlı vəziyyəti necə olmuşdur).

2.7. Müşahidə olunan nəticələrin səbəbini müəyyən etmək (məsələn, binada partlayışın və yanğının səbəbi nədir).

2.8. Hərəkətin baş verdiyi şəraitin müəyyən edilməsi (məsələn, bu şəraitdə alovun intensiv yayılmasına hansı hallar kömək etmişdir).

3. Hadisələr, hərəkətlər arasında səbəbli əlaqənin müəyyən edilməsi.

3.1. Baş vermiş hərəkət və nəticələr arasında səbəbli əlaqənin müəyyən edilməsi.

3.2. Baş vermiş nəticələrin səbəblərinin müəyyən edilməsi (məsələn, binada baş vermişin partlayışın səbəbi nədir).

3.3. Müəyyən şəraitlərdə hərəkətlərin baş verməsi və ya faktların yaranması mümkünlüyünün müəyyən edilməsi.

3.4. Hərəkətlərin xüsusi qaydalara uyğunluğunun (uyğunsuzluğunun) müəyyən edilməsi.

Kriminalistik diaqnostikanın quruluşunu ümumi şəkildə aşağıdakı kimi təsəvvür etmək olar: məqsədin müəyyən edilməsi; obyektlərin ilkin təhlili; analoci müqayisə; əldə edilmiş nəticələrin dəqiqləşdirilməsi və qiymətləndirilməsi; nəticələrin rəsmiləşdirilməsi.

Kriminalistik eyniləşdirmə və diaqnostika bir çox ümumi əlamətlərə malikdir. Lakin fərqli cəhətlər də var. Eyniləşdirmə prosesində müqayisəli tədqiqat konkret obyekti müəyyən etmək üçün, diaqnostik tədqiqat isə hadisənin konkret şəraitini müəyyən etmək üçün tətbiq edilir.

Diaqnostik tədqiqatlarda analoji və müqayisə metodları ilə yanaşı, modelləşdirmə, eksperiment, ölçmə və s. metodlar da tətbiq edilir.

«Diaqnostik tədqiqat» anlayışına aşağıdakılar daxildir:

a) obyektin xüsusiyyətlərinin və vəziyyətinin müəyyən edilməsi;

b) baş vermiş hadisənin hallarının aydınlaşdırılması;

c) məlum faktlar arasında səbəbli əlaqənin müəyyən edilməsi.

Diaqnostik tədqiqat obyektinin faktiki vəziyyətinin, onun keçmişdə mövcud olmuş zahiri görünüşünün müəyyən edilməsinə kömək edir. Çox zaman diaqnostik tədqiqatlar eyniləşdirmədən əvvəl həyata keçirilir, obyekti izə görə eyniləşdirməzdən əvvəl ekspert izin eyniləşdirmə

üçün yararlı olub-olmamasını, xarakterik əlamətlərin əks olunmasını, iz əmələgəlmə prosesində obyektin faktiki vəziyyətini müəyyənləşdirməli olur.

Hadisə yerində izlərin diaqnostik təhlili zamanı cinayət hadisəsinin hallarını müəyyən etmək mümkündür. İzlərə görə hadisənin törədilmə mexanizmini bərpa etmək, izlərin meydana gəlmə ardıcıllığını aydınlaşdırmaq və bunun əsasında cinayətkarın hərəkətlərinin mexanizmini müəyyənləşdirmək olar. Məsələn, qan izlərinin formasına, vəziyyətinə görə zərərçəkmişə zədələrin vurulma yerini, onun yerinin dəyişdirilməsini, hansı vəziyyətdə olmasını, harada dayanmasını və s. müəyyən etmək mümkündür. Atəş izlərinə görə onun istiqamətini, məsafəsini, istifadə olunan silahın xarakterini və təyinatını, atəş açanla zərərçəkmişin qarşılıqlı vəziyyətini və s. müəyyən etmək olar.

Faktlar və obyektlər arasındakı münasibətlərin aydınlaşdırılması ilə bağlı keçirilən tədqiqatlar da diaqnostik tədqiqatlara aiddir. Diaqnostik tədqiqat prosesində hadisələrin səbəbləri, mexanizmi, obyektlərin xüsusiyyətləri haqqında müəyyən nəticələrə gəlmək mümkündür.

Kriminalistik diaqnostikanın elementləri kriminalistik fərziyyələrin qurulmasında, yoxlanılmasında daha çox təzahür olunur. Diaqnostik hipotezada olan elementlər istintaq fərziyyələrində açıq-aydın görünür. Hipotezanın diaqnozlaşdırılması hansı mərhələləri keçirsə, fərziyyələrin qurulması və yoxlanılması da həmin mərhələləri keçir. Müstəntiq müəyyən məlumatlara əsaslanaraq hipotezanın ilkin mərhələsi kimi fərziyyələri formalaşdırır.

Müstəntiqin fəaliyyətində kriminalistik diaqnostikanın mühüm elementlərindən biri səbəbli əlaqənin müəyyən

edilməsidir. Səbəbli əlaqə diaqnostikanın məqsədi, həmçinin hadisənin (faktların) dərk edilməsinin aralıq mərhələsi də ola bilər.

Müstəntiq istintaq hərəkətlərinin keçirilməsində kriminalistik diaqnostikadan istifadə edir.

Hadisə yerinə baxış zamanı izlərin tədqiqi prosesindən daha çox istifadə olunur. Məsələn, ayaq izlərinə görə təkcə şəxsiyyəti eyniləşdirmək deyil, həmçinin onun hərəkətinin istiqamətini, sürətini, yük aparmasını, fiziki vəziyyətini müəyyən etmək olar. Sındırma izlərinə görə tətbiq olunan üsul və vasitələr, cinayətkarın peşə vərdişləri, fiziki gücü və s. haqqında mülahizələr yürütməyə imkan verir.

Kriminalistik diaqnostikadan eksperiment istintaq hərəkətinin keçirilməsində də istifadə olunur.

Kriminalistik diaqnostika nöqteyi-nəzərindən eksperimentə yanaşdıqda aşağıdakı xüsusiyyətləri qeyd etmək olar:

- hər hansı hadisə (fakt) haqqında mülahizələrin yoxlanılması;
- yoxlanılması tələb olunan fərziyyələrin qurulması;
- hər hansı halın olub - olmaması ;
- yoxlanılması tələb olunan hadisənin təkrarlanması üçün onun spesifik əlamətlərinin təhlili;
- ayrı-ayrı təcrübələrin keçirilməsindən ümumi müşahidəyə doğru hərəkət edilməsi.

## *Mövzu 4:*

## *Kriminalistik texnikanın ümumi müddəaları*

PLAN:

1. Kriminalistik texnikanın anlayışı. Texniki-kriminalistik vasitələrin təsnifatı və tətbiqinin prinsipləri.
2. Obyektlərin aşkar edilməsində, qeyd edilməsində və götürülməsində istifadə edilən texniki-kriminalistik vasitələr.

3. Obyektlərin tədqiq edilməsinin texniki-kriminalistik vasitələri və metodları.

### *Sual 1. Kriminalistik texnikanın anlayışı. Texniki-kriminalistik vasitələrin təsnifatı və tətbiqinin prinsipləri.*

Kriminalistik texnika kriminalistika elminin ilk yaranmış və əsas hissələrindən biri sayılır.”Kriminalistik texnika” termini iki mənada istifadə olunur:birinci- kriminalistika elminin bir hissəsi kimi, ikincisi – texniki vasitələrin məcmusu kimi, yəni sübutların yığılmasında və tədqiqində tətbiq olunan cihazlar, aparatlar, qurğular, alətlər, dəstlər və materiallar nəzərdə tutulur.

Kriminalistika elminin bir hissəsi kimi kriminalistik texnikanın sisteminə aiddir:

1. kriminalistik texnikanın sistemini onun vəzifələrini, kriminalistik texnikanın tətbiq edilməsinin elmi və hüquqi əsaslarını, texniki kriminalistik vasitələrin ümumi xarakteristikası barədə məlumatları özündə birləşdirən ümumi müddəalar;

2. kriminalistik fotoqrafiya ,video və səsyazma;

3. trasologiya (kriminalis tik izşunaslıq);

4.odlu silahların, döyüş sürsatlarının, soyuq silahların, partladıcı qurğuların və onların tətbiqi izlərinin kriminalistik tədqiqi;

5.sənədlərin kriminalistik tədqiqi (məhkəmə xətşunaslıq, məhkəmə müəllifşunaslıq, sənədlərin texniki– kriminalistik tədqiqi;

6.kriminalistik qabitoskopiya (insanın zahiri əlamətlərinin tədqiqi);

7. kriminalistik qeydiyyat;

8. kriminalistik odorologiya

9. kriminalistik fonoskopiya;

10. material, maddə və məmulatların kriminalistik tədqiqi;

Cinayətkarlığa qarşı mübarizədə texniki kriminalistik vasitələrdən istifadə olunmasının müqayisəedilməz dərəcədə böyük əhəmiyyəti vardır. Onlardan hadisə yerinə baxış zamanı, axtarış prosesində, istintaq eksperimenti zamanı və s. istintaq hərəkətləri yerinə yetirilərkən, eləcə də əməliyyat-axtarış fəaliyyəti zamanı geniş istifadə olunur. Texniki-kriminalistik vasitələrdən məqsədyönlü istifadə etmək istintaq hərəkətlərinin nəticələrini xeyli yüksəldir. Xüsusən, zəif görünən və görünməyən əl-barmaq izlərinin aşkar edilib götürülməsində, mikroobyektlərin, cinayət alətlərinin, gizlədilmiş əşyaların və digər maddi sübutların aşkar edilib götürülməsində texniki-kriminalistik vasitələrin tətbiqinin böyük əhəmiyyəti vardır.

Kriminalistik texnika kriminalistikanın digər bölmələri olan – kriminalistikanın nəzəri və metodoloji əsasları, kriminalistik taktika və ayrı-ayrı növ cinayətlərin istintaqının kriminalistik metodikası – bölmələri ilə qarşılıqlı, ardıcıl, məntiqi əlaqədə olmaqla vahid, tam bir elm sahəsini təşkil edirl.

Kriminalistik texnika, izlərin əmələ gəlmə mexanizmindən asılı olaraq, onların aşkar edilməsi, götürülməsi, qablaşdırılması və rəsmiləşdirilməsində istifadə edilən elmi-texniki vasitələrin tətbiqi xüsusiyyətlərindən bəhs edir.

**Kriminalistik texnika –** kriminalistikanın bir bölməsi olub, törədilmiş cinayət hadisəsi ilə bağlı məlumatların aşkar olunması, götürülməsi, qeyd edilməsi, toplanmış məlumatların tədqiq edilməsi, həmçinin cinayətin qarşısının alınması məqsədilə elmi-texniki vasitələrin işlənib hazırlanması haqqında nəzəri müddəalardan və təkliflərdən ibarətdir.

Kriminalistik texnikanın özünün xüsusi vasitə və metodlarının hazırlanmasında təbiət və texniki elmlərin nailiyyətlərindən geniş istifadə edilir. Kimyanın, fizikanın, təbabətin, biologiyanın və digər elm sahələrinin metodları cinayət izlərinin aşkar edilməsinə və maddi sübutların tədqiqinə ədalət mühakiməsinin tələblərindən irəli gələn vəzifələrə uyğunlaşdırılaraq tətbiq edilmiş və bununla yanaşı, xüsusi kriminalistik metodlar da işlənib hazırlanmışdır. Nəticədə, kriminalistikada cinayətin açılması, istintaqı və qarşısının alınması üçün xüsusi hazırlanmış kriminalistik-texniki vasitələr sistemi yaradılmışdır. Sözsüz ki, kriminalistik texnikanın inkişafında xarici ölkələrin cinayətkarlığa qarşı mübarizədə əldə etdikləri böyük təcrübənin də geniş rolu olmuşdur.

İstintaq hərəkətlərinin səmərəli keçirilməsi üşün texniki-kriminalistik vasitələrin əhəmiyyəti böyükdür. Belə ki, məhz texniki-kriminalistik vasitələrin tətbiqi nəticəsində görünməyən və zəif görünən əl-barmaq izlərini, mikroobyektləri, cinayətin törədilməsi vasitələrini, gizli saxlanc yerlərində saxlanılan oğurlanmış qiymətli şeyləri və cinayət hadisəsinin digər hallarını, şübhə edilən şəxsin təqsirini sübut etmək üçün zəruri olan digər maddi sübutları aşkar etmək olur. Texniki-kriminalistik vasitələr protokoldan fərqli olaraq istintaq hərəkətinin aparıldığı şəraiti dolğun əks etdirməyə imkan verir, onun nəticələrinin yüksəlməsinə səbəb olur.

Axtarış əhəmiyyətli informasiyanın toplanmasında da texniki-kriminalistik vasitələrin rolu böyükdür. Onlardan istifadə etməklə bilavasitə hadisə yerində əl, ayaq, sındırma alətlərinin və nəqliyyat vasitələrinin izləri müəyyən olunur. Əldə edilmiş məlumatlar oğurluq, soyğunçuluq və quldurluq törədən şəxslərin «*isti izlərlə*» axtarılıb tutulmasına imkan verir.

Texniki-kriminalistik vasitələrdən əməliyyat-axtarış fəaliyyətində də istifadə olunur. Kriminalistik qeydiyyatlar, axtarışda olan cinayətkarların şifahi portretlərinin tərtib olunmasında istifadə edilən cihazlar və digər kriminalistik vasitələr cinayətin açılmasını, oğurlanmış əşyaların tapılmasını asanlaşdırır.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" 28 oktyabr 1999-cu il tarixli Qanunun 10-cu maddəsində əməliyyat işçilərinin: vətəndaşların sorğusu, soraqlaşma, telefon danışıqlarına qulaq asma, insanların güdülməsi, şəxsiyyətin eyniləşdirilməsi, müqayisəli tədqiqat üçün nümunələrin toplanması və s. kimi əməliyyat-axtarış vasitələrindən istifadə etmək hüquqları göstərilmişdir.

Laboratoriya şəraitində keçirilən tədqiqatlarda ekspert-kriminalistlərin həll etdikləri məsələlər çox vaxt cinayətlərin açılmasında və istintaqında həlledici rol oynayır.

Texniki-kriminalistik vasitələrin cinayətlərin profilaktikasında da böyük əhəmiyyəti vardır. Onların tətbiqi ilə cinayəti doğuran səbəb və şərait müəyyənləşdirilir və onları aradan qaldırmaq məqsədi ilə konkret tədbirlər hazırlanır. Məsələn, «ingilis qıfılları» adlanan qıfılların 2-3 dəqiqə ərzində cinayətkarlar tərəfindən plastilin, sabun və s. ilə açılması ilə əlaqədar ekspertin təklifi ilə onları hazırlayan 16 zavod qıfılın konsrtuksiyasını dəyişərək yol verilmiş çatışmazlığı aradan qaldırmışdır.

Hüquq-mühafizə orqanlarının cinayətkarlığa qarşı mübarizədə istifadə etdikləri elmi-texniki vasitələri 2 qrupa bölmək olar:

1. əməliyyat-texniki vasitələr (gecə görmə cihazları, digər müşahidə və texniki nəzarət vasitələri və s.);

2. əriminalist-texniki vasitələr (müxtəlif materiallar, cihazlar, aparatlar, alətlər və s.).

Göstərilən hər iki qrupda müxtəlif obyektlərin axtarılması, qeyd edilməsi, götürülməsi, məlumatların toplanması, tədqiq edilməsi, istifadə edilməsi üçün xüsusi texniki vasitələr mövcuddur.

Tədqiqat aparmaq üçün nəzərdə tutulmuş texniki vasitələr öz növbəsində iki qrupa bölünür. Onların bir hissəsi ibtidai istintaq zamanı əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətlərinin həyata keçirilməsində istifadə edilir. Digər hissəsi isə stasionar şəraitdə ekspert tədqiqatlarının həyata keçirilməsində tətbiq edilir. Onu da qeyd etmək lazımdır ki, bəzi texniki vasitələr hər 2 halda istifadə edilə bilər.

Texniki-kriminalistik vasitələrin təsnifatı müxtəlif əsaslara görə aparılır:

1. mənşəyinə görə;
2. tətbiq edən subyektə görə;
3. təyinatına görə.

A.İ.Vinberq və V.P.Kolmakov mənşəyinə görə texniki-kriminalistik vasitələri 3 növə bölürlər:

a) xüsusi kriminalistik məqsədlər üçün hazırlanmış (daktiloskopiya üçün hazırlanmış vasitələr, səyyar kriminalistik laboratoriyalar və s.);

b) kriminalistik məqsədlərin həyata keçirilməsinə uyğunlaşdırılmış texniki-kriminalistik vasitələr (fotoaparatlar, müxtəlif mikroskoplar və alətlər);

c) universal texniki-kriminalistik vasitələr.

Onu da qeyd etmək lazımdır ki, kriminalistik texnikanın tətbiqi cinayətlərin açılması və istintaqı ilə yanaşı, həm də onların qarşısının alınmasında da mühüm rol oynayır. Profilaktik tədbirlər həm də cinayətin törədilməsinə şərait yaradan halların aşkar edilməsi və qarşısının alınmasına və aradan qaldırılmasına

yönəlmişdir. Məsələn, pul əskinaslarının və qiymətli kağızların saxta yolla hazırlanması cinayətlərinin çoxalması ilə əlaqədar kriminalistlər tərəfindən təklif edilmiş kağızın tərkibinə xüsusi boyaların daxil edilməsi, blanklarda rekvizitlərin, müdafiə torlarının olması həmin saxtalaşdırmanın aşkar edilməsinə kömək edir.

Texniki-kriminalistik vasitələrin ekspert-kriminalistlər tərəfindən laboratoriya tədqiqatlarında istifadə edilərək, istintaq üçün əhəmiyyət kəsb edən çoxsaylı məsələləri həll etmələri danılmazdır.

Sözsüz ki, cinayətkarlar zaman keçdikcə cinayətləri törətmə üsul və vasitələrini dəyişirlər və bununla əlaqədar onlara qarşı mübarizə vasitələri də durmadan inkişaf edir, təkmilləşir. Məhz buna görə də kriminalistika elmi qarşısında duran mühüm məsələlərdən biri elmi-texniki üsul və vasitələrin profilaktika məqsədi ilə tətbiqi yollarının müasirləşdirilməsi və dərinləşdirilməsidir.

Professor N.A.Selivanov texniki-kriminalistik vasitələri iki əsas üzrə təsnif edir: mənşəyinə və təyinatına görə.

Mənşəyinə görə texniki-kriminalistik vasitələr 2 qrupa bölünür:

1. Xüsusi kriminalistik vəzifələrin həllinə uyğunlaşdırılmış ümumtexniki vasitələr (foto, kino, videoyazı, səsyazma və s. vasitələr);

2. Yalnız kriminalistik vəzifələrin həlli üçün nəzərdə tutulmuş vasitələr (kriminalistik təyinatlı xüsusi fotokameralar, əl izlərini aşkar edib götürmək üçün yod buxarı borusu və s.).

N.A.Selivanov texniki-kriminalistik vasitələri təyinatına görə də 2 qrupa bölür:

1. müstəntiq və kriminalistlər üçün sübutların aşkar edilməsi, götürülməsi, qeyd edilməsi üçün nəzərdə

tutulmuş texniki vasitələr (foto şəkilçəkmə, səsyazma, videoyazı aparatları və s.);

2. maddi sübutların tədqiqində istifadə edilən texniki vasitələr (məhkəmə tədqiqat fotoqrafiyasının istifadə etdiyi üsul və vasitələr, analitik lüminessensiya lampaları, lupalar, mikroskoplar və s.).

Texniki - kriminalistik vasitələr onları tətbiq edən subyektlərə görə: müstəntiq və təhqiqatçı (istintaq çantası, fotoaparat, axtarış vasitələri və s.), mütəxəssis və ekspert tərəfindən (müxtəlif tədqiqat aparatları) istifadə olunan vasitələrə bölünürlər.

Təyinatına görə texniki - kriminalistik vasitələr aşağıdakılara bölünürlər:

1. axtarıcı texniki - kriminalistik vasitələr;
2. obyektlərin qeyd edilməsi və götürülməsində istifadə olunan texniki – kriminalistik vasitələr;
3. obyektlərin tədqiq edilməsində istifadə olunan texniki - kriminalistik vasitələr ;

Kriminalistika elminin qarşısında duran məsələləri həll etmək üçün cinayət prosesində texniki vasitələrin tətbiqi aşağıda göstərilən prinsiplərlə uyğun olmalıdır:

1.texniki-kriminalistik vasitələrin tətbiqi vətəndaşların qanuni hüquq və mənafelərini pozmamalı, etik və əxlaq normalarının tələblərinə cavab verməlidir (humanistləşmə, demokratikləşmə və s.);

2.sübuti əhəmiyyət kəsb edən informasiya mənbələrinin və maddi sübut olan obyektlərin saxlanılması təmin edilməlidir. Texniki-kriminalistik vasitələri tətbiq edən subyektlərdən yalnız ekspertin səlahiyyəti çatır ki, tədqiq edilən obyektin xarici görkəmini dəyişə və ya onu sərf edib məhv edə bilsin (o da nadir hallarda);

3.istifadə edilən texniki - kriminalistik vasitələr elmi cəhətdən əsaslandırılmış və etibarlı olmalıdır. Eyni zamanda effektli, təhlükəsiz və iqtisadi cəhətdən sərfəli olmalıdır;

4.texniki - kriminalistik vasitələrin tətbiqi və onun nəticələri istintaq hərəkətləri və məhkəmə baxışı protokolunda, ekspertin rəyində və digər prosessual sənədlərdə öz əksini tapmalı, yəni qanuni olmalıdır. Eyni zamanda, texniki-kriminalistik vasitələr, ona səlahiyyəti çatan şəxslər tərəfindən tətbiq edilməlidir.

**Kriminalistik texnikanın tətbiq edilməsinin hüquqi əsasları**. Texniki - kriminalistik vasitələrin tətbiq edilməsinin iki forması mövcuddur:

1. **prosessual forma –** Azərbaycan Respublikası CPM-in normalarına əsasən;

2. **qeyri-prosessal forma –** əməliyyat-axtarış fəaliyyətində texniki-kriminalistik vasitələrdən istifadə edilməsi( «Azərbaycan Respublikası DİN-in 22.04.2002-ci il tarixli 155 saylı əmri ilə təsdiq edilmiş «Cinayətlərin qarşısının alınması, istintaqı və açılmasının və daxili işlər orqanlarının struktur xidmət sahələrinin qarşılıqlı əlaqəsinin təşkilinə dair»Təlimat»).

Kriminalistikanın tətbiqi o vaxt hüquqi cəhətdən əsaslı olur ki, onun tətbiqi cinayət-prosessual qanununda bilavasitə göstərilsin və ya tövsiyə edilsin, ya da ki, qanunun məzmunu bunun tətbiqinə zidd olmasın.

Əvvəla, bunlara ümumi hüquqi əsas Azərbaycan Respublikası CPM-in 8-ci maddəsində göstərilən cinayət-mühakimə icraatının vəzifələrində göstərilən tələblərdən irəli gəlir. Belə ki, şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətlərdən qorumaq, cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək, cinayət törətməkdə

ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq və təqsirsiz şəxslərə bəraət vermək məqsədilə ədalət mühakiməsini həyata keçirmək vəzifələrini yerinə yetirmək üçün istintaq prosesində bütün mühüm vasitə və metodlardan, o cümlədən elmi-texniki vasitələrdən istifadə edilməsi nəzərdə tutulmuşdur.

Digər tərəfdən, Azərbaycan Respublikası CPM-in bir sıra maddələri bu və digər texniki-kriminalistik vasitələrin tətbiqinin mümkünlüyünü bilavasitə göstərir. Məsələn, Azərbaycan Respublikası CPM-in 236.4-cü maddəsində qeyd edilir ki, «zəruri hallarda müstəntiq baxışın aparıldığı yeri, ayrı-ayrı əşyaları ölçür, yerin və ayrı-ayrı əşyaların plan, sxem və cizgilərini tərtib edir, imkan olduqda isə onların foto, video və kino çəkilişlərini aparır». Həmin məcəllənin 237.3 maddəsində göstərilir ki, meyitin qəbirdən çıxarılmasında müstəntiqin göstərişi və ya icazəsi ilə foto, video və kino çəkilişindən və ya digər yazan texniki vasitələrdən istifadə edilə bilər.

Texniki-kriminalistik vasitələrin əməliyyat-axtarış fəaliyyətində geniş tətbiq olunmasına hüquqi əsası müvafiq normativ aktlar verir.

### *Sual 2. Obyektlərin aşkar edilməsində, qeyd edilməsində və götürülməsində istifadə edilən texniki - kriminalistik vasitələr.*

İzlərin və obyektlərin aşkar edilməsi vasitələri çox müxtəlifdir. Onları bir neçə qrupa bölmək olar.

İzlərin və digər obyektlərin axtarılması zamanı müxtəlif işıqlandırma vasitələrindən istifadə olunur. Kriminalistikada istifadə olunan işıqlandırma vasitələrini məqsədlərindən asılı olaraq üç növə ayırmaq olar:

a)ümumi işıq verən vasitələr,

b)istiqamətləndirici işıqlandırma vasitələri,

v)xüsusi işıq mənbələri.

Xüsusi işıq mənbələrinə müxtəlif tipli ultrabənövşəyi qurğular aiddir. Ultrabənövşəyi şüalar zəif görünən və görünməyən qanı, spermanı, tər və insan orqanizminin digər ifrazatlarını, bəzi kimyəvi maddələri(neft məhsulları,yapışqan və s.) aşkar etməyə imkan verir. Amma yadda saxlamaq lazımdır ki, ultrabənövşəyi şüalarla bəzi izləri və obyektləri 5 saniyədən çox şualandırmaq olmaz, çünki bu onlarda bəzi dəyişikliklərin baş verməsinə səbəb olur.Hadisə yerində metal, dırnaq, boya hissəciklərini, atəş izlərini aşkar etmək üçün elektron-optik dəyişdiricilərdən istifadə olunur.

**Optik cihazlar**.Bəzi hallarda insan gözləri kiçik izləri və müxtəlif mikro obyektləri aşkar edə bilmir. Onların açkar edilməsi üçün böyüdücü optik vasitələrdən istifadə olunur. Sadə optik vasitələrə zərrəbinlər aiddir.İzlərin və digər obyektlərin aşkar edilməsi üçün müxtəlif zərrəbinlər– qatlanan, ştativli, ölçülü, və s. tətbiq olunur.

Bəzi hallarda istintaq hərəkətlərinin keşirilməsində mikroskoplardan da istifadə olunur.Bir qayda olaraq mikroskoplar maddi subutların tədqiqi mərhələsində istifadə olunur.

**Dərinin papilyar naxışlarını aşkar etmək üçün tətbiq edilən vasitələr**. İlk növbədə obyekt üzərində saxlanılmış papilyar naxışları optik (vizual) metodlarla axtarılması tövsiyyə edilir,çünki həmin metodlar izə və üzərində iz qalmış obyektə təsir etmir.Obyekt üzərində izləri yandan düşən və keçən işıq şüalarla aşkar etmək üçün müxtəlif işıqlandırma vasitələri tətbiq olunur (məsələn, Oİ-9,Oİ-19 və.s.).

Görunməyən papilyar naxışları aşkar etmək üçün müxtəlif tozlar- sink oksidi,qırmızı surquç tozu,sülugən, qrafit, his və s.(fiziki üsul) və ya reaktivlər – ninhidrin, ortodolidin,alloksan tətbiq olunur.

Metal, boya, hissəciklərin və digər izlərin aşkar edilməsi məqsədilə elektron optik dəyişdiricisindən istifadə olunur.

**Axtarıcı cihazlar və alətlər.** Basdırılmış meyitlərin axtarılmasında elektrik şup tətbiq olunur. Meyitin basdırıldığı yerin ətrafında olan torpağın elektrik keçirmə qabilyyəti digər yerlərə nisbətən daha yüksək olduğunu elektrik şup vasitəsi ilə müəyyən etmək olur. Sututarlarda meyit və onun hissələrini aşkar etmək məqsədilə «Tral»dan istifadə olunur.

Metal obyektlərin axtarılması üçün induksiyalı metalaxtaranlardan istifadə olunur.Kriminalistik məqsədlər üçün istifadə olunan metalaxtaranlara maqnit qaldırıcı “MİP“, “QAMMA”,maqnit axtarıcı “ İSKRA “ və s. misal göstərmək olar.Onlarda çatışmayan cəhət qara və əlvan metallara eyni dərəcədə reaksiya verməsidir.

**Sübutların qeyd edilməsi və götürülməsi vasitələri.** Maddi sübutların yığılmasının bir elementi də qeyd etmədir.Qeyd etmənin məqsədi sübutların predmetinə aid olan faktiki məlumatların prosessual qaydada əks etdirilməsidir. Sübut əhəmiyyəti kəsb edən məlumatların qeyd etmə vasitələri informasiyanın növündən asılıdır.

Qeyd etmənin müxtəlif formaları istifadə olunur:

Verbal – protokollaşdırma, səsyazma;

Qrafik – qrafik əks etmə (sxemli və miqyaslı plan, çertyoj, rəsm, eyni zamanda rəsm üsulu ilə çəkilmiş portretlər);

Əşyavi təsvir - əşyanın özünün götürülməsi,onun surətinin hazırlanması ( müxtəlif kütlə və mateiallardan istifadə olunur );

Əyani təsvir – foto , kino və video çəkilişlər.

Əl-barmaq,yalın ayaq izlərinin götürülməsi üçün xüsusi daktiloskopik plyonkalardan istifadə olunur. Ayaqqabı, nəqliyyat vasitələri, sındırma izləri müxtəlif kütlələrlə götürülür. Onlara plastilin, parafin, gips, "K" pastası və digər bərk və maye kütləleri misal gətirmək olar.

Mikroobyektlərin götürülməsi üçün xüsusi yapışqan lentlərdən və qurğulardan (məsələn ,"Parus") istifadə edilir.

Cinayət işi üzrə istintaq hərəkətlərinin keşirilməsində elmi-texniki vasitələrin dəstlərindən də istifadə olunur. Bunlara hadisə yerinə baxış, axtarış üçün üniversal dəstlər və ya hadisə yerində əl-barmaq,ayaq,sındırma izləri ilə, mikroobyektlərlə, bioloji mənşəli izlərlə işləmək üçün, narkotiklərin ekspert analizi üçün və digər xüsusi dəstləri göstərmək olar.

***Sual 3. Obyektlərin tədqiq edilməsinin texniki-kriminalistik vasitələri və metodları***

Obyektlərin ilkin tədqiqi zamanı mikroskoplar, lupalar, xətkeşlər, ruletkalar, pərgarlar və s. texniki vasitələr tətbiq olunur.

Axtarılan şəxslərin kompozision portretini tərtib etmək üçün İKR-2 cihazından istifadə edilir. Bundan əlavə: civə, kvars lampaları, elektron optik dəyişdiricisi, narkotik maddələrin ekspress analizi üçün «Politest» dəsti, «Kontrast» cihazı (bu cihaz nəqliyyat vasitələrinə baxış zamanı zavod nömrələrinin dəyişdirilməsi hallarını, boya örtüklərinin qalınlığını müəyyən etməyə imkan

verir), «Kinovar» cihazı (portfellərdə, çantalarda, paltarların ciblərində gizlədilmiş qızılın aşkar edilməsi üçün) və s. tətbiq edilir.

Ekspert tədqiqatlarında «Ularus» qurğusundan geniş istifadə edilir. Bu universal qurğu əl, sındırma alət və vasitələrinin izlərinin, sənədlərin və s. obyektlərin şəklinin çəkilməsi və tədqiqi üçündür. Bu qurğuda infraqırmızı və ultrabənövşəyi şüalar vasitəsilə şəkilçəkmə, makro və mikro şəkilçəkməni həyata keçirmək, diopozitivləri hazırlamaq da mümkündür.

Güllələr, gilizlər və patronlar üzərində qalmış mikroizləri tədqiq etmək, meyitdən çıxarılmış güllə üzərindəki izlərlə eksperimental güllənin üzərindəki izləri optik üst-üstə qoyma metodu ilə tutuşdurulması üçün müqayisəli kriminalistik mikroskopdan istifadə edilir (MKM). Bu qurğudan eyni zamanda, kağız və metal pulların, möhür və ştampların əkslərini tədqiq etmək üçün də istifadə edilir.

Odlu silahların hissə və mexanizmlərindən güllənin, patronun, gilizin üzərində qalan izlərin, həmçinin butulkanın, stəkanın yan səthlərində qalmış əl izlərinin şəklinin çəkilməsi üçün «Razvyortka» qurğusu mövcuddur. Çətin görünən əl izlərinin komission tədqiqi üçün «Daktiloskopiya» qurğusu tətbiq edilir.

**Spektral analiz** vasitəsilə naməlum maddəni və onun kimyəvi tərkibini müəyyən edirlər. Bu metal lak-boya örtüklərinin, yanacaq-sürtkü materiallarının və s. tədqiqi zamanı tətbiq edilir.

**Lüminessensiya analizi** bəzi maddələrin onlara infraqırmızı və ultrabənövşəyi şüalar vasitəsilə təsir edən zaman işıq şüaları buraxmasına əsaslanır.

**Xromotoqrafiya metodu** maddələrin tərkib hissələrinə parçalanmasına əsaslanır. Bu metod bəzi neft

məhsullarının, sintetik maddələrin, spirt məmulatlarının, tez alışan materialların tədqiqində istifadə edilir.

**Elektroforez metodu** boyaların, mürəkkəblərin, yapışdırıcı və s. maddələrin tədqiqində istifadə edilir.

Son vaxtlar hüquq-mühafizə orqanlarında təyinatına və qablaşdırılmasına görə fərqlənən müxtəlif istintaq çantalarından istifadə olunur.

Daxili işlər orqanlarında universal və unifikasiya olunmuş çantalarından stifadə olunur. Onlar müstəntiqlər, təhqiqatçılar və kriminalistlər üçün nəzərdə tutulmuşdur. Bu çantalarda əl izlərini aşkar edib götürmək üçün müxtəlif tozlar, daktiloplyonkalar, fırçalar və digər texniki vasitələr, həcmi izlərin surətlərini hazırlamaq üçün gips, «K» və «U» silikon pastaları və kütlələr, «Prelest» lakı, plan və sxemləri tərtib etmək üçün ruletka, xətkeş, ştangenpərgar, kompas, «Zenit» fotoaparatı, fotolent üçün kasetlər, fotofokus saganaqları, miqyas xətkeşi, götürülən obyektləri qablaşdırmaq üçün şüşə qablar, polietilen kisələr, qayçı, eləcə də elektrik fənəri, çəkic, bıçaq və s., olur.

Ən universal kriminalisti dəstələr səyyar kriminalistik laboratoriyalardır. Onlar müxtəlif növ nəqliyyat vasitələri üzərində quraşdırılmışdır. Bu laboratoriyalar hadisə yerinə baxış keçirmək və digər istintaq hərəkətlərinin keçirilməsi üçün nəzərdə tutulmuşdur. Laboratoriya əsas və əlavə bölmələrdən ibarətdir.

Əsas bölmədə müxtəlif prosessual və texniki (dindirmə protokolun tərtib edilməsi və s.) hərəkətlər, əlavə bölmədə isə fotomaterialların hazırlanması, şəkillərin çıxarılması, maddi sübutların tədqiqi və s. həyata keçirilir.

# *Mövzu 5:*

# *Kriminalistik fotoqrafiya, video və səsyazma*

PLAN:

1. Kriminalistik fotoqrafiyanın anlayışı, prinsipləri və vəzifələri
2. Əksedici və tədqiqedici fotoqrafiyanın metodları
3. İstintaq hərəkətlərinin aparılmasında fotoşəkilçəkmənin, kinofilmçəkmənin və videoyazının tətbiqi

## *Sual 1. Kriminalistik fotoqrafiyanın anlayışı, prinsipləri və vəzifələri*

Cinayət işləri üzrə istintaqın aparılması və ədalət mühakiməsinin həyata keçirilməsi keçmişdə baş verən hadisə və faktların öyrənilməsi ilə müşayiət olunur. Bütün bunlar cinayət işinin materiallarında elə əks olunmalıdırlar ki, onların doğrudan da mövcud olmalarına nəinki müstəntiq, eləcə də cinayət prosesinin digər iştirakçıları, o cümlədən də məhkəmə inana bilsin.

Bu inamın yaranmasında kriminalistik texnikanın bir sahəsi olan kriminalistik fotoqrafiyanın xüsusi rolu vardır.

Məqsəd və üsulların xüsusiyyətləri kriminalistik fotoqrafiyanı ümumi fotoqrafiyadan xeyli fərqləndirir. Kriminalistik məqsədlərlə fotoqrafiyanın uzun müddət tətbiq edilməsi nəticəsində kriminalistik (məhkəmə) fotoqrafiyasının prinsipləri işlənib hazırlanmışdır. Onlar aşağıdakı prinsiplərdir:

1. Retuşun yol verilməməsi;

2. Perspektiv əyriliyin mümkün qədər azaldılması ilə şəkillərin çıxarılması;

3. Rəng ötürmələrinin maksimum saxlanılması;

4. Fotoşəkillərə görə çəkilmiş obyektlərin ölçüsünü müəyyən etməyə və şəkilə görə ölçülməsinə imkan verən qaydalara əməl olunması;

5. Fotoşəkilçəkmənin və onun çəkilmə şəraitinin mütləq qaydada sənədləşdirilərək qeyd olunması.

Kriminalistik fotoqrafiyanın əhəmiyyəti maddi izləri qeyd edən digər qeydetmə üsullarından (protokoldan, plandan, sxemdən, rəsm çəkmədən və s.) üstünlüyü ondadır ki, hadisənin obyektlərini, şəraitini və detallarını daha inandırıcı, tam və əsaslı təvir edir və cinayət, mülki və eləcə də inzibati proseslərdə bir çox məsələlərin həll edilməsində geniş istifadə edilir.

Kriminalistik fotoqrafiya aşağıdakı əsas məsələləri həll etməyə xidmət edir:

1. faktların əyani və bilavasitə qavranılmasına imkan verir;

2. şəraitin və obyektlərin bir-biri ilə qarşılıqlı münasibətlərini sonradan qavranılması üçün saxlayır;

3. görünməyənləri və zəif görünənləri aşkar edir;

4. müstəntiqin, ekspertin və hakimin tədqiqat fəaliyyətinin mərhələlərini qeyd edir;

5. xəbərdaredici və tərbiyəedici funksiyaları icra edir.

Kriminalistik fotoqrafiya ümumi fotoqrafiyanın sonradan yaradılmış yeni sahəsidir. Ona görə də əvvəl, tarixi baxımdan, fotoqrafiyanın nə vaxt və necə yaranmasına, sonra isə kriminalistik fotoqrafiyanın yeni sahə kimi formalaşması zərurətinə nəzər salaq.

"Fotoqrafiya" yunan sözü olub «*fotos*» şüa, «*qrafo*» yazı sözlərinin cəmindən əmələ gəlməklə «şüa yazısı» deməkdir. Fotoqrafiya haqqında ilk anlayış günəş şüasının təsiri ilə bir çox cisimlərin öz rəngini dəyişməsindən irəli gəlmişdir.

Məlum olduğu kimi, günəş şüalarının təsiri ilə insanın dərisi qaralır (məsələn, çimərlikdə), parça, kağız və s. cisimlər öz əvvəlki rəngini dəyişir. Bütün bunlar işıq şüaları vasitəsilə rənglərini dəyişdirərək şüa yazısı almağın mümkün olduğunu göstərmişlər.

Hələ X əsrdə ərəb alimi Alhəzən günəşi müşahidə etmək üçün «obskur» kamerasından istifadə etməyi təklif etmişdir. Fotoaparatın quruluşu haqqında ilk elmi fikiri isə XIII əsrdə görkəmli fizik Bekon Roççer söyləmişdir. 1457-ci ildə Leon Battista Alberti ərəb alimi Alhəzənin ideyası əsasında «Kamera obskur» aparatı düzəltmişdir. O, içərisində insan yerləşə bilən qutudan ibarət idi. Onun qabaq tərəfindən kameranın içərisinə doğru kiçik dairəvi pəncərə açılırdı. Həmin pəncərəyə obyektiv rolunu oynayan böyüdücü eynək şüşəsi qoyulurdu. Beləliklə, istənilən cismin təsviri kameranın içərisinə düşərək həkk olunurdu.

XVI əsrin axırlarında alman alimi Fabritsius gümüş-xloridin günəş şüası ilə qaralmasını müəyyən etmişdir.

XIX əsrdə ingilis fiziki Con Herşel və alman alimi Tomas Zeyerbak işığa həssas kimyəvi maddələr üzərində təbii rəngləri almağa müvəffəq olmuşlar.

Uzun ixtiralardan sonra fransalı Jozef Nyeps «Kamera obskur» aparatı ilə aldığı fototəsviri xörək duzu məhlulunda bərkidərək birinci fotoqrafiya prosesini ixtira etmişdir. Lakin o, öz ixtirasını elan etmədən ölmüşdür. Onun işini həmyerlisi, rəssam Lui-Jak Daqerr davam etdirmişdir. O, isə ikinci fotoqrafiya prosesini ixtira etmişdir. 7 yanvar 1839-cu ildə fransız fiziki D.Araqo Paris Akademiyasında Nyeps və Daqerrin kəşfləri barədə məruzə etmiş və metal lövhələr üzərində predmetlərin optiki əksinin alınmasının mümkün olmasını söyləmişdir.

Üçüncü fotoqrafiya prosesini isə ingilis alimi Uilyam Henri Foks Talbot kəşf etmişdir.

Fotoqrafiyanın tam kəşfindən sonra Avropanın bir sıra şəhərlərində daqerrotipiya üsulu ilə gümüş lövhələrə fotoşəkillər çəkmək üçün kabinalar açılmışdır. Lakin fotoşəkillər bu üsul ilə baha başa gəldiyi üçün başqa üsula ehtiyac duyulurdu. 1851-ci ildə şüşə lövhə üzərinə jelatin emulsiyası təbəqəsi çəkərək, yaş halda fotoaparata qoyularaq üzərinə şəkil çəkilməyə başlanılmışdır.

1871-ci ildə ingilis həkimi Riçard Medoks jelatindən hazırlanmış emulsiyanın qurudulduqdan sonra da işığa həssas olmasını öyrənmişdir. Bir az sonra məlum olmuşdur ki, gümüş bromid də eyni xassəyə malikdir. Axırıncıdan hazırda emulsiyanın işığa həssaslığını artırmaq üçün istifadə edilir.

Nəhayət, XIX əsrin 80-ci illərinin sonunda rus alimi İ.Boldıryev sudan və istidən qorxmayan şəffaf və elastik maddə ixtira etdi. Amerikanın «İsmen-Kodak» firması isə şəffaf və elastik sellüloiddən hazırlanmış fotolentin istehsalına başladı. Bu isə fotoaparatın konstruksiyasını dəyişib kiçik ölçüyə salmağa imkan yaratdı, fotoşəkilçəkmə prosesini xeyli sadələşdirdi.

Biz ümumi fotoqrafiyanın yaranma tarixinə nəzər saldıq. Bəs məhkəmə fotoqrafiyası necə yaranıb?

İlk vaxtlar fotoqrafiyadan cinayətkarların şəxsiyyətini əks etdirmək üçün istifadə edilirdi. Lakin az sonra sənədlərin tədqiq edilməsində, hadisə yerinə baxış keçirilməsində istifadə edilməyə başlandı. Bununla da ümumi fotoqrafiyanın yeni sahəsi – məhkəmə fotoqrafiyası həm nəzəri, həm də təcrübi olaraq meydana gəldi.

Avstriya məhkəmə müstəntiqi, kriminalist-alim Hans Qross yazdığı «Məhkəmə müstəntiqləri üçün rəhbərlik» əsərində məhkəmə işləri üzrə fotoqrafiyanın tətbiqinə dair xüsusi bölmə ayrmışdı.

Bu sahədə rus alimi, kriminalist E.F.Burinskinin xidməti böyük olmuşdur. O, 1889-cu ildə dünyada birinci olaraq Sankt-Peterburqda məhkəmə fotoqrafiyası laboratoriyası yaratmışdır.

İstintaq hərəkətlərində fotoqrafiyadan istifadə edilməsində görkəmli kriminalist-alim A.Bertilyonun da xidməti danılmazdır. O, hadisə yerinin fotoşəklini çəkmək üçün xüsusi tipdə bir neçə fotoaparatlar ixtira etmişdir. Bertilyonun aparatları xüsusi konstruksiyada hazırlanmış dayaq ilə birlikdə istehsal edilirdi. Həmin dayağa bərkidilmiş fotoaparatla hadisə yerinin panoramını və meyitin şəklini müxtəlif nöqtələrdən çəkmək olurdu.

A.Bertilyon məhkəmə fotoqrafiyasına dair bir sıra təlimatlar da hazırlamışdır. O, ölçücü fotoşəkilçəkmə texnikasını kəşf etmişdir.

Fotoqrafiyanın üstün cəhətlərindən biri odur ki, o, başqa sənədlərə nisbətən gerçəkliyi daha inandırıcı qaydada əks etdirir. Fotoşəkilə baxarkən düşünülür ki, fotoşəkili çəkən vaxt orada təsvir edilən predmet, fotoobyektiv qarşısında mövcud olmuşdur. Buna görə də fotoşəkil üzərində göstərilən təsvirə hamı inanır.

Bəzi hallarda gələcək istintaq üçün əhəmiyyəti olan izlərin və maddi sübutların hamısını götürmək mümkün olmur. Bir çox izlər tez silinərək itib gedir. Məsələn, asfalt yolun üzərində qalmış avtomaşının suya batmış təkərinin izi, az bir müddət ərzində itərək (buxarlanaraq) yox olur. Lakin həmin izin vaxtında fotoşəkili çəkilərsə, ondan cinayətin açılmasında və ayrı-ayrı halların müəyyən edilməsində istifadə etmək mümkündür.

Digər tərəfdən, hadisə yerində ilk baxışda əhəmiyyətsiz görünən şeylər bəzi hallarda protokolda əks etdirilmir. Lakin hadisə yerində elə şeylər ola bilər ki, onlar müayinə zamanı müstəntiqin, yaxud əməliyyat işçisinin nəzərini cəlb etməsin. İlk baxışda əhəmiyyətsiz görünən, yaxud nəzərdən qaçırılan bəzi şeylərin sonradan ibtidai, istərsə də məhkəmə istintaqı zamanı iş üçün çox böyük əhəmiyyəti ola bilər. Buna görə də bir çox hallarda, xüsusilə ölüm, avtomobil qəzası hadisələrinin və s. hadisə yerinin vəziyyətini protokol, sxem və planda əks etdirməklə kifayətlənmək olmaz. Yuxarıda göstərilən nöqsanlara yol verməmək üçün hadisə yerinin fotoşəkli müvafiq qaydada çəkilməlidir.

İnsan gözünün görmə və qavrama qabiliyyəti foto-obyektivin qavrama qabiliyyətinə nisbətən məhduddur. Məsələn, döşək ağında olan yuyulmuş qan ləkəsini ilk baxışda görmək olmur. Lakin fotoqrafiya işıq süzgəcinin köməyi ilə həmin qan ləkəsini çox yaxşı göstərir. Ona görə də fotoqrafiyanın belə üstün xüsusiyyətindən səmərəli istifadə etmək üçün bütün cinayət işləri üzrə istintaq hərəkətləri zamanı - hadisə yerinə baxış keçirərkən, axtarış zamanı və s. hallarda diqqətli və dəqiq hərəkətlər edilməlidir.

Kriminalistik fotoqrafiyadan, kinoçəkmədən, video və səsyazma vasitələrindən istintaq təcrübəsində həm sübutların əyaniliyini təmin etmək, həm də insanın hiss

orqanlarının adi şəraitdə qavraya bilmədiyi izləri və obyektləri aşkar etmək üçün istifadə edilir. Bundan əlavə, həmin vasitələr insan yaddaşının əyani təsvirini də təmin edir.

Hadisə yerinə baxış bir qayda olaraq, fotoşəkilçəkmə ilə müşayiət olunur. Kriminalistik informasiyanın daşıyıcıları olan izlərin və digər obyektlərin fotoşəkilləri onun protokolda təsvir edilməsini tamamlayır və müstəntiqin işlədiyi şərait haqqında əyani təsəvvür yaradır.

Fotoqrafiya ayrı-ayrı istintaq hərəkətlərinin aparılması ilə əlaqədar tərtib edilmiş protokollara, sxemlərə və planlara nisbətən daha dəqiq qeyd etmə vasitəsidir. O, fotoşəkli çəkilmiş predmetlər barədə daha aydın təsəvvür yaradır.

Fotoşəkilçəkmədən kriminalistik ekspertizaların keçirilməsi zamanı istifadə edilməsi daha mühüm əhəmiyyət kəsb edir. Bu zaman ondan təkcə ekspert rəyinin əsasını təşkil edən obyektlərin əlamətlərinin əyani təsvirini vermək vasitəsi kimi deyil, həm də tədqiqat zamanı ekspertizanı maraqlandıran halların aşkar, təhlil və müqayisə edilməsi vasitəsi kimi istifadə edilir.

Beləliklə, məhkəmə (kriminalistik) fotoqrafiya, video və səsyazma - kriminalistik texnikının bir sahəsi olub, istintaqın qarşısında duran vəzifələri həll etmək məqsədilə obyektlərin, faktların əksini almaq, qeyd və tədqiq etmək üçün texniki vasitələrin və metodların tətbiq edilməsi haqqında elmi müddəalar sistemidir.

Kriminalistik fotoqrafiyanın, video və səsyazmanın əsasını ümumi xarakterli universal texniki vasitələr və metodlar təşkil edir.

Fotoqrafiyada fizikanın, kimyanın və digər elmlərin nailiyyətlərindən istifadə edilməsi nəticəsində texniki

müvəffəqiyyətlərə nail olunmuşdur. Fotoqrafiya hazırda insan həyatınn müxtəlif sahələrində geniş tətbiq olunur.

Müasir fotoqrafiya qaranlıqda, dumanda şəkil çəkmək, insan gözünün görə bilmədiyi obyektləri aşkar etmək imkanlarına malikdir.

Kino çəkmə ilə müqayisədə videoyazının bir çox üstünlükləri vardır. Belə ki, ondan istifadə etmək çox sadə və əlverişlidir. Videoyazıdan istifadə edərkən obyektlərin əyani təsviri çəkilir, həm də kadr səsləndirilir. Eyni zamanda, izahedici yazılar vermək də mümkündür. Əgər lazım gələrsə, bu və ya digər  obyektlərin nümayişi zamanı istənilən detalın ətraflı tədqiqi üçün «*stopkadr*»lardan istifadə edilir.

### *Sual 2. Əksedici və tədqiqedici fotoqrafiyanın metodları*

Kriminalistik fotoqrafiya əksedici və tədqiqedici şəkilçəkmə metodlarına görə də bir-birindən fərqlənir.

Əksedici şəkilçəkmənin müxtəlif üsulları vardır. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

**Panoram şəkilçəkmə –** şəkilçəkmənin bu üsulundan əsasən  bir kadra yerləşməyən obyektlərin şəkillərinin çəkilməsi zamanı istifadə edilir.

Panoram şəkilçəkmə obyektin şəklinin hissələrlə çəkilməsi deməkdir. Bu zaman şəkli çəkilən hissələr 10-15% bir-birinin üzərinə düşməlidir (təkrarlanmalıdır). Panoram şəkilçəkmə zamanı adi kiçik formatlı fotoaparatlardan və yaxud panoram fotoaparatlardan («AN2», «Qarizont» tipli aparatlar) istifadə edilir.

Panoram şəkilçəkmə öz növbəsində dairəvi və xətti panorama ayrılır.

**Dairəvi panoram şəkilçəkmə –** obyektlər bir müstəvi üzərində olmadıqda və ya bir-birinə nisbətən müəyyən bucaq altında yerləşdikdə, həmçinin onları bir nöqtədən çəkmək daha əlverişli olduğu zaman tətbiq olunur. Bu zaman adətən, fotoaparat tərpənməz dayağa bərkidilir və hər dəfə müəyyən bucaq altında döndərilir. Əgər fotoaparat dayağa bərkidilməyib əl ilə adi qaydada çəkilərsə, onda çəkilən kadrların üst və ya alt xətlərinin bir ümumi xətt üzrə uzanmasına diqqət yetirilməli və bu zaman şəkli çəkilən obyektin necə əhatə olunmasına fikir verilməlidir. Belə ki, panoram fotoşəkilçəkmə əl ilə, yəni dayaqsız (ştativsiz) çəkilən zaman fotoaparat hər sonrakı kadr çəkilərkən nəzərə çarpmadan əvvəlki kadra nisbətən yuxarı və ya aşağı enir ki, bu da sonra pozitiv prosesdən sonra fotoşəkillər birləşdirilərkən onların bir xətt üzrə deyil, «pilləli» olmasına gətirib çıxarır.

**Xətti panoram şəkilçəkmə –** şəkli çəkilən obyektlər bir xətt boyunca yerləşdikdə istifadə olunur. Bu zaman ayrı-ayrı şəkilçəkmələr vaxtı şəkli çəkilən obyektlərin olduğu xəttə paralel olan xətt boyunca şəkli çəkilməlidir. Hər bir hissənin şəkli çəkilərkən əvvəlki kadrın 10-15 %-i növbəti kadrda təkrar olunmalıdır. İstər dairəvi və istərsə də xətti panoram şəkilçəkmə həm şaquli, həm də üfüqi istiqamətdə aparıla bilər. Məsələn, hadisə yerində olan yüksək mərtəbəli binanın, asılı vəziyyətdə olan meyitin və uca ağacın fotoşəklini çəkərkən şaquli panoramdan istifadə edilir.

Panoram şəkilçəkmə bütünlüklə eyni şəraitdə çəkilməli, həmçinin kadrlar eyni şəraitdə aşkarlanmaqla çap olunmalıdır.

**Stereo şəkilçəkmə –** müəyyən sahədə olan obyektlərin həcmi və onların bir-birinə nisbətən yerləşmə vəziyyətini müəyyən etməyə imkan verən şəkilçəkmə üsuludur. Bu üsuldan adətən, hadisə yerində çoxlu

miqdarda əşya olduqda, meyitin vəziyyətinin, ayaq izlərinin, sındırma alət izlərinin, nəqliyyat izlərinin və s. şəklinin çəkilməsində istifadə olunur.

Stereo şəkilçəkmə həm xüsusi stereo fotoaparatla («Sputnik»), həm də adi kiçik formatlı «Zenit» fotoaparatı ilə aparıla bilər. Lakin adi fotoaparatlarda bunun üçün ştativ xüsusi stereoplanka bərkidilməlidir. Fotoaparat stereoplankaya bərkidilir, əvvəlcə aparat stereoplankanın sağ kənarına gətirilir və bu vəziyyətdə birinci şəkil çəkilir. Sonra isə aparat göz bəbəkləri arasında orta məsafəyə qədər (təqribən 65 mm) sol tərəfə çəkilir və bu vəziyyətdə ikinci şəkil çəkilir. Nəticədə eyni obyektin iki şəkli alınır. Bu isə *stereocütlük* adlanır. Alınan şəkilləri montaj etdikdə obyektin həcmi də nəzərə çarpır. Lakin montaj etdikdə sağ tərəfdə çəkilmiş şəkil sol tərəfdə yerləşdirilməlidir. Nəzərə almaq lazımdır ki, stereocütlüyün hər iki şəkli eyni şəraitdə çəkilməli və eyni laboratoriya şəraitində aşkarlanıb çap olunmalıdır. Streocütlüklərə stereoskop vasitəsilə baxanda da şəkli çəkilən obyektin həcmi haqda adi şəraitdə olduğu kimi real təsəvvür yaranır.

**Ölçücü şəkilçəkmə** miqyas və metrik fotoşəkilçəkmə üsulu ilə aparıla bilər.

Miqyas şəkilçəkmədə şəkli çəkilən obyektlər miqyasla çəkilir. Bunun üçün sm və ya mm-lərlə bölünmüş xətkeşlərdən istifadə olunur. Bu zaman alınmış şəkildə obyektin və xətkeşin ölçüləri arasındakı münasibət olduğu kimi alınır və əlavə hesablamaya ehtiyac qalmır. Miqyas şəkilçəkmədə şəkli çəkilən obyektin səthi fotolövhəyə və yaxud fotolentə paralel vəziyyətdə olmalıdır. Müəyyən təhriflərin alınmaması üçün miqyas şəkilçəkmə zamanı obyektivin optik oxu mütləq şəkli çəkilən səthə perpendikulyar vəziyyətə gətirilməlidir. Miqyas şəkilçəkmə əsasən səthi izlərin və

kiçik ölçüdə olan obyektlərin səthinin şəklini çəkən zaman tətbiq olunur.

Metrik şəkilçəkmə ayrı-ayrı istintaq hərəkətləri zamanı müəyyən obyektlərin forması, ölçüsü və yerləşmə vəziyyətinin dəqiq qeyd olunması məqsədi ilə aparılır.

Metrik şəkilçəkmənin bir neçə variantları vardır. Bunlardan ən sadəsi dərinlik miqyas ilə metrik şəkilçəkmədir. Bunun üçün fotoaparat ştativə elə bərkidilməlidir ki, fotolent və fotolövhə səthi mütləq döşəməyə və ya yerə şaquli istiqamətdə olsun. Bu dərinlik miqyası vasitəsi ilə çəkilir. Dərinlik miqyası şkalasının nöqtəsi düz obyektivin altında müəyyən edilməlidir. Dərinlik miqyası təqribən 8-9 metr uzunluğunda kağız lent olub, üzərində müəyyən bölgülər vardır. Bu bölgülərin hər biri həmin aparatın obyektivinin əsas fokus məsafəsinin ölçüsünə bərabər olur. Əsas fokus məsafəsi 5 sm olan kiçik formatlı fotoaparatlarla şəkil çəkildikdə bu bölmələrin də ölçüsü 5 sm olur. Daha aydın olmaq üçün bölmələr bir-birindən qara xanələrlə ayrılır və birini keçmək şərti ilə nömrələnir. Obyektin şəkli dərinlik miqyası ilə birlikdə çəkilir.

Metrik şəkildə obyektdəki predmetlər arasında olan məsafəni müəyyən etmək olar. Dərinlik masştabı vasitəsi ilə fotoşəkildə alınan ölçülər fokus məsafəsinə nisbətən neqativ azaltmaya əsaslanır. Bu münasibət N-1 ilə ifadə olunur (N – burada neqativ azaltmanın sayını göstərir). Əgər obyektin 20 dəfə kiçildilmiş əksini almaq lazımdırsa, onda aparatı həmin obyektdən 21 fokus məsafəsi qədər aralı yerləşdirmək lazımdır. Dərinlik miqyası ilə şəkilçəkmə obyektin ölçüsünü müəyyən etməyə imkan verir. Bunun üçün dərinlik miqyasının elə nömrəsi götürülməlidir ki, şəkli çəkilən obyektin olduğu sahənin səthinə uyğun gəlsin. Həmin nömrədən vahid çıxılır və nəticədə azaltma əmsalı alınır. Şəkildə bizi

maraqlandıran məsafəni ölçüb onu azaltma əmsalına vurmaqla predmetin həqiqi ölçüsünü müəyyən edə bilərik. Tutaq ki, şəkli çəkilən qutunun uzunluğu fotoşəkildə 2 sm-dir. Dərinlik miqyasında qutunun yerləşdiyi vəziyyət 40-cı bölgüyə uyğun gəlir. Bu halda azaltma əmsalı 39 (40-1) olacaqdır. Qutunun həqiqi uzunluğu 78 sm (2 sm x 39) olacaqdır. Predmetlər arasındakı məsafəni ölçmək üçün fotoaparatla hər bir obyektin frontal səthi arasındakı məsafə ölçülməlidir. Tutaq ki, birinci obyekt dərinlik miqyasında 5-ci bölgüyə uyğun gəlir. Deməli, aparatdan ona qədər olan məsafə 100 sm (5 x 20) olacaqdır. İkinci predmet isə dərinlik miqyasının 30-cu bölgüsünə uyğun gəlsə, ona qədər olan məsafə 150 sm (30 x 5) olacaqdır. Bu halda predmetlər arasındakı məsafə 50 sm (150-100) olacaqdır. Beləliklə, şəkli çəkilən predmetlər arasındakı həqiqi məsafəni müəyyən etmək olur.

## Reproduksiya şəkilçəkmə

Səthi obyektlərin, sənədlərin, fotoşəkillərin, çap olunmuş mətnlərin və s. surətini çıxarmaq üçün istifadə olunan üsuldur. İstintaq təcrübəsində sənədlərin əslinin (maddi sübutların) surətini çıxarmaq məqsədi ilə reproduksiya şəkilçəkmə üsulundan geniş istifadə olunur. Reproduksiya şəkilçəkmə zamanı xüsusi reproduksiya fotoaparatlarından və ya kiçik formatlı aparatlardan ("Zenit" tipli aparat) istifadə edilir.

Reproduksiya şəkilçəkmə zamanı miqyas şəkilçəkmənin bütün qaydalarına əməl olunmalıdır. Bu zaman şəkli çəkilən obyektin güclü və bərabər işıqlandırılması lazımdır. Bunun üçün hər iki tərəfdə olan

lampaların sayı bərabər olmalıdır. Əlyazmaların və rəngli obyektlərin şəklinin işıq süzgəcləri vasitəsi ilə çəkilməsi məsləhətdir. Kiçik formatlı fotoaparatlarda reproduksiya şəkilçəkmə ya ştativ vasitəsi ilə və yaxud RU, yaxud URU xüsusi foto cihazları ilə aparılmalıdır. Bu üsulla şəkilçəkmə zamanı neqativ materiallar şəkli çəkilən obyektin növündən asılı olaraq götürülür.

Bəzi hallarda sənədlərin surəti fotoaparat istifadə olunmadan da çıxarıla bilər. Bu üsula **refleks şəkilçəkmə** deyilir. Refleks şəkilçəkmə üsulu az miqdarda fotosurət almağa imkan verir. Əlbəttə, bu üsulla alınmış surətin keyfiyyəti fotoaparat vasitəsi ilə alınmış surətlərə nisbətən aşağı olur.

Refleks şəkilçəkmə zamanı obyektin üzərinə qırmızı və narıncı rəngli işıqda xüsusi refleks kağızının emulsiya olunmuş tərəfi qoyulur və üstdən şüşə vasitəsi ilə sıxılır. Refleks kağızı olmadıqda yüksək konrastlı fotokağızlardan istifadə olunur. Sonra şüşənin üzərinə lazım qədər işıq salınır. Bu işıq fotokağızdan keçərək açıq hissələrdə əks edilir, tünd hissələrdə isə udulur. Nəticədə əks olunmuş şüalar gizli əksində refleks həkk olunmasına səbəb olur. Sonradan refleks kağızı aşkarlanır, bərkidilir və qurudulur. Alınan neqativ əksdən kontakt üsulu ilə pozitiv alınır.

## Kiçik formatlı aparatlarla böyük miqyaslı şəkilçəkmə

"Zenit" tipli fotoaparatların quruluşunun xüsusiyyətləri 0,65 m-dən az olan məsafədə şəkilçəkməyə imkan vermir. Bu halda əksin miqyası 1:10,5-ə bərabər olacaqdır. Əgər iri miqyasda şəkil çəkmək lazım gələrsə, onda fotoaparatın obyektivi irəli çəkilməlidir. Ona görə də "Zenit" tipli aparatlarla kiçik

izlərin və maddi sübutların şəklinin çəkilməsi zamanı obyektivin irəli çəkilməsi üçün uzadıcı halqalardan istifadə olunur. Bu cür halqalar istintaq çemodanında olur. Şəkilçəkmə zamanı bu halqalarla aydınlığı tənzim etmək üçün adi üsullardan istifadə edilir. 0,65 m-dən yaxın məsafələrdə iri miqyaslı şəkil çəkmək üçün halqalar ya təklikdə və ya da dəst halında istifadə olunur. Bu isə şəkil çəkilən obyektin xarakterindən asılıdır. Bunun üçün ya şəkil çəkən şəxs öz təcrübəsindən, ya da xüsusi cədvəllərdən istifadə edir.

## Tədqiqedici (ekspert) fotoşəkilçəkmə

Kriminalistik fotoqrafiyanın bu növü əsasən ekspert təcrübəsində müxtəlif maddi sübutların tədqiqi zamanı tətbiq edilir. Lakin buna qədər müstəntiq də istintaq zamanı əməliyyat məqsədilə bu növdən istifadə edə bilər.

## Rənglərin fərqləndirmə ilə şəkilçəkmə

Şəkilçəkmənin bu növü tədqiq olunan obyektin müəyyən hissəsinin rəng fərqlərini yaratmaq lazım gəldikdə tətbiq edilir. Bu növ şəkilçəkmə gözlə görünməyən, lakin fotoplövhələrdə aydın və dəqiq əks olunan rəng fərqlərini müəyyən etməyə imkan verir. Çünki insanın gözü obyektin rəngini ətraf mühitin rəngi ilə birlikdə qəbul edir. Ona görə də insan gözü rəng bölgüsünü heç də tamamilə düzgün qəbul etmir.

Bu üsuldan adətən zəif görünən mətni gücləndirmək zərurəti olduqda, sənədlərə əlavələr edildiyini müəyyən etmək lazım gəldikdə, hər hansı bir boyayıcı maddə ilə (məsələn, mürəkkəblə) örtürmüş yazını oxumaq lazım olduqda tətbiq edilir. İşıq süzgəci ilə arzuolunmayan işıq şüaları tutulur, digəri isə həssas neqativ materiallarına

salınır. Bununla da rəng kontrastlığı yaranır. Belə olduqda, məsələn, zəif görünən mətnin kontrastlığı artır, boya ilə örtülmüş yazıları oxumaq mümkün olur.

## Kontrast şəkilçəkmə

Obyektlərin konstrastlığını artırmaq zərurəti yarananda şəkilçəkmənin bu növündən istifadə edilir. Bu sənədlərdəki görünməyən və ya zəif görünən mətnləri aşkar etməyə imkan verir. Əksin konstrastlığını artırmaq üçün kontrast işləyən aşkarlayıcılardan istifadə edilir. Bu üsula işıqlı kontrastlar da aiddir.

Zəif görünən hissələrin şəklini çəkərkən əksin düzgün alınması üçün əsas şərt şəkli çəkilən obyektin işıqlandırılmasıdır. İşığın vasitəsi ilə relyefin zəif hiss olunan fərqləri işıqların fərqinə çevrilir və necə deyərlər, kölgə kontrastı alınır. Kontrastı gücləndirmək üçün isə bərabər əksin kontrastını onun çoxlu təkrarı yolu ilə –– kontrastlaşdırma qaydası ilə artırmaq mümkündür. Bu üsulla şəkilçəkmə zamanı alınmış neqativ pozitivə əks olunur; ondan isə ardıcıl olaraq bir neçə neqativ, daha sonra isə pozitiv alınır; bu proses kifayət dərəcədə kontrastlıq alınana qədər davam etdirilir. Sonuncu neqativdən fotokağız üzərində pozitiv hazırlanır.

## Mikrofotoşəkilçəkmə

Şəkilçəkmənin bu növü görünməyən çox kiçik izlərin və digər obyektlərin tədqiqatı zamanı tətbiq edilir. Mikrofotoşəkilçəkmənin obyektlərinə maddi sübut olan sənədlər, tük, tozlar və s. daxildir. Bu növ şəkilçəkmə 2 üsulla həyata keçirilir:

a) xüsusi mikroobyektivlə təchiz olunmuş mikrokamera vasitəsi ilə şəkilçəkmə;

b) mikroskop vasitəsi ilə şəkilçəkmə.

Birinci üsulla şəkilçəkmə adi fotoaparatlar vasitəsilə aparılır. Belə ki, çox böyütmə lazım gəlmir, maksimum 30 dəfə böyüdülür. Əgər bundan çox obyekti böyütmək lazım gələrsə, onda şəkilçəkmə mikroskopa birləşdirilmiş fotokamera vasitəsi ilə aparılır. Kriminalistik məqsədlərlə işıqlandırıcıları olan şaquli fotokameralar (FMN-2, FMN-3) tətbiq olunur. Bundan əlavə, mikrofotonasadkalar vasitəsi ilə adi mikroskopla şəkil çəkmək olar.

Təcrübədə kriminalistik tədqiqatlar zamanı əsasən müqayisəedici mikroskoplar MİS-10 və MS-51 tətbiq olunur. Bunlardan çox vacib güllə və gilizlərin üzərindəki izlərin tədqiqi zamanı istifadə edilir.

Müqayisəedici mikrofotoşəkilçəkmə zamanı elə etmək lazımdır ki, şəkli çəkilən obyektlər eyni vəziyyətdə olsun və bərabər surətdə işıqlandırılsın. Eləcə də onlar şəkilçəkmə zamanı eyni miqyasda olsunlar. Görünməyən şüalarla fotoşəkilçəkmənin üsullarına ultrabənövşəyi, infraqırmızı, rentgen və s. şüalarla şəkilçəkmə aiddir.

**Ultrabənövşəyi şüalarla şəkilçəkmə –** elektromaqnit sahəsi spektrinin görünən hissəsi hüdudlarından kənarda olan ultrabənövşəyi şüalar əksetmə zamanı gözlə görünməyən hissələri aşkara çıxara bilmək xassəsinə malikdir.

Çox zaman ultrabənövşəyi şüaların mənbəyi kimi civə-kvars lampalarından istifadə edilir. Bu vaxt ona görə lüminessensiyadan istifadə edilir ki, kimyəvi tərkibinin müxtəlifliyi ilə əlaqədar olaraq bütün kadrlar eyni cür lüminessensiyalaşmır. Nəticədə sənədlərdə mətnin görünməyən mürəkkəblə yazıldığını, pozulmasını, habelə sənədin saxtalaşdırılması faktını müəyyən etmək olur.

**İnfraqırmızı şüalarla şəkilçəkmə –** infraqırmızı şüalar gözlə görünmür. Onlar qırmızı şüaların sərhədində

olur və təqribən 750 mmk uzun işıq dalğası yerini tutur. Həmin şüalar əksetdirmə və hopdurma xassələrinə malikdir. İnfraqırmızı şüalar nazik anilin boyağı qatını, qalın kağızı, qan ləkəsini keçə bilir, lakin tuş, mətbəə rəngi və qrafit həmin şüaları udur. Bu üsulla sənədlərə əlavələr edilməsini müəyyən etmək, karandaşla və mətbəə boyası ilə rənglənmiş kağızdakı yazını oxumaq, rənglə xətt çəkilməsini, habelə yaxın məsafədən olan atəşin izlərini aşkar etmək mümkündür. Şəkilçəkmə zamanı fotoaparatın obyektivinə infraqırmızı işıq süzgəci geydirilir (KS-18, KS-19, İKS-1, İKS-2). Fotomateriallarla iş tam qaranlıqda aparılır.

**Rentgen şüaları ilə şəkilçəkmə –** rentgen şüaları insan bədənini və predmetləri keçmək, bir sıra kimyəvi birləşmələri özündə cəmləşdirmək və işığa həssas materiallara fotoəksetmə təsiri göstərmək xassələrinə malikdir. Bununla odlu silahın, döyüş sursatı, qıfılın və s. daxili quruluşunu, habelə onların hissələrinin vəziyyətini, güllənin giriş və çıxış yollarını, görünməyən yazılara aydınlıq gətirmək olur.

Hələ 100 ildən də çox əvvəl Alfons Bertilion ilk dəfə kriminalistik obyektlərin qeyd edilməsi vasitəsi kimi fotoqrafiyadan istifadə etməyi təklif etmişdir. Müasir dövrdə fotoqrafiya istintaq hərəkətlərinin keçirilməsində geniş istifadə edilir. Lakin qeyd edilməlidir ki, uzun illər əsasən qara-ağ (rəngsiz) fotoqrafiyadan istifadə olunurdu. Son vaxtlar, 70-ci illərdən başlayaraq rəngli fotoqrafiyadan daha geniş istifadə olunmağa başlanmışdır. Doğrudur, neqativ və pozitiv proseslərin çox vaxt aparılması və kimyəvi məhlulların çatışmazlığı üzündən rəngli fotoplentlərın aşkarlanması və fotoşəkillərin çıxarılmasını kommersiya fotoatelyelərində edilməsi məqsədə müvafiq hesab edilir və bu müəyyən dərəcədə vaxta qənaət etməyə imkan verir və maddi

cəhətdən sərfəlidir. Lakin bunun mənfi cəhəti ondan ibarətdir ki, cinayət işləri üzrə məlumatların kənar şəxslərə sızması qorxusu yaradır. Buna görə də kommersiya fotoatelyelərdə işləyən şəxslərin kimliyi yoxlanılmalı və onlardan rəngli fotoşəkillərin hazırlanması prosesində məlum olan məlumatların yayılmaması haqqında iltizam alınmalıdır.

Son zamanlar qeydetmə vasitəsi kimi rəqəmli fotoqrafiya perspektivliyi ilə seçilir. O, adi fotoşəkil-çəkmədən bir neçə xüsusiyyəti ilə üstünlüyə malikdir:

-fotoqrafik qeydetmə prosesi olduqca sadələşir, belə ki, işığa həssas foto materialların ekspozisiya olunması və onların məhlullarla işlənilməsi prosesləri ixtisara düşür;

- rəqəmli fotoqrafiya tətbiq edilmə zamanı onun keyfiyyətinə açıq nəzarət olunur və məlumatın itirilmə ehtimalı yoxdur (yəni adi şəkillər bəzən texniki və ya başqa səbəblər üzündən alınmır);
- elə birbaşa tərtib olunan protokola şəkli çəkilən obyektin əksini yerləşdirmək olur ki, bu da daha inandırıcı sənədə çevrilir və sonradan fotocədvəl hazırlamaq lazım gəlmir;
- rəqəmli fotoqrafiya üsulu ilə çəkilmiş fotoşəkilləri disketə yazıb cinayət işinin materiallarına əlavə etmək mümkündür;
- əgər fotoşəkil vasitəsilə şəxsi tanımaya təqdim etmək lazım gələrsə, onda kompüterin yaddaşında olan bazadan (fotoşəkillərdən) də istifadə etmək olar;
- kriminalistik qeydiyyat üçün məlumat toplamaqda üstünlüyə malikdir, çünki rəqəmli fotoaparat vasitəsilə çəkilən obyektin əksi birbaşa kompüterin yaddaşına verilir;
- ekspertizaların aparılması zamanı fotoşəkillərin böyüdülüb kiçildilməsi prosesini olduqca asanlaşdırır və eyniləşdirmə prosesini sadələşdirir və verdiyi rəyin

doğruluğu haqda daxili inamını artırır, illüstrasiyanı hazırlamağı asanlaşdırır və onu rəyin daxilində üzvi surətdə rəylə bağlayır;

- az vaxt ərzində çoxlu sayda fotoşəkli çoxaltmaq mümkündür.

Lakin qeyd edilən üstünlüklərə əlavə olaraq, rəqəmli fotoqrafiyanın mənfi cəhətləri də vardır:

- fotoşəkillərin baha başa gəlməsi;
- kompüter texnologiyasından istifadə edərək fotoşəklin istənilən hissəsini və bütünlüklə saxtalaşdırıb dəyişmək mümkündür.

Göstərilən mənfi cəhətlərini nəzərə alaraq rəqəmli fotoqrafiyadan ehtiyatla istifadə etməli və bunların qarşısını almaq üçün elmi yollar axtarılmalıdır.

Bu problemlərlə Rusiya Federasiyasında DİN-in ekspert-kriminalistika mərkəzinin əməkdaşı E.N.Dmitriyev məşğul olur və o, artıq rəqəmli fotokameralardan hansının istintaq hərəkətlərində və ekspert tədqiqatlarında daha yaxşı istifadə olunmasını müəyyənləşdirmişdir. Eyni zamanda, E.N.Dmitriyev bəzi istintaq hərəkətləri zamanı (hadisə yerinə baxış və s.) rəqəmli fotoqrafiyanın tətbiqinə dair tövsiyələr də hazırlamışdır və o, bu sahədə dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi adı almışdır.

### *Sual 3. İstintaq hərəkətlərinin aparılmasında fotoşəkilçəkmənin, kinofilmçəkmənin və videoyazının tətbiqi*

Əksedici fotoşəkilçəkmənin üsulları ayrı-ayrı istintaq hərəkətləri aparılarkən (məsələn, hadisə yerinə baxışda, axtarışda, istintaq eksperimentində, ifadənin yerində yoxlanılmasında, tanınma fotoşəkilçəkmədə və s.) istifadə edilir.

## Hadisə yerinin şəklinin çəkilməsi

Hadisə yerinə baxış zamanı müəyyən edilən hallar mütləq protokolda öz əksini tapmalıdır. Lakin bəzən hadisə yerinin vəziyyətini protokolda tam əks etdirmək mümkün olmur. Hətta müstəntiq tam dəqiqliyi ilə baxış apardıqda belə, iş üçün əhəmiyyəti olan bir sıra kiçik halları nəzərdən qaçıra bilər. Buradan da hadisə yerinə baxış protokoluna müvafiq fotoşəkillərin əlavə olunması zərurəti ortaya çıxır. Hadisə yerində çəkilmiş fotoşəkil istintaq fərziyyələrinin qurulması, habelə sübutların yoxlanılması və qiymətləndirilməsi üçün istifadə edilə bilər. Baxış protokoluna əlavə edilən fotoşəkillər hadisə yeri haqqında daha dəqiq təsəvvür yaratmağa imkan verir. Hadisə yerinə baxış zamanı hadisə yerinin vəziyyətini xarakterizə edən aşağıdakı fotoşəkillər çəkilir:

a) istiqamətləndirici;
b) icmal;
c) mərkəz;
ç) müfəssəl(detal).

**İstiqamətləndirici fotoşəkil –** hadisə yerinin onu əhatə edən sahə ilə birlikdə çəkilmiş fotoşəklinə deyilir. İstiqamətləndirici şəkilçəkmədə məqsəd fotoşəkildən hadisə yerinin bilavasitə harada yerləşdiyini müəyyən etməkdir. Məsələn, hadisə baş vermiş sahənin nisbi ölçüsü, yaxınlıqda olan tikililər, hadisə yerinə kənardan gələn giriş yolları, eləcə də çıxış yolları barədə fikir irəli sürmək olar. Bu cür şəkilçəkmə müəyyən hündürlükdən aparıldıqda və hadisə yerini əhalinin tanıdığı hər hansı bir səmtləşdirici (bələdçi) bir obyektlə bağlamaq (əlaqələndirmək) daha yaxşı nəticələr verir. Məsələn, əgər hadisə yeri Xəzər dənizinə yaxındırsa, onda yaxşı olar ki, istiqamətləndirici (bələdçi) fotoşəkildə dəniz də görünsün ki, hadisə yerinin məhz harada olmasını

dənizlə münasibətdə daha aydın təsəvvür etmək mümkün olsun.

**İcmal fotoşəkil –** hadisə yerinin ətrafdakı sahədən təcrid olunmuş halda çəkilmiş şəklinə deyilir. Məsələn, ölüm cinayətlərinin avtonəqliyyat hadisəsinin baş verdiyi yerin, yaxud oğurluq olan binanın fotoşəkli.

İcmal şəkilçəkmə zamanı panoram şəkilçəkmə üsulundan da istifadə oluna bilər. Əgər hadisə yerində predmetlərin yerləşmə vəziyyəti mürəkkəbdirsə, onda stereo şəkilçəkmə üsulundan da istifadə olunur.

**Mərkəz (detal)fotoşəkil –** hadisə yerinin daha mühüm sahələrinin çəkilmiş fotoşəkillərinə deyilir. Adamöldürmə cinayətlərində meyitin, oğurluq cinayətlərində isə sındırılmış qapının, deşik açılmış divarın və s. fotoşəkilləri mərkəz fotoşəkilə misal ola bilər.

Mərkəz fotoşəkilçəkmə zamanı obyektlərin ölçüləri və onlar arasındakı məsafəni müəyyən etmək üçün miqyas və metrik şəkil çəkmə zamanı genişbucaqlı obyektivdən istifadə etmək məqsədə uyğundur (Məs. «Mir-1» markalı obyektivdən).

**Müfəssəl fotoşəkil –** ətrafdakı predmetlərdən ayrılıqda, nisbətən kiçik olan əşya və bilavasitə izlərin çəkilmiş fotoşəkillərinə deyilir. Müfəssəl fotoşəkil çəkərkən fotoşəkli çəkilən obyektin elə xüsusiyyətlərinin əks etdirilməsinə çalışmaq lazımdır ki, onlar kriminalistik cəhətdən daha mühüm əhəmiyyət kəsb etsin. Məsələn, hadisə yerində tapılmış sındırma alətinin şəkli çəkilərkən elə etmək lazımdır ki, onun markası, texniki cizgiləri, üzərindəki bütün əlamətlər aydın şəkildə görünə bilsin. Müfəssəl fotoşəkil çəkərkən şəkli çəkilən predmetin işıqlandırılmasına xüsusi fikir verilməlidir. Bu zaman işıqlandırmanın növündən (süni, təbii) asılı olmayaraq, şəkli çəkilən predmetin bütün hissələri və cizgilərinin şəkildə əks olunmasına imkan verilməlidir.

Meyitin onu əhatə edən predmetlərlə birlikdə fotoşəkli çəkilərkən elə etmək lazımdır ki, kadrın az hissəsini meyit, çox hissəsini isə onu əhatə edən sahə tutsun. İcmal fotoşəkildə isə meyitin onu əhatə edən predmetlərdən ayrılıqda fotoşəkli çəkilir. Yaxşı olar ki, oturmuş və asılmış vəziyyətdə olan meyitlərin fotoşəkilləri imkan dairəsində 4 tərəfdən çəkilsin.

Asılı vəziyyətdə olan meyitin fotoşəklini genişbucaqlı obyektiv vasitəsi ilə çəkmək məsləhətdir. Belə şəkil çəkməyə şaquli şəkilçəkmə deyilir. Əgər meyitin boyunu çəkmək bir kadra sığışmırsa, onda panoram üsuldan istifadə edilir.

Ümumiyyətlə isə uzanmış meyitin şəkli 3 tərəfdən, yəni üst və 2 yan tərəfdən çəkilməlidir. Amma çalışmaq lazımdır ki, meyitin şəkli bir kadra yerləşsin.

Meyitin üzərində olan zədələri, ləkələri və s. müfəssəl qaydada miqyas xətkeşini yanına qoymaqla rəngli fotoşəkil çəkməkdən istifadə etmək daha yaxşı nəticələr verir.

Bəs hadisə yerində aşkar edilən izlərin fotoşəklinin çəkilməsinin hansı xüsusiyyətləri vardır?

**Hadisə yerində aşkar edilən əl izlərinin fotoşəkli** miqyas fotoşəkilçəkmə üsulu ilə çəkilir. İzin yanında miqyas xətkeşi qoyulur. Əgər iz rənglənmiş izdirsə, onda müvafiq işıq süzgəcindən istifadə edilir. Həcmi əl barmaq izləri isə çəkilərkən ikitərəfli, dağınıq və kölgəli işıqlandırma olmalıdır.

Rəngsiz əl - barmaq izlərinin şəklini çəkmək nisbətən çətin olur. İz qalan obyekt şəffaf olduqda (məsələn, şüşə üzərində) çəpdüşən işıq vasitəsilə izlərin şəklini çəkmək çətinlik yaratmır. İzin yerləşdiyi predmet şəffaf olmadıqda isə onu mütləq bir tərəfdən çəpdüşən işıq şüaları dəstəsi ilə işıqlandırmaq lazımdır.

**Həcmi trasoloji izlərin fotoşəkli çəkilərkən** miqyas şəkilçəkmə tətbiq edilir. Həcmli ayaq və nəqliyyat izləri bu qayda ilə çəkilir və çəkilmə zamanı əsas və əlavə kölgəli işıq verilməlidir.

Əgər ayaq izləri rəngli və səthidirsə, onda səthin rənginə müvafiq işıq süzgəci ilə çəkilir. Bu zaman miqyas xətkeşi izin səthinə qoyulur. Hadisə yerində iz yolu qısa olarsa, onu bütünlüklə bir kadra çəkmək lazımdır. Əgər iz yolu uzundursa, onda panoram şəkilçəkmədən istifadə olunur. Nəqliyyat vasitələrinin izləri də eyni qayda ilə çəkilir. Sonra isə nəqliyyat izinin fərdi əlamətləri daha aydın olaraq ayrılıqda çəkilir. Burada nəqliyyat vasitələrinin təkərləri arasında məsafəni əks etdirən izlər miqyas xətkeşindən istifadə etməklə çəkilir.

**Sındırma alət izləri** geniş həcmdə miqyas tətbiq etməklə çəkilir. Əvvəl sındırma alət izləri yerləşdiyi predmetin bir hissəsi ilə birlikdə çəkilir. Sonra isə bir qrup və ya ayrılıqda bir iz çəkilir. Əgər iz və izlər bir kadra yerləşməsə, panoram üsuldan istifadə edilir. Adətən, belə izlər kölgəli işıqlandırmadan istifadə etməklə çəkilir.

**Maddi sübutlar olan ayrı-ayrı predmetlərin fotoşəkilləri** elə çəkilməlidir ki, onların yerləşdiyi yer və ətrafdakı predmetlərlə qarşılıqlı əlaqələri aydın görünsün.

**Tanınma fotoşəkilçəkmə** cinayətin qeydə alınması, axtarış və tanınma, habelə naməlum meyitlərin şəxsiyyətini müəyyən etmək məqsədi ilə çəkilir.

Şəkli çəkilən şəxsin baş örtüyü götürülür və qulağını tük örtmüşsə üstü açılır. Baş açıq vəziyyətdə şəxsin üzdən və sağ yan tərəfdən şəkli çəkilir. Şəxsin sol tərəfdən ona məxsus xüsusi əlaməti varsa, onda onun sol tərəfdən də şəkli çəkilir. Şəkil ön tərəfdən qurşağa qədər çəkilir. Bəzən cinayət etmiş şəxsi cinayət etdiyi vəziyyətdə təsəvvür etmək zərurəti ilə əlaqədar onun

boyu bərabəri (başın ¾ hissəsini çevirməklə) əlavə şəkildə çəkilir.

Ölmüş naməlum adamın fotoşəkli tanınma üçün sağ və sol tərəfdən çəkilir. Meyitin sifəti tanınmaz haldadırsa, əvvəl olduğu vəziyyətdə, sonra isə məhkəmə-tibb eksperti onun sifətini təmizləyərək, normal hala salandan sonra çəkilir. Buna meyitin tualeti deyilir. Meyit üz tərəfdən, habelə ¾ hissəsinin yana çevirdiyi vəziyyətdə sağ və sol tərəfdən çəkilməlidir. Meyit stolun üstündə, baş altına dayaq qoymaqla çəkilir.

**İstintaq eksperimenti** apararkən, çəkilmiş fotoşəkillər eksperimentin başlanğıcını, aparılma prosesini və nəticəsini əks etdirir. Təcrübə göstərir ki, hər hansı hərəkətin edilməsinin mümkünlüyünü, görmə qabiliyyətini yoxlamaq, əmlakın müəyyən yerə sığmasını (yerləşməsini) yoxlamaq, müəyyən yerdən keçməyin mümkün olmasını və s. yoxlamaq məqsədilə fotoşəkillərin çəkilməsi müvəffəqiyyətlə tətbiq olunur.

**Şəxsin və əşyaların tanınmaya təqdim olunması** zamanı da fotoşəkilçəkmədən geniş istifadə olunur. Bu, eyni zamanda, müstəntiqin tanınmanı prosessual qaydalara uyğun aparması üçün məsuliyyətini artırır. Belə ki, əgər yaşı və əlamətləri uyğun gəlməyən şəxslər tanınmaya təqdim edilərsə, onda şəkildən bu, aydın görünər. Qrup halında predmetlər tanınmaya təqdim edilərsə, onların hər birinə nömrələnmiş nişan vurulmalıdır. Tanınmaya təqdim edilmiş şəxslərin və predmetlərin həm də ayrılıqda şəkilləri çəkilməlidir. Tanınan predmetin ayrılıqda fotoşəkli geniş planda miqyas xətkeşi ilə çəkilməlidir.

**Axtarışda şəkilçəkmə** əsasən axtarılanın gizlədildiyi yerin və həmin əmlakın xüsusiyyətlərini aydınlaşdırmaq üçün tətbiq edilir. Əvvəl əmlakın saxlandığı yerin ətrafdakı şeylərə nisbətən vəziyyəti,

sonra isə həmin yerin bütünlükdə və ayrı-ayrı hissələrinin şəkli çəkilir.

**İfadənin yerində yoxlanması** zamanı dindirilən şəxsin göstərdiyi sahə və obyektlər, cinayətin baş verdiyi yerə getmə və oradan çıxma yolları fotoşəkillərlə qeyd edilir. Müxtəlif şəxslər tərəfindən göstərilən eyni obyekt hər dəfə eyni nöqtədən və eyni üsulla çəkilməlidir.

**Kriminalistik kinofilmçəkmə, video və səsyazmanın** cinayətlərin açılmasında və istintaqında böyük əhəmiyyəti vardır.

Kinofilmçəkmənin fotoşəkilçəkmədən bir sıra üstünlükləri vardır. Belə ki, baş vermiş hadisə və dəyişiklik dinamik halda əks edilir. Hadisənin inkişafı vaxtla düzgün müəyyən edilir, obyektin hərəkət sürəti bilinir. Bu da ki, baş vermiş hadisənin, dəyişikliyin ümumi mənzərəsini dəqiq anlamağa imkan verir. Bəzən isə adi halda qavranılmayan, xüsusən də tez dəyişən prosesləri izləməyə imkan yaranır. Kinofilmçəkmənin müsbət cəhətlərindən biri də budur ki, bəzi şikayətçilər çəkilmiş kinofilmə baxarkən, aparılan istintaq hərəkətlərinin cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun olmadığı barədə verdikləri ərizələrdən imtina edirlər. Yəni kinofilmdə hər şey olduğu kimi qeyd edildiyi üçün əsassız şikayətə yer qalmır.

Kinofilmçəkmənin şəkilçəkməyə nisbətən mənfi cəhətləri də var. Belə ki, sübutlar toplanarkən obyektlər ölçücə kiçik formatla kadra yerləşir, bəzi kiçik detallar kifayət qədər təfərrüatlı əks olunmur. Digər tərəfdən, kinomaterialların hazırlanması və filmin göstərilməsi nisbətən böyük əmək sərf etməklə başa gəlir.

Fotoşəkilçəkmədən fərqli olaraq **kinofilmçəkmədə** icmal çəkmə, ayrı-ayrı hərəkətlərin və ya obyektlərin fiksə edilməsi, detallaşdırma çəkmələri müxtəlif ardıcıllıqla yerinə yetirilə bilər. Operator daxili dairəvi, xarici dairəvi,

xətti panoram çəkmədən istifadə edə bilər. Panoram eyni zamanda üfüqi və şaquli müstəvidə də yerinə yetirilə bilər. Yaxşı olar ki, çəkmədən əvvəl çəkilişin plan ssenarisi tərtib edilsin və nəyin, hansı nöqtələrdən və hansı ardıcıllıqla çəkilməsi əvvəlcədən müəyyənləşdirilsin.

Çəkilişdən əvvəl kinofilmçəkmənin hansı kinokameradan istifadə etməklə çəkilməsi müəyyənləşdirilməlidir. Kinokameralar kadrların ölçülərinə (formasına) görə müxtəlif olurlar. Belə ki, kadrlar 1x8 mm, 2x8 mm, 1x8 super, 2x8 super, 16,35 mm ölçülərdə olurlar. Yadda saxlamaq lazımdır ki, kadrların iri formatda olması çəkilişin keyfiyyətini artırır, lakin plyonka çox işlədilir və onun hazırlanmasına da çox vaxt və əmək sərf edilir.

Onu da qeyd etmək lazımdır ki, kinofilmçəkmədə bəzi qaydalara əməl etmək tələb olunur. Belə ki, kinofilmçəkmədə ştativdən və ya dayanacağı olan söykənəcəkdən istifadə etmək lazımdır. Kameranı $90^0$ dönməni 15 saniyədən tez olmamaq şərti ilə yavaş-yavaş, titrətmədən fırlatmaq lazımdır. Əks təqdirdə, çəkilmiş proses və obyektlər dəqiq alınmayacaqdır. Hər bir obyektin ayrılıqda 5-8 saniyədən az olmamaq şərti ilə çəkilişi aparılır. Yalnız bundan sonra başqa obyekti çəkmək olar. Onu qeyd etmək lazımdır ki, gərəksiz olaraq bir epizodu uzun müddət çəkmək də lazım deyil, çünki filmin dinamikliyi azalır və bu bir növ «fotoşəkli» xatırladır, həm də ki, maraqlı baxılmır.

Təcrübə göstərir ki, kinofilmçəkmə adətən, istintaq eksperimenti, ifadənin yerində yoxlanması, tanınma üçün təqdimetmə, hadisə yerinə baxış, cinayətkarın tutulması zamanı geniş istifadə olunur. Məsələn, **ifadə yerində yoxlanan zaman** kinoçəkmədə əsas diqqət ifadəsi yoxlanan şəxsə yönəldilməlidir. Belə ki, onu iri planda

verməklə ətraf mühitlə onun hərəkətlərini əlaqələndirmək, bir növ bağlamaq lazımdır. Əgər ifadəsi yoxlanan bir yox, bir neçə şəxsdirsə, onda onların ifadələri eyni şəraitdə, hər şəxsin ayrı-ayrı ifadələri bir-birini görməmək şərti ilə yoxlanılmalıdır. Belə hallarda məsləhətdir ki, ifadələr yoxlanarkən kinoçəkmə eyni nöqtədən aparılsın ki, film sonra baxılarkən ifadələri yoxlanılan şəxslərin hərəkətlərinin cinayət törədilən yerə uyğun gəlib-gəlməməsi aydın görünsün.

**İstintaq eksperimenti** zamanı əsas diqqət təcrübi hərəkətlərə yönəldilməlidir. Belə ki, onun vasitəsilə hərəkətin vaxt etibarı ilə paramertləri aydın qeyd olunur ki, bunların da cinayət işinin istintaqı zamanı mühüm əhəmiyyəti vardır.

**Tanınmada** kinoçəkmə zamanı tanınmaya təqdim edilmiş şəxslərin düzgün seçilib-seçilməmələri, eləcə də onların yerləşməsi aydın görünür. Eyni zamanda, tanıyanın hərəkəti aydın qeyd olunur. Bəzi hallarda hərəkət ilə danışığın sinxron olması tələb olunur. Belə hallarda videoçəkilişdən istifadə olunur. Videomaqnitofon lenti, kinolentdən fərqli olaraq, çəkilişdən sonra dərhal baxmağa imkan verir. Özü də bunun üçün qaranlıq yer tələb olunmur. İstənilən televizordan bu məqsədlə istifadə etmək olar. Digər tərəfdən videoyazını saxtalaşdırmaq çox çətin olur. Yəni səs əgər silinmiş olarsa, yeni səs əlavə etmək və onu hərəkətlə sinxronlaşdırmaq çox çətindir. Çünki dodaqların hərəkəti danışıq səsi ilə uyğun gəlməyəcək. Bir də ki, az bir vaxt ərzində videoyazının bir neçə nüsxə surətini çıxarmaq mümkündür. Digər tərəfdən, videoyazı sadə prosesdir. Məhkəmədə onu nümayiş etdirmək üçün əlavə işıq mənbələri tələb olunmur.

Təcrübə göstərir ki, **videoyazını** istintaq hərəkətləri zamanı bir neçə şəxsin hərəkətləri və danışıqlarını

sinxron qeyd etmək üçün istifadə etmək əlverişlidir. Çünki hər bir şəxsin xarici görkəmi, verilən suallara reaksiyası, hərəkəti, qət etdiyi yol, obyektlərin bir-birinə görə vəziyyəti və s. videoyazıda dəqiq qeyd olunur.

Videoyazını azyaşlı uşaqların, ağır xəstə olanların, yaralı şəxslərin, eləcə də eşitmə və danışıq qüsurları olan şəxslərin dindirilməsində və üzləşdirilməsində istifadə etmək də yaxşı nəticələr verir.

Nəhayət, videoyazı sonra ifadəsini dəyişəcəyi ehtimal olunan ağır cinayət törətmiş şəxslərin ifadələrini qeydə olmaq üçün çox əhəmiyyətlidir. Çünki cinayət işinin istintaqının əvvəlində düzgün ifadə vermiş şəxs sonra müəyyən səbəblər üzündən ifadəsini inkar edır və ya dəyişir. Ona görə bunu hiss edən müstəntiq onun ifadəsini videolentə alır .

Digər tərəfdən, qrup şəklində törədilən cinayətlər üzrə iştirakçılardan kimsə düzgün ifadə verirsə, onun ifadəsi videolentə yazılır və onun digər iştirakçılarla üzləşdirilməsi məsləhət deyilsə (yəni üzləşmə zamanı düzgün ifadə verməyən iştirakçıların ona mənfi təsir göstərmək ehtimalı varsa), onda üzləşmə aparmadan həmin şəxslərə çəkilmiş videoyazı nümayiş etdirilir. Əlbəttə ki, videoyazı onlara daha müsbət təsir göstərir və onları da cinayətin açılması ilə bağlı düzgün ifadə verməyə sövq edir.

Cinayətlərin törədilməsi üçün səbəb və şəraitin aradan qaldırılması üçün də videoyazının böyük profilaktik əhəmiyyəti vardır.

**Kriminalistik fotoqrafiyanın, video və səsyazmanın tətbiqinin rosessual qaydada rəsmiləşdirilməsi.**Cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında istifadə edilən texniki-kriminalistik vasitələrin tətbiqi cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq olmalıdır. O

cümlədən də, qeydetmə vasitələri olan kriminalistik fotoqrafiyanın, video və səsyazmanın tətbiqi mütləq prosessual qaydada rəsmiləşdirilməlidir, əks təqdirdə onlar sübuti əhəmiyyətə malik olmazlar.

Fotoşəkillər və diapozitivlər məhkəmə icraatında ilk növbədə maddi sübut kimi meydana çıxır. Onlar o halda maddi sübut kimi qiymətləndirilirlər ki, onların hazırlanması, onlar vasitəsilə qeyd olunan obyektlər, faktlar və şəraitlər həqiqətin müəyyən edilməsi üçün əhəmiyyət kəsb etsinlər.

Fotoşəkillərin və diapozitivlərin iş materiallarına əlavə edilməsi ümumi qaydaya uyğun həyata keçirilir (yəni, aşkar edilməsi və baxış keçirilməsinə dair protokol tərtib edilir və onların maddi sübut kimi tanınması barədə qərar çıxarılır).

İstintaq hərəkətlərinin keçirilməsi zamanı çəkillib çıxarılmış fotoşəkillər – fotosənədlərdir və həmin istintaq hərəkətinin keçirilməsi haqqında tərtib edilən protokola əlavə edilirlər.

Fotoşəkilçəkmə tətbiq edilən istintaq hərəkətlərinin protokollarında aşağıdakılar öz əksini taprmalıdır:

1. Hansı məqsədlə, hansı obyektlərin fotoşəkilləri çəkildi;

2. Hansı şəraitdə, hansı vasitənin köməyi ilə, hansı metodla şəkilçəkmə aparıldı;

3. Fotoaparatın modeli, obyektivin markası, işıqlandırmanın növü, fotomaterialın işığa həssaslığı, çəkilən kadrların sayı və hansı nöqtələrdən şəkilçəkmə aparılmışdır.

Tərtib edilmiş protokollara neqativlər, şəkillər və ya diapozitivlər əlavə olunurlar.

Əlavə olunan fotoşəkillərdən fotocədvəl tərtib edilərək fotoşəkilçəkmə tətbiq edilən istintaq hərəkətinin

protokolundan bilavasitə sonra illüstrasiya vasitəsi kimi iş materiallarına əlavə edilir.

Fotocədvəl tərtib edilərkən, aşağıdakı tövsiyyələr nəzərə alınmalıdır:

- fotoşəkillər yapışdırılan kağızın materialları nisbətən qalın olmalıdır ki, yapışdırılmış fotoşəkillərin yapışqanları quruyarkən, büzüşüb fotoşəkillərin yapışdırıldığı kağızı qabardıb əyməsin (nazik karton, rəsm çəkmək üçün xüsusi qalın kağızlar və s.);

- fotoşəkillər yapışdırılmazdan əvvəl, onlar hansı qaydada və hansı ardıcıllıqla yapışdırılmaları əvvəlcədən planlaşdırılmalıdır. Yaxşı olar ki, yapışdırılacaq fotoşəkillərin bir-birinə əks olan iki küncləri yapışdırılacaq yerlərə qələmlə zəif basılmaqla işarə (nöqtə, bucaq və s.) qoyulsun;

- fotoşəkillər yapışdırılarkən yapışqanı nazik və hamar şəkildə şəkillərin arxasına, təxminən 1-1,5 sm enində şəklin perimetri boyunca çəkmək lazımdır ki, yapışqan artıqlığı yaranıb axıntı verməsin və fotoşəkili və kağızı çirkləndirməsin;

- fotoşəkillər yapışdırılarkən hər şəkil yapışqanı quruyanadək üzərinə təmiz karton qoyulmaqla yüklə kağıza sıxılmalıdır ki, şəkil hamar yapışsın;

- fotoşəkillərin ardıcıllığı nəzərə alınmaqla elə qruplaşdırılmalıdırlar ki, fotoşəkilçəkmə tətbiq edilən istintaq hərəkəti protokolunda qeyd edilən hallara mümkün qədər aydınlaşdırmağa yardımçı olsunlar;

- şəkillərin qruplaşdırılmasında hansı şəkilin uzununa və ya eninə yapışdırılması nəzərə alınmalı, bəzi hallarda şəkillərin ölçü artıqlığı yaranarsa, fotoşəkillərin məzmununa xələl gətirmədən onların enindən və ya uzunundan lazım gələn qədər artıq hissəni kəsib atmaq lazımdır;

- elə etmək lazımdır ki, yapışdırılacaq şəkillər aralarında əlaqə yaratmaq üçün çəkiləcək xətlər, oxlar, eləcə də şəkillərin altlarında yazılacaq izahedici sözlərin sığışmaları üçün kifayət qədər yerlər qalmış olsun;

- əgər çəkilmiş fotoşəkillər çox olarsa, yəni 1-2 səhifədən çox səhifəyə yerləşəcəklərsə, onda fotoşəkillər ardıcıl olaraq işə tikiləcək vərəqələrə yapışdırılmalı və ya bir səhifəyə qatlanıb yığılan bir neçə vərəqəyə yapışdırılmalıdır. Hər bir halda cinayət işinin materiallarına tikiləcək fotocədvəlin sonradan sərbəst açılıb yığılması üçün 1-ci səhifədə təxminən 2,5-3 sm. enində, vərəqənin sol tərəfində tikiş üçün sahə saxlamaq lazımdır;

- fotocədvəlin 1-ci səhifəsində yuxarıda orta hissədə «Fotocədvəl» yazılmalı, onun altında isə nə vaxt keçirilən və hansı istintaq hərəkətinin protokoluna fotocədvəlin əlavə olunması qeyd olunmalıdır;

- xronoloji olaraq hər bir fotoşəkil nömrələnməli və hər birinin altında izahedici sözlər yazılmalıdır;

- izahedici sözlər qısa, lokanik fotoşəkildə əks olunan şəklin məzmununa dair, protokolda qeyd olunan xüsusatların izahına yönəlmiş kriminalistik məlumat daşıyan sözlər olmalıdır;

- şəkildə göstərilən daha xarakterik və diqqət yetiriləcək əlamətlər oxlarla işarə edilməlidirlər. Hadisə yerlərində çəkilən istiqamətverici, icmal, mərkəz və müfəssəl fotoşəkillər arasında əlaqələndirmələr də oxlarla qeyd edilərək, fotoşəkillərin altlarında oxlarla məhz hansı xarakterik əlamətlərin göstərilməsi qeyd olunmalıdır. Əgər bir neçə xarakterik əlamətlər ayrı-ayrı oxlarla göstərilmişsə, onda oxlar şəkillərdə nömrələnərək, izahedici sözlər yazılan şəkillərin alt hissələrində, məhz hansı nömrəli oxun hansı xarakterik əlaməti göstərməsi

qeyd olunmalıdır (məsələn:2№li oxla seyf üzərində qalan dinamik sürüşmə izi göstərilmişdir);

- hər bir fotoşəkil, fotocədvəli hazırlayan orqanın möhürü ilə möhürlənməlidir. Möhürün əksinin bir hissəsi fotoşəkilin bir küncünə düşməli, möhürün əksinin qalan hissəsi isə fotocədvəlin kağızının üzərinə düşərək, şəkilin dəyişdirilməsinin qarşısını almalıdır;

- fotocədvəlin hər bir səhifəsinin alt hissəsində fotocədvəli hazırlayanın (müstəntiqin, təhqiqatçının və s.) imzası qoyulmalıdır. Əgər fotoşəkilçəkmə başqa şəxs, məsələn mütəxəssis tərəfindən aparılıbsa, onda fotocədvəldə həm mütəxəssisin, həm də fotoşəkillərin doğruluğunu təsdiq edən müstəntiqin (təhqiqatçının) imzaları olmalıdır;

- fotocədvəl səliqəli, fotoşəkillər düzgün ekspozisiya olunmuş və aydın hazırlanmalıdır.

Qeyd etmək lazımdır ki, istintaq hərəkətləri yerinə yetirilərkən əksedici fotoşəkilçəkmənin tətbiqi ilə əlaqədar hazırlanacaq fotocədvəllər üçün tərtib edilmiş xüsusi «blanklar» mövcuddur. Həmin blankların kağızlarının materialları da yuxarıda qeyd edilən tövsiyyələrdə nəzərdə tutulan tələblərə cavab veməlidir (qalın, hamar olmalıdır və s.).

Tədqiqedici şəkilçəkmənin üsullarından istifadə edən ekspert-kriminalistlər tərəfindən kriminalistik ekspertizaların keçirilməsi prosesində hazırlanan fotoşəkillər də fotocədvəllər formasında xüsusi blanklarda rəsmiləşdirilir. Hər bir fotoşəkilin altında izahedici sözlər yazılır. Ekspert rəyinin tədqiqat hissəsində fotocədvələ istinad edilir (bax: foto 3, 5 və s.). Daha xarakterik və xüsusi qeyd edilməli əlamətlər oxlarla işarə edilir və hansı əlamətin hansı oxla işarə edilməsi barədə fotoşəklin altında izah verilir. Hər bir şəkil ekspertiza müəssisəsinin

möhürü ilə təsdiq edilir və tərtib edilmiş fotocədvəl ekspert tərəfindən imzalanır.

İstər istintaq hərəkətləri yerinə yetirilərkən, istərsə də sübutların tədqiqi zamanı çəkilmiş şəkillərin neqativləri paketə qoyularaq, iş materiallarına əlavə edilir. Paketin üzərində hansı istintaq hərəkəti zamanı və ya hansı tədqiqat zamanı fotoşəkilçəkmənin aparılması, tarixi və kadrların sayı qeyd edilir.

## *Mövzu 6:*

# *Kriminalistik izşünaslıq (trasologiya)*

PLAN:

1. İzşünaslığın anlayışı və əhəmiyyəti. İzlərin əmələgəlmə mexanizmi və təsnifatı
2. İnsanın əl, ayaq izləri, sındırma alətlərinin, nəqliyyat vasitələrinin izləri, onların aşkar edilməsi, götürülməsi və qeyd olunması
3. Mikroobyektlərin anlayışı, onların aşkar edilməsi, qeyd edilməsi, götürülməsi və istifadə olunması

## *Sual 1. İzşünaslığın anlayışı və əhəmiyyəti. İzlərin əmələgəlmə mexanizmi və təsnifatı*

Trasologiya fransızca "trace" – iz, yunanca "loqos" – təlim sözlərinin birləşməsindən əmələ gəlməklə "izlər haqqında təlim" deməkdir.

Hələ qədim zamanlardan cinayətlərin açılması və istintaqında izlərdən istifadə edilməsi məlumdur. Bir çox tarixi mənbələrdən cinayətkarı "izlərlə" təqib etmə barədə məlumatlar mövcuddur. "Əgər cinayətkar aşkar olunmayıbsa, onu izi ilə axtar" – deyilirdi.

Zaman keçdikcə "iz"lərdən kriminalistik məqsədlər üçün elmi əsaslarla istifadə edilməyə başlandı. XX əsrin birinci yarısında isə "izlər haqqında təlim"dən kriminalistik texnikanın müstəqil sahəsi olan trasologiya (izşünaslıq) yarandı. "İzlər" kriminalistika elmində geniş və dar mənada başa düşülür:

Geniş mənada iz – cinayətə hazırlıq, cinayətin törənməsi və üstünün ört-basdır edilməsi ilə əlaqədar yaranan müxtəlif maddi nəticələr başa düşülür. Bu mənada izlər ola bilər:

a) cinayətkar əməl nəticəsində şəraitin dəyişməsi (predmetlərin yerinin dəyişməsi, məsələn, masanın, mizin, büllur qabın yerinin dəyişməsi), nəyinsə yox olması (məsələn, oğurluq hadisələrində oğurlanmış predmetin yerinin boş olması), nəyinsə peyda olması (məsələn, cinayətkarın əlcəyinin və ya cinayət alətinin hadisə yerində qalması);

b) xarici təsir nəticəsində konkret obyektlərin vəziyyətlərinin dəyişməsi (qapının qırılması, möhürün açılması);

c) hər hansı predmet və maddənin qalıqları (maddənin damcıları, qan izi, toz hissəciyi, insan bədənindən çıxan ifrazatlar və s.)

Dar mənada iz – bir obyektin xarici quruluşunun başqa obyekt üzərində maddi qeyd olnmuş əksi başa düşülür. Məsələn, əl izi, ayaq izi, ling izi və s.

İstər "dar mənada" izlər, istərsə də "geniş mənada" izlər bəzən cinayət işinin açılmasında və istintaqında həlledici rol oynayırlar. Lakin, izlərin hər bir halda cinayət hadisəsi ilə səbəbli əlaqədə olmaları və onlarla şərtləndikləri müəyyən edilməlidir. Kriminalistika elmində iz kimi aşağıdakılar öyrənilir:

- izlər-əkslər (məsələn, həcmi ling izi);
- iz kimi bəzi predmetlər (məsələn, əlcək, alışqan);
- cinayətin izi sayılan maddələr (məsələn, yola səpələnmiş yuyucu toz).

Trasologiya sahəsində əldə edilmiş biliklərə əsaslanaraq aşağıdakıları müəyyən etmək mümkündür:

1. izlərin yaranması mexanizmini və şəraitini;
2. hadisənin bəzi hallarını;
3. iz qoyan obyektin qrup mənsubiyyətini və bəzi əlamətlərini;
4. izi qoyan obyektin eyniliyini.

Trasologiyanın əsas məqsədi cinayətkar hərəkət (və ya hərəkətsizlik) nəticəsində izlərin yaranma qanunauyğunluqlarını öyrənmək, eləcə də izlərin aşkar edilməsi, qeyd olunması və götürülməsi üçün texniki vasitələr, üsullar və metodlar hazırlamaq; izlərin yaranma mexanizmini, vaxtını və digər iş üçün əhəmiyyəti olan halların müəyyənləşdirilməsi üçün izlərə baxış keçirmək; izlərə-əkslərə görə iz qoyan obyektlərin növ (cins) mənsubiyyətlərini müəyyən etmək və onları eyniləşdirmək; cinayətin törənməsinə şərait yaradan səbəb və şəraiti müəyyən etmək və s.

İstintaq təcrübəsi göstərir ki, cinayətin törətdiyi izlərin tədqiq edilməsi nəticəsində cinayətin kim, yaxud kimlər tərəfindən edilməsi, cinayətkarın şəxsiyyətini xarakterizə edən və cinayət işinin istintaqı üçün əhəmiyyət kəsb edən sair hallar haqqında müxtəlif xarakterli məlumatlar əldə etmək mümkündür.

Cinayət yerində aşkar edilən izlər vasitəsilə izin kim tərəfindən, yaxud bilavasitə hansı predmetlə qoyulmasını müəyyən etməklə yanaşı, bu izlərin yetirilməsinə və xarakterinə görə cinayətkarın cinsi, yaşı, fiziki qüvvəsi, onun boyu, ixtisası, bəzi fiziki çatışmazlığı və s. barədə məlumatlar əldə edilir. Məsələn, barmaq izləri üzrə bu izin təxminən kim tərəfindən – azyaşlı və ya yetkinlik yaşına çatmış şəxs tərəfindən qoyulmasını, bəzi hallarda isə belə izlər vasitəsilə şəxsin barmaqlarında hər hansı bir qüsurun olub-olmamasını müəyyən etmək mümkün olur.

Cinayətlərin açılmasında və qarşısının alınmasında trasologiya elminin böyük əhəmiyyəti vardır.

Trasologiya – kriminalistika texnikasının mühüm sahələrindən biri olub, məhkəmə sübutlarını əldə etmək məqsədi ilə təbii və texniki elmlərin nailiyyətlərindən istifadə edərək izlərin aşkar edilməsi, götürülməsi və tədqiqinin elmi-texniki üsul və vasitələrini müəyyən edir.

Trasologiya hər hansı predmetin xarici quruluşunu özundə əks etdirən və sübut əhəmiyyəti kəsb edən izlərdən və həmin izlərlə işləmənin elmi-texniki üsul və vasitələrindən bəhs edir .

İzlər müxtəlif şəraitdə əmələ gələ bilər. İzin əmələgəlmə şəraitindən asılı olaraq izi qoyan obyektin xarici səthinin xüsusiyyətləri izi qəbul edən obyektdə müxtəlif keyfiyyətdə əks olunur.

Obyektin xarici səthinin quruluşunun xüsusiyyətlərinin izdə əksolma qabiliyyətinə malik olmaması həmin obyektin eyniləşdirilməsini aradan qaldırır. Məsələn, mayenin xarici quruluşu sabit olmadığı üçün onların buraxdığı izlər üzrə eyniləşdirmə aparmaq mümkün olmur. Məhz elə bu səbəbdən trasoloji tədqiqatların obyektləri yalnız bərk cisimlər – obyektlər ola bilər. Adətən, belə cisimlərdə iz əmələ gəldikdən sonra iz qoyan obyektin əlamətləri və eləcə də izdə əks olunan əlamətlər müəyyən müddət nisbətən dəyişməz qalır. Bərk cisimlərin, obyektlərin xarici səthinin quruluşu nisbi davamlı olub iz əmələ gəldikdən sonra çox az dəyişikliyə məruz qalır.

Trasoloji eyniləşdirmənin obyektlərinin bərklik dərəcəsi nisbi xarakter daşıyır və bu, izin əmələgəlmə şəraiti ilə müəyyən edilir. İz qoyan obyekt o dərəcədə bərk olmalıdır ki, əksini iz düşən obyektin səthinə köçürərkən, özünün fərdi əlamətlərini dəyişmədən, izdə düzgün əks etdirə bilsin.

## İzlərin əmələgəlmə mexanizmi və təsnifatı

İzlərin əmələ gəlməsində iki obyekt iştirak edir:

a) iz qoyan obyekt;

b) üzərinə iz düşən obyekt.

Öz xarici səthinin quruluşunu başqa səthə köçürən obyektə iz qoyan obyekt, səthinə iz düşən obyektə isə üzərinə iz düşən obyekt deyilir. İz qoyan obyektlər üzərinə iz düşən obyektin bir-biri ilə təmasda olması nəticəsində əmələ gəlir.

İzlər həmişə üzərinə iz düşən obyektin dəyişikliyə məruz qalması nəticəsində əmələ gəlir. Trasoloji izlər əmələgəlmə xarakterinə görə qruplara bölünür.

İzlərin böyuk əksəriyyəti iz əmələ gətirən obyektlərin birinin digərinə fəal təsiri nəticəsində əmələ gəlir. Bu təsirin xüsusiyyətlərinə əsasən izlər şərti olaraq statik və dinamik izlərə bölünür.

**Statik izlər**- iki obyekt, yəni iz qoyan və üzərinə iz düşən obyekt təmasda olduğu anda hərəkətdə olmadıqda, yəni iz əmələ gələrkən hərəkət kəsildiyi hallarda əmələ gəlir. Adətən, statik izlərdə onu qoyan obyektin təmasda olan hissəsinin bütün xüsusiyyətləri təhrif olunmadan əks olunur. İzlə onu qoyan obyektin formasını və ölçüsünü müəyyən etmək mümkün olur. Belə izlərdə onu qoyan obyektin xarici səthinin xüsusi əlamətləri əsasən ciddi təhrif olunmadan əks olunduğu üçün fərdi eyniləşdirmənin aparılmasını asanlaşdırır. Statik izlərə misal hamar səthlərdə qalan əl-barmaq izlərini, yaxud torpaqda qalan ayaqqabı izlərini göstərmək olar.

İzin əmələ gəlməsində iştirak edən obyektlərin hər ikisinin, yaxud birinin hərəkətdə olması prosesində əmələ gələn izlərə **dinamik izlər** deyilir. Dinamik izlərə sürüşmə, kəsmə və sürtünmə nəticəsində əmələ gələn izləri aid etmək olar. Dinamik izlərdə izi qoyan obyektin xarici səthinin xüsusiyyətləri ciddi təhrif olunmuş şəkildə – xətlər formasında əks olunur. Bu səbəbdən eyniləşdirmə aparmaq üçün dinamik izlər statik izlərə nisbətən az keyfiyyətli olur.

Üzərinə iz düşən obyektin forması və həmçinin dəyişməsi ilə əlaqədar əmələ gələn izlərə həcmi izlər deyilir. Həcmi izlər üzərinə iz düşən sahəsində həcm dəyişiklikləri əmələ gətirməklə yanaşı, izi qoyan obyektin xarici səthinin quruluşunun əlamətlərini də özündə əks etdirir və beləliklə də izi qoyan obyektin xarici səthinin quruluşunun əlamətləri haqqında daha tam məlumat əldə etməyə imkan verir.Bu kimi əlamətlər izi qoyan obyektin qrup və bir çox hallarda isə onun fərdi mənsubiyyətini müəyyən etməyə imkan verir.

Həmin izlər daha çox, üzərinə iz düşən obyektin xarici səthinin formasının plastik dəyişilməsi nəticəsində əmələ gəlir. Bu zaman üzərinə iz düşən obyekt öz formasını dəyişir və iz qoyan obyektin xarici səthinin quruluşuna müvafiq forma alır. Belə izlərə misal gilli torpaqda ayaqqabı, yaxud avtomaşın təkərləri izlərini, yumşaq plastilində qalmış əl barmaq izlərini və s. göstərmək olar.

Həcmi izlər, üzərinə iz düşən obyektin qismən dağılması nəticəsində də əmələ gələ bilər. Dağıdılan sahə adətən, izi qoyan obyektin xarici quruluşunu özundə əks etdirir. Belə izlərə küt alətlə zərbə vurma nəticəsində yaranan izləri, yaxud kəsmə və burğu izlərini aid etmək olar.

Həcmi izlərdən fərqli olaraq səthi izlərdə iz qoyan obyekt üzərində iz qalan obyektin səthində həcm dəyişiklikləri əmələ gətirməyib özünün xarici əlamətlərini yalnız onun səthi üzərində buraxır. Belə izlər ya izi qoyan obyektin səthinə keçməsi ilə, ya da əksinə, üzərinə iz düşən obyektin hissəciklərinin izi qoyan obyektlərə köçürülməsi ilə əmələ gəlir. Buna müvafiq olaraq səthi izlər keçən və köçürülən izlərə bölünür.

Keçən səthi izlər 2 yolla yaranır:

a) izi qoyan obyektin özünün yaratdığı izlər. Məsələn, tərli əl-barmaq və yalın ayaq izləri. Belə izlər əl barmaqlarını kağıza, şüşəyə və s. əşyalara toxundurarkən, barmaqların naxışlarını örtən tər və yağın üzərinə iz düşən obyektə köçürülməsi nəticəsində əmələ gəlir.

b) izi qoyan obyektin bilavasitə özünün deyil, ona müvəqqəti olaraq yapışan digər hissəciklərin vasitəsilə yaranan izlər. Məsələn, əl barmaqları təbaşirə, toza və buna oxşar başqa maddələrə bulaşdıqda əmələ gələn izlər.

Köçürülən səthi izlərə misal olaraq təzə rənglənmiş və ya toz ilə örtülmüş əşyaların üzərində qalan əl-barmaq, yaxud ayaq izlərini göstərmək olar. Belə hallarda iz əşya səthində olan tozun və ya rəngin, əl barmağını, yaxud ayaq altını əhatə edən sahəyə köçürülməsi nəticəsində yaranır.

Üzərinə iz düşən obyektin səthində izin əmələ gəlmə yerinə görə izlər yerli (lokal) və ətraf (periferik) izlərə bölünür.

İzi qoyan obyektlə üzərinə iz düşən obyektin təmasda olduğu sahədə əmələ gələn izlərə yerli (lokal) izlər deyilir. Belə izlər bir qayda olaraq obyektlərin təmasda olduğu sahədə əmələ gəlir və onun hüdudlarından kənarda heç bir dəyişiklik əmələ gətirmir. Məsələn, torpaqda qalan ayaq izləri, şəxs hər hansı əşyaya toxunaraq onun səthində qoyduğu əl-barmaq izləri, yaxud sındırma aləti izləri və s.

İzi qoyan və üzərinə iz düşən obyektlərin təmasda olduğu sahənin hüdudlarından kənarda əmələ gələn izlərə ətraf (periferik) izlər deyilir. Məsələn, altı təmiz, lakin üstü tozla örtülmüş ayaqqabı iz qoyarkən onun üstündə olan toz silkələnərək ayaqqabını əhatə edən sahəyə səpələnərək ətraf (periferik) iz əmələ gətirir.

***Sual 2. İnsanın əl, ayaq izləri, sındırma alətlərinin, nəqliyyat vasitələrinin izləri, onların aşkar edilməsi, götürülməsi və qeyd olunması***

Qayaüstü rəsmlərdə gil üzərində qalmış əkslərdən məlum olur ki,hələ bizin eradan 2800 il əvvəl Yaxın Şərqdə papilyar xətlər barədə müəyyən biliklər mövcud imiş.VII- VIII - ci əsrlərdə Çində rənglənmiş barmaq əksləri ilə mülki müqavilələr, boşanmalar, qadın və qızların satılması rəsmiləşdirilirdi.

Tarixdə ilk dəfə 1686 cı ildə papilyar xətlərə diqqət yetirən italyan həkimi-anatomiyaçı M.Malpiqi olmuş lakin onların morfologiyası ilə çex bioloqu Yan Purgenye məşğul olmuşdur.Sonuncu papilyar naxışların ilk dəfə təsnifatını verərək, onları 9 növə bölmüşdür. Sonralar bu təsnifat muxtəlif alimlər (Aliks, Halton, Forjo, Test və b.) tərəfindən təkmilləşdirilmişdir.

İngilis antropoloqu F. Halton çoxsaylı barmaq naxışlarını 3 əsas növə bölmüşdür:qovsvari (Arch), ilgəkvari (Loop) və dairəvi (Vhorl) .

Bu təsnifat ingilis polis məmuru Henri tərəfindən sistemləşdirilmiş Halton – Henri sitemi kimi tətbiq olunmağa başlanmışdır. Sonralar alman kriminalisti Roşer qeydiyyat sistemi kimi bunun əsasını qoymuş və inqilaba qədər Rusiyada tətbiq olunmağa başlanmışdır. Nəhayət P.S.Semenovski kombinə edilmiş bu sistemin bir qədər də dəyişdirərək üç növ papilyar naxışların hər birinə naxışların qurluşu xüsusiyyətlərindən asılı olaraq, növ müxtəliflikləri əlavə etmişdir.

Əl izlərindən kriminalistikada nisbətən son dövrlərdə istifadə olunur.Buna baxmayaraq kriminalistik əhəmiyyətinə görə izlər-əkslər qrupu arasında birinci yeri əl izləri tutur.Bu onunla izah olunur ki, onlar nəinki ən çox

rast gəlinən izlərdir,həm də onların vasitəsilə cinayətkarın axtarışına və ifşa olunmasına ən qısa yolla çıxmaq mümkündür.

Cinayətlərin açılmasında və cinayətkarın ifşa olunmasında başqa izlərə nisbətən əl-barmaq izləri bir sıra üstünlüklərə malikdir. Əvvəla, əl-barmaq izlərinin əmələ gəlməsi heç də cinayətin növündən və onun törənməsi üsullarından asılı deyildir. Belə ki, cinayətkar cinayəti törədərkən əksər hallarda onu əhatə edən əşyalara toxunaraq həmin əşyalar üzərində öz barmağının izlərini qoyur.

Başqa izlərdən fərqli olaraq əl-barmaq izlərində şəxsiyyətin eyniləşdirilməsi üçün iz qoyan şəxsin barmağının xarici səthinin quruluşunun əlamətləri daha mükəmməl əks olunur. Bu isə öz növbəsində həmin izə əsasən onu qoyan şəxsin bilavasitə müəyyən edilməsinə və beləliklə, onun cinayət hadisəsilə nə kimi əlaqədə olması sualını aydınlaşdırmağa imkan verir. Əl-barmaq izlərinin başqa izlərdən üstünlüyü bir də onunla izah olunur ki, əl barmaqlarının axırıncı falanqasının qoyduğu izlər cinayətkarın şəxsiyyətinin müəyyən edilməsi üçün kriminalistik qeydiyyatda istifadə olunmağa imkan verir.

Kriminalistika elminin insanın əl-barmaq izlərini öyrənən sahəsi «Daktiloskopiya» adlanır.

Daktiloskopiya yunan dilində«daktilo» - barmaq, «skopio» - baxıram, öyrənirəm mənasını verən, sözlərin birləşməsindən əmələ gəlməklə barmağın iç hissəsinin daxili dəri xətlərindən yaranan naxışlar haqqında elmdir.

İnsan əlinin ovucunda papilyar xətlər, fleksor (əyilən) xətlər və kiçik qatlanma - qırışlar olur.

Kriminalistika elmində əlin barmaqlarının papilyar xətlərini və onların izlərini daktiloskopiya sahəsi öyrənir. Əlin ovucunun papilyar xətlərini və onların izlərini isə-palmoskopiya (latın sözü "palma"-ovuc) öyrənir.

İnsan əlinin dərisinin quruluşu 2 hissədən ibarətdir: üst hissə –“epidermis”, dərinin özü - “derma”.Əlin dərisinin səthində olan naxışların özünəməxsus relyefi vardır.Relyefin çıxıntı hissəsi papilyar xətlər – mürəkkəb naxışlar əmələ gətirir.

Papilyar naxışların əlamətləri 2 yerə bölünür:

1. Ümumi əlamətlər;
2. Xüsusi əlamətlər.

Ümumi əlamətlərə aşağıdakılar aiddir: naxışın tipi və növü, naxışın mərkəzi ilə delta arasındakı xətlərin sayı, papilyar naxış xətlərinin ayrı-ayrı hissələri və elementlərinin qarşılıqlı yerləşməsi, xüsusiyyətləri, ayrı-ayrı papilyar naxış xətlərinin ümumi istiqamətləri.

Xüsusi əlamətlərə isə papilyar naxış xətlərinin konkret sahədə qurtarması, müxtəlif formalar şəklində əks olunması aiddir (məsələn:,papilyar xətlərin başlanğıcı, sonu, körpücük, gözcük, qarmaq və s.). Xüsusi əlamətlərə əsas diqqət müqayisəli tədqiqatda verilir.

Əl barmaqlarının papilyar naxışların başlıca xüsusiyyətləri onların fərdiliyindən, daimilik və bərpa olunma xassəsinə malik olmasından ibarətdir.

Ümumi və xüsusi əlamətlərinin məcmusu ilə papilyar naxışlar təkrarolunmazdır. Eyni bir adamın hər bir barmağının naxışları fərqlənir. Hətta ən yaxın qohumlarda (əsasən də əkizlərdə) onlar eyni deyildir. Ümumdünya təcrübəsi ilə sübut olunmuşdur ki, dünyada papilyar naxışları eyni olan iki adam yoxdur. Bu naxışlar fərdi xarakter daşıyır. Fərdilik papilyar naxışların geniş kriminalistik əhəmiyyətini müəyyən edən ilkin xüsusiyyətidir.

Papilyar naxış xətləri ana bətnində altıncı ayında formalaşmağa başlayır və insanın bütün həyatı boyu ciddi dəyişikliklərə məruz qalmadan dəyişilməz qalır. İnsan

yaşa dolduqca o, fiziki mənada böyüdüyü kimi onun barmaq papilyar xətləri də müvafiq dəyişikliklərə uğrayır. Lakin həmin xətlərin miqdarı, nisbi yerləşməsi və onların yaratdıqları şəkil dəyişməz qalır. Papilyar xətlər yalnız insan öldükdən sonra meyitin çürüməsi ilə əlaqədar məhv olur ki,bu da papilyar naxışların kriminalistik xüsusiyyətlərindən biri olan daimilikdir.

Papilyar naxışlar həm də bərpa olunma qabiliyyətinə malikdirlər. Dərinin üst qatının zədələnməsi və ya sivrilməsi zamanı papilyar xətlər bir müddətdən sonra bərpa olunur və naxışlar şəxsiyyətin eyniləşdirilməsi üçün öz keyfiyyətlərini itirmir. Zədə və yara sağaldıqdan sonra naxışlar yenə də əvvəlki vəziyyətini alır. Ona görə də bəzi təcrübəli cinayətkarlar cinayətdə ifşa olunmasınlar deyə öz barmaq naxışlarını müxtəlif üsullarla silməyə cəhd edirlər. Lakin buna heç bir vasitə kömək etmir. Müəyyən müddət keçdikdən sonra bu naxışlar yenə də tamamilə bərpa olunurlar.

Papilyar naxışların hündürlükləri 0,1-0,4 mm, enləri isə 0,4-0,6 mm arasındadır.

Əl barmağın üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar naxışlar əsasən 3 növə bölünür:

1. Qövsvari;
2. İlgəkvari;
3. Dairəvi (qıvrımvari).

1.Əl barmaqlarının üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar xətlər qövs şəklində olduqda, belə papilyar naxışlara qövsvari naxışlar deyilir. Bəzi naxışlar barmağın bir tərəfindən başlayır, qövsvari dönərək digər tərəfində qurtarır. Qövsvari naxışlar sadə, piramidal və qeyri-müəyyən quruluşa malik olur. Bu naxışlara az təsadüf edilir və bütün naxışların təxminən 5%-ni təşkil edir. Qövsvari naxışlarda delta olmur.

2. Əl barmaqlarının üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar xətlər ilgək şəklində olduqda, belə naxışlara ilgəkvari naxışlar deyilir. İlgəkvari naxışların xətləri barmağın bir tərəfindən başlayaraq mərkəzə doğru gedir, orada ilgək kimi əyilərək geri qayıdır. Bir qayda olaraq ilgəkvari naxışlarda bir delta olur, iki deltalı ilgəkvari naxışlara da təsadüf edilir.

İlgəyin başlanğıcı və onun sonu vardır. İlgəyin istiqamətinə görə yəni ilgəyin başlanğıc və bitmə nöqtələrinin istiqamətinə görə bu naxışlar radial və ulinar naxışlara bölünür. Əgər ilgəyin ayaqları çeçələ barmağa doğru yönəlmişdirsə ulinar, baş barmağa doğru yönəlmişdirsə radial adlanır. İlgəkvari naxışlar üfüqi, şaquli, maili, qarşılıqlı, paralel, yarımçıq, qapalı və s. şəkilli olur. İlgəkvari naxışlar qövsvari və dairəvi (qıvrım) naxışlardan fərqli olaraq daha çox yayılmış naxışlardır. Belə ki, bütün növ naxışların təxminən
65 %-ni bu naxışlar təşkil edir. İlgəkvari naxışların 5 %-ni radial, 95 %-ni isə ulinar naxışlar təşkil edir.

3. Əl barmaqlarının üçüncü bölməsinin iç hissəsinin mərkəzini əhatə edən papilyar xətlər dairə (qıvrım) şəklində olduqda, belə naxışlara dairəvi (qıvrımvari) naxışlar deyilir. Dairəvi naxışların papilyar xətləri barmağın uc hissəsinin ortasında yerləşir və çərçivə xətlərlə əhatə olunur. Naxışı yaxın olan çərçivə xətləri bir və ya iki yerdə birləşərək yunan hərfi (deltanı) xatırladan səciyyəvi şəkil yaradır. Qövsvari və ilgəkvari naxışlardan fərqli olaraq dairəvi naxışlarda papilyar xətlərin mərkəzini təşkil edən naxışların quruluşu mürəkkəb şəkilli olur. Deltalardan biri papilyar xətlərin mərkəzindən sağda, başqa birisi isə solda yerləşir. Dairəvi naxışlar bütün naxış növlərinin təxminən 30 %-ni təşkil edir.

Daktiloskopik eyniləşdirmə zamanı papilyar naxışların yuxarıda qeyd edilən ümumi əlamətlərindən başqa bir sıra xüsusi morfoloji əlamətləri var ki, məhz onların köməyi ilə aşkar edilmiş əl-barmaq izinə görə konkret şəxsi eyniləşdirmək mümkün olur.

**Əl-barmaq izlərinin aşkar edilməsi, qeyd olunması və götürülməsi.** Əl-barmaq izlərindən cinayətlərin istintaqı zamanı bir sübut kimi istifadə edilməsini təmin edən əsas şərtlərdən biri müstəntiqin və ya təhqiqat aparan şəxsin barmaq izlərinin əmələgəlmə mexanizmini və bunların aşkar edilmə və qeyd olunma üsullarını nə səviyyədə bilməsindən asılıdır.

Barmaq izləri öz əmələgəlmə mexanizminə görə həcmi və səthi izlərə bölünür. Üzərinə iz düşən əşyanın səthində həcm dəyişiklikləri əmələ gəldikdə həcmi izlər yaranır. Adətən, həcmi izlər plastik xassəyə malik olan əşyaların səthində qalır. Bundan başqa, həcmi izlərə toz basmış səthlərdə əmələ gələn barmaq izləri də aiddir.

Həcmi izlərdən fərqli olaraq səthi əl-barmaq izləri, onları qəbul edən obyektlərlə həcm dəyişiklikləri əmələ gətirmir, sadəcə olaraq onun səthində öz əksini buraxır

***Əl-barmaq izlərinin müxtəlif əşyalar üzərində əmələgəlmə mexanizmi.*** Səthi izlər görünmə dərəcəsinə görə - görünən, zəif görünən və görünməyən izlərə bölünür. Rəngli barmaq izləri adətən görünən izlərdir. Bu izlər – barmaqlar müxtəlif rəngli məhlula bulaşdıqda, çirkli olduqda üzərinə düşən predmetə toxunarkən onun səthində əmələ gəlir. Rəngli barmaq izlərinə çox vaxt adamöldürmə cinayətlərində və sındırma aləti vasitəsilə edilən oğurluq yerlərində rast gəlmək olur. Belə ki, cinayətkar sındırma üsulu ilə oğurluq etdikdə adətən onun əl-barmaqları çirkli olur. Əl barmaqları mürəkkəbə,

hisə, təbaşirə, qana və s. bulaşdıqda da görünən izlər əmələ gəlir.

Əl izləri aşağıdakı növlərə bölünür:

1. rənglənmiş;
2. tozlu səth üzərində;
3. rəngsiz;
4. basılmış.

Daktiloskopik ekspertizanın aparılmasından əvvəl görülən işlərin - papilyar naxışların izlərinin aşkar edilməsindən, onların götürülməsindən, müqayisəli əkslərin alınmasından, ekspert üçün zəruri olan məlumatların və materialların həcminin müəyyən edilməsindən, ekspertizanın təyin edilməsi haqqında qərarın çıxarılmasından və həmin qərarda ekspert qarşısında qoyulan sualların düzgün formalaşmasından ibarət işlərin görülməsi zəruridir.

Əl- barmaq izlərində papilyar naxışların aşkar edilməsi müstəntiq tərəfindən müstəqil olaraq, ya da hadisə yerinə baxış keçirərkən kriminalist-mütəxəssisin iştirakı ilə aparılır.

Əl- barmaq izlərinin aşkar edilməsi üçün optik, fiziki və kimyəvi metodlarından istifadə edilir.

Optik metod əlverişli işıqlanma şəraiti yaratmaqla, izlə fon arasında kontrastlığı gücləndirməklə, optik cihazların köməyi ilə müşahidə edilməsinə əsaslanır.

Hamar, parlaq səthlərdə olan izlər yandan düşən işıq şüaları və ya əksedici şüalarla müşahidə edilir. Şəffaf predmetlərdə olan izlər də həmçinin işıqla müşahidə edilə bilər. ***Əl- barmaq izlərinin aşkar edilməsi.*** Optik metod izdə dəyişiklik yaratmır. Optik metodla aşkar edilən izlərin şəklinin çəkilməsi zəruridir və əgər mümkündürsə, onu üzərində iz qalan predmetlə birlikdə götürmək lazımdır.

Bəzən izləri ultrabənövşəyi şüalarla işıqlandırmaq məqsədə müvafiq hesab edilir. İzin işıqlandırılması tərin və yağın fərdi xüsusiyyətlərindən və başlıca olaraq üzərində iz olan səthin fiziki, kimyəvi təbiətindən asılıdır. Məsələn, metal obyektlərdə – alüminiumda, bürüncdə, paslanmayan poladda, gümüşdə, qızılda olan izlərin ultrabənövşəyi işığa salınması zamanı çox parlaq lüminessensiya müşahidə edilir. Ultrabənövşəyi lüminessensiyiyanın köməyi ilə bəzən kağızda, kartonda, pambıq parçalarda və digər lifli materiallarda olan izləri aşkar etmək mümkün olur.

Əgər optik metod yaxşı nəticə vermirsə, onda fiziki metod tətbiq edilir. Fiziki metod izlərin yod buxarları və ya onların xüsusi tozlarının köməyi ilə rənglənməsindən ibarətdir. Bu və ya digər üsulun seçilməsi izdə olan komponentlərin münasibətlərindən, izin yaranma müddətindən və iz qəbul edən səthin xarakterindən asılıdır.

Kağızda, ağacda, ağardılmış malada, pambıq parçalarda və digər lifli və bərk materiallarda olan əl-barmaq izlərini optik metodla aşkar etmək qeyri-mümkündür, ona görə də onlar az görünən izlərdən fərqli olaraq görünməyən izlər adlandırırlar. Belə izləri tozlardan əvvəl yod buxarı ilə aşkar etməyə çalışmaq lazımdır. Yod buxarı tər, piyli maddələrlə reaksiyaya girmir. O, üzərində iz qalan predmetə hopur, kiçicik kristallar şəklində izə çökür və onu işıqlı çəhrayı rəngə boyayır. İzlərin yod buxarı ilə işlədilməsinin bir neçə üsulu vardır.Hamar formada olan səthlərə yod buxarı *«yod trubkası»* adı ilə tanınan qurğu vasitəsi ilə üfürülür və yod barmaq izi qalan yerləri örtərək izi aşkar edir.

Yod buxarları ilə rənglənmiş izlər az müddət keçdikdən sonra yodun buxarlanması nəticəsində solğunlaşırlar. Ona görə də bu üsulla aşkar edilmiş izlər

bərkidilməlidir.Görünməyən izlər yod buxarı vasitəsilə aşkar edildikdən sonra şəkili çəkilir. İzi uzun müddət ilkin vəziyyətdə saxlamaq zərurəti yarandıqda, yod tökülmüş izləri dəmir tozu ilə tozlayıb bərkitmək lazımdır. Yodun dəmirlə reaksiyaya girməsi nəticəsində bərk birləşmiş qara rəngli yodlu dəmir alınır.

Əgər aşkar etmənin göstərilən üsulları parlaq, nahamar səthlərdə yaxşı nəticə vermirsə, onda barmaq izləri müxtəlif tozlarla rənglənə bilər. Bu zaman xüsusi çəki, quruluş, ayrı-ayrı nüvələrin həcmi və rütubətlilik dərəcəsi kimi faktlar həlledici əhəmiyyət kəsb edir. Tozun fonu rənglənmədən izə yapışma qabiliyyəti bu faktlardan asılıdır.

Tədqiq olunan obyekt üzərinə tozun səpilməsi üsulu tətbiq olunan tozdan və üzərində iz qalan səthin xarakterindən asılıdır. Məsələn, qrafitlə kağızda olan izi götürmək 2-5 qr toz kağızın üstünə səpilir və onun səthində hərəkət etdirilir. İz rəngləndikdən sonra tozun artıq qalan hissəsi çırpılır. Geniş sahələrdə qalan izləri götürmək üçün, məsələn, divarda, qapıda hava tozlayıcılarından istifadə etmək məsləhət görülür. Hamar səthlərdə əgər ağır və möhkəm toz səpilərsə, yumşaq parçalardan istifadə edilməlidir. Bunun üçün fırçanın qurtaracağında az miqdarda toz götürülür və onu sıxmadan bir neçə dəfə tədqiq olunan səthin üzərində gəzdirilir. Əgər bərpa olunmuş dəmirdən istifadə edilirsə, onda dəmir tozunu saxlamayan səthlərdə işə əl barmaq izlərini aşkar etmək üçün maqnit fırçalardan istifadə edilməlidir. Maqnit fırçanı səpildiyi izlərin üstü ilə gəzdirərkən dəmir tozları iz yaradan maddə ilə birləşir və onu ümumi kütlədən ayırır və iz rənglənir. Dəmir tozu ilə aşkar edilmiş izlər sonrakı tədqiqat üçün yod buxarları ilə də işlədilə bilər. Tozlarla aşkar edilmiş izlər onların izi qəbul edən predmetdən ayrılmasına zərurət olduqda



daktiloskopik plyonkaya köçürülür. Ağ rəngli plyonkalara qara tozlarla aşkarlanmış izlər, qara rəngli plyonkalara isə ağ rəngli tozlarla aşkarlanmış izlər köçürülür.
Kimyəvi metoddan əsasən laboratoriya şəraitində istifadə edilir.

Müxtəlif səthlərdə qalan izlər üçün aşağıdakı tozlardan istifadə edilməlidir:

**Şüşədə –** sink oksidi, mis oksidi, alüminium tozu (argentorat), sülügən, manqan peroksidi, oxra, qurğuşun boyağı, əsaslı nitrat turşusu, vismutu;

**Çini, saxsı qablarda –** sülügən, sink oksidi, tunc tozu; qırmızı sülügən tozu;

**Metalda –** mis oksidi, sülügən, sink oksidi, tunc tozu, alüminium tozu;

**Plastmasda –** sink oksidi, manqan peroksidi, alüminium tozu, qrafit, sülügən;

**Rezində –** sink oksidi, sülügən, manqan peroksidi;

**Dəridə –** sink oksidi, sülügən;

**Mərmərdə –** sink oksidi, sülügən, qırmızı surquc tozu;

**Pardaxlanmış ağacda –** sink oksidi, sülügən, talk;

**Karton və kağızda –** qrafit, mis oksidi, sülügən, his;dəmir tozu;

**Yağlı boya ilə örtülmüş səthlərdə –** alüminium tozu, qrafit, his, qurğuşunlu qırmızı boyaq tozları;

**Meyvələrdə –** sink oksidi, kanifolla mis oksidinin qarışığı.

Kağız və karton səthində olan əl-barmaq izlərinin aşkar edilməsi məqsədi ilə asetonda həll edilmiş ninhidrindən, yaxud alloksandan istifadə edilir. Ninhidrin məhlulu ilə barmaq izlərinin aşkar edilməsi üsulunun özünəməxsus üstünlüyü vardır. Barmaq izlərinin müxtəlif tozlarla (sülügən, mis oksidi, aliminium, qrafit və s.), yodla aşkar edilməsi müəyyən müddət keçdikdən sonra

mümkün olmur. Lakin asetonda həll edilmiş ninhidrin məhlulu bu cəhətdən müstəsnalıq təşkil edir. Belə ki, təcrübədə hətta 10 ildən bəri qalan barmaq izlərinin ninhidrinlə aşkar edilməsi faktı məlumdur.

Ninhidrin məhlulu ilə barmaq izləri aşağıdakı qaydada aşkar edilir: asetonda həll edilmiş ninhidrin məhlulu, yəni 100 ml asetona 0,5-2,0 % ninhidrin məhlulu (izin əmələ gəlməsi müddətindən asılı olaraq məhlulun qatılığı müvafiq olaraq artırılır), pulverizator və pambıq piltəsi vasitəsi ilə əşyanın barmaq izi qalması ehtimal edilən sahəsinə yayılır. Elə etmək lazımdır ki, məhlul izin qalması ehtimal edilən səthə bərabər qatda yayılmış olsun. Məhlul ilə boyanmış əşya adi otaq temperaturunda 20-30 dəqiqədən sonra quruyur və görünməyən barmaq izləri zəif çəhrayı rəngdə aşkar olunur. Təxminən 2-4 saat keçdikdən sonra isə həmin izlər bənövşəyi-çəhrayı rəng alır.

İzin aşkar edilməsi prosesini sürətləndirmək məqsədi ilə quruducu şkafdan, yaxud başqa qızdırıcı cihazlardan istifadə edilə bilər. Asetonda həll edilmiş ninhidrin məhlulu yüksək temperaturun təsiri altında daha tez quruyur və izin aşkar edilməsini sürətləndirir.

Göstərmək lazımdır ki, kağızın və kartonun bütün növləri ninhidrini eyni dərəcədə yaxşı qəbul etmir. Ninhidrinlə yazı kağızı, dəftər, qəzet və qalın sarğı kağızları səthində olan izlər daha yaxşı aşkara çıxarılır. Lakin kazein ilə yapışqanlaşmış kağız üzərində olan barmaq izlərini aşkar etmək üçün ninhidrindən istifadə edilərsə, bu, yaxşı nəticə verməz, çünki tərkibində zülal maddələr olan həmin kağızlar ninhidrin maddəsinin kimyəvi təsiri nəticəsində başdan-başa çəhrayı-bənövşəyi rəng alır və izin aşkar edilməsinə imkan vermir.

Bir çox hallarda hadisə yerində barmağın papilyar naxışlarının yalnız kiçik bir hissəsinin əks olunduğu əl-barmaq izləri aşkar edilir. Belə hallarda əl-barmaq izlərinə görə eyniləşdirmək üçün təkcə papilyar naxışlardan deyil, həm də həmin naxışların quruluşunu müəyyən edən dərialtı köməkçilərin xüsusiyyətlərindən istifadə edilir.

Xüsusi təhqiqatlar vasitəsi ilə sübut edilmişdir ki, bu köməkçilər (poralar) hər bir insanda fərdidir və onlar dəyişməzdir. Bu, şəxsi poraskopik tədqiqatlar vasitəsi ilə eyniləşdirməyə imkan verir.

Cinayət hadisəsi yerində tapılan və aşkar edilən barmaq izləri bütün hallarda götürülməlidir.

Əgər predmeti və ya onun hissəisini götürmək mümkün deyildirsə, əvvəlcə izin şəklini çəkməli, sonra isə götürmənin əlavə üsullarını yerinə yetirmək lazımdır: əl-barmaq izlərini yod buxarı ilə, tozlarla, kimyəvi reaktivlərlə rəngləmək lazımdır. Rəngli və ya tozlu səth üzərində qalmış izləri iz qəbul edən plyonkaya köçürmək lazımdır. Əl izlərinin miqyas xətkeşi ilə şəklini çəkmək məsləhət görülür. Birinci çəkilişdə üzərində iz qalan predmeti bütünlüklə əks etdirməli (onları haşiyələmək məqsədə uyğundur), sonra isə ayrı-ayrı izlərin millimetrlik miqyasla hissə-hissə şəklini çəkmək lazımdır. Şəkilçəkmə ilə yanaşı, izləri götürərkən onları yod buxarları və müxtəlif tozlarla rəngləmək üsulu da geniş yayılmışdır.

Yuxarıda göstərildiyi kimi, izi predmetlə birlikdə götürmək mümkün olmadıqda mövcud izköçürmə üsullarından istifadə edilir. Ancaq bu üsullar da bir-birindən fərqlənir. Əgər izin aşkar edilməsində hər hansı bir tozdan istifadə edilmişsə, bu zaman həmin izin götürülməsi üçün daktiloskopik plyonkadan istifadə edilir. Daktiloskopik plyonka şəffaf (ağ) və tünd (qara) rəngli olur. Daktiloskopik plyonka bir-birinə yapışdırılmış iki təbəqədən ibarətdir. Təbəqənin birinin iç üzü qurumayan

yapışqanla örtülmüşdür. İkinci təbəqə isə təmiz, səliqəli olub, birinci təbəqənin üzərindəki izləri qorumaq məqsədi ilə onu örtür. Əl- barmaq izlərinin daktiloplyonkaya köçürmək məqsədilə birinci növbədə onları müvafiq tozla rəngləmək lazımdır. Yod buxarı vasitəsilə aşkar edilən izlər xüsusi hazırlanmış yodlu, kraxmallı, yaxud yodlu dekstrinli plyonkaya köçürülür. Yodlu kraxmalla, yaxud yodlu dekstrinli plyonka aşkar edilmiş izin üzərinə qoyulur. Bu zaman yodla dekstrin, yaxud kraxmal reaksiyaya girir və nəticədə izin surəti müvafiq rəngdə plyonka səthində əks olunur. Dekstrinin növündən asılı olaraq izin alınan surətinin rəngi qara, göy, qonur-qırmızı ola bilər.

Həcmli barmaq izlərini iz düşən predmetlə birlikdə götürmək mümkün olmadıqda, onların da əksi alınmalıdır. Belə izləri yuxarıda göstərilən müvafiq plyonkalara köçürmək mümkün olmadıqda gips məhlulundan, yaxud " K "pastasından istifadə olunur.

Aşkar edilmiş və götürülmüş barmaq izləri, hadisə yerinə baxış zamanı aşkar edilən digər hallar kimi baxış protokolunda müfəssəl qeyd olunur. Protokolda aşağıdakılar öz əksini tapmalıdır:

1. Üzərinə iz düşən predmetin adı və onun təsviri;
2. Bu predmetin tapıldığı yer;
3. Predmet səthində barmaq izinin hansı qaydada yerləşməsi və onun təsviri;
4. İzin hansı əlin hansı barmağı tərəfindən qoyulması (əgər bunu müəyyən etmək mümkündürsə);
5. İzin aşkar edilməsi üçün hansı üsuldan və hansı tozdan istifadə edilməsi;
6. İzin hansı üsul ilə götürülməsi;
7. İz üzərində olduğu predmetlə birlikdə götürülmüşsə onun hansı qaydada qablaşdırılması və s.

***Aşkar edilmiş əl-barmaq izlərindən hansı halların müəyyən edilməsində istifadə etmək olar.***

1. Cinayətkarın yaşının müəyyən edilməsində hələ ana bətnində uşağ 3-4 aylıq olanda yaranmağa başlayan və doğulduqdan 6 ay sonra tam formalaşan papilyar xətlər insan öləndən sonra çürüyərək məhv olur, yəni o vaxta qədər həmişə sabit qalır. Lakin insanın inkişafı, fəaliyyəti və qocalması ilə əlaqədar papillyar xətlərdə dəyişiklik baş verir. Eyni sayda olan papilyar xətlər tədricən böyüyən sahədə yerləşirlər, yəni, papilyar xətlərin sayı sabit qalsa da onların yerləşdiyi sahə böyüyür. Ona görə də müəyyən sahədə yerləşən papilyar xətlərin sayına görə izi qoyan şəxsin təxmini yaşını müəyyən etmək olar. Məsələn, 0,5 sm. kəsikdə yerləşən papilyar xətlər 8-12 yaşlı uşaqlarda 12-13, yeniyetmələrdə 10-12 yaşlı insanlarda 9-10 sayda olur.

2. Cinayətkarın peşəsinin təyin edilməsində əl-barmaq izləri əsasında müəyyən məlumatları əldə etmək olur.Məsələn, çəkməçinin əlləri adətən yaralı olur; dülgərin əlində yarıqlar, kəsiklər olur; simli alətdə ifa edən şəxsin barmaqlarında döyənək olur; bənnanın əlləri daşlara çox sürüldüyü üçün papilyar xətlər ovucda silinərək yeri döyənək olur; yuyucu toz zavodunda və ya camaşirxanada işləyən şəxslərin (adətən onlar qadınlar olurlar və bununla da şəxsin cinsi müəyyən olunur) çoxlu paltar yumaqdan əllərində papilyar xətlər silinir, lakin döyənək olmur və s;

3. İzi qoyan şəxsin cinsinin və boyunun müəyyən edilməsində – qadınların ovuc hissələrinin izləri kişilərə nisbətən ensiz olur və barmaqlarının izləri nisbətən nazik olur. Eyni zamanda qadın barmaqlarının papilyar xətləri kişilərdə olduğundan daha nazik və bir-birinə sıx yerləşirlər. Qadınların əl-barmaq izləri cavan oğlanların izlərinə oxşasalar da, forma quruluşlarına və E.Lokarın

qeyd etdiyi kimi "intuisiya əsasında" onları ayırd etmək çətin deyildir. Eləcə izin ölçüləri və formasına görə onu saxlayan şəxsin boyunu təxmini müəyyən etmək olar.

4. İzlərin barmaqla və ya ovucla qoyulduğunun müəyyən edilməsində ovuc izlərində papilyar xətlərin ayrılma və birləşmələri az olur, eləcə də əyilmələr az olur. Ovucun papilyar xətləri uzun və geniş sahəli olur.

5. İzlərin hansı əl tərəfindən qoyulduğunun müəyyən edilməsində – əgər barmaq izlərinin uclarını birləşdirən şərti xətt sağa əyilərsə, deməli izlər sağ əl tərəfindən qoyulmuşdur. Əgər həmin xətt sola əyilərsə, onda izlər sol əl tərəfindən qoyulmuşdur. Baş barmaqların izləri o biri barmaqlarla müqayisədə daha geniş və enli olur. O biri barmaqları da izlərin forması, ölçüsü və qalma yerlərinə görə müəyyən etmək mümkündür. İlgəkvari naxışlarda ilgəyin ayaqları çeçələ barmağa tərəf yönələrsə belə naxışlar ulinar naxışlar adlanır və ilgəkvari naxışların 95 %-ni, əgər ilgəyin ayaqları baş barmağa tərəf yönələrsə belə izlər radial naxışlı izlərdir və ilgəkvari naxışların cəmi 5%-ni təşkil edir. Deməli, faiz çoxluğu ilə hadisə yerlərində əsasən ulinar naxışlı izlər aşkar olunur. Belə olduqda, əgər ilgəyin ayaqları sağa tərəf yönəlmiş olarsa, tək barmaq izi-sağ əlin barmağı tərəfindən qoyulmuş, sol tərəfə yönəlmiş olarsa-sol əlin barmağı tərəfindən qoyulmuşdur. Dairəvi naxışlı izlərdə isə iz əgər spiral şəklində olarsa, papilyar xətlər saat əqrəbinin əks istiqamətində istiqamətlənmiş olarsa - iz sağ əlin barmağı ilə qoyulmuş, saat əqrəbi istiqamətində istiqamətlənmişsə, deməli - iz sol əlin barmağı ilə qoyulmuşdur. Sağ əlin baş barmağı daha enli olub, oval şəkilli olur.

6. Əl barmaqlarının quruluşunun müəyyən olunmasında izlərə görə ovuc və barmaqların ölçü və

formalarına, barmaqların hər hansının yox olmasına və ya eybəcər olmalarına əsasən müəyyən edilir.

7. Ovucda və ya barmaqlarda kənar əşyaların olmasını müəyyən etməkdə – cinayətkar əgər əlcək geymişsə, papilyar naxışlar əvəzinə əlcək materialının səthinin naxışları, ovuca, barmağa bint bağlanarsa və ya barmağa üzük taxılarsa, onların izdə müvafiq əksləri həkk olunur.

8. Əl-barmaq izinin onu qoyan şəxsi müəyyən etmək üçün eyniləşdirməyə yararlı olub-olmamasını;

9. Əgər əl-barmaq izi eyniləşdirməyə yararlıdırsa, onda onu qoyan şəxsin eyniləşdirilməsinin mümkünlüyünü;

10. İzin yaranma mexanizminə görə- tutma, toxunma və ya zərbə nəticəsində yaranmasını müəyyənləşdirmək olar.

Məsələn, 1979-cu ildə Sumqayıt şəhərində qəsdən adamöldürmə faktı ilə bağlı mənzildə baxış keçirərkən ekspert-kriminalist N.Hüseynov tərəfindən çarpayının başlığından aşkar edilib götürülmüş izin “S”-yə məxsus olması haqda verdiyi məhkəmə-daktiloskopik ekspertizası rəyinə əsasən həmin şəxsin “N” ilə birlikdə 35 yaşlı “K”-nın yataq başlığından sol əl ilə tutub yastığa sıxmaqla boğub öldürmələri sübuta yetirilmişdir.

Onu da qeyd etmək lazımdır ki, **insanın əl izləri alimlər üçün maraqlı və müəmmalı olaraq qalmaqdadır.**

Belə ki, aparılan tədqiqatlar papilyar xətlərin genetik əlaqə daşıyıcısı olması barədə hipotezləri irəli sürməyə imkan verir.

1. Polşa kriminalisti S.Qrijeçek belə nəticəyə gəlib ki, papilyar xətlər atalıq və analığın təsdiqi üçün antropoloji sübut qrupuna daxil olmalıdır. Digər tərəfdən bəzi genetik xəstəliklər papilyar xətlərin quruluşlarında

əks olunurlar. Ona görə də müəllif qeyd edir ki, əgər hadisə yerində tapılmış əl-barmaq izi ilə şübhəli şəxsin izi çox oxşayırsa, lakin o deyilsə, onda onun yaxın qohumluğunu yoxlamaq lazımdır.

2. O.L.Qlasou da yuxarıdakı fikri təsdiqləmiş və qeyd etmişdir ki, müxtəlif etnik qrupların əl-barmaq izləri fərdi əlamətlərin tezlikləri baxımından fərqlidirlər ki, bundan da axtarış zamanı istifadə etmək olar.

3. Deyilənlərə onu da əlavə etmək lazımdır ki, insanın əl izlərinin müasir tədqiqatlarının nəticəsində müəyyən olunub ki, insanın fiziki və intellektual imkanları bilavasitə onun əllərində olan papilyar naxışların növləri ilə əlaqəlidir. Burada əsas təyinedici delta indeksidir. Belə ki, qövsvari naxışlarda delta olmadığı üçün 0-indeksli, ilgəkvari naxışda bir delta olduğundan-1, dairəvi naxışlarda əsasən iki delta olduğundan delta indeksi-2 qəbul edilir. Bu hesabla insanın 10 barmağında olan deltaların sayı cəmlənir. Müəyyən olunub ki, yüksək sürətə və gücə malik olan dünyada tanınmış beynəlxalq idman ustalarının delta indeksləri aşağıdır, həm də onlar məsələlərin həllinə birtərəfli yanaşırlar. Məşhur idmançılar hansıların ki, əsas qabiliyyəi dözümlülükdür – onların orta delta indeks göstəriciləri vardır. Yuxarı indeks göstəriciləri isə idmanda yüksək nailiyyətlər göstərən idmançılardır. Onlar məsələlərin həllinə analitik nöqteyi-nəzərdən yanaşır.

4. Hüquq-mühafizə orqanları üçün daha maraqlı olanı budur ki, çoxsaylı qətllər törədən qatı cinayətkarların 94,1 %-də papilyar xətlərin vəzilərində digərlərinə nisbətən 4 dəfə çox qeyri-simmetriklik aşkar olunmuşdur.

Daktiloskopiya sahəsində maraqlı tədqiqatlar davam etdirilir.

**Poroskopiya və eceskopiya şəxslərin eyniləşdirilməsində mühüm rol oynayır.**

Əgər əl-barmaq izlərində eyniləşdirmə üçün kifayət qədər xüsusi əlamətlər yoxdursa, onda məsələnin həlli üçün papilyar xətlərin məməcikləri (poralar) tədqiq olunur. Məməciklər - dəyirmi, üçbucaq,dördbucaq və s.həndəsi fiqurlar formasında əks olunur. Onlar öz ölçülərinə və yerləşməlrinə görə fərqlənirlər. Bu əlamətlər məməciklərdə nisbi sabitliyə malikdirlər. Məməciklərin əlamətləri əsasında aparılan tədqiqatlar "poroskopiya" adlanır.

Poroskopiyanın banisi fransız kriminalisti E.Lokardır. Onun bu barədə ilk çıxışı 1912-ci ildə Paris şəhərində olmuşdur. Poroskopiyada istifadə edilən əlamətlər bunlardır:

- orta hesabla 1 mm məsafədə papilyar xətt üzərində 4 məməcik yerləşir; məməciklərin ölçüləri 0,025-0,37 mm arasında dəyişir;
- papilyar xətlərin oxu üzərində məməciklər bir və ya iki cərgə ilə düzülürlər;
- məməciklər müxtəlif formalarda: oval, üçbucaqlı, çoxbucaqlı və s. olurlar;
- məməciklər olan sahədə papilyar xətlər nisbətən enli olurlar;
- bəzi məməciklər papilyar xətlərin sərhəddindən bir kənara hissəvi çıxaraq, "körfəz" əmələ gətirirlər;
- məməciklər papilyar xətlərin sərhəddindən hər iki tərəfə kənara çıxaraq "boğaz" əmələ gətirirlər.

Bu sahədə tədqiqatlar aparan kriminalist A.İ.Jeleznyakovun fikrincə şəxsin eyniləşdirilməsi üçün poroskopiyada 22 məməcik kifayət edir.

1. Poroskopik əlamətlərin formaları;
2. Papilyar xətlərdə poroskopik əlamətlərin yerləşməsi və qarşılıqlı vəziyyətləri;

3. Poroskopik əlamətlərin növləri(ayrıca yerləşən məməciklər,bir-biri ilə birləşən məməciklər,körfəz məməciklər,boğaz məməciklər).

Poroskopiyanın əsas mənfi cəhəti ondadır ki, bəzən papilyar xətlərdə məməciklər iz əmələ gətirən komponentlər tərəfindən tutulur. Çex kriminalisti İ.Knyaklı müəyyən edib ki, hadisə yerindən götürülən əl-barmaq izlərinin yalnız 25 %-i poroskopik tədqiqat üçün yararlı olurlar.

Eyniləşdirmə üçün papilyar naxışları xarakterizə edən kifayət qədər xüsusi əlamətlər çatışmayanda, aparılan əlavə tədqiqat metodlarından biri də hind kriminalisti S.K.Çattercinin təklifi etdiyi (edge-kənar) eceskopiyadır. Bu metodun əsas mahiyyəti ondan ibarətdir ki, papilyar xətlərini 20-25 dəfə mikroskopla böyüdərkən onların kənarlarında müxtəlif formalı əyrilər, çıxıntılar, çöküntülər, əyilmələr, nazikləşmə, yoğunlaşma, kəsilmə və s. müşahidə olunur ki, onlar da eyniləşdirmədə əlavə əlamətlər kimi istifadə oluna bilərlər.

Papilyar xətlərin aşağıdakı xassələrini qeyd etmək olar:

1. Papilyar xətlər (ümumi və xüsusi əlamətlərinin cəmi) hər bir şəxs üçün fərdidir və onlar eyniləşdirmə aparmağa imkan verir.

Dünyada elə iki şəxs tapmaq mümkün deyil ki, onların papilyar xətlərində olan ümumi və xüsusi əlamətlərin məcmuu eynilik təşkil etsin.

Daktiloskopiyanın belə əsaslarından birini şübhə altına qoyan B.M.Mednikov "Aksioma biologii" kitabında qeyd edir ki, "bir yumurtalı əkizlərin barmaq izlərinin fərqini heç Şerlok Holms da müəyyən edə bilməz". Doğrudur, əkizlərin barmaq əksləri eyni növ və növ müxtəlifliyinə malikdirlər. Lakin, diqqətlə tədqiq etdikdə,

onların da barmaq əkslərində istər ümumi, istərsə də xüsusi əlamətlərinin fərqlərini aydın görmək olar;

2. Papilyar xətlər öz davamlılığı ilə seçilir. Onların əlamətlərinin məcmusu fərdidir və hər bir şəxsdə bu ömrünün sonunadək daimi qalır və yalnız bəzi xəstəliklərlə əlaqədar və ya dərinin tam dağılması zamanı yox ola bilər. Əgər xəsarət yetirilərsə, papilyar xətlər müəyyən vaxtdan sonra bərpa olunur, dərinin derma təbəqəsi xəsarət alarsa çapıq, kəsik şəklində yeni xüsusi əlamət yaranır ki, bu da eyniləşdirmədə istifadə olunur.

İnsanın ayaq izləri. Cinayətin istintaqı zamanı bir çox hallarda insanın ayaq izlərindən də istifadə olunur.

Cinayətkarın ayaqqabısı, yaxud onun yalın ayağı altında gətirilmiş əşya hissəciklərinə (kömür, təbaşir və s.) əsasən onun cinayət etməzdən əvvəl harada olduğu və bir sıra hallarda isə cinayəti etmiş şəxsi müəyyən etmək mümkündür.

Ayaqqabı izləri əmələgəlmə mexanizminə görə həcmi, səthi, dinamik və statik olur.

Ayaq izləri görünən və görünməyən izlərə bölünür. Ayaqqabı izlərindən fərqli olaraq, yalın ayaq izləri adətən görünməyən olur. Rəngli yalın izləri insan ayağı müxtəlif rəngli məhlula boyandığı zaman əmələ gəlir.

Adətən, insan ayaq izlərinin yolu iki cərgə olur. Bir cərgəni sağ, digər cərgəni sol ayaq təşkil edir.

Hadisə yerində iz yolunu aşkar edərkən, onun elementlərini müəyyən etmək lazımdır. İz yolunun elementlərinə aiddir: hərəkət istiqaməti xətti, pəncə bucağı, addımın eni və uzunluğu.

**Ayaq izlərinin aşkar edilməsi və götürülməsi.** İlk növbədə, hadisə yerində ayaq izlərini axtararkən onu harada və necə axtarmağın üsulları mənimsənilməlidir. Məsələn, yumşaq torpaqda, palçıqda, qarda və s. ona

oxşar yerlərdə həcmi izləri, parketdə, linolium üzərində və ona oxşar yerlərdə isə səthi izləri axtarmaq lazımdır. Eləcə də bu izlərdən gələcəkdə istifadə etmək üçün onları tələb olunan qaydada götürmək və qeyd etmək lazımdır. Əksər hallarda isə ayaq izləri gips və «K» pastası vasitəsilə götürülür. Bu mümkün olmadıqda izin üzərində olduğu predmetlə birlikdə tam təsviri olan fotoşəkili çəkilir və protokolda qeyd olunur. Belə şəkillər bir qayda olaraq, miqyas fotoşəkilçəkmə üsulu ilə çəkilir. İz yolunun fotoşəkli çəkildikdə isə fotoaparat şaquli vəziyyətdə tutulur və panoram şəkilçəkmə qaydası ilə izin əksi alınır. Həcmi ayaq izlərin götürülməsində gipsdən və «K» pastasından geniş istifadə olunur. Bu zaman izin üzərinə sonradan düşmüş olan kənar hissəciklər maqqaş vasitəsilə izdən kənar edilir. Əgər izin içərisində su olarsa, onu su çəkən kağız vasitəsilə götürüb sonra gips məhlulunu, yaxud «K» pastasını hazırlayıb izin üzərinə tökmək olar.Torpağın nəmliyindən asılı olaraq 1:1 və ya 1,25:1 nisbətdə gips su ilə qatışdırılır. Gips məhlulunu adətən izin üzərinə yox, izin kənarında torpaq üzərinə tökmək məsləhət görülür ki, oradan axıb izin üzərinə tam yayılsın. Gips bərkidikdən sonra onu hər iki tərəfdən birlikdə götürmək və sonra torpağı su ilə yumaq lazımdır.

Kifayət qədər dərin olmayan izlərin kənarında 2-4 sm hündürlükdə torpaqdan və ya kəsilmiş karton parçasından sədd düzəldilib sonra gips məhlulu tökülür. Gipsdən başqa, izlərin götürülməsində «K» silikon pastasından da istifadə olunur. «K» pastası boz rəngli, yarımşəffaf duru maddə olub, hər hansı səthə yaxşı yayılmaq xassəsinə malikdir. «K» pastasının vulkanlaşmasını sürətləndirmək üçün ona 18 №-li katalizator əlavə edilir.

İnsan ayaq izlərinin götürülməsində göstərilən maddələrdən başqa, mum, parafin, kükürd və s.

maddələrdən də istifadə olunur. Göstərilən maddələrdən 500-600 qr götürülüb metal qabda əridilib izə tökülür.

Ayaqqabılar pəncə və daban quruluşlarına görə aşağıdakı formada olurlar:

1. Ayaqqabı pəncəsinin ön hissəsinə görə – itibucaqlı, düzbucaqlı, yumru, enli və s.

2. Ayaqqabı pəncəsinin arxa hissəsinin formalarına görə – düz, sürtülmüş (yeyilmiş), fiqurlu şəkildə və s.

3. Ayaqqabı dabanın qabaq hissələrinin formalarına görə – qövsi, içəriyə doğru, düz, fiqurlu və s.

Hadisə yerində ayaq izlərinin öyrənilməsi ilə aşağıdakı suallara cavab tapa bilərik:

- cinayətkarlar hansı istiqamətdə hərəkət ediblər (pəncə və daban hissələrinin yerləşdiyi istiqamətlərlə);
- cinayətkarlar hadisə yerində hansı predmetlərə yaxınlaşıblar ( predmetin yaxınlığında saxlanılan ayaq izlərinə görə);
- cinayətkarlar hansı sürətlə hərəkət ediblər və hansı yerlərdə dayanıblar (hərəkətin sürəti barədə addımın uzunluğu ilə belə mülahizə yürütmək olar: kişilərin addımın uzunluğu orta hesabla 70-85 sm., qadınların isə – 50-65 sm-dir. Hərəkət tempinin artması ilə addımın uzunluğu artır. İnsan dəqiqədə 150-170 addım atan zaman addımın uzunluğu maksimum həddə çatır. Yavaş qaçış zamanı kişilərin addımlarının uzunluğu 85-100 sm., iti sürətlə qaçış zamanı 150 sm. və daha çox olur. Qadınlarda bu uzunluqlar nisbətən az olur. Cinayətkarların dayanacaq yerlərini isə bir-birini hissəvi örtən, nizamsız ayaq izlərinin olması ilə müəyyənləşdirmək olar);
- cinayətin törədilməsində neçə nəfər iştirak etmişdir (müxtəlif növ, forma, konfiqurasiya və ölçüyə malik ayaq izlərinin olması ilə);

- cinayətkarlar hansı hərəkətləri etmişlər (ayaq izlərinin hadisə yerində qarşılıqlı vəziyyətləri, şəraitlə əlaqələri, məsələn: hücum zamanı izlərin qaldığı yerlər və əmələgəlmə mexanizmi);

- izlər yeriş zamanımı, qaçış zamanımı, tullanma zamanımı, yoxsa ayaqla zərbə vurma zamanımı yaranmışlar (yeriş zamanı ayaq izinin pəncə və daban hissələri əks olunur. Qaçış zamanı isə ayaqqabının pəncə hissəsi, yalın ayağın isə pəncə və barmaq hissələri əks olunur. Yeriş zamanı əks olunan həmin izlərin kənar hissələri (konturları) qaçış zamanı əks olunan izlərə nisbətən daha dəqiq olur. Tullanma zamanı qalan izlər qeyri-müəyyən formalı batıq şəklində olurlar. Ayaqla zərbə vurma zamanı yaranan izlər çirklənmə və cızılma şəklində olurlar);

- hansı növ ayaqqabı tərəfindən izlərin qoyulması müəyyən edilir (izlərin pəncə və daban hissələri, onların relyef quruluşları, hərf və rəqəm əksləri, naxışları və s. izlərin konfiqurasiyasına əsasən izin hansı növ ayaqqabı (qaloş, keçə, dəri çəkmə və s.) tərəfindən qoyulması müəyyən edilir);

- hansı ölçüdə ayaqqabı tərəfindən izin qoyulduğu müəyyənləşdirilir (düsturdan istifadə etməklə);

- izi qoyan şəxsin fiziki xüsusiyyətləri müəyyən edilir. Tək yalın ayaq izinə görə onu qoyan şəxsin boyunu müəyyən etmək olur. Ayaqqabı izinin uzunluğunu 15,8 % (kişi), 15,5 % (qadın) bölüb 100-ə vursaq, izi qoyan şəxsin boyunun hündürlüyünü alarıq. Dabanın eni 27 dəfə, pəncənin eni isə 18 dəfə insanın boyundan kiçikdir (kişi və qadının); və yaxud iz yolu ilə, yəni bir ayaq izinin o birinə nisbətən dərin olması və addımın uzunluğunun fərqli olması insanın axsamasına dəlalət edir;

- izlərin quruluşuna görə yalın ayağın və ayaqqabının quruluşunu (formasını) müəyyən etmək olur.

Belə ki, ayaqda barmaqlardan biri və ya bir neçəsi yox ola bilər və ya da eybəcər, əyri formada ola bilər. Ayağın altı, daban müəyyən qüsurla əyri, yumru və s. şəkildə ola bilər ki, bu həm yalın ayaq izində, həm də ayaqqabı izində özünü biruzə verər, yəni yalın ayağın anormal əksi ayaqqabı vasitəsilə izdə əks olunar;

- izlərin qalma vaxtını müəyyən etmək olar. Belə ki, ayaq izlərinin qoyulduğu andan sonra yağış yağarsa, su izin içərisində təmiz halda qalar. Nəm gil torpaq üzərində qalan izlərin quruyub bərkiməsi üçün müəyyən vaxt tələb olunur. Ot üzərində ayaq izləri 3-4 saatdan sonra, ot qalxıb düzəldiyi üçün yox olur. Qarlı boran zamanı qar üzərində qalan ayaq izləri bərkimiş şəkildə alt hissədə qalır. Təzə yağmış qar üzərində ayaq izləri çox dəqiq əks olunur. Buna görə də qarlı boranın və qarın yağma vaxtına görə ayaq izlərinin qoyulma vaxtını bilmək olar. Qar üzərində qalmış izləri şaxtadan donduqları üçün qar təbəqəsində şaxtanın vaxtına görə izin qoyulma vaxtı müəyyən oluna bilər;

- izlərin hadisə yerindəki torpağa və ya maddəyə uyğun olmayan rəngdə və maddə ilə qoyulması ilə ayağa bulaşmış rəngin (təbaşir, gil, toz, əhəng və s.) başqa yerdən gətirilməsi müəyyən edilir. Sonra bundan cinayətin açılmasında istifadə edilir;

- izlərin dərinliyi və formasına görə şəxsin çəkisi və ağır yük daşıyıb-daşımaması müəyyən olunur;

- izlərin forma və ölçülərinə görə izi qoyan şəxsin cinsi və yaşı müəyyən edilir;

- izlərin qoyulduqları yerlərə və xüsusiyyətlərinə görə cinayətin baş vermə şəraitini və cinayətin hansı üsulla törədilməsini müəyyən etmək olar;

- ayaq izlərinə görə hadisə yerlərində cinayətkarların necə hərəkət etmələrini, hansı predmetlərə (seyfə, paltar şkafına və s.) və neçə dəfə

yaxınlaşmaları müəyyənləşdirilir. İzlərə görə hansı hərəkətlər edilməsi aydınlaşdırılır və hərəkətlərə görə cinayətin obyektiv tərəfi müəyyən olunur, o isə öz növbəsində cinayətin subyektiv tərəfini müəyyənləşdirir (motivini, məqsədini və s.).

**Ayaq izlərinə əsasən ayaqqabının ölçüsünü və insanın boyunun təyin edilməsi.** Ayaqqabının ölçüsü-ayaqqabının içliyinin uzunluğudur. Ayaqqabının içliyinin uzunluğu ayaqqabı altının uzunluğundan bir qədər qısadır.Onlar arasındakı fərq orta hesabla 1-1,5 sm-dir.

Hadisə yerində aşkar olunmuş, kifayət qədər aydın görünən ayaqqabı izinin uzunluğu mm dəqiqliyi ilə ölçülür.Sonra isə ayaqqabının növündən və formasından asılı olaraq, izin uzunluğundan qeyd etdiyimiz fərq çıxılır. Alınmış nəticə bir "ştrixə" (2,3 sm-ə və ya 6,67 mm-ə) bölünür və yuvarlaqlaşdırılaraq ayaqqabının ölçüsü müəyyən edilir.

Məsələn, hadisə yerində 28,3 sm uzunluğda altı dəri olan (boğazlı və ya yarımboğazlı) çəkmə izi aşkar olunmuşdur.Çəkmə altının və içliyinin fərqini 1sm qəbul edsək:

28,3sm-1sm=27,3sm

27,3sm/ 2,3=40,95sm (yuvarlaq götürsək)41 alınar.

Deməli, aşkar etdiyimiz izi qoyan ayaqqabının ölçüsü 41-dir.

Ayaqqabı izi əgər tam əks olunmayıbsa onda, ayaqqabının ölçüsünü bu qaydada hesablamaq olar:

Hadisə yerində aşkar olunmuş ayaqqabı izinin pəncə hissəsinin (ən enli hissəsindən ölçməklə)enini 2,7-ə,daban hissəsinin enini isə 3,9-a vurmaqla izləri qoymuş ayaqqabının təxmini ölçüsünü hesablamaq olar.

Bəs insanın boyunu,onun qoyduğu ayaq izlərinə görə necə müəyyən etmək olar?

Bunun üçün bir neçə metod mövcuddur.

1.Tədqiqatlar göstərmişdir ki, kişilərin yalın ayağının uzunluğu onların boylarının 15,8%-ni, qadınların yalın ayaqının uzunluğu isə onların boylarının 15,5%-ni təşkil edir.Başqa sözlə kişilərin yalın ayaqlarının uzunluğu boylarına nisbətən 6,33, qadınların yalın ayaqının uzunluğu isə 6,45 dəfə qısadır.

2.Yalın ayağın uzunluqu ilə insan boyu arasında asılılıq bir qədər də dəqiqliklə aşağıdakı düsturla ifadə olunur:

$P_{kişi}$ =D-2,9/0,14 və $P_{qadın}$ =D-2,2/0,14

Harada ki :

P-insanın boyu (sm-lə),

D-yalın ayaqın uzunluğudur(sm-lə).

Fərz edək ki , hadisə yerində aşkar olunmuş ayaq izi pəncə hissəsi uzadılmış və ön hissəsi küt olan adi kişi ayaqqabısı izidir və orta hesabla onun uzunluğu 29,5 sm-dir.Boyun tapılması üçün əvvəlcə ayaqabının ölçüsünü müəyyən edək, ona görə də izin umumi uzunluğundan içliyin uzunluğunu çıxmalı, sonra isə içlik ilə yalın ayaqın (pəncənin) uzunluqları fərqini (1,5 sm) çıxmalıyıq:

D=29,5 sm-(1+1,5) sm = 27,0 sm

Alınmış nəticə, ayaqqabını geyinən insanın yalın ayaqının uzunluğudur.Buradan insanın təxmini boyu:

P=27,0 -2,9/0,14 =24,1/0,14=172 sm

3.İnsanın boyunun və ayaq ölçüsünün uzunluqlarını ayaq izləri vasitəsi ilə müəyyən edilməsinə dair kriminalistik ədəbiyyatlarda,kriminalistik texnikaya aid olan təcrübi məşğələlərin keçirilməsinə dair təcrübi vəsaitlərdə olan xüsusi cədvəllərdən də istifadə etməklə müəyyən etmək olar .

4.A.Frekon tərəfindən hesablanan asılılığa görə ayaqqabı izi 1sm artarsa,onda insanın boyu 7 sm artar.Boyun təyini üçün belə bir düsturdan istifadə edilir:

$V=3,1D_n+4S_n+5,3$

Harada ki:

V-insanın boyu,

$D_n$-ayağın altlığının(pəncəsinin)uzunluğu(sm),

$S_n$- ayağın(pəncəsinin)enidir(sm). (məsələn, Rukovodstvo po kriminalistiçeskoy texnike, yuridiçeskaya literatura,Moskva, 1975 ).

Sındırma alətlərinin izləri. İstintaq təcrübəsi göstərir ki, bir çox hallarda cinayətkarlar cinayətin törədilməsində sındırma alətlərindən istifadə edirlər. Sındırmada istifadə edilən alətlər sındırılan obyekt üzərində öz izini qoyur. Məsələn. qıfıl, divar, tavan, qapı, pəncərə və s. üzərində.

Sındırma izləri dəqiq müəyyən edildikdən sonra sındırma alətlərinin fərdi xüsusiyyətlərini daha aydın və keyfiyyətli əks etdirən izlər seçilməli və götürülməlidir.

Baxış prosesində aşkar edilmiş, götürülmüş sındırma aləti izləri aşağıdakı kimi baxış protokolunda öz əksini tapmalıdır:

1. Sındırmaya məruz qalan maneələr – divar, pəncərə, tavan və s.;
2. Hansı materiallardan olması – kərpic, dəmir, daş, taxta, beton və s.;
3. İzin növü – həcmi, səthi, mişar, zərbə, sıxma, sürtünmə, kəsmə izləri və s.;
4. İzin yerləşdiyi yer – anbarın daxilində, mərkəzində və ya başqa yerdə olması;
5. İzin forması – dairəvi, oval, düzbucaqlı və s.;
6. İzin ölçüləri (uzunluğu, eni, dərinliui);
7. İzdə kənar hissəciklərin olub-olmaması, rəng, pas və s.;

8. İzin fotoşəklinin çəkilmə üsulları;

9.İzin götürülməsində tətbiq olunan üsullar, izin qablaşdırılması, hansı möhürlə möhürlənməsi.

Nəqliyyat vasitələrinin izləri. Nəqliyyat vasitələrinin izlərinə baxış keçirilməsi üçün, adətən, mütəxəssislər dəvət olunurlar. İzlərə əsasən nəqliyyat vasitəsi haqqında aşağıdakı məlumatları əldə etmək olar:

1. Nəqliyyat vasitələrinin ümumi əlamətləri (avtomaşının markası, tipi və s.);

2. Həmin iz hansı növ nəqliyyat vasitəsinə məxsus olması (avtomaşın, motosiklet, velosiped və s.);

3. Nəqliyyat vasitəsinin hansı əlamətlərə malik olması;

4. Hadisə yerində nəqliyyat vasitəsinin fərdi xüsusiyyətlərin xarakterizə edən əlamətlərin müəyyən edilməsi;

5. Nəqliyyat vasitəsinin istiqaməti.

Nəqliyyat vasitəsinin təkərləri kriminalistik baxımdan xüsusi əhəmiyyətə malikdir. Çünki cinayətkar tərəfindən hadisə yerində nəqliyyat vasitələrindən istifadə edilib-edilməməsini göstərən izlər adətən, həmin nəqliyyat vasitələrinin təkərlərinin izləri olur. Aşkar edilmiş təkər şinlərinin fərdi xüsusiyyətlərinin aydınlaşdırılmasına xüsusi fikir verilməlidir.

Nəqliyyat vasitələrinin izləri həcmi və səthi olur. Həcmi izlər yollarda, qarda, torpaqda əmələ gəlir. Nəqliyyat vasitəsi yumşaq səth üzərində hərəkət edərkən, adətən, özünün ağırlığı nəticəsində təkərin əksi həmin səth üzərində qalır. Bu zaman təkərin səthində olan qabarıq sahələr izdə çökəklik kimi əks olunur.

Səthi izlər səthi yollarda təkərin müxtəlif maddələrə boyanması hallarında əmələ gəlir. Məsələn,

a) yol nəm olduqda və ya təkərlər yolda suya batdıqda;

b) təkərlər tozlu və ya palçıqlı yoldan təmiz yola keçdikdə və s. belə izlər əmələ gəlir.

Nəqliyyat vasitələrinin qeyd edilməsi və götürülməsinin aşağıdakı üsulları mövcuddur:

1. Nəqliyyat vasitələrinin fotoşəkillərinin çəkilməsi;
2. İzlərin ölçülməsi və təsviri;
3. İz əkslərinin alınması.

Nəqliyyat vasitələrinin izlərinin fotoşəkilləri çəkildikdən sonra onlar ölçülməli və təsvir edilməlidir. İzin ölçülməsi və təsviri nəticəsində alınan məlumatlar hadisə yerinə baxış protokolunda qeyd olunmalıdır.

Hadisə yerində nəqliyyat vasitələri izləri ilə bağlı aşağıdakılar müəyyən edilməlidir:

1. Nəqliyyat vasitəsinin qabaq və arxa təkərlərinin izinin eni;
2. Təkər qurşağının (protektorun) gediş yolunun eni;
3. Nəqliyyat vasitəsinin arxa oxunda olan təkərlərin miqdarı;
4. Gediş yolu protektorunun naxışının növü;
5. Protektorun fərdi xüsusiyyətlərini əks etdirən izlər.

Bir ox üzərində olan sağ və sol təkərlər arasındakı məsafə(koleyi) bir təkərin orta nöqtəsindən başqa təkərin orta nöqtəsinədək olan məsafə ilə müəyyən edilir.

Avtomobilin bazası isə onun təkər oxları (qabaq və arxa) arasındakı məsafəyə deyilir.

Düz istiqamətdə hərəkət zamanı avtomobilin arxa təkərinin izi qabaq təkərlərinin izini örtdüyündən avtomobilin bazasını təyin etmək çətin olur.

Yaxşı olar ki, avtomobilin bazasini dönmə yerlərində, eləcə də avtomobilin təkərlərinin batıq həcmi izləri ilə,yaxud avtomobilin altından tökülən hissəciklərlə (palçıq, qar və buz ərintisi, yağ damcıları və s.) avtomobilin dayandığı yer dəqiqləşdirilməklə qabaq və

arxa təkərlərin oxları arasındakı məsafəni ölçməklə müəyyənləşdirilsin.

Nəqliyyat izlərinə baxış zamanı, bu qeyd edilənlərdən başqa, izlərdə protektorların naxışlarının eyni növ olub-olmamasına xüsusi fikir verilməlidir. Bu halın müəyyən edilməsi, izi buraxan avtomaşının axtarışını təmin etmək üçün qiymətli məlumatdır.

Avtomaşın qurşağına baxış zamanı aşağıdakılar müəyyən edilməlidir:

a) İz aşkar edilən yerin və ya yolun növü və vəziyyəti (yolun asfaltı, torpaq, qumlu və s. olması);

b) İzin növü (həcmi, səthi);

c) İzin yerləşdiyi sahə;

ç) İzin miqdarı;

d) Hər bir izin ayrılıqda eni;

e) Arxa və qabaq təkər izlərinin bir-birinə münasibəti (qabaq təkər izlərinin arxa təkər izləri ilə örtülüb-örtülməməsi);

f) Yolun səthinə nisbətən həcmi izin maksimum dərinliyi;

g) Protektorların naxışlarının quruluşu, təkərin və ya təkər qurşağı əksinin səthdə olan xüsusiyyətlərinin forması, ölçüsü və yerdəyişməsi (yamaq, çatlamış sahə, deşik və s.);

h) Təkərin çevrəsinin izdə uzunluğu;

i) Tormoz izinin uzunluğu;

ı) Hərəkət istiqamətinin əlamətləri.

Yuxarıda qeyd edilən təkər izlərindən (onları birinci dərəcəli izlər adlandırırıq) başqa, yol nəqliyyat hadisələri zamanı hadisə yerlərində və nəqliyyat vasitələrinin toxunduğu digər obyektlərdə, nəqliyyat vasitələrinin gövdə, fara kimi ayrı-ayrı hissələrinin izləri yarana bilər (bu izləri ikinci dərəcəli izlər adlandırırıq). Eləcə də bu qrup izlərə hadisə nəticəsində nəqliyyat vasitələrindən

qopan hissələri və yağ damcılarını aid etmək olar. Cinayət törətmək üçün bilavasitə istifadə olunmuş minik və qoşqu heyvanlarının ayaq izərini də bu qrupa aid etmək olar. Cinayətin üstünün açılması, cinayətin necə və hansı şəraitdə baş verməsi barədə mühüm əhəmiyyət kəsb edən məlumatlar daşıdığından həmin izləri aşkar etmək, qeyd etmək və götürmək lazımdır.

### *Sual 3. Mikroobyektlərin anlayışı, onların aşkar edilməsi, qeyd edilməsi, götürülməsi və istifadə olunması*

Məlumdur ki, izlər adətən, maddi hissəciklərin iz qoyan obyektdən iz qəbul edən obyektin səthinə köçürülməsi nəticəsində yaranır. Maddələrin qarşılıqlı köçürülməsi bütün iz yaranma halları üçün xarakterikdir. Bu həm də təkcə iz yaranma üçün deyil, eləcə də tozlanma, islanma, hislənmə halları üçün də xarakterikdir. Bir obyektdən digər obyekt üzərinə düşən hissəciklər bəzən o qədər kiçik olur ki, onların aşkar olunması üçün böyüdücü şüşələrdən və ya mikroskoplardan istifadə edilir.

Kriminalistik mikrologiya (*«mikrologiya»* - yunan sözü olub *«mikros»*–kiçik və *«loqos»*-söz, təlim deməkdir) cinayət mühakimə icraatında kriminalistik əhəmiyyətli məlumatların əldə edilməsi və istifadə olunması məqsədilə mikrohissəciklə, mikroizlər, mikromaddələrin aşkar edilməsi, qeyd olunması, götürülməsi, saxlanmasının vasitə və texnologiyası, həmçinin onların tədqiqatının üsul və metodları haqqında biliklərin sistemini təşkil edir.

Ekspert və istintaq təcrübəsində rast gəlinən mikroskopik izlər və hissəciklər ümumiləşdirilərək, mikroobyektlər kimi adlandırılmışlar. Bu ad altında

kriminalistik məlumatların elə material daşıyıcıları nəzərdə tutulur ki, kiçik ölçüdə və miqdarda olduğundan bu maddələri adi analiz üsulları (mikro) ilə tədqiq etmək mümkün deyil. Mikroobyektlərin tədqiqi bunun üçün nəzərdə tutulmuş xüsusi texnikanın tətbiqi ilə aparılır.

Mikroobyektlər 3 qrupa bölünür:

- mikrohissəciklər;
- mikroizlər;
- mikrokəmiyyət maddələr.

Mikrohissəciklər nisbətən bərk, dayanıqlı, geomateriyaya, morfologiyaya malik olan (1 mm-dək ölçüdə) cisimlərdir. Bunlara aiddir: saç, tük, insan dərisinin quru kəpəkləri, bitki və heyvan mənşəli parçaların lifləri, bitki tozları və sporlar (bitkilərdə cinsiyyətsiz çoxalma orqanları), mineralların mikroskopik hissəcikləri və s.

Mikroizlər dayanıqsız formaya malik olan miqdarda (1mq-dək) maddə və materiallara deyilir. Mikroizlər adi izlərdən ölçüsünə, miqdarına görə fərqlənir. Mikroizlərə aiddir: kiçik qan, rəng, tüpürcək, yumşaq sürtkü maddələrinin və neft məhsulunun ləkələri, yaxın atəş izləri, kontakt qarşılıqlı əlaqə və materialların buxarlanması nəticəsində yaranan metallaşma izləri və s.

Mikrokəmiyyət maddələr – bu, bərk maye və qaz halında olan obyektlərin tərkibində kiçik miqdarda (çox az, 1%) olan müxtəlif birləşmələr və elementlərdir. Bu qrup mikroobyektlər kəmiyyət çoxluğu tərkibi ilə xarakterizə olunur. Cinayətlərin açılmasında mikroobyektlərdən istifadə məsələsi yenilik deyil. Bu haqda hələ XIX əsrin görkəmli kriminalistləri H.Qross, E.Lokar öz əsərlərində yazmışlar. Lakin son onillikdə mikroobyektlər istintaq təcrübəsində daha geniş istifadə olunur ki, bu da elm-texnikanın inkişafı ilə sıx əlaqədardır.

Mikroobyektlərin əsas əlamətləri:

- cinayət hadisəsi ilə əlaqəsi;

- onların adi gözlə görünməsinin çətin, bəzi hallarda isə mümkün olmaması (onların qeyd edilməsi, götürülməsi, tədqiqi xüsusi vasitələrdən istifadə etməyi tələb edir);

- mikroobyektlərin müxtəlifliyini (əmələgəlmə mexanizminə, mənşəyinə, tərkib xüsusiyyətlərinə görə və s.) nəzərə alaraq, onların təsnifatını məntiqi əsas üzərində qurmağa nail olunmamışdı.

Kriminalistikada təcrübi məqsədlərlə istifadə etmək üçün müxtəlif məntiqi əsaslar üzrə təsnifat toplusu qəbul edilmişdir:

1. Aqreqat vəziyyətindən asılı olaraq mikroobyektləri üç yerə bölmək olar:

a) maye (məhlul, emulyasiya, suspenziya və s.);

b) bərk (kriminalistik, amorf forma və s.);

c) qaza oxşar;

2. Mənşəyinə görə:

a) üzvi:

- təbii (mikroorqanizmlər, torf, təbii qaz, bitki və heyvan orqanizmlərinin hissələri, kömür və s.);
- insanın istehsal etdiyi məhsullar (liflər, rənglər, neft məhsulları, polimerlər, dərman preparatları, kimyəvi birləşmələr, insanın ifraz etdiyi məhsullar);

b) qeyri-üzvi:

- təbii (torpaq, filizlər, duzlar, minerallar, külçə materiallar və s.);
- insanın istehsal etdiyi məhsullar (şüşə, keramika, metallar, tikinti materialları, kimyəvi birləşmələr, turşular və s.).

3. Əmələgəlmə obyektinə görə:

a) cinayətkarın paltarından, ayaqqabısından, bədənindən ayrılmış mikrohissəciklər;

b) zərər çəkənin paltarından, bədənindən və s. ayrılmış mikrohissəciklər;

c) cinayət aləti və nəqliyyat vasitələrindən ayrılmış mikrohissəciklər;

4. Yaranma mexanizminə görə:

a) mexaniki ayrılma;

b) mexaniki hissələrə bölünməsi;

c) termiki və ya kimyəvi təsir nəticəsində.

Mikroobyektlər mühüm sübutedici və istiqamətləndirici məlumatların daşıyıcısıdır. Onlar müxtəlif faktları müəyyən etməyə imkan verir. Şübhəli şəxsin və zərər çəkmiş şəxsin paltarlarının kontaktda olması, şəxsin müəyyən olması, cinayətkarın hadisə yerində hərəkət yolu və bu zaman onun hansı əşyalara toxunması, onun hansı paltarda olması, məşğuliyyət növü, meyitin yerinin dəyişdirilməsi və bir çox digər halların müəyyən edilməsinə imkan yaradır.

Kriminalistik tədqiqatı aparan şəxslər qarşısında bir qayda olaraq aşağıdakı vəzifələr durur:

- mikroobyektləri aşkar etmək;
- onların təbiətini müəyyən etmək;
- yaranma mexanizmini müəyyənləşdirmək;
- iş üçün əhəmiyyət kəsb edən obyektlərlə qarşılıqlı kontakt izlərini aşkar etmək;
- tədqiq olunan hadisəyə aidiyyətini müəyyən etmək;

Bu tədqiqatın əsasını məlumatın daşıyıcıları olan mikroobyektlərin spesifik xüsusiyyətlərinin öyrənilməsi təşkil edir.

## Mikroobyektlərin əldə olunmasının üsul və vasitələri.

Mikroobyektlərin aşkar edilməsi və götürülməsi istintaq baxışı, axtarış, götürmə, ifadənin yerində yoxlanılması və s. hərəkətlərində həyata keçirilir.

Mikroobyektlərlə iş müstəntiq, təhqiqat aparan şəxs, kriminalistik texnika, məhkəmə təbabəti, biologiya, kimya, fizika və s. elm sahələri üzrə xüsusi biliyə və vərdişə malik olan mütəxəssislər tərəfindən icra olunur.

Mikroobyektlərlə iş üçün lazım olan əksər texniki vasitələr bir qayda olaraq, xüsusi çantalarda və dəstlərdə yerləşir.Mikroobyektlərlə iş üçün istifadə olunan texniki vasitələri 5 qrupa bölmək olar:

**1-ci qrup** – mikroobyektlərin axtarışı, aşkar edilməsi və onlara baxış keçirilməsi üçün nəzərdə tutulmuş vasitələr. Bura aiddir: ultrabənövşəyi işıqlandırıcı, böyüdücü, şüşələrin dəsti, portativ mikroskop, maqnit fırça, elektrik əl lampası.

**2-ci qrup** – mikroobyektlərin götürülməsi üçün nəzərdə tutulmuş vasitələr. Bura aiddir: kiçik ölçülü tozsoran, başlıqlar komplekti ilə birlikdə, fırçalar, yapışqan lent, şüşə kapilyarlar, şprislər.

**3-cü qrup** – mikroobyektlərlə iş üçün obyektlər: pinset dəsti, maqqaş, skalper dəsti, zondlar, qayçı, bıçaq ruletka və s.

**4-cü qrup** – mikroobyektlərin qablaşdırılması və saxlanması üçün vasitələr. Bura aiddir: polietilen konteynerlər və paketlər, şüşə qablar, kalka kağızı, yapışqan lent, kiçik formatlı tozsoran üçün təmiz filtr, zərflər və s.

**5-ci qrup** – əlavə yardımçı vasitələr. Bu xüsusi çantaya yerləşdirilmiş hadisə yerində mikroobyektlərlə iş üçün kiçik texniki vasitələr dəstidir. Belə dəstlərdən «Damcı» təcrübədə çox geniş istifadə olunur. Bura daxildir: lupalar dəsti, daimi maqnit, yapışqan lent, elektrostatik çubuq, pinset dəsti, skalper, nümunə üçün şüşə qablar (probirkalar, şüşə kapilyarlar, polietilen zərflər, kalka və perqament kağızlar və s.)

Hadisə yerinə baxış zamanı mikroobyektlərin aşkar edilməsi və qeyd olunması ilk növbədə aparılmalıdır. Əks halda, bunlar digər hərəkətlər zamanı təsadüfən məhv ola bilər, zədələnər və ya yerini dəyişər.

Mikroobyektlərin axtarılması, aşkar edilməsi prosesi ehtiyat tədbirlərinə riayət edilməklə həyata keçirilməlidir.

Bunlara aiddir:

- bütün obyektlər əvvəlcə heç bir yerdəyişmə yol verilmədən müayinə edilir;
- obyektin yeri dəyişdirildikdə onun altına təmiz kalka kağızı və ya polietilen qoyulur;
- obyektə toxunma təmiz alətlə həyata keçirilir;
- obyektə rezin əlcəkli əllə təsir göstərilir;
- digər obyektlərə toxunulmur;
- baxış zamanı obyekt daşıyıcıdan ayrılan hissəciklər saxlanılıb götürülür;
- mikrohissəcikləri hadisə yerində götürmək mümkün olmadıqda onları daşıyan obyektlə birlikdə götürmək lazımdır.

**Mikroobyektlərin götürülməsi, qablaşdırılması və saxlanması.** Hadisə yerinə baxış zamanı aşkar olunmuş mikroobyektlərin fotoşəkli məhkəmə fotoqrafiyasında göstərilən üsul və metodlarla qeyd olunur. Protokolda mikroobyektlərin aşkar olunduğu yer təsvir olunur, tətbiq edilən kriminalistik texniki vasitə göstərilir. Sonra ehtiyat tədbirləri görməklə mikroobyektlər götürülür. Götürülmüş mikroobyektlər qablaşdırılır və müvafiq qaydada möhürlənir.

Qabın üzərində izahedici yazıda mikroobyektin aşkar olunduğu yer, tətbiq edilmiş texniki vasitə göstərilir. Hal şahidlərinin, mütəxəssisin, müstəntiqin imzası ilə tamamlanır.

Götürmə və qablaşdırma protokolda öz əksini tapmalıdır. Bəzi mikroobyektlərin götürülməsi və qablaşdırılması:

**Barıt:**

*Götürmə:* yanmış (yarı yanmış) zərrəcikləri pinsetlə və ya nemfot kağızla.

*Qablaşdırma:* zərrəcikləri rezin tıxaclı probkaya, fotokağız zərfə.

**Atəş izlərini (Rikaşet – sürtünüb keçmə və s.):**

*Götürmə*: daşıyıcı əşya ilə birlikdə;

- maneənin bir hissəsi ilə;
- hisi - qaşımaqla.

*Qablaşdırma:* təmiz parçaya və ya zərfə sonra isə qutuya qoyulur;

- qaşınmış hissəcikləri sınaq şüşəsinə qoyulur.

**Bioloji tədqiqat obyektləri:**

*Saç.*

*Götürmə:* görünənləri pinsetlə;

Zəif görünənləri xüsusi yapışqanlı plyonka vasitəsilə;

*Qablaşdırma:* sınaq şüşəsinə və ya hər biri ayrı-ayrı zərfə qoyulur;

Yapışqanlı plyonkalar zərfə qoyulur.

**Qadın, kişi orqan ifrazatları və insan qanı:**

*Götürmə*: qurumamış olduqda təmiz cunalar ilə götürüb sonra qurutmaq;

Hopmuş maddələri əşya və ya onun hissəsi ilə birlikdə;

Qurumuş maddələri ya qaşımaqla, ya da əşya ilə birlikdə;

*Qablaşdırma:* ağzı tıxacla kip bağlanan şüşə qablara qoyulur.

Üzərində dodaq pamadasının, sürtkü yağlarının, yanan mayelərin mikrohissəcikləri olan kiçik əşyalar da ağzı tıxacla kip bağlanan şüşə qablara qablaşdırılır.

Bərk hissəciklər, o cümlədən dırnaq qırıntıları, mişarağızı (taxta kəpəyi), torpaq kağız zərflərə yerləşdirilir.

Bütün növ mayelər ağzı polietilen qapaqlarla kip bağlanan təmiz şüşə qablara tökülür. Narkotik maddələri ağzı xüsusi şüşə tıxaclarla bağlanmış qablarda saxlamaq məsləhətdir.

Əgər mikrohissəciklər və ya mikroiz paltarın üzərində olursa, onda həmin sahənin üzərinə ağ rəngli parça qoyulur və parçanın qırağı paltara tikilir. Bundan sonra paltar bükülərək, kağıza və polietilen torba içərisinə qablaşdırılır.

Qabın üzərində, onun içərisində nəyin yerləşdiyi, kim tərəfindən, nə vaxt, hansı hadisə ilə əlaqədar götürüldüyü qeyd olunmalıdır.

Götürülmüş mikrohissəciyin və mikroizin tədqiqat üçün yararlı halda qalması, onların düzgün qablaşdırılmasından, saxlanılmasından və nəql edilməsindən çox asılıdır.

## *Mövzu 7:*

## *Kriminalistik silahşünaslıq*

PLAN:

1. Kriminalistik silahşünaslığın anlayışı, sistemi və vəzifələri. Kriminalistik ballistikanın anlayışı və obyektləri.
2. Odlu silahlar, döyüş sursatları və onların tətbiqi nəticəsində əmələ gələn izlərin xüsusiyyətləri.
3. Atılmış giliz və gülləyə görə silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi. Soyuq silahlar.

### *Sual 1. Kriminalistik silahşünaslığın anlayışı, sistemi və vəzifələri. Kriminalistik ballistikanın anlayışı və obyektləri*

Azərbaycan Respublikasında ağır cinayətlərin əksəriyyəti odlu silahlardan istifadə etməklə törədilir.

Cinayət törətmiş şəxslər qanunazidd əməllərini həyata keçirən zaman təkcə zavodda hazırlanmış silahlardan deyil, həmçinin kustar və əldədüzəltmə üsulla hazırlanmış silah növlərindən də istifadə edirlər. Həmin silahların tədqiq edilməsinin cinayətlərin araşdırılmasında mühüm rolu vardır. Silahların öyrənilməsini kriminalistika elminin ən maraqlı sahələrindən biri olan "Kriminalistik silahşünaslıq" həyata keçirir. Son illər yeni silahların

ortaya çıxması və onların qoyduğu izlərin tədqiqi bu sahə üçün diqqət mərkəzindədir.

Onu da qeyd etmək lazımdır ki, respublikamız müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olan irəliləyişlər cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə, cinayətlərin açılmasına, cinayət törətmiş şəxslərin tutulmasına da müsbət təsirini göstərmişdir.

DİO-nun praktiki fəaliyyəti göstərir ki, cinayət törətmiş şəxslər əsasən müxtəlif silah növlərindən istifadə etməklə cinayətkar məqsədlərini həyata keçirirlər. Cinayət törədən şəxslər nəinki odlu silahlardan, həm də soyuq silah, silahı əvəz edən predmetlərdən, partlayıcı maddələrdən, partlayıcı qurğulardan (qumbara, mina və s.) istifadə edirlər. Son dövrlər yeni növ silahların istehsalı başqa konstruktiv xüsusiyyətlərə əsaslanır. Bunlara kimyəvi proseslər zamanı əldə edilmiş silahları aid etmək olar (toksiki, elektroşok silahlar və s.). Polis əməkdaşlarına fəaliyyət göstərdikləri sahələrdə bu kimi obyektlərlə qarşılaşdıqda xüsusi bilik tələb olunur.

Müxtəlif növdən olan silahların tədqiqatı metodikası kriminalistik texnikanın bir hissəsi olan kriminalistik silahşünaslığın formalaşmasına zəmin yaradır. Silah dedikdə, canlı qüvvəni məhv etmək təyinatına malik və ya başqa məqsədlər üçün istehsal olunmuş predmetlər və qurğular başa düşülür.

Kriminalistik silahşünaslıq – kriminalistika texnikasının bir sahəsi olub, funksional (konstruktiv) olaraq insanı, heyvanı və ya digər maddi obyektləri zədələməyi nəzərdə tutan müxtəlif qurğuların konstruksiya olunmasının prinsiplərini, hərəkət mexanizmini və bu qurğuların tətbiqi izlərinin toplanması qanunauyğunluqlarını, eləcə də cinayətlərin qarşısının alınması, istintaqı və açılması zamanı belə obyektlərin və

izlərin yığılması və qiymətləndirilməsi vasitələrini və üsullarını öyrənir.

Kriminalistik silahşünaslığın sisteminə aiddir: kriminalistik ballistika; soyuq silahlar və onların tətbiqi izlərinin kriminalistik tədqiqi; kriminalistik partlayışşünaslıq.

Kriminalistik ballistika kriminalistik silahşünaslığın bir hissəsi olub, cinayət işlərinin istintaqı zamanı qarşıya çıxan məsələlərin həlli məqsədilə odlu silahların, döyüş sursatlarının və onların tətbiqi izlərinin aşkar edilməsinin, qeyd edilməsinin, götürülməsinin və tədqiqinin texniki vasitələrini, kriminalistik üsul və metodlarını işləyib hazırlayır.

Qüvvədə olan cinayət qanunvericiliyinə görə, odlu silahların və döyüş sursatlarının qanunsuz olaraq əldə edilməsi, başqasına verilməsi , satılması, saxlanması, daşınması, hazırlanması və gəzdirilməsi cinayət məsuliyyətinə səbəb olur (Azərbaycan Respublikası CM-in 228-232-ci maddələri).

Bir qayda olaraq əldə edilmiş predmetlərin odlu silahlara və döyüş sursatlarına aid olub-olmamasının müəyyən edilməsi ekspertiza rəyi ilə təsdiq edilməlidir. Atəş hallarının müəyyən edilməsi məqsədilə kompleks tədqiqatlar keçirilməlidir. Kriminalistik silahşünaslıq trasologiya və məhkəmə təbabəti ilə sıx bağlıdır.

Kriminalistik silahşünaslıq obyektlərinin müvafiq qaydada aşkar edilməsi, qeyd olunması, götürülməsi və tədqiqinin istintaqın düzgün istiqamətdə aparılması, cinayətin tezliklə açılması və təqsirli şəxsin ifşa olunmasında böyük əhəmiyyəti vardır.

Atəş izlərinin və döyüş sursatlarının tədqiqatı zamanı spektral, rentgen və kimyəvi analiz metodlarından istifadə edilir. Silah yağı hissəciklərinin tədqiqatında isə

qaz-maye xromotoqrafiyası, infraqırmızı spektrometriya metodları tətbiq edilir.

Silahlar, döyüş sursatları  və onların tətbiqi izləri çoxsahəli obyektlərdir. İstintaqın ayrı-ayrı mərhələlərində onların tədqiqi üçün xüsusi bilik tələb olunur. Xüsusi biliyə malik olan şəxsləri həm ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsində, həm də odlu silahların və onların tətbiqi zamanı yaranmış izlərin müəyyən olunması məqsədilə cəlb etmək olar. Odlu silahların tətbiqi nəticəsində əğələ ğəlmış izlərin kriminalistik ekspertizası qanunla müəyyən olunmuş istintaq və məhkəmə istintaqı zamanı, izlərin müəyyən olunması məqsədilə ekspertlər qarşısında qoyulan suallara əsasən rəy verilməsi üçün aparılan xüsusi tədqiqatdır.

Kriminalistik ballistikanın tədqiqat obyektinə aşağıdakılar aiddir: odlu silahlar, onların hissələri, saxlandığı yerlər, patronlar,  gilizlər, güllələr, tıxaclar, qırma, piston, eksperimental atəş  nəticəsində alınmış qırmalar, üzərində atəş izi olan predmetlər, habelə kustar və əldədüzəltmə silahlar.

Bundan başqa, kriminalistik ballistika aşağıdakı məsələləri də həll edir:

a) baş vermiş hadisənin ayrı-ayrı hallarının aydınlaşdırılmasını (tədqiq edilən deşik, güllə deşiyi hansı tərəfdən və hansı məsafədən açılmışdır).

b) odlu silahların və döyüş ləvazimatlarının texniki vəziyyətlərini müəyyən etməyi (silah atəş açmağa yararlıdırmı, tətiyi çəkmədən silahdan atəş açmaq olarmı?).

c) silahın axtarılması üçün məlumatların müəyyən olunması (patron, güllə, giliz, keçə tıxac hansı silah üçündür, müəyyən olunmuş hissə hansı silaha məxsusdur).

ç) silah və sursatların eyniləşdirilməsi (giliz və güllələr həmin silahdan atılmışdırmı: giliz və güllələr bir neçə silahdan atılmışdır. Giliz və güllələr bir patronun hissələridirmi?).

Qarşıya qoyulmuş sualların həlli müstəntiqə, əməliyyat işçisinə imkan verir ki, hadisənin başvermə şəraitini, yerini, vaxtını, üsulunu və hansı silahdan istifadə olunduğunu müəyyən etsin.

Odlu silahlar vasitəsilə törədilmiş cinayətlərin istintaqında ekspert tədqiqatı bir çox sualların həll edilməsinə gətirib çıxarır. Həmin sualları 5 qrupa bölmək olar:

1. Cinayətkarın hansı silah və patrondan istifadə etməsini və onların hansı qrupa aid olunduğunu müəyyən etmək.

2. Güllənin hərəkət istiqamətinə görə atəş açanın yerini müəyyən etmək.

3. Atəş açma zamanı müəyyən hərəkətlərin edilməsi faktını və onların sayını müəyyən etmək. Məsələn, atəş açmazdan qabaq silah təmizlənibmi?

4. Atəş açma zamanı edilmiş hərəkətlərin mümkünlüyünü müəyyən etmək. Məsələn, tədqiq olunan silah atəş açmaya yararlıdırmı?

5. Əşyaların qrupunu müəyyən etmək. Məsələn, silah hansı materialdan hazırlanmışdır və s.

Yuxarıda qeyd olunanları aşağıdakı misalla göstərmək olarar:

24 iyul 1996-cı il tarixdə naməlum şəxslər tərəfindən vətəndaş Abbasova məxsus pul və qiymətli əşyaları əldə etmək üçün ona basqın edilmişdir. Cinayət törədən şəxslər hadisə yerindən qaçıb gizlənmişlər. DİN-in Ekspertiza İdarəsinin əməkdaşları tərəfindən (hal-hazırda KTİ adlanır) hadisə yerinə baxışın hərtərəfli və dəqiq keçirilməsi nəticəsində hadisə yerindən "Makarov" tipli

tapançaya məxsus giliz və üzərində qan ləkəsi olan sarı rəngli metaldan hazırlanmış düymə aşkar edilib götürülmüşdür.

Keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri nəticəsində vətəndaş Hacıyev M.K. şübhəli şəxs qismində tutulmuş və onun yaşadığı mənzildə axtarış-istintaq hərəkəti aparılmışdır.

Axtarış zamanı Hacıyevin yaşadığı mənzilin tualetində «Makarov» tipli tapança və həmin tapançaya məxsus bir neçə patron tapılıb götürülmüşdür. Bundan başqa, onun paltar şkafından bir ədəd düyməsi olmayan pencək aşkar edilib götürülmüşdür. Giliz və tapançanın müəyyən olunması məqsədilə keçirilmiş ballistik ekspertizanın rəyinə əsasən, hadisə yerindən tapılmış giliz şübhəli şəxs qismində tutulmuş vətəndaş Hacıyevin istifadə etdiyi SP 3148-li «Makarov» tapançasından atılmışdır.

### *Sual 2. Odlu silahlar, döyüş sursatları və onların tətbiqi nəticəsində əmələ gələn izlərin xüsusiyyətləri*

**Odlu silah** - barıtın və ya digər alışan maddələrin yanmasından yaranan enerji hesabına mərmisi istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi mexaniki zədələmək və ya sıradan çıxarmaq təyinatına malik olan silahdır. Cinayətkarların istifadə etdiyi predmetin odlu silaha aid olub-olmamasının cinayətlərin düzgün tövsif edilməsi üçün böyük əhəmiyyəti vardır.

Bəzən elə olur ki, xarici görünüşünə görə odlu silaha bənzəyən predmet odlu silah olmur və ya əksinə, xarici görünüşü odlu silaha bənzəməyən odlu silah ola bilər.

Kriminalistik təcrübədə odlu silahların və döyüş sursatlarının müxtəlif növlərinə rast gəlinir.

Azərbaycan Respublikasının «Xidməti və mülki silah haqqında» qanununa əsasən müxtəlif silah növlərinin anlayışlarına diqqət yetirək.

***Silah*** – canlı qüvvənin və digər obyektlərin, o cümlədən texnikanın və tikililərin məhv edilməsi üçün nəzərdə tutulmuş qurğu və vasitədir.

**Xidməti silah** – insanların həyat və sağlamlığının qorunması, təbiətin, təbii ehtiyatların, mülkiyyətin, qiymətli və təhlükəli yüklərin, xüsusi göndərişlərin mühafizəsi ilə bağlı vəzifələri yerinə yetirən şəxslər tərəfindən istifadə olunması üçün nəzərdə tutulmuş silahdır.

**Mülki silah** – özünümüdafiə, ov və idmanla məşğul olma üçün nəzərdə tutulmuş silahdır.

**Döyüş silahı** – qulluq vəzifəsinin və döyüş tapşırığının yerinə yetirilməsi üçün istifadə olunan silahdır.

**Döyüş sursatı** – müvafiq silah növündən atəş açmaq üçün nəzərdə tutulmuş konstruktiv qurğu və əşyalardır.

**Soyuq silah** – konstruksiyasına, ölçülərinə və materialına görə birbaşa istehsalat və ya məişət-təsərrüfat məqsədləri üçün nəzərdə tutulmayan, xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvurma obyekti və bilavasitə təmas zamanı zədə yetirmək təyinatına malik olan silahdır.

**Qaz silahı** – gözyaşardıcı, qıcıqlandırıcı, zəhərləyici, sinir-iflic və ya başqa güclü təsir göstərən digər maddələrin tətbiqi ilə canlı hədəfin müvəqqəti sıradan çıxarılması üçün nəzərdə tutulmuş silahdır.

**Özünümüdafiə silahı** – yalnız hücumu dəf etmək təyinatına malik olan gözyaşardıcı, qıcıqlandırıcı və ya

qısa müddətə sinir-iflicedici maddələrlə və ya aerozol qurğulu qaz silahıdır.

**Ov silahı** – vəhşi heyvanların və quşların ovlanması üçün nəzərdə tutulmuş yivli və yivsiz lüləli odlu, soyuq, o cümlədən soyuq atıcı və pnevmatik silahdır.

**Silah dövriyyəsi** – silahın istehsalı, gətirilməsi, aparılması, idxalı, ixracı, satışı, başqasına verilməsi, əldə edilməsi, kolleksiya edilməsi, sərgisinin keçirilməsi uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, istifadə edilməsi, götürülməsi və məhv edilməsidir.

Odlu silahlar əsasən döyüş silahlarına, idman silahlarına və ov silahlarına ayrılır.

*Döyüş silahlarına* – karabinlər, avtomatlar, tapançalar və xüsusi düzəldilmiş silahlar aiddir.Döyüş silahları 7,62; 7,65; 8; 9; 11,43 mm(tapançalar, revolverlər və avtomatlar ); 5,6; 6,5; 7,62; 7,65; 7,92 mm (tüfənglər və karabinlər) kalibrə malik olurlar.

*İdman silahlarına* – kiçik kalibrli tüfənglər, tapançalar və revolverlər aiddir.

*Ov silahlarına* – hamar lüləli və hamar (qarışıq ) yivli silahlar aiddir. Odlu silahlar bir və çox patronlu, avtomatik, yarımavtomatik və qeyri – avtomatik olur .

Bununla bərabər, odlu silahın lüləsi və atəş açma mexanizmləri izlərin yaranmasında böyük rol oynayır. Belə ki, lülənin quruluşu və kalibri güllənin, habelə zədə almış obyektlərin üzərində əmələ gələn izlərin xarakterini, yanmış barıtın və partlayıcının tərkibini müəyyən etməyə imkan verir. Atəş açma mexanizminin konstruktiv xüsusiyyətləri giliz üzərində izlərin əmələ gəlməsinə, uçuşun istiqaməti və atəş məsafələrinə ciddi təsir göstərir.

Lülə silindr şəklindədir. Onun qabaq hissəsi lülənin ön kəsiyi, arxa hissəsi isə patron qabı adlanır.

Odlu silahlar lülələrinin uzunluğuna görə üç növə ayrılır:

1. Lüləsinin uzunluğu 20 sm-ə qədər olan silahlar, qısa lüləlidir. Bunlara revolverlər, tapançalar və s. aiddir.

2. Lüləsinin uzunluğu 20 sm-dən 40 sm-ə qədər olan silahlar orta lüləli. Bunlara avtomatlar aiddir.

3. Lüləsinin uzunluğu 40 sm-dən uzun olanlara isə uzun lüləli silahlar deyilir. Bunlara tüfəng, karabin, ov silahları aiddir.

Əl odlu silahları yivli və hamar lüləli silahlara bölünür:

**Yivli silahlar –** yivli silahların lülə kanallarının içərisində xətti və vintvari cizgilər açılmış olur. Yivlər arasındakı məsafəyə «*yiv məsafəsi*» deyilir.

Yivlər gülləəri hərəkətə gətirməyə xidmət edir. Onlar güllələrin uçuşunu nizama salır ki, bu da güllənin uzaq məsafə qət etməsini təmin edir. Hədəfi düzgün vurmaq qabiliyyətini artırır. Yivli silahların kalibri 5,45 mm-dən 11,43 mm arasında, yivlərin sayı isə 4 və ya 6 - dır. İstiqamətinə görə yivlər sağa və ya sola istiqamətlənmiş olur.

Yivli silahların patronu güllə, giliz və tüstüsüz barıtdan ibarətdir.

Barıtlar  iki növə ayrılır:

1. Tüstülü barıt;

2. Tüstüsüz barıt.

Müasir silahlarda tüstüsüz barıtlardan istifadə olunur.Gilizin qabaq hissəsində güllə, oturacaq hissəsində isə alışdırıcı piston yerləşir və vurucu milin zərbəsi nəticəsində barıt alovlanır. Gilizlər 3 formada olur:

1. Silindrik ;

2. Butulka formalı ;

3. Konusvari.

Güllənin qabaq hissəsinə başlıq, arxa hissəsinə isə quyruqcuq deyilir.

Güllələr 3 cür olur:

1. Örtüksüz;
2. Yarımörtüklü güllələr;
3. Örtüklü güllələr.

Bundan başqa, güllələr daha iki növə bölünür:

1. İçərisi boş olan güllələr;
2. Bütöv güllələr.

Odlu silahlar kalibrlərinə görə üç yerə ayrılırlar:

1. Kiçik kalibrli (buraya kalibri 6,35 mm-ə qədər olan silahlar aiddir);
2. Orta kalibrli (buraya kalibri 6,35 mm - 9 mm olan silahlar aiddir);
3. Böyük kalibrli (buraya kalibri 9 mm-dən yuxarı olan silahlar aiddir).

Yadda saxlamaq lazımdır ki, güllənin kalibri, lülənin kalibrindən 0,02 mm böyük olur.

Lülələrinin sayına görə silahlar 3 qrupa bölünür:

1. Birlüləli;
2. İkilüləli;
3. Çoxlüləli.

Lülə kanalının quruluşuna görə odlu silahlar 4 növə bölünür:

1. yivli;
2. yivsiz;
3. kombinə edilmiş;
4. hamarlüləli.

Silahlar hazırlanma üsuluna görə üç növə ayrılır:

1. Zavodda hazırlanmış (texniki şərtlərə, standartlara uyğun və zavod işarələri göstərilməklə hazırlanır );
2. Kustar üsulu ilə hazırlanmış;
3. Əldədüzəltmə.

Kustar üsulu ilə silahlar hər hansı bir emalatxanada bir neçə nüsxədən ibarət, müəyyən standartlara,silah nümunələrinə uyğun olaraq hazırlanır.Əldədüzəltmə silahlar isə tək halda qeyri – peşəkar şəxslər ( məsələn, silahın bir hissəsi olan lülənin üzərində əldə düzəldilən digər mexanizmlərin yığılması )tərəfindən hazırlanır.

Konstruktiv xüsusiyyətlərinə görə odlu silahlar aşağıdakı növlərə ayrılır:

1.Standart;

2.Standarta uyğun olmayan;

3.Atipik.

Tapançalar qısalüləli, çoxpatronlu, avtomatik və yarımavtomatik əl silahlarıdır. Daha geniş yayılmış tapançalara "Naqan"revolveri (kalibri 7,62 mm); "MT"tapançası (kalibri 9 mm); "APS" tapançası (kalibri 9 mm); "TT" tapançası (kalibri 7,62 mm) aiddir. Tapançaların bir neçə növünü nəzərdən keçirək:

«MT» tapançası yarımavtomatik silah olub, kalibrı 9 mm -dir. Lüləsinin uzunluğu 93 mm, yivlərinin sayı 4 və sağa istiqamətlənmişdir. Sandığında 8 patron yerləşir, patronların gilizləri silindrvaridir, gülləsi örtüklüdür.

«*Revolverlər*» yivli lüləli, çoxpatronlu qeyri – avtomatik silahdır. Bu silahlarda sandıq rolunu xüsusi barabanlar oynayır ki, burada patronların yerləşməsi üçün xüsusi gözlər vardır. Tətik çəkilərkən baraban fırlanır və patronlar silahın lüləsinə örtülür. Gilizlər barabandan revolverə bərkidilmiş sümbə vasitəsilə ilə ayrılır.

Kiçik kalibrli yivli silahlar – silahların bu növünə qeyri - avtomatik , uzunlüləli və 5,6 mm kalibrli idman və ov silahları aiddir. Kiçik kalibrli avtomatik silahların bir neçə modeli vardır. Məsələn, idman silahları(5,6 mm "TOZ-78 S" tüfəngi, 5,6 mm "MÇM" tapançası,5,45 mm "İJ-75" kiçik qabaritli tapançası və s.) bir patronlu, çoxpatronlu və avtomatik olur.

**Hamar lüləli silahlar –** hamar lüləli silahlara ov silahları aiddir. Ov silahlarının lülə kanalları hamar olur.

Onlar əsasən çoxpatronlu olmaqla, ov etmək üçün nəzərdə tutulmuşdur. Lülə kanalının hamar divarları patronların sətbəst olaraq oradan çıxmasını təmin edir. Belə silahlar "Qırma silahlar" adlanır. Nəzərdə saxlamaq lazımdır ki, həmin silahlardan xüsusi güllələri də atmaq olar.

Hamar lüləli silahların ən çox yayılmış kalibrləri aşağıdakılardır: 12 (18,2-19,3 mm); 16 (16,8-17,75 mm);20(15,7-16,6 mm);24 (14,7-15,5 mm) və s.Ov silahlarının kalibri lülə kanalının daxili diametrinə uyğun 454 qram qurğuşundan hazırlanmış kürə şəkilli qullələrin lülə kanalında yerləşmə sayına görə müəyyən edilir.(454 qram 1 ingilis funtuna bərabərdir). Hamar lüləli silahların döyüş sursatlarına güllə, mərmi, karteç aiddir. Zavod istehsalı olan mərmi və karteçlər şarşəkilli olub, qurğuşun və sürmədən hazırlanır.Mərmilərin diametri1,25 mm-dən 5,00 mm-dək olur.Diametri 5,50 mm-dən yuxarı olan mərmi karteç adlanır.

Hamar lüləli ov silahları müxtəlif modellərdə olmaqla bir sıra əlamətləri ilə fərqlənir.

Lülələrin sayına görə (birlüləli, ikilüləli, çoxlüləli), lülərin quruluşuna görə (hər iki lülənin kanalı silindrik, konusvari şəkildə, lülələrdən birinin kanalı konusvari digəri isə yarımkonusvari şəkildə).

Mexanizmin bağlanması quruluşuna görə: silahların əksər modellərində lülə bolt vasitəsilə silaha bərkidilir. Birlüləli silahların bəzi modellərində lülə sürüşkən çaxmaq vasitəsilə bağlanır. Atəş mexanizminin quruluşuna görə silahlar tətikli və tətiksiz olur.

Hamar lüləli silahların patronları gilizdən, barıtdan, qırmadan və tıxacdan ibarətdir. Gilizlər metaldan və oturacağı metaldan olan kartondan ibarətdir.

Göründüyü kimi, odlu silahlar hazırlanması, istifadə olunması və konstruktiv xüsusiyyətlərinə görə bir çox növlərə bölünür. Məhz bu cəhətdən cinayətkarların istifadə etdikləri silahların müəyyən olunması üçün xüsusi bilik lazım gəlir.

**Odlu silahların patronları** unitar patronlardır. Odlu silahın növündən asılı olaraq patronlar döyüş,idman və ov silahlarının patronlarına ayrılır. Muasir unitar patron gilizdən,alışdırıcı pistondan, barıt və mərmidən (güllə) ibarətdir. Hamar lüləli ov silahlarının patronları isə metaldan,kartondan və plastik materialdan hazırlanıb silindirk formada olur.

**Odlu silahların tətbiqi zamanı yaranan izlər və onların növləri.** Atəş kimyəvi və fiziki prosesdir. Bu proses aşağıdakı formada baş verir. Alışdırıcının təsiri nəticəsində patronda olan barıt yanır. Yanma nəticəsində qaz əmələ gəlir və həmin qazın nəticəsində güllə lülənin içərisində hərəkətə gələrək atəş açılır.

**Güllə üzərində əmələ gələn izlər.** Güllə üzərində əmələ gələn izlər əsasən lülə kanalının daxili quruluşundan asılıdır. Hər bir zavod istehsalı olan lülədə patron qabı vardır və həmin patron qabı istifadə olunacaq patronun gilizinə uyğun düzəldilir. Məsələn, karabin, revolver.Silahın kalibiri-yivlərarası sahədə lülə kanalının diametridir.

Güllə üzərində əmələ gələn izlər əsasən güllənin lülə kanalında hərəkəti zamanı baş verir (patron qabından lülənin ön kəsiyinə kimi). Güllə üzərində qalan izlərin tədqiqi həmin izlərin əmələ gəlməsinə əsasən üç mərhələyə ayrılmasına əsas verir.

1. Güllənin lülə kanalına daxil olduğu an ;
2. Yivlərin güllə örtüyünü kəsdiyi an;
3. Güllənin lülə kanalında hərəkət etdiyi an.

İlk anda barıtın yanma təsirindən güllə gilizdən ayrılıraq güllə yoluna daxil olur. Qeyd olunduğu kimi, güllənin diametri lülə kanalının diametrindən böyük olduğu üçün və yüksək təzyiq nəticəsində güllə örtüyü lülə kanalında olan yivlərin təsirinə məruz qalır və həmin yivlər öz izlərini güllələrin üzərində buraxır. Yivlər əvvəlcə güllənin boş hissəsinə təsir göstərir və burada yaranan izlər demək olar ki, düzxətli olur. Bu, ilkin izlərdir. Güllənin quyruqcuq hissəsinə keçdikcə həmin izlər güllənin quyruqcuquna yaxınlaşır və bu zaman yivlərin istiqamətindən asılı olaraq sağa və ya sola meyilli yiv izləri əmələ gəlir.

Lülədən çıxan güllənin hər hansı bir maneəyə dəyməsi zamanı müxtəlif növ izlər əmələ gəlir. Odlu silahların və döyüş ləvazimatlarının yaratdığı izlərə aiddir: atılmış güllə, qırma, kartec, keçə və giliz, giliz və güllə üzərində silahın saxladığı izlər, atəş zamanı giliz və güllə üzərində lülənin divarlarında olan hissələrin buraxdığı izlər. Odlu silahların tədqiqi zamanı yaranmış izlər aşağıdakı qruplara bölünür:

1. Atılmış güllə, qırma, kartec, keçə və giliz üzərindəki izlər;
2. Patron, giliz və güllə üzərində silahın hissələrinin buraxdığı izlər;
3. Silahın lülə kanalının divarlarında, patron qabında və gilizdə yanmış və ya yanmamış barıtın izləri;
4. Atəş zamanı qarşıda olan maneələrdə qalan izlər.

İzlər ilkin və sonrakı olurlar.

Atəş zamanı əmələ gəlmiş izlər qanunauyğunluq və daimilik xassələrinə malikdir.

Eyni növdən olan silahlarda atəş zamanı barıtın yanması vaxtı, istilik enerjisinin yaratdığı təzyiq təxmini eynidir. Ona görə ki, həmin silahlar üçün döyüş ləvazimatları eyni standartda hazırlanır. Məhz bu cəhətdən baş vermiş hadisənin müəyyən əlamətlərini

aydınlaşdırmaq olur. Odlu silahların tətbiqi zamanı izlər üç mərhələdə yaranır:

1. Silahın doldurulması zamanı əmələ gələn izlər (yaxud da sandığın);
2. Atəş prosesində yaranan izlər;
3. Silahdan gilizin kənar edilməsi(silahın boşaldılması)zamanı yaranan izlər.

Silahın doldurulması zamanı izlər öz növbəsində aşağıdakı hissələrin təmasda olması nəticəsində əmələ gəlir: patron sandığa doldurularkən və oradan çaxmağın köməkliyi ilə patron qabına ötürülərkən. Odlu silahın tətbiqi zamanı əmələ gələn izlərin əlamətləri iki yerə bölünür: ümumi və xüsusi.

**Ümumi əlamətlər:**

1. Lülənin kalibri;
2. Lülədə olan yivlərin sayı;
3. Yivlərin istiqaməti;
4. Yivlərin sınma bucağı;
5. Yivlərin eni;
6. Güllə yolunun uzunluğu;
7. Sandığın quruluşu. Orada bir və iki cərgədə yerləşən patronların tənzimlənməsi.

**Xüsusi əlamətlər:**

1. Lülə kanalının diametri;
2. Lülə kanalında yerləşən yivlərin eni;
3. Yivlərin başlanğıc nöqtəsinin forması;
4. Lülə kanalının və yivlərin üst hissəsinin hamarlanması;
5. Lülə kanalının və patronun diametrinin bir-birini tənzimləməsi;
6. Lülənin zədələnməsi və bu zədənin lülə kanalının düzlüyünə etdiyi təsir;
7. Lülə kanalının şişməsi.

**Qırma üzərində əmələ gələn izlərin mexanizmi.** Son illər ekspert təcrübəsində qırma

üzərində əmələ gələn izlərin eyniləşdirilməsi üçün aparılan tədqiqatlar çox az olmuşdur.

**Qırma** – tez əzilən yüngül qurğuşundan hazırlanmış güllələr toplusudur. Ona görə də onların tədqiqatı zamanı ehtiyatlı olmaq lazımdır.

Hamar lüləli silahlardan atılmış qırmalar üzərində iki növ izlər əmələ gəlir:

1. Statik;
2. Dinamik.

Cinayətkarın qaçdığı istiqaməti müəyyən etmək üçün əraziyə baxış zamanı yaxşı olar ki, su hövzələrinə, bataqlıq və kolluqlara daha çox diqqət yetirilsin. Ona görə ki, cinayətkar qaçarkən silahı və ya döyüş ləvazimatını həmin yerlərə ata bilər.

Silah tətbiq olunmaqla baş vermiş cinayətlərlə əlaqədar olaraq hadisə yerinin baxışı zamanı gilizləri ancaq açıq yerlərdə deyil, həmçinin asılmış paltarların ciblərində, ayaqqabıların içərisində, gül dibçəklərində və sair yerlərdə axtarmaq lazımdır.

Güllələrin axtarılması ilk anda zərər çəkmişin bədənində və paltarında, sonra isə əmələ gəlmiş yaranın növündən asılı olaraq atəş açanın yerini müəyyən etmək və bundan sonra güllənin zədə yetirdiyi sahəni və ya gülləni tapmaq olar. Keçələr çox vaxt hadisə yerinin müəyyən məsafəsində aşkar edilir.

Hadisə yerindən tapılmış silahın, patronun, gilizin, güllənin, keçənin və s. baxışı zamanı əvvəlcə onların iki tərpənməz odyektdən olan məsafəsi qeyd olunmalı və fotoşəkli çəkilməlidir. Atəş nəticəsində yaranmış zədələrin forması, ölçüsü və yerdən olan məsafəsi də protokolda öz əksini tapmalıdır.

Silah aşkar olunduğu yerdə ona baxış keçirilir. Silahı ələ götürən zaman çox ehtiyatlı olmaq lazımdır, lüləsini iştirakçılar olan səmtə yönəltmək olmaz, əgər silahın

üzərində əl - barmaq izləri aşkar olunarsa, onda iz olan sahə heç nəyə toxunmamalıdır. Sonra isə silahın sandığını çıxartmaq və patronu oradan kənar etmək lazımdır. Qablaşdırılan yerdə silah hərəkətsiz olmalıdır. Həmçinin patronlar, gilizlər, güllələr, tıxaclar və karteçlər ayrı-ayrılıqda qablaşdırılaraq möhürlənib zərfə və ya qutuya yığılır.
Qablaşdırılmış kağız və qutu üzərində predmetin adı, götürüldüyü tarix və yeri göstərilməklə lazımi qeydlər aparılır.Qutu bağlanır və möhürlənir.
Silaha baxış zamanı protokolda aşağıdakı məlumatlar qeyd edilməlidir:

1. Silahın aşkar olunduğu yer və onun vəziyyəti;
2.Silahın növü;
3.Sistemi, modeli və kalibri;
4.Silahda olan izlər və kənar maddələr;
5.Tətik hansı vəziyyətdədir;
6.Silahın üzərində həkk olunmuş qeydlər ;
7.Patron qabında patronun olub-olmaması;
8.Sandıqda patron var, ya yox, varsa onların sayı;
9.Silahın lülə kanalında olan yivlərin sayı və istiqaməti.

Əgər «revolver» markalı tapançanın barabanında atılmış giliz varsa, onların barabandan çıxarılması məsləhət görülmür.

Sürtünmənin, kənar hissəciklərin düşməsinin qarşısını almaq məqsədilə üzərində atəş izləri olan predmetlər ayrıca qablaşdırılır. Odlu silahın tətbiqi nəticəsində paltar üzərində atəşin giriş və çıxış zonaları 30 x30 sm ölçülü parça ilə tikilir.

Hamar lüləli ov silahların və ona aid sursatların tədqiqini səmərəli həyata keçirmək üçün ekspertə mərmini, karteçi və s. təqdim etmək lazımdır.

Atılmış giliz. Odlu silahların tətbiqi nəticəsində baş vermiş cinayətlərdə hadisə yerinə baxış zamanı əldə olan bütün imkanlardan istifadə edib, hadisə yerində qalmış gilizlər axtarılıb tapılmalıdır. Tətbiq olunan silah əldədüzəltmə, revolver və s. olduqda hadisə yerində giliz qalmaya da bilər. Hadisə yerində gilizlərin tapılması üçün ən əvvəl atəş açanın yerini müəyyən etmək lazımdır. Həmin yer barədə məlumatı şahid, zərər çəkmiş və təqsirləndirilən şəxs verə bilər. Yadda saxlamaq lazımdır ki, kiçik sahədə gilizlərin axtarılması bağlı yerlərdən çətindir. Əgər atəş yaxın məsafədən açılmışdırsa, onda giliz zərər çəkmişdən yaxın məsafədə olmayacaqdır. Baxış zamanı aşkar olunmuş gilizin ilk əvvəl tapıldığı yerdə fotoşəkli çəkilməli, sonra isə iki tərpənməz obyektdən hansı məsafədə yerləşdiyi qeyd edilməlidir. Həmin ölçülər protokolda öz əksini tapmalıdır. Barmaq izlərinin zədələnməməsi və üzərinə yeni izlərin düşməməsi məqsədilə gilizi iki barmaqla ağız kəsiyinin kənarlarından yapışaraq götürmək lazımdır. Sonra isə silahdan atıldığını müəyyən etmək üçün giliz üzərində olan izləri araşdırmalıyıq.Atəş zamanı gilizin üzərində sandıqın dodaqlarının izi, tüllayıcının tutacağının,dişinin izləri, vurucu iynənin (milin) izi, patron yuvasının divarlarının izi,çaxmağın oyuqunun izi,qaytarıcının çıxıntısını izi qalır.

Atılmış gilizin baxışı zamanı protokolda aşağıdakılar qeyd olunmalıdır:

1. Gilizin növü və forması;
2. Gilizin ölçüləri;
3. Gilizin metalının və alışqanın rəngi;
4. Gilizi oturacağında həkk olunmuş qeydlər;
5. Güllənin gilizə bərkidilməsi əlamətləri;
6. Silahın hissələrinin giliz üzərində saxladığı izlər;
7. Yanmış barıtın iyinin gəlib-gəlməməsi;

8. Gilizin üzərində əl və başqa maddələrin izlərinin olub-olmaması.

## Atılmış güllə

Hadisə yerində atılmış güllələr meyitin bədənində və ya onun ətrafında tapıla bilər. Əsas məqsəd həmin güllələrin tapılması və müvafiq qaydalara uyğun götürülməsidir.

Təcrübə göstərir ki, güllə hadisə yerində müxtəlif yerlərdə qala bilər. Məsələn, meyit və onun paltarında, divarda və s. predmetlərdə. Güllənin axtarılması zamanı müəyyən çətinliklər meydana çıxır. Meyitin bədənində ancaq güllənin giriş dəliyi vardırsa, deməli, güllə meyitin bədənindədir, lakin bu demək deyildir ki, güllənin axtarışı dayandırılmalıdır. Təcrübədən belə hal məlumdur ki, güllə insan bədəninin təbii dəliklərindən heç bir iz buraxmadan çıxmışdır. Güllənin, qırmanın, kartecin axtarılması üçün hadisə yeri və orada olan predmetlərə hərtərəfli baxış keçirilməlidir. Hadisə yerində aşkar olunmuş güllənin fotoşəkli çəkilir. Gülləyə baxış zamanı onun konstruktiv xüsusiyyətləri və üzərində olan izlər müəyyən olunmalıdır.Güllə üzərində izlərin yaranma mexanizmini üç mərhələyə ayırmaq olar:

1.Güllənin lulə kanalının arxa hissəsində yerləşən patron qabına daxil olması nəticəsində əmələ gələn izlər;

2.Güllənin yivlərə girməsi nəticəsində əmələ gələn izlər;

3.Güllənin lülə kanalı boyunca fırlanaraq hərəkət etməsi nəticəsində əmələ gələn izlər.

Gülləyə baxış zamanı protokolda aşağıdakı məlumatlar göstərilir:

1. Güllə və qırmanın tapıldığı yer;

2. Növü, rəngi, xarici səthinin əlamətləri;
3. Güllənin ölçüsü, qırmanın diametri;
4. Güllənin və qırmanın forması;
5. Atəş zamanı maneəyə dəymiş güllə və qırmada yaranmış izlərin əlamətləri.

## Atəş izləri

Atəş zamanı yaranmış zədələrdə aşağıdakı əsas və əlavə faktorlar müəyyən edilir:

Atəşin əsas faktorları – hədəfin deşilmiş şəkildə zədələnməsi və dəyişikliyə uğraması, kor zədələrin izləri.

Atəşin əlavə faktorları – yanmış və yanmamış barıt hissəcikləri, his, pas və s. silahın hədəfə dirənmiş vəziyyətində və yaxud da xüsusi hərbi güllələrdən istifadə etməklə yaxın məsafədən atəş açıldıqda əmələ gəlir.

Güllə hədəfə dəydikdə üç formada zədə əmələ gətirir:

a) deşib keçən (iki tərəfdən açıq);
b) kor zədələr;
v) sürtünüb keçən zədələr.

Güllənin hərəkət istiqamətini müəyyən etmə əlamətlərinə hədəfin üzərində maddələrin(materialların) qalıqlarının güllənin hərəkət xətti boyunca tökülməsi, yaranın çıxış hissəsinin ətrafında dağılmış sümük hissəcikləri, parça qırıntıları və s. aiddir. Bundan başqa, atəş açanın yerini müəyyən etmək üçün iki zədəni bir-birilə sap (ip) vasitəsilə ilə birləşdirməklə həmin sapın üstündən baxmaqla müəyyən etmək olar.Həmçinin güllənin uçuş istiqamətini müəyyən etmək üçün qrafoanalitik üsuldan da istifadə olunur.

Atəşin sayını müəyyən etmək üçün yaranmış giriş yolu ətrafındakı sürtünmə dairəsinin nə dərəcədə aydın görünməsi mühüm əhəmiyyət kəsb edir.

Hadisə yerində açılmış atəşin ardıcıllığı haqqında aşağıdakı hallar əsasında müəyyən mühakimə yürütmək olar.

Zədə ətrafında çirklənmiş həlqənın tədqiqinin nəticələri: ikinci və üçüncü atəş, birinci atəşdən çirklənmə həlqəsini əmələ gətirən metal qırıntılarının və lülənin daxili səthində olan yağlı maddələrin güllə üzərində qalmış hissəciklərin çox olması ilə fərqlənir.

Atəş məsafəsi bir sıra kompleks əlamətlərin tədqiqi nəticəsində müəyyən edilir:

a) güllənin qət etdiyi müəyyən məsafənin həddi, onun hədəfi deşməsi, güllənin açdığı yara kanalının istiqaməti;

b) qırmanın səpələnmə sahəsi və tıxacın tapıldığı yer;

v) hədəfə söykənmiş halda və yaxud yaxın məsafədən atəş açıldıqda atəşin əlavə izləri.

Belə nəticəyə gəlmək olar ki, odlu silahlar, döyüş ləvazimatları, mərmi, patron, giliz, üzərində atəş izi olan predmetlər iş üzrə maddi sübutlardır. Həmin maddi sübutların aşkar olunması, tədqiqi və götürülməsi zamanı kriminalistik təcrübəyə əsaslanaraq göstərilən tələblərə riayət etmək lazımdır.

***Sual 3. Atılmış giliz və gülləyə görə silahların qrup mənsubiyyətinin müəyyən edilməsi və onların eyniləşdirilməsi. Soyuq silahlar.***

Atılmış gülləyə görə silahın qrup mənsubiyyətinin müəyyən edilməsi güllənin hansı növ silahdan atıldığını, həmin silahın sistemini, modelini və markasını müəyyən etmək üçün nəzərdə tutulur. Hadisə yerində aşkar olunmuş gülləyə görə onun atıldığı silahın qrup mənsubiyyətinin müəyyən edilməsi istintaq fərziyyələrinin

qurulması, cinayətkarın axtarılması və ifşa edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Güllənin atıldığı silahın hansı növə aid olması onun iki kateqoriya əlamətləri ilə müəyyən edilir. Birinci kateqoriya əlamətlərə: güllənin üzərində örtüyün olub-olmaması, onun forması, ölçüsü, hansı materialdan hazırlanması, çəkisi və güllənin gilizlə bərkidilməsi üsulu aiddir.

İkinci kateqoriya əlamətlərə: lülə kanalının divarlarının güllə üzərində buraxdığı izlər, lülə kanalının daxili quruluşu, onun yivli olub-olmaması, yivlərin sayı, eni və yiv məsafələri, yivlərin istiqaməti və profili aiddir.

Güllə üzərində olan izlərə əsasən silahların qrup mənsubiyyəti və eyniləşdirilməsi ekspertiza tədqiqatının obyektidir. Atılmış gilizlər üzrə həm yivli, həm də hamar lüləli silahlar tədqiq edilir. Gilizlərin tədqiqi onların quruluşuna, silahın müəyyən hissələrinin giliz üzərində buraxdığı izlərə əsaslanır. Avtomatik silahlardan atəş açılarkən silahın quruluşundan asılı olaraq, giliz üzərində çaxmağın ön kəsiyinin, tullayıcının, vurucunun və s. izləri qalır. Həmin izlərin təhlili nəticəsində silahın müəyyən hissələrinin ölçüləri, forması, təxmini yerləşmə vəziyyəti, həmçinin onların gilizə təsirinin xarakteri haqqında təsəvvür əldə etmək olar.

Avtomatik silahları müəyyən etmək üçün həmin silahların vurucu milinin gilizin oturacağında əmələ gətirdiyi armudvari və ya dairəvi izə də fikir vermək lazımdır.

Revolver və ov silahlarından atılmış gilizlərdə izlər nisbətən az qalır. Gilizin atıldığı silahın növü və modelinə aid məsələni həll etmək üçün ekspertlər silahlar, patronlar və atılmış gilizlər kolleksiyasından, həmçinin xüsusi kartotekalar və məlumatlardan istifadə edirlər.

Atılmış gilizlərə görə silahları müəyyən etmək üçün silahın daxilində təsir edən hər bir hissəsinin fərdi və yalnız ona aid olan mikrorelyefi öyrənilir, bu da atılmış gilizlərdə öz əksini tapır. Gilizə əsasən silahın qrup mənsubiyyətini müəyyən etmək və eyniləşdirmək üçün eksperimental atəşdən alınan izlər hadisə yerindən tapılan giliz üzərindəki izlərlə müqayisə edilir. Bəzən müqayisə etmə izin şəkli və sonradan hazırlanmış fotoşəkli ilə də aparılır.

***Soyuq silahlar.*** DİN-in əməkdaşları xidmət apardıqları sahələrdə sağlamlığa zərər vurma məqsədilə qanunsuz soyuq silah gəzdirən vətəndaşlarla qarşılaşırlar. Əşyanın, predmetin soyuq silah olmasını müəyyən etmək üçün bir sıra əlamətlərə diqqət yetirilməlidir. Həmin predmetin hazırlanma üsulu və istifadə olunma sahəsi xüsusi əhəmiyyət kəsb edir.

Əlbəyaxa döyüş zamanı hücum, müdafiə və sağlamlığa zərər vurma məqsədilə xüsusi hazırlanmış predmetlər soyuq silahlardır. Soyuq silahlar o vaxt maddi sübut rolunu oynayır ki, onlar cinayətin törədilməsi vasitəsi olur. Bundan başqa, soyuq silahların hazırlanması, gəzdirilməsi, satılması da cinayət tərkibini yaradır. «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının Qanununda soyuq silaha konstruksiyasına, ölçüsünə və materialına görə birbaşa istehsalat və ya məişət təsərrüfat məqsədləri üçün nəzərdə tutulmayan, xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvunma obyekti ilə bilavasitə təmas zamanı zərər yetirmək təyinatına malik olan silah kimi anlayış verilir.

Soyuq atıcı silah isə insan əzələsinin və ya mexaniki qurğunun enerjisi hesabına istiqamətlənmiş hərəkət əldə edən əşyalarla məsafədən hədəfi

zədələmək təyinatına malik olan silah kimi müəyyən edilir.

Cinayət törətmiş şəxsin əməlinin tövsifi bir çox hallarda ondan götürülmüş predmetin soyuq silah olub-olmamasından asılı olduğundan bu məsələnin aydınlaşdırılması hər bir konkret halda təcrübi əhəmiyyət daşıyır.

*Soyuq silahların təsnifatı:*

1. İş prinsipinə görə;
2. Təyinatına görə;
3. Hazırlanma üsuluna görə;
4. Hazırlanma yerinə görə;
5. Konstruktiv quruluşuna görə;
6. Standarta uyğunluğuna görə.

İş prinsipinə görə də soyuq silahlar iki yerə bölünür: əllə vurulan, atıcı (zədə yetirmək üçün insanın əzələ qüvvəsinin təsiri və yayın təsiri ilə atılan).

*Təyinatına görə:*

1. Hərbidə istifadə olunan;
2. Ovda istifadə olunan;
3. İdmanda istifadə olunan;
4. Kriminal silahlar (bilavasitə cinayət törətmək üçün hazırlanmış).

*Hazırlanma üsuluna görə:*

1. Zavod üsulu ilə hazırlanmış;
2. Kustar üsulla hazırlanmış;
3. Əldədüzəltmə.

Kustar üsulla əldədüzəltmə arasında fərq ondan ibarətdir ki, kustar üsulla hər hansı emalatxanada bir neçə nüsxədən ibarət hazırlanır. Əldədüzəltmə isə ayrı-ayrı peşəkar vərdişlərə malik olmayan şəxslər tərəfindən tək halda hazırlanır.

*Hazırlanma yerinə görə:*

1.Ölkə daxilində istehsal olunmuş;
2.Xaricdə istehsal olunmuş.

Konstruksiyasına görə soyuq silahlar üç yerə ayrılır:
1.Tiyəli;
2.Tiyəsiz;
3. Kombinə edilmiş.

Standarta uyğunluğuna görə soyuq silahlar üç yerə bölünür: standart, qeyri-standart və atipik silahlar.

Tiyəli soyuq silahlar isə aşağıdakı növlərə bölünür:
1.Tiyəsinin uzunluğuna görə: uzun tiyəli, qısa tiyəli.
2.Tiyəsinin formasına görə: düz, əyri tiyəli.
3.Tiyəsinin hərəkətinə görə: deşici, kəsici-deşici, çapıcı.

Dəstək və tiyə tiyəli soyuq silahların əsas hissələridər. Tiyə soyuq silahların əsas hissəsi olub, zərərvurma rolunu oynayır
Maskalanmış soyuq silahlar öz xarici görünüşünə görə hər hansı bir məişət əşyasını xatırladır (əsa, avtoqələm və s.).

Son vaxtlar soyuq silahlar yeniyetmələr arasında daha çox yayılmışdır. İstintaq təcrübəsi göstərir ki, soyuq silahların tətbiqi ilə törədilmiş cinayətlərin yarıdan çoxu yeniyetmələr tərəfindən həyata keçirilmiş olur. Bir qayda olaraq təqdim edilmiş silahın soyuq olub-olmaması, hansı növə aid olması məsələsini həll etmək üçün kriminalistik ekspertiza təyin olunur.

Hər bir halda tədqiqat üçün götürülmüş bıçağın ölçüləri, tiyənin möhkəmliyi, dəstəyinin əldə rahat tutulma dərəcəsi, məhdudlaşdırıcının olması kimi əlamətlərə xüsusi diqqət yetirilməlidir.

## *Mövzu 8:*
## *Yazının və sənədlərin kriminalistik tədqiqatı*

PLAN:

1. Sənədlərin kriminalistik tədqiqatı. Sənədlərin təsnifatı.
2. Yazının və yazı xəttinin anlayışı, onun ümumi və xüsusi əlamətləri.
3. Cinayətin açılmasında sənədlərin kriminalistik tədqiqinin əhəmiyyəti. Sənədlərlə davranış qaydaları.

### *Sual 1. Sənədlərin kriminalistik tədqiqatı. Sənədlərin təsnifatı*

Sənədlər ən geniş yayılmış sübut mənbələrindən biridir (Azərbaycan Respublikası CPM-in 128.1 və 135-ci maddələri). Sənədlərə bir sübut kimi mülkiyyət, qulluq mənafeyi əleyhinə olan cinayətlərin araşdırılmasında daha çox rast gəlinir.

Sənəd latın sözü "dokumentium" olub,qədim Romada "dərs, nümunə, şahidlik edə biləcək hər şey"adlandırılırdı. Müasir dövrdə sənəd mənaca "yazılı akt, sübut"kimi işlədilir.

Maddi sübut əhəmiyyəti kəsb edən sənədlər haqqında ortaya çıxan məsələləri həll etmək üçün

sənədlərin kriminalistik tədqiqi aparılır. Sənədlərin tədqiqi iki növə ayrılır: yazının kriminalistik tədqiqi və sənədlərin texniki-kriminalistik tədqiqatı.

Sənədlər dedikdə, hər hansı faktlar haqqında məlumatları özündə müxtəlif üsullarla əks etdirən obyektlər başa düşülür. Belə obyektlərə yazılı sənədlər, kino, video və fotosənədlər aiddir. İnsanlar bu və ya digər hadisələrlə və faktlar barəsindəki fikirlərini xüsusi qrafik işarələrin köməyi ilə sənədlərdə əks etdirirlər. Bir qayda olaraq sənədlərin hazırlanması üçün sənədlərin əsasından (kağız, qəzet, karton və s.) ştrixlərə rəngverici əşyalardan (pasta, mətbəə rəngi və s.), bərkidici (yapışqan, surquc və s.), əşyalardan istifadə edilir. Bəzi hallarda ekspertizaya qeyri-sənəd xarakterli obyektlər daxil olur (taxta çəllək qapaqları, fanerka hissələri, yeşik hissələri, parça və s.). Həmin obyektlərin üzərində yazı əks etdirilmiş olur. Göstərilən obyektləri hərfi mənada sənəd anlayışına və onların hazırlanma vasitələrinə aid etmək olmaz. Bunlar sənədlərin texniki kriminalistik ekspertizası tərəfindən tədqiq olunur. Ona görə ki, sənədlərin fərdi tədqiqi üçün hazırlanmış metodlar qeyri-sənəd xarakterli obyektlərin tədqiqi zamanı bir qayda olaraq yaxşı nəticələr verir.

Sənədlər formalarına, ölçülərinə, materialların növünə, qoruyucu vasitələrinə, imzalarına, möhürlərinə və ştamplarına görə xarakterizə oluna bilər. Müəssisələr, idarələr tərəfindən verilən bir çox rəsmi sənədlərin lazımi elementləri (rekvizitlər) müəyyən edilmiş tələblərə cavab verməlidir. Qeyri-rəsmi sənədlərin elementləri isə onların təyinatına görə müəyyən edilir. Bir çox hallarda cinayət prosesi sahəsinə aid olan sənədlər ancaq özündə bir elementi mətni cəmləşdirir. Təcrübədə rast gəlinən sənədləri aşağıdakı kimi sadalamaq olar.

1. Təyinatına görə (hər hansı faktları, məlumatları, özündə cəmləşdirən sənədlər, məsələn, arayış xarakterli);

2. Verilmə mənbələrinə görə (rəsmi dövlət müəssisələri tərəfindən verilən və xüsusi şəxslər tərəfindən verilən sənədlər);

3. Hazırlanma üsuluna görə (əlyazma, makina yazıları, mətbəə və şəkilçəkmə üsulu ilə hazırlanan sənədlər).

Hüquqi baxımdan "sənəd" anlayışı daha geniş xarakter daşıyır.Azərbaycan Respublikası CPM-in 135-ci maddəsində sənəd və rəsmi sənədə belə anlayış verilmişdir:

Cinayət təqibi üzrə əhəmiyyət kəsb edə bilən məlumatlar hərf,rəqəm, qrafika və digər işarə formasında özündə əks etdirən kağız elektron və ya digər daşıyıcılar sənəd hesab olunur.

Şəxsin vəzifəsinə və yerinə yetirdiyi işə görə ona məlum olan halları imzası ilə təsdiq etdiyi və qanunvericiliyin müəyyən etdiyi formada tərtib edilmiş sənəd rəsmi sənəd hesab olunur.

İttiham üzrə sübut kimi sənədlərin əsli və ya əslinə bərabər surəti istifadə edilməlidir.Sənədlərin surətindən istifadə olunmasına cinayət prosesində tərəflərin razılığı ilə icazə verilir.

CPM-in 128.1,135-ci maddələrinə uyğun olaraq sənədlər o halda maddi sübut kimi istifadə oluna bilər ki, onlar üzərində cinayətin izlərini daşısın və yaxud cinayət əməllərinin törədilməsi vasitəsi kimi istifadə olunsun. Sənədlər baxış protokolunda hərtərəfli təsvir olunmalı və işə əlavə olunmalıdır. Hüquqverici sənədlər – elə sənədlərdir ki, bunun sayəsində subyekt müəyyən hüquqlara malik olur. Məsələn, tibb universitetini bitirmək

haqqında diplom, şəxsin  həkimlik faliyyəti ilə məşğul olması üçün müəyyən hüquqlar verir.

Şəxsi müəyyən vəzifələrdən azad edən sənədlər: bu elə sənədlərdir ki, şəxs sadə icraat prosesində ümumdövlət və s. xarakterli vəzifələrin müəyyən bir hissəsini yerinə yetirməkdən azad olunur.

**Saxtalaşdırma** – rəsmi sənədlərin mahiyyətini dəyişdirən istənilən hüquqazidd hərəkətlərdir; bu onun tətbiqi, məzmunu və formasını dəyişdirir. Həmçinin sənədlər bütövlükdə saxtalaşdırıla bilər (məsələn, sürücülük vəsiqəsinin hazırlanması).

Saxtalaşdırma, eləcə də həqiqi rəsmi sənədin hissəvi saxtalaşdırılması üsulu ilə də edilə bilər (hərflərin dəyişdirilməsi, silinməsi, düzəldilməsi və s.).

Saxtalaşdırma şəxsin  hüquqlara malik olması və ya müəyyən vəzifələrdən azad edildiyi vaxtdan deyil, faktın özünün olması anından bitmiş sayılır(Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 320-ci maddəsi).Cinayətin tövsifində sənədi saxtalaşdırmanın üsulunun əhəmiyyəti vardır.

Saxtalaşdırma şəxs tərəfindən düzünə qəsdlə edilir. Subyektiv tərəfin zəruri əlaməti kimi şəxsin müəyyən hüquqlara malik olması və müəyyən vəzifələrdən azad olunması üçün çalışması, istəyinə malik olması çıxış edir. Əgər subyekt sənədləri saxtalaşdıraraq və ondan mülkiyyətin talanmasında vasitə kimi istifadə etmişdirsə, onda şəxsin hərəkətləri cinayətlərin  cəminə görə tövsif olunmalıdır. Yəni həm saxtalaşdırmaya görə, həm də əmlakın dələduzluq yolu ilə ələ keçirməsi, israf edilməsi, mənimsənilməsi və s. görə məsuliyyət yaranacaqdır.

Saxta sənədlərdən istifadə etmə subyektiv cəhətdən düzünə qəsdlə xarakterizə olunur.

Əgər rəsmi sənədlərin saxtalaşdırılmasını vəzifəli şəxslər həyata keçirirlərsə (öz xidməti vəzifələrindən sui-

istifadə etməklə), onda cinayət məsuliyyəti sənədlərin saxtalaşdırılmasına görə deyil, başqa cinayət əməlinə görə yaranacaqdır.

### *Sual 2. Yazının və yazı xəttinin anlayışı, onun ümumi və xüsusi əlamətləri*

Yazı insan fikrinin xüsusi qrafik işarələrin məcmusu ilə qeyd etmə vasitəsidir. Xətt isə sözün tam mənasında yazı üçün vərdiş edilmiş hərəkətlər sistemidir. Əlyazmanın qrafik işarələrini bu sistem əks etdirir. Vərdiş edilmiş hərəkətlərin bu sistemi anadangəlmə qabiliyyət deyildir. Bu insanın özü tərəfindən işlənilir. Vərdişin yaranmasının əsasını dinamik stereotip təşkil edir. Vərdiş insanın şüurlu olaraq müəyyən hərəkətləri dəfələrlə təkrar etməsi (məşq etməsi) nəticəsində əmələ gəlir. Məşqetmə nəticəsində daim dinamik stereotip yaranır və əsəb zəhməti xeyli yüngülləşir. Əlin müəyyən konkret hərəkətləri dəfələrlə təkrar etməsi insana imkan verir ki, şüurun xüsusi nəzarəti tələb olunmadan avtomatik olaraq icra edilən yazı texnikasını inkişaf etdirsin. Qrafik işarələrin icra edilməsində əlin avtomatik hərəkətləri həmin işarələrin asanlıqla əks etdirilməsi deməkdir. Bunun hesabına da qrafik işarələrin icra edilməsi insanın şüurunun nəzarəti olmadan mümkün olur. Nəticədə isə əsas fikrin yazının məzmununa verilməsinə imkan yaranır. Yazını icra edən əsas diqqətini yazıda əks etdirilməli fikrə verir.

Müasir psixologiya və pedaqogikada vərdişlər 3 qrupa ayrılır:

1. **Texniki vərdiş** – bu yazını icra edənin yazı üsullarını və bacarığını düzgün icraetmə qabiliyyətidir (yazı alətini tutmağı bacarmaq, vərəqin yerləşdirilməsi və s.);

2. **Qrafik vərdişlər** – əlin və yazı alətinin hərəkətləri ilə qrafik işarələri əks etdirmək və onları bir-biri ilə əlaqələndirməyi bacarmaqdan ibarətdir;

3. **Orfoqrafik vərdişlər** – hərfi işarələri düzgün müəyyən etmək və onların yazı qaydasını dərk etmək deməkdir.

Yazını icra edənin eyniləşdirilməsi üçün qrafik və texniki vərdişlər daha mühüm əhəmiyyət kəsb edir. Çünki bu vərdişlər sabit olur və fərdi xarakter daşıyır.

Yazının fərdiliyi. Xəttin fərdiliyi ali sinir fəaliyyəti ilə əlaqədar olub, yazı vərdişinin yaranması da bundan asılıdır. Xəttin fərdiliyinin əmələ gəlməsi məcazi xarakter daşımır. Bu fərdilik müəyyən ictimai və metodik şəraitdə baş verir. Xəttin fərdiliyinin əmələ gəlməsi şəxsin yazı yazması, məktəbdə və yaxud da bilavasitə özü öyrənməsindən, bu öyrənmə üsulunun düzgünlüyündən və s. asılıdır. Bütün bunlar hərəkətlərin vərdiş halına keçməsinə təsir edir, onları ümumi sxeminə görə oxşarlaşdırır. Lakin onlar ayrı-ayrı hissələrinə görə bir-birindən fərqlənir. Xəttin fərdiliyi bir çox daxili və xarici faktorlardan əmələ gəlir. Xarici faktorlar hərəkət xüsusiyyətlərinin əmələ gəlməsi və mənimsənilməsi bu hərəkətlərin icra edilməsi qaydası və ölçüsü üçün xüsusi əhəmiyyət kəsb edir. Onlara aiddir: yazı ləvazimatı, masanın hündürlüyü, işıqlanma, sakitlik, səs-küy və s. Yazı vərdişləri əldə edilməsindən asılı olaraq müəyyən cəhətləri ilə fərqlənir.

Xəttin fərdiliyi anlayışından danışarkən unutmaq olmaz ki, şüurun özü və yazını icra edənin iradəsi də şəxsin özünəməxsus xəttinin əmələ gəlməsinə mühüm təsir edir. Hər bir yazı yazan şəxs yazını öz məqsədinə uyğunlaşdırmağa çalışır ki, bu da getdikcə vərdiş halına keçərək daim möhkəmlənir, adət şəklini alır və xüsusi olur.

Xəttin ümumi və xüsusi əlamətlərinin məcmuu fərdi olduğu kimi yazı nitqinin əlamətləri məcmuu də fərdidir. Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, şəxsiyyətin eyniləşdirilməsində təkcə xəttin əlamətləri deyil, habelə yazı nitqinin xüsusiyyətləri də nəzərə alınmalıdır.

**Yazının sabitliyi.** Təhsilin ilkin mərhələsində (məktəb təhsili zamanı) xəttin sabitlik dərəcəsi yüksək olmur. Ona görə də belə xətlər üzrə şəxsiyyətin eyniləşdirilməsi yalnız o zaman mümkündür ki, xətt nümunəsi qismində tədqiq olunan sənədin icra olunduğu vaxtda yazılmış əlyazması təqdim olunsun.

Sabitlik yazının əsas mühüm keyfiyyətlərindən biri olub, şəxsiyyətin eyniləşdirilməsində əsas rol oynayır. Müəyyən müddət ərzində xəttin sabitliyindən danışarkən nəzərə almaq lazımdır ki, həmin dövrdə konkret şəxs tərəfindən icra olunmuş əlyazmaların hamısı heç də mütləq eyni olmur. Deməli, mütləq sabit stereotip yoxdur. Xətt yalnız nisbi mənada sabit ola bilər. Çünki xətdə də az da olsa bəzi dəyişikliklər olur. Bu dəyişikliklər isə dinamik stereotipin hərəkəti ilə izah olunur. Ona görə də xətlər müqayisə edilərkən şəxsiyyətin eyniləşdirilməsi üçün mütləq eyni formada olan cizgilər axtarmaq lazım deyildir. O, dinamikdir və hərəkətdədir. Xətti icra edənin şüurundan asılı olmayaraq keçmiş stereotip özünü müəyyən dərəcədə olsa da büruzə verməlidir. Məhz buna əsasən dəyişdirilmiş (qəsdən təhrif edilmiş) xəttin tədqiqi ilə şəxsiyyətin eyniləşdirilməsi mümkün olur.

Dinamik stereotipin sabitliyi sübut edir ki, yazının qəsdən sol əllə yazılması hallarında olan xəttin əlamətləri özünü büruzə verir. Yazı zamanı xətt dəyişdirilərkən müəyyən xüsusiyyətlər ortaya çıxır. Lakin baş-beyinin müəyyən sahələrində özünə yer tutan müvəqqəti və şərti əlaqələr sağ əlin yazısından sol əlin yazısına keçir. Sol

əllə yazılmış yazıda sağ əl yazısının əlamətlərinin olması da bununla izah edilir. Müstəntiqin və ekspertin yazıının əmələ gəlməsi və sabitliyin qanunauyğunluqlarını bilməsinin xətt üzrə şəxsiyyətin eyniləşdirilməsində böyük əhəmiyyəti vardır.

Yazı əlamətlərinin təsnifi. Yazının əlamətləri dedikdə, əlyazmada yazını icra edənin hərəkət və vərdişlərinin əks olunmuş xüsusiyyətləri başa düşülür. Kriminalistik təcrübəyə əsaslanaraq yazı əlamətlərini 3 növdə qruplaşdırmaq olar:

- Yazı nitqinin əlamətləri;
- Yazının topoqrafik əlamətləri;
- Xəttin əlamətləri.

Yazının bu üç əlamətləri şəxsiyyəti eyniləşdirmək məqsədilə istifadə edilə bilər.

Yazı nitqinin əlamətlərinə yazının ümumi qrammatik vəziyyəti (yəni yazını icra edən şəxs orfoqrafiya,sintaksis,leksik qaydalarına hansı dərəcədə malik olması), yazı üslubu (yazı icra edən şəxsin hansı üslub və vərdişlərinə malik olması, yazı nitqinin ümumi qurluşu (arxitektonika), simvolikalar,ixtisar edilmiş sözlər və s.),leksik əlamətlər (yazını icra edən şəxsin lüğət ehtiyatı, yerli dialektiktlərdən istifadə olunması,muəyyən söz və söz birləşmələrinin tez-tez təkrar olunması,peşə ilə əlaqədar söz və ifadələrin işlədilməsi və s.).

Yazının topoqrafik əlamətlərinə vərəqin kənarında boş buraxılan yerlərin həcmi və forması,sətirlərin forması və istiqaməti, sətirlər arasındakı intervalların ölçüləri, abzasınyerləşməsi, durğu işarələrinin, əlavələrin, səhifələrdə nömrələrin yerləşməsi, tarixin, imzanın, sərlövhələrin, müraciətlərin yerləşməsi və s. aiddir.

Xəttin əlamətləri iki qrupa ayrılır: ümumi və xüsusi. Ümumi əlamətlər xətti bütövlükdə xarakterizə edir. Xüsusi

əlamətlər isə ayrı-ayrı hərflərin icrası zamanı meydana gəlir.

Xəttin ümumi əlamətlərinə yazı vərdişi, yazı sürəti, yazının mürəkkəblik dərəcəsi, yazıda hərflərin ölçüləri, xəttin meyli, düzülüşü və hərflər arasındakı məsafə daxildir.

Yazı vərdişi dedikdə, yazı zamanı mənimsəmə dərəcəsinin xarakteristikası, habelə bütövlükdə xəttin formalaşma dərəcəsi başa düşülür. Dərəcəsinə görə vərdiş 3 qrupa bölünür: aşağı, orta və yüksək yazı vərdişi. Yazı sürəti dedikdə, yazını icra edərkən əlin hərəkət sürəti başa düşülür. Şəxsin sənədindən və yazının icra olunduğu şəraitdən asılı olaraq yazı sürəti də müxtəlif olur. Yazı sürəti əsasən yazının quruluşundan asılıdır. Belə ki, bəsit və sadə quruluşlu xəttlərin sürəti nisbətən yüksək olur. Mürəkkəblik dərəcəsinə görə xətlər sadə quruluşlu xətlərə ayrılır. Xəttin ölçüsü dedikdə, ayrı-ayrı hərflərin eni və hündürlüyü nəzərdə tutulur. Hündürlüyü 2 mm-ə qədər olan hərflər kiçik, 2 mm-dən 5 mm-ə qədər olan orta, 5 mm-dən artıq olan hərflər isə böyük ölçülü hesab olunur.

Xəttin meyli dedikdə, hərflərin şaquli elementlərinin sətir xəttinə nisbətən yerləşmə vəziyyəti nəzərdə tutulur.

Meylinə görə xətlər sağa, sola və düzünə meyl edən xətlərə bölünür. Hərflər və ya onların elemetnlərinin əlaqəlilik dərəcəsinə görə xətlər kiçik, orta və yüksək əlaqəli xətlərə bölünür. Yazı alətini kağızdan ayırmamaq şərti ilə altı və ya daha çox işarənin fasiləsiz icra edilməsinə yüksək əlaqəli xətlər, 4-5 işarənin (hərfinin) fasiləsiz icrasına orta əlaqəli xətlər, ondan az sayda işarənin fasiləsiz icrasına isə kiçik əlaqəli xətlər deyilir.

Hərflər arasındakı məsafəyə görə xətlər yaxın, orta və böyük məsafəli xətlərə ayrılırlar.

Xəttin xüsusi əlamətləri aşağıdakı qaydada təsnifləşdirilir:

a) hərflərin quruluşuna görə (sadə, bəsit və mürəkkəb xətlər);

b) xəttin icrası zamanı əl hərəkətinin formasına görə (düzxətli, ilgəkvari, qövsvari, ovalşəkilli, dairəvi, bucaqvari);

c) hərflərin və ya onların elementlərini bir-birinə birləşmə formasına görə (qövslə, ilgəklə, bucaqla, qayıdış düz xətlə, qayıdış qövslə);

ç) hərəkət istiqamətinin nisbiliyinə görə (aşağıdan yuxarı və ya əksinə, sağa dairə ilə və ya əksinə);

e) hərflərin elementlərinin icrasında əl hərəkətlərinin ardıcıllığına görə;

ə) əl hərəkətlərinin başlanğıc və bitmə nöqtəsinin yerinə görə;

f) əl hərəkətinin təsir qüvvəsinin – basma qüvvəsinin intensivlik dərəcəsinə görə və s.

***İmzaların tədqiq edilməsinin xüsusiyyətləri.*** İmzaların tədqiqi metodikası prinsip etibarı ilə mətn yazılarının tədqiqindən fərqlənir. İmzaları müqayisə etməzdən qabaq onun hər hansı imzanın əslindən çıxarılmış surət olduğunu müəyyən etmək lazımdır. İmzaları saxtalaşdırmanın müxtəlif üsulları vardır. Bu məsələ həll edildikdən sonra yazı nitqinin əlamətləri tədqiq olunur. Azərbaycan dilində icra olunan imzaların tədqiqi göstərir ki, bir çox hallarda adından imza edilmiş şəxslər öz imzasını icra edərkən səhvlərə yol verirlər. İmzalarda yol verilən orfoqrafiya səhvləri sabit ola bilər. Müqayisə olunan imzalarda bu səhvlərin təkrar edilməsi mühüm eyniləşdirmə əhəmiyyəti kəsb edir.

Bəzən başqasının adından imza edən şəxs də orfoqrafiya səhvlərinə yol verir. Məsələn, şəxs azərbaycan orfoqrafiyasının təsiri ilə saxtalaşdırdığı

imzada orfoqrafiya səhvlərinə yol verir. Tədqiq olunan imza «Camalov» hərflərindən və xətlərindən ibarət idi. Bu imza saxtalaşdırılarkən «V» hərfinin əvəzinə «P» hərfi yazılmışdır.

Daha sonra imzanın sənəddə başqa hissələrə nisbətən yerləşdirilməsi xüsusiyyətlərini xarakterizə edən topoqrafik əlamətlər tədqiq olunur.

İmzaların tədqiqi zamanı əvvəllərdə göstərilmiş xəttin xüsusi əlamətləri tətbiq edilir. Lakin bu əlamətlərə aşağıdakılar da əlavə olunur:

a) imzanın ayrı-ayrı hissələrinin ölçüləri (monoqramlar, xətlər, bəzəyici ştrixlər);

b) imzanın elementlərinin nisbi yerləşdirilməsi;

v) imzadakı xətlərin istiqaməti,forması və ölçüsü.

**Sənədlərin qismən saxtalaşdırılmasının üsulları.** Sənədlərin rekvizitləri dedikdə, müəyyən olunmuş qaydalara uyğun olaraq ən vacib (mütləq) əlamətlərin sənəddə öz əksini tapması başa süşülür. Rekvizit sözünün hərfi mənası "vacib, mütləq,lazım olan əlamətlər"mənasında işlədilir. Rekvizitlərə sənədin blankı, onun forması, rəngi, ölçüsü,mühafizə qatı, möhür və ştamp əksləri, fotoşəkli, imzalar, istifadə müddəti(verilmə tarixi) və s.aiddir.

Blank sözü fransızcadan tərcümədə "ağ" deməkdir. Bəzi sənədlər vardır ki,onların rekvizitləri az olur.Məsələn, təftiş aktı. Sənədlər iki növə ayrılır:

- həqiqi sənədlər
- saxta sənədlər

Həqiqi sənədlər məzmunu həqiqətə uyğun olan,müəyyən edilmiş formada və müvafiq vəzifəli şəxslər tərəfindən hazırlanmış sənədlərdir.

Saxta sənədlər müvafiq qaydada hazırlanmış yalan məlumatlar əks olunmuş və ya rekvizitləri həqiqətə uyğun olmayan sənədlərdir.

Həqiqi sənədlər iki növə bölünür: Etibarlı sənədlər hüquqi qüvvəyə malikdir.Etibarsız sənədlər isə hüquqi qüvvəsini itirmiş sənədlərdir.

Sənədi saxtalaşdıran şəxslər 1) kimyəvi təmizləmə; 2) mexaniki yolla pozma; 3) yazıya əlavə etmə; 4) Hissələrin dəyişdirilməsi kimi üsullardan istifadə edirlər.

**Kimyəvi təmizləmə** - mətnin kimyəvi reaktivlər və həlledicilər vasitəsilə təmizlənməsidir. Bu zaman vərəqin parlaqlığı itir. Sənədin ayrı-ayrı hissələrində mürəkkəb yayılmaları, yazı ştrixlərinin dəyişmələri, vərəqə toru və ya xətlər əmələ gəlir. Bundan başqa, pozulmuş mətnin ayrı-ayrı ştrixləri də müşahidə oluna bilər.

Ultrabənövşəyi şüaların təsir göstərdiyi yer digər rəngin luminesensiyası üzrə reaktivin təsir etmədiyi sahə ilə müqayisə əsasında müəyyən edilir. Kimyəvi təmizləməni aşkar etmək üçün kimyəvi üsullardan istifadə edildikdə, sənəddə elə dəyişiklik əmələ gətirə bilər ki, sonradan onun tədqiqi mümkün olmaz. Ona görədə təcrübədə kimyəvi üsullardan çox az hallarda istifadə edilir.

Mətnin hissəsinin **mexaniki yolla təmizlənməsi** (dəyişdirilməsi) **pozma** adlanır. Mexaniki yolla dəyişdirilmə zamanı mətndə aşağıdakı əlamətlər mövcud olur:

- təmizlənən sahədə vərəqə köhnəlir və nazikləşir( bu əlamət zərrəbin vasitəsilə yandan düşən işıq şüalarının köməyi ilə aşkar olunur);
- vərəqin pozulması nəticəsində onun qatının (vərəqə torunun) ştrixləri və ya xətləri məhv olunur (təmizlənmiş yerdə);
- pozulmuş sahədə hərflərin və ya rəqəmlərin bir hissəsinin qalıqları müşahidə olunur;
- təmizlənmiş yerdə yeni yazı icra olunduqda mürəkkəb yayılmaları hiss olunur.

Sənədin məzmununu dəyişdirmək məqsədilə istifadə edilən üsullardan biri də **yazıya əlavə**dir.Yazıya əlavəni aşağıdakı əlamətlərə görə aşkar etmək olar:

- mətnin yerləşdirilməsi zamanı əlavə edilən yazının sıx yazılması;
- sözlər və hərflər arasındakı intervalın pozulması;
- mürəkkəbinin müxtəlif olması;
- sonradan yazılmış ştrixlərin əvvəl yazılan ştrixlərin üzərinə düşməsi.

Qeyd olunan əlamətləri spektral analiz və mikroskopik tədqiqat vasitəsilə aşkar etmək mümkündür. Bu əlamətləri zərrəbin vasitəsilə də müəyyən etmək olur.

Komputer və makina vasitəsilə sənədin məzmununun dəyişdirilməsinin özünəməxsus əlamətləri vardır. Həmin əlamətlərin köməkliyi ilə makina və komputerin növünü, modelini müəyyənləşdirmək olar.

**Hissələrin dəyişdirilməsi** zamanı icraçı sənədə aşağıdakı dəyişikliklər edir :

- sənədə ayrı-ayrı əlavələrin yapışdırılması;
- fotoşəkillərin yenidən yapışdırılması;
- vərəqlərin yapışdırılması.

**Sənədin əslindən müəyyən fraqmentləri kənarlaşdıraraq digərini yapışdırmaq.** Bu zaman cinayətkar sənəddən müəyyən işarəni, rəqəmi və s. kənarlaşdırır və onların yerinə başqasını yapışdırır. Bunu sənədə adi işıqda və ya müxtəlif növ işıqlanma şəraitində baxmaqla müəyyənləşdirmək mümkündür. Bu növ saxtalaşdırmanı müəyyən etmək üçün kağızın və ya mürəkkəbin müqayisəedici tədqiqatı aparılır və vərəqə torunun xətlərinin uyğun gəlməsi yoxlanılır.

Başqasının sənədindən istifadə etmək üçün adətən cinayətkarlar həmin sənədə şəkil yapışdırırlar. Bu zaman cinayətkar yapışdırılmış şəkildə möhürün əksinin hissəsini saxtalaşdırmalı və onu əksin qalan hissəsi ilə

uyğunlaşdırmalı olur. Yenidən fotoşəkil yapışdırılması əlamətləri aşağıdakılardır:

1. Fotoşəkil üzərində möhür əksinin olmaması.
2. Fotoşəkildəki möhür əksi xətlərini sənədin vərəqi üzərindəki əksin xətlərinə uyğun gəlməməsi.
3. Hərflərin vəziyyəti, ölçüsü, həmçinin hərflər arasındakı məsafənin müxtəlif olması.
4. Vərəqin zədələnməsi.

Ultrabənövşəyi şüalar altında tədqiqat zamanı yapışdırıcı maddənin qalınlığını və vərəqin müxtəlif yerlərində şəklin eyni dərəcədə yapışmamasını müəyyənləşdirmək mümkün olur.

**Xətt çəkilmiş, qaralanmış və boyaqla örtülmüş mətnlərin bərpa edilməsi üsulları:**

1. Yandan düşən işıq şüaları altında baxış – mətn yazı ləvazimatın təzyiqindən yaranan ştrixlərə görə bərpa olunur;
2. Keçən şüalar altında baxış - boyaqla örtülmüş mətnin ştrixlərinin sıxlığının artmasına görə bərpa olunur;
3. Rəngləri fərqləndirməklə şəkilçəkmə - boyaqla örtülmüş mətn həmin rəngdə olan işıq süzgəcləri vasitəsilə fotoşəkli çəkilərək bərpa olunur;
4. İnfraqırmızı şüalarla tədqiqat – tərkibində qrafit və ya metal duzu olan,habelə həmin maddələrin olmadğı maddələrlə ləkələnmiş ştrixlər infraqırmızı şüalar altında tədqiqat nəticəsində aşkar olunur;
5. Rentgen şüaları ilə şəkilçəkmə - icra olunmuş yazı rənginin tərkibindəki atom elementlərinin sayı mətni örtən boyanın tərkibindəki atom elementlərinin sayından çox olduqda tətbiq olunur;
6. Diffuzion köçurmə üsulu – mürəkkəblə yazılmış,tuşla, mətbəə rəngi və digər maddələrlə örtülmüş mətnləri aşkar etmək üçün tətbiq olunur;

7. Elektroforez üsulu – bu metod əsas, turşu və boya maddələrini fərqləndirməyə imkan verir;
8. Kimyəvi həllediciləndən istifadə etməklə - bu metod isə mətni örtən boyanı təmizləməyə və rəngsizləşdirməyə imkan verir.

**İmzaların saxtalaşdırılmasını müəyyən etmək.** İmzanı saxtalaşdırarkən cinayətkar sənəddə onun həqiqi sahibinin xəttinə oxşar xətlə imza edir, belə saxtalaşdırma xətti ekspertiza vasitəsi ilə müəyyən edilir. İmzalar texniki üsullarla da saxtalaşdırılır ki, bu da texniki kriminalistik tədqiqat yolu ilə aşkar olunur. İmzanı saxtalaşdıran şəxs köçürmənin aşağıdakı üsullarından istifadə edir:

a) imzanın şəklini karandaşla çəkmək və sonradan onu mürəkkəblə təzələmək;

b) vərəqi işığa tutmaqla imzanın şəklini çəkmək;

c) itilənmiş predmetlə imzaya təsir göstərmək, onun şəklini başqa vərəqəyə köçürmək və alınan şəkl karandaş və yaxud mürəkkəblə təzələmək;

ç) imzanı xüsusi köçürmə vərəqləri ilə (kapirovka) vasitəsilə köçürmək.

Saxtalaşdırılan imzaların tədqiqi zamanı imzanın əslinə lupa və ya mikroskopla baxdıqda onun üzərində qrafik tozu və ya köçürmə vərəqəsində olan xüsusi kütlənin qalığı aşkar edilir.

Göstərilən üsullarla imzaların saxtalaşdırılmasını «EOP»-elektrik optik cihazı ilə sənədə baxmaqla da müəyyən etmək olar.

İtilənmiş predmet vasitəsilə təzyiq göstərməklə imza saxtalaşdırılarkən onun surəti əmələ gəlir ki, həmin surətin də izləri sonradan mürəkkəb və ya karandaşla təzələnir. Belə halda saxtalaşdırma əlaməti olaraq imzaya təzyiq göstərən ştrixlər (cizgilər) alınmış surətin ayrı-ayrı fraqmentləri ilə üst-üstə düşməyə bilər. İmzanın

təzyiq altında alınmış surəti tipik işıqlanma şəraitində aşkar edilir.

Vərəqi şaquli vəziyyətdə işığa tutaraq mürəkkəblə imzanın şəkli çəkilərkən aşağı cizgilər qalın olur. Bu da mürəkkəbin axması ilə əlaqədardır.

İstənilən rəsmi sənəd rekvizit adlanan müəyyən elementlərə malikdir. Sənədin əsas rekvizitlərinə aiddir: blank, hərfi işarələr, möhür və ştamp əksləri, fotoşəkillər.

Sənədin növündən və formasından asılı olaraq rekvizitlərin sayı müəyyənləşdirilir.

Sənədlər tam və hissəvi saxtalaşdırıla bilər:

a) sənədin tam saxtalaşdırılması:

- mətbəə şriftlərinin yığılması yolu ilə;
- həkk etmə yolu ilə;
- fotosinoqrafiya yolu ilə;
- elektroqrafik surətçoxaldan aparatlar vasitəsilə;
- şəkilçəkmə vasitəsilə.

Mətbəə şriftlərinin köməyi ilə blankların saxtalaşdırılmasının üsulları:

- sətirlərarası və sözlərarası intervalın pozulması;
- bir hərfin başqa hərflərlə dəyişdirilməsi;
- orfoqrafik səhvlərin olması.

Blankların həkk etmə üsulu ilə saxtalaşdırılması üçün aşağıdakılar xarakterikdir:

- hərflərin parıldaması;
- hərfi işarələrdə dairəvi elementlərin düzbucaq şəklində olması;
- şriftlərin qeyri-bərabər olması;
- şriftlərin ölçülərinin düzgün olmaması.

Elektrosinaqrafiya üsulu ilə blankların saxtalaşdırılmasının üsulları:

- şriftdə rəngin qeyri-bərabər olması;
- şrift konturlarının aydın olması.

**Möhür və ştamp əkslərinin saxtalaşdırılmasının müəyyənedilməsi.** Möhür və ştampların əksləri müxtəlif üsullarla saxtalaşdırılır. Möhür və ştampın əksini rezin, ağac və ya digər materiallardan kəsməklə saxtalaşdırdıqda əksin üzərində xarakterik əlamətlər əmələ gəlir: hərflərin ölçüsü və ştrixlərin eni bərabər olmur, hərflərin müəyyən hissələri olmur və s.

Əgər əsas sənəd üzərində möhür əksinin şəklini çəkməklə saxtalaşdırılarsa, bunu işarələrin əksinə, ölçüsünə, yerləşməsinə və digər əlamətlərə görə müəyyən etmək olar.

Bəzən cinayətkarlar möhürün, ştampın əksini saxtalaşdırmaq üçün onun güzgüdəki əksinin şəklini vərəq üzərinə çəkir, sonradan isə onu hazırlanan sənədə köçürürlər.

Bu halda aşağıdakı xarakterik əlamətlər ortaya çıxır. Hərf və rəqəmlərin ölçüsü mətbəə şriftlərinə uyğun gəlmir, əksi çıxarılanın ölçüsü müxtəlif olur, hərflərin kənarlarında mürəkkəb yayılmaları müşahidə edilir və s.

Mətbəə şriftlərini yığmaqla möhür və ya ştampın əksləri saxtalaşdırılarkən aşağıdakı əlamətlər meydan çıxır, metal şriftlərin izləri qalır, işarələr eyni bərabərlikdə rənglənmir, rəngləyici maddənin sıçramaları kənara çıxır, işarələr bir-birinə qarışır və s.

Möhür və ştamp (şəkilləri) əksləri köçürmə vərəqələri vasitəsi ilə, yaxud karandaşla qabaqcadan şəklini çəkməklə saxtalaşdırıldıqda, köçürmə vərəqələrinin, yaxud da karandaş qrafitinin qalıqları müəyyən edilir. Bunu da lupa və mikroskop vasitəsilə müəyyən etmək mümkündür.

Makina yazıları və onların cinayətlərin açılmasında və istintaqında əhəmiyyəti. Sənədlərin texniki tədqiqatı zamanı bir çox hallarda obyektin fərdi eyniliyini müəyyən etmək olur. Bununla bərabər,

materialların qrup mənsubiyyətini də (kağız, karandaş, yazı makinasının lenti və s.) müəyyən etmək mümkündür.

Kağızın tədqiqi. Kağızların tipi və növünü müəyyən edən əlamətlər bunlardır: kağız kütləsinin tərkibi, kağızların hazırlanması və kəsilməsi üsulu.

Kağızlar hazırlandıqları əsas materialların növlərinə görə də fərqlənirlər (ağac, pambıq, kətan, sellüloz və s.). Kağızın tərkibinə daxil olan maddələr mikroskopik tədqiqat vasitəsilə müəyyən edilir. Tədqiqat zamanı kağızın tərkibindəki ona naziklik və möhkəmlik verən maddələr (kaolin, gips, mel və s.) də aşkar olunur. Bu maddələr kimyəvi üsulla və mikroskop vasitəsi ilə müəyyən edilir. Kağıza hamarlıq verən maddələr (yapışqan, parafin) öyrənilir. Göstərilən maddələrin xarakteri və xüsusiyyətləri müqayisə olunan kağız nümunələrinin bircinsli olub- olmaması müəyyən edildikdə nəzərə alınır.

Tədqiqat zamanı həmçinin kağızın fiziki əlamətləri (çəkisi, qalınlığı, nazikliyi və s.) nəzərə alınmalıdır.

Mürəkkəb ştrixlərinin tədqiqi. Mürəkkəbin tədqiqi onların müəyyən qrup mənsubiyyətini aşkar etməyə imkan verir. Mürəkkəb ştrixlərin tədqiqinin əsas üsulları aşağıdakılardır: mikroskop üsulu, rəngayırıcı şəkilçəkmə, lüminessensiya və kimyəvi təhlil üsulları. Mikroskopla tədqiq etməklə bəzən oxşar rəngdən olan mürəkkəb ştrixlərin və onların kimyəvi tərkibini də müəyyən etmək olar.

İstintaq təcrübəsi göstərir ki, bir çox hallarda cinayətkarın hər hansı sənədi hazırladığını müəyyən etmək üçün onun hansı alətdən istifadə etdiyini müəyyən etmək zərurəti ortaya çıxır. Bu isə eyniləşdirmə yolu ilə mümkündür.

***Sual 3. Cinayətlərin açılmasında sənədlərin kriminalistik tədqiqinin əhəmiyyəti. Sənədlərlə davranış qaydaları.***

Ayrı-ayrı cinayət işləri üzrə istintaq hərəkətləri və məhkəmə baxışı zamanı müstəntiq və məhkəmə bir çox hallarda kriminalistik ekspertizanın bir növü olan sənədlərin texniki ekspertizasının köməyindən istifadə edirlər.

Sənədlərin texniki kriminalistik tədqiqatının vəzifələri aşağıdakılardan ibarətdir:

1. Sənədlərin tam və ya hissəvi saxtalaşdırılmasını (pozma, kimyəvi maddələrlə pozma, əl ilə və ya əlavə etmə), habelə imzaların, möhür və ştampların (surətinin) saxtalaşdırılmasını aşkar etmək.
2. Sənədin materialının və ya onun icra etdiyi texniki vasitənin qrup mənsubiyyəti və fərdi eyniliyini müəyyən etmək.
3. Saxtalaşdırılmış və ya zədələnmiş sənədin məzmunu və xarici görkəmini bərpa etmək.

İstintaq - əməliyyat təcrübəsi göstərir ki, cinayətin gizlədilməsində, cinayət məsuliyyətindən boyun qaçırılmasında və cinayətin törədilməsində cinayətkarlar saxta sənədlərdən istifadə edirlər.

Tərəfimizdən keçirilən tədqiqatın obyektləri əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında arayışlar, müxtəlif qaimələr, şəxsiyyəti təsdiq edən sənədlər, möhürlər, ştamplar və qiymətli kağızlar və s. ola bilər.

Polis orqanlarının əməkdaşları sənədlərin yoxlanılmasında aşağıdakıları müəyyən edirlər:

- sənədin kimə məxsus olmasını;
- sənədin həqiqi olmasını;
- sənəddə olan dəyişiklikləri.

Göstərilən vəzifələrin həllində müxtəlif üsullardan istifadə edilir:

- sənəddə mövcud olan bütün rekvizitləri müəyyən etmək;
- sənədin məcmuunu öyrənmək;
- sənəddəki saxtalaşdırma əlamətlərini müəyyən etmək;
- sənədi təqdim edəni, sənəddəki fotoşəkillə müqayisə etmək;
- sənəddə olan məlumatları, onu təqdim edən şəxsdə tapılan başqa sənədlərdə olan məlumatlarla müqayisə etmək.

Sənədlərin baxışı onların düzgün qeyd edilməsinin yoxlanılması ilə başlanır. Sənədlərə baxış sənədin məxsus olduğu şəxsin adı, atasının adı, soyadı, imzası, vəzifəsi, vəzifəli şəxslərin imzası, nə vaxt, harada, kim tərəfindən verildiyi, fotoşəkil, möhür və ştampların əksinə, başqa rekvizitlərə diqqət yetirmək məqsədəuyğundur. Baxış zamanı sənədin qoruyucu rekvizitlərinə xüsusi diqqət yetirmək lazımdır.

Bundan əlavə, maddi sübut əhəmiyyətli əlyazmasına və sənədə görə onun müəllifini və icra edəni müəyyənləşdirmək mümkündür. Bu işlə əməliyyat müvəkkili və müstəntiq məşğul olur.

Əlyazması və sənədə görə icraçının axtarışı əsasən aşağıdakı mərhələlərdən keçir:

- maddi sübut olan sənədin öyrənilməsi;
- axtarış cədvəlinin tərtib olunması;
- tədqiqat nümunələrinin götürülməsi;
- kriminalistik ekspertizanın keçirilməsi.

Birinci mərhələdə sənədi diqqətlə öyrənmək lazımdır. Yazının icra olunduğu kağızın növü, mürəkkəbin rəngi və həmin kağızda saxlanıla bilən əl-barmaq izlərinə xüsusi diqqət yetirmək lazımdır. Əgər sənəd zərfdə

göndərilibsə, onda onun içərisindəki möhürün əksinə əsasən hansı ünvandan və haraya göndərildiyini müəyyənləşdirmək olar.

Yazı xəttinin əlamətlərinə, sənədin çap olunmuş rekvizitlərinə əsasən sənədi icra edənin yaşadığı yer, peşəsi, yaşı, cinsi, intellektual səviyyəsi və başqa xüsusiyyətləri haqqında məlumat toplamaq mümkündür. Yazının ümumi və xüsusi əlamətlərini öyrəndikdən sonra axtarış cədvəli tərtib olunur.

Axtarış cədvəlində aşağıdakılar qeyd olunur:

- Axtarış cədvəlində 6-10-a qədər olan yazının və ya sənədin xarakterik xüsusiyyətləri cəmləşdirilir.
- Yazıda və sənəddə olan qrammatik səhvlər və s. rekvizitlər qeyd olunur.
- Tərtib olunduğu tarix və arxa hissəsində həmin yazı və ya sənədin fotoşəkli yapışdırılır.

## Sənədlərlə davranış qaydaları

Hadisə yerində aşkar edilmiş sənədlərlə aşağıda göstərilən qaydalara riayət etməklə davranmaq lazımdır:

- Sənədlər üzərində ola biləcək əl-barmaq izlərini məhv etməmək və öz əl-barmaq izlərini saxlamamaq üçün onu maqqaşla ,əlcəklə və ya küncündən tutmaqla ələ götürmək;
- Sənədlərin xarici görünüşünü dəyişməmək üçün onlar üzərində yazılar qeydlər etməmək,möhür və ştamp əkslərini qoymamaq;
- Sənədin əzilməməsini və oradakı qeydlərin korlanmasının qarşısını almaq üçün onu əyməmək və əlavə qatlamalar etməmək;
- Sənədin xarici görünüşünü saxlamaq və onun sonrakı tədqiqatını təmin etmək üçün işə tikməmək, sancaqla bərkitməmək və ayrıca zərfdə işə əlavə etmək.

Maddi sübut əhəmiyyəti olan sənədlərin başqa sənədlərdən fərqi ondan ibarətdir ki, onlar özündə cinayət hadisəsi və ya cinayət törədən şəxs haqqında hər hansı bir məlumat cəmləşdirir, həm də onlar dəyişməzdir. Maddi sübut əhəmiyyəti kəsb edən sənədlərlə davranış zamanı polis əməkdaşları aşağıdakı qaydalara riayət etməlidirlər:

- istintaq hərəkəti protokolunda sənəd tam, hərtərəfli, obyektiv təsvir olunmalıdır və zəruri hallarda şaquli şəkilçəkmə üsulu ilə fotoşəkli çəkiməlidir.

- yandırılmış, cırılmış sənədlərin kənarları leykoplastr, yapışqanlı plyonka ilə yapışdırılmış iki təmiz şüşə və ya sellüloid plyonka arasında saxlanılmalıdır. Yaş, nəm çəkmiş sənədləri, gün işığı və od üstündə qurutmaq olmaz, onları otaq şəraitində «fen» vasitəsilə qurutmaq lazımdır.

## *Mövzu 9:*

## *Zahiri əlamətlərinə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsi*

PLAN:

1. Zahiri əlamətlərə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsinin mahiyyəti. Zahiri əlamətlərin təsnifatı.
2. İnsanın zahiri görünüşünün "şifahi portret" metodu əsasında təsvir edilməsi qaydaları.
3. İnsanın zahiri görünüşü haqqında məlumatların istintaq, əməliyyat-axtarış və ekspert təcrübəsində istifadə edilməsi.

***Sual 1. Zahiri əlamətlərinə görə şəxsiyyətin kriminalistik eyniləşdirilməsinin mahiyyəti. Zahiri əlamətlərin təsnifatı.***

XVIII əsrin ortalarında İngiltərə və Fransa həbsxanalarında saxlanılan cinayətkarlar "nümayiş" keçirmişlər. Nümayiş zamanı polis agentləri

cinayətkarların əlamətlərini yaddaşlarında saxlayıb əvvəllər törətdikləri cinayət əməllərinə görə cəzalandırılmış şəxslərin içərisində onları tanımışdılar. XIX əsrin 80-cı illərində əvvəlcə Qərbi Avropa sonra isə digər ökələrdə insanın zahiri əlamətlərinin elmi əsasları işlənib hazırlanmışdır.

Fransız kriminalisti A.Bertilyon "şifahi portret" adlanan xüsusi terminologiyadan istifadə etməklə insanın zahiri görünüşünün təsvir edilməsi üçün xüsusi metodika yaratmışdır.

Müasir dövrdə insanın zahiri əlamətlərinin siyahısı genişləndirilərək, həmin əlamətlərin təsviri üsulları təkmilləşdirilmişdir. Bu işdə bizim kriminalistlərin də əməyi az olmamışdır. Zahiri əlamətlərə görə şəxsiyyətin eyniləşdirilməsindən təkcə cinayət prosesində deyil, mülki prosesdə də istifadə edilir.

Cinayətlərin açılmasında və istintaqında qarşıya qoyulmuş məsələlərin araşdırılması məqsədilə polis əməkdaşları tərəfindən metod və vasitələrin tətbiqi müsbət nətisələrin əldə olunmasına şərait yaradır. Belə metodlardan biri də insanın zahiri əlamətlərinə görə eyniləşdirilməsidir.

Cinayətkarın, tutulmuş şəxsin və s. şəxsiyyətlərinin müəyyənləşdirilməsində daxili işlər orqanları əməkdaşları qarşısında tez-tez şifahi portret haqqında məlumatlardan istifadə edilməsinə zərurət yaranır.

Tanınmalı və axtarışda olan insanların zahiri əlamətlərindən hələ qədim bəşər tarixi dövrlərində də istifadə edilmişdir. Bu təsvirlər adətən hər hansı bir adamı digər adamdan fərqləndirən zahiri əlamətlərin müxtəlif xüsusiyyətlərini özündə əks etdirir.

Qeydiyyat və axtarışda olan şəxslərin şifahi portreti ilk dəfə 1887-ci ildə Parisdə polis agentləri tərəfindən

istifadə edilmişdir. Rusiyada isə 1890-cı ildən tətbiq olunmağa başlanmışdır.

«*Qabitoskopiya»* latın sözü olub «görkəm, xaric» deməkdir. Bu termin axtarış və eyniləşdirmə məqsədilə insanın xarici görkəmini xarakterizə edən məlumatların öyrənilməsi və istifadə edilməsi mənasını daşıyır. İnsanın zahiri əlamətlərinin təsviri metodlarını və qaydalarını bilmək, ondan əməliyyat-axtarış tədbirlərində və istintaq hərəkətlərinin həyata keçirilməsində istifadə etmək mühüm praktiki əhəmiyyətə malikdir. İnsanın zahiri görünüşünü, onun geyimini və başqa əşyalarını düzgün təsvir etmək üçün, şifahi portret metodunun öyrənilməsi çox vacibdir.

Zahiri görünüş əlamətlərinə görə eyniləşdirmə aparmaq üçün yalnız elə təsviretmə lazımdır ki, orada hər bir adamı fərdiləşdirən və başqalarından fərqləndirən daha çox xüsusiyyəti, mövcud olan zahiri əlamətləri dəqiq qeyd edilmiş olsun.

İnsanın zahiri əlamətlərinin eyniləşdirilməsi onun zahiri görünüşünün təkrarolunmaz əlamətləri nəticəsində mümkün olur.

**Şifahi portret** – kriminalistika texnikasının təsviri qaydalarını, zahiri əlamətlərin müqayisə etmə metodikasını və onların məhkəmə, istintaq və əməliyyat-axtarış təcrübəsində istifadə olunması taktikasını işləyib hazırlayan bir metoddur.

Məsələn: **Əlamətləri** – alçaq boylu, saçları sarı, gödək, burnu yekə, burunun arxası böyük, gözləri qara, burnu uzun, nazik, burunun başlanğıcı sallanmış, dodaqları qalın, ağzının küncləri düz, çənəsi üçbucaq, əyilmiş və s.

**Xüsusi əlamətləri** – sağ əlinə «ana» sözü yazılıb.

**Geyimi** – köhnə qara kostyum, qara tufli, tünd palıdı rəngli köynək.

Məlumatda verilmiş əlamətlər əsasında daxili işlər orqanlarının şəxsi heyəti təlimatlandırılır və axtarış tədbirləri həyata keçirilir.

İnsanın zahiri əlamətlərinə görə eyniləşdirilməsi kriminalistik eyniləşdirmənin tərkib elementlərinin köməkliyi ilə həyata keçirilir.

Qeyd etmək lazımdır ki, anatomik quruluşuna və dinamik əlamətlərinə görə insanın zahiri əlamətləri fərdidir və bu fərdilik insanın eyniləşdirilməsinə imkan verır. Hər bir insan onu başqalarından fərqləndirən xarici görünüş əlamətlərinə malikdir.

Eyni zamanda qeyd etməliyik ki, müxtəlif şəxslərin oxşarlığı ola bilər, nəinki yaxın qohumların, hətta kənar şəxslərin də, ancaq oxşarlığı eyniləşdirmə ilə qarışdırmaq olmaz.

Kriminalistika elmindən məlumdur ki, zaman keçdikcə (yaşından, həyat tərzindən, xəstəlikdən, xəsarətdən və s.) adamın zahiri görkəmi dəyişir. Lakin bir çox əlamətlər olduğu kimi qalır, əsasən başın, sifətin forması, kürəyin, burunun quruluşu və s.

«Şifahi portret» metodunun tətbiqi istintaq və əməliyyat işçilərinə onları maraqlandıran şəxsin zahiri görkəmini müəyyən etməyə, qeydiyyatın aparılmasına və axtarış tədbirlərinin həyata keçirilməsinə, müşahidə, axtarış və tutulma zamanı səhvə yol verməməyə, ekspertlərə isə fotoşəkillərin müqayisə edilməsində yaxından köməklik göstərir.

Hərdən təcrübədə xəbərsiz itkin düşən şəxslərin və ya naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsinə zərurət yaranır. Bu zaman daxili işlər orqanları əməkdaşlarına xəbərsiz itkin düşmüş şəxslərin və ya naməlum meyitlərin xarici görünüş əlamətlərinin təsviri köməklik edir.

Şəxsiyyəti təsdiq edən sənədlərin yoxlanılması, sənəddəki şəkli onu təqdim edən şəxsin zahiri əlamətləri ilə tutuşdurmaq üçün "şifahi portret" metodundan istifadə edilir.

İnsanın zahiri əlamətlərinə əsasən cinayətlərin qeydiyyatı və eyniləşdirmə metodikasının elmi araşdırmaları XIX əsrin 80-ci illərindən «şifahi portret» adlanan insanın zahiri əlamətlərinin xüsusi metodikası yaranandan sonra istifadə edilməyə başlanmışdır.

Şəxsin zahiri görünüş əlamətlərinə görə eyniləşdirilməsinin mahiyyəti verilmiş konkret sifətin əlamətlərinin müqayisəli araşdırılması metodu ilə ümumi və xüsusi eyniləşdirmə əlamətlərindən ibarətdir.

Şəxsin zahiri görünüş əlamətlərinə görə eyniləşdirilməsi tanınma yolu ilə kriminalistik və başqa tədqiqatlar vasitəsilə həyata keçirilir.

Şəxsin zahiri görünüş əlamətlərinə görə eyniləşdirilməsinin obyektlərinə aşağıdakılar aiddir:

a) insanın yaddaşına həkk olunmuş fikri surətlər;

b) əlamətlərin təsviri və rəsmləri;

c) insanların və meyitlərin fotoşəkilləri;

ç) meyitlər və ya onun qalıqları (çox hallarda sümüyü).

Şəxsiyyəti müəyyən etmək üçün "şifah portret"dən o zaman uğurla istifadə olunur ki, zahiri əlamətlər təsnifləşdirilərək, xüsusi terminologiyanın köməyi ilə vahid sistemdə təsvir edilir. Əməliyyat-istintaq təcrübəsi də müxtəlif şəxslərin təsvir edildiyi əlamətlərin eyniliklə başa düşülməsini təmin etmək məqsədilə kriminalistlər tərəfindən xüsusi terminologiya işlənib hazırlanmışdır.

"Şifahi portret" metodunu öyrənmək insanın təsvir olunmuş əlamətləri ilə zahiri görünüşünü təsvir etməyə və onu tanımağa imkan verir, zahiri əlamətləri yadda saxlamağı yüngülləşdirir. Az vaxt ərzində müşahidə

olunan insanın xarici əlamətlərinin düzgün təsvirini tərtib etməyə, fotoşəkil əsasında əlamətləri təsvir etməyə və s. imkan yaradır.

İnsanın zahiri əlamətləri kriminalistikada şəxsin bədən quruluşunu, onun hissələrini, sifətin əlamətlərini, həmçinin də, orqanizminin bəzi fizioloji xüsusiyyətlərini özündə ehtiva edir.

İnsanın zahiri əlamətləri xüsusi, yalnız ona məxsus olan və köməkçi, yəni onun xarici görkəminin xarakteristikasına əlavə kimi başa düşülür.

Zahiri əlamətlər iki qrupa ayrılır:

a) insanın bədəninin zahiri quruluşunu xarakterizə edən anatomik əlamətlər (başın, sifətin, bədənin quruluşu və s.).

b) onun hərəkətini, nitqini, zahiri görünüşünün aşkar funksiyalarını ifadə edən funksional əlamətlər (xüsusiyyətlər, görünüş, yeriş, hərəkət, mimika, səs və vərdişlər və s.).

Anatomik əlamətlərdən xüsusilə sifətin ifadəsinin əlamətləri daimidir və ona görə də şəxsiyyətin müəyyən edilməsində böyük əhəmiyyətə malikdir.

Eyniləşdirmənin mahiyyətinə görə zahiri əlamətlər ümumi və xüsusi olur. Ümumi və qruplaşdırılmış əlamətlər müxtəlif şəxslərə və ya qrup şəxslərə məxsus ola bilər. Məsələn, sifətin oval, alının düz və ya qabağa əyilmiş, burunun üstü qabarıq və s. xüsusiyyətlərdən ibarətdir.

İnsanın şəxsiyyətini müəyyən etmək üçün, ayrı-ayrı şəxslərdə az təsadüf edilən əlamətlər daha səmərəlidir. Bu əlamətlər xüsusi əlamətlər adlanır. Belə əlamətlər anatomik olduğu kimi, həm də funksional ola bilər (məsələn, tatuirofkalar, çapıqlar, axsama, nitqin deffekti və s.).

Diqqəti daha tez cəlb edən xüsusi əlamətlərə gözəçarpan əlamətlər deyilir (məsələn, dodağın dikliyi, anadangəlmə ləkələr və s.).

Zahiri əlamətlərə aiddir:

- bədənin və geyimin əlamətləri;
- başqa gəzdirilən əşyaların əlamətləri.

İnsanın zahiri əlamətləri aşağıdakı kimi təsnif olunur:

- anatomik;
- funksional;
- xüsusi;
- geyim və başqa gəzdirilən əşyaların əlamətləri..

Yuxarıda sadalananlardan belə nəticəyə gəlmək olar ki, insanın zahiri görünüşü fərdidir. Lakin başqa mühüm əlamət özünəməxsus, təkrarsız sayıla bilməz. Bununla da zahiri əlamətlərin insanın digər əlamətlərinə görə deyil, ancaq onun fərdi xüsusiyyətlərinə görə eyniləşdirilməsinə yol verilir.

İnsanın zahiri əlamətlərinə görə kriminalistik eyniləşdirilməsi onun axtarılmasına və tanınmasına imkan verir ki, bu da daxili işlər orqanlarının işində böyük əhəmiyyətə malikdir.

İnsanın zahiri əlamətlərinə görə kriminalistik eyniləşdirilməsi kriminalistik eyniləşdirmənin növlərindən biridir. Zahiri əlamətlər dəyişməyən və fərdidir, bu isə onlardan cinayətkarlığa qarşı mübarizədə istifadə etməyə imkan verir.

### *Sual 2. İnsanın zahiri görünüşünün "şifahi portret" metodu əsasında təsvir edilməsi qaydaları*

İnsanın zahiri görünüş əlamətlərinin təsviri DİO-da müəyyən edilmiş qaydalara uyğun olaraq aparılır. Ancaq məişətdə və bədii ədəbiyyatlarda insanın zahiri görünüş

əlamətləri xüsusi terminologiyadan istifadə edilmədən əks olunur. Məsələn: «Onun yaşı 20, boyu qısa, sinəsi enli, bir qolu o birindən gödək, gözləri mavi, saçları sarı, yanağında və alnında da xalı var».

İnsanın zahiri əlamətlərinin təsvirində hələ qədimdə müəyyən terminologiyadan istifadə olunurdu, məsələn, qaçmış qulun axtarışı barədə Roma elanı: "Arestotena məxsus olan German adlı gənc qul Aleksandriya şəhərinə qaçmışdır. Suriyada anadan olmuş, təxminən 18 yaşlı, orta boylu, düz ayaqları var, çənəsi batıq, burnunun sol tərəfində kölgəyə oxşar xalı, ağzının sol küncü çapılmış, sağ biləyində "var-var" hərfləri döyülmüşdür. Onu qaytarana iki talanq, yerini xəbər verənə isə bir talanq veriləcəkdir".

XIX əsrdə cinayətkarlığa qarşı mübarizədə "şifahi portret"dən istifadə olunması sahəsində fransız Alfons Bertilyon böyük əmək sərf etmişdir. O, xarici görünüş əlamətlərinin təsvirini dəqiqləşdirərək, təcrübi olaraq həyata keçirmişdir. İnsanın zahiri əlamətlərinin təsvirinin ardıcıllığı Azərbaycan Respublikasının DİN-nin «məlumat-axtarış sistemində» qəbul edilərək istifadə edilir. Bu sistemdə əlamətlərin təsviri aşağıdakı ardıcıllıqla aparılır: milliyyəti, yaşı, cinsi, boyu, bədən quruluşu, çiyinləri, sifəti, alnı, qaşları, gözləri, burnu, ağzı, dodaqları, çənəsi, qulaqları, saçı, səsi, nitqi, xüsusi əlamətləri, funksional əlamətləri və geyiminin xüsusiyyətləri.

Hazırda kriminalistlər tərəfindən ardıcıllığından asılı olaraq zahiri əlamətlərin təsvirinin aşağıdakı kimi verilməsi məqsədəuyğun hesab edilir.

Anatomik əlamətlər belə təsvir edilir:

Cins – kişi, qadın

Yaş – sənədə əsasən təvəllüdü və ya zahiri görkəminə görə yaşı təxmini müəyyənləşdirilir. Məsələn, 28-30 yaşlarında kişi, 45-47 yaşlarında görünən qadın.

Boy – belə xarakterizə olunur: alçaq – 160 (165) sm-ə qədər, orta – 160 (165)-170 (175) sm, hündür – 180 (185) sm-dən yuxarı.

Qadınlarda isə kişilərə nisbətən boy 5-10 sm aşağı götürülür.

Xüsusiyyətləri – çox alçaq (hündür) boylu.

Bədən quruluşu – zəif, möhkəm (atletik), orta bədənli.

Bədənin piy təbəqəsinin qalınlığından asılı olaraq – arıq, orta kök, kök kimi xarakterizə olunur.

Milli mənsubiyyəti məlum olan sifətin quruluşuna görə, milliyyəti rus, azərbaycanlı, ukraynalı və s. Əgər sifəti məlum deyilsə, onda irqi və milli mənsubiyyətinin müqayisəsinə görə müəyyən edilməsinə yol verilir. Avropalı, qafqazlı, azərbaycanlıya oxşar və s.

*Baş xarakterizə olunur:*

Ölçüsünə görə – kiçik, orta və böyük.

Vəziyyətinə görə –normal, sol və ya sağ çiyinlərə əyilmiş, arxaya yönəlmiş, başının arxası – düz, qabarıq.

Saçlar formasına görə – düz, dalğavari, qıvrım .

Uzunluğuna görə – uzun, orta və qısa (kişilərdə 10 sm-dən, qadınlarda isə 30 sm-dən artıq uzun saçlı hesab edilir).

Rənginə görə – açıq qumral, tünd qumral, qara, sarı-qırmızı, şabalıdı və ağ.

Böyümə xəttinə görə – düz, sınıqxətt formalı və əyri.

Vəziyyətinə görə – geriyə daranmış, tel ilə hörüklə yığılmış, sağa daranmış və s.

Qalınlığına görə – qalın, seyrək və orta sıxlıqda.

Keçəllər – alnında, gicgahda, başın ortasında, tam keçəl.

İnsanın alnında təxminən 20 yaşda cizgilər yaranır və tədricən aydın görünür.

Ölçüsünə görə – kiçik, orta, böyük.

Formasına görə – düz ,arxaya əyilmiş, qabağa əyilmiş, uzunsov, üçbucaq şəkilli.

Qaşlar – istiqamətinə görə üfüqi, daxilə doğru əyilmiş, xaricə doğru əyilmiş.

Qaşların konturları – düz, qövsvari, dalğavari, üçbucaq formalı olur.

Qaşların uzunluğu – orta, uzun, qısa.

Gözlər – gözlərin rəngi qara,qonur, qəhvəyi, yaşılımtıl, mavi(göy), boz olur.Xüsusiyyətləri – buynuz qişada ləkələrin olması, qızarmış olması və s.Gözlərarası sahə - kiçik,orta böyük; göz almalarının vəziyyəti – batıq, orta, qabarıq; göz yarığının forması – üçbucaq, badamvari, oval, seqmentvari, oraqşəkilli.

Göz qapaqlarının əlamətləri – açıq və ya örtülü göz qapaqları, göz qapağının sallanması;xüsusiyyətləri – göz qapaqlarında qırışların olması, aşağı göz qapağında dəri yastığının olması.

Kirpiklər – uzun,orta uzunluqda, qısa,qalın və seyrək olur;xüsusiyyətlərinə görə kirpiklərin olmaması və müxtəlif olması.

Burunun üstü – düz, əyilmiş, qabarıq, düz dalğavarı, əyri dalğavari, qabarıq dalğavari.

Burun dəlikləri – bağlı, açıq.

Burunun uzunluğuna görə – böyük, orta, kiçik.

Alınla burun xətti – düz, bucaqvari, sınıqxəttli, qabarıq, dalğalı, paralel olur.

Burun ucunun forması – iti, dairəvi, yastı.

Dodaqla burun arasının vəziyyəti – sallanmış, horizontal, qalxmış.

Ağızın ölçüsü – kiçik, orta, böyük.

Ağızın bucaqları – qalxmış, horizontal, sallanmış.

Dodaqlar – üst dodağın hündürlüyü kiçik, orta, böyük.

Vəziyyətinə görə – normal, üst dodağın qalınlığına görə nazik, orta, qalın.

Çənənin vəziyyəti – əyilmiş, vertikal, irəli çıxmış.

Qulaq seyvanı – ölçüsü kiçik, orta, böyük;forması-oval, dairəvi, üçbucaqlı, düzbucaqlı.Qulaq sırğalığının quruluşu – kiçik,orta. üçbucaqlı, düzbucaqlı, oval, ayrılmış və ya bitişmiş. Traqusun ölçüsü - kiçik ,orta.böyük olur.Traqus – xarici qulaq girəcəyinin qabağında olan üçbucaq şəkilli çıxıntıdır.

Yuxarıda sadalanan əlamətlərin yığılmasında aşağıdakı mənbələrdən istifadə etmək olar:

-- İzahatlar (onu daimi müşahidə etmək imkanı varsa);

-- Fotoşəkillər;

--Qeydiyyat məlumatları, həmçinin kriminalistik qeydiyyatların məlumatları;

--Zərər çəkmiş şəxslər, şahidlər, axtarılan şəxsi tanıyan şəxslərin ifadəsi;

--Müxtəlif üsulla çəkilmiş portretlər;

--Rentgen plyonkaları;

--Meyit və ya onun hissələri;

--Hadisə yerinə baxış materiallarından.

"Şifahi portret" metodu ilə zahiri görünüşün təsviri qaydaları daxili işlər orqanları əməkdaşlarına eyni əlamətləri və müxtəlif şəxslərin təsvirini eyniliklə qəbul etməyə və fikir ayrılığının aradan qaldırılmasına imkan yaradır.

***Sual 3. İnsanın zahiri görünüşü haqqında məlumatlardan istintaq, əməliyyat-axtarış və ekspert təcrübəsində istifadə olunması***

Şəxsin zahiri görünüşü haqqında məlumatların toplanması şəxsiyyətin müəyyən edilməsi zərurəti meydana çıxdıqda yaranır.

Zahiri əlamətlər haqqında məlumatlar meyitin, hadisə yerinin və maddi sübutların baxışı zamanı, istintaq prosesində və həmçinin əməliyyat tədbirlərinin həyata keçirilməsi nəticəsində əldə edilir.

Həbs olunmuş, şübhəli şəxs qismində saxlanılmış, həlak olmuş şəxslərin zahiri əlamətləri öyrənilir və "şifahi portret" metodu ilə şəxsiyyəti araşdırılır.

"Şifahi portret" DİN-in orqanlarının əməliyyat, istintaq təcrübəsində şəxsiyyətin müəyyən edilməsində geniş tətbiq edilir. Beləliklə şifahi portretdən aşağıdakı istiqamətlərdə istifadə olunur:

1. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından gizlənən cinayətkarın axtarışı və tutulması zamanı;
2. Həbsxanadan qaçmış cinayətkarın axtarışı və tutulması zamanı;
3. Xəbərsiz itkin düşmüş şəxsin axtarışı zamanı;
4. Naməlum meyitlərin təsviri və qeydiyyatı zamanı;
5. Müşahidə zamanı;
6. Şəxsiyyəti təsdiq edən sənədlərin yoxlanması zamanı;
7. Şəxsin fototəsviri ilə eyniləşdirilməsi zamanı;
8. Müxtəlif əməliyyat tədbirləri aparılması zamanı;

Zərər çəkmişin və cinayət törətmiş şəxsi bilavasitə ğözü ilə görən şahidlərin (onların əlamətlərini müəyyən etmək üçün) ifadələrinə əsasən əməliyyat-istintaq təcrübəsində bir qayda olraq, şəxslərin zahiri əlamətlərinə

görə tanınması və axtarışı üçün iki kateqoriya şəxsləri müəyyənləşdirmək mümkündür.

1) əməliyyat və istintaq orqanlarına məlum olan konkret şəxslər;

2) cinayət törətdikdən sonra gizlənmiş naməlum şəxslər.

Birinci kateqoriyadan olan şəxslərin şifahi portretinin tərtib edilməsi çətinlik yaratmır. Çünki, əməliyyat və istintaq orqanlarına məlum olan şəxsin zahiri əlamətlərinin mənbəyini tapmaq mümkündür. Əgər şəxs əvvəllər məhkum olunmuşdursa, onun şəxsi işindəki fotoşəklindən, iş yerindən, pasport və viza şöbələrindən axtarışda olan şəxslərin onu tanıyanların dindirilməsi yolu ilə zahiri əlamətləri barədə məlumatları əldə etmək olar.

Cinayəti törətmiş şəxs məlum olmadıqda, bu tədbirlər başqa yolla həyata keçirilir. Belə hallarda cinayətkarların zahiri əlamətləri haqqında məlumatları zərər çəkmiş şəxsin, şahidlərin dindirilməsi və hadisə yerində qoyulmuş izlər əsasında toplamaq mümkündür.

Bakı şəhəri, Sabunçu RPİ-yə vətəndaş «M» müraciət edərək bildirdi ki, axşam saat $18^{30}$ radələrində işdən evə qayıdarkən, Sabir küçəsi ilə Xaqani küçəsinin kəsişdiyi yerdə təxminən 20-23 yaşlarında bir gənc onun yolunu kəsərək, saatını çıxarmağı və ona verməyi tələb etmiş, lakin o, cavabında kiçik idman çantasını cinayətkarın gicgahına bərk vuraraq, onun sifətini qana boyamışdır. İkinci dəfə vurmaq üçün döndükdə isə cinayətkar onu qoyub Bakıxanov qəsəbəsindəki avtobus dayanacağına tərəf qaçaraq gözdən itmişdir. Dindirmə zamanı vətəndaş «M» cinayətkarın zahiri əlamətlərini dəqiqliklə söyləmişdir.Cinayəti törətmiş şəxsin zahiri əlaməfləri şifahi portret metodu əsasında təsvir edildikdən sonra əməliyyat müvəkkili tərəfindən həbsdən yeni azad edilmiş «Hacı» ləqəbli cinayətkar «K»

tanınmışdır. Həmin gün gecə əməliyyat müvəkkili «K»-nin mənzilinə baş çəkmiş və görmüşdür ki, «K» başı sarıqlı yataqda uzanıb. Səhərisi gün «K» öz hərəkətlərini etiraf edərək bildirmişdir ki, axşam o sərxoş olmuş və nə etdiyini dərk edə bilməmişdir.

Cinayətkarların zahiri əlamətlərinin tam və düzgün təsvirinə zərər çəkmiş şəxsin, şahidlərin şəxsi müayinəsi (CPM –in 238 maddə) və ya dindirilməsi (CPM –in 227,231 maddələr) zamanı şəxslərin müəyyən edilmiş əlamətlərini müqayisə etməklə nail olmaq mümkündür.

İnsanın zahiri əlamətlərinin tam və düzgün təsviri məqsədilə bəzən zərər çəkmiş şəxsi, şahidi, şifahi portretin sxemi ilə tanış etmək daha faydalıdır. Son zamanlar DİO–nın əməliyyat-axtarış işlərində şahidlərin verdikləri məlumatlar əsasında subyektiv portretlər daha çox tətbiq edilir.

Subyektiv portretlərin tətbiqinin müsbət keyfiyyətləri Azərbaycan Respublikası DİN-in Bakı şəhəri BPİ, DİO-nun cinayət-axtarış aparatlarının və istintaq orqanlarının təcrübəsində özünü göstərir.

Subyektiv portretlər dedikdə, sifətin quruluşunun insanın yaddaş obrazı əsasında kompozisiya ilə çəkilmiş (kompozisiya – rəsmli, fotoşəkilli) kombinasiya olunmuş təsviri başa düşülür. Subyektiv portretlər şəxsin zahiri əlamətlərinin portret oxşarlığının tam əldə edilməsi üçün yaradılır.

- gizlənmiş cinayətkarın (naməlum) axtarılmasında və müəyyən edilməsində;
- axtarışda olan şəxsləri görənlərin və tanıyanların axtarılmasında (bir qayda olaraq ağır cinayətlərə görə);
- ölənin (həlak olanın) şəxsiyyətinin müəyyən edilməsində;
- xəbərsiz itkin düşmüş şəxslərin axtarışında.

Subyektiv portretlərin əməliyyat-axtarış tədbirlərinin keçirilməsində mühüm əhəmiyyəti vardır. Lakin məhkəmə prosesində sübut kimi istifadə oluna bilməz. Subyektiv portretlərin hazırlanması müstəqil tədbir kimi, qanunvericiliyə əsasən şəxsin hüquqlarının və vəzifələrinin qorunmasına ciddi riayət etməklə təşkil olunur.

Subyektiv portretlərin hazırlanması üçün müxtəlif texniki vasitələr tətbiq olunur. Kompozisiyon–fotoqrafik portretin hazırlanmasında adətən yarımproyektorlardan istifadə olunur. Kompozisiyon–rəsm portretləri “Aydenti-kit”prinsiplərinə əsaslanaraq İKR-2 və onun modelləşdirilmiş- “Portret”qurğularının köməkliyi ilə kompüter sistemlərindən (“Fotorobot”,”Portret”)istifadə etməklə hazırlanır.Subyektiv portretlərin növündən və tətbiq olunan texniki vasitələrdən asılı olaraq bütövlükdə bu proses üç mərhələni əhatə edir:

Hazırlıq, portretlərin hazırlanması və sənədləşmə.

Subyektiv portretlərin hazırlanmasının əsas iştirakçıları, əməliyyat müvəkkilləri, müstəntiq, kriminalist-mütəxəssis və bilavasitə gözü ilə görən şahidlərdir (zərər çəkmiş şəxslər, şahid və digər iştirakçılar).

Əməliyyat-axtarış fəaliyyətinin daha səmərəli məlumatlarla təmin olunması məqsədilə son zamanlar yeni məlumat axtarış sistemləri yaradılır. Bunlar da cinayətlərin qarşısının alınmasını və açılmasını təmin edir.

«Axtarış» sistemi açılmış cinayətlər barədə məlumatların vahid formalarının yığılmasından, formalaşmış sənədlərdən, cinayət törətmiş şəxs üçün tərtib olunan 2 nömrəli kartoçkanın əlavəsindən, xəbərsiz itkin düşmüş şəxslər haqqında qarşılıqlı məlumat qaydasının müəyyən mərkəzləşmiş şəkildə yığılması və naməlum cinayətkar haqqında məlumatların əməliyyat-

axtarış fəaliyyəti prosesində maksimum istifadə olunmasından ibarətdir.

Cinayətin törədildiyi yerdən qaçmış şəxsin 2 nömrəli forma kartoçkası, açılmış cinayətlərin kartoçkasına əlavə kimi zahiri əlamətlər haqqında aşağıdakı məlumatları özündə cəmləşdirir; milliyyəti, yaşı, cinsi, boyunun, bədən quruluşunun, sifətin, alnının, qaşların, gözlərin, burunun, dodaqların, çənənin, qulaqların, saçların, səsin, ayaqların ölçüsü, tatuirovkaların, geyimin təsviri.

2 nömrəli forma ilə şəxsin zahiri görkəmi haqqında məlumatların toplanmasının mahiyyəti ondan ibarətdir ki, blankda sadalanan əlamətlərdən cinayətkarın zahiri görünüşünün eyni adlı detallarına oxşar olanları seçilir. Çox vaxt bu işlə daha ixtisaslı əməkdaşlar məşğul olurlar. Təsviretmə prosesinin özü şəxsin zahiri əlamətlərinin müəyyənləşdirilməsindən, qeydiyyata alınmasından və bu əlamətlərin işə qeyd (əlavə) olunmasından ibarətdir. Bəzi əlamətlər eyni vaxtda müəyyən edilmək məqsədilə işdə şəkil formasında (əldə çəkilmiş) olur.

«Axtarış» və «qeydiyyat» sistemli müvafiq formalara uyğun sənədlərdə məlumatların yığılmasında mütləq əksini tapan bütün əsas zahiri əlamətlər qeydə alınır. Zahiri əlamətlər xəbərsiz itkin düşmüş şəxslərin və naməlum meyitlərin, həmçinin özü haqqında məlumat verə bilməyən vətəndaşların qeydiyyatının əsasını təşkil edir.

RPİ-yə vətəndaşın xəbərsiz itkin düşməsi barədə ərizə daxil olarkən, ilk növbədə növbətçi ərizəçini dindirir və proqramlaşmış şifahi portreti olan ərizə protokolunu doldurur, hansında ki, lazımi terminlərin altından xətt çəkilir ya da ki, ayrı-ayrı terminlər seçilib yazılır və fotoşəkillər götürülərək materiallara əlavə edilir. Sonra şəxsin zahiri görünüşü haqqında məlumatların toplanması davam edir.

Meyitin tanınması barədə məlumat daxil olduqda isə hadisə yerinə əməliyyat qrupu gedir, hadisə yerinin və meyitin baxışını keçirir. Əgər meyitin şəxsiyyəti məlum deyilsə, onda onun zahiri əlamətləri, geyimi dəqiq qeyd edilir və meyitin fotoşəkli çəkilir.

Yuxarıda göstərilәndən belə nəticəyə gəlmək olar ki, «şifahi portret» metodu şəxsiyyətin müəyyən olunmasında bir vasitə kimi DİO-nun əməliyyat-istintaq təcrübəsində geniş tətbiq edilir. Onlardan cinayətkarın axtarılmasında, tutulmasında və xəbərsiz itkin düşmüş şəxslərin axtarılmasında, naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsində, şəxsin fotoşəkillərə əsasən eyniləşdirilməsində, zərər çəkmiş şəxslərin, şahidlərin dindirilməsində, müşahidə və müxtəlif əməliyyat tədbirlərinin aparılmasında istifadə olunur.

Beləliklə, «məlumat-axtarış sistemləri» cinayətlərin qarşısının alınması, xəbərdarlığı və açılmasında tətbiq edilir. Onlar «Axtarış» və «Qeydiyyat» kod sistemi şəklində (DİN-in Baş Əməliyyat Statistik İnformasiya İdarəsinin məlumat mərkəzlərində) aparılır.

## *Mövzu 10:*

## *Kriminalistik fəaliyyətin məlumat-sorğu təminatı (kriminalistik qeydiyyat)*

PLAN:

1. Kriminalistik qeydiyyatın anlayışı, növləri və əhəmiyyəti.
2. Əməliyyat-məlumat qeydiyyatı.
3. Kriminalistik qeydiyyatın aparılması qaydaları və köməkçi məlumat kolleksiyaları.

***Sual 1. Kriminalistik qeydiyyatın anlayışı, növləri və əhəmiyyəti***

Cinayətlərin açılması, araşdırılması və qarşısının alınması məqsədilə cinayətkarlar və cinayətin törədilməsi ilə bağlı hallar haqqında məlumatların toplanması, qeydiyyatı, sistemləşdirilməsi və onlardan daha mütəşəkkil istifadə edilməsi üçün aparılan xüsusi informasiya sisteminə kriminalistik qeydiyyat deyilir.

Kriminalistik qeydiyyatın vəzifəsini cinayətkarlığa qarşı mübarizə təşkil edir. Kriminalistik qeydiyyat materiallarından ayrı-ayrı cinayətlərin açılmasında istintaq orqanları tərəfindən geniş istifadə olunur. Şəxsin keçmiş məhkumluğu və tutulması haqqında, yaxud digər obyektlərin kriminalistik qeydiyyatı haqqında qeydiyyat aparan orqanların verdikləri məlumatlar cinayət işləri üzrə ayrı-ayrı halların müəyyən edilməsində istintaq rokurorluq və məhkəmə orqanlarını qiymətli məlumatlarla təmin edir. Cinayətkarın şəxsiyyətinin müəyyən edilməsində həmin məlumatlar heç də az əhəmiyyət kəsb etmir. Kriminalistik qeydiyyatın məlumatlarının böyük əhəmiyyəti bir də onunla izah olunur ki, bu məlumatlardan ölkəmizdə cinayətkarlığın vəziyyətinin öyrənilməsində də istifadə edilə bilər. Məhz elə bu baxımdan daxili işlər orqanlarının əməkdaşları kriminalistik qeydiyyatın mövcud sistemini yaxşı bilməlidirlər. Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, kriminalistik qeydiyyatın müvəffəqiyyəti qeydiyyata alınan obyektlərin əlamətlərinin nə dərəcədə tam, dəqiq və vaxtında aşkar edilməsindən asılıdır.

Kriminalistik qeydiyyatın aparılması üçün zəruri olan məlumatlar istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilir. Kartotekalara əlavə edilməsi məqsədilə müstəntiq, yaxud əməliyyat işçisi tərəfindən kartoçkalar qeydiyyatı aparan orqanlara

göndərilir. Daha sonra kartoçkalar hər bir qeydiyyat növü üzrə sistemləşdirilərək yerləşdirilir.

Qeydiyyat məlumatlarının sistemləşdirilməsi dedikdə, qeydiyyat kartoçkalarında, fotoşəkillərdə, albomlarda, jurnallarda və ya kolleksiyalarda qeyd olunmuş qeydiyyat məlumatlarının bölüşdürülməsi və yerləşdirilməsi nəzərdə tutulur. Bu zaman qeydiyyata alınmış bu və ya digər obyektlər barəsində dəqiq məlumatı tez əldə etmək mümkün olur.

Cinayətlərin açılmasında və araşdırılmasında müxtəlif obyektlərin axtarılması və eyniləşdirilməsi, onlar barədə kriminalistik məlumatlar əldə edilməsi məsələləri ortaya çıxır.

Bu məlumatların tez və hərtərəfli əldə edilməsi üçün kriminalistik qeydiyyatdan istifadə edilir.

Kriminalistik qeydiyyat elmi əsaslandırılmış sistem olub, obyektlərin eyniləşdirici əlamətlərə görə toplanması, qeyd olunması, axtarılması məqsədi daşıyır.

Qeydiyyat sistemi özü alt sistemlərdən təşkil olunur və bir-birindən fərqləndirici əlamətlərinə görə, toplanma üsuluna və formasına görə fərqlənir.

Kriminalistik qeyd etmə kriminalistik qeydiyyat sistemi kimi cinayətkarlığa qarşı mübarizə aparan xidmətləri lazımi məlumatlarla təmin etmək məqsədi daşıyır. Məsələn, şübhəli şəxs qismində tutulmuş şəxs və ya təqsirləndirilən şəxs barəsində lazım olan məlumatların əldə olunmasında kriminalistik qeydiyyat böyük rol oynayır. Hadisə yerində qalmış izlərə, cinayətin törədilmə üsuluna əsasən cinayətkarın müəyyən olunmasında kriminalistik qeydiyyatdan istifadə olunur. Eləcə də itkin düşənlərin, şəxsiyyəti müəyyən olunmamış meyitlərin, özü barəsində məlumat verə bilməyən xəstələrin şəxsiyyətinin müəyyən edilməsində də kriminalistik qeydiyyatdan istifadə olunur. Bundan başqa,

istintaq prosesində əldə olunmuş əşyaların əvvəllər baş vermiş cinayətlərə aidiyyəti kriminalistik qeydiyyatın köməyi ilə müəyyən edilir. Müxtəlif açılmamış cinayətlərin eyni şəxs tərəfindən və ya eyni üsulla törədildiyini də kriminalistik qeydiyyatdan istifadə etməklə müəyyən etmək olar.

Kriminalistik qeydiyyat müxtəlif obyektlərin axtarılması üçün əlverişli şərait yaradır. Bu isə öz növbəsində hər bir qeydiyyat növü üçün xarakterik əlamətləri müəyyənləşdirir. Bu əlamətlərə obyektin qrup əlamətləri və fərdi əlamətləri daxildir

Kriminalistik qeydiyyatın obyektləri aşağıdakılardır:

1. Cinayətkarlar, təqsirləndirilən və ya cinayətdə iştirak edən şəxslər;
2. İtkin düşmüş şəxslər və meyitlər;
3. Cinayətin törədilməsi vasitələri və qəsdin predmeti (oğurlanmış əşyalar,silahlar və sənədlər);
4. İzlər (məsələn, açılmamış cinayətlərlə bağlı hadisə yerindən götürülmüş əl izləri);
5. Cinayətin izləri qalmış predmetlər (məsələn, güllə və gilizlər);
6. Açılmış və ya açılmamış cinayətlər (xüsusi üsullarla törədilmiş).

Buradan belə nəticəyə gəlmək olar ki, qeydiyyata alınan obyektlərin bir hissəsi açılan cinayətlərlə səbəbli əlaqədədir. Belə obyektlər (məsələn, zorakı ölüm əlamətləri olan meyitlər) sübut əhəmiyyət kəsb edən məlumatların daşıyıcısı olub, konkret cinayət işləri üzrə eyniləşdirmədə istifadə oluna bilər.

Bəzi hallarda obyektlər üzrə toplanmış məlumatlar sübut əhəmiyyəti daşımasa da, istintaqın gedişatını düzgün istiqamətləndirməyə kömək edir.

Kriminalistik qeydiyyat mürəkkəb quruluşa malik olub özündə bir neçə yarım sistemi birləşdirir. O,

kriminalistik qeydiyyatın ayrı-ayrı növlərindən ibarətdir. Kriminalistik qeydiyyatın növləri qeydiyyatın formasına (kartotekalar, albomlar, siyahılar və s.), üsuluna (əlifba, zahiri əlamətlərə görə, cinayətin törədilmə üsuluna, daktiloskopik və s.), informasiyanın hazırlanma və verilmə üsuluna (əl ilə, mexanikləşdirilmiş, avtomatlaşdırılmış) görə fərqlənir.

Kriminalistik qeydiyyat mərkəzdə və yerlərdə aparılır.

Mərkəzləşdirilmiş qeydiyyat DİN Baş Əməliyyat və Statistik İnformasiya və Kriminalistik Tədqiqatlar idarələrində aparılır.

Kriminalistik qeydiyyatın hər bir növünün əsasında məlumatların toplanması, qeydiyyatı, sistemləşdirilməsi, hazırlanması, ötürülməsi, saxlanması və zəruri hallarda hüquq mühafizə orqanlarının təşəbbüsü ilə həmin məlumatın onlara verilməsi ilə bağlı fəaliyyəti dayanır.

Kriminalistik qeydiyyatın aşağıdakı növləri vardır.

1. Əməliyyat-məlumat qeydiyyatı;
2. Kriminalistik qeydiyyat;
3. Köməkçi məlumat kolleksiyaları.

Cinayətkarlığa qarşı mübarizədə kriminalistik qeydiyyatlar çox qədim zamanlardan başlayaraq istifadə olunmuşdur. Bunun üçün əsasən iki üsuldan – damğa vurma və bəzi hissələri kəsməkdən istifadə edilmişdir. Bununla da həm cəza vermə və həm də tanınma həyata keçirilirdi. Fiziki nişanlanma təkcə törədilmiş cinayətin xarakterini deyil, eləcə də həmin şəxs tərəfindən neçə cinayətin törədildiyini göstərirdi. Bəzi ölkələrdə tutulmuş cinayətkar sıraya düzülərək polisə, zərərçəkənə göstərilirdi ki, əvvəllər gördükləri cinayətkarları tanısınlar.

Elmi əsaslandırılmış kriminalistik qeydiyyat XIX əsrin axırlarında təşkil olunmağa başladı. Məsələn, antropometrik (A.Bertilyon, 1882), daktiloskopik

(V.Herşel, F.Qalton,1887-1891) üsulla cinayətkarların qeydiyyatı aparılırdı.

Rusiyada daktiloskopik qeydiyyat 1905-ci ildə həyata keçirilməyə başladı. O zaman bu qeydiyyat cinayətlər və cinayətkarlar alınırdı.

Kriminalistik qeydiyyat bizi əhatə edən aləmin maddi dərk edilməsinə və dialektikanın qanunlarına və nəzəriyyəsinə əsaslanır. Kriminalistik qeydiyyatın inkişafı kriminalistik eyniləşdirmə nəzəriyyəsi ilə izlərin yaranma mexanizminə dair təlimlə, cinayətlərin törədilmə üsulu və kriminalistik əhəmiyyətə malik məlumatların qeyd olunması ilə üzvi surətdə bağlıdır.

Azərbaycan Respublikası DİN-in 30 dekabr 2004-cü il tarixli 536 saylı əmri ilə təsdiq edilmiş əsasnamədə Baş Əməliyyat və Statistik İnformasiya İdarəsində kriminalistik qeydiyyatın aparılması ətraflı şərh olunmuşdur.

Baş Əməliyyat və Statistika İnformasiya idarəsi daktiloskopik qeydiyyatın aparılmasını, əməliyyat, əməliyyat-sorğu, axtarış, statistik və digər məlumatların,hesabatların məlumat blanklarının yaradılmasını, bu blanklardakı məlumatların üzərində iş aparılmasını və onlardan istifadəni,sənədlərin arxivdə saxlanılmasını təşkil edir.

Daktiloskopik qeydiyyatın aparılma qaydaları "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" 22 fevral 2000-ci il tarixli Azərbaycan Respublikasının Qanununda əksini tapmışdır.

Azərbaycan Respublikası DİN-in 16 oktyabr 2001-ci il tarixli 402 saylı əmri ilə təsdiq edilmiş əsasnamədə DİN-nin Kriminalistik Tədqiqatlar İdarəsində hadisə yerlərindən götürülmüş güllə giliz, əl-barmaq izlərindən, eləcə də tədqiqata daxil olmuş saxta pul və digər məlumatlardan ibarət kartotekaların təşkil olunması

həmin idarənin əsas funksiyalarından biri kimi göstərilmişdir.

***Sual 2. Əməliyyat – məlumat qeydiyyatı***

Daxili İşlər Nazirliyinin idarələri (BƏSİİ və KTİ) tərəfindən əlifba və daktiloskopik qeydiyyat kartotekalar formasında aparılır. Əlifba kartoçkaları cinayət törətmiş, məhkum olunmuş, həbs olunmuş və haqqında axtarış elan olunmuş şəxslər, narkomanlar, tiryəkxana saxlayan şəxslərlə bağlı aparılır. Qeydiyyatın bu növünə ağır cinayət törətmiş şəxslərin qeydiyyatı da daxildir.

Onlar haqqında fotoalbomlar, fototekalar və şifahi portret tərtib edilir.

Kriminalistik qeydiyyat törədilmiş cinayətlərin tezliklə açılması, istintaq və əməliyyat-axtarış fərziyyələrinin yoxlanılması, xəbərsiz itkin düşmüş şəxslərin tapılması üçün mühüm rol oynayır. Onun vasitəsilə şübhə edilən və təqsirləndirilən şəxslər haqqında məlumatlar əldə etmək, cinaytəkar qəsdin obyekti olmuş əşyaların axtarıb tapılması, naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi mümkün olur.

Ən çox istifadə olunan soyada (əlifba) görə aparılan əməliyyat-məlumat qeydiyyatıdır. Həmin qeydiyyat üzrə bütün təqsirləndirilən və şübhə edilən şəxslər yoxlanılır. Bu məqsədlə sorğu blankı doldurulur və informasiya mərkəzinə göndərilir. Sorğu yoxlamanın nəticələri ilə bağlı məlumatla birlikdə geri qaytarılır və orada yoxlanılan şəxsin məhkumluğu (CM-in hansı maddəsi ilə), cəzanın müddəti, harada icra edildiyi və ya nə vaxt azad olunduğu, haqqında axtarış elan edilib-edilməməsi (kim tərəfindən, nə vaxt, nə üçün) göstərilir.

Soyada görə aparılan qeydiyyat daktiloskopik qeydiyyatla sıx bağlıdır. Soyad qeydiyyatına götürülən

şəxslər həm də eyni zamanda, daktiloskopik qeydiyyata alınır.

Əlifba qeydiyyatında istiqamətləndirici anket məlumatları əsas götürülür. Qeydiyyat məlumatları mətbəə üsulu ilə hazırlanmış əlifba kartoçkası adlanan kartoçkalarda əks olunur və bunlar kartoçkalarda əlifba qaydasında yerləşdirilir. Əlifba kartoçkasında, qeydə alınan şəxs haqqında demoqrafik məlumatlar, keçmişdə etdiyi cinayətin nədən ibarət olması və xarakteri, məhkumluğu və buna oxşar sair hallar haqqında məlumatlar da əks olunur.

Əlifba kartoçkasının üz tərəfində qeydə alınan şəxsin soyadı, adı, atasının adı (əgər o, soyadını dəyişmişdirsə, keçmiş soyadı), anadan olduğu il, yer, ailə vəziyyəti, xarici görünüşü (şifahi portret), əlamətləri, qeydiyyata alınması üçün əsas verən hallar: Cinayət məcəlləsinin hansı maddəsi, yaxud maddələri üzrə nə vaxt və hansı istintaq orqanı tərəfindən cinayət məsuliyyətinə alınması, ittihamın forması və istintaqın nəticəsi qeyd olunur. Kartoçkanın sağ aşağı küncündə sağ əlin şəhadət barmağının əksi, sağ yuxarı küncündə isə daktiloskopik düstur, qeydə alınan şəxsin əl barmaqlarının papilyar naxışlarının rəqəmlə şərti ifadə olunması, kartoçkanın arxa tərəfində məhkumluğu, cəzanı çəkdiyi yerlər, azad edilməsinin səbəbi və vaxtı haqqında məlumatlar əks etdirilir.

Əlifba kartoçkasına qeydiyyata alınan şəxsin başının yan və üz tərəfdən tanınma metodu ilə çəkilmiş fotoşəkilləri əlavə edilir.

Qeydə alınan şəxsin şəxsiyyətinin müəyyən edilməsində ləqəb üzrə aparılan əlifba qeydiyyatından da istifadə edilir. Bu zaman yoxlanılan şəxs haqqında alınan məlumatlar ləqəb kartoçkalarında qeyd edilir və ləqəb kartoçkaları adlanan kartoçkalarda sistemləşir. Bu növ

qeydiyyat, ləqəbi olan və bu ləqəb ilə cinayətin iştirakçılarına tanınmış olan şəxslər barəsində aparılır.

Əlifba kartoçkasında qeydiyyat aparılan vaxtdan başlayaraq daxil olan bütün yeni məlumatlar xronoloji qaydada qeyd edilir. Kartoçkalarda soyadın, ad və atasının adının birinci hərfinin əlifba sırası üzrə, bu göstəricilər digər şəxsin göstəricilərinə uyğun gəldikdə isə şəxsin anadan olduğu il üzrə sistemləşdirilir. Bunu da qeyd etmək lazımdır ki, əlifba kartoçkasında yoxlama, yalnız yoxlanılan şəxs öz istiqamətverici anket məlumatlarını düzgün verdikdə müsbət nəticə verə bilər. Məhz elə bu səbəbdən yoxlama mənfi nəticə verdikdə (məsələn, yoxlanılan şəxsin əlifba qeydiyyatından keçməsi müəyyən edildikdə) əlifba kartoçkasının yoxlanması ilə kifayətlənmək olmaz. Bu zaman yoxlama daktiloskopik kartoçkalar üzrə də aparılmalıdır. Yoxlanılan şəxs öz istiqamətverici anket məlumatlarını düzgün vermədikdə, uydurulmuş soyad daşıdıqda, yaxud tutulan zaman özünün kim olmasını bildirməkdən imtina etdiyi hallarda da əlifba kartoçkasında yoxlama müsbət nəticələr vermədiyi üçün, yoxlamanın daktiloskopik kartoçkalar üzrə aparılması zəruridir.

Daktiloskopik xəritələr onbarmaq, beşbarmaq və təkbarmaqlı sistemlər üzrə xüsusi qrafalara əlin barmaqlarının və ovucun iç hissəsinin əksləri mətbəə rəngi vasitəsilə köçürülür. Onbarmaq qeydiyyat blankları kartotekalarda əsas və əlavə hissələrdən ibarət olan daktilodüsturlar üzrə düzülür. Daktilodüsturların əsas təyinatı qeydiyyatda olan şəxsin mexaniki üsulla axtarılan zaman həmin axtarışı asanlaşdırmaqdan ibarətdir. Qeydiyyatda olan şəxsin eyniləşdirilməsi isə yalnız papilyar naxışların müqayisəli şəkildə tədqiqatından sonra mümkündür.

“Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında” 22 fevral 2000-ci il tarixdə qanun qəbul edilmişdir. Bu qanuna əsasən Azərbaycan Respublikasında müvafiq daktiloskopik qeydiyyat könüllü və məcburi formada aparılır.

Məcburi dövlət daktiloskopik qeydiyyatı aşağıdakı şəxslərə şamil edilir:

1. Şəxsiyyəti başqa üsullarla müəyyən etmək mümkün deyildirsə, səhhəti və yaşı ilə əlaqədar özləri haqqında məlumat vermək qabiliyyətinə malik olmayan Azərbaycan Respublikası vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə;

2. Cinayət törətməkdə şübhə edilən, cinayət törətməkdə təqsirləndirilən və ya cinayət törətməyə görə məhkum edilən Azərbaycan Respublikası vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə;

3. Müəyyən edilmiş qaydalara əsasən, Azərbaycan Respublikası ərazisindən çıxarılmalı olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə;

4. Azərbaycan Respublikasına sığınacaq axtarmaq üçün gələn, siyasi və ya digər əsaslarla sığınacaq verilməsi, habelə Azərbaycan Respublikasının ərazisində qaçqın statusu əldə edilməsi barədə vəsatət vermiş əcnəbilərə.

Eləcə də bütün tanınmayan meyitlər məcburi dövlət daktiloskopik qeydiyyatından keçirilməlidir.

Könüllü dövlət daktiloskopik qeydiyyatı Azərbaycan Respublikası vətəndaşlarının yazılı ərizələrinə əsasən yaşadıqları yer üzrə müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır.

Fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən Azərbaycan Respublikası vətəndaşlarının, azyaşlıların və yetkinlik yaşına çatmayanların dövlət daktiloskopik qeydiyyatı yazılı ərizə əsasında, onların

valideynlərinin və ya qanuni nümayəndələrinin iştirakı ilə aparılır.

Məcburi daktiloskopik qeydiyyata götürülən şəxslər haqqında məlumatlar, onlar 80 yaşına çatana qədər və ya ölüm faktı müəyyən edilənə qədər, lakin 10 ildən çox olmamaqla saxlanılır.

Cinayət törətməkdə şübhəli olan və cinayət törətməkdə təqsirləndirilən şəxslər haqqında daktiloskopik məlumatlar cinayət işinə xitam verildikdən və ya məhkəmənin bəraət hökmü çıxarıldıqdan sonra 30 gündən gec olmayaraq məhv edilir.

**Zahiri əlamətlərinə görə şəxslərin qeydiyyatı .** Əməliyyat – məlumat qeydiyyatının bu növü fotoalbomlar formasında aparılır. Lakin tədricən bu qeydiyyat vasitələri videobanklar və videotekalar ilə əvəz olunur. Bu videobanklarda və videotekalarda məhkum olunmuş şəxslərin, «qanuni oğruların» və hüquq mühafizə orqanları üçün maraq kəsb edən digər şəxslərin video və fotoəksləri sistemləşdirilir.

Qeydiyyata alınan şəxslərin hər bir qrupu üçün (oğrular, quldurlar və s.) ayrı-ayrı videokasetlər mövcuddur. Qeydiyyatın əsas məqsədi onları zərərçəkmiş şəxslərə və cinayətkarı görən şahidlərə tanınma üçün təqdim etməkdən ibarətdir.

### Əntiq əşyaların və mədəniyyət nümunələrinin qeydiyyatı

Bu qeydiyyat oğurlanmış mədəniyyət nümunələrinin axtarılıb tapılmasına, onların oğurlanması ilə bağlı cinayətlərin istintaqına kömək etmək məqsədilə təşkil olunmuşdur.

Tarixi, bədii və elmi əhəmiyyət kəsb edən oğurlanmış və sonradan aşkar edilmiş arxeoloji və etnoqrafik predmetlərin, bədii əsərlərin, nadir

əlyazmaların, kitabların və s. uçotu bu qeydiyyata daxildir.

**Ümumdövlət səviyyəsində dövriyyədə olan oğurlanmış və götürülmüş sənədlərin, nömrəli predmetlərin qeydiyyatı.** Bu qeydiyyat oğurlanmış və yaxud da qanun əsasında tutulub saxlanmış, həbs edilmiş şəxslərdən götürülmüş, tapılmış və ya könüllü şəkildə verilmiş sənədlərin və əşyaların qeydiyyatını əhatə edir. Həmin sənədlər və əşyalar (məsələn, şəxsiyyət vəsiqəsi, ov tüfəngi və s.) fərdi nömrələrə malik olur.

Axtarışda olan şəxsin və oğurlanmış şəxsiyyət vəsiqəsinin qeydiyyatı avtomatlaşdırılmış formada aprılır. Bu avtomatlaşdırılmış informasiya axtarış sisteminə oğurlanmış və itirilmiş sənədlərin, saxta sənədlərin, haqqında axtarış elan olunmuş şəxslərin, xüsusi təhlükəli cinayətkarların, xəbərsiz itkin düşmüş şəxslərin şəxsiyyət vəsiqələrinin qeydiyyatı aiddir.

**Oğurlanmış və sahibsiz nəqliyyat vasitələrinin qeydiyyatı** Bu qeydiyyatdan axtarış tədbirlərini həyata keçirərkən BDYPİ-nin şöbələrində nəqliyyat vasitələrini qeydiyyata götürərkən istifadə olunur. Axtarışda olan və sahibsiz nəqliyyat vasitələrinin uçotu da avtomatlaşdırılmış formada aparılır. Bu avtomatlaşdırılmış məlumat axtarış sisteminə minik və yük avtomobillərinin, avtobusların qeydiyyatı daxildir.

## *Sual 3. Kriminalistik qeydiyyatın aparılması qaydaları və köməkçi məlumat kolleksiyaları*

Əməliyyat – məlumat qeydiyyatından fərqli olaraq kriminalistik qeydiyyatın formalaşdırılmasında,

məlumatların toplanmasında xüsusi kriminalistik biliklərdən istifadə olunur. Kriminalistik qeydiyyatın formalaşdırılmasının əsas məqsədi cinayətlərin açılmasını, araşdırılmasını və qarşısının alınmasını zəruri informasiya ilə təmin etməkdən ibarətdir.

Kriminalistik qeydiyyatlar adətən, daxili işlər nazirliyinin BƏSİİ və KTİ tərəfindən aparılır. Kriminalistik qeydiyyatlarda cinayətin törədilmə üsulları, xəbərsiz itkin düşmüş şəxslər, naməlum meyitlər, saxta pul əskinasları, izlərin müxtəlif növləri və s. (əl- barmaq, alət və vasitələrinin izləri və s.), poliqrafiya üsulu ilə saxtalaşdırılmış sənədlər, itirilmiş və oğurlanmış odlu silahlar və s. haqqında məlumatlar toplanılır və sistemləşdirilir.

Cinayətin törədilmə üsuluna görə aparılan kriminalistik qeydiyyat törədilmə mexanizminə, üsul və vasitələrində xarakterik sabit əlamətlər müşahidə olunan cinayətlərlə bağlı formalaşdırılır. Bu qeydiyyat subyekti məlum olan və olmayan cinayətlər üzrə aparılır.

**Xəbərsiz itkin düşmüş şəxslərin qeydiyyatı**

Bu qeydiyyat Daxili İşlər Nazirliyinin Baş Əməliyyat-Statistik İnformasiya İdarəsində aparılır. Xəbərsiz itkin düşmüş şəxslərlə bağlı formalaşdırılan kartotekalarda həmin şəxslərin demoqrafik məlumatları, itkin düşdüyü yer, vaxt, zahiri əlamətləri, paltarları, ayaqqabıları öz əksini tapır.

Analoji kartalar tapılması mümkün olmayan meyitlər haqqında da doldurulur. Burada meyitin harada, nə vaxt tapılması, ölümün vaxtı və səbəbləri, anatomik xüsusiyyətlərinin müfəssəl təsviri, xüsusi nişanələri, paltarları və ayaqqabıları, şəxsi predmetləri haqqında məlumatlar göstərilir.

## Açılmamış cinayətlərlə bağlı hadisə yerindən aşkar edilib götürülmüş əl izlərinin qeydiyyatı

Bu növ qeydiyyatlar DİN-in Kriminalistik Tədqiqatlar İdarəsində və cinayət-axtarış şöbələri tərəfindən aparılır. Bu qeydiyyat mühüm kriminalistik əhəmiyyət kəsb edir. Onun vasitəsilə ayrı-ayrı cinayət əməlləri ilə bağlı aşkar edilib götürülmüş əl izlərinin eyni bir şəxsə mənsub olduğunu müəyyən etmək mümkündür.

Saxta pul əskinaslarının qeydiyyatı onların harada və kim tərəfindən hazırlandığını müəyyən etmək məqsədilə aparılır. Əskinasları qeydiyyat üzrə yoxlamazdan əvvəl onların ekspert tədqiqi həyata keçirilir. Saxta əskinaslar müəyyən edildikdə, onun saxtalaşdırılma üsulları, istifadə olunmuş materialların tərkibi və quruluşu müəyyən edilir.

Poliqrafiya üsulu ilə saxtalaşdırılmış kağız pulların qeydiyyatı kimyəvi və fiziki tədqiqatı aparmaq üçün kifayət qədər imkanları olan ekspert idarələri tərəfindən aparılır. Həmin tədqiqatlar vasitəsilə saxta əskinasların, qiymətli kağızların, xarici valyutaların saxtalaşdırılması üsulları və texnologiyasını, bununla məşğul olan şəxsləri müəyyən etmək olar.

Poliqrafiya üsulu ilə saxtalaşdırılmış sənədlərin kriminalistik qeydiyyatı analoji qaydada və eyni məqsədlərlə həyata keçirilir.

## Oğurlanmış, itirilmiş, tapılmış və könüllü təhvil verilmiş odlu silahların qeydiyyatı

Bu növ qeydiyyatlar mərkəzləşdirilmiş qaydada və yerlərdə aparılır. Qeydiyyat kartoçkasında odlu silahın növü, modeli, kalibri, nömrəsi, tapıldığı və təhvil verildiyi göstərilir. Qeydiyyat kartoçkaları kartotekalarda silahların növlərinə görə sistemləşdirilir. Ayrı-ayrı növlərə daxil olan silahların kartoçkaları isə onların sistemi, modeli, seriyası və nömrələri nəzərə alınmaqla düzülür.

Əgər qeydiyyata götürülən silahın nömrələrinin, seriyasının və s. dəyişdirildiyi, məhv edildiyi aşkar edilərsə, onda həmin silah tədqiqat üçün ekspert idarələrinə göndərilir.

## Üzərində odlu silahın izləri qalmış güllə, giliz və patronların, sursatların qeydiyyatı

Bu qeydiyyat DİN-in Kriminalistik Tədqiqatlar İdarəsi tərəfindən aparılır. Bu qeydiyyatın əsas məqsədi bir neçə cinayətin törədilməsində eyni bir silahdan istifadə edilməsi faktını müəyyən etməkdən ibarətdir. Bu qeydiyyata açılmamış cinayətlərlə bağlı hadisə yerindən aşkar edilib götürülmüş güllələrin, gilizlərin və döyüş sursatlarının qeydiyyatı daxildir.

Odlu silahdan atılmış güllələr, gilizlər və patronlar kalibrinə, silahın növünə, üzərindəki yiv izlərinin sayına və istiqamətinə görə sistemləşdirilir.

Odlu silahların tapılması, götürülməsi və könüllü təhvil verilməsi zamanı həmin silahlardan eksperimental atəşlər açılır, güllələr, gilizlər və patronlar müqayisə yolu ilə qeydiyyat üzrə yoxlanılır.

## Köməkçi məlumat kolleksiyaları

Eyniləşdirici və köməkçi əhəmiyyət kəsb edən informasiyaların toplanması və ötürülməsinin kriminalistik kolleksiyalarda müxtəlif növ sistemləri mövcuddur. Bu kolleksiyalardan əvvəllər tədris-metodik və əyani vəsait məqsədilə istifadə edilirdi. Lakin onlar tədricən birləşdirilərək təcrübi kriminalistik məqsədlərlə istifadə edilən köməkçi informasiya sistemi yaradılmışdır. Respublika DİN-in Kriminalistik Tədqiqatlar İdarəsində üzərində odlu silah izləri olan atılmış güllə və gilizlərin kolleksiyası vardır. Həmin kolleksiyalarda açılmamış cinayətlərlə bağlı hamar lüləli ov silahlarından və yivli

silahlardan atılmış, aşkar edilib götürülmüş güllələr və gilizlər saxlanılır. Bu kolleksiya bir neçə cinayətin eyni bir silahdan istifadə etməklə törədildiyini müəyyən etməyə imkan verir. Həmin kolleksiya vasitəsilə həm də müsadirə olunmuş, tapılmış və könüllü təhvil verilmiş silahlar eyniləşdirilərək, onların törədilmiş cinayətlə əlaqəsi olub-olmadığı müəyyən edilir. Qeyd etdiyimiz kolleksiyalarla yanaşı, kriminalistik qeydiyyat sistemində cinayət ilə bağlı hər hansı bir məlumatı əks etdirən obyektlərin kolleksiyaları mövcuddur.

Bu məlumat kolleksiyaları müxtəlif növ məlumatların natural nümunələrindən ibarətdir (kağız, qıfıl, soyuq silah və digər məlumatlar). Hal-hazırda cinayət aləti qismində istifadə edilən alətlərin, metal kəsiklərinin, lifli materialların, narkotik vasitələrin, güclü təsir edən maddələrin və s. məmulatların kolleksiyaları mövcuddur. Onlar əsasən DİN-in Kriminalistik Tədqiqatlar İdarəsində yerləşdirilir.

Belə kolleksiyalar təkcə obyektlərin natural nümunələrindən deyil, həmçinin onların şəkillərindən, surətlərindən və s. ibarət ola bilər.

Natural kolleksiyaların təşkili müasir elmi əsaslarla aparılır. Sorğulara avtomatik şəkildə cavab verən, müasir texnologiya ilə təchiz olunmuş bir sıra informasiya sistemləri vardır. Buna misal olaraq “Marka” (lak, boya və örtüklərin nümunələri) və “lif materialları” AİAS-i (Avtomatlaşdırılmış İnformasiya Axtarış Sistemləri) göstərmək olar. Analoji sistemlər narkotik və partlayıcı maddələr üzrə təşkil olunmuşdur.

Geniş yayılmış avtomatlaşdırılmış qeydiyyat sistemlərindən biri də daktiloskopik məlumatların toplanmasını, saxlanmasını və tez yoxlanmasını təmin edən avtomatlaşdırılmış daktiloskopik məlumat sistemləridir. Bu sistem çərçivəsində daktiloskopiya

üsulundan fərqli olaraq (mətbəə boyası ilə barmaqların rənglənməsi və s.) tutulub saxlanmış şəxslərin skaner vasitəsilə qısa zaman kəsiyi ərzində "canlı" daktiloskopiyası həyata keçirilir. Tez bir zamanda əl izləri yüksək keyfiyyətlə avtomatlaşdırılmış daktiloskopik məlumat sisteminin kompüterinə ötürülür.

Buradan belə nəticəyə gəlmək olar ki, DİO-nun əməkdaşları istənilən anda kriminalistik qeydiyyatın köməkliyi ilə iş üçün lazım olam məlumatları əldə edə bilərlər. Məsələn, yoxlanılan şəxsin məhkumluğunu, daktiloskopik qeydiyyatda olub-olmamasını müəyyənləşdirmək olar.

## *Mövzu № 11*
## *«Kriminalistik taktikanın əsasları»*

PLAN:

1. Kriminalistik taktikanın anlayışı, mahiyyəti və digər elmlərlə əlaqəsi.
2. Kriminalistik taktikanın sistemi və vəzifələri.
3. Kriminalistik taktikanın struktur elementləri, onlardan cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında istifadə edilməsi.

### *Sual 1. Kriminalistik taktikanın anlayışı, mahiyyəti və digər elmlərlə əlaqəsi*

Ümumiyyətlə «taktika» sözü mövcud şəraiti, əks tərəfin imkanlarını, onun hərəkətlərini və xüsusiyyətlərini, həmçinin özünün şəxsi imkanlarını nəzərə almaqla mübarizə aparmaq və qalib gəlmək bacarığıdır.

«Taktika» sözü hərbi termindən kriminalistika elminə keçən sözdür. Hərbi elmdə yunanca «taktika» - «qoşunu təşkil etmək məharəti» deməkdir. Kriminalistika elminə şərti olaraq keçəndə isə o «istintaq fəaliyyətinin təşkili məharəti» mənasını verir.

Kriminalistik taktikanın kriminalistika elminin xüsusi sahələrindən biri olması haqqında fikir ilk dəfə alman alimi A.Veynqart tərəfindən XX əsrin əvvəllərində Cinayət taktikası kitabında işlədilmişdir.

Kriminalistik taktika – cinayətkar fəaliyyətin və onun araşdırılması ilə məşğul olan kriminalistik fəaliyyətin taktiki aspektlərindən bəhs edir.

Kriminalistik taktika – kriminalistikanın bir bölməsi olub, kriminalistik fəaliyyətin taktiki yanaşma tələb edən bütün növlərinə aid olan ümumnəzəri müddəalarla və təcrübi tövsiyələri əks etdirir.

Kriminalistik taktika – cinayətlərin açılması, istintaqı və qarşısının alınması üçün səmərəli üsullar sistemi olmaqla bərabər, o həm də təcrübi üsul və metodlar işlənib hazırlanması üçün nəzəri əsasları yaradan elmi müddəalar sistemidir.

İstintaq zamanı işdə maraqlı olan şəxslərin əks hərəkətlərini aradan qaldırmaq üçün müstəntiq

kriminalistik taktikanın hazırladığı taktiki üsullara əl atır. Bu məqsədə nail olmaq üçün kriminalistikanın, məntiqin, psixologiyanın, etikanın, idarəetmə elminin müddəaları əsasında işlənib hazırlanmış xüsusi metodlar böyük əhəmiyyət kəsb edir.

Kriminalistik taktika tələb edir ki, müstəntiq öz işini yüksək səviyyədə təşkil etsin, mövcud imkanlardan bacarıqla istifadə etsin. Bu isə o vaxt mümkündür ki, o, işini düzgün planlaşdırsın, nəticələri düzgün proqnozlaşdırsın.

Bu məqsədlə taktiki üsulların hazırlanmasına, əməyin, elmin təşkili (ƏET), idarəetmə, sosiologiya, kibernetika kimi elm sahələrindən istifadə edilir. Eyni zamanda həmin məqsədlə yəni istintaq təcrübəsinin mumiləşdirilməsindən də geniş istifadə edilir. Müstəntiqin bu və ya digər cinayət işi üzrə bacarıqla istifadə etdiyi hər hansı bir səmərəli taktiki üsul ümumiləşdirilərək istifadəyə verilir. Beləliklə, istintaq taktikası günü-gündən inkişaf edərək təkmilləşir.

**Kriminalistik taktika** – kriminalistikanın müstəqil bir sahəsi olub, cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında iştirak edən şəxslərin davranışlarının qanunauyğunluqlarını sistemli şəkildə əks

etdirən ümumi müddəalar sistemidir ki, onların da əsasında tipik və konkret istintaq şəraitlərində ayrı-ayrı istintaq hərəkətlərinin, taktiki əməliyyatların həyata keçirilməsinin ən optimal variantları haqqında xüsusi elmi-təcrübi təkliflər və tövsiyyələr işlənib hazırlanır.

Cinayətlərin istintaqının aparılmasında ən optimal fəndlər və üsullar sistemi olan kriminalistik taktikanın inkişafının əsasını məhkəmə icraatının forma və qaydalarını tənzimləyən cinayət-prosessual hüququ təşkil edir.

Kriminalistik taktika cinayət prosesi ilə sıx bağlıdır. Belə ki, təcrübədə özünü təsdiq etmiş bu və ya digər taktiki üsul sonradan cinayət-prosessual hüququn normasına çevrilir. Məsələn, istintaq eksperimenti (maddə 262), şəxsin tanınması (maddə 239) və istintaq hərəkətləri içərisinə ən sonuncu daxil olmuş, 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikası CPM-nin 260-cı maddəsində nəzərdə tutulmuş «ifadələrin yerində yoxlanılması» istintaq hərəkətini göstərmək olar.

Kriminalistik taktika kriminalistikanın bütün bölmələri ilə sıx əlaqədədir. Kriminalistik taktikanın ümumi müddəaları kriminalistikanın nəzəri və metodoloji müddəalarına əsaslanır.

Kriminalistik metodologiyanın əsasını isə dialektik metod təşkil edir. Kriminalistik taktikada həmçinin fəlsəfənin müddəalarından istifadə edilir. Məsələn, tanınma istintaq hərəkətində görmə, dərketmə, yadda saxlama, ifadə etmə və s. fəlsəfi müddəalardan istifadə edilir.

Kriminalistik taktikada istintaq hərəkətləri onların məntiqi-informasiya quruluşu baxımdan öyrənilir, onların mərhələləri və hər bir mərhələnin qarşısında duran vəzifələr və onların həlli yolları müəyyən edilir.

Modelləşdirmə, fərziyyələrin qurulması və yoxlanılması kimi dərketmə metodları kriminalistik taktikada kriminalistik fəaliyyətin təşkilində və planlaşdırılmasında tətbiq edilir.

Cinayətlərin istintaqı zamanı ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsində texniki vasitələrdən geniş istifadə olunur. Bu zaman alətlər, texniki vasitələr, qurğular insan əlinin və hissiyyat orqanlarının «davamçısı» rolunu oynayır (lupa, mikroskop və s.).

Digər tərəfdən taktiki vəzifələrin həlli, onun texniki cəhətdən necə təmin olunmasından asılı olur. Sonuncu isə öz növbəsində istintaq hərəkətlərinin taktiki tərəfini müəyyən edir.

Kriminalistik taktika ayrı-ayrı cinayətlərin istintaq metodikası ilə sıx əlaqədə olur. Texnika və taktika öz-özlüyündə ümumi anlayışlardır. Yalnız konkret cinayət işinin istintaqı zamanı texniki və taktiki üsullar, metodlar öz təcrübi tətbiqini tapır.

Kriminalistik taktika məntiq elmi ilə əlaqəlidir. O, müstəntiqin əqli fəaliyyətində məntiqi üsullar formasında öz əksini tapır. Bunlar fərziyyələrin qurulmasında, yoxlanılmasında, modelləşdirilməsində kriminalistik məlumatların təhlili və sintezi, induksiya və deduksiyasında istifadə olunur.

Kriminalistik taktika psixologiya elmindən taktiki üsul və təkliflərin hazırlanmasında geniş istifadə edir. Hər an istintaq hərəkətlərində (məsələn, axtarış zamanı ev sahibinin sifətinin dəyişməsinə, qızarmasına diqqət yetirmək) psixoloji an nəzərə alınır.

Kriminalistik taktikanın müddəaları etikanın normalarından istifadə etməklə hazırlanır. O həm də əxlaq normalarına uyğunlaşdırılır (məsələn, müstəntiq dindirilən şəxsi aldatmamalıdır).

Kriminalistik taktika kriminalistikanın sərbəst bölməsi olmaqla yanaşı, kriminalistikanın digər bölmələri ilə sıx əlaqəlidir. Əvvəla o, ümumi kriminalistika

nəzəriyyəsinə istinad edir və xüsusi kriminalistik nəzəriyyələrdən istifadə edir, məsələn: kriminalistik fərziyyələr haqqında təlimdən, axtarış haqqında kriminalistik təlimdən və s. Hər hansı istintaq hərəkətinin aparılma taktikası hazırlanarkən, söz yox ki, həmin hərəkətin aparılmasında texniki-kriminalistik vasitə və üsullardan istifadə edilməsini nəzərə almamaq mümkün deyil. Məsələn: mikroizlərin və mikrohissəciklərin aşkar edilməsi və tədqiq edilməsi üçün yeni texniki vasitələrin hazırlanması baxışın və şəxsi müayinə taktikasını dəyişdi. Eləcə də, bütün cinayətlərin istintaqında istintaq hərəkətlərinin aparılmasında istifadə etmək üçün taktiki fəndlər hazırlanarkən ayrı-ayrılıqda hər bir cinayətin istintaqının xüsusi metodikasının spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, qaçaqmalçılıq cinayətlərinin istintaq metodikası hazırlanarkən baxışın, şəxsi müayinənin, gömrük baxışının, axtarışın, ekspertizanın taktiki fəndləri nəzərə alınmaqla, yeni analitik metodların hazırlanmasını tələb edir.

***Sual 2.Kriminalistik taktikanın sistemi və vəzifələri***

Kriminalistik taktikanın sisteminə bir-biri ilə qarşılıqlı əlaqədə olan, onun ümumi və xüsusi müddəaları daxildir

## I. Kriminalistik taktikanın ümumi müddəaları

Ümumi müddəalar bu hissənin elmi mahiyyətini və istintaq fəaliyyətinin təşkilini özündə əks etdirən kriminalistik taktikanın elmi əsasıdır.

Bu hissədə aşağıdakılar müəyyən edilir:

1. Kriminalistik taktikanın anlayışı, məzmunu, mahiyyəti və tərkibi;
2. Kriminalistik taktikanın mənbələri;
3. Kriminalistik taktikanın kriminalistika elminin digər hissələri ilə və başqa elmlərlə əlaqəsi;
4. Taktiki üsul, taktiki qərar, taktiki kombinasiyanın və taktiki əməliyyatın mahiyyəti, onlardan cinayətlərin istintaqında düzgün istifadə edilməsi;
5. İstintaq şəraitinin anlayışı və onun təsnifi;
6. Kriminalistik fərziyyələr, onların təsnifatı, qurulması və yoxlanılması qaydaları;
7. İstintaqın planlaşdırılmasının əsas prinsipləri;
8. Kriminalistik taktikanın cinayətlərin açılması və istintaqı təcrübəsi ilə əlaqəsi;
9. İstintaq orqanları ilə təhqiqat orqanları arasında qarşılıqlı əlaqənin prinsipləri;
10. Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş məlumatlarından istifadə edilməsi;

11. İstintaqın maddi və təşkilati təminatı;
12. Cinayətlərin açılmasında və istintaqında texniki-kriminalistik vasitələrdən, kompüter texnologiyasından və xüsusi biliklərdən istifadə olunması;
13. Cinayətlərin baş verməsinin səbəb və şəraitini müəyyən edib onların aradan qaldırması ilə bağlı tədbirlərin görülməsi;
14. İctimaiyyətin köməyindən istifadə edilməsi.

**II. Kriminalistik taktikanın - xüsusi müddəaları** ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin taktikasına həsr edilmişdir. Kriminalistik taktikanın bu hissəsi cinayətlərin istintaqı və məhkəmə istintaqı prosesində müstəntiq və məhkəmə hərəkətlərinə hazırlıq və onların aparılmasına dair elmi biliklər sistemidir. Bu hissədə aşağıdakılar müəyyən edilir:

1. İstintaq baxışı və şəxsi müayinənin taktikası;
2. Dindirmə və üzləşdirmənin taktikası;
3. Axtarış taktikası;
4. Tutulma və həbsin taktikası;
5. Tanınma taktikası;
6. İstintaq eksperimenti taktikası;
7. İfadələrin yoxlanılması və dəqiqləşdirilməsi taktikası;
8. Ekspertizanın təyin edilməsi və aparılması taktikası;

9. Axtarış tədbirləri taktikası;

10. Məhkəmə dindirməsi taktikası;

11. Məhkəmə baxışı taktikası;

12. İfadələrin yerində məhkəmə yoxlanması taktikası və s.

İstintaq və məhkəmə hərəkətlərinin taktikası aşağıdakı mərhələlərdən ibarətdir:

1. İstintaq və məhkəmə hərəkətlərinin aparılmasına hazırlıq – bu mərhələdə məqsəd və vəzifə formalaşır, hərəkətin yeri, vaxtı, iştirakçıların dairəsi müəyyənləşir, istintaq-əməliyyat qrupu formalaşır, texniki-kriminalistik vasitələr seçilir, əməliyyat-axtarış tədbirlərinin forması və keçirilmə hədləri müəyyənləşdirilir, istintaq hərəkətlərinin planı tərtib edilir;

2. İstintaq və məhkəmə hərəkətlərinin aparılması – nəzərdə tutulan planla həyata keçirilir, müstəntiq və ya məhkəmənin qarşısında duran vəzifələr icra olunur. Bu mərhələdə irəli sürülən fərziyyələr yoxlanılır.

İstintaq prosesində aparılan istintaq hərəkətləri aparılması vaxtına görə ilkin və sonrakı istintaq hərəkətlərinə bölünür.

İlkin istintaq hərəkətləri cinayət işi başlanan andan həyata keçirilərək aşaöıdakılara xidmət edir:

- istintaq edilən cinayət hadisəsi şəraitində müstəntiqin düzgün səmtləşməsinə, cinayətin törədilmə mexanizmi və onun nəticələrinə dair düzgün təsəvvürün yaradılmasına;

- cinayətin «isti izlərlə» açılmasının, cinayətkarın yerinin müəyyən edilməsi və onun axtarışına dair məlumatların əldə edilməsinə;

- obyektiv və subyektiv amillərdən məhvolma təhlükəsi olan sübutların yığılmasına;

- sübutetmə predmetini əhatə edən istintaq fərziyyələrinin qurulması üçün ilkin məlumatların əldə edilməsinə.

Sonrakı istintaq hərəkətləri isə – ilkin mərhələdə yığılmış sübutların tədqiq edilməsinə, qiymətləndirilməsinə və istifadə edilməsinə, fərziyyələrin ətraflı yoxlanmasına, eləjə də cinayətin törədilməsinə və gizlədilməsinə kömək edən səbəb və şəraitin müəyyən edilməsinə xidmət edir.

3. İstintaq hərəkətinin aparılmasının və nəticəsinin qeyd olunması mərhələsinin mahiyyəti alınmış məlumatların prosessual qaydaya müvafiq olaraq düzgün rəsmiləşdirilməsindən ibarətdir. Bu mərhələnin vəzifəsi aparılan istintaq hərəkətinin və onun nəticəsinin

maksimum tam və düzgün əks olunmasıdır. Bu mərhələ sənədləşmə ilə başa çatır, müvafiq prosessual sənəd tərtib edilir ki, o da sübut mənbəyi hesab edilir.

Bu mərhələdə sübutedici əhəmiyyətə malik olan izlər və əşyalar götürülür və qablaşdırılır, protokol tərtib edilir və ona müxtəlif əlavələr – plan, sxem, fotocədvəl və s. əlavə edilir.

4. Alınmış nəticələrin qiymətləndirilməsi və onların əhəmiyyətinin müəyyən edilməsi – istintaq və məhkəmə hərəkətlərinin sonuncu mərhələsidir.

İstənilən istintaq hərəkətinin səmərəliliyini artırmaq üçün ümumi taktiki müddəalar aşağıdakılardır:

1. Sistemlilik (istintaq hərəkətinin digər istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri ilə əlaqəli sistemdə keçirilməsi);

2. İstintaq hərəkətinin aparılması – münasib vaxtın və yerin seçilməsi;

3. Müstəntiqin tədqiqat obyektində və müxtəlif şəraitlərdə düzgün səmtləşməsi, aparılan hərəkətlərin mahiyyətini düzgün bilməsi;

4. İstintaq hərəkətlərində istifadə ediləcək taktiki üsulları seçmək üçün kriminalistik xarakteristikanın və istintaq şəraitinin məlumatlarından istifadə edilməsi;

5. Təhqiqat orqanından, ictimaiyyətin köməyindən və kütləvi informasiya vasitələrindən məqsədyönlü istifadə edilməsi;

6. Xüsusi biliklərdən və texniki-kriminalistik vasitələrdən geniş istifadə etmək;

7. Tədqiqat obyektlərinin saxlanması və onların əsillərinin qorunmasının təmin olunması. Bu mərhələdə alınmış sübutedici məlumatların mötəbərliyinin yoxlanılması, onun sübut kimi əhəmiyyətinin və ondan sübutetmə prosesində necə istifadə olunması yolları müəyyən edilir. Məhz bu mərhələdə buraxılmış səhvlər aşkar edilir, təkrar istintaq və ya məhkəmə hərəkətinin keçirilməsinin məqsədəmüvafiqliyi məsələsi həll olunur.

**Kriminalistik taktikanın əsas vəzifələri**

Kriminalistik taktikanın əsas vəzifələri bunlardır:

1. İstintaq fərziyyələrinin qurulmasına və yoxlanılmasına, istintaqın təşkili və planlaşdırılmasına yönəlmiş yeni tövsiyələr hazırlamaq;

2. Ayrı-ayrı istintaq və məhkəmə hərəkətlərinin təşkili və keçirilməsi, eləcə də taktiki kombinasiya və əməliyyatların qurulması üçün taktiki fəndlər hazırlamaq;

3. Müstəntiqi əməliyyat-axtarış fəaliyyəti orqanlarının əməkdaşları ilə yeni qarşılıqlı əlaqə formalarını axtarmaq;

4. İstintaq və məhkəmə hərəkətlərində xüsusi biliklərdən səmərəli istifadə edilməsinə yönəldilmiş tövsiyələr hazırlamaq;

***Sual 3. Kriminalistik taktikanın struktur elementləri, onlardan cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında istifadə edilməsi.***

Kriminalistik taktikanın struktur elementləri aşağıdakılardır:

1. Taktiki üsul;
2. Taktiki kombinasiya;
3. Taktiki təklif;
4. Taktiki qərar;
5. İstintaq şəraiti;
6. Taktiki əməliyyat;
7. Taktiki vəzifə;

**Taktiki üsul**. Kriminalistik taktikanın əsasını taktiki üsul təşkil edir.

Taktiki üsul istintaqı aparan şəxsin müəyyən şəraitdə cinayətlərin istintaqı ilə bağlı vəzifələrin həll

edilməsini təmin edən ən səmərəli hərəkət üsulu və ya davranış xəttidir. Məsələn, istintaqın planlaşdırılmasının, hadisə yerinə baxışın, dindirmənin üsulları və s.

**Taktiki üsul aşağıdakı hallarda tətbiq olunur:**

a) ümumi istintaq hərəkətlərinin aparılması üçün (baxışın, axtarışın, istintaq eksperimentinin üsulları);

b) konkret istintaq hərəkət növü üçün (yalan ifadə verən təqisrləndirilən şəxsin dindirilmə üsulu);

c) istintaq hərəkətinin bir mərhələsi üçün (hazırlıq, işçi, qeyd edilmə).

Taktiki üsulun mahiyyəti ayrı-ayrı istintaq hərəkətlərinin səmərəli həyata keçirilməsindən ibarətdir.

İstintaq zamanı istifadə olunan üsullar olduqca çoxdur (onların siyahısı tərtib edilənə qədər bəziləri artıq köhnəlmiş olar).

Məhkəmə icraatında istifadə olunan taktiki üsullara qoyulan tələblər bunlardır:

- qanunçuluq prinsiplərinə uyğunluğu;
- elmi cəhətdən əsaslı olması;
- mənəvi-etik normalara zidd olmaması;
- səmərəlilik;
- mümkünlük;
- məqsədəmüvafiqlik.

Taktiki üsul həm də sistemli quruluşa malik olmaqla məcburi xarakterli deyil, tövsiyyə xarakterlidir. İstintaq şəraitindən asılı olaraq müstəntiqin iradəsi ilə seçilir. Qanuna, etik və əxlaqi prinsiplərə zidd olan, vətəndaşların həyat və sağlamlığı üçün təhlükə yaradan, onların şərəf və ləyaqətinə toxunan üsulların tətbiqi qadağan edilir.

**Taktiki kombinasiya**. Hər bir istintaq hərəkəti bir taktiki üsul vasitəsi ilə deyil, taktiki kombinasiya adlanan bir neçə qarşılıqlı əlaqədə olan taktiki üsullar vasitəsi ilə həyata keçirilir. Müəyyən şəraitdə istintaqın qarşısında duran taktiki vəzifəni həll etmək məqsədilə bir və ya bir neçə müxtəlif istintaq hərəkətləri çərçivəsində taktiki üsulların qarşılıqlı əlaqədə birləşdirilməsinə taktiki kombinasiya deyilir.

Əgər istintaqın qarşısında duran taktiki vəzifəni həll etmək üçün istintaq hərəkətləri ilə yanaşı, əməliyyat-axtarış və təşkilati-texniki tədbirlərin həyata keçirilməsi zərurəti yaranarsa, onda **taktiki əməliyyat** hazırlanır. Taktiki əməliyyat zamanı müəyyən istintaq şəraitində əvvəl tərtib edilmiş plan əsasında istintaq hərəkətləri və qeyd edilən tədbirlər ümumi məqsəd naminə

birləşdirilərək, vahid rəhbərlik altında əlaqəli şəkildə həyata keçirilir.

Taktiki əməliyyatın köməyi ilə bir-biri ilə əlaqədə olan bir neçə taktiki vəzifəni həll etmək mümkündür. Özü də bunu cinayət işi başlanana qədər keçirmək mümkündür. Məsələn, şəxsin tutulması ilə əlaqədar keçirlən taktiki əməliyyat zamanı mürəkkəb kompleks şəkildə müxtəlif tədbirlər hazırlanır. Bu istər cinayətkarın şəxsiyyətinin öyrənilməsi, istərsə də onun tutulacağı yerdə aparılan bir sıra tədbirlər hazırlanarkən tətbiq edilir.

Taktiki üsulların, kombinasiyaların və əməliyyatların seçilməsi və tətbiqi **taktiki təkliflər** əsasında aparılır. Bunun üçün elmi əsaslandırılmış, təcrübədə sınaqdan çıxarılmış ən optimal variantda hərəkətlər təklif olunur.

Bu taktiki təkliflər isə ibtidai istintaq və məhkəmə baxışı zamanı **taktiki qərar** vasitəsilə realizə olunur.

Taktiki qərar – məqsədin seçilməsi və istintaq şəraitinə bütünlükdə və ya onun ayrı-ayrı komponentlərinə taktiki təsir göstərməklə istintaqın gedişinə və onun nəticələrinə təsir göstərmək, eləcə də həmin məqsəd üçün metodların, üsulların və vasitələrin seçilməsidir.

Düzgün taktiki qərarın seçilməsi bir çox amilləri nəzərə almaqla ən optimal variantlı hərəkətin seçilməsidir. Çox vaxt bunu naməlum şəraitdə, yəni taktiki risk şəraitində etmək lazım gəlir. Taktiki riskdən təcrübi olaraq qaçmaq mümkün deyil. Yəni, bu real deyil. Amma elə strategiya seçmək lazımdır ki, taktiki risk minimum dərəcədə olsun. Bunun üçün seçilən taktiki qərarın mənfi nəticəsini əvvəlcədən görməli, əvvəlcədən həmin nəticələri aradan qaldırmaq və zəiflətmək barədə tədbirlər düşünmək, taktiki riski minimuma endirmək lazımdır.

Bu və ya digər taktiki üsulun tətbiq edilməsi bütünlükdə istintaqın və ya ayrı-ayrı istintaq hərəkətlərinin həyata keçirildiyi istintaq şəraitindən asılı olur.

İstintaqın aparılması həmişə dəyişən şəraitdə cərəyan edir. Hər dəfə qərar çıxaranda cinayət işi üzrə toplanmış sübutlara nəzər salınır və həmin anda istintaqın vəziyyətinə qiymət verilir. Bu vəziyyətə elə **istintaq şəraiti** də deyilir. Başqa sözlə, istintaq şəraiti - nəzərə alınmalı vəziyyətləri, sübutları, məqamları birləşdirir. Amma elə sübutları, vəziyyətləri, məqamları birləşdirir ki, onlar cinayət işi üzrə istintaq qərarının qəbul edilməsi üçün vacibdir.

Cinayətin istintaqının cinayət hadisəsi, cinayətkar, cinayət prosesinin iştirakçılarının hərəkətləri, obyektiv və subyektiv amillər barədə məlumatların həcmi və məzmunundan asılı olması, kriminalistikada istintaqın şəraitliliyi adlanır.

Şəraitdən asılı olaraq istintaq etmə o deməkdir ki, istintaq prosesində dəfələrlə müəyyən edilməlidir ki, istintaqın bu istintaq şəraitindən asılı olaraq müstəntiq istintaqın bu və ya digər mərhələsindəqarşıda duran vəzifələri müəyyənləşdirir.

Müstəntiq müəyyən aralıq məqsədə çatmaq üçün hansı vasitə və metodlardan istifadə etmək, məqsədəmüvafiq geyim müəyyən etməlidir. Həmçinin istintaq şəraitinin dəyişməsi ilə əlaqədar mövcud vəziyyəti qiymətləndirilməli və yalnız bunun əsasında düzgün texniki vasitə, taktiki metod və üsullar seçilməlidir.

İstintaq şəraiti istintaq qərarlarının çıxarılması üçün əsasdır və bunsuz istintaq aparmaq mümkün deyildir. İstintaq şəraiti obyektiv kateqoriya olub, əşyalarla hadisələr arasında müvəqqəti real münasibətdir. İstintaq şəraiti istintaqın davamının başlanğıcıdır.

**İstintaq şəraiti** – müəyyən anda cinayət işinin istintaq prosesinin vəziyyətidir. Başqa sözlə, istintaq

şəraiti – hazırki anda istintaqın aparılmasını şərtləndirən şəraitlərin məcmusudur. Müstəntiq istintaq şəraitini nəzərə alaraq, düzgün qərar qəbul edir və lazım olan taktiki üsulları tətbiq edir.

İstintaq şəraitinin formalaşmasına obyektiv və subyektiv amillər təsir edir.

**Obyektiv amillər**

- cinayətin törədilmə vaxtı, yeri və üsulu;
- cinayət əməli nəticəsində ətraf mühitdə baş verən dəyişikliklər;
- cinayət izlərinin saxlanması və tədqiqinin mümkünlüyü (məsələn, qar üzərində);
- sübutedici məlumatların həcmi və tərkibi;
- sübut mənbələri haqqında məlumatların mövcudluğu və həcmi;
- istintaq orqanının texniki təminatı, əlavə güc və vasitələrin cəlb edilməsinin mümkünlüyü;
- müstəntiqin təhqiqat orqanı və digər əməliyyat aparatları ilə qarşılıqlı əlaqəsinin səviyyəsi;
- cinayətin törədilmə anından keçən vaxt və müstəntiqin qərar qəbul edib icra etməsi üçün sərəncamında olan vaxtı və imkanı;

**Subyektiv amillər**

- cinayətkarın həyat təcrübəsi və şəxsi keyfiyyətləri;

- cinayətkarın (təqsirləndirilən şəxs və ya şübhəli şəxsin) istintaq orqanına münasibəti;

- cinayətkarın və digər maraqlı şəxslərin müstəntiqin hansı sübutlara malik olmasından məlumat alması;

- işdə maraqlı şəxslərin əks fəaliyyətlərinin intensivliyi (münaqişələr);

- zərər çəkmişlərin və şahidlərin istintaqa münasibətləri;

- müstəntiqin şəxsi keyfiyyətləri və həyat təcrübəsi.

## *Mövzu № 12.*

## *«Kriminalistik fərziyyələr və kriminalistik fəaliyyətin plan–təşkilatı təminatının əsasları.*

PLAN:

1.Kriminalistik fərziyyələrin anlayışı, növləri və mahiyyəti.
2.Kriminalistik fərziyyələrin qurulması və yoxlanması.
3.İstintaqın təşkili və planlaşdırılmasının mahiyyəti və prinsipləri.
4.Planlaşdırma elementlərinin ardıcıllığı və onunun forması

### *SUAL 1.Kriminalistik fərziyyələrin anlayışı, növləri və mahiyyəti.*

İstintaq və məhkəmə orqanlarının cinayət işi üzrə həqiqətin müəyyən edilməsinə dair fəaliyyəti keçmişdə baş vermiş hadisələrə, faktlara və hallara yönəlmiş olur. Belə ki, müstəntiq, təhqiqat aparan şəxs, yaxud məhkəmə həmin hadisələrin bilavasitə iştirakçısı olmurlar. Ona görə də cinayət təqibi üzrə istintaq aparan müstəntiqin fəaliyyəti bilavasitə özünün müşahidə etmədiyi halların tədqiqinə yönəlir. Bu halların da müəyyən edilməsi cinayətin maddi izləri və cinayət

hadisəsi ilə əlaqədar olan halları müşahidə etmiş şəxslərin məlumatları vasitəsilə mümkündür. Baş vermiş cinayət hadisəsini birbaşa müşahidə etmək mümkün olmadığı üçün onun tam və hərtərəfli açılması, cinayətkarın ifşa olunub cəzalandırılması çoxmənalı mürəkkəb bir proses olub, artıq «keçmişə» çevrilmiş hadisələrin öyrənilməsi ilə bağlıdır. Əgər müstəntiq baş vermiş cinayət hadisəsini birbaşa müşahidə etmişsə, o, bu zaman şahid kimi çıxış etmiş olur. Beləliklə, cinayətin istintaqını həyata keçirən şəxs yalnız cinayət hadisəsinin ətraf maddi aləmdə və hadisənin şahidi olmuş insanların şüurunda qoyduğu müxtəlif izlərlə «ünsiyyətdə» olmaq imkanına malik olur. Cinayət hadisəsinin istintaqı dərketmə fəaliyyətinin bir növü olub mürəkkəb dialektik prosesdir. Hər bir dərketmə fəaliyyətində olduğu kimi, istintaq da həmin dərketmə fəaliyyətinin bir növü olub, yalnız faktların konstatasiyasından ibarət deyil, cinayət işi üzrə obyektiv həqiqəti müəyyən etməkdən ibarətdir.

Kriminalistika elminin digər sahələri kimi, istintaq fərziyyələri də müxtəlif alimlərin tədqiqat obyekti olmuşdur. İ.M.Luzginin fikrincə, «fərziyyələr kriminalistikada cinayət təqibi üzrə müəyyənləşdirilməli olan faktlar arasındakı səbəbli əlaqəni, hadisənin mahiyyətini və törədilməsinin ayrı-ayrı hallarını faktlar əsasında izah edən ehtimallardır».

Ə.U.Babayev, istintaq fərziyyələrini müstəntiqin tədqiq olunan hadisənin mahiyyəti onu törədən səbəblər, təqsirləndirilən şəxslər, onların təqsirlərinin xarakterləri və iş üzrə həqiqəti müəyyən etmək üçün əhəmiyyəti kəsb edən digər hallar barədə ehtimallar kimi qiymətləndirir.

M.R.Şalamova görə isə «istintaq fərziyyələri müstəntiqin törədilmiş cinayətin səbəbləri, halları və onun

törədən şəxslər haqqında faktlara əsaslanan və yoxlanılmalı olan ehtimallarıdır».

Yuxarıda qeyd edilən fikirlər bir-birindən kəskin şəkildə fərqlənmir. Onların hər birində istintaq bu və ya başqa şəkildə müstəntiqin törədilmiş cinayətin mahiyyəti, səbəbləri, və s. barədə ehtimalları kimi müəyyənləşdirilir. Qeyd etmək lazımdır ki, faktlara əsaslanmayan gümanlar və ehtimallar sonsuz sayda fərziyyələrin qurulması, vaxt itkisi və son nəticədə məqsəddən yan keçmək deməkdir. Ona görə də fərziyyəlrindüzgün qurulması və yoxlanması son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Fərziyyələrin qurulması ilə bağlı olan subyektləri xüsusilə qeyd etmək lazımdır. Çünki, bu barədə müxtəlif fikirlər mövcuddur. Belə ki, istintaq fərziyyələri subyektinə görə aşağıdakı qruplara: istintaq, ekspert, məhkəmə və əməliyyat axtarış fərziyyələrinə bölünürlər. Subyektlərinə və onların fəaliyyət xarakterlərinə görə fərqlənən bu fərziyyələri ümumi məqsəd və onların təbiəti birləşdirir. Buradan belə bir nəticəyə gəlmək olar ki, məntiqi baxımdan «istintaq fərziyyyələri» anlayışının ümumilikdə işlədilməsi düzgün deyildir. Ona görə ki, subyektlərin hər birinin fəaliyyətləri istintaqla əhatə olunmur. Lakin, onların hamısını bir məqsəd sübutların aşkar olunması, toplanması, tədqiq olunması birləşdirir. Elə ona görə də kriminalistik fərziyyələr məhfumunun işlədilməsi daha düzgün olur.

Kriminalistik fərziyyələr, cinayət hadisəsinin mahiyyəti, təqsirləndirilən şəxsin törədilmiş cinayət əməlində təqsiri və motivləri, onun məsuliyyətinin səviyyəsinə və xarakterinə görə təsir göstərən hallar, vurulmuş zərərin xarakteri və miqdarı, həmçinin cinayyətin törədilməsinə şərait yaradan səbəblər haqqında faktlara əsaslanaraq, qurulan və məntiqi qaydalar üzrə yoxlanılması zəruri olan ehtimaldır.

Fərziyyələrin qurulması elmi cəhətdən əsaslandırılmış olmalıdır. Onlar aşğıdakı tələblərə cavab verməlidir:

1. Kriminalistik fərziyyələr ziddiyyətli olmamalıdır, yəni ki, ilkin faktiki materiallara uyğun olmalıdır;
2. Fəriziyyələrin yoxlanılması üçün imkan real olmalıdır;
3. Nəzəri və təcrübi cəhətdən dolğun və əsaslandırılmış olmalıdır;
4. Fərziyyələrin qurulması istintaqın istənilən mərhələsində məlum olan faktların obyektiv tələbatından irəli gəlməlidir;
5. Fərziyyələr konkret hadisə, onun konkret halları ilə əlaqədar qurulduğundan özləridə konkret olmalıdır.

Bəzən istintaq zamanı faktların elə zahiri qarşılıqlı əlaqəsi müşahidə olunur ki, o, hansısa fərziyyənin həqiqətə daha çox uyğun olduğunu təsdiq edərək, digərlərini kölgədə qoyur. Müstəntiqin bu zaman yalnız inandırıcı görünən fərziyyələrlə məşğul olması, onun faktların əsirinə çevrilməsinə, son anda yanlış nəticələrə gəlib çıxmasına səbəb ola bilər,ona görə də bütün fərziyyələr paralel yoxlanılmalıdır.

Kriminalistik fərziyyələrin qurulmasını şərti olaraq iki mərhələyə bölmək olar:

**Birinci mərhələ** – ayrı-ayrı faktların və onların arasındakı münasibətlərin analizindən;

**İkinci mərhələ** – həmin faktların sintezindən, yəni ki, irəli sürülməsindən ibarətdir. Fərziyyələrin qurulması prosesində törədilmiş cinayət əməlinin xarakteri təqsirli şəxsləri müəyyən etmək üçün mövcud ilkin faktiki materialın analitik təhlili zəruridir. Bu zaman təhlilin məqsədi bütün faktlardan cinayət əməli ilə birbaşa yaxud dolayı, gizli və ya açıq fomada əlaqədə olanları müəyyən etməkdən ibarət olur.

İlkin faktiki materiallar aşağıdakı istintaq hərəkətlərinin keçirilməsi nəticəsində əldə olunur. Təhlil zamanı bütün faktlar üçün ümumi bir əlamət – onların hər birinin cinayət hadisəsi ilə əlaqəsi aşkarlanmış olur. Burada belə bir amili nəzərə almaq lazımdır ki, faktların cinayət hadisəsi ilə əlaqəsi məntiqi vasitələrlə müəyyənləşdirilir. Bu sadə məsələ olmayıb, istintaq və əməliyyat- axtarış işinin texnikasını, metodikasını bilməkdən əlavə məntiqi mühakimə, analiz etmə qabiliyyətinə malik olmağı tələb edir.

Fərziyyələrin qurulmasında analogiya metodundan , yəni hadisələrin ayrı-ayrı əlamətlərinə görə müqayisəsindən də istifadə olunur. Bu zaman oxşar cinayət hadisələri üzrə istintaq təsrübəsindən əldə olunan ümumiləşdirmələr böyük rol oynayırlar. Məsələn, istintaq təcrübəsindən məlumdur ki, maddi məsul şəxslər oğurluq səhnəsi quraşdıraraq, mənimsəməni örtbasdır etməyə çalışırlar.

Bu zaman hadisə yerindəki əşya və predmetlər, sənədlər qarışıq vəziyyətə gətirilir. İstintaq zamanı bu cür hallarla qarşılaşanda oxşar cinayət hadisəsinin törədildiyi barədə fərziyyə irəli sürülür. Hər bir cinayət hadisəsi ümumi əlamətlərlə yanaşı, yalnız özünəməxsus təkrarolunmaz halların məcmusundan ibarət olur. Analiz və sintez bu fərdiliyi aşkar etməyə imkan verir. Bəzən faktların arasındakı münasibətlərdə mövcud olan fərdilik həmin faktların qeyri-adi xarakteri ilə bağlı olur. Bəzən də elə ola bilər ki, bu fərdilik araşdırılan şəraitdə yerlə, vaxtla və ya  ayrı-ayrı hərəkətləri, halların təkrarolunmazlığı ilə bağlı olsun. Bu faktların və münasibətlərin müəyyən edilməsi cinayətin ayrı-ayrı halları və subyekti barədə əsaslandırılmış fərziyyələrin qurulmasına imkan verir. Bunu aşağıdakı misalla göstərmək olar:

Hadisə yerinə baxış zamanı iz yolunun yaranmasındakı spesifikliyi (sağ ayağın pəncə bucağının sol ayağın pəncə bucağından böyük olması) aşkar edilməklə müəyyən edilmişdir ki, cinayət törətmiş şəxs axsayır, şahidlərin verdiyi ifadələrdən məlum olmuşdur ki, zərər çəkmiş şəxsi axsaq kişinin əhatəsində görmüşlər. Göstərilən fərdi xüsusiyyətlər cinayətkarın tapılmasına kömək etmişdir.

Qeyd etmək lazımdır ki, fərdi əlamətlər cinayətkarın hərəkətlərindəki xüsusiyyətlərdə, davranışında, ona mənsub olan predmetlərdə təzahür olunur. Fərdilik çox zaman hadisələrin, predmetlərin zahirində yox, işin çoxlu sayda və müxtəlif halları arasındakı münasibətlərində, əlaqənin xüsusi xarakterində özünü göstərir.

Kriminalistik fərziyyələrdən çıxan nəticələrin faktlarla tutuşdurulması aşağıdakı şərtlərə əməl etməyi tələb edir:

1. Yaranmış şəraitdə sübutları toplamaq üçün bütün mümkün mənbələrdən və vasitələrdən istifadə edilməlidir;
2. Nəticəni təsdiq edən faktların mötəbərliyi müəyyən olunubsa, sübutların toplanmasını dayandırmalı;
3. Əgər əldə olunmuş nəticələr faktların bir qrupu ilə uyğunlaşıb, digəri ilə ziddiyyət təşkil edirsə,onda sübutların toplanma dairəsi ziddiyyət həll edilənə və yaxud izah olunana qədər genişləndirməli;
4. Nəticələrdən yalnız biri toplanmış fakttlara tam təsdiq olunmalıdır.

İstintaq və məhkəmə orqanlarının cinayət işi üzrə həqiqətin müəyyən edilməsinə dair fəaliyyəti keçmişdə baş vermiş hallara yönəlmiş olur. Bundan başqa

müstəntiq, təhqiqat aparan şəxs, və məhkəmə həmin hadisələrin bilavasitə müşahidəçisi olmurlar. Ona görə də cinayət işi üzrə araşdırmanı aparan şəxsin fəaliyyəti bilavasitə özünün müşahidə etmədiyi halların tədqiqinə yönəlir. Bu halların da müəyyən edilməsi cinayətin maddi izləri və cinayət hadisəsi ilə əlaqədar olan halları müşahidə etmiş şəxslərin məlumatları vasitəsilə mümkündür. Müstəntiq istintaqını apardığı cinayət işinə dair faktları, onları təsdiq edən digər faktların köməyi ilə müəyyən etməli olur. Müstəntiqin fəaliyyəti faktlar əsasında keçmişdə mövcud olmuş faktları müəyyən etməkdən və onları araşdırmaqdan ibarətdir. Müstəntiq cinayət işi üzrə faktik halları düzgün müəyyən etmək üçün həmin faktların mövcudluğunun mümkün olan bütün konkret variantlarını aydınlaşdırmalı və yoxlamalıdır. Müstəntiqin tədqiq etdiyi faktların mövcud ola bildiyi bu cür variantlar əsasında fərziyyələr yaranır.

Kriminalistik fərziyyələr – cinayət hadisəsi və onun ayrı-ayrı hallarına dair cinayət təqibini həyata keçirən şəxslərin faktiki məlumatlara əsaslanan, deduksiyanın məntiqi qaydaları üzrə yoxlanılmalı olan ehtimal formasındakı induktiv əqli nəticəsidir.

İstintaq fərziyyələri anlayışınıgeniş və məhdud mənada başa düşmək olar. İstintaq fərziyyələri geniş mənada, təkcə ibtidai istintaqla deyil, ümumiyyətlə, iş üzrə icraatla əlaqədar olaraq qurulan fərziyyələr,məhdud mənada isə, yalnız ibtidai istintaqda müstəntiq tərəfindən irəli sürülən fərziyyələr başa düşülür.

***Kriminalistik fərziyyələrin xüsusiyyətləri***

1.Fərziyyələr cinayətin istintaqı prosesində qurulur və istifadə olunur;

1. Fərziyyələr cinayət işi üzrə faktları izah edir;

2. Fərziyyələr müəyyən edilmiş vaxt ərzində yoxlanılmalıdır;
3. Onlar xüsusi üsul və metodlarla yaranır;
4. Onlar maraqlı tərəflər arasında ziddiyyət olduqda əmələ gəlir.

***Fərziyyələrin növləri***

1.Müəyyən etdikləri halların həcminə görə :

a) **ümumi fərziyyələr** – bütövlükdə cinayət hadisəsinin xarakterini və səbəbini aydınlaşdırmağa xidmət edir. Ümumi fərziyyələr o vaxt qurulur ki, müstəntiqin sərəncamında olan ilkin məlumatlar yalnız cinayət işinin mahiyyətini və ya səbəblərini aydınlaşdırmağa imkan verir, hadisənin ayrı-ayrı konkret hallarını müəyyənləşdirmək üçün isə kifayət etmir;

b) **xüsusi fərziyyələr** – cinayət işinin ayrı-ayrı konkret hallarına dair irəli sürülən fərziyyələrdir. Belə fərziyyələr cinayətin baş verdiyi yer, şərait, cinayətin törədilməsində istifadə olunan alət və vasitələr, cinayətin izləri və s.hallar və faktlar üzrə qurula bilər.

2. Müəyyən etmə dərəcəsinə görə:

a) tipik;

b) konkret fərziyyələr;

3.Qurulma vaxtına görə:

a) ilkin;

b) sonrakı;

4.İstifadə sahəsinə görə:

a) **istintaq fərziyyələri** – cinayət işi üzrə ibtidai istintaq zamanı sübut edilməli olan halları müəyyən etmək məqsədilə irəlm sürülən fərziyyələrdir. Bu cür fərziyyələrin qurulması üçün prosessual əsas cinayət işinin başlanmasıdır. İstintaq fərziyyələrinin subyektləri yalnız qanunla ibtidai istintaq aparmaq səlahiyyəti verilmiş vəzifəli şəxslər (müstəntiq, prokuror və təhqiqat aparan şəxslər) ola bilər;

b) **əməliyyat-axtarış fərziyyələri** – cinayət etmiş şəxsin gizləndiyi yer, oğurlanmış əmlakın gizlədildiyi və ya satılacağı yer və s. barədə, bilavasitə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi prosesində və məhz əməliyyat işçiləri tərəfindən irəli sürülür.

c) **ekspert fərziyyələri** – bilavasitə ekspertizanın aparılması prosesində ekspert tədqiqatının predmeti ilə əlaqədar olaraq irəli sürülür. Bu cür fərziyyələrin subyektləri cinayət işi üzrə icra zamanı baş verən xüsusi məsələlərə dair zəruri biliyə malik olan və cinayət prosessual qanunla müəyən edilmiş qaydada ekspert qismində cəlb edilmiş şəxslər ola bilər. Ekspert fərziyyələri istintaq və məhkəmə fərziyyələrindən təkcə subyektinə görə deyil, bir sıra digər əlamətlərinə görə də fərqlənir. Məsələn: ekspert fərziyyələrinin həddi istintaq və məhkəmə fərziyyələrinin həddindən məhduddur:

ç) **məhkəmə fərziyyələri** – iş üçün əhəmiyyətli olan halların müəyyən edilməsindən ötrü bilavasitə məhkəmə tərəfindən irəli sürülmüş fərziyyələrdir. Məhkəmə fərziyyələrinin qurulması zərurəti ondan irəli gəlir ki, ibtidai istintaq orqanlarının sübut olunmuş hesab etdikləri ittiham məhkəmə üçün qəti qüvvəyə malik deyildir.

5.Bundan irəli gələrək subyektinə görə fərziyyələr aşağıdakılara bölünür:

- müstəntiqin fərziyyəsi;
- əməliyyat müvəkkilinin fərziyyəsi;
- prokurorun fərziyyəsi;
- hakimin fərziyyəsi;
- ekspertin fərziyyəsi.

6.Fərziyyələr ittihamın predmetinə görə:

- ittihamedici və bəraətverici fərziyyələrə ayrılır.

Təqsirləndirilən şəxsin cinayət etməkdə ittiham edilməsi və ya onun məsuliyyətini ağırlaşdıran halların

müəyənləşdirilməsinə yönəlmiş faktların aşkar olunması məqsədi güdən fərziyyələr ittihamedici fərziyyələr adlanır.

Təqsirləndirilən şəxsə bəraət qazandıran və ya onun məsuliyyətini yüngülləşdirən halları müəyyən etməyə yönəldilən fərziyələr isə bəraətverici fərziyyələr adlanır.

7.Cinayət tərkibinin əlamətlərinə əsasən:

a) cinayətin obyektinə görə;

b) obyektiv tərəfinə görə;

c) subyektinə görə irəli sürülən fərziyyələr;

ç) subyektiv tərəfinə görə.

8.Axtarış fərziyyələri ayrı-ayrı obyektlərin müəyyənləşdirilməsi ilə bağlı fərziyyələrdir.

9. Əsas və əks fərziyyələr Məntiqi əlaqə formasına görə əsas fərziyyələr istintaqın həmin mərhələsində müstəntiqin sərəncamında olan faktik materiallar üzrə qurulan fərziyyələrdir.

Əks fərziyyələr isə əsas fərziyyələrin məntiqi inkarını ifadə edən fərziyyələrdir.

İstintaq zamanı qurulan fərziyyələr mühüm əhəmiyyətə mmalik olub, istintaqın planlaşdırılmasında həlledici rol oynayır. Belə ki, fərziyyələrin qurulması və yoxlanılması istintaqın planlaşdırılmasının əsasını təşkil edir. Fərziyyələr vasitəsilə istintaqın istiqaməti, habelə iş üzrə aydınlaşdırılmalı olan halların dairəsi müəyyən edilir. İstintaq fərziyyələri müstəntiqin fəaliyyət dairəsini, araşdırmanın istiqamətini və xarakterini müəyyənləşdirir.

***SUAL 2.Kriminalistik fərziyyələrin qurulması və yoxlanılması.***

Cinayət işi üzrə müstəntiq fərziyyələrin qurulmasında üç növ məlumat mənbələri ilə qarşılaşır.

1. Prosessual üsulla əldə edilmiş faktiki məlumatlar;

2. Əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilən məlumatlar;
3. Təsadüfi mənbələrdən alınan məlumatlar.

Göründüyü kimi, istintaq fərziyyələrin əsasını təşkil edən məlumatlar həm prosessual, həm də qeyri prosessual yollarla əldə edilə bilər. Qurulmuş fərziyyələrə göstərilən tələblər 2 yerə bölünür:

**Ümumi tələblər:**

- Fərziyyələr, və onların vasitəsilə müəyyən ediləcək faktlar arasında ziddiyət olmamalıdır;
- fərziyyələrdə elə hallar irəli sürülməlidir ki, onları canlı müşahidənin və ya müəyyən hərəkətlərin həyata keçirilməsi ilə yoxlamaq mümkün olsun;
- fərziyyələr təkcə onların vəsitəsilə müəyyən ediləcək hallarla deyil, habelə həmin hallarla əlaqədar digər hallara da uyğun gəlməlidir;

**Xüsusi tələblər:**

- istintaq fərziyyələri aid olduqları hər hansı bir elmin ümumi müddəalara və qanunlarına uyğun gəlməli, onlarla ziddiyyət təşkil etməməlidir;
- fərziyyələr arasında məntiqi ziddiyyət olmamalıdır;
- cinayət hadisəsinin ayrı-ayrı hallarına dair irəli sürülən fərziyyələr bütünlüklə həmin hadisəyə aid olan fərziyyələrlə uyğun gəlməlidir;
- fərziyyələri elə qurmaq lazımdır ki, onların məhz istintaq hərəkətləri vasitəsilə yoxlanılsnı və onların yoxlanılmasının mümkünlüyü real olsun;
- fərziyyələr yalnız faktiki məlumatlara əsaslanmalıdır;
- fərziyyələr əsaslı, dəqiq, aydın, həqiqətə uyğun olmalıdır;
- fərziyyələrdən biri digərindən üstün tutulmamalıdır;
- fərziyyələr bir-bir yox, imkan dairəsində paralel yoxlanılmalıdır.

### ***Fərziyyələrin qurulması prosesi***

Fərziyyələrin qurulmasında elmi və əməli idrak prosesinin digər sahələrində qurulan hipotezlərdə olduğu kimi, təfəkkürün məntiqi üsulları tətbiq olunur. Bu kimi məntiqi üsullardan analiz, sintez, induksiya, deduksiya, analogiyanı xüsusilə qeyd etmək lazımdır.

**Analiz –** tədqiqatın məntiqi üsulu olub cinayət işi üçün əhəmiyyəti olan halların müstəntiqin təfəkküründə hissələrə ayrılması və onların hər birinin məntiqi abstraksiya yolu ilə təhlil edilməsi deməkdir.

**Sintez –** işə dair halların bütövlükdə, həm də onları təşkil edən hissələrin qarşılıqlı əlaqəsi şəklində öyrənilməsidir.

Analiz və sintez məntiqi təfəkkürün qarşılıqlı əlaqədə olan və biri digərini şərtləndirən üsullardır. Çünki faktı dərk etmək üçün əvvəlcə onun konkret halları (hissələri) ayrılıqda təhlil edilməli, sonra isə həmin hissələr cəm halında sintez edilərək, bütövlük əmələ gətirməlidir. Müstəntiq cinayət hadisəsinin ayrı-ayrı hallarına dair onun sərəncamında olan faktların müxtəlif cəhətlərini analiz edir və hadisənin mümkün ola bilən izahı barədə əqli nəticəyə gəlir.

**İnduksiya –** üsulu təkdən ümumiyə, **deduksiya** isə ümumidən təkə doğru getmək deməkdir.

**Analogiya –** faktların ayrı-ayrı oxşar əlamətlərə görə müqayisəsi üzrə induktiv əqli mühakimədir. İstintaq fərziyyələrinin qurulmasında fərziyyələr çoxluğu prinsipinə istinad etmək lazımdır. Belə ki, eyni faktın izahı üçün bir neçə fərziyyənin qurulması vacibdir.

Cinayət işi üzrə bütün ehtimallar fərziyyələr çoxluğu prinsipi üzrə irəli sürülməli və yoxlanılmalıdır. Fərziyyələrin yoxlanılması prinsiplərindən biri odur ki, öz təsdiqini tapan fərziyyələr digərlərini rədd etməlidir.

Aşağıdakı hallarda kriminalistik fərziyyələr rədd olunmuş hesab edilə bilər:

1. Onu istisna edən faktik məlumatlar ortaya çıxdıqda;
2. Çıxarılan nəticələr həqiqətə uyğun gəlmədikdə və ya faktın müəyyənləşdirilməsi üçün kifayət qədər olmadıqda;
3. Fərziyyənin yoxlanılmasına ehtiyac qalmadıqda.

Bir qayda olaraq istintaq fərziyyələri növbə ilə deyil, paralel surətdə yoxlanılmalıdır. Məhz belə olduqda, ortaya çıxan hər-hansı bir yeni məlumatın ayrı-ayrı fərziyyələrlə qarşılıqlı əlaqəsi düzgün qiymətləndirilə bilər. Əksinə, müstəntiq ayrıca bir fərziyyənin üzərində yoxlama apardıqda başqa fərziyyələr nəzərdən qaçırıla bilər

Belə düşünmək olmazdı ki, fərziyyələrin paralel yoxlanılması müstəntiq üçün təcrübi cəhətdən çətindir və buna görə də o, fərziyyələri növbə ilə ayrılıqda yoxlamalıdır. Əksinə, fərziyyələrin paralel yoxlanılması müstəntiqin istintaq müddətinə riayət etməsini təmin edir. Digər tərəfdən, ən başlıcası paralel yoxlamanın səmərəliliyi fərziyyələrin mahiyyətindən irəli gəlir. Çünki, fərztiyyələrin qarşılıqlı əlaqəsini yalnız paralel yoxlama yolu ilə müəyən etmək olar.

Bununla belə, paralel yoxlama heç də fərziyyələrin yoxlanılmasının yeganə üsulu deyildir. Bəzi hallarda fərziyyənin ayrılıqda yoxlanılması da səmərəli nəticə verə bilər. Məsələn: təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması ilə bağlı olan fərziyyənin əvvəlcədən yoxlanılması daha əlverişlidir. Çünki belə fərziyyənin yoxlanılmasının gecikdirilməsi bəzən aparılan istintaq hərəkətlərinin (axtarış, götürmə, hadisə yerinə baxış və s.) heç bir nəticə verməməsinə gətirib çıxara bilər.

***SUAL 3. İstintaqın təşkili və planlaşdırılmasının***

***mahiyyəti və prinsipləri.***

Cinayət işi üzrə həqiqəti müəyyən etmək üçün ibtidai istintaqda bir sıra hərəkətlər yerinə yetirilir. Bu hərəkətlərin səmərəli nəticə verməsi üçün onlar qabaqcadan müəyyən edilmiş xüsusi plan əsasında həyata keçirilməlidir. Ona görə də ibtidai istintaqda müstəntiqin fəaliyyətinin mühüm bir hissəsini istintaqın planlaşdırılması, yəni istintaq planının tərtib olunması təşkil edir. İstintaq planı cinayət işi üzrə həqiqəti müəyyən etmək üçün müstəntiq tərəfindən həyata kesirilməsi nəzərdə tutulan hərəkətlərin məqsədəyönlü ardıcıllıqla müəyyən olunmuş sistemidir. İstintaq planı cinayt işi cinayət işinə dair müstəntiqin geniş praktik fəaliyyət proqramıdır. İstintaq planı müstəntiqin hansı hərəkəti nə üçün, harada və necə etməsini müəyyənləşdirir və bunula da onun fəaliyyətini istiqamətləndirir. Planda nəzərdə tutulanlar hansı cinayətin, kim tərəfindən, harada, kimin köməyi ilə, nə üçün, necə və nə vaxt törədilməsini müəyən etməyə imkan verməlidir. İstintaq planında nəzərdə tutulan hərəkətlərin icra müddəti də müəyyən edilməlidir.

İstintaq planlaşdırılmasının prinsipləri:

1. palnlaşdırmanın fərdiliyi;
2. planlaşdırmanın dinamikliyi;
3. planlaşdırmanın reallığı;
4. planlaşdırmanın əsaslılığı;
5. planlaşdırmanın konkretliliyi;
6. planlaşdırmanın vaxtında aparılması.

**Planlaşdırmanın fərdiliyi** – bu prinsip istintaqı aparılan hər bir cinayət işinin fərdi xüsusiyyətlərə malik olmasından irəli gəlir ki, bütün əlamətləri üzrə eyni iki cinayət, iki cinayət əməli ola bilmədiyi kimi, həmin cinayətlər üzrə istintaqın planlaşdırılması da eyni ola

bilməz. Hər bir cinayət cinayətin edildiyi yer, vaxt, üsul və s. fərdi xarakter daşıdığına görə planlaşdırma da fərdi xarakter daşımalıdır. Doğrudur ki, eyni növ cinayətlər üzrə bəzi əlamətlər uyğun gələ bildiyinə görə istintaqın əsas mərhələləri, istintaq hərəkətlərinin ardıcıllığı və s. barədə istintaq planları uyğun ola bilməz. Lakin, bu yenə də planlaşdırmanın fərdilik prinsipini inkar etmir.

İstintaqın planlaşdırılmasının fərdi xarakter daşıması prinsipi heç də o demək deyildir ki, bir qrup ilkin istintaq hərəkətlərinin müxtəlif cinayətlər üzrə aparılması məqsədəuyğun deyildir. Məsələn, istintaq təcrübəsinin ümumiləşdirilməsi əsasında sındırma yolu ilə oğurluq edilməsi, sənədləri saxtalaşdırmaqla dövlət əmlakının mənimsənilməsi və s. hallar üçün ilkin istintaq hərəkətlərinin xarakterik olduğu müəyyən edilir və onların təcrübədə tətbiqi təklif olunur. Lakin, bu heç də o demək deyildir ki, planlaşdırma zamanı həmin təkliflər konkret cinayət işi üzrə halların spesifik cəhətləri nəzərə alınmadan şablon şəkildə tətbiq olunmalıdır.

**Planlaşdırmanın dinamikliyi** – müstəntiqin tərtib etdiyi istintaq planı doqma olmayıb, dinamik xarakter daşıyır. Belə ki, istintaq prosesində həmin plan dəyişdirilə, yaxud ona müəyyən düzəlişlər edilə bilər. Ona görə də istintaq planının tərtib edilməsi hələ ki, planlaşdırmanın başa çatdırılması deyil, əslində onun başlanğıcıdır. Bu prosesdə istintaqın özü kimi planlar operativ xarakter daşıyır. Əgər yeni fərziyyələrin qurulması, yaxud istintaqın başqa istiqamətdə aparılması zərurəti ortaya çıxarsa, buna uyğun olaraq istintaq planı da dəyişdirilməlidir.

Planlaşdırmanın dinamikliyi istintaq fərziyyələrinin zərurəti ilə bağlıdır. İstintaq fərziyyələri işdə ehtimaldan həqiqətə doğru olub, yeni-yeni halların ortaya çıxması, müəyyənləşdirilməsi ilə əlaqədardır. İş üzrə yeni halların

ortaya çıxması isə başqa bir fərziyyənin planlaşdırılması və yoxlanılması ehtiyacını doğurur. Nə qədər ki, iş üzrə fərziyyələrdən biri tam sübuta yetirilməmişdir, istintaq planında bu cür dəyişikliklər ediləcəyi gözlənilə bilər. Deməli, istintaq planlaşdırılması dinamik proses olub, istintaq fərziyyələrinin yoxlanılması prosesi ilə paralel surətdə inkişaf edir və dəyişikliyə uğrayır.

**Planlaşdırmanın əsaslığı –** bu prinsipin tətbiqinə görə istintaq planında nəzərdə tutulan hərəkətlər iş üzrə faktik hallardan irəli gəlməlidir. Əgər həmin hərəkətlər işin faktik halları ilə bağlı deyildirsə, onların aparılması zəruri ola bilməz.

Planlaşdırmanın əsaslılığı prinsipi birinci növbədə istintaq fərziyyələrinin əsaslı olması tələbindən irəli gəlir ki, istintaq hərəkətlərinin planlaşdırılması ilk növbədə istintaq fərziyyələrinin yoxlanılmasına xidmət edir. Məlumdur ki, istintaq fərziyyələrinin qurulması üçün də faktiki əsas vardır. Bu mənada istintaq planının əsaslılığı həmin iş üzrə qurulan fərziyyələrə aid olan faktik hallar təşkil edir. Məsələn, təqsirləndirilən şəxsin paltarında qan ləkəsi aşkar edildikdə, müstəntiq onun zərər çəkən şəxsin qanı olması barədə fərziyyə irəli sürür və bunun yoxlanması üçün ekspertiza təyin edilməsini planlaşdırır.

Planlaşdırmanın faktiki əsası ilə yanaşı, qanuni əsası da olmalıdır. Əgər bu və ya digər hərəkətin planlaşdırılması üçün faktik əsas varsa, lakin həmin hərəkətin keçirilməsinə qanunla yol verilmirsə, belə hərəkətin planlaşdırılması istintaq üçün heç bir əhəmiyyət kəsb edə bilməz. Planlaşdırmanın əsaslılığı prinsipi birinci növbədə istintaq fərziyyələrinin əsaslı olması tələbindən irəli gəlir. Çünki, istintaq hərəkətlərinin planlaşdırılması ilk növbədə istintaq fərziyyələrinin yoxlanılmasına xidmət edir. Məlumdur ki, istintaq fərziyyələrinin qurulması üçün faktik əsas varsa, deməli,

onun yoxlanılmasını planlaşdırmaq üçün də faktik əsas vardır. Bu mənada istintaq planının əsasını həmin iş üzrə qurulan fərziyyələrə aid olan faktik hallar təşkil edir. Əgər həmin hərəkət qeyri-qanuni yollla edildiyinə görə onun nəticəsinə sübut kimi əsaslanmaq olmaz. Məsələn: qanunun tələbinə görə istintaq eksperimentinin aparılmasına bu şərtlə yol verilir ki, həmin hərəkət orada iştirak edən şəxslərin ləyaqətini alçaltmasın və bu şəxslərin səhhəti üçün təhlükə yaratmasın (Azərbaycan Respublikası CPM-nin 262-263-cü maddələri). Əgər istintaq eksperimenti belə nəticələrə səbəb olmuşsa onda bu hərəkət qeyri-qanuni hesab edilməlidir.

**Planlaşdırmanın konkretliliyi –** bu prinsipə əsasən istintaq planında nəzərdə tutulan hərəkətlərin bütün halları konkret müəyyən edilməlidir. Belə ki, hərəkətin icra vaxtı, yeri, üsulu, onun icraçıları konkret olaraq planlaşdırılmalıdır. Çünki bu hallar konkret müəyən edilməzsə, planın yerinə yetirilməsi qeyri-müəyyən olar və bununla da istintaq planı öz rolunu lazımi dərəcədə oynaya bilməz. Bütün hərəkətlərin konkret planlaşdırılması müstəntiqin öz fəaliyyətinə nəzarət edə bilməsini təmin edir. Digər tərəfdən konkret planlaşdırma istintaqın tezliklə başa çatdırılması, habelə onun və hərtərəfli aparılması üçün də real imkan yaranır.

Planlaşdırmanın konkretliliyi onun fərdiliyi prinsipi ilə üzvi surətdə bağlıdır. Planın konkretliliyi bir növ onun fərdi xarakter daşımasından irəli gəlir. Bununla belə planın fərdiliyi və konkretliyi anlayışları tam eyni olmayıb, mahiyyətcə bir-birindən fərqlənir. Belə ki, fərdilik bütünlüklə cinayət işinin xüsusiyyətlərindən irəli gəldiyi halda, konkretlilik ayrı-ayrı istintaq və əməliyyat-axtarış hərəkətlərinin xüsusiyyətləri ilə bağlıdır.

**Planlaşdırmanın vaxtında aparılması –** bu prinsip istintaq planının məqsədindən irəli gəlir. Məlumdur

ki, planlaşdırmada başlıca məqsəd istintaqın məqsədyönlü şəkildə aparılmasının təmin olunmasıdır. Bu isə istintaqın vaxtında planlaşdırılmasını tələb edir.

İstintaq hərəkətlərinin vaxtından əvvəl, habelə gec planlaşdırılması mənfi nəticələrə səbəb ola bilər. Əgər bu və ya digər hərəkət vaxtından əvvəl planlaşdırılıbsa, istintaqın istiqamətinin düzgün müəyyən edilməsində ciddi səhvlərə yol verilə bilər. Belə ki, tələsikliyə yol verilməsi nəticəsinin alınmasına gətirib çıxarır.

Planlaşdırmanın gecikdirilməsi bir sıra hərəkətlərin aparılmasını çətinləşdirir, bəzən isə həmin hərəkətlərin aparılmasını qeyri-mümkün edir. Məsələn: hadisə yerinə baxış vaxtında aparılmadıqda oradan izlərin və maddi sübutların aşkar edilməsi xeyli çətinləşir, bir sıra hallarda isə obyektiv və subyektiv səbəblər üzündən mümkün olmur. Beləliklə, planlaşdırmanın vaxtında aparılması, istintaq planının yerinə yetirilməsinin mümkünlüyü, habelə müvafiq nəticə alınması üçün mühüm təminatdır.

Planlaşdırmanın yuxarıda göstərilən prinsipləri qarşılıqlı əlaqədə olub, biri digərini şərtləndirir. Onlardan hər-hansı birinə əməl olunmaması şübhəsiz ki, digər prinsiplərin də pozulmasına gətirib çıxarır.

### ***SUAL 4.Planlaşdırma elelmentlərinin ardıcıllığı və onun formaları.***

İstintaqın planlaşdırılması cinayət işi üzrə sübuta yetirilməli olan halların müəyyən edilməsi yollarına dair müstəntiqin idrak fəaliyyətidir. O həm şifahi, həm də yazılı ifadə edilə bilər. Planlaşdırma yalnız müxtəlif yazılı planların və sxemlərin tərtib edilməsi kimi başa düşülməlidir. Planlaşdırma hər şeydən əvvəl müstəntiqin yaradıcılıq işi olduğuna görə yalnız planın yazılı şəkildə tərtibi ilə başa çatmır. Planlaşdırmanı yalnız yazılı

planların, sxemlərin tərtib edilməsi kimi başa düşmək əslində formanı məzmundan ayırmaq deməkdir. Çünki planlaşdırma məzmun, plan isə onun yazılı forması, zahiri qrafik ifadəsidir.

Şifahi qaydada planlaşdırma xüsusilə təxirəsalınmaz istintaq hərəkətlərinə aiddir. Çünki belə hərəkətlərin yerinə yetirilməsinə dair yazılı şəkildə geniş planın tərtb edilməsi müstəntiq üçün əməli cəhətdən çətindir.

Bütün bunlarla yanaşı planlaşdırmanın yazılı formada aparılması istintaq təcrübəsi baxımından bir sıra üstünlüklərə malikdir. Təcrübə göstərir ki, bəzən hətta tələbkar müstəntiqlər belə şifahi planlaşdırılmış hərəkətləri bütün incəlikləri ilə yadda saxlaya bilmir, bir sıra hallarda isə ən mühüm hərəkətləri nəzərdən qaçırırlar. Bundan başqa şifahi planlaşdırma təcrübəsi göstərir ki, bir sıra hallarda istintaq hərəkətlərinin ardıcıllığı pozulur. Planlaşdırma yazılı aparıldıqda isə göstərilən halların baş verməsinin qarşısı alınmış olur.

Yazılı istntaq planları müxtəlif formada – siyahı-planlar, cədvəl-planlar və təqvim-planlar şəklində tərtib edilir.

**Siyahı-planlar –** planlaşdırmanın çox sadə forması olub, hərəkətlərin ardıcıllıqla edilməsi sistemini göstərən siyahıdan ibarətdir. Müstəntiq siyahı planını stolüstü dəftərçənin ayrıca vərəqində yazır. Siyahi-planlar bir qayda olaraq istintaq prosesində istifadə edilir.

**Cədvəl-planlar –** mürəkkəb istintaq hərəkətlərinin aparıldığı cinayət işləri üzrə tərtib edilir. Bu çür planların ayrı-ayrı bölmələrində istintaq fərziyyələri, həmin fərziyyələr üzrə müəyyən edilməli olan hallar, istintaq hərəkətləri, onların vaxtı, yeri, hərəkətin hansı üsulla və kim tərəfindən icra edilməsi, onun nəticəsi və s. göstərilir.

Bəzən qrup halında edilən çoxepizodlu mürəkkəb cinayət işləri üzrə istintaq planına müəyyən sənədlərin, sxemlərin və qrafiklərin əlavə edilməsi lazım gəlir. Onlardan istintaq planında nəzərdə tutulan məsələlərin konkret cəhətlərini aydınlaşdırmaq üçün istifadə olunur.

Təcrübədə bəzən çoxepizodlu mürəkkəb cinayət işləri üzrə istintaqın həm ümumi planı, həm də cinayətin ayrı-ayrı epizodları üzrə xüsusi plan tərtib ediilr. Bu zaman ümumi planda cinayətin bütün epizodlarına aid olan istintaq hərəkətləri nəzərdə tutulur. Xüsusi planda isə yalnız cinayətin konkret epizoduna dair istintaq hərəkətləri nəzərdə tutulur. Xüsusi planlar da ümumi planlar kimi eyni sxem üzrə tərtib olunur. Bu cür planlar müstəntiqin heç bir epizodu nəzərdən qaçırmamasına kömək edir.

Planlaşdırmanın **təqvim istintaq planı** forması müstəntiqin icraatında olan cinayət işlərinin istintaqını birlikdə əhatə edir. Təqvim planı hər bir cinayətin işinə dair görüləcəy işlərin ayrı-ayrı günləri üzrə nəzərdə tutlur. Əksər hallarda təqvim istintaq planı həftələr üzrə tərtib olunur. Təqvim planında hər bir hərəkətin təxminən nə qədər davam edəcəyi müəyyən edilməlidir. Bu zaman yola və nəqliyyata sərf ediləcək vaxt da nəzərə alınmalıdır. Bəzən təcrübədə konkret hərəkət üçün vaxt düzgün planlaşdırılmadıqda, həmin gün nəzərdə tutulan digər hərəkətin nəticəsinə mənfi təsir göstərir.

Təqvim istintaq planı bir qayda olaraq ayın əvvəlində tərtib edilməlidir. Bu zaman əvvəlki aydan icraatı davam edən işlər üzrə hərəkətlərin yerinə yetirilməsi nəzərə alınmalıdır. Müstəntiqin icraatına yeni cinayət işinin daxil olması ilə əlaqədar olaraq təqvim planında müvafiq dəyişiklik edilməlidir. Yeni iş üzrə təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması lazım gəlirsə, onlar ön plana çəkilməlidir. Müstəntiq təqvim

planını yerinə yetirilməsinə gündəlik nəzarət etməlidir. Bunun üçün o, xüsusi qrafada müvafiq qeydlər aparır.

İstintaq planının hansı formada və necə tərtibi müstəntiqin mülahizəsindən asılıdır. Lakin plan istintaq işi üzrə materiallarla tanış olan digər şəxslərə üçün aydın və anlaşıqlı şəkildə tərtib olunmalıdır.

Predmetinə görə planlaşdırma iki cür olur:

- cinayət işi üzrə istintaqın ümumi planlaşdırılması;
- ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması.

Ümumi planlaşdırma dövrünün predmetini konkret cinayət işinin bütünlüklə istintaqı təşkil edir. Burada cinayət işi üzrə sübut edilməli olan halların dairəsi müəyyənləşdirilir, cinayət işinin xarakterindən və istintaqın şəraitindən asılı olaraq daha çox məqsədə uyğun olan istintaq hərəkətləri planlaşdırılır, istintaq hərəkətlərinin hansı ardıcıllıqla və nə vaxt aparılacağı müəyyən olunur.

İstintaqın ümumi planı sübutetmə prosesində onun predmetinə uyğun olaraq cinayət tərkibinin ünsürləri dairəsində tərtib edilir. Ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması ümumi planlaşdırmaya nisbətən sadə prosesdir. Çünki burada həll edilən məsələlərin dairəsi nisbətən məhdud və konkretdir. Bununla belə ayrı-ayrı istintaq hərəkətlərinin planlaşdırılması prosesi bir sıra məsələlərin həllini tələb edir. İstintaq hərəkətlərinin vəzifəsi və məqsədi, hərəkətin icra edilməsi vaxtı və yeri, hərəkətin icraçıları və digər iştirakçıları, onların vəzifəsi, istintaq hərəkətlərinin aparılma ardıcıllığı və bu zaman istifadə ediləcək texniki vasitəlr, taktiki üsullar, hərəkətin nəticələrinin qeyd olunması kimi məsələlər planda nəzərdə tutulur. Demək olar ki, planlaşdırma müstəntiqin geniş fəaliyyət proqramıdır. Planda nəzərdə tutulan istintaq hərəkətləri və tədbirlər icraçılar tərəfindən

vaxtında icra olunmalıdır. Planlaşdırma şifahi və əksər hallarda isə yazılı şəkildə aparılır. Planın tərtib edilməsi zamanı aşağıdakı ilkin məlumatların təhlili, fərziyyələrin qurulması, istintaq hərəkətlərini və əməliyyat-axtarış tədbirlərini, onların icraçıları və icra vaxtını müəyyənləşdirmək kimi elementlərin nəzərə alınması böyük əhəmiyyət kəsb edir.

# *Mövzu № 13.*

## *«İbtidai istintaq zamanı müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin və xüsusi biliklərdən istifadə edilməsinin əsasları»*

PLAN:

1.İbtidai istintaq zamanı müstəntiqin əməliyyat-axtarış orqan-ları ilə qarşılıqlı əlaqənin mahiyyəti, formaları və əsasları.
2.İbtidai istintaq zamanı xüsusi biliklərdən istifadə edilməsi- nin mahiyyəti, formaları və əsasları.

### *SUAL 1. İbtidai istintaq zamanı müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin mahiyyəti, formaları və əsasları*

Müasir şəraitdə cinayətin açılması – istintaq aparatıınn və əməliyyat-axtarış işçilərinin kollektiv əməyinin nəticəsində baş verir. Praktiki olaraq hər bir cinayət işinin müqəddəratı həyata keçirilən məqsədyönlü, planlaşdırılmış, professional tədbirlərin nəticəsindən bilavasitə asılıdır. Bir tərəfdən bu onunla bağlıdır ki, son vaxtlar \əksər cinayətlər təkbaşına törədilmir, cinayətlərin və onların izlərinin gizlədilməsi halları artır, əhalinin yerdəyişməsi sürətlənir, lakin şahid bazası isə əksinə azalır. Belə şəraitdə görüləcək əməliyyat tədbirləri qısa müddətdə yerinə yetirilməlidir və tək bir işçi bunların öhdəsindən praktiki olaraq gələ bilməz.

Cinayətkarlığa qarşı mübarizənin bir çox müasir vasitələri, üsulları və metodları tək bir nəfər tərəfindən yerinə yetirilə bilməz. Onu da qeyd etməliyik ki, qanunvericilikdə prosessual və əməliyyat-axtarış funksiyaları arasında qoyulmuş sədd onu diktə edir ki, cinayətin açılması və araşdırılmasında istintaq və əməliyyat-axtarış işçiləri birgə iştirak etsinlər.

Ümumiyyətlə elmdə qarşılıqlı əlaqə dedikdə iki və daha çox subyektin yerə, vaxta və məqsədə görə qarşılıqlı anlaşma şəraitində fəaliyyətləri başa düşülür.

Əgər biz deyiriksə ki, müstəntiq və əməliyyat işçiləri qarşılıqlı əlaqədə işləyirlər, deməli bu ən azı o deməkdir ki, onlar qarşıya qoyduqları eyni məqsəd üçün, razılaşdıqları yerdə və vaxtda istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri həyata keçirirlər.

Cinayət prosessual qanunun normalarında cinayətlərin istintaqı zamanı istintaq və əməliyyat axtarış orqanlarının qarşılıqlı əlaqələrini əks etdirən «qarşılıqlı fəaliyyəti» termininə rast gəlinmir. İstntaq və əməliyyat axtarış orqanlarının qarşılıqlı fəaliyyəti cinayət işi

başlanana kimi də yarana bilər. Azərbaycan Respublikası CPM-nin 236-cı və 85.4.5-ci maddələrinin tələblərinə müvafiq olaraq təxirə salınmadan hadisə yerinə baxış keçirilərkən, müstəntiq təhqiqat orqanına lazımi tapşırıq və göstərişlər verməyə səlahiyyətlidir.

Cinayət prosessual qanununa görə cinayət işləri üzrə ibtidai istintaq qanunla müəyən olunmuş qaydada prokurorluq, daxili işlər və milli təhlükəsizlik orqanlarının müstəntiqləri öz səlahiyyətləri dairəsində aparırlar. Onlardan başqa prokurorlar, DİN və MTN istintaq şöbələrinin rəisləri də ibtidai istintaqı aparmağa səlahiyyətlidirlər. Azərbaycan Respublikası CPM-nin 85-ci maddəsində göstərilir ki, müstəntiq aşağıdakı hüquqları həyata keçirir:

- 85.4.5. müvafiq təhqiqat orqanlarına cinayətin açılması, itkin düşmüş şəxsin və ya əmlakın tapılması üçün əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini tapşırmaq və görülmüş tədbirlər barədə məlumat almaq;
- 85.4.6. tutulma, məcburi gətirilmə və digər prosessual hərəkətlərin, məcburiyyət tədbirlərinin aparılmasını müvafiq təhqiqat orqanına tapşırmaq, habelə ondan istintaq və digər prosessual hərəkətlərin keçirilməsinə kömək göstərilməsini tələb etmək;
- 85.4.7. müvafiq təhqiqat orqanına və ya təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini tapşırmaq.

Əməliyyat aparatlarının fəaliyyəti cinayət prosessual qanunvericiliyinin normaları ilə nizama salınmasa da onlara zidd olmamalıdır. İstintaq və əməliyyat-axtarış orqanlarının qarşılıqlı fəaliyyətinin cinayət prosessual qanunvericiliyin normaları əsasında daha da gücləndirilməsi cinayətlərin qısa vaxtda, daha az qüvvə və vəsait sərf etməklə açılmasına şərait yaradır.

Azərbaycan Respublikası DİN-nin 19oktyabr 2001-ci il tarixli 408 saylı əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası DİN-nin Baş İstintaq və Təhqiqatlar idarəsi haqqında əsasnamənin 2.4-cü maddəsində Baş idarənin əsas vəzifələrindən biri olaraq istintaq və təhqiqat aparatının öz səlahiyyətləri daxilində DİN-nin digər xidmət sahələri ilə qarşılıqlı əlaqələrinin qurulması göstərilmişdiir.

Azərbaycan Respublikası DİN-nin 22 aprel 2002-ci il tarixli 155 saylı əmri ilə təsdiq edilmiş «Cinayətlərin qarşısının alınması, istintaqı və açılmasında daxili işlər orqanlarının struktur xidmət sahələrinin qarşılıqlı əlaqələrinin təşkilinə dair» təlimat Azərbaycan Respublikası DİO-nın müxtəlif struktur xidmət sahələri aralarında qarşılıqlı əlaqələrin təşkili qaydalarını müəyyən edir. Həmin Təlimat qarşılıqlı əlaqənin vəzifələrini aşağıdakı kimi müəyyənləşdirir:

- cinayət baş verdikdə təxirəsalınmaz istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin təmin edilməsi;
- cinayətlərin qarşısının alınması, hərtərəfli və obyektiv araşdırılması, cinayət törətmiş şəxslərin vaxtında ifşa olunaraq cinayət məsuliyyətinə cəlb edilməsi, habelə cinayət törədən, istintaqdan gizlənən şəxslərin axtarışı;
- cinayətkar qəsdlər nəticəsində vətəndaşların pozulmuş hüquqlarının bərpası, habelə mülkiyyət formasınlan asılı olmayaraq vətəndaşlara və təşkilatlara dəymiş ziyanın təqsirli şəxslər tərəfindən ödənilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi.

Qeyd edilən Təlimata əsasən qarşılıqlı əlaqənin normativ-hüquqi əsasları aşağıdakılardır:

- Azərbaycan Respublikasının cinayət və cinayət prosessual qanunvericiliyi;
- Azərbaycan Respublikasının «Polis haqqında» və «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunlarla, Azərbaycan Respublikası Prezidentnin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikası DİN-nin əsasnaməsi;
- Cinayətkarlıqla mübarizə məsələləri üzrə hüquq mühafizə orqanlarının qarşılıqlı əlaqələrinə dair idarələrarası birgə Təlimat və göstərişlər, həmçinin Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar, müqavilələr, götürdüyü öhdəliklər;
- DİN-nin müvafiq normativ-hüquq aktları və hazırki təlimatlar.

Qarşılıqlı əlaqənin prinsipləri aşağıdakılardır :

**1.** Qarşılıqlı əlaqənin əsas prinsipi ondan ibarətdir ki, qarşılıqlı hərəkət edən hər bir tərəf öz növbəsində qanunla və ya digər normativ aktlarla nəzərdə tutulmuş funksiyalarını ciddi və dəqiq yerinə yetirsin. Yalnız belə olduqda qarşılıqlı əlaqə düzgün və effektli nəticə verə bilər. Bu isə o deməkdir ki, hər bir tərəf öz funksiyasını nəzərdə tutulmuş, özünəməxsus fəndlərlə yerinə yetirməlidir.

**2.** Qarşılıqlı əlaqənin effektli prinsiplərindən ikincisi odur ki, hər iki tərəf ümumi məqsədə çatmaq üçün özlərində olan bütün məlumatları biri digərinə olduğu kimi çatdırır və onlar işi elə qurmağı sövdələşirlər ki, biri digərinin işini tamamlasın. Yəni əməliyyat işçisinin hərəkətləri hər-hansı bir faktın sübutedici əhəmiyyətini itirirsə, istintaqın gedişinə mənfi təsir göstərirsə, onu istintaq hərəkətləri ilə əvəz etmək, tamamlamaq lazımdır. Digər tərəfdən istntaq hərəkətlərinin nəticəsində məxfi məlumat verən mənbə açıqlanarsa, belə istintaq

hərəkətləri yerinə yetirilmir, əvəzində əməliyyat tədbirləri həyata keçirilir.

**3.** Qarşılıqlı əlaqənin 3-cü prinsipi cinayətkarlıqla mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsində qanunçuluğa, vətəndaşların Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarının qorunması işinə riayət olunmasıdır.

**4.** 4-cü prinsip daxili işlər orqanlarının qüvvə və vasitələrindən kompleks və səmərəli istifadə edilməsidir.

**5.** 5-ci prinsip istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə və nəticələrinə görə müstəntiqin və təhqiqatçının, muvafiq əməkdaşların və aidiyyətı xidmət rəhbərlərinin şəxsi məsuliyyətlərini olmasıdır.

**6.** 6-cı prinsip əməliyyat-axtarış fəaliyyəti üzrə metod və vasitələrin keçirilməsində əməliyyat aparatı əməkdaşlarının qüvvədə olan qanunvericilik çərçivəsində zəruri qərar qəbul etmələridir.

**7.** 7-ci prinsip istntaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin əlaqələndirilməsi və planlaşdırılmasıdır.

**8.** 8-ci prinsip cinayət işi üzrə yekun qərar qəbul edilənədək cinayətin açılmasında və istintaqında təşkilatçılıq fəaliyyətində qarşılıqlı əlaqənin fasiləsizliyidir.

Yuxarıda qeyd edilən prinsiplər qarşılıqlı əlaqənin effektiv nəticəsini təmin edir.

Lakin effektiv qarşılıqlı əlaqənin 3 şərti də var ki, onları bilmək və onlara riayət etmək məqsədə müvafiqdir.

**1.** Əvvəla, əməyin təşkili nəzəriyyəsindən məlum olan birinci şərt odur ki, həmişə qarşılıqlı əlaqə yaratmaq üçün təşəbbüskar işin son nəticəsinə marağı olan və səlahiyyəti çatan şəxs olmalıdır. Yəni cinayət işlərinin

istintaqı ilə əlaqədar qarşılıqlı əlaqə üçün təşəbbüskar rolunu adətən müstəntiq oynayır.

**2.** effektiv qarşılıqlı əlaqənin ikinci şərti bundan ibarətdir ki, bu bir növ psixoloji xarakter daşıdığından, hər iki tərəf bir-birinin maraqlarını yaxşı bildikləri üçün qarşılıqlı əlaqə bunlar arasında insani münasibətlərin yaxşılaşmasına xidmət etməlidir. Yəni hər bir tərəf əlaqənin daha da möhkəmlənməsi naminə o biri tərəfin marağını həmişə yüksək tutmalı, onun marağının təmin olunmasına qəlbən yanaşmalıdır. Məsələn: müstəntiq yaxşı bilir ki, əməliyyat işçisi həmin vaxta qədər açılmamış cinayətlər üzrə cinayətkarın ifşa edilməsində maraqlıdır, buna görə də o qarşılıqlı əlaqənin möhkəmlənməsi naminə, istintaq zamanı təqsiləndirilən şəxsi dindirərkən daha hansı cinayətləri törətdiyini öyrənməli, bunun üçün əlindən gələni etməli, böyük səy göstərməlidir.

**3.** Nəhayət üçüncü şərt ondan ibarətdir ki, qarşılıqlı əlaqədə işləyən xidmətlər tətbiq edilən prinsiplər əsasında işin təşkilinə razılıq verməlidirlər. Yalnız belə olduqda müstəntiq əməliyyat işçisindən təşkil olunmuş cütlüyün stabil, uzunmüddətli qarşılıqlı əlaqədə fəaliyyət göstərmələri mümkün olar. Eyni müstəntiqin eyni əməliyyat işçisi ilə uzun müddət əlaqəli işləməsi sözsüz ki,onların hər ikisinin qarşılıqlı əlaqədə işləmələrinin effektivliyini bir-neçə dəfə artırır.

Adətən təcrübədə böyük şəhərlərdə yerləşən polis idarə və şöbələrində eyni növ cinayətlərin açılması və istintaqı ilə məşğul olan belə qruplar və ya bölmələr yaradılır ki, onlar da artıq bu sahədə bir növ ixtisaslaşırlar. Məsələn: polis idarələrində avtomaşın oğurlayan və qaçıranlara qarşı mübarizə aparan qruplar və ya bölmələr yaradılır. Həmin qruplarda və ya

bölmələrdə işləyən təcrübəli əməliyyat işçiləri ilə qarşılıqlı əlaqədə işləmək üçün həmin idarənin istintaq şöbəsində ixtisaslaşmış, professional müstəntiq də olmalıdır.Belə işçilər «bir işarədən» bir-birini başa düşür, çoxepizodlu cinayətlərin açılmasında və istintaqında uğurlu fəaliyyət göstərirlər.

İndi isə biz istintaq və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyətinin formalarına nəzər salaq.

Qarşılıqlı fəaliyətin formaları müxtəlif ola bilər. Onların təsnifləşdirilməsi iki əsas cəhətlə müstəntqin tapşırığı ilə əməliyyat orqanının həyata keçirdiyi fəaliyyətin xarakteri və qarşılıqlı fəaliyyətin həyata keçirilməsi müddəti ilə əlaqədardır.

Azərbaycan Respublikası CPM-in 85 və 86-cı maddələrinə müvafiq olaraq cinayətlərin istintaqı zamanı istntaq və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyətinin formalarına aşağıdakılar aid edilir:

- əməliyyat orqanının istintaq hərəkətlərinin aparılması haqqında müstəntiqin tapşırıqlarının və göstərişlərinin yerinə yetirilməsi;
- əməliyyat orqanının müstəntiqin axtarış hərəkətlərinin aparılması haqqında tapşırıqlarının və göstərişlərinin yerinə yetirilməsi;
- ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında əməliyyat orqanının müstəntiqə kömək etməsi.

Qarşılıqlı fəaliyət formaları müddətə görə də fərqləndirilir: birdəfəlik, vaxtaşırı və daimi (ibtidai istintaq başa çatana qədər).

İstintaq və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyəti prosessual və təşkilatı cəhətdən də fərqləndirilir.

Qarşılıqlı fəaliyyətin prosessual cəhəti dedikdə aşağıdakılar başa düşülür:

- ibtidai araşdırmanın aparılması məcburi olan cinayətin əlamətləri aşkar edildikdə, əməliyyat

orqanının cinayət işi başlanması, cinayətin izlərini müəyyən etmək və möhkəmləndirmək üçün təxirəsalınmaz istintaq aparması və işi müstəntiqə verməsi;

- cinayət işi başlanması haqqında məsələnin həll edilməsi üçün əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş cinayətin əlamətləri olan materialların müstəntiq verməsi;
- əməliyyat orqanının ayrı-ayrı istintaq və ya axtarış hərəkətlərinin aparılması haqqında müstəntiqin tapşırıqlarını yerinə yetirməsi;
- istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində əldə edilmiş məlumatların mübadilə edilməsi.

Müstəntiq istintaqı aparılan iş üzrə əməliyyat orqanına lazımi istintaq və axtarış hərəkətlərinin aparılmasını tapşırmağa və istintaq hərəkətləri aparılarkən ona kömək edilməsini tələb etməyə haqlıdır.

Təhqiqat orqanı müstəntiqin tapşırığını yerinə yetirməyə borcludur (CPM-in 86.2.9 mad.).

İstintaq hərəkətlərinin aparılmasında əməliyyat orqanlarının müstəntiqə kömək etməsi bu orqanların qarşılıqlı fəaliyyətinin əsas formalarındandır. Belə fəaliyyətə hadisə yerinin mühafizəsi, müstəntiqin rəhbərliyi ilə əməliyyat işçilərinin baxış, axtarış, istintaq ekspertimentində iştirakı, təqsirləndirilən şəxsin, şahidlərin və digər şəxslərin gətirilməsi kimi hərəkətlər aiddir. İstintaq hərəkətlərinin aparılmasına kömək etmək üçün təhqiqat orqanıınn rəisi müstəntiqin tələbi ilə lazımi sayda əməliyyat işçiləri ayırmağa və onların iştirakını təmin etməyə borcludur. Müstəntiq isə öz növbəsində həyata keçiriləcək tədbirin xarakteri və hər bir əməliyyat işçisinin vəzifəsi haqqında onları dəqiq təlimatlandırmasıdır.

İstintaq və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyət formalarından biri də prosessual fəaliyət və əməliyyat-axtarış tədbirləri nəticəsində alınmış məlumatların mübadiləsidir. Təhqiqat orqanları məzmununa görə daha əhəmiyyətli olan məlumatlar müstəntiqə yazılı formada veriməlidlirlər. Müstəntiq də öz növbəsində əməliyyat-axtarış tədbirlərinin keçirilməsi ilə əlaqədar olan məlumatları vaxtlı-vaxtında əməliyyat orqanına verməlidir.

İstintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində alınmış məlumatların qarşılıqlı mübadiləsi istintaq və təhqiqat orqanlarının sonrakı hərəkətlərinin əsas istiqamətlərini müəyyən edir. Ona görə də alınmış məlumatlar birlikdə müzakirə olunmalı və onların yoxlanılması üçün razılaşdırılmış zəruri tədbirlər görülməli, bu məlumatlara əsasən istintaq və əməliyyat-axtarış hərəkətlərinin planı tərtib edilməlidir.

İstintaq və əməliyyat orqanlarının qarşılıqlı fəaliyyətinin təşkili formalara prosessual xarakter daşımayıb cinayətin xarakterindən və istintaqın mürəkkəblik dərəcəsindən asılı olaraq seçilir.

Bu formalar aşağıdakılardan ibarətdir:

a) istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin birgə planlaşdırılması;

b) mürəkkəb və xüsusi təhlükəli cinayətlərin istintaqı üzrə istintaq və əməliyyat qruplarının təşkil edilməsi;

c) istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin aparacağı yerə (məsələn: hadisə yeri, istintaq eksperimenti aparılacaq yer və s.) birgə getmənin təşkil olunması.

İstintaq və əməliyyat orqanlarının birgə fəaliyyətinin formasından asılı olmayaraq, onlar həmişə müxtəlif müstəqil funksiyalı orqanlar kimi fəaliyyət

göstərirlər. Bu orqanların birgə fəaliyyətinin yeganə uyğun cəhəti onların fəaliyyətinin razılaşdırılmış formada planlaşdırılması, ümumi məqsədə xidmət edəcək istintaq və əməliyyat qruplarının yaradılması, istintaq və əməliyyat hərəkətlərinin aparılacağı yerə birgə getmənin təşkil olunması, qarşılıqlı məlumat mübadiləsi, istintaq və əməliyyat-axtarış məlumatlarının birgə müzakirə edilməsidir.

Mürəkkəb və xüsusi təhlükəli cinayətərin istintaqı zamanı yaradılan müstəntiqlər qrupuna təhqiqat orqanı işçisinin daxil edilməsi də bu orqanların birgə fəaliyyətinə diqqətin daha da artırılması məqsədini güdür.

Deməli, istintaq və təhqiqat orqanlarının cinayət prosessual qanunu ilə müəyyən edilmiş fəaliyyətlərini müstəqil həyata keçirmələri daha məqsədyönlüdür. Bu şərtlə ki, onlar qarşılıqlı əlaqə şəraitində işləsinlər.

İstintaq və əməliyyat orqanlarının qarşılıqlı fəaliyyəti məqsədli olub, konkret cinayətin açılması, istintaqı və qarşısının alınması üzrə bu orqanların fəaliyyətinin daha səmərəli təşkil olunmasına yönəldilməlidir.

Bu məqsədə çatmaq üçün birgə fəaliyyət zamanı aşağıdakılar təmin olunmalıdır:

- qanunçuluğa ciddi əməl olunmalı;
- müstəntiqin təşkilatçılıq roluna əsaslanması;
- onların hərəkətləri yekdil xarakter daşımalı;
- əməliyyat orqanları qarşısında qoyulan məsələlərin həll edilməsi üçün üsul və vasitələrin seçilməsində onların müstəqilliyinin pozulmaması;
- əməliyyat-axtarış fəaliyyəti nəticəsində alınmış məlumatlar yayılmamalıdır.

Biz yuxarıda qeyd etdik ki Azərbaycan Respublikası CPM-in 85.4.7-ci maddəsinin tələinə əsasən müstəntiq müvafiq əməliyyat orqanına və ya

təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini tapşırmaq hüququna malikdir.

Lakin göründüyü kimi qanunda məhz hansı istintaq hərəkətlərini aparılmasının təhqiqat orqanına tapşırılması göstərilməmişdir. Halbuki bu hərəkətlərin dairəsinin müəyyən edilməsinə ehtiyac vardır.

Hüquqşünas alimlər, eləcə də təcrübəd işləyən işçilər bu məsələdə yekdil fikir söyləmişlər. Məsələn: N.A.Andreyevin fikrincə «müstəntiq əsas istintaq hərəkətlərinin aparılmasını polis orqanına həvalə edə bilməz».

Söz yox ki, heç bir baxımdan (cinayət, prosessual, kriminalistik, təcrübi və s.) istintaq hərəkətlərini «əsas» və «əsas olmayan» hərəkətlərə bölmək olmaz, çünki istntaq hərəkətləri nəticəsində əldə edilmiş sübutların birinin digərindən üstün olması mümkün deyildir. Belə ki, məhkəmə, prokuror, müstəntiq və təhqiqat aparan şəxs üçün onların qabaqcadan müəyyən olunmuş qüvvələri yoxdur.

Əlbət, istintaq hərəkətlərinin qeyd olunan bölgüsünü düzgün hesab etmək olmaz. Bununla yanaşı «təhqiqat orqanına bütün istintaq hərəkətləri tapşırıla bilməz» fikri də düzgündür. Çünki qanunda göstərildiyi kimi, müstəntiq bütün və istənilən istintaq hərəkətlərini deyil, ayrı-ayrı istintaq hərəktlərini təhqiqat orqanına tapşırmağa haqlıdır.

Başqa yerdə (rayonda) bir neçə istintaq hərəkətlərinin aparılması zəruri olan hallarda cinayət işi icraatında olan müstəntiq həmin yerə getməli və istintaq hərəkətlərini özü yerinə yetirməlidir.

Deməli əməliyyat orqanına o vaxt tapşırıq vermək olar ki, həmin hərəkəti müstəntiq tərəfindən aparılması mümkün olmasın. Lakin aşağıdakı istintaq hərəkətləri müstəntiq tərəfindən aparılır.

Bunlara aiddir:

- şəxsə onun təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarın elan edilməsi;
- təqsirləndirilən şəxsin dindirilməsi;
- qətiimkan tədbirinin seçilməsi;
- ekspertizanın təyin edilməsi;
- şəxsin zərərçəkmiş, mülki iddiaçı, mülki cavabdeh qismində cəlb edilməsi və dindirilməsi;
- istintaqın qurtarmasının elan edilməsi;
- ittiham aktıınn tərtib edilməsi;
- hadisə yerinə və maddi sübutlara baxış;
- şəxslərin tanınması;
- üzləşdirmə.

Bu hərəkətlərin aparılması üçün xüsusi bacarıq və təcrübə tələb olunur. Müstəntiq unutmamalıdır ki, qanunla ona həvalə edilmiş istintaq hərəkətlərini şəxsən özü aparmalıdır.

Təhqiqat orqanına verilən ayrı-ayrı tapşırıqların xarakterini və məqsədini nəzərə alaraq, onları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) sübutların toplanılması və yoxlanılması üzrə tapşırıqlar;

b) cinayət-prosessual fəaliyyətin ayrı-ayrı iştirakçılarının hüquqlarının həyata keçirilməsi üzrə tapşırıqlar;

c) prosessual xarakterli məcburi tədbirlərin görülməsi üzrə tapşırıqlar;

ç) axtarış tədbirlərinin həyata keçirilməsi üzrə tapşırıqlar;

d) cinayətin baş verməsinə kömək etmiş səbəb və şəraitin aşkar olunması və aradan qaldırılması üçün tədbirlər görülməsi üzrə tapşırıqlar.

Qeyd edilən tapşırıqlar içərisində axtarış tədbirlərinin görülməsi üzrə verilən tapşırıqlar qarşılıqlı fəaliyyət üçün daha spesifikdir.

Müstəntiq tərəfindən təhqiqat orqanlarına ayrı-ayrı tapşırıqların verilməsi cinayətlərin istitaqının vaxtında, tam və hərtərəfli aparılmasının təmin edilməsi məqsədini güdür.

Bəs tapşırıqlar hansı formada verilməlidir?

Təxirəsalınmaz hallarda təhqiqat orqanları müstəntiqin şifahi tapşırıqlarını yerinə yetirirlər. Lakin bu o nəticəyə gəlməyə əsas vermir ki, həmin tapşırığın verilməsi və icra edilməsinin yazılı formada tərtib olunub işə tikilməsinə ehtiyac yoxdur.

Tapşırıqlar yazılı formada verilməlidir. Yazılı tapşırıq onun məzmununun təhqiqat orqanına olduğu kimi verilməsinə, lazım gəldikdə onu icra edən şəxs tərəfindən təkrar olunub ətraflı öyrənilməsinə və təhqiqat orqanının rəhbəri tərəfindən tapşırığın vaxtında yerinə yetirilməsinə nəzarət edilməsinə imkan yaradır.

Axtarış tədbirlərinin görülməsi üzrə verilən tapşırıqda axtarılacaq obyektlərin göstərilməsi zəruridir: cinayəti törədən naməlum şəxs, şahidlər, zərər çəkmiş şəxslər, əşyalar, cinayət alətləri, oğurlanmış əmlak və s. tapşırıqla həyata keçiriləcək axtarış tədbirləri göstərilməli deyil. Çünki əməliyyat işçisi verilmiş tapşırığı icra etmək üçün istənilən axtarış tədbirlərini keçirə bilər.

Yazılı tapşırıq təhqiqat orqanının rəisi vasitəsilə verilir. Müstəntiq tapşırıqda onu icra edəcək şəxsi göstərməyə haqlı deyildir. Belə zərurət yarandıqda bunu təhqiqat orqanının rəisindən xahiş etmək olar.

Bəzən tapşırıqla birlikdə müstəntiqin sərəncamında olan müvafiq materialların da təhqiqat orqanına göndərilməsi məqsədəuyğun olur. Həmin materiallardan əməliyyat işçisi əlavə vasitə kimi istifadə

edir. Məsələn: axtarılan cinayətkarın əşyalarının fotoşəkli, təqsirləndirilən şəxsin əl barmaq əksləri, axtarılan şəxsin fotoşəkli və.s. Axtarış zamanı fotoşəkildən «şifahi portret» əlamətləri üzrə şəxsiyyətin müəyyən edilməsi üçün istifadə oluna bilər.

Şəxs adını və soyadını dəyişdirə də bilər. Bu iki üsulla ola bilər: başqasının sənədinə öz fotoşəklini yapışdırmaqla və özünə məxsus olan sənəddə ad və soyadını dəyişməklə. Həbs yerlərindən qaçmış məhbusların axtarışı zamanı onların barmaq əkslərindən istifadə olunması yaxşı nəticə verir. Adətən belə şəxslər ələ keçməmək üçün ad və soyadlarını, hətta bəzən zahiri əlamətlərini də dəyişdirməyə müvəffəq olurlar. Belə hallarda barmaq əksləri şəxsiyyətin müəyyən edilməsinin əvəzolunmaz vasitəsidir.

Axtarış haqqında olan bütün materialları müstəntiq gizlənmiş cinayətkarın axırıncı yaşayış yeri üzrə təhqiqat orqanına göndərir. Təhqiqat orqanına göndərilən materiallarda axtarılacaq şəxsin qohumluq, xidməti və şəxsi əlaqələri haqqında məlumatlar, onun gizlənə biləcəyi yerlər, ümumiyyətlə onu xarakterizə edən bütün məlumatlar maksimum əks etdirilməlidir.

Müstəntiq istintaq hərəkətləri nəticəsində əldə etdiyi axtarışa aid olan məlumatları vaxtında təhqiqat orqanına bildirməlidir. Təhqiqat orqanı da öz növbəsində qeyri-prosessual mənbələrdən aldığı məlumatlar barədə müstəntiqi dərhal xəbərdar etməlidir.

Əmlakın axtarışı müstəntiqin özü tərəfindən və onun tapşırığı ilə polis orqanları tərəfindən aparılır. Oğurlanmış əmlakların axtarışının müvəffəqiyyətli olması üçün onların fərdi əlamətlərinin müəyyən edilməsi başlıca şərtdir. Fərdi əlamətlərin müəyyən olunmasının əsas mənbəyi zərər çəkmiş şəxsin dindirilməsidir. Dindirmə zamanı əmlakın rəngi, ölçüsü, çəkisi, forması,

növü, istehsal əlamətləri, zədələrin olması, təmir əlamətləri, xüsusi naşanələri və s. aydınlaşdırılmalıdır.

Bəzən oğurlanmış əşyanın texniki pasportları, qəbzləri və s. sənədlər qalır ki, onların öyrənilməsi əşyanın əlamətlərinin ən başlıcası isə kimə məxsus olmasının müəyyən edilməsi üçün əhəmiyyətlidir.

Axtarılan əşyanın tapılması məqsədi ilə komisyon mağazalarda və lombardlarda rəsmi yoxlama aparıla bilər. Belə yoxlamalarda zərər çəkmiş şəxsin və axtarılan əşyanın fərdi əlamətlərini yaxşı bilən digər şəxslərin iştirakı məsləhət görülür. Yoxlama nəticəsində axtarılan əşya müəyyən olunarsa, dərhal onu verən şəxsin tapılması üçün müvafiq tədbirlər görülməlidir.

Adam öldürmə, oğurluq, soyğunçuluq, yol nəqliyyat cinayətləri baş verdikdə hadisə yerinə baxış zamanı cinayətkarın «isti izlərlə» axtarılması zərurəti yaranır. Hadisənin baş verməsi vaxtından və xarakterindən asılı olaraq təhqiqat orqanı işçiləri müstəntiqlə razılaşdırılmış fəaliyyətə başlayırlar. Onlar xidməti-axtarış itindən istifadə etmək, cinayətkarı izləmək, tutub saxlamaq, müəyyən ərazini nəzarət altına almaq, izləri axtarmaq, hadisəni görən şahidləri müəyyən etmək və s. kimi əməliyyat-axtarış tədbirləri görürlər. Təhqiqat orqanı tərəfindən həyata keçirilən bu tədbirlərin xarakterik xüsusiyyəti onların əksəriyyətinin gizli keçirilməsidir.

Xidməti-axtarış itindən istifadə olunmasının məqsədi cinayətrın qaçdığı istiqaməti müəyyən etmək, onu izləmək və tutmaq, eləcədə oğurlanmış əmlakın və yaxud cinayət alətinin gizlədildiyi yeri aşkar etməkdir. Müstəntiq kinoloqun xidməti-axtarış iti ilə birlikdə hadisə yerinə vaxtında gəlməsini və dərhal axtarışa başlamasını ilk növbədə təmin etməlidir. Kinoloq-təhqiqat orqanlarında fəaliyyət göstərən, xidmət-axtarış itinə təlim keçən və

axtarış zamanı onu müşayiət edən şəxsdir. Qeyd edilməlidir ki, xidməti axtarış itinin müvəffəqiyyətlə istifadə edilməsi hava şəraitindən çox asılıdır. Belə ki, havanın küləkli, dumanlı, yağışlı olması iyin kəskinliyini azaldır. Bir də ki, hadisə yerinin vaxtında mühafizəsi təmin olunmalıdır ki, kənar şəxslərin oraya daxil olması əlavə iylər yaratmasın.

Əgər xidməti-axtarış itindən istifadə etmək mümkün deyilsə, müstəntiq iyin konservləşdirilməsi üçün müvafiq tədbirlər görməlidir.

Xidməti-axtarış itindən istifadə olunmasının nəticələri kinoloqun tərtib etdiyi aktda əks olunur. Aktda nə vaxt, kim tərəfindən və hası hadisə ilə əlaqədar xidməti-axtarış itindən istifadə olunmasa, itin ləqəbi, havanın vəziyyəti və axtarışın nəticələri göstərilir. Akt cinayət işinin materiallarına əlavə edilir.

Cinayətin baş verməsindən az vaxt keçdiyi hallarda cinayətkarın izlənməsi və tutulub saxlanması üçün təcili tədbirlər görülməlidir. Bu zaman cinayətkarların sayı və silahlı olub-olmamaları nəzərə alınmalıdır. Əməliyyat qupuna zərər çəkən şəxs və izlənilən cinayətkarın əlamətlərini bilən digər şəxslər də daxil edilə bilər.

Axtarılan şəxsin tutulması məqsədilə onun gedə biləcəyi yerlərdə (vağzallarda, limanlarda, və s.) nəzarət qoyulmalıdır. Bu zaman ətrafdakıların diqqətini cəlb etməmək üçün polis işçiləri mülki paltar geyməlidirlər. Eyni zamanda şosse yollarında dövlət yol polis işçiləri, yol nəzarəti xidməti işçiləri tərəfindən müvafiq nəzarət tədbirləri görülməlidir.

Axtarış qrupları təşkil olunarkən qrupun hər bir üzvü dəqiq təlimatlandırılmalıdır. Zəruri hallarda onlar silahlı olmalı və nə vaxt silah tətbiq etmək lazım olduğunu bilməlidirlər. Cinayətkar tutularkən onun

zərərsizləşdirilməsi üçün dərhal şəxsi axtarış aparılmalıdır.

Hadisə yeri baxış keçirilərkən təhqiqat orqanı işçiləri müstəntiqin tapşırığı və yaxud razılığı ilə onunla eyni vaxtda həmin ərazini diqqətlə yoxlaya bilərlər. Belə yoxlamada məqsəd gizlənmiş cinayətkarı tapmaq, onun izlərini, atılmış, itirilmiş və gizlədilmiş predmetləri aşkar etmək, eləcə də hadisəni görən şahidləri müəyyən etməkdir.

Əməliyyat-axtarış tədbirlərinin nəticələri müstəntiqə təhqiqat orqaının rəisi adından yazılı formada göndərilir. Sənəddə hansı yolla əldə edilməsi göstərilməklə konkret faktlar əks olunur.

***SUAL 2. İbtidai istintaq zamanı xüsusi biliklərdən istifadə edilməsinin mahiyyəti, formaları və əsasları.***

Cəmiyyətdə baş verən elmi-texniki tərəqqi onu tələb edir ki, elm istehsalatın ehtiyaclarına qulluq etməli, istehsalat isə əksinə elmin nailiyyətlərindən səmələri xidmət etməli, daim sürətli inkişafını təmin etməlidir.

Elm və texnika tətbiq etmədən hazırkı dövrdə cinayətləri açmaq praktiki olaraq mümkkün deyil. Müasir dövrdə müxtəlif elm sahələri üzrə xüsusi biliyə malik mütəxəssislərin cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında mühüm rol oynayır.

Müstəntiqlərin fəaliyyətini tənzimləyən qanunvericiliy göstərir ki, mütəxəssis cinayət prosessual fəaliyyətin aktiv üzvünə çevrilməklə öz səlahiyyətlərini yerinə yetirən zaman cinayət işində iştirak edən digər iştirakçılarla cinayət prosessual və hüquq münasibətlərinə girir. Mütəxəssis qanunla müəyyən olunmuş səlahiyyətləri çərçivəsində prosessual sərbəstliyə malik olmaqla müstəntiq tərəfindən, cinayət

işi üzrə həqiqətin müəyyən edilməsi istiqamətində istiqamətləndirilir.

Mütəxəssis öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərərək sübutların aşkar edilməsində, qeyd olunmasında eləcə də götürülməsində iştirak edir. Ondan fərqli olaraq ekspert, artıq istintaq hərəkətləri nəticəsində əldə edilmiş obyektləri tədqiq edir. Mütəxəssisin sübutların alınmasına yönəlmiş fəaliyyəti olduqca əhəmiyyətlidir. Mütəxəssisin aktiv və məqsədyönlü fəaliyyəti nəticəsində elə məlumatlar əldə edilir ki, həmin məlumatlar sonra sübutetmə prosesində istifadə edilir. O cümlədən həmin məlumatlar istintaq hərəkətlərinin keçirilməsində və ekspertizaların aparılmasında istifadə edilir. Ona görə də öz mənasına görə mütəxəssisin fəaliyyəti sübutetmə prosesində ekspertin fəaliyyəti ilə sıx əlaqədə olmaqla yanaşı bir növ onu tamamlayır. Sübutların tədqiqi bir növ müstəntiqin müxtəlif istintaq hərəkətləri aparmağı nəticəsində onların yığması prosesindən aralı salır. Mütəxəssis istintaq hərəkətlərində iştirak etməklə ona lazım olan məlumatların istintaq hərəkətləri yerinə yetirilərkən müxtəlif mənbələrdən almaq imkanına malikdir. Qarşısında qoyulan məqsədlərdən və şəraitdən asılı olaraq o məlummatların mənbəyi və onların tədqiq edilməsi metodlarını seçir. İstintaq hərəkətləri yerinə yetirilərkən sübut mənbələrinin aşkar edilməsi və tədqiqi zamanı öz fəaliyyətlərinin və nəticələrinin yoxlanılması məqsədi ilə əlavə məlumatlar əldə edə bilər.

Mütəxəssis o vaxt istintaq hərəkətində iştirak etməyə çağırılır ki, onun xüsusi biliyinə ehtiyac yaranır. Ona görə də Azərbaycan Respublikası CPM-nin bəzi maddələrində bu və ya digər istintaq hərəkətlərinin yerinə yetirilməsi zamanı mütləq mütəxəssislərin iştirakı tələb olunur.

Məsələn: 16 yaşına qədər və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müəllim və psixoloqun iştirakı (CPM-nin 432-ci maddəsi), meyidin qəbirdən çıxarılması (ekskhumasiya) zamanı məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı (maddə 237), şəxsi müayinədə müstəntiq ə əks cinsdən olan şəxsin şəxsi müayinəsi zərurəti yarandığı halda müstəntiqin iştirakı olmadan onun tapşırığı ilə məhkəmə-təbabəti sahəsində mütəxəssisin iştirakının təmin edilməsi (maddə 238) və s.

Müstəntiq mütəxəssisi baxışda (maddə 236), istintaq eksperimentində (maddə 262), axtarış və götürmədə (maddə 244) iştirak etmək üçün dəvət edə bilər.

Əgər müəllim və həkimləri nəzərə almasaq ən çox mütəxəssis kimi cinayət işləri üzrə çağırılan şəxslər kriminalistlər olurlar.

Azərbaycan Respublikası CPM-nin 96-cı maddəsində mütəxəssisin anlayışı verilir və göstərilir ki, mütəxəssis cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxsdir.

Yetkinilk yaşına çatmamış zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidin dindirilməsində iştirak etmiş müəllim mütəxəssis hesab edilir.

Mütəxəssis cinayət prosesini həyata keçirən orqana zəruri kömək göstərilməsi üçün kifayət qədər biliyə və bacarığa malik olmalıdır.

Mütəxəssis hüquqi məsələləri həll etmir. Onun fikri ekspert rəyini əvəz etmir. Ekspert anlayışı Azərbaycan

Respublikası CPM-nin 97-ci maddəsində verilmişdir. Orada qeyd edilir ki, ekspert elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan, cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssiəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxsdir. Ekspert cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə və ya müdafiə tərəfindən dəvət oluna bilər.

Ekspert qarşısında qoyulmuş suallar üzrə rəy vermək üçün kifayət qədər elm, texnika, incəsənət və digər peşə sahələrinə aid xüsusi biliklərə malik olmalıdır.

Hadisə yerinin baxışında iştirak etmək üçün bioloqların, trasoloqların, torpaqşünasların, kimyaçıların və institutlarda məhkəmə ekspertizaları laboratoriyalarında işləyən şəxslərin, məsələn, (avtoqəza hadisələrində hadisə yerinə baxışda və istintaq ekspertimentində iştirak etmək üçün) çağırılmaları məqsədə müvafiqdir. Əməyin qorunması qaydalarının pozulması işləri üzrə mühəndis və təhlükəsizlik texnikası üzrə mütəxəssisləri cəlb etmək lazımdır. Axtarış və baxış zamanı bu və ya digər əmlakların adlarını, növünü və s. düzgün qeyd etmək üçün əmtəəşünas ixtisasına malik mütəxəssisləri işə cəlb etmək olar. Onları əmlak üzərinə həbs qoymaqla əlaqədar keçirilən istintaq hərəkətlərində də mütəxəssis kimi dəvət etmək olar.

Mütəxəssisin iştirakı müstəntiqin fəaliyyətni daha səmərəli və ixtisaslı edir, onun tərtib etdiyi prosessual sənədin düzgün tərtib olunmasına səbəb olur. Eyni zamanda mütəxəssisin iştirakı sübutların aşkar edilməsində, fiksə olunmasında, götürülməsində və qablaşdırılmasında yaxın köməkçi olub xüsusi əhəmiyyətə malik olurlar.

### *Xüsusi biliklərin tətbiq edilməsinin əsasları və formaları*

Biz xüsusi biliklərdən istifadə edilməsinin mahiyyəti, onun kriminalistik aspektləri ilə tanış olduq. Eyni zamanda mütəxəssis və ekspert anlayışlarını verərək, onların oxşar və fərqli cəhətlərini qeyd etdik. Hazırki sualda isə biz xüsusi biliklərdən istifadə edilməsinin hansı əsaslara görə mümkün olmasından, onlardan hansı formada istifadə olunmasından, tədqiqatların keçirilməsi üçün materialların hazırlanmasından və s. bəhs edəcəyik.

Xüsusi biliklərdən istifadə etmək subyektlərdən asılıdır. Yəni xüsusi biliklərdən onların prosessual və qeyri prosessual formada istifadə etmələri başa düşülür. Cinayətləri istintaq edərkən xüsusi biliklərdən istifadə edən subyektlər: müstəniq, təhqiqat aparan şəxs, istintaq şöbəsinin rəisi, prokuror-kriminalist, prokuror cinayət işinin başlanması və ibtidai istintaqı mərhələlərində, mütəxəssislər: ekspert, elm, texnika, incəsənət və sənətkarlıq sahəsində biliyə malik olan, lakin ekspert və ya mütəxəssis hüquqlarına malik olmayan şəxslər, eləcə də əməliyyat işçiləri ola bilərlər.

Bəs xüsusi biliklərdən qeyri-prosessual formada istifadə dedikdə hansı istifadə formaları başa düşülür?

Onlar aşağıdakılardır:

- məsləhət və arayış vermək;
- təftiş və auditor xidməti göstərmək;
- əməliyyat-axtarış fəaliyyətlərində iştirak etmək, o cümlədən müstəntiqə və əməliyyat işçisinə maddi obyektlərin əvvəlcədən tədqiqi ilə əlaqədar yardım göstərmək və texniki köməklik göstərmək.

Qeyd etmək lazımdır ki, xüsusi biliklərin qeyri-prosessual formada istifadə olunmasının nəticəsinin sübut kimi əhəmiyyəti olmur. Belə ki, onlar cinayət

prosessual qanunvericiliyin göstərdikləri mənbələrdə nəzərdə tutulmayıblar. Lakin cinayətkarlar axtarılarkən səmtləşdirici məlumat kimi istifadə olunmasında, cinayətlərin törədilmə və ört-basdır edilmə üsullarının müəyyən edilməsində hazırlanan və törədilən cinayətlərin əlamətlərinin müəyyənləşdirilməsində və s. onlardan geniş və səmərəli istifadə olunur.

Məsləhət və ya arayış vermə formasında xüsusi biliklərdən istifadə edilməsinin məqsədi-müstəntiqi əldə etdiyi məlumat əsasında düzgün səmtləşdirirmək, istiqamətləndirmək və cinayətin tez və tam açılmasına xidmət etməkdir. Məsləhət və arayışlar istər şifahi, istərsə də yazılı şəkildə verilə bilər. Yazılı arayışlar ya toplanmış materala, ya da cinayət işinə əlavə edilir.

Məsələn: narkotik vasitələrin və ya psixotrop maddələrin şəxsi istehlak miqdarından artıq qanunsuz olaraq əldə edilməsi, saxlanması, gəzdirilməsi və satılması işləri üzrə ekspertlərin fiziko-kimyəvi tədqiqat nəticəsində verdikləri rəylər. Həmin arayışlar Azərbaycan Respublikası CM-nin 234-cü maddəsi ilə cinayət işinin başlanması üçün müstəntiqə hüquqi əsas verir, onu bir növ səmtləşdirir, istiqamətləndirir. Qeyd edilən arayışlar cinayət işinə əlavə olunmurlar, lakin nəzarət icraatında saxlanılır və göstərildiyi kimi müstəntiqlər tərəfindən əsassız cinayət işinin başlanılmasının qarşısının alınması üçün xüsusi əhəmiyyətə malikdirlər. Təftiş və auditor xidməti formasında yoxlamaların məqsədləri elə yuxarıda qeyd edilən məsləhət və arayış vermə formalarında olan kimidir.

Qeyri-prosessual formada xüsusi biliklərdən istifadə edilmə CPM-nin normaları ilə tənzim olunmur. Onlar müəssisədaxili təlimatlar vasitəsilə və ya müstəntiqin və ya müstəntiqin öz fikrinə (qərarına) görə tənzimlənir.

Xüsusi biliklərin prosessual formada istifadə olunmasına aiddir:

- müstəntiqin öz xüsusi biliklərini tətbiq etməsi;
- istintaq hərəkətlərində mütəxəssisin iştirak etməsi;
- ekspertizanın aparılması.

Müstəntiqin xüsusi bilikləri dedikdə biz, onun professional və istintaq işçilərinin təkmilləşdirmə institutunda aldığı xüsusi bilikləri, kriminalistika sahəsində, məhkəmə təbabəti sahəsində və s. əldə etdiyi bilikləri başa düşürük.

Məsələn: məhkəmə espertizası sahəsində xüsusi biliyə malik olan müstəntiq ekspert qarşısında sualları düzgün və ardıcıl qoyur, onun nəticələrindən düzgün istifadə edir, ekspertin rəyinə düzgün qiymət verir. Əgər o, daktiloskopiya sahəsi üzrə papilyar naxışların növlərini yaxşı bilirsə özü qrup əlamətlərinə görə tədqiq olunan şəxslərin barmaq izlərinin sonradan tədqiq olunması barədə özü qərara gələ bilər və s.

İndi isə görək mütəxəssisin köməyinə nə vaxt ehtiyac duyulur və nə vaxt ekspertin rəyi gərək olur.

Əgər iş üzrə xüsusi biliklər bilavasitə sübutların toplanması, qeyd olunması və götürülməsi ilə əlaqədar olarsa, deməli istintaq hərəkətində iştirak etmək üçün mütəxəssis dəvət edilməlidir. Yox əgər artıq aşkar edilmiş sübutlar və faktiki məlumatlar əsasında iş üzrə halalr müəyyən olunmalıdırsa və bu haqda ekspert rəyi gərəkdirsə onda qərar əsasında ekspertizanın aparılması təyin edilir. Yəni ekspertizanın təyin olunması üçün hüquqi əsas sonra yaranır. Mütəxəssisin köməyi ekspert rəyini bir qədər qabaqlasa da bu təbii haldır və onların fəaliyyəti bir-birini tamamlayır.

Xüsusi biliyə malik olan mütəxəssisin dəvət edilməsi bir növ sübutların aşkar edilməsi, götürülməsi sahəsində müstəntiqin və ya digər subyektlərin yaxın

köməkçisi olmaqla həmin hərəkətlərin daha dolğun, daha səmərəli yerinə yetrilməsinə səbəb olur.

Mütəxəssisin fəaliyyəti prosessual tərəfdən aşağıdakı əlamətlərlə xarakterizə olunur:

a) mütəxəssisin fəaliyyəti istintaq hərəkəti çərçivəsində həyata keçirilir;

b) mütəxəssisin fəaliyyəti müstəntiqin rəhbərliyi ilə onun səlahiyyətləri daxilində həyata keçirilir;

c) xüsusi biliklər sübutların alınması üçün riayət ediləcək şərtlər daxilində tərtib edilir: əyanilik, məlumluq, bilavasitə aydınlaşdırmaq üçün imkana malik olmaq;

ç) mütəxəssisin fəaliyyətinin məzmunu ondan ibarətdir ki, o müstəntiqə sübutların aşkar edilməsi, qeyd olunması və götürülməsində köməklik göstərməklə yanaşı, müstəntiqin diqqətini həmin fəaliyyətlə əlaqədar məsələlərə yönəldir və etdiyi hərəkətlərin izahını verir;

d) mütəxəssisin istintaq hərəkətində iştirakının nəticəsi – əldə edilmiş və ya əyani görünən sübut olur.

Beləliklə, mütəxəssisin çağrılması cinayət işlərində xüsusi biliklərdən istifadə edilmənin ayrıca prosessual formasıdır. Qeyd olunmalıdır ki, məhkəmə-tibb ekspertinin və müəllimin mütəxəssis kimi fəaliyyətləri ən geniş yayılmışdır ki, bu da onların xüsusi biliklərə tələbatın böyük olması ilə əlaqədardır.

Qalan hallarda mütəxəssislərin cinayət işləri üzrə dəvət olumaları, müstəntiqlərin istntaq zamanı bu və ya digər elmlərə dair xüsusi biliklərinin ya olmaması, ya da kifayət qədər olmaması ilə əlaqədardır. Yeni müstəntiqin sərbəst olaraq özü bu və ya digər halda sübutları aşkarlayıb qeyd edir, götürməyə tək bacarığı çatmır, ona görə də mütəxəssisin köməyinə ehtiyac duyur. Digər tərəfdən ola bilər ki, müstəntiq hər-hansı bir texniki vasitədən sərbəst olaraq özü istintaq hərəkətlərini yerinə yetirərkən istifadə etməyi bacarır, lakin onun istintaqın

gedişatında çoxsaylı və təxirəsalınmaz istintaq hərəkətlərini yerinə yetirməsi ilə əlaqədar çox vaxt tələb olunduğundan texniki vasitələrin hazırlanması, istifadə edilməsi və təminatı üçün əlavə vaxt tapa bilmir. Ona görə də o bu sahədə xüsusi bilikləri olan mütəxəssisə müraciət etməli olur.

Mütəxəssis nə qədər savadlı və təcrübəli olarsa onun istintaq hərəkətində iştirakının səmərəliliyi artıq olar. Əksinə bu keyfiyyətlərə malik olmayan mütəxəssisdən istifadə edilməsi sübutların itirilməsinə gətirib çıxarır. Ən çətin vəziyyət isə o vaxt alınır ki, müstəntiq də cavan və təcrübəsiz olsun, onun dəvət etdiyi mütəxəssis də, Əgər onu da qeyd etsək ki, mütəxəssisin bəzən buraxdığı səhvləri sonradan aradan qaldırmaq, düzəltmək mümkün olmur və ya çox çətin olur, onda qeyd etdiyimiz məsələnin, yəni mütəxəssisin dəvət edilməsi zamanı onun təcrübəli və səlahiyyətli olmasının iş üzrə sübutların toplanmasında nə qədər əhəmiyyəti olmasını biz daha aydın təsəvvür edə bilərik.

Mütəxəssisin bu və ya digər istintaq hərəkətində iştirakı yalnız onun istintaq hərəkəti dövrünə təsadüf etmir. Ola bilər ki, o istintaq hərəkətinə qədər bunun üçün hazırlıq işləri görsün ki, məhz həmin istintaq hərəkəti effektiv nəticə versin. Digər tərəfdən də ola bilər ki, mütəxəssis istintaq hərəkəti qurtardıqdan sonra onun nəticələrinin əldə edilməsi üçün müəyyən işlər görməli olsun. Məsələn: maddi sübutları qablaşdırsın kino, foto plyonkaları aşkarlayıb onları bərkitsin və s. Mütəxəssis istintaq hərəkətində iştirak edərkən yeni texnikadan istifadə etməyi təklif edə bilər. Yəni elm və texnikanın yeni nailiyyətlərindən bu və ya digər istintaq hərəkətində istifadə etməyin səmərəli nəticə verə biləcəyini müstəntiqə təklif edə bilər və əgər bu doğrudan da istintaqın obyektiv və tam aparılmasına xidmət edərsə

onda qarşılıqlı razılaşma əsasında həmin texniki vasitədən və ya kriminalistik üsuldan işin xeyrinə istifadə etmək olar. Belə hallar istintaq eksperimentinin keçirilməsi zamanı, yetkinlik yaşına çatmayanların dindirilməsi zamanı taktiki fəndlərdən istifadə edilməsi ilə əlaqədar və s. istintaq hərəkətlərinin yerinə yetirilməsi zamanı ola bilər.

İstintaq hərəkətləri zamanı mütəxəssis aşağıdakı hərəkətləri edə bilər:

a) özü bilavasitə elmi-texniki vasitəni tətbiq edə bilər, sübutlar aşkar və qeyd etmə üsulunu tətbiq edə bilər;

b) izləri və maddi sübutları özü bilavasitə axtarıb tapa bilər, müşahidə, ölçmə, təcrübə, seçmə apara bilər, eləcədə izləri, nümunələri və başqa obyektləri götürə bilər;

c) məlumat kitablarından istintaq üçün lazım olan məlumatları verə bilər, müstəntiqə və istintaqın digər iştirakçılarına elmi-texniki vasitələrin tətbiqinə və istifadə edilən üsulun mahiyyətinə dair izahat verə bilər; eləcə də onun fikrinə görə iş üçün əhəmiyyət kəsb edən halları izah edərək onların protokola yazılmasını təklif edə bilər;

ç) aşkar edilmiş məlumatların protokola düzgün yazılmasında müstəntiqə kömək edə bilər;

d) hadisə yerinin sxeminin və planının tərtib edilməsinə kömək edə bilər;

e) dindirilən şəxslərə sualların düzgün qoyuluşuna kömək edə bilər.

Mütəxəssis süalları müstəntiqin icazəsi ilə verir. Müstəntiq onun suallarını qəbul etməsə də protokola salmağa borcludur.

Mütəxəssis sübutların aşkar olunması, qeyd edilməsi və götürülməsi ilə əlaqədar protokola salınan məlumatları verməyə haqlıdır. Eləcə də o protokolun

məzmunu ilə tanış olmaq və ona dair öz irad və təkliflərini vermək hüququna malikdir. O digər istintaq hərəkətinin iştirakçıları kimi protokolun sonunda imza edir. Ola bilər ki, bəzi hallarda o öz xüsusi biliklərini istinad edərək toplanmış sübutların nəticəsi barədə əvvəlcədən öz fikrini bildirsin. Məsələn: ölümün səbəbi barədə. Lakin onun bu fikri tərtib olunmuş protokolda qeyd olunmur və müstəntiq üçün yalnız istiqanətləşdirici məlumat rolunu oynayır.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, əgər xüsusi biliklər bilavasitə sübutların toplanması, qeyd olunması götürülməsi ilə əlaqədardırsa, onda istintaq hərəkətində iştirak etmək üçün mütəxəssis cəlb edilir. Yox, əgər aşkar olunmuş obyektlər və faktiki məlumatlar əsasında iş üzrə halların müəyyən edilməsi və rəy alınması gərəkdirsə, onda ekspertiza keçirilir.

Doğrudur, mütəxəssisin köməyinin vasitəsilə sübutların toplanması zamanı onların tədqiq olunması məhkəmə ekspertizası zamanı həmin sübutların tədqiq edilməsini bir qədər qabaqlayır. Lakin bu təbii haldır, çünki həmin vaxt hələ ekspertizanın təyin edilməsi üçün heç bir faktiki əsas olmur və bu əsas sonra yaranır.

Bəzi hallarda mütəxəssis ekspertiza üçün əlavə materialların toplanmasına kömək etmək məqsədi ilə də cəlb edilir.Adətən belə ekspertizanı aparan və istintaq hərəkətlərində iştirak etmək hüququna malik olan ekspertin köməyindən istifadə edilir. Materialların hazırlanmasında əsas tələblərdən biri odur ki, ekspertizanın təyin edilməsi prosessual cəhətdən əsaslandırılmalıdır. Digər tərəfdən, ekspertiza vaxtında təyin edilməlidir və hansı faktiki vəziyyətin ekspertizanın təyin edilməsi üçün səbəb olması ekspertə dəqiq bildirilməlidir. Ekspertə təqdim olunan materiallar mövcud

qaydalarla hazırlanmalı və tədqiqat obyektlərinin yaranması haqqındakı məlumatlar doğru olmalıdır.

Əsas məsələlərdən biri odur ki, ekspertə göndərilən tədqiqat obyektləri düzgün qablaşdırılmalı, izlər və sübutlar ekspertə çatana qədər öz bütövlüklərini itirməməlidirlər. Ona görə də qablaşdırma kriminalistikanın hazırladığı qaydalara uyğun aparılmalı, ekspert tədqiqatı obyektləri qablaşdırılarkən prosessual qaydalara müvafiq sənədləşdirilməlidir.

Xüsusi biliklərdən istifadə edilməsi elm və texnikanın inkişafı ilə əlaqədar olaraq daha da təkmilləşir və onların istifadəsi sahəsində həll edilən məsələlərin həcmi genişlənir. Kriminalistika bir çox elmlərin nailiyyətlərindən istifadə edərək təkmilləşdikcə, xüsusi biliklərdən istifadə edilərək cinayətlərin açılmasında və istintaqında daha geniş, daha səmərəli və məqsədyönlü istifadə ediləcəkdir.

İndi isə biz xüsusi biliklərin tətbiqi prosesində alınmış nəticələrdən cinayətin açılmasında və istintaqında necə istifadə edilməsini araşdıraq.

Elm və texnikanın tətbiqi olmadan cinayətlərin açılmasını təsəvvür etmək çətindir. Təcrübədə istintaq orqanları xalq təsərrüfatının müxtəlif sahələri üzrə xüsusi biliyə malik olan müxtəlif ixtisaslı mütəxəssislərin elmi təkliflərini öz təcrübi fəaliyyətlərində səmələri istifadə etməklə istintaqın qarşısında duran vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə nail olurlar.

Biz aşağıda qeyd ediləcək təcrübi misallarla xalq təsərrüfatının müxtəlif sahələri üzrə xüsusi biliyə malik müxtəlif ixtisaslı mütəxəssislərin biliklərindən cinayətlərin açılmasında necə istifadə edilməsinə nəzər salaq.

Qadının naməlum şəxs tərəfindən öldürülməsi ilə əlaqədar müstəntiq hadisə yerinə baxış keçirərkən hadisə yerində sağ ayaq üçün nəzərdə tutulan qaloş tapıb

götürmüşdür. Müstəntiq mütəxəssis kimi cəlb edilmiş ekspert-kriminalist ilə həmin qaloşdan cinayətin açılması üçün necə istifadə etməyi məsləhətləşmişdir. Mütəxəssis həmin qaloşu nəzərdən keçirib onun içərisində diblərdə xırda tozlar, pəncə hissəsində içərisinə sərilmiş qəzet parçası, eləcə də daban hissəsində qaloşa geyinilən ayaqqabının «batıq» şəkildə çökəkliyini aşkar etmişdir. Ekspert tədqiqat nəticəsində müəyyən etmişdir ki, qaloşun içərisində aşkar edilmiş tozlar un tozlarıqır. Qaloşun pəncə hissəsinə sərilmiş qəzet parçası isə çirkdən təmizləndikdən sonra məlum olmuşdur ki, o «Dəyirmançı» qəzetinin bir parçasıdır.

Müstəntiq ekspert rəyini aldıqdan sonra maraqlanaraq müəyyən etmişdir ki, öldürülən qadının dəyirmanda işləyən kişilərdən biri ilə münasibətləri olmuşdur. Onun evində axtarış apararaq sol ayaq üçün nəzərdə tutulan qaloş tapılıb götürmüşdür. Bundan sonra müstəntiq yenə də mütəxəssis kimi həmin ekspert-kriminalistlə görüşüb məsləhətləşmişdir. Müstəntiqi maraqlandıran bu məsələ olmuşdur: qaloşlar, yəni hadisə yerindən götürülmüş sağ ayaq üçün qaloşla, şübhəli şəxs olan dəyirmanda işləyən kişinin evindən götürülmüş qaloş bir cüt qaloşun taylarıdırlarmı? Ekspert tədqiqatı ilə müəyyən olunmuşdur ki, hər iki qaloşda tapılan un tozları eyni tərkibə malikdirlər. Eyni zamanda hər iki tay qaloşun pəncə hissəsinə sərilmiş qəzet parçaları əvvəl bir tam olmuş «Dəyirmançı» qəzetinin parçaları olmuşlar.

Müstəntiq daha sonra trasoloji ekspertiza təyin edərək müəyyənləşdirir ki, şübhəli şəxsin ayaqqabısının daban hissəsində olan mismar və dəri düyünü uzun müddət ayaqqabı qaloşun içərisində geyinildiyindən hər iki tay qaloşun daban hissəsində olan çökəkliyi yaratmışlar. Bununla da şübhəli şəxsin qadının

öldürülməsində təqsirli olmasını sübut edən dəlillər müəyyən edilmişdir.

Başqa bir misal: Gecə vaxtı Bakı-Sumqaüıt yolunda sağ tərəfdə dayanmış QAZ-69 avtomaşını ilə onun yanından keçən avtobus toqquşmuşlar. Avtobusun sürücüsü bildirmişdir ki, qəza vəziyyətini QAZ-69 avtomaşının sürücüsü yaratmışdır. Belə ki, o «stop» siqnalını yandırmamış, gecə vaxtı toqquşmaya səbəb olmuşdur. QAZ-69 avtomaşının sürücüsü isə əksini göstərmişdir.

Onlardan kimin doğru olmasını sübut etmək üçün mütəxəssis çağrılmış və o müəyyən olunmuşdur ki, toqquşma nəticəsində sınmış lampanın naqili açıq havada cərəyan altında 700 dərəcədən artıq qızararaq, qalıb oksidləşmə nəticəsində rəngini dəyişib tünd-qəhvəyi rəngli təbəqə ilə örtülmüşür. Bununla da müəyyən edilmişdir ki, «stop» siqnal hadisə vaxtı yanırmış və QAZ-69 maşının sürücüsü təqsirkar deyildir.

Bu misallardan aydın olur ki, mütəxəssislərin müxtəlif elm sahələri üzrə elmi bilikləri cinayətlərin açılmasında hüquq mühafizə orqanlarının tez-tez köməyinə gəlir, bu və ya digər halların aydınlaşdırılması üçün səmərəli istifadə edilir.

Qeyd edilənlər onu göstərir ki, müstəntiq və təhqiqatçılar mütəxəssislərlə bir növ «dostluq» etməli və mümkün qədər onların köməyindən vaxtında və məqsədyönlü istifadə etməlidirlər. Təcrübədə qeyd edilən vəzifəli şəxslər mütəmadi olaraq bir-biri ilə ünsiyyətdə olurlar, bu və ya digər baş vermiş cinayətlər barədə bir-biri ilə söhbətlər aparırlar. Aydın məsələdir ki, cinayətin istintaqı ilə bilavasitə məşğul olan şəxslər xüsusi biliyə malik olan mütəxəssis və ekspertlərə tez-tez müraciət edirlər. Lakin onların «dostluq» etmələri, başqa sözlə tez-tez qarşılıqlı ünsiyyətdə olmaları ümumi işin

xeyrinə olaraq xüsusi biliklərin daha çox, daha səmərəli və məqsədyönlü tətbiqinə gətirib çıxarır.

## *MÖVZU* № 14
## "İstintaq baxışı taktikası".

PLAN:

1. İstintaq baxışının anlayışı, növləri və vəzifələri.

2.Hadisə yerinə baxışın, mərhələləri, və onun taktiki xüsusiyyətləri.
3.Hadisə yerinə baxışın nəticələrinin rəsmiləşdirilməsi.

***SUAL 1***. İstintaq baxışının anlayışı, növləri və vəzifələri

Cinayət izlərini və digər maddi sübutları tapmaq, cinayətin törədilməsi şəraitini, habelə cinayətin açılması üçün əhəmiyyəti olan başqa halları aydınlaşdırmaq məqsədi ilə istintaq müayinəsi həyata keçirilir.

Baxış müstəqil istintaq hərəkətidir. O, digər istintaq hərəkətləri ilə bəzi oxşar cəhətlərə malik olsa da prosessual təbiətinə və aparılması taktikasına görə onlardan ciddi fərqlənir.

Baxışın məqsədi:

- Cinayətin və onun izlərinin aşkar edilməsi.

- Cinayətin törədilməsi şəraitinin aydınlaşdırılması.

-Cinayətin açılması üçün başqa halların aydınlaşdırılması.

Baxışa cəlb edilən obyektlərdən asılı olaraq, onu aşağıdakı növlərə ayırmaq olar:

a) hadisə yerinə baxış:

b) əşyalara baxış;

c) sənədlərə baxış;

ç) meyitə tapıldığı yerdə baxış;

d) bilavasitə hadisə yeri olmayan binalara və ayrı-ayrı yerlərə baxış;

ə) heyvanlara baxış;

c) şəxsi müayinə.

Əşyalara baxış onların ümumi görünüşünün öyrənilməsi ilə başlanır. Müstəntiq əşyanın vəziyyətini, onun adını və təyinatını, buna zərurət olduqda həmin əşyadan istifadə edilməsi qaydalarını müəyyənləşdirir. Sonra isə baxış prosesində əşyanın fərdi əlamətləri, onun qüsurları və xüsusiyyətləri, hansı təyinat üzrə istifadə edilməsini göstərən əlamətləri aşkar edilir.

Sənədlərə baxış sənəddə maddi sübut əhəmiyyəti kəsb edən əlamətlərin aşkar edilməsi, qeydə alınması, habelə onlarda əks olunan halların və faktların müəyyənləşdirilməsi məqsədi ilə həyata keçirilir. Sənədlərə baxış bir qayda olaraq maraq doğuran sənədin nədən ibarət olmasını, onun kimdə və harada saxlanılmasını, sənədin mənşəyini, onun ünvan sahibinə kimdən daxil olmasının aydınlaşdırılması ilə başlanır.

Müstəntiq maddi sübut əhəmiyyəti kəsb edən sənədlərə baxış zamanı onların həqiqiliyini aydınlaşdırmaq məqsədi ilə mümkün olan vasitələrdən

istifadə etməlidir. Bu məqsədlə o, sənədin məzmunu, formasını, materialını və ayrı-ayrı hissələrini, imzanı, möhür, ştamp əkslərini və s. öyrənməlidir.

Meyitə baxış əsasən ölümün nə vaxt baş verməsini, cinayətin şəraitini və zərər çəkmişin şəxsiyyətini müəyyən etməyə kömək edən izlərin və ya başqa maddi sübutların əlamətlərini müəyyən etmək məqsədini daşıyır. Meyitə baxış bir çox hallarda ölümün səbəbinin, cinayət törədilən zaman tətbiq olunan silahın və ya alətin növünün müəyyənləşdirilməsinə də kömək edir.

Meyitə baxış zamanı əsasən onun ümumi vəziyyəti tədqiq olunur, həmçinin onun paltarlarına, çılpaq bədəninə və onda olan zədələrə baxış keçirilir.

Binaya və ya müəyyən yerlərə baxış əsasən həmin binanın və ya yerin bilavasitə cinayət hadisəsi ilə əlaqəsi olduğu hallarda aparılır.

Təqsirləndirilən və ya şübhə edilən şəxs öz ifadəsində cinayətin izlərinin və cinayət alətlərinin habelə başqa maddi sübutları gizlətdikləri yerləri göstərdikləri hallarda, binaya yaxud müəyyən yerlərə baxış keçirilə bilər. Belə hallarda baxışda təqsirləndirilən, yaxud şübhə edilən şəxsin iştirakı məcburidir. Bu növ baxışın obyekti ambar, ticarət, istehsalat və yaşayış binaları, müxtəlif

ərazi sahələri, cinayət etmiş şəxslərin görüşdüyü yerlər ola bilər. Binaya və ya müəyyən yerlərə baxış hadisə yerinə baxışın ümumi qaydaları əsasında həyata keçirilir.

Bir sıra cinayətlərin istintaqı prosesində məsələn, mal-qara oğurluğu zamanı heyvanlara baxışın keçirilməsi zəruriyyəti meydana çıxır. Bu kimi hallarda adətən baxışın məqsədi heyvanın müəyyən təsərrüfat və ya konkret şəxsə aid olub-olmamasını aydınlaşdırılmaqdan, habelə heyvanın eyniləşdirilməsini həyata keçirməyə imkan verən əlamətlərinin aşkar edilməsindən ibarətdir.

Sənədlərə və əşyalara baxış bir qayda olaraq, müvafiq istintaq hərəkətləri aparılarkən həyata keçirilir. Şəxsin tutulması və ya həbs edilməsi halları istisna olmaqla insanın iradəsinə zidd onun şəxsi müayinəsi yalnız məhkəmənin qərarı əsasında aparılır.

Təqsirləndirilən və ya şübhəli şəxs üzərində şəxsi müayinənin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir.

Zəruri hallarda şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır. Barəsində şəxsi müayinə aparılan şəxsin soyundurulması ilə müşayiət edən şəxsi müayinə eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır.

Əks cinsdən olan şəxsin soyundurulması zərurəti yarandığı halda müstəntiq, təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi həmin istintaq hərəkətinin aparılmasında iştirak edə bilməz. Bu halda müstəntiqin tapşırığı ilə şəxsi müayinə həkimin və ya məhkəmə təbabəti sahəsində mütəxəssisin iştirakı ilə aparılır.

Şəxsi müayinə qurtardıqdan sonra müstəntiq protokolu tərtib edir və bu protokolda aşağıdakılar göstərilir:

– şəxsi müayinənin aparıldığı vaxt, tarix və yer;

– müstəntiqin soyadı, adı və atasının adı, vəzifəsi;

– şəxsi müayinədə iştirak etmiş məhkəmə təbabəti sahəsində mütəxəssisin və ya hakimin vəzifəsi, soyadı, adı və atasının adı;

– şəxsi müayinənin aparılmasında iştirak edən şəxslərin soyadı, adı və atasının adı, habelə onların doğulduğu il, ay gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifələri, faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

– müşahidə edilmə ardıcıllığı ilə şəxsi müayinə zamanı bütün aşkar olunanlar.

Şəxsi müayinə protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq

hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir neçə səhifədə tərtib edildikdə onun hər bir vərəqi istintaq hərəkətinin iştirakçıları tərəfindən imzalanır.

Baxışın əhəmiyyəti ondan ibarətdir ki, yığılmış və tədqiq edilmiş maddi sübutlar əsasında müstəntiq cinayət işinin istintaqını düzgün istiqamətləndirir.

***SUAL 2. Hadisə yerinə baxışın mərhələləri, və onun taktiki xüsusiyyətləri*.**

Baxışın göstərilən növləri sırasında hadisə yerinə baxış bütün hallarda müstəqil istintaq hərəkəti kimi aparılır və cinayət işi üzrə sübutların toplanmasında mühüm əhəmiyyət kəsb edir.

Hadisə yerinə baxış müstəqil istintaq hərəkətidir, Azərbaycan Respublikası CPM-nin 236-cı maddəsi ilə tənzimlənir.

Hüquq ədəbiyyatlarında hadisə yerinə baxışa verilən təriflər bəzən bütün tələblərə cavab vermir.

Şalamov M.P. göstərir ki, hadisə yerinə baxış cinayət izlərini və müxtəlif maddi sübutların aşkar edilməsi, baş vermiş hadisənin vəziyyətinin və iş üçün

əhəmiyyəti olan digər halların qeydə alınması məqsədi ilə aparılan istintaq hərəkətidir.

A.N.Vasilyevə görə hadisə yerinə baxış cinayətin izlərini və digər sübutları tapmaq, cinayətin törədilmə şəraitini, habelə cinayətin açılması üçün əhəmiyyəti olan başqa halları aydınlaşdırmaq məqsədi ilə hadisə yerini müstəntiqin bilavasitə qavraması və qeydə alması yolu ilə tədqiq etməsindən ibarət olan istintaq hərəkətidir.

R.S. Belkin hadisə yerinə baxışa daha düzgün və tam tərif vermişdir. O, göstərir ki, hadisə yerinə baxış başqa sübutların məcmusu ilə istintaqı aparılan hadisənin mexanizmi və digər halları haqqında nəticə çıxarmağa imkan verən və hadisə yerinin vəziyyətinin, cinayətin və cinayətkarların izlərinin və digər faktiki məlumatların müəyyənləşdirilməsinə, qeydə alınmasına və tədqiq olunmasına yönəlmiş təxirəsalınmaz istintaq hərəkətidir.

Hadisə yerinə baxışın əsas vəzifələri aşağıdakılardır:

1. cinayətin baş verməsi şəraitinin, onun mexanizminin və digər halların aydınlaşdırılması;
2. hadisə yerinə baxış protokolunda və protokola edilən əlavələrdə hadisə yerinin bütün vəziyyətini tam və dəqiq əks etdirilməsi;

3. cinayət hadisəsinin baş verdiyi vəziyyəti canlandırmaq və istintaqı düzgün istiqamətə yönəltmək üçün lazımi fərziyyələrin müəyyənləşdirilməsi;
4. başqa sübutların aşkar edilməsi və ya yoxlanılması üçün istifadə oluna biləcək məlumatların müəyyənləşdirilməsi;
5. cinayətkarların şəxsiyyətini və bir sıra hallarda isə cinayətin motivinin müəyyən edilməsi.

**Hadisə** yerinə baxışın əsas prinsiplərinə aşağıdakılar aiddir.

Qanunçuluq - bu istintaq hərəkətinin cinayət-prosessual qanunvericiliyin normaları əsasında və onlara tam müvafiq surətdə aparılmasını tələb edir. Cinayət-prosessual qanunvericiliyin müvafiq normalarının tələblərinə zidd həyata keçirilən baxışa yol verilə bilməz.

Təxirəsalınmazlıq, müstəntiqin və hadisə yerinə baxışın digər iştirakçılarının hadisə yerinə yubanmadan getmələri kimi, dərhal baxışa başlamaları ilə təmin edilir. Yalnız belə olduğu halda maddi sübutlar ola bilən izləri və predmetləri maksimum sayda aşkar etmək, götürmək, tədqiq etmək və rəsmiləşdirmək, eləcə də onların itkisinin qarşısını almaq olar.

Tamlıq, bu istintaq hərəkətinin elə bir səviyyədə həyata keçirilməsindən ibarətdir ki, bu zaman istintaqı aparılan cinayətə aid bütün izlər və predmetlər aşkar edilir, götürülür və hadisə yerinə baxış protokolunda qeyd edilir.

Planlılıq, hadisə yerində müstəntiq tərəfindən dərketmə hərəkətlərinin ardıcıllığının düzgün müəyyən edilməsi deməkdir. Buna o şərtlə nail olmaq olar ki, müstəntiq hadisə yerinin şəraitinə, ayrı-ayrı izlərin və predmetlərin təsadüfi məcmusuna deyil, cinayətkarın, onun qurbanlarının və sair şəxslərin qanunauyğun şəkildə əks etdirən qarşılıqlı əlaqəli subyektlər sistemində yanaşır.

Obyektivlik, hadisə yerinə baxış zamanı izlərin və predmetlərin müstəntiq tərəfindən irəli sürülən fərziyyələrlə təsdiq edilib-edilməməsindən ibarətdir.

**Hadisə yerinə baxışın taktiki üsulları:**

– baxışın vaxtında keçirilməsi;

– bütün faktiki məlumatların müəyyən edilməsi (nəyi görür və qeyd edir);

– metodik cəhətdən hadisə yerinə baxışın düzgün və planlı təşkil edilməsi;

– baxış zamanı kriminalistik- texniki vasitələrin tətbiqi;

– baxışa vahid rəhbərlik- hadisə yerində baxışa müstəntiq rəhbərlik edir;

Cinayət hadisəsini müşahidə edən və cinayətdən zərər çəkmiş şəxslər, adətən, baş vermiş hadisə haqqında yaxın polis şöbəsinə və ya istintaq, prokurorluq orqanlarına xəbər verirlər. Müstəntiq verilən məlumatın xarakterindən asılı olaraq, hadisə yerinə baxış məsələsini həll etməlidir.

Hadisə yerinə baxış üç mərhələdən ibarətdir: hazırlıq, işçi və nəticələrin rəsmiləşdirilməsi.

Hadisə yerinə baxışın hazırlıq mərhələsi iki hissədən ibarətdir:

a) müstəntiqin hadisə yerinə gələnə qədər gördüyü işlər;

b) onun hadisə yerinə gələndən sonra baxışa başlayana qədər gördüyü işlər.

Müstəntiq hadisə yerinə gələnə qədər aşağıdakı hazırlıq işlərini həyata keçirməlidir:

a) hadisə yerinin toxunulmazlığını təmin etməli;

b) baxışda tətbiq edilən elmi-texniki vasitələrin yararlı olmasını yoxlamalı;

c) baxışa cəlb ediləcək şəxslərin dairəsini müəyyənləşdirməli və onların iştirakını təmin etməli.

Müstəntiq hadisə yerinə gəldikdən sonra baxışa başlamaq üçün aşağıdakı hazırlıq işlərini görməlidir:

a) baxışa maneəçilik göstərə bilən şəxsləri hadisə yerindən kənar etməli;

b)zəruriyyət yarandıqda hadisədən zərər çəkmiş şəxslərə tibbi yardım göstərilməsini təmin etməli

c)ilk hadisə yerinə gələn polis işçiləri tərəfindən hadisə yerinin qorunub-qorunmamasının və cinayətkarın aşkar edilməsini, onun yaxalanmasının təşkil edilməsini müəyyənləşdirməli;

ç)hadisə haqqında məlumat toplamalı;

d)əgər hal şahidləri dəvət edilməmişsə, onları dəvət etməli, hüquq və vəzifələrini onlara izah etməli;

e) baxış yerinin sərhədini və baxışın aparılma metodunu müəyyənləşdirməli;

Müstəntiq cinayət haqqında məlumat alan kimi mümkün qədər tez bir zamanda hadisə yerinə baxış keçirməyə başlamalıdır. Lakin o, hadisə yerinə nə qədər tez getsə də cinayət hadisənin baş verməsi ilə onun hadisə yerinə getməsi arasında müəyyən müddət keçir. Bu müddət ərzində hadisə yerinin vəziyyəti və ya orada olan ayrı-ayrı

izlər və maddi sübutlar qəsdən, bəzi hallarda isə heç bir marağı olmayan şəxslər tərəfindən dəyişilə və ya məhv edilə bilər. Belə halların qarşısını almaq məqsədi ilə müstəntiq hadisə yerinin toxunulmazlığını təcili olaraq, təmin etmək üçün tədbirlər görməlidir.

Cinayət hadisəsinin baş verməsi barədə bilavasitə sahə müvəkkilinə və ya polis şöbəsinin başqa işçilərinə xəbər verilə bilər. Bu zaman cinayət hadisəsi xəbərini alan hər bir polis işçisi dərhal hadisə yerinə getməli və bu barədə müstəntiqə xəbər verməlidir.

Hadisə yerinə gələn polis işçiləri hər şeydən əvvəl zərər çəkmiş şəxsə tibbi yardımın göstərilməsi məsələsini həll etməlidir.

Əgər zərər çəkmiş şəxsə tibbi yardım göstərmək zəruridirsə, o, dərhal yaxında olan həkim məntəqəsinə aparılmalıdır. Polis işçisi zərər çəkmiş şəxsi həkim məntəqəsinə apararkən, hadisə haqqında bir sıra məlumatları ondan aydınlaşdırmalıdır. Bu zaman cinayətkarın sayı, onları zərər çəkmiş şəxsin tanıması, zahiri görünüşləri və s. məsələlər haqqında ətraflı məlumat alması zəruridir.

***Baxışda tətbiq edilən elmi-texniki vasitələrin yararlı***

***olmasının yoxlanılması.***

Hadisə yerinə baxış zamanı elmi-texniki vasitələrdən bacarıqla istifadə edilməsi onun keyfiyyətli aparılmasının təmin edilməsində mühüm rol oynayır. Elmi-texniki vasitələrdən düzgün istifadə edilməməsi və eləcə də müstəntiqin təşəbbüssüzlüyü baxışın keyfiyyətsiz aparılmasına səbəb olur.

Hadisə yerində izlərin və digər maddi sübutların götürülməsində, qeyd edilməsində istintaq çamadanında olan vasitələrdən geniş istifadə edilməlidir. İstintaq çamadanında müstəntiqin müxtəlif izlər, digər maddi sübutlar üzərində müvəffəqiyyətlə müayinə aparılmasını təmin edən bütün zəruri alət və vasitələr yerləşir. O, bunların yararlı halda saxlanılmasına xüsusi qayğı göstərməlidir. Çünki hər hansı alətin və ya vasitənin olmaması və yararsız olması müstəntiqin işini çətinləşdirir və baxışın keyfiyyətli aparılmasına mənfi təsir göstərir. Məsələn, hadisə yerində qalmış ayaq və əl-barmaq izlərinin gips və ya müxtəlif tozlar olmadan götürmək mümkün deyildir. Həmçinin xətkeş və kompas olmadan ölçmək və coğrafi istiqamətini müəyyənləşdirmək qeyri mümkündür.

Odur ki, müstəntiq hadisə yerinə gələrkən, istintaq çamadanındakı alət və vasitələrin tamlığını yoxlamalıdır.

Hal şahidlərinin dəvət edilməsi. Cinayət-prosessual qanunvericiliyi baxış aparılarkən, hal şahidlərinin mütləq iştirakını tələb edir. İstintaq təcrübəsi göstərir ki, törədilmiş cinayətin xarakterindən asılı olaraq, zərər çəkmiş şəxsin həyat şəraitindən yaxşı xəbərdar şəxslərin hal şahidi qismində dəvət edilməsi daha yaxşı nəticələr verir, adətən belə adamlar baxış zamanı meydana çıxan ayrı-ayrı məsələləri aydınlaşdırmaqda müstəntiqə kömək edirlər.

Müstəntiq hal şahidlərinin baxış zamanı nə kimi hüquq və vəzifələrə malik olmalarını, baxışın məqsədini onlara izah edir.

O, baxış zamanı hadisə yerində aşkara çıxarılan əşyaların əlamətləri ilə hal şahidlərini tanış etməli və törədilmiş cinayətlə bu əşyaların nə dərəcədə əlaqədar olmasını onlarla birlikdə aydınlaşdırmalıdır. Bu baxışın dəqiq aparılmasına və eləcə də baxış protokolunun dolğun yazılmasını təmin edir. Nəzərə almaq lazımdır ki, hadisə yerinə baxış protokolu cinayət işləri üzrə sübut növlərindən biri sayılır.

Əgər hadisə yerinən baxış protokolunun dolğunluğu haqqında şübhə yaranarsa, məhkəmə bunu hadisə yerinə baxış zamanı iştirak edən hal şahidləri məhkəməyə dəvət edib onları dindirmək yolu ilə yoxlaya bilər.

Baxış aparılarkən, hal şahidlərindən başqa, buna zərurət olduqda müstəntiq tərəfindən hadisə yerinə təqsirləndirilən şəxs və ya şübhəli şəxs, zərərçəkmiş şəxs, şahidlər də dəvət oluna bilər (Azərbaycan Respublikası CPM-nin 236-cı maddəsi).

***Hadisə yerində mütəxəssislərin iştirakı.***

Bir çox hallarda baxış zamanı müxtəlif elm, peşə və sənət sahələrinə aid olan məsələlərin aydınlaşdırılmasına ehtiyac yaranır. Belə hallarda baxışın obyektiv və tam aparalıması məqsədi ilə xüsusi biliyə malik olan şəxslərin dəvət edilməsi zəruridir. Azərbaycan Respublikası CPM-nin 236.5. maddəsində deyilir ki, müstəntiq baxışda iştirak etmək üçün mütəxəssislər dəvət edə bilər. Mütəxəssislər hadisə yerinə baxışda iştirak etməklə müstəntiqə kömək edir.

Onlar xüsusi biliyə əsasən hadisə yerinin vəziyyətinin daha dəqiq müəyyən olunmasında və protokolun tam və düzgün yazılmasında və s. xüsusi bilik

tələb edən bu kimi başqa məsələlərin həllində müstəntiqə yaxından kömək edirlər.

Baxışa hansı ixtisas üzrə mütəxəssislərin dəvət edilməsi məsələsi, hadisənin xarakteri nəzərə alınmaqla bilavasitə müstəntiqin özü tərəfindən həll olunur. Məsələn, yanğın baş verən zaman yanğından mühafizə idarəsinin əməkdaşı, istehsalatda bədbəxt hadisələr baş verən zaman müvafiq ixtisaslı mühəndisi, adam öldürmə cinayətlərində məhkəmə - tibb eksperti, yol nəqliyyat hadisələrində dövlət yol polisi idarəsinin əməkdaşını və i.a. müstəntiq baxış zamanı mütəxəssis qismində dəvət edə bilər.

Baxışın tam və hərtərəflı aparılması məqsədi ilə çox hallarda mütəxəssis kriminalistlərin də iştirakı tələb olunur. Məsələn, hadisə yerində odlu silahın tətbiq edilməsini göstərən izlər oluqda, yaxud sındırma aləti izləri və s. olduqda mütəxəssis kriminalistlərin iştirakı xüsusi ilə vacibdir. Hadisə yerinə dəvət olunan kriminalistlər müstəntiq və ya təhqiqat aparan şəxsə maddi sübutların aşkar edilməsində və qeydə alınmasında yaxından köməklik göstərməlidir. (CPM. m.96-cı maddəsi).

Bununla yanaşı, kriminalistlər hadisə yerinin planının çəkilməsində, aşkar edilmiş izlərin və digər maddi sübutların düzgün qablaşdırılmasında, habelə baxış prosesində aşkar edilmiş maddi sübutların və halların protokolda dəqiq qeydə alınmasında az rol oynamırlar. Baxışda iştirak etmək üçün hadisə yerinə dəvət olunan mütəxəssislər baxışın müvəffəqiyyətlə başa çatdırılmasında böyük rol oynayırlar.

Müstəntiq bunu nəzərə almalı və hər bir konkret halda hadisənin xarakterindən asılı olaraq, hansı mütəxəssislərin baxışa dəvət olunmasını dərhal müəyyənləşdirməli və onların iştirakını təmin etməlidir.

İlkin məlumatların toplanması. Baxış üçün nəzərdə tutulmuş hərəkətlərindən biri də ilkin məlumatların toplanmasıdır. Müstəntiq hadisə yerinə gəlib, baxışa başlayana qədər hadisə haqqında məlumatı olan şəxsləri müəyyən etməli və onlardan  baş vermiş hadisənin xarakteri haqqında məlumatlar toplayır və həmin məlumatları dəqiqləşdirir. Həmin məlumatlar hadisənin nədən ibarət olmasını aydınlaşdırmaq məqsədi ilə müvafiq tədbirlərin görülməsinə, hadisə yerinin qorunmasına, cinayətkarın müəyyənləşdirilməsinə,

tutulmasına və bu kimi başqa mühüm halların aydınlaşdırılmasına şərait yaradır.

Müstəntiq cinayət hadisəsi haqqında məlumat toplayarkən, həm də hadisə yerinin ilkin vəziyyətində dəyişiklik baş verib-vermədiyini, dəyişiklik baş vermişsə bunun kim tərəfindən, nə vaxt və nə məqsədlə edildiyini də müəyyənləşdirməyə çalışmalıdır.

Hadisə haqqında tam və dəqiq məlumat əldə edilməsi aparılan baxışın daha keyfiyyətli başa çatdırılması üçün zəmin yaradır.

Adətən bu məlumatlar hadisə yerinə ilk dəfə gəlmiş polis işçilərindən, icra hakimiyyətinin nümayəndələrindən, ərazisində hadisə baş vermiş idarə və ya müəssisənin vəzifəli şəxslərindən, habelə hadisəni gözü ilə görənlərdən və zərər çəkmiş şəxslərdən alına bilər.

Müstəntiq hadisə haqqında ilk məlumatları hadisəni görənləri, onu birinci dəfə müşahidə edənləri, zərər çəkmiş şəxsin qohumlarını və ya ona yaxın şəxsləri dindirməklə alır. Zərər çəkmiş şəxsin və hadisəni gözü ilə görənlərin dindirilməsi lazımi məlumatların alınmasını təmin edərək, istintaqın gələcək istiqamətini müəyyənləşdirməkdə mühüm rol oynayır.

Sorğu-sual nəticəsində alınan məlumatlar cinayət hadisəsi və bu cinayəti törətmiş şəxs və ya şəxslər haqqında düzgün fərziyyələrin yaranmasına imkan verir. Bu zaman cinayətkarın yoxlanılmasını təmin edən tədbirlərin görülməsinə və işin istintaqı üçün əhəmiyyəti olan məlumatların aydınlaşdırılmasına xüsusi fikir vermək lazımdır. Bu şəxslər xüsusilə cinayətin törədilməsi şəraiti, cinayətkara xas əlamətlər və cinayətkar əməlin yönəldilmiş olduğu obyektlərin əlamətləri barəsində ətraflı dindirilməlidir.

İstintaq təcrübəsi göstərir ki, hadisə yerində baxış aparılan zaman yuxarıda göstərilən şahidlərin aşkar edilib, sorğu-suala tutulması ilə kifayətlənmək olmaz. Bəzən müstəntiq işi üçün daha çox əhəmiyyəti olan başqa şahidləri də tapa bilər, lakin bu cür şahidlərin müəyyənləşdirilməsinə çox vaxt səy göstərilmir. İstintaq aparan müstəntiq belə şahidlərin aşkar edilməsinə çalışmalı və buna nail olmalıdır.

Lazım olan ilk məlumatlar alındıqdan sonra müstəntiq baxışın hansı ardıcıllıqla aparılmasını müəyyən etmək məqsədi ilə hadisə yerini ümumi nəzərdən keçirir.

Hadisə yerinə baxış zamanı müsbət nətisə əldə etmək məqsədi ilə baxış prosesində müəyyən edilmiş aşağıdakı taktiki qaydalara riayət olunmalıdır:

a) hadisə yerində baxışı yubanmadan vaxtında aparmaq;

b) hadisə yerində izlərin və digər maddi sübutların müayinəsi və qeydə alınması zamanı kriminalistik – texniki vasitələrdən və üsullardan bacarıqla istifadə etmək;

c) baxışı mütəşəkkil surətdə aparmaq.

Hadisə yerində baxışın keyfiyyəti həmin qaydalara baxış zamanı nə səviyyədə əməl edilməsindən çox asılıdır. Məsələn, hadisə yerində baxışın vaxtında aparılmaması onun keyfiyyətini olduqca aşağı sala bilər. Çünki bu hadisə yerində qalmış izlərin və digər maddi sübutların məhvi və bəzi hallarda isə keyfiyyətinin itirilməsi ilə (küləyin, yağışın, qarın, istinin və s. təsirindən) nəticələnir. Hadisə yerinə vaxtında baxış keçirildikdə cinayətkarın qoyduğu izlərin və digər maddi sübutların əldə olunmasına, iş üzrə fərziyyələrin düzgün irəli sürülməsinə və s. imkan yaradır.

Hadisə yerinin vəziyyətində dəyişikliklər edilə biləcəyi ehtimalı olduğu hallarda baxışı təcili başlamaq xüsusilə vacibdir.

Azərbaycan Respublikası CPM-nin 236-cı maddəsinə müvafiq olaraq, hadisə yerində baxış təxirə salına bilməyən hallardan başqa, gündüz aparılır. Baxış gecə aparıldıqda hadisə yeri işıqlandırılmalıdır. Lakin süni işıqda bəzi hallarda hadisə yerində olan ayrı-ayrı izlərin və mikrohissəciklərin tam aşkar edilməsi hər vaxt mümkün olmur. Belə hallarda hadisə yerinə təkrar baxış keçirilməlidir.

Müstəntiq baxış zamanı taktiki qaydalara riayət etməklə yanaşı, elmi-texniki vasitələrdən də bacarıqla faydalanmalı və baxışı prosessual qaydada düzgün rəsmiləşdirməlidir.

Başqa sözlə desək, müstəntiq hadisə yerində baxış planını tutmalı və baxışı ardıcıl aparmalı, baxış prosesində müəyyən edilmiş halları aydınlaşdırmalı, cinayət hadisəsi haqqında olan fərziyyələrin hamısını yoxlamaqla baxışı ətraflı aparmalı, statik və dinamik baxışın ardıcıllığına ciddi riayət etməli, maddi sübutların cinayət hadisəsi ilə əlaqəli olub-olmamasını təyin etməli, cinayət izlərini aşkara çıxarmalı və qeydə alaraq, əhəmiyyət kəsb edən əşyaların vəziyyətini və onların üzərindəki izlərin hansı qaydada yerləşmələrini dəqiqləşdirməli, iş üçün əhəmiyyət kəsb edən izlərin və

digər madd sübutların fotoşəklini çəkməli, hadisə yerinin sxemini tərtib etməli, hadisə yerində baxışı prosessual qaydada düzgün rəsmiləşdirməli, cinayət alətlərinin axtarışını təmin etməlidir.

Hadisə yerinə baxışın işçi mərhələsi statik və dinamik baxışa ayrılır.

Statik baxışda sahənin sərhədini müəyyənləşdirmək məqsədi ilə hadisə yeri ümumi gözdən keçirilir. Baxışın hansı ardıcıllıqla aparılması aydınlaşdırılır, istiqamətləndirici və icmal fotoşəkillər çəkmək üçün yer seçilir və s. Bundan sonra müstəntiq baxışın iştirakçıları ilə birlikdə hadisə yerində hansı obyektlərin olmasını, bunların nə cür yerləşməsini və qarşılıqlı əlaqəsini müəyyən edir və həmin obyektlərin xarici görünüşünü öyrənir.

Statik baxışda hadisə yerinin vəziyyətində heç bir dəyişiklik aparılmır və hər şey olduğu kimi qalır. İstintaq təcrübəsindən məlumdur ki, bəzən təcrübəsi az olan müstəntiqlər hadisə yerində mühüm maddi sübut gördükdə (məsələn, cinayətin tördəilməsində işlədilmiş silah) dərhal onu götürüb baxırlar. Bu isə sonralar silahın hansı yerdə və nə vəziyyətdə yerləşməsi haqqında məsələni aydınlaşdırmaqda çətinlik törədir. Odur ki,

baxışın statik mərhələsində iş üçün maddi sübut əhəmiyyətli halları planda qeydə almaq, hadisə yerinin və ətraf yerlərin fotoşəkillərini çəkmək, predmetlərin hansı vəziyyətdə tapılmasını qeyd etmək lazımdır.

Hadisə yerinin vəziyyəti qeyd edildikdən sonra ikinci dinamik baxış başlanır. Dinamik baxışın məzmunu hadisə yerindəki izlərin və başqa maddi sübutların ayrılıqda hərtərəfli müayinə olunmasından və bunların kriminalistik elmi-texniki üsül və vasitələrdən istifadə edilərək möhkəmləndirilməsindən ibarətdir. (Məsələn, əl izlərinin müxtəlif tozlar vasitəsilə aşkara çıxarılması və daktiloplyonkaya köçürülməsi və yaxud aşkar olunmuş ayaq izlərinin gips vasitəsilə götürülməsi).

Ümumiyyətlə, dinamik baxışda, obyektlərə mükəmməl və ətraflı baxış keçirilir və bu məqsədlə əşyalar yerindən tərpədilir, çevrilir və s.

Hadisə yerində və onun ayrı-ayrı obyektlərində cinayətin və cinayətkarın izlərinin axtarışı və onların aşkar edilməsi üçün mümkün olan bütün tədbirlər görülür, üzərində iz qalmış obyektlər, yaxud obyektlərin iz qalmış hissələri götürülür. Obyektin baxılacaq sahəsinin sərhədi qabaqcadan müəyyənləşdirməlidir. İstintaq təcrübəsi göstərir ki, baxış aparan müstəntiq baxış aparılacaq

sahəsinin sərhəddinin bəzən qabaqcadan deyil, baxış aparan zaman müəyyən edir. Bunu düzgün hesab etmək olmaz. Çünki, baxış keçiriləcək sahənin sərhədi qabaqcadan müəyyən edilmədikdə onun mühafizəsini təşkil etmək mümkün olmur. Bu isə cinayətin istintaqı üçün əhəmiyyət kəsb edən izlərin və digəri maddi sübutların itməsi ilə nəticələnə bilər.

Baxış aparılacaq sahənin sərhədinin müəyyən edilməsi hadisə şəraitindən və törədilmiş cinayətin xarakterindən asılıdır. O, elə müəyyənləşdirməlidir ki, iş üçün əhəmiyyəti olan izlərin və digər maddi sübutların aşkara çıxarılıb qeydə alınmasına imkan versin. Konkret şəraitdən asılı olaraq, baxışı ilk müəyyən edilmiş sahədə deyil, daha geniş miqyasda aparmaq zərurəti qarşıya çıxa bilər. (Məsələn, baxışı təkcə oğurluq edilmiş evdə deyil, həm də evin həyətyanı sahəsində də aparmaq lazım gəlir).

Baxış keçiriləcək sahənin dairəsi müəyyənləşdirildikdən sonra onun qorunması təşkil olunur və bundan sonra isə baxışın hansı ardıcıllıqla keçiriləcəyi qərara alınır.

Hadisə yerinə baxış əsasən üç üsulla aparılır:

a) ətrafdan mərkəzə doğru (konsentrik);

b) mərkəzdən ətrafa doğru (ekssentrik);
c) hissə-hissə (frontal). Baxışın aparılma üsullarının tətbiqinə dair daimi qayda yoxdur. Baxış zamanı üsulun seçilməsini müstəntiq müəyyən edir. Baxış üsullarından başqa onun aparılma metodları da mövcuddur. Subyektiv və obyektiv metodlar. Hadisə yerində subyektiv baxış metodu baxışın cinayətkarın hadisə yerində hərəkətini əks etdirən izlər üzrə aparılmasını nəzərdə tutur. Baxış göstərilən metodla aparıldıqda hadisə yerində cinayətkarın bilavasitə hərəkəti ilə əlaqədar olmayan, lakin iş üçün heç də az əhəmiyyət ksəb etməyən dəyişikliklər müstəntiqin nəzərindən kənarda qalır. Bu da əksər hallarda baxışın tam və hərtərəfli aparılmasına mənfi təsir göstərir.

Obyektiv baxış metodu hadisə yerinin bütün elementlərinə başdan-başa baxış keçirilməsini nəzərdə tutur. Bu istintaq hərəkətinin daha tam və hərtərəfli aparılmasına təminat yaradır. Lakin müəyyən hallarda müstəntiq subyektiv baxış metodundan da istifadə edə bilər.

Müstəntiq hadisə yerinə baxışa adətən cinayətkarın hər hansı görünən izindən başlayır. Məsələn, pəncərənin qabağında sınmış şüşənin və digər əşyaların olması

cinayətkarın hansı yol ilə evə girməsini və ya çıxmasını göstərir.

Lakin bu cinayətkarın izinə düşmək üçün kifayət deyildir. Çünki, belə hallarda müstəntiq hadisə yerində cinayətkarın hərəkət istiqamətini izləməyə və eləcə də hadisə yerindəki digər maddi sübutlar əldə etməyə imkan tapmır. Bir qayda olaraq, müstəntiq hadisə yerində cinayətkar tərəfindən təsadüfi olaraq, buraxılmış izlərə rast gəlir. Buna görə ayrı-ayrı izlərin aydınlığından asılı olmayaraq, hadisə yerinə başdan-başa baxış keçirilməsi metodu daha düzgün hesab edilməlidir. Müstəntiq baxışı bu üsul ilə apardıqda, hadisə yerində heç bir əşyanın yaddan çıxmamasına və cinayətkarın ifşa olunmasında mühüm rol oynayan bütün halların aşkar edilməsinə nail ola bilər.

İzlər hadisə yerinin mərkəzində aşkar olunsa, onda ətrafda baxış aparmağa ehtiyac qalmır. Məsələn, tarlada və ya çəmənlikdə cinayətkarın izinə düşdükdə bütün tarlaya və ya çəmənliyə baxış keçirməyə ehtiyacı aradan qalxır. Belə hallarda cinayətkarlar tərəfindən atılan və ya gizlədilə bilən ayrı-ayrı  əşyaları əldə etmək üçün izləri əhatə edən əraziyə baxış keçirilməsi ilə kifayətlənmək lazımdır. Əgər cinayətkarın hərəkət istiqamətində aydın

izlər yoxdursa, müstəntiq baxışın başdan-başa aparılması metodundan istifadə edərək, mərkəzdən başlayır, getdikcə baxışı hadisə yerini əhatə edən ətraf sahələrə doğru genişləndirməlidir.

Bəzən hadisə yerinə gələn müstəntiq orada müəyyən dəyişikliklərin əmələ gəldiyini aşkar edir. Belə hallarda müstəntiq hadisə yerini nə vəziyyətdə müşahidə etmişsə, elə o vəziyyətdə də qeydə almalıdır. Baxış zamanı iş üçün əhəmiyyət kəsb edən izlər və əşyalar ardıcıllıqla nəzərdən keçirilərək protokolda qeyd olunur.

İstintaq təcrübəsi göstərir ki, həqiqətən bir çox hallarda baxış zamanı hadisə yerinin ilkin vəziyyətini bərpa etmək lazım gəlir. Müstəntiq belə hallarda hadisə yerinə baxış keçirdikdən sonra onun ilkin vəziyyətini bərpa edə bilər. Lakin müstəntiq bu zaman məlumatları baxış protokoluna əlavə etmir. Bərpa olunmuş vəziyyət ayrıca planda və ya sxemdə qeyd olunur. Sonra bu hadisənin ilkin vəziyyətinin bərpası üçün ifadə vermiş şəxsin (şahidin), zərərçəkmiş şəxsin və ya təqsirləndirilənin dindirilmə protokoluna əlavə edilir.

Müstəntiq hadisə yerinin vəziyyətini öyrənərkən, aşkar edilmiş izləri və digər maddi sübutları bir-biri ilə tutuşdurmalı, lazım gələrsə, əlavə izləri və digər maddi

sübutları axtarmalı və baxış zamanı meydana çıxan bütün fərziyyələri yoxlamalıdır. Lakin bəzi müstəntiqlər fərziyyələri sübuta yetirən izləri və başqa maddi sübutları tapmağa çalışmırlar. Nəticədə iş üçün əhəmiyyətli olan bir sıra hallar diqqətdən yayınır.

Cinayətkarlar cinayətin üstünün açılmaması məqsədi ilə cinayətlə əlaqədar maddi sübutların və ayrı-ayrı cinayət alətlərinin hadisə yerində qalmamasına çalışırlar.

Azərbaycan Respublikası CPM-nin 124-cü maddəsində digər sübut mənbələri sırasında hadisə yerinə baxış protokolunu da qeyd edir. Hadisə yerinə baxış protokolundan cinayət işləri üzrə bir sübut kimi istifadə olunması protokolun müvafiq formada tərtib edilməsi üçün müstəntiqin məsuliyyətini bir daha artırır. Odur ki, hadisə yerinə baxış protokolunun cinayət prosessual qanunvericiliyinin tələblərinə uyğun olaraq, düzgün tərtibi müstəntiqin vəzifə borcudur. Hadisə yerinə baxış protokolunun tərtib edlməsində məqsəd hadisə yerinin vəziyyətini tam və dəqiq təsvir etməkdən ibarətdir.

***SUAL 3. Hadisə yerinə baxışın nəticələrinin rəsmiləşdirilməsi*.**

Hadisə yerinə baxış protokolu giriş, təsvir və nəticə hissələrdən ibarətdir.

Protokolun  giriş hissəsində baxış protokolunun tərtib olunduğu tarixi, yeri, baxış aparan şəxsin rütbəsi, soyadı,adı, atasının adı, hal şahidlərinin və baxışda iştirak edən başqa şəxslər barədə CPM-in 236.6.3-cü maddəsinə müvafiq olaraq  qeydlər aparır.

Protokolun təsir hissəsində baxış prosesində aşkara çıxarılan bütün hallar qeyd olunur. Təsvir hissəsi protokolun məzmununu təşkil edir.

Baxış protokolun həcmini lazımsız məlumatlar hesabına süni surətdə artırmaq nöqsan sayılmalıdır. Bununla bərabər, iş üçün əhəmiyyəti olan ayrı-ayrı izlərin və digər maddi sübutların protokolda səthi əks etdirilməsinə də yol verilməməlidir.

Protokolun təsvir hissəsi düzgün və tələb olunan səviyyədə tərtib edilməlidir.

Protokolda  cinayət edilən yer;cinayətkarın giriş və çıxış yolları; evin döşəməsi, divarları və tavanı;  ölüm cinayətlərində meyitin vəziyyəti və paltarları, oğurluq cinayətlərində isə oğurluq edilmiş yerdə olan əşyaların vəziyyəti, onların yerləşməsi; cinayətin edilməsində işlədilən ayrı-ayrı əşyaların tapıldığı yer; cinayət üçün

əhəmiyyət kəsb edən izlərin, digər maddi sübutların və əşyaların tapıldığı yer; işə əlavə etmək üçün hadisə yerindən maddi sübut kimi götürülmüş əşyalar və s. dəqiq göstərilməlidir.

Protokolun nəticə hissəsində isə hansı əşyaların götürüldüyü, bunların haraya göndərildiyi, habelə baxış prosesində toplanmış məlumatlar üzrə görülən tədbirlər qeyd edilir. Protokol müstəntiq, hal şahidləri və baxışda iştirak edən digər şəxslər tərəfindən imzalanır.

Hadisə yerinə baxış protokolunun tərtib edilməsində aşağıdakı qaydalara əməl olunmalıdır:

– protokolun mətni aydın və anlaşıqlı dildə yazılmalıdır;-

– baxış zamanı toplanmış məlumatlara əsaslanan mülahizələr protokola yazılmamalıdır;

– təkrara yol verilməməli, təsvir olunan hallar yığcam şəkildə göstərilməlidir;

–təsvir olunan məlumatlar ümumidən xüsusi halların aydınlaşdırılmasına keçməlidir;

– ardıcıllığa riayət edilməli, müəyyən bir əşyanın tam təsviri verildikdən sonra başqa əşyanın təsvirinə başlanmalıdır;

– protokolda əşyalar arasındakı məsafələr dəqiq verilməlidir;

– bir neçə eyni əşya bir yerdə təsvir edilməli və nömrələnməlidir;
– eyni bir əşya müxtəlif adlarla göstərilməməlidir (Məsələn, bir yerdə ağac, başqa yerdə palıd ağacı);
– protokolda qeyri-müəyyən sözlər işlədilməlidir (sağda, solda, yaxınlıqla, qarşıda və s.).

Hadisə yerinin vəziyyətini qeyd etmə üsullarından biri də onun fotoşəklinin çəkilməsidir. Baxışın müvəffəqiyyətlə başa çatdırılmasına təminat yaradan şərtlərdən biri müstəntiqin fotoaparatdan istifadə bacarığıdır. Baxış zamanı hadisə yerinin vəziyyəti, orada olan əşyaların yerləşməsi və hadisə ilə əlaqədar olan sair hallar fotoşəkildə öz əksini tapmalıdır. Hadisə yerinin fotoşəklinin çəkilməsi üsulu başqa qeyd etmə üsullarına nisbətən keyfiyyət etibarı ilə üstündür. Hadisə yerinin vəziyyətini əks etdirən fotoşəkillər baxış protokoluna mühüm əlavə kimi daxil olur. Fotoşəkildə hadisə yerinin vəziyyəti və burda olan bütün əşyalar tam və səhvsiz olaraq, əks olunur. Hadisə yerinə baxışda aşağıdakı şəkilçəkmə növləri: panoram, istiqamətləndirici, icmal, mərkəz və detal aiddir.

Hadisə yerinə baxışın nəticələrinin rəsmiləşdirilməsinin ən geniş yayılmış üsullarından biri

planların və sxemlərin hazırlanmasıdır. Plan və sxemlər hadisə yerinə baxış protokolunda ifadə edilənləri, sonradan isə şahidlərin və təqsirləndirlən şəxslərin ifadələrini aydınlaşdırmağa və dəqiqləşdirməyə kömək edir.

Planlar və sxemlər istiqamətləndirici, icmal mərkəz və müfəssəl ola bilər.

**İstiqamətləndirici** planda (və ya sxemdə) hadisə yeri onu əhatə edən şəraitlə birlikdə təsvir edilir. **İcmal** planda (sxemdə) hadisə yeri bütövlükdə, obyektlərin qarşılıqlı vəziyyəti təsvir edilir. **Mərkəz** planda (sxemdə), adətən, hadisə yerinin ən mühüm sahələri təsvir edilir. **Müfəssəl** planda (sxemdə) ayrı-ayrı izlər və predmetlər təsvir edilir. Binanın planı və ya sxemi sadə və ya müfəssəl ola bilər.

Yerin planı yuxarıdan adaya bənzər şəkilli görünüşdə (torpağın əyrilikləri nəzərə alınmadan), profilli (uzununa və eninə kəsikdə) və marşrutlu ola bilər.

Planlar və sxemlər miqyasla təsvir edilir. Plandakı hər bir xətt natura ilə müqayisədə, ciddi surətdə, eyni dərəcədə kiçiltmə ilə təsvir edilir. Binaların planlarının rəsm edilməsində, adətən, binanın ölçüsündən asılı

olaraq 1:20-yə olan nisbətindən 1:200-ə olan nisbətinədək miqyasdan istifadə edilir.

Miqyas planların, sxemlərin və ya qaralamaların hazırlanmasında obyektlərin nisbi yerləşdirilməsinə dəqiq əməl edilməsi tələb olunmur. Onların vəziyyəti ölçücülər və ya çertyojda ölçücü xətlərin (oxların) qoyulması və onların altında ölçmənin nəticələrinin yazılması ilə rəsmiləşdirilir.

I. Binaların planlarının tərtib edilməsində millimetrlik kağızdan istifadə edilməsi əlverişlidir. Bunun üçün ruletka, xətkeş, transportir (bucaqölçən cizgi aləti) və planşet də lazımdır. Kağız vərəqəsi planşetin üzərinə qoyulur və onun aşağı hissəsində binanın giriş qapısı olan divarı təsvir edilir. Sonra onunla əlaqəsi olan zəruri künclərlə o biri divarın hüdudları çəkilir, eləcə də binanın qapıları, pəncərələri, taxcaları (divar oyuğu), sobaları və s. inşaat ünsürləri təsvir edilir.

Binanın təsviri zamanı hansı divarların əsaslı, hansılarının isə arakəsmələrdən ibarət olması (planda təsvir etmək üçün tövsiyə edilən müvafiq işarələrdən istifadə edilir) dəqiqləşdirilir. Sonra ətrafdan mərkəzə doğru binada olan əşyalar, şərait, maddi sübutlar – izlər

və predmetlər təsvir edilir. Əşyalar planda sadələşdirilmiş şəkildə təsvir edilir.

Əşyaların səciyyəvi əlamətlərinin təsvir edilməsi qeyri – mümkün olduqda, onlar başqa layihədə təsvir olunur.

Qəbul edilmiş miqyas nəzərə alınmaqla, ruletka ilə zəruri ölçmələr aparıb baxış keçirilən binanı və oradakı izləri, predmetləri təsvir edirlər. Binaların planlarında hər bir divarın arxasında (divarı əks etdirən xəttin bilavasitə çöl tərəfində) nəyin yerləşməsi haqqında qeydlər aparılır. Çertyojda sair tikinti konstruksiyalarının (səs pəncərələrinin, lyukun və s.) xarakterini aydınlaşdıran başqa qeydlər də edilə bilər.

Tikinti konstruksiyalarının ünsürlərinin (qapıların, pəncərələrin, taxçaların, sobaların və i.a.) fərdiləşdirilməsi zərurəti yarandıqda onlar sıra nömrələri ilə nömrələnir və "şərti işarələr" qrafasında qeyd edilirlər. Qalan hallarda, şərti işarələrin aydınlaşdırılması tələb edilmir.

Otaqlardakı mebel və əşyalar sıra nömrələri ilə nömrələnir. Fərdiləşdirmənin tələb edilmədiyi hallarda, eyni tipli mebellər eyni rəqəmlərlə işarə edilir. Cinayət hadisəsi ilə əlaqəsi olan və ya ola bilən əşyalar və izlər onların protokolda təsvir edildiyi qaydada nömrələnir.

II. Açıq yerdə olan hadisə yerinin planı adətən **sxem** şəklində və ya **gözəyarı** çəkilişdən istifadə edilməklə miqyasla təsvir edilir.

Sxemdə hadisəyə düzünə və ya dolayı aid olan əşyaların yerləşdirilməsi yalnız gerçəkliyə təxmini uyğun olur və bununla əlaqədar olaraq ən mühüm ölçülər və məsafələr rəqəmlərlə işarə edilir.

Sxemlə müqayisədə daha dəqiq olan gözəyarı çəkiliş tətbiq edilməklə plan tərtib edilməsi üçün, hər şeydən əvvəl, miqyas seçilir. Onun böyüklüyü rəsmiləşdirilən sahənin (meydanın) ölçülərindən və planşetdə bərkidilən kağızın həcmindən asılıdır. Bundan sonra planşet kompas ilə istiqamətləndirilir. Bunun üçün kompas planşetdə (adətən, onun sağ yuxarı küncündə) elə yerləşdirilir ki, şkaladakı “ŞC” (şimal-cənub) xətti planşetin yan tərəfi ilə üst-üstə düşsün və şimala olan istiqamət vərəqənin yuxarı kəsişmə xəttinə perpendikulyar olsun. Çertyojun yuxarı sağ küncündə maqnit əqrəbin vəziyyəti təsvir edilir. Bundan sonra planşet onun üstə düşənədək fırladılır. Sonrakı gözəyarı çəkiliş zamanı planşetin səmti dəyişdirilməlidir.

Çəkilişə çıxış nöqtəsinin (çəkənin dayandığı yerin) plana daxil edilməsilə başlanır. Ondan hər hansı obyektin

nişan alınması aparılır. Planşet, onun səmti dəyişdirilmədən göz səviyyəsinə qaldırılır və xətkeş göstərilən nöqtəyə yaxın döndərilərək, onun yuxarı tipli seçilmiş obyekt istiqamətində yerləşdirilir. Xətkeş tərpədilmədən onun yanında nazik xətt çəkilir. Bundan sonra nişan alınmış obyektədək olan məsafə ölçülür və miqyas, rəsm edilmiş xəttin müvafiq kəsiyinə qoyulur, onun ucuna topoqrafik işarə və ya obyektin sair şərti işarəsi qoyulur. Sonra həmin obyektin yerləşdiyi yerdən növbəti obyekt nişan alınır və o da bu üsulla plana daxil edilir, ikinci obyektdən üçüncü obyekt və i.a. nişan alınır.

Gözəyarı çəkilişin **kərtik nişanalma üsulu** adlanan üsulu da geniş yayılmışdır. Bu ondan ibarətdir ki, iki obyekt arasında məsafənin ölçülməsi və kəsiyin planda müvafiq miqyasda təsviri ancaq birinci nişanalmadan sonra aparılır. Qalan obyektlər həm çıxış nöqtəsindən, həm də birinci nişan almanın aparıldığı nöqtədən nişana alınır. Bu halda həmin iki nöqtə arasındakı kəsik çəkilişin əsasına xidmət edir. Plana daxil edilən nişanlanmış xətlərin kəsişmə nöqtəsi nişana alınmış obyektin yerləşdiyi yeri göstərəcəkdir. Çəkilişin əsası və nişanalmanın iki xətti üçbucaq yaratdığına görə, bir

obyektlə başqa obyekt arasındakı məsafəni hesablamaq çətin olmayacaqdır.

Sxematik planlarda "şimal-cənub" istiqamətini göstərən əqrəb xətti bu istiqamətin müəyyən edildiyi tərpənməz obyektin (evin divarının, hasarın və s.) tərəflərindən birini kəsməlidir. Yerin planlarında yaşayış məntəqəsinə istiqaməti, təxmini məsafəni, çayın, gölün və daimi səmtlərin (körpünü, ağacı) adını, çayın sağ (sol) sahilini və s. göstərmək məqsədəuyğundur. Ayrı-ayrı hallarda obyektlərin adları şərti işarələrlə göstərilə bilər.

III. Hadisə yerinin baxışında bəzən yerin, meylinin (enişin, yoxuşun, dikliyin, əyriliyin) müəyyən edilməsi zərurəti meydana çıxır. Yerin enişi (çökəkliyi) və onun ünsürləri aşağıdakılar vasitəsi ilə müəyyən edilə bilər:

a) ruletka və ya addımla ölçmə vasitəsilə;

b) eklimetrin köməyilə (bu alət yol-nəqliyyat hadisəsi yerinin baxışında iştirak edən Yol Patrul Xidməti (YPX) işçilərinin çantasındakı texniki vasitələr dəstinə daxildir);

c) transportir və şaqulun köməyilə. Enişin təxmini əyriliyi (25 dərəcəyədək), enişin çökəkliyi və onun hündürlüyünün qarşılıqlı münasibəti üzrə aşağıdakı formula ilə müəyyən edilə bilər.

$$a = \frac{60^{0} \cdot h}{d}$$

Transortirin və şaqulun köməyilə meylin böyüklüyünün müəyyən edilməsi üçün yarımdairə mərkəzini göstərən transportirin əsasına böyük yükü olmayan (şaqul) ip bağlanır. Ölçücü əsasın və ya meylin zirvəsində qoyulur, transportirin əsasının tini yanında müvafiq surətdə zirvədə və ya meylin əsasında yerləşən predmetin müəyyən nöqtəsi nişan alınır. Bu nöqtə nişan alan şəxsin göz səviyyəsində yerləşdirilməlidir.

Şaqul ipinin “90” bölgüsündən transportirin yarımidarəsinə tərəf meyl edən dərəcələrin sayı meylin əyriliyini xarakterizə edən böyüklük olacaqdır.

## *Mövzu 15.*
## *«Axtarış, götürmə və tutulma taktikası»*

PLAN:

1.Axtarışın anlayışı,növləri və vəzifələri və.
2.Götürmənin anlayışı,prosesual əsasları və, taktiki xüsusiyyətləri.
3.Tutulmanın anlayışı və taktiki üsülları.Müxtəlif şəraitlərdə tutulmanın xüsusiyyətləri.

### *SUAL 1. Axtarışın anlayışı,növləri ,və vəzifələri.*

Bir sıra cinayət işlərinin istintaqı zamanı axtarış çox vacib istintaq hərəkəti kimi xüsusi əhəmiyyət kəsb edir. Cinayətlərin istintaqı prosesində cinayət alət və vasitələrinin, habelə şəxslərin, sənədlərin, meyitlərin və s. aşkar edilməsi məqsədilə aparılan istintaq hərəkətlərindən biri də axtarışdır. 1950-ci illərə qədər bəzi kriminalistlər axtarışı müstəqil istintaq hərəkəti kimi qəbul etmir, onu «istintaq-əməliyyat» və yaxud «əməliyyat-istintaq» tədbiri adlandırır, digərləri isə istintaqın taktiki üsulu hesab edirdilər.

Axtarışın anlayışı barədə müxtəlif fikirlər mövcuddur. Lakin əksər kriminalistlər axtarışa iş üçün əhəmiyyəti olan predmetlərin aşkar edilməsi və

götürülməsi məqsədilə həyata keçirilən istintaq hərəkətı kimi tərif verirlər.

Z.Q.Samoşinanın verdiyi tərifdə axtarışın məqsədi və vəzifəsi daha tam əks olunmuşdur. O, qeyd edir ki, *axtarış* – cinayət alətlərinin, cinayət nəticəsində əldə edilmiş predmetlərin və qiymətli əşyaların, habelə cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyəti olan başqa predmetlərin, sənədlərin eləcə də axtarılan şəxslərin və meyitlərin müəyyən binada, açıq sahədə məcburi qaydada axtarılmasıdır.

Tərifdən göründüyü kimi, axtarış vətəndaşların şəxsi mənafelərinə müdaxilə etməklə əlaqədar olur, məcburiyyət xarakteri daşıyır.

Azərbaycan Respublikası CPM-nin 242.1-ci maddəsində axtarışın anlayışı verilmişdir. Orada deyilir ki, əldə edilmiş (mövcud) sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı yaşayış, xidməti və ya istehsalat binasında, digər yerdə, yaxud hər-hansı şəxsdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların olmasını güman etməyə kifayət qədər əsas verdikdə müstəntiq axtarış apara bilər.

Axtarış-istintaq hərəkəti kimi bir sıra vacib əlamətlərə malikdir:

1. *Axtarış-istintaq hərəkətidir.* Onun keçirilməsi Cinayət Prosessual Məcəlləsi ilə tənzimlənir. (CPM –nin 242-247 maddələri).
2. *Axtarış-məcburiyyət xarakteri daşıyır* ki, bu da vətəndaşların konstitusion hüquqlarının məhdudlaşdırılmasına səbəb olur.

Belə ki, Azərbaycan Respublikası Konistitusiyasının 33-cü maddəsində vətəndaşların mənzil toxunulmazlığı hüququ öz əksini tapmışdır. Lakin cinayətlərin qarşısının alınması və ya cinayət işinin

istintaqı zamanı həqiqətin aşkar olunması ilə əlaqədar olaraq, həmin hüquqlar məhdudlaşır, buna görə də axtarış buna ciddi əsas olanda və müstəsna hallarda aparılır.

3. *Axtarış-sanksiyalaşdırılmış hərəkətdir.* Məhz buna görə də axtarış bir qayda olaraq məhkəmənin qərarı əsasında aparılır.

Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı, müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı olduqda çıxara bilər (CPM-nin 243.1 maddəsi). Həmin məcəllənin 243.3 maddəsində isə göstərilir ki, təxirə salına bilməyən hallarda müstəntiq axtarış və ya götürməni məhkəmənin qərarı olmadan yalnız aşağıdakıları güman etməyə əsas verən dəqiq məlumatı olduqda apra bilər:

*Maddə 243.*1. Şəxsiyyət və dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətə hazırlığın aparılmasına dəlalət edən əşya və ya sənədlərin yaşayış yerində gizlədilməsi;

*Maddə 243.*3.2. Şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayət hazırlayan, törədən, törətmiş, həbsdən və ya azadlıqdan məhrum etmə yerlərindən qaçmış şəxsin yaşayış yerində gizləndiyini;

*Maddə 243.*3.3. Yaşayış yerində insan meyitinin (meyit hissələrinin) olması;

*Maddə 243.*3.4. Yaşayış yerində insanın həyat və ya səhhəti üçün real təhlükə olduğunu güman etməyə əsas verən dəqiq məlumat olduqda.

Məcəllənin sonrakı 243.4-cü maddəsində isə göstərilir ki, yuxarıda qeyd edilən hər bir halda müstəntiq axtarış və ya götürmənin aparılması barədə əsaslandırılmış qərar çıxarır. Müstəntiqin belə qərarı bu

Məcəllənin 243.2-ci maddəsinin tələblərinə müvafiq olaraq, məhkəmənin qərarı olmadan axtarış və ya götürmə aparılmasının zəruriliyi və təxirə salına bilməməsinin əsasları nəzərə alınmaqla tərtib edilir.

4. A*xtarış – məqsədəyönlü hərəkətdir.* Yəni axtarış müstəntiq tərəfdən o vaxt aprılır ki, o axtarılan sübut əhəmiyyətinə malik ola biləcək əşyaların hər hansı yaşayış, xidməti və ya istehsalat binasında və ya başqa yerdə olması barədə güman etməyə kifayət qədər əsas verən məlumata malik olsun.
5. *Axtarış – müstəqil istintaq hərəkətidir* və onun nəticəsi o vaxt sübutedici əhəmiyyətə malik olur ki, o Azərbaycan Respublikası CPM-nin 242-247-ci maddələrində göstərilən tələblər çərçivəsində həyata keçirilmiş olsun, əks təqdirdə o sübutedici əhəmiyyətini itirmiş olur.
6. *Axtarış oyektləri* müxtəlif ola bilər: otaq, bina, torpaq sahəsi və adamlar. Axtarılanlar isə: adamlar, meyit, onun hissələri, heyvan və onların cəsədləri, əşyalar, sənədlər, siahlar, narkotik vasitələr və s. ola bilər.

### *Axtarışın vəzifələri*

Axtarılan predmetlərin növlərindən asılı olaraq axtarışın vəzifələri də müxtəlifdir. Axtarışın bilavasitə vəzifələri aşağıdakılardır:

1) maddi sübutların axtarılması;
2) təqsirləndirilən (şübhə edilən) şəxsin axtarılması;
3) aşkar edilmiş predmetləri eyniləşdirmək üçün onların fərdi əlamətlərinin göstərilməsi;
4) aşkara çıxarılmış şəxslər barəsində zəruri məlumatların toplanması;

5) maddi ziyanın ödənilməsini təmin edə biləcək əmlakın aşkar olunması;
6) axtarılan predmetlərin gizlədildiyi yerin aşkar edilməsi;
7) təqsirləndirilən şəxsin axtarılması və onun axtarışını asanlaşdıra biləcək materialların toplanması;
8) əmlak müsadirəsini təmin edəcək əmlakın tapılması və götürülməsi.

***Axtarışın növləri.***

Axtarışın növləri müxtəlif əsaslara görə təsnifləşdirilir. Axtarışın növləri AR CPM-nin 242-ci maddəsində öz əksini tapmışdır. Axtarılan obyektlərin xarakterindən asılı olaraq axtarışın aşağıdakı növləri mövcuddur:

1. Yaşayış və qeyri yaşayış binalarında axtarış (xidməti və istehsalat binasında);
2. Açıq sahələrdə axtarış;
3. Şəxsi axtarış;
4. Meyit və onun hissələrinin axtarışı;
5. Hevanların və heyvan cəsədlərinin aşkar edilməsi məqsədilə axtarış.

Ardıcıllığına görə axtarış ilkin və təkrar olur. İlkin axtarış mənfi nəticələr verməsin deyə vaxtında, qəflətən və diqqətli aparılmalıdır. Lakin ilkin axtarış zamanı lazımi predmetlər tapılmadıqda, eləcədə ilkin axtarış zamanı müvafiq elmi-texniki vasitələrdən düzgün istifadə edilmədikdə, ehtiyatsızlıqdan bəzi saxlanc yerləri axtarılmadıqda, yeni predmetlərin axtarılması zərurəti meydana çıxdıqda və s. hallarda təkrar axtarış aparılır.

V.İ.Popovun fikrincə ilkin axtarış heç bir nəticə vermirsə, onda *ehtiyat metodu kimi* təkrar axtarış aparılmalıdır.

Təkrar axtarış bir qədər vaxt keçdikdən sonra, yəni axtarış keçirilən şəxs yəqin etdikdən sonra ki, ilkin axtarış

istintaq orqanını qane etdi (yenidən gəlib bir də təkrar axtarmazlar).

Eyni cinayət işi üzrə bir və ya bir neçə obyektdə eyni vaxtda axtarış aparıla bilər. İştirakçıların və obyektlərin sayından asılı olaraq tək və qrup axtarışları aparılır. Qrup axtarışları oğurluq, soyğunçuluq, quldurluq və s. cinayətlərinin istintaqı zamanı aparılır. Qrup axtarışları ona görə bir neçə şəxsin evində, mənzilində və s. aparılır ki, əgər növbə ilə axtarış aparılarsa, axtarışı aparılan şəxs və ya onun yaxınları, sonra axtarış aparılacaq şəxslərə məlumat verərək onları axtarış olacağı barədə xəbərdar edə bilərlər.

Axtarış hissə – hissə, paralel və qarşı-qarşıya aparıla bilər.

### ***Axtarışa hazırlıq.***

Axtarışın müvəffəqiyyəti axtarışa hazırlıqdan və onun planlaşdırılmasından çox asılıdır. Ona görə də axtarışa ciddi hazırlaşmaq lazımdır.Axtarışa hazırlıq özündə kompleks tədbirləri birləşdirir.

- axtarış aparılacaq obyektlərin və axtarışın məqsədinin müəyyən edilməsi;
- axtarış iştirakçılarının dairəsinin, eləcə də onların vəzifələrinin müəyyən edilməsi;
- axtarış zamanı istifadə ediləcək zəruri elmi – texniki vasitələrin hazırlanması;
- axtarış planının tərtib edilməsi;
- axtarış zamanı hansı taktiki üsullardan istifadə ediləcəyinin müəyyənləşdirilməsi.

Axtarış aparılacaq obyekti və axtarışın məqsədinin aydınlaşdırılması istintaqın vəziyyətindən və cinayət işinin materiallarından asılıdır. Ona görə də müstəntiq iş materiallarını diqqətlə, tam, hərtərəfli öyrənməli və axtarışın vaxtını düzgün müəyyən etməlidir. Axtarışın

vaxtında keçirilməsi onun müsbət nəticə verməsinə təminat yaradır.

Axtarışın növündən asılı olaraq aydınlaşdırılmalı məsələlərin dairəsi də müxtəlifdir. Yaşayış və qeyri-yaşayış binalarında axtarış aparılarkən aşağıdakı məsələlər aydınlaşdırılmalıdır:

- axtarış aparılacaq binanın yerləşdiyi ərazi və ünvan;
- binada və onun ayrı-ayrı hissələrində daimi yaşayan şəxslərin sayı;
- binaya giriş və çıxış yolları;
- axtarılacaq sahənin dəqiq sərhədləri;
- otaqda olan predmetlərin yerləşmə qaydası və s.

Açıq sahədə axtarış zamanı aşağıdakılar aydınlaşdırılmalıdır:

- axtarılan sahələrin dəqiq sərhədləri;
- axtarılan sahələrin hər hansı yaşayış məntəqəsinə yaxın olması;
- yer səthinin quruluşu;
- axtarılan sahənin müxtəlif yerlərində olan bitki örtüyünün xarakteri;
- axtarılan sahənin təyinatı.

Axtarışın müsbət nəticəsi axtarılan şəxs haqqında məlumatların toplanmasından da çox asılıdır. Yəni şəxsin ixtisası, peşəsi, həyat şəraiti, evdə gündəlik rejimi, iş rejimi, ailə tərkibi, ailə üzvləri, qonşularla rəftarı, iş yerində əlaqələri və s.

Axtarış planlaşdırılarkən əsas amillərdən biri də axtarılan predmetlərin xarakterinin müəyyən edilməsidir. Bununla əlaqədar olaraq axtarılan predmetlərin sayı, ölçüsü, çəkisi, forması, onların hazırlandığı material, onların xarici görünüşü, fərdi əlamətlərini dəyişmək imkanı və s. aydınlaşdırılmalıdır.

Axtarışa hazırlıq elementlərindən biri də onun vaxtının müəyyən edilməsidir. Bu bir sıra şərtlərlə xarakterizə olunur.

- axtarış təqsirləndirilən və şübhə edilən şəxsin və onun ailə üzvlərinin gözləmədiyi bir vaxtda aparılmalıdır;
- axtarış aparılacaq yerə qəflətən gəlmək və əməliyyatı cəld aparmaq lazımdır;
- açıq sahədə isə axtarış əlverişli hava şəraitində aparılmalıdır.

Axtarış və götürmə zamanı ən azı 2 (iki) hal şahidinin iştirakı məcburidir (Azərbaycan Respublikası CPM-nin 244.1- ci maddəsi).

Şübhəli və ya təqsirləndirilən şəxs barəsində axtarış və götürmənin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Həmin istintaq hərəkətinin aparılması bərədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilən müdafiəçi axtarış və götürmədə iştirak etmək arzusunu bildirdikdə müstəntiq onun bu hüququnu təmin etməlidir.

Zəruri hallarda axtarış və ya götürmənin aparılmasında tərcüməçi və mütəxəssis iştirak edə bilər (maddə 244.3).

Axtarış və götürmə zamanı barəsində axtarış və götürmənin aparıldığı şəxsin, onun yetkinlik yaşına çatmış ailə üzvünün və ya qanuni mənafeələrini təmsil edən şəxslərin iştirakı təmin edilməlidir. Göstərilən şəxslərin iştirakını təmin etmək mümkün olmadıqda mənzil-istismar təsərüfatının, yaxud yerli icra hakimiyyəti orqanın nümayəndəsi dəvət edilir.

Elmi-texniki vasitələrin düzgün seçilməsi və hazırlanması axtarışa hazırlığın vacib elementidir. Vaxtında bunların tətbiq edilməməsi təkrar axtarışa gətirib çıxarır.

Axtarış zamanı istintaq çemodanlarında olan texniki vasitələrdən (müxtəlif süni işıq mənbələrindən, ruletka, miqyaslı xətkeşlər, çəkic, mişarlar, isgənə, fotoaparatlardan və s.) istifadə olunur.

Maddi sübutları götürmək üçün kağız, zərf, xüsusi təyinatlı qablar, karton, sellofan torbalar və s. lazımdır. Götürülmüş maddi sübutları qablaşdırmaq üçün surğuc, ştamp, möhür və s. olmalıdır.

Axtarış zamanı metal axtarandan, mina axtarandan istifadə olunur.

Meyitlərin axtarılmasında «PP-1» meyitaxtaran cihazlardan istifadə edilir. Bu cihazlardan aşağı temperaturlu nəmişli yerlərdə istifadə olunur. Bunlardan başqa suda meyiti axtarmaq üçün traldan, şuplardan axtarış zamanı «UFO-4 A», «UFS-5» ultrabənövşəyi işıqlardan istifadə olunur.

Axtarışın nəticəsinin müsbət olması üçün texniki-kriminalistik vasitələrdən səmərəli istifadə etmək zəruridir.

Son dövrlərdə axtarış zamanı aşağıdakı texniki-kriminalistik vasitələrdən istifadə edilir:

- maqnit axtarıcılar-qaldırıcıları metal və xəlitələrin, eləcə də onlardan hazırlanmış məmulatların aşkar edilməsi üçün;
- qaz analizatorları-partlayıcı maddələrin, narkotik vasitələrin və insanın tapılması üçün;
- akustik analizatorlar, stetoskoplar axtarılan obyektlərin yaratdıqları səs və titrəmələri aşkar etmək üçün;
- rentgen işıqlandırıcı qurğular, divarları, predmetləri və s. tədqiq etmək üçün;
- obyektlərin infraqırmızı aşkarlayıcıları, televizorlar, ətraf mühitdən öz hərəkətləri ilə seçilən obyektləri aşkar etmək üçün;

- ultrasəsli defektoskoplar, boşluqları müəyyən edən axtarıcı radiodalğa cihazları və s.

Axtarış prosesində neqativ hallara xüsusi diqqət yetirilməlidir. Eləcə də axtarış aparılan şəxsin davranışına və həyatının xüsusiyyətlərinə diqqət yetirilməlidir.

Həmin hallara aiddir:

- istifadə edilən normal istehlakmiqdardan artıq predmetlərin olması;
- tapılan predmetlərin xarakterinin axtarılan şəxsin şəxsiyyəti ilə uyğunsuzluğu;
- tapılan predmetlərin şubhəli üsullarla saxlanması gizli yerlərdə, başqa əşyaların arxasında və s.);
- tapılan predmetlərin qeyri adi xassələri, onların təyinatının məlum olmaması;
- tapılan predmetlər barədə axtarış aparılan şəxsin şubhəli izahatları (haradan, nə vaxt, nə məqsədlə alınması, nədən hazırlanması və s. barədə);
- maraqlı şəxslərin predmetləri gizlətməyə və məhv etməyə cəhdləri;
- predmetlərin aşkar edilməsinin qarşısını almağa yönələn yayındırıcı hərəkətlər;
- axtarış aparılan şəxsin axtarış zamanı xüsusi həyəcan keçirməsi.

Axtarışın səmərəliliyi təkcə istifadə edən taktiki üsullardan deyil, həm də istintaq hərəkətinin psixoloji faktorlarından da asılıdır. Ona görə də axtarış zamanı psixoloji faktorlara xüsusi diqqət yetirmək lazımdır.

A.R.Ratinova görə bu faktorlara axtarılan şəxsin və axtaran şəxsin psixologiyası daxildir.

Axtarışın psixoloji məzmununda qavranılması böyük rol oynayır. Bu və ya digər predmeti qavrayarkən insanın bütün orqanları kompleks şəkildə iştirak edir. Müşahidə qavrama ilə sıx əlaqədədir. Başqa sözlə, müşahidə qavramaya doğru yönəldilmiş fəaliyyətdir.

Axtarış prosesində müşahidə zamanı təkcə axtarılan predmetlərə deyil, həmçinin quşların, hevanların hərəkətlərinə də fikir vermək lazımdır. Axtarış zamanı müşahidə obyektlərindən biri də axtarış iştirakçılarının hərəkətləridir. Axtarış aparan şəxslər axtarışın tam, hərtərəfli olmasına nəzarət etməli, maraqlı şəxslərin hərəkətlərində gizlədilmiş predmetlərin yerini göstərən müəyyən əlamətlərin aşkar olunmasına diqqət yetirməlidirlər.

Axtarış aparan şəxs müəyyən xarici qıcıqlandırıcılara fikir verməməli, diqqətini axtarılan predmetlərə yönəltməlidir. Müstəntiq konkret predmetlə əlaqədar bütün hərəkətləri başa çatdırmamış digərinə keçərsə, əsas məsələlər diqqətindən yayına bilər. Axtarış yerində kənar danışıqlara, hərəkətlərə yol verilməməlidir.

Axtarış zamanı çirkli predmetlərə də diqqət yetirilməlidir, çünki çox vaxt cinayətkarlar axtarılacaq predmetləri çirkli yerdə gizlədirlər. Axtarılan şəxs axtarış zamanı çalışır ki, axtarış çətinləşsin, heç nə tapılmasın, axtaran şəxs isə əksinə, çalışır ki, mümkün olan taktiki üsullardan istifadə edib gizlədilmiş şeyləri tapsın. Beləliklə, axtarış zamanı hər iki tərəfin iştirakçıları biri-birinin fikirlərini oxumağa çalışırlar.

Axtarılan şəxsin təkcə peşəsi (məsələn: dərzi, çəkməçi, dülgər və s.) deyil, habelə təhsili,mədəni səviyyəsi, fiziki xüsusiyyətləri və s. nəzərə alınmalıdır. Bəzi hallarda cinayətkarlar gizli saxlanc yerləri düzəltmək üçün tanışlarının peşə imkanlarından istifadə edirlər.

Axtarılan şəxs axtarış zamanı həyacan keçirir, onun reaksiyasi tez-tez dəyişir. Məhz buna görə də müstəntiq onun davranışını diqqətlə izləməli, üzünün mimikasına fikir verməlidir. Bəzən axtarılan şəxs süni reaksiyalar nümayiş etdirir ki, axtaran şəxsin nəzərini lazimi predmet və ya sahədən yayındırsın. Bəzən konkret sahədə axtarış

aparmağın faydasız olduğunu inandırmağa, «nahaq yerə əziyyət çəkməyin» deyə axtarışı aparmamağa çağırır. Lakin müstəntiq belə hallarda səbri olmalı, deyilənlərə fikir verməməli axtarışı tam, diqqətlə axıradək davam etdirməlidir.

### *Axtarışın ümumi taktiki üsulları*

Axtarışın növündən asılı olaraq tətbiq ediləcək taktiki üsullar da müxtəlifdir. Belə ki, binalarda axtarış zamanı tətbiq edilən müsbət nəticə verən taktiki üsul şəxsi axtarış zamanı özünü doğrultmaya da bilər.

Lakin axtarışın növündən asılı olmayaraq bütün hallarda tətbiq edilən taktiki üsullar da mövcuddur.

Belə taktiki üsullara gözlənilməz və planauyğun axtarışlar aiddir.

Axtarışın gözlənilməz olmasının müsbət nəticə verməsi barədə biz əvvəl qeyd etmişdik. Planauyğun axtarış dedikdə isə biz axtarışın ardıcıl konkret mərhələləri üzrə aparılmasını nəzərdə tuturuq.

Kriminalistika ədəbiyyatlarında axtarışın həyata keçirilməsi prosesi dörd mərhələyə bölürlər: ilkin, icmal, axtarış və rəsmiləşdirmə mərhələləri .

**İlkin mərhələdə** iştirakçıların, eləcə də əməliyyat işçilərinin vəzifələri müəyyənləşdirilir, axtarılacaq yerin mühafizəsi təşkil edilir, axtarış iştirakçıları arasında əlaqə üsulları müəyyən edilir və s. sonra isə onlar binaya və ya müəyyən sahəyə daxil olurlar.

**İcmal mərhələdə** axtarılan yerin sərhədləri müəyyənləşdirilir, xüsusi diqqət tələb edən obyektlər aşkar olunur, texniki vasitələrin tətbiqi haqqında məsələ aydınlaşdırılır.

**Axtarış mərhələsində** bina və sahə müfəssəl tədqiq edilir. Axtarışın məqsədinin həyata keçirməsi bu mərhələnin nə dərəcədə keyfiyyətli aprılmasından çox

asılıdır. Bu zaman taktiki üsulların düzgün seçilməsi, hər bir iştirakçının öz vəzifəsini dəqiq və vaxtında yerinə yetirməsi və s. də axtarışın səmərəli aparmasına kömək edir.

**Rəsmiləşdirmə mərhələsində** axtarış protokolu, planlar, sxemlər, tərtib edilir. Azərbaycan Respublikası CPM-nin 245.3-cü maddəsinin tələbinə uyğun olaraq müstəntiq axtarış və ya götürməni foto, video və kino çəkilişdən, yaxud digər yazan texniki vasitələrdən istifadəetməklə həyata keçirilir. Bu mərhələdə həmçinin tapılmış predmetlərdən hansının götürülməsi məsələsi də həll olunur.

Axtarış zamanı ardıcıl və seçmə üsullarından istifadə edilir. Ardıcıl üsulun mahiyyəti ondan ibarətdir ki, axtaran şəxs bir tərəfdən başlayaraq ardıcıl olaraq, bir obyektdən digərinə keçir. Seçmə üsulunda isə bu ardıcıllıq gözlənilmir, obyektlər axtaran şəxsin mülahizəsindən asılı olaraq seçilir.

Axtarış zamanı paralel və qarşı-qarşıya axtarış üsullarından da istifadə olunur.

Paralel üsulun mahiyyəti ondan ibarətdir ki, axtarış iştirikçıları paralel hərəkət edirlər. Onların hər biri öz sahəsi, yaxud xətti daxilində predmetlərdən birini tədqiq edib digərinə keçirlər.

Qarşı-qarşıya axtarış zamanı iştirakçılar konkret obyektləri tədqiq edərək bir-birinə doğru hərəkət edirlər və onlar qarşılaşdıqda axtarış mərkəzdə aparılır.

Axtarış zamanı obyektin bütövlükdə, yaxud qismən tədqiqindən asılı olaraq tam və hissəvi axtarış üsulu da tədqiq edilə bilər.

Axtarışın səmərəliliyini və keyfiyyətini yüksəltmək üçün bir sıra taktiki qaydalara riayət etmək lazımdır.

A.N.Mixaylov və Q.Ş.Yurin bunun üçün aşağıdakı taktiki qaydaları məsləhət görürlər:

- nəqliyyat vasitəsilə axtarış yerinə gəlinibsə, yaxşı olar ki, nəqliyyat vasitəsi axtarış aparılan binadan aralı saxlansın;
- axtarış aparan şəxs bir tədbiri qurtardıqdan sonra digərinə keçməlidir;
- axtarış zamanı axtarılan şəxsin verdiyi məlumata tam inanmaq lazım deyil, onun hər bir məlumatı yoxlanılmalıdır;
- axtarış bir üsulla aparılmalıdır, üsul dəyişərsə axtarışın keyfiyyəti aşağı düşə bilər;
- müfəssəl axtarış zamanı əşyaları çevirmək,yerini dəyişmək və s. hərəkətlər edildikdə axtarışdan əvvəlki vəziyyət bərpa olunmalıdır. Əks tədqiqdə mənzildə qarışıqlıq yaranar, axtarış çətinləşər;
- mürəkkəb axtarışlar zamanı iştirakçılar çox olanda onlar arasında qarşılıqlı əlaqə yaranmalıdır. Axtarışa rəhbərlik edən şəxs hər iki-üç saatdan bir axtarış iştirakçılarını bir yerə yığmalı və işin gedişini birlikdə araşdırmalı, iştirakçılara müvafiq göstərişlər verməlidir;
- axtarılan şəxs axtarış qrupunun planını bilməməlidir. Ona görə də axtarılan şəxsin yanında axtarış barədə danışmaq olmaz;
- axtarış zamanı tapılan sənədlərə, qiymətli şeylərə, onların haradan götürülməsinə, necə düzəldilməsinə hal şahidləri şəxsən baxmalıdırlar;
- axtarış zamanı müstəntiqin icazəsi olmadan vətəndaşlardan heç kəs otağı tərk etməməli, başqa otağa keçməməlidir. Şübhə doğuran şəxsin üzərində şəxsi axtarış aparılmalıdır;
- telefon zənglərini nəzarətdə saxlamalı, əvvəlcədən müəyyən olunmuş qaydada onlara cavab verilməlidir.

Axtarış aparılma qaydasına gəldikdə isə qeyd etmək lazımdır ki, AR CPM-nin 245.7-ci maddəsinin tələbinə görə axtarış apararkən müstəntiq qərarı elan etdikdən sonra götürülməli olan əşya və sənədlərin könüllü surətdə verilməsini və gizlənən şəxsin yerinin könüllü göstərilməsini təklif edir. Əşya və sənədlər könüllü verildikdə və ya gizlənən şəxsin yeri könüllü göstərildikdə, bu protokolda öz əksini tapmalıdır. Axtarılan əşya və sənədlər verilmədikdə və ya tam verilmədikdə, yaxud gizlənən şəxsin yeri göstərilmədikdə axtarış aparılır.

Axtarış və ya götürmə apararkən bağlı bina və saxlanc yerlərinin sahibləri onları könüllü surətdə açmaqdan imtina etdikdə müstəntiq həmin bina və saxlanc yerlərini açmağa haqlıdır.

Axtarış və ya götürmənin aparılması zamanı aşağıdakılar qadağan edilir:

- qapıların, qıfılların, digər əşyaların lüzumsuz olaraq zədələnməsi və binada qaydanın pozulması;
- kimyəvi və psixotrop maddələrin, habelə insanın səhhətinə və ətraf mühitə ziyan vura biləcək texniki vasitələrin və ya qurğuların istifadə edilməsi (Azərbaycan Respublikası CPM-nin 245.10-245.10.2.).

Bizim yuxarıda qeyd etdiyimiz taktiki qaydalar axtarışın bütün növləri üçün xarakterikdir. Lakin buna baxmayaraq axtarışın hər bir növünün icrası zamanı seçilən taktiki üsulların özünəməxsus xüsusiyyətləri vardır.

### ***Mənzildə axtarış aparılmasının xüsusiyyətləri***

Mənzildə axtarış apararkən taktiki üsullar konkret şəraitdən asılı olaraq seçilir və otaqda olan bütün əşyalar

tədqiq edilir. Otaqda olan mebellərin bərkidilmə yerlərinə, həmçinin taxtanın rənginə, lakın vəziyyətinə və s. xüsusi fikir verilməlidir.

Axtarış zamanı mebellərin siyirtmələri, rəfləri çıxarılmalı və yeri diqqətlə tədqiq edilməlidir. Mebellərin qıfılları tutacaqları diqqətlə yoxlanılmalı, onların əvvəlki vəziyyətlərinin dəyişdirilib-dəyişdirilməməsi aydınlaşdırılmalıdır. Yumşaq mebellərin (divan, kreslo və s.) tədqiqi zamanı daha diqqətli olmaq lazımdır. Çünki onların daxilində daha qiymətli şeylər gizlədilə bilər. Divardan asılmış əşyalardan, evdə olan musiqi alətlərindən, kitab rəflərindən, kitabların cildlərindən və s. gizli saxlanc yerləri kimi istifadə edilir. Ona görə də axtarış aparan şəxs hər bir predmeti ayrı-ayrı yoxlamalıdır.

Mənzildə olan mətbəx əşyaları, ərzaq məhsulları – qənd, un, düyü və s.-də yoxlanılmalıdır. Çünki istintaq təcrübəsindən məlumdur ki, diymətli daş-qaşlar onların içərisində gizlədilir. Elektrik və radio cihazlarından, telefon aparatlarından, stolüstü lampalardan və s.-dən gizli saxlanc yeri kimi istifadə edirlər. Mənzildə axtarış apararkən xüsusi yardımçı tikililər də nəzərdən qaçırılmamalıdır. Çünki cinayətkarlar əksər hallarda cinayət alət və vasitələrini belə tikililərdə gizlədirlər.

### *Açıq sahədə axtarış*

Açıq sahədə axtarış adətən ayrı-ayrı şəxslərin istifadəsində olan bağlarda, bostanlarda aparılır. Axtarışa başlayarkən açıq sahəni xüsusi nişanlarla bölmələrə ayırırlar. Təbii quruluşu eyni olan yerlərin axtarışında isə xüsusi şərti nişanələrdən istifadə edirlər. Sahələr bölmələrə ayrıldıqdan sonra hər bir bölmə kvadrat, yaxud düzbucaqlılara bölünür və hər biri diqqətlə tədqiq edilir.

Açıq sahələrdə cinayət alət və vasitələri adətən torpağın altında basdırılır. Ona görə də axtarış zamanı buna xüsusi diqqət yetirilməlidir.

Əksər hallarda gizli saxlanc yeri kimi ağacların təbii oyuqlarından, quş yuvalarından, dibçəklərdən də istifadə edilir. Ona görə də belə hallarda nəinki torpağın üzərindəki sahəyə, həm də bitki örtüyünə, onun solmasına, əzilməsinə, qopardılmasına fikir vermək lazımdır. Bəzən gizlədilmiş predmetin yerini qarışdırmamaq üçün xüsusi şərti işarələr qoyurlar. Belə işarələrə ağac üzərində kəsik, bir-neçə budağ kəsiyi, bir-neçə budağı bir-birinə bağlamaq, daş, torpaq topaları gizlətmək və s. misal ola bilər.

Torpaqda basdırılmış əlvan metal axtarışı zamanı metalaxtaran cihazlardan istifadə ediilr. Kiçik sahələrin axtarışı zamanı 1-2 metalaxtaran cihazlardan istifadə ediilr. Kiçik sahələrin axtarışı zamanı 1-2 metalaxtaran cihaz kifayətdir. Gizlədilmiş predmet ehtiyyatla axtarılmalıdır. Çünki cüzi bir ehtiyyatsızlıq həmin predmeti zədələyə bilər. Bəzən sütunlardan da gizli saxlanc yeri kimi istifadə edilir. Gizlədilmiş predmetlər suyun dibinə buraxılır, qamışlıqlara atılır və s.Belə yerlərdə axtarış aparmaq üçün əksər hallarda balıqçılar, dalğıclar və s. dəvət edilir.Açıq sahədə axtarış müəyyən çətinliklər törədir.Əğər taktiki üsullar düzgün seçilərsə, o, müvəffəqiyyətlə nəticələnir.

### *Şəxsi axtarış*

Azərbaycan Respublikası CPM-nin 246.1-ci maddəsinə əsasən, müstəntiq iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək, barəsində istintaq hərəkəti aparılan şəxsin paltarında, əşyalarında və bədənində ola bilən əşya və sənədləri bir qayda olaraq, məhkəmənin qərarı əsasında götürə bilər.

Həmin Məcəllənin 246.1-ci maddəsinin tələbinə görə isə məhkəmənin qərarı olmadan şəxsi axtarış aşağıdakı hallarda ola bilər:

- şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq mühafizə orqanına gətirildikdə;
- təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbiri tədbiq edildikdə;
- axtarış və götürmənin aparıldığı binada olan şəxsin cinayət təqibi üzrə sübut əhəmiyyətinə malik ola biləcək əşya və sənədləri gizlətməsini güman etməyə kifayət qədər əsaslar olduqda.

Şəxsi axtarış və götürmə müstəntiq tərəfindən mütəxəssisin və barəsində şəxsi axtarış aparılan şəxslə eyni cinsdən olan azı iki hal şahidinin iştirakı ilə aparılır. Bədənin və geyimin axtarılması müəyyən ardıcıllıqla həyata keçirilir. Belə ki, axtarılan şəxs üzü divara, əlləri yuxarı olmaqla dayanır. Axtaran şəxs yuxarıdan aşağıya doğru onun paltarının ciblərini axtarır. Bundan sonra isə müfəssəl axtarış başlanır. Əvvəlcə baş geyim şeyləri, sonra isə üst geyim – palto, pencək, şalvar və nəhayət, ayaqqabılar tədqim edilir.

Əgər axtarılan şəxsin yanında çemodan, portfel və s. varsa onlar da diqqətlə axtarılmalıdır.

Baş geyim şeyləri yoxlanılarkən, ilk növbədə tikişin vəziyyətinə, sapın rənginə, növünə, papağın qalınlığına və s. diqqət yetirmək lazımdır.

Geyim şeyləri yoxlanılarkən ilk növbədə ciblərə, astarlara, cibdə olan əşyalara xüsusi fikir verilməlidir. Çünki, cinayətkarlar xırda əşyaları əksər hallarda üz ilə astar arasında, boyunluqda, manjetdə və s. gizlədirlər.

Paltarların üzərində qan, yağ ləkələri və s. ləkələr olarsa, tədqiqat üçün paltar bütünlüklə götürülməlidir və axtarılan şəxsə başqa geyim şeyləri verilməlidir.

Şəxsi axtarış bədənin axtarılması ilə başa çatır. Bədənin axtarılması zamanı saç, qulaqlar, burun dəlikləri ə s. tədqiqata məruz qalır. İnsan bədənindəki təbii dəliklərin, sarğıların yoxlanmasını tibbi işçilərinə həvalə etmək daha məqsədə müvafiqdir. Bundan başqa bədəndə olan protezlər, sarğılar də diqqətdən yayınmamalıdır. Şəxsi axtarış zamanı axtarılan əşya həmin şəxs tərəfindən udulması ehtimal edilərsə o, rentgenə salınmalıdır.

Beləliklə, yuxarıda göstərilən axtarış növündən asılı olaraq taktiki üsulların düzgün seçilməsi axtarışın müsbət nəticə verməsini təmin edir.

Götürmə zamanı hansı əşyalar və sənədlərin kimdə, harada olması dəqiq müəyyənləşdirildiyi üçün onları axtarmaq zərurəti meydana çıxmır. Götürmənin müvəffəqiyyətlə başa çatması üçün o, qəflətən həyata keçirilməlidir. Bu və ya digər idarə, müəsissə və təşkilatda götürmə aparmamışdan qabaq həmin idarənin, müəssisənin və təşkilatın mümkün olan obyektləri ilə əvvəlcədən tanışlıq müsbət nəticə verir. Bu zaman marağı olmayan şəxslərin köməyindən istifdə edilməsi məqsədə müvafiqdir. Çünki onlar bu və ya digər sənədlərin, əşyaların dügün seçilib götürülməsinə kömək edə bilərlər.

Götürmə zamanı təkcə qərarda göstərilən predmetlər, sənədlər deyil, iş üçün əhəmiyyəti olan digər əşyalar və sənədlər də götürülə bilər. Belə hallarda götürmə haqqında əlavə qərar çıxarılır.

Müstəntiq götürməyə başladıqda, qərarda göstərilən predmetlərin və sənədlərin verilməsini təklif edir, onlar könüllü verilməyəndə məcburi qaydada götürülür. Bu zaman müstəntiqin bağlı yerləri açmağa hüququ çatır. Lakin o, qıfılların, qapıların və digər əşyaların lazımsız yerə xarab edilməsinə yol verməməlidir.

Götürmə zamanı qərarda göstərilən əşyalar və ya sənədlər güman edilən yerlərdə tapılmadıqda, müstəntiq axtarış aparılması bərədə qərar çıxarır. Əgər götürmə zamanı əşyaların və sənədlərin hamısı könüllü olaraq verilməzsə, bu zaman da götürmə əməliyyatı axtarışa çevrilir. Lakin unutmaq olmaz ki, müstəntiq bu barədə də mütləq qərar çıxarmalıdır.

***SUAL 2. Götürmənin anlayışı,prosessual əsasları və keçirilmə qaydası***

Azərbaycan Respublikası CMP-nin 242.3-cü maddəsində göstərilir ki, toplanmış sübutlarla və ya əməliyyat axtarış fəaliyyəinin materialları ilə sübut əhəmiyyətinə malik ola biləcək əşyaların və sənədlərin kimdə və harada olması müəyyən edildikdə müstəntiq həmin əşya və sənədləri götürə bilər.

Qeyd edildiyi kimi Azərbaycan Respublikası CMP-nin 243-cü məddəsinə müvafiq olaraq götürmə və axtarış bir qayda olaraq məhkəmənin qərarı əsasında aparılır. Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prsessual rəhbərliyi həyata kesirən prokurorun təqdimatı olduqda çıxara bilər.

Təxirə salına bilməyən hallarda müstəntiq, məhkəmənin qərarı olmadan, AR CMP-nin 243-cü məddəsinin tələblərinə müvafiq olaraq götürməni güman etməyə əsas verən dəqiq hansı məlumatlar olması barədə biz axtarışın aparılması əsaslarını qeyd edərkən göstərmişik.

***Axtarışın və götürmənin nəticələrinin rəsmmiləşdirilməsi***

Axtarış və götürmə qurtardıqdan sonra AR CMP-nin 247-ci maddəsinin tələblərinə müvafiq olaraq bu istintaq hərəkətlərinə dair protokol tərtib edilir. Protokol əsas prosessual sənəd olub, müstəntiqin bütün fəaliyyətini əks etdirir. Protokol 3 hissədən ibarətdir: giriş, təsviri və nəticə. Giriş hissəsində aşağıdakılar göstərilir:

- axtarış və götürmənin aparıldığı yer, tarix və vaxt;
- müstəntiqin soyadı, atasının adı, vəzifəsi;
- axtarış və götürmədə iştirak etmiş digər şəxslərin soyadı, adı, atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, yaşadığı və qeydiyyatda olduqları yer;
- barəsində axtarış və götürmə aparılmış şəxsə onun hüquq, vəzifə və məsuliyyətinin izah edilməsi haqqında qeyd;
- hal şahidlərinin soyadı, adı, habelə onların doğulduğu il, ay, gün, vətəndaşlığı, təhsili,iş yeri, məşğuliyyət növü, yaşadığı və qeydiyyatda olduğu yer;
- hal şahidlərinin hər birinin şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslə qarşılıqlı münasibəti haqqında məlumat;
- hal şahidlərinin hər birinə onun hüquq, vəzifə, məsuliyyətinin izah edilməsi haqqında qeyd.

**Təsviri hissəsində** məzmunca aşağıdakı məlumatlar daxil olur: axtarılan şəxsi tərəfindən könüllü verilən, yaxud müstəntiq tərəfindən axtarılıb tapılan predmetlərin adları, təyinatı, sayı, ölçüsü, fərdi əlamətləri, imkan daxilində qiyməti, könüllü verilmiş, yaxud axtarış zamanı tapılmış predmetlərin hər birinin haradan tapılması, hansı vəziyyətdə yerləşməsi, gizli saxlanc yerinin yerləşdiyi obyektin adı, onun quruluşu, ölçüsü, axtarış zamanı elmi-texniki vasitələrdən istifadə edilibsə,

həmin cihazın adı,markası, növü, modeli, əgər fotoşəkil çəkilibsə, fotoşəklin çəkilməsi şəraiti, üsulu, fotoaparatın markası və s.

Axtarış zamanı xidməti itdən istifadə edilibsə, bu protokolda göstərilməlidir.

Nəhayət, axtarış protokolunun nəticə hissəsində axtarış zamanı hansı predmetlərin götürülməsi, əgər saxlanılmağa verilibsə, məhz kimə verilməsi, hansı planlar, sxemlər, fotoşəkillərin çəkilməsi və s. qeyd olunur.

Protokolda dəyişikliklər, əlavələr və düzəlişlər olduqda, bu barədə müvafiq səhifənin axırında, ya da protokolun axırında qeyd olunur.

Axtarış protokolu hazır olandan sonra onu müstəntiq, yaxud təhqiqat aparan şəxs, hal şahidləri, mütəxəssis, axtarılan şəxs, yaxud axtarış aparılan müəssisənin, idarənin nümayəndəsi, müstəntiqin köməkçisi, zərərçəkmiş və yaxud onun nümayəndəsi, təqsirləndirilən şəxs imzalayırlar. Protokola əlavə edilən çertyojlarda, sxemlərdə, izlərin surətlərində və s. müstəntiqin və hal şahidlərinin imzaları olmalıdır.

Qeyd etmək lazımdır ki,axtarış protokolunda axtarılan yerin müfəssəl təsvir olunması qeyri-mümkündür. Ona görə də həmin yerin fotoşəkli çəkilir, plan və sxem tərtib edilir. Axtarılan yerin, gizli saxlanc yerlərində tapılmış predmetlərin və s. fotoşəkilləri məhkəmə fotoqrafiyasının konkret üsulları ilə çəkilir. Fotoşəkilçəkmə rəsmiləşdirmənin əvəzedilməz vasitəsidir. Fotoşəkillərdən isə fotocədvəl tərtib edilərək protokolla birlikdə iş materiallarına əlavə olunur.

Fotocədvəllərdə hər şəklin altında izahedici məlumatlar yazılır və möhürlə möhürlənir. Möhür elə vurulmalıdır ki, onun bir hissəsi fotoşəkilə, o biri hissəsi isə fotocədvəlin kağızına düşsün.

***SUAL 3. Tutulmanın anlayışı və taktiki üsülları.Müxtəlif şəraitlərdə tutulmanın xüsusiyyətləri.***

Ümumiyyətlə götürdükdə, tutulma çoxmənalı məfhumdur. Öz hüquqi mahiyyətinə, məzmununa, hansı əsasa görə tətbiq olunmasına və tətbiq etmə qaydasına görə müxtəlif növ tutulma tətbiq edilir.

Lakin, hansı növ tutulma tətbiq edilməsindən asılı olmayaraq, tutulma ilk növbədə insan azadlığının məhdudlaşdırılması, onun cəmiyyətdən təcrid olunması, azad hərəkətlərinin qarşısının alınması deməkdir.

16 noyabr 1999-cu ildən qüvvədə olan « Polis haqqında» Azərbaycan Respublikası Qanununun iyirmi birinci maddəsində « tutulma və həbsin» anlayışını verir və qeyd edilir ki, tutulma - hər hansı şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmasıdır.

Həbs inzibati xəta törədilməsinə görə inzibati tənbeh kimi və ya cinayət işi üzrə qətimkan tədbiri kimi şəxsin azadlığının məhdudlaşdırılmasıdır.

Bəs hansı növ tutulma və həbsə almalar tətbiq edilir?

Həmin qanun 21-ci maddəsində göstərilir ki, polis əməkdaşı şəxsin azadlıq hüququnu hakimin qərarına əsasən tutulma və ya həbsə alma yolu ilə yalnız aşağıdakı hallarda məhdudlaşdıra bilər.

1. Cinayət və ya inzibati xəta törədilməsində şübhəli olduqda, yaxud cinayət və ya inzibati xəta törədilməsinə görə həbs olunduqda;
2. Yetkinlik yaşına çatmamış şəxs üzərində tərbiyəvi nəzarət həyata keçirildikdə və ya səlahiyyətli orqana gətirildikdə;
3. Yoluxucu xəstəliklərinin yayılmasının qarşısı alındıqda, habelə ruhi xəstələr, alkoqoliklər,

narkomanlar və avaralıqla məşğul olanlar zərərsizləşdirildikdə;

4. Şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısı alındıqda və ya şəxs ölkədən çıxarıldıqda, yaxud başqa dövlətə verildikdə;

**5.** Təqsirləndirilən şəxsin, cavabdehin, şahidin məhkəmə iclasına gəlməsi təmin edildikdə, atalığın müəyyənləşdirilməsi üçün test keçirildikdə, psixi müayinə aparıldıqda və ya hər hansı öhdəliyin yerinə yetirilməsi (müqavilə öhdəlikləri istisna olmaqla) təmin edildikdə**.**

Qanunun 21-ci maddəsinin II hissəsində qeyd olunub ki, polis əməkdaşı hər hansı şəxsi o vaxt tuta və ya həbsə ala bilər ki, məhkəmənin (hakimin) qərarında məhz həmin şəxsin azadlıq hüququnu məhdudlaşdırılması nəzərdə tutulsun (ola bilər ki, onun adı çəkilsin, amma məhz onun tutulması və həbs olunması göstərilməsin).

Qanunu 21-ci maddəsinin 3-cü hissəsi polis əməkdaşı tərəfindən məhkəmənin (hakimin) qərarı olmadan hər hansı şəxsin təxirə salınmadan tutulmasına 48 saatdan artıq olmayan müddətə yalnız aşağıdakı hallarda yol verilə bilər.

1. Şəxs cinayət və ya inzibati xəta törədərkən, yaxud törətdikdən bilavasitə sonra yaxalandıqda;
2. Hadisəni bilavasitə görənlər, o cümlədən, zərər çəkmiş şəxslər məhz həmin şəxsin cinayət və ya inzibati hüquq pozma törətdiyini göstərdikdə;
3. Şübhə edilən şəxsdə və ya onun paltarında ona məxsus digər əşyalarda və ya mənzilində cinayətin və ya inzibati hüquqpozmanın izləri tapıldıqda.

Qanun 21-ci maddəsinin 4-cü hissəsi tutulmuş və həbsə alınmış şəxsin, onun məsələsinin tezliklə məhkəmədə baxılmasına görə tələb irəli sürmək

hüququnun olmasını göstərir. Nəhayət həmin maddənin V hissəsi xəbərdarlıq edərək göstərir ki, şəxsin qanunsuz tutulmasına və ya həbsə alınmasına yol vermiş polis əməkdaşı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş, Azərbaycan Respublikası CM-nin 292-ci maddəsi( qanunsuz olaraq tutulma, həbsə alma və ya həbsdə saxlama) ilə məsuliyyət daşıyır.

Azərbaycan Respublikası CPM-nin 148-ci maddəsində cinayət törətməkdə şübhə edilən şəxsin tutulmasının əsasları göstərilmişdir. Əgər «Polis haqqında» qanunun 21-ci maddəsinin 3-cü hissəsi şəxsin azadlıq hüququnu məhdudlaşdırma hallarının əsaslarını, yəni həm inzibati xəta, həm də cinayət törətməyə görə şübhəli hesab edilən şəxslərin tutulma əsaslarını göstərirsə, Azərbaycan Respublikasının 148-ci maddəsi ilə üç bəndi ilə eyni uyğunluqla yalnız cinayət törətməkdə şübhəli hesab edilən şəxslərin tutulmasının əsaslarını şərh edir. Bundan əlavə, burada göstərilmişdir ki, əgər şəxsi tutmağa əsas verən sadalanan üç bənddə göstərilən əsaslardan fərqlənən sair dəlillər movcud olduqda, şəxsi cinayət törətməkdə şübhəli şəxs kimi tutmaq olar. Hansı sair dəlillər mövcud olduqda?

O məlumatlar ki, qanunda göstərilən 3 əsasdan başqa şəxsin məlum cinayəti törətməsinə dəlalət etmiş olsun:

1. Hadisəni bilavasitə görməyən şahid və zərər çəkmişin məlumatları (bu təcrübədə ən çox təsadüf olunan hallardır);
2. Təqsirləndirilən şəxsin onunla birlikdə cinayəti törətməkdə iştirak edən şəxslər barədə ifadəsi;
3. Şahidlərin və zərər çəkənin söylədikləri zahiri əlamətlərə uyğun gələn şübhəli şəxsə rast gəldikdə;
4. Hadisə yerində məlum şəxslərə məxsus olan predmetlərin aşkar olunması;

5. Ekspert rəylərindən və təftiş materiallarından meydana çıxan məlumatlar olduqda və s.

Yuxarıda qeyd olunan və sair əsaslar olduqda, şübhəli şəxsi o vaxt tutmaq olar ki, o, bu hallardan biri ilə müşayət olunsun (birləşmiş olsun).

a) həmin şəxs qaçmağa cəhd göstərirsə;

b) onun daimi yaşayış yeri olmadıqda;

c) onun şəxsiyyəti naməlum olduqda.

Ayrı-ayrılıqda, sair əsaslar və axırıncı üç halda göstərilənlər şəxsi tutmağa əsas vermir və tutlulan şəxs əsassız tutulmuş hesab olunur.

Bəs tutulma deyiləndə nə başa düşülür?

Kriminalistik mahiyyətinə görə tutulma təxirəsalınmaz istintaq hərəkəti olmaqla, cinayəti törətməkdə şübhəli hesab edilən şəxsi bilavasitə tutmaq, onu təxirəsalınmadan polis orqanına gətirmək, tərtib edilmiş protokol əsasında müvəqqəti saxlama təcridxanasına salmaq deməkdir.

Cinayət-prosessual mahiyyətinə görə tutulma prosessual məcburetmə tədbiri olub, azadlqdan məhruetmə növündə cəza təyin oluna bilən cinayət törətməkdə şübhə edilən şəxsin 48 saata qədər müddət ərzində həbsə alınması deməkdir.

Hüquq ədəbiyyatında tutmanın mahiyyəti barədə başqa fikirlər də var. Məsələn: S.A.Şeyferin fikrincə tutulma prosessual məcburetmə tədbiri olub, qısamüddətli azadlıqdan məhrum etmə olmaqla yanaşı, həm də sübutların yığılması üçün istifadə olunan istintaq hərəkətidir. Belə ki, tutulmanın əsası tərtib olunan protokolda göstərilməklə Azərbaycan Respublikası CPM-nin 124-cü maddəsinə görə cinayət işi üzrə sübut mənbəyi hesab edilir. Şübhəli şəxsin tutulma şəraiti bəzi müəlliflərin fikrinə görə protokolda əks olunarsa, onda protokol sübut növü statusu alar.

Lakin İ.M.Qutkin bu fikirlə razı olmadan qeyd edir ki, tutulma protokolu təcrübədə sübut növü kimi istifadə olunur. Müstəntiq və təhqiqatçı tutma protokolunda tutmağa qədər olan başqa sübutlara istinad etməklə şübhəli şəxs üçün həbsə almağa əsaslandırmaq məqsədi güdür. Bü da o deməkdir ki, tutma cinayət-prosessual məcburetmə tədbiridir.

İ.L.Petruxin sübut etməyə çalışır ki, tutulma həbs hesab edilmir və ayrıca azadlıqdan məhrumetmə növüdür. Amma V.N.Qriqoryev əsaslandırır ki, tutulma həbs olunmanın başlanğıc mərhələsi olmaqla, ona nisbətən tabeçilik mövqeyi tutur. Məhz, buna görə də şübhəli şəxsi tutma bir isintaq hərəkəti kimi ayrıca institut şəklində inkişaf edir. Bu onunla təsdiqlənir ki, təqsirləndirilən şəxsin həbsdə qalma müddəti ilk tutulma vaxtından hesablanır.

Bir zamanlar 1958-ci ildə tutulma səlahiyyətini təhqiqat orqanı ilə yanaşı müstəntiqlərə də həvalə etmişdilər. Amma, bu səlahiyyət tutulmadan bir «bufer» rolu kimi istifadəyə gətirib çıxardı. Belə ki, əsasız olaraq tutmalar başlandı.Həmin müddətdə müstəntiq çalışırdı ki, toplanmış sübutlara əsasən qəti qərara gəlsin ki, həmin şəxsə «həbs» qətimkan tədbiri tədbiq etsin, ya da əsas olmadıqda onu buraxsın.

V.N.Qriqoryevin fikrincə tutma həbsin spesifik halıdır. Yəni buna da məhkəmnin qərarı olmalıdır, amma həbs olunana qədər. Belə olduqda, tutmanın da konstitusiya təminatı yaranır. 24 saat ərzində tutma bərədə məhkəməyə məlumat verilməli, o isə 48 saat ərzində tutulan şəxsin həbsinə toplanmış sübutlar əsasında ya qərar verməli, ya da onu azad etməlidir.

M.Qutkinin fikrincə tutulmanın son məqsədi qətimkan tədbirinin seçilməsi məsələsi ilə əlaqədardırsa, tutmanın bilavasitə məqsədi bunlardır.

a) şübhəli şəxsin təhqiqat orqanından, ibtidai istintaqdan və məhkəmədən qaçıb gizlənmək cəhdlərinin qarşısını almaq;

b) iş üzrə həqiqətin müəyyən edilməsinə maneçilik törədilməsi cəhdlərinin qarşısını almaq;

c) cinayətkar fəaliyyətinin qarşısını almaq.

Lakin, tutulmanın son məqsədini qətimkan tədbirini o vaxt seçmək olar ki, tutulan şəxsin cinayətlə əlaqəsi müəyyən edilsin. Bu isə müəyyən vaxt tələb edir. Kifayət qədər əsasın olmaması və obyektiv maneələr (gecə vaxtı olması, hadisə yerinin uzaq məsafədə olması, fövqəladə hadisə və s.) imkan verilir ki, həbs qətimkan tədbiri seçilməsi barədə müvafiq sənədləşdirmə aparılsın. Qeyd edilənlərə görə tutulma təxirəsalınmaz istintaq hərəkətidir. Əgər göstərilən səbəblərdən biri yoxdursa, demək şəxsi tutmağa da ehtiyac yoxdur.

## *İstintaq hərəkəti kimi tutulmanın və həbsin taktiki kriminalistik təminatı.*

Tutulmanı həyata keçirən iştirakçılar aşağıdakılardır**:**

1. Polis orqanlarının əməkdaşları;
2. Prokurorluq, orqanlarının əməkdaşları.

Tutmanı həyata keçirən şəxs əvvəlcə onun taktiki və təşkilati xüsusiyyətlərini müəyyənləşdirilmədir:

a) törədilmiş əməlin xarakteri, onun nəticələri və iş üzrə yaranmış istintaq şəraiti ilə;

b) tutulmalı olan şəxsi xarakterizə edən məlumatlar (cinsi, yaşı, fiziki və psixi xüsusiyyətləri, silahın olması, məşğulluğu və s.);

c) bəzi hallarda cinayətin «isti izlərlə» açılması zamanı polis orqanı əməkdaşları tərəfindən tutulma əməliyyatının həyata keçirilməsi və prosessual qaydada rəsmiləşdirilməsi;

ç) tutmanı həyata keçirən qrupun şübhəli şəxsə qarşı xüsusi vasitələrin və fiziki təsirli fəndlərin qanuni tətbiq edilməsinin mümkünlüyü (bu o vaxt tətbiq edilir ki, şübhəli şəxs tutmanı həyata keçirən iştirakçıların qanuni tələblərinə tabe olmur, onlara müqavimət göstərir və ya buna cəhd göstərir, yaxud qaçmağa çalışır və ya tutmanı həyata keçirənlərə, eləcə də başqa vətəndaşların həyat və sağlamlığına ziyan vuran və ya vura biləcək hərəkətlər edir.

Belə hallarda tutma əməliyyatlarının müvəffəqiyyətlə başa çatması üçün aşağıdakı qeyd olunan taktiki üsullar məqsədəmüvafiqdir:

1. Şübhəli şəxsə gizli yaxınlaşmaq və onunla başqa bəhanə ilə əlaqəyə girmək (məsələn; təsadüfi yoldan keçən şəxs kimi, gəlmə adam kimi, alıcı kimi, tikinti-təmir işçisi kimi və s.);
2. Yaxalamanın tez, qəflətən, əvvəlcədən sövdələşmiş qaydada və qəti aparılması, tutulacaq şəxsin sərbəst hərəkətlərinin qarşısını almaq (məsələn; nəqliyyatda onun sağ və solunda sərnişin kimi oturmaq);
3. Tutulan şəxsin müqavimət göstərməsinin, onun qaçıb gizlənməsinin, özünü öldürmsinin və başqa arzuolunmaz hərəkətlərinin vaxtında qarşısını almaq və xəbərdarlıq etmək üçün tədbirlər görmək (xidməti itin tətbiq edilməsi, əl-qolu bağlamaq üçün vasitələrin tətbiq edilməsi, şübhəli şəxsin ciblərinin yoxlanması onlarda olan silahların, narkotik vasitələrin götürülməsi və s.);
4. Tutulmada bilavasiə özü iştirak etməyən, lakin kənardan iştirakçıları izləyən xüsusi ayrılmış şəxslə əlaqə saxlamaq (şübhəli şəxslərin gizli olaraq maddi sübutları atmalarını müşahidə etmək üçün);

5. Tutulan şəxsi başqa şəxslərdən vaxtında və etibarlı təcrid etmək və onları xüsusi avtomaşınlara mindirməklə müvəqqəti saxlama yerlərinə aparmaq.

***Tutulmaya hazırlıq tədbirləri.***

Mümkün qədər əldə olan vaxtın müqabilində tutmağa ciddi hazırlaşmaq lazımdır. Tutulmanın hansı məqsəd üçün icra edildiyini nəzərə alaraq, hazırlıq tədbirlərinin həcmi müəyyən edilirsə və hazırlıq planı tərtib edilir.

Planda birinci növbədə tutulacaq şəxsin şəxsiyyəti ətraflı öyrənilməlidir. Yəni:

- əvvəllər məhkum olunubmu?
- Tutularkən müqavimət göstəribmi və necə göstərib?
- Qəddardırmı?
- Fiziki hazırlığı necədir?İdman və döyüş fəndlərini bilirmi?
- Müxtəlif eksesslərə meyillidirmi?
- Onun həyat tərzi necədir?
- Hansı vərdişləri var?
- Xarakteri necədir?
- İşləyirmi? İşləyirsə, hansı vaxtlar və harada işləyir?
- Hansı nəqliyyatdan istifadə edir?
- Hansı yerlərə tez-tez gedir və nə məqsədlə?
- Cinayətkarlarla əlaqəsi varmı və s.

Bəs, bu məlumatları müstəntiq necə və haradan toplaya bilər? Bu məlumatları müstəntiq hadisə yerinin, şəraitin, hadisəni görən şəxslərin və başqa şahidlərin ifadələrini, zərər çəkənin ifadəsini, şübhəli şəxslə əlbir olan şəxslərin ifadələrini, onun qohum və tanışlarının ifadələrini, əməliyyat işçilərinin məlumatlarını analiz edərək toplaya bilər.

Bu məlumatlar toplandıqdan sonra müstəntiq şübhəli şəxsin bilavasitə tutulmasının icrasının effktiv

planını tərtib edir. Planda həmin şəxsin tutulmasını bilavasitə həyata keçirən qrupun üzvlərinin hansı xüsusi və kriminalistik texnikadan və nəqliyyat vasitəsindən istifadə edəcəkləri göstərilir. Bəzən tutulacaq şəxsin fotoşəkilləri lazımi miqdarda tutmanı icra edən və buna köməklik göstərən şəxslərə paylanır. Əgər tutulacaq şəxs qadındırsa, şəxsi axtarış üçün qrupa qadın cəlb edilir. Tutulma əməliyyatı icra edilən yer və vaxt əvvəlcədən ətraflı öyrənilir ki, tutma tədbiri tutulan şəxs üçün gözlənilməz olsun. Bunun üçün münasib konkret yer və vaxt seçilir. Əgər tutma mənzildə keçiriləcəksə, oraya giriş və çıxış,otaqların sayı və quruluşu, balkon, zirzəmisi, damın üstünə çıxışı, tutulacaq şəxsin pəncərədən və ya balkondan ağaca çıxıb oradan qaçmaq imkanı və s. yerləri öyrənilir. Bunları elə öyrənmək lazımdır ki, bundan tutlacaq şəxs və ya onun ətrafı xəbər tutmasınlar. Yeri gəldikdə rayon inventarlaşma bürosündan mənzillərin plan-sxemlərini öyrənmək olar. Tutmanı icra edən qrupun tərkibi və sayı ilk növbədə tutulacaq şəxslərin sayından,onların müqavimət göstərəcəklərinin reallığından, tutulma yeindən edilmiş cinayətin ağırlığından asılıdır. Tutmada iştirak edən şəxslər 2-3 dəfə tutulacaq şəxslərdən çox olmalıdır. Bəzən, qrupa kinoloq və ekspert kriminalist də əlavə olunmalıdır. Tutulma qrupunun üzvləri arasında vəzifə bölgüsü aparılır. Hər kəs konkret nə edəcəyini, kimi tutacağını planlaşdırır. Tutulma əməliyyatına rəhbərlik edən şəxs tutulmanın ardıcıllığını müəyyənləşdirir. Hər kəsin vəzifəsini dəqiqləşdirir, müstəsna hallarda tutulma üçün bir neçə qrup təşkil edilir:

1. Müşahidə qrupu;
2. Bilavasitə tutulmanı icra edən qrup;
3. Əlaqə və nəqliyyatı təmin edən qrup;
4. Ehtiyat qrupu.

Adətən tutulmanı bilavasitə icra edən qrupun iştirakçıları daha təcrübəli və bacarıqlı, fiziki cəhətdən sağlam əməliyyat işçilərindən təyin edilir. Onlar «sambo» fəndlərini tətbiq etməyi və silahdan yaxşı istiyadə etməyi bacarmalıdırlar.

Planda nəzərə almaq lazımdır ki, şəraitin dəyişməsi ilə əlaqədar tutulmanın taktikası də dəyişə bilər. Ona görə tutulmada iştirak edən işçilər bu barədə təlimatlandırırlar.

Tutulmanın hansı ardıcıllıqla həyata kesirilməsi müəyyənləşdirilərkən, hər kəsin hansı şübhəli şəxsi və kimlərin köməyi ilə tutacağına, hansı nəqliyyatla və hansı marşurutla onları polis şöbəsinə aparılmasını və bir-birindən təcrid olunmaqla harada saxlanmaları dəqiqləşdirilməlidir. Əgər təhlükəli cinayətkarlar tutulmalıdırlarsa, onla bu əməliyyat DİN-nin nəzdində həmişə fəaliyyət göstərən ixtisaslaşdırılmış xüsusi yoxlama qrupuna həvalə olunmalıdır (məsələn: təyyarə qaçıran cinayətkarlara).

Yadda saxlamaq lazımdır ki,tutma əməliyyatları planlaşdırılıb, ona hazırlıq görərkən və icra edərkən, əməliyyat konsperativliyinə riayət olunmalıdr. Çox hallarda bu əməliyyatın müvəffəqiyyətli keçməsi üçün zəmin yaradır. Tutulmanı aşağıdakı ardıcıllıqla həyata kesirmək məqsədəmüvafiqdir.

1. İstintaq şəraitinin analizi;
2. Tutmanın motivini və əsasını (məqsədini) aydınlaşdırmaq;
3. Tutma haqqında qərar qəbul etmək;
4. Qərar barədə tutulmada iştirak edən şəxslərə məlumat vermək (tutma zamanı qərar verən şəxsin özü bilavasitə iştirak etmədiyi hallarda);
5. Tutulma barədə plan (proqram) hazırlamaq, tutulma əməliyyatında iştirak edən şəxslərin sayı, hər birinin

funksiyası tutulma yerini, vaxtını və s. müəyyənləşdirmək;

6. Tutulma barədə qərarı yerinə yetirmək, o cümlədən, lazım gələrsə şəxsi yaxalamaq, paltarının və əmlakının xarici profilaktik müayinəsini keçirmək;
7. Tutulan şəxsi müvəqqəti saxlama təcridxanasına aparmaq;
8. Tutulma barədə protokol tərtib etmək (orada tutulanın şəxsiyyəti barədə məlumatlar, onun psixi və fiziki vəziyyəti, sərxoş olub-olmaması, əlamətləri, paltarı, ayaqqabısı, tutulma şəraiti, vaxtı və yeri barədə məlumatlar, tutmaya qədər, tutma zamanı və ondan sonra tutulanın özünü necə aparması qeyd olunmalıdır);
9. Tutulan şəxsi saxlama kamerasına (otağına) salmaq adətən, bundan əvvəl tutulan şəxs dindirilir və onun nə səbəbdən tutulması və hansı cinayəti törətməklə şübhəli şəxs hesab edildiyi halda protokolda qeyd edilməklə ona bildirilir;
10. 24 saat ərzində hakimə tutulma barədə məlumat vermək (yalnız hakimin özü tutulmada iştirak edən hallar istisna olunmaqla);
11. Tutulma barədə tutulanın ailə üzvlərinə, qohumlarına və ya başqa yaxınlarına məlumat vermək;
12. Tutulma başqa istintaq hərəkətləri ilə müşayiət oluna bilər: baxış, şəxsi axtarış, tutulanın paltarlarına baxış və s. hansılar barədə ki, ayrıca protokollar tərtib olunur;
13. Tutulana həbs qətimkan tədbirinin tətbiq edilməsi;
14. Tutulanın azad edilməsi.

Təcrübədə hər bir halda tutulmanın özünə məxsus xüsusiyyətləri var. Ona görə də tutulmanın taktiki üsulları fərdidir.

Tutulmanın taktiki üsulları aşağıdakı hallardan asılıdır:

1. Tutulmanın məqsədindən (şübhəli şəxsin qaçıb gizlənməsinin qarşısını almaq, onun sübutlarıgizlətmək və ya məhv etməsinin qarşısını almaq, onun süutları gizlətmək və ya məhv etməsinin qarşısını almaq,);
2. Şübhəli şəxsin şəxsiyyətindən;
3. Tutulmalı olan şəxslərin sayından, silahlı olub olmamalarından;
4. Tutulma aparılan yer və tutulma vaxtından;
5. Tutmaya hazırlıq üçün ayrılan vaxtdan.

## A) ictimai yerdə tutmanın və həbsin taktiki xüsusiyyətləri.

İctimai yerdə tutulmanın özünə məxsus taktiki xüsusiyyətləri var. Belə ki, tutulan şəxs çox vaxt polis işçisini vətəndaşlardan seçə bilmir və buna görə də qəflətən onu tutmaq imkanı yaranır (restoran, kafe, kinoteatr).

Tutma qrupunun üzvləri ictimai yerdə başqa vətəndaşlara qarışaraq, mülki paltarlarda diqqəti cəlb etmədən tutulacaq şəxsə yaxınlaşırlar və həmin şəxs tək olan zaman (məsələn: tualetə, paltar asılan yerə girərkən və s.) gedərkən, qəflətən 2 nəfər onun qollarını tutub saxlayır, əgər silahlıdırsa qollarını burmaqla şəxsi silahsizlaşdırırlar. Üçüncü şəxs isə silahı hazır vəziyyətdə saxlayaraq tutulanın hərəkətlərini izləyir və o, müqavimət göstərərsə, onun qarşısını alır, üzərində olan sənədləri və başqa sübutları özündən atmağa imkan vermir. Əgər tutulan şəxs ciddi müqavimət göstərəcəksə, onda tutulma zamanı bir neçə nəfər dəqiq və qəti hərəkət edən polis işçiləri iştirak edirlər. Küçədə də eyni qayda ilə münasib yer və vaxt seçməklə, mümkün qədər kənar şəxslər az

olan yerdə tutulacaq şəxsə yaxınlaşmaq lazımdır. Onun diqqətini cəlb etməmək üçün başqa bir bəhanə ilə məsələn: «bu küçədə filan saylı ev haradadır?», «yaxınlıqda aptek haradadır?», «kibritiniz varmı?» və s. suallarla müraciyət edərək, ona tam yaxınlaşır və qəflətən iki nəfər onun qollarından tutub saxlayır, üçüncü şəxs isə onun üstünü yoxlayır, silahı və ya başqa predmeti varsa götürülür. Hər bir halda ətrafdakı vətəndaşların geyiminə uyğun geyim olmalıdır ki, tutulacaq şəxs bundan şübhələnməsin, çox vaxt qrupa qadın polis işçisi mülki paltarda daxil edilir ki, bu da tutulan şəxsin diqqətini yayındırır.

### *Açıq sahədə tutulma və həbsin taktiki xüsusiyyətləri*

Açıq sahədə tutulma və həbsə alma onunla fərqlənir ki, hər bir şübhəli şəxsin tutulması ayrıca təşkil olunmuş əməliyyat qrupu icra edir. Əməliyyat qrupunun rəhbəri tutma üçün əlverişli vaxtın yetişməsini gözləyir və fürsət ələ düşən kimi əmr verərək, tutma əməliyyatını başlamağı bildirir. Onun sərəncamında ehtiyyat əməliyyat qrupu da olur ki, o da lazım gəldikdə, qrupun rəhbərliyinin əmri əsasında köməyə qatılır.

### Meşədə tutulma və həbsin taktiki xüsusiyyətləri

Meşədə və parkın meşəlik hissəsində tutmanın özünəməxsus xüsusiyyətləri var. Belə ki, tutulacaq şəxs gizlənən meşəlik ərazi dörd tərəfdən müşahidə məntəqəsi ilə əhatə olunur. Bu elə edilir ki, əraziyə giriş və çıxış aydın görünür, ərazinin özü isə əməliyyat qrupları arasında sahələrə bölünür. Sahələrin sərhədləri qruplarda olan əməkdaşlara əvvəlcədən bildirilir. Sahələr arasında əlaqənin necə aparılması və «parol» müəyyənləşdirilir. Xüsusən bu gecə və axşam vaxtı keçirilən  tutma əməliyyatları üçün vacibdir. Bu zaman

işıqlandırıcı fənər və projektorlardan istifadə edilir. Adətən, belə tədbirlərə meşəni yaxşı tanıyan şəxslər və ya meşəbəyi, xidməti itin tətbiqi üçün kinoloq da cəlb edilir. Əməliyyata başçılıq edən «şəxsin işarəsi ilə meşə daranma» qaydası ilə axtarılır. Axtarış zamanı, meşədə ayaq izlərinə, təzə siqaret kötüklərinə, yanmış qalıqlarına, kağız qırıntılarına, yemək qalıqları, tonqala və s. ciddi fikir vermək lazımdır. Quyular çökəkliklər, sıx meşə yerləri diqqətlə yoxlanılır. Axtarış zamanı quşların və heyvanların hərəkətinə də fikir vermək lazımdır. Yaxında gizlənən adam olanda onların hərəkəti bunu bildirir. Tutulacaq şəxsə rast gələndə əvvəl planlaşdırılmış qaydada onun tutulub polis şöbəsinə gətirilməsi icra edilir.

## Nəqliyyat vasitəsində tutmanın taktiki xüsusiyyətləri

Əgər tutulacaq və ya həbs olunacaq şəxs bunu nəqliyyat vasitəsində olarkən gözləmirsə, onun tutulması və ya həbsə alınmasını həyata keçirmək üçün mütləq başqa bəhanə ilə və ya gizlin olaraq ona yaxınlaşmaq və «gözlənilməzlik üsulu»ndan istifadə etmək lazımdır. O, silahla olarsa, onu zərərsizləşdirmək lazımdır. Tutulacaq şəxs, ictimai nəqliyyatda sərnişin kimi olarsa, onda başqa sərnişin kimi onun sağında və solunda oturmaq, sonra onun gözlədiyi və tutulma üçün əlverişli olan vaxt və yer seçməklə, onun tutulmasını həyata keçirmək lazımdır. Bu zaman üçüncü polis işçisi onun üstünü və ciblərini yoxlayaraq silah, narkotik maddə və s. olub-olmamasını yoxlayır.

Tutulacaq şəxs özü nəqliyyat vasitəsi idarə edirsə, onda yol polisi əməkdaşlarına da tərtib edilmiş birgə plan əsasında tapşırıq verilir. Belə ki, sürücü kimi nəqliyyat vasitəsini idarə edən şəxs yüksək təhlükə mənbəyini

idarə etdiyindən, o, tutulacağını və ya həbs olunacağını bilməməlidir. Əgər o, silahlı olarsa, onun təhlükəliliyi daha da artır. Ona görə də başqa bəhanələrlə onun sayıqlılığını itirmək ona yaxınlaşmaq lazımdır. Elə etmək lazımdır ki, ona qarşı ediləcək hərəkət başqalarına qarşı edilən hərəkətdən seçilməsin və cinayətkar sürücü həmin anda tutulacağını gözləməsin. Bunu DYP-nin postlarında həyata keçirmək məqsədəuyğundur. Sayıqlığı itirməmək üçün təcili yardım maşınından istifadə etmək olar.
Əgər tutulacaq şəxs tutulacağını (və ya həbs olunacağını) gözləyirsə və nəqliyyat vasitəsini idarə edirsə, onda DYP-nin əməkhdaşları ilə əlaqəli surətdə onun hərəkətini izləmək, təqib etmək lazımdır. Tutulacaq və ya həbs olunacaq şəxsin silahlı müqavimət göstərməsi gözlənilirsə, onda bu barədə onun hərəkət etdiyi istiqamətdə DYP-nin postlarına məlumat vermək və onun tutulması üçün əlverişli vaxtda əvvəlcədən hazırlıq tədbirləri görmək lazımdır. Belə ki, həmin postlara silahlı qüvvələr göndərilərək, tutmanın zərərsiz, effektli keçirilməsini təmin etmək üçün tədbirlər görülür, nəqliyyat vasitəsi təqib edilir. Lazım gələrsə, nəqliyyatı məcburi dayandırma vasitələrindən, mikrofondan, vertolyotdan, yolların bağlanması üçün böyük nəqliyyat vasitələrindən və s. istifadə olunur.

***Mənzildə tutulmanın taktiki xüsusiyyətləri.***

Mənzildə tutulma nisbətən çətindir, xüsusən, tutulacaq şəxs silahlıdırsa və müqavimət göstərmək ehtimalı varsa ,bu işi daha da çətinləşdirir.

Belə ki, ilk növbədə, tutulmanın təhlükəsizliyi təmin olunmalıdır. Tutulmanın qəflətən icrasını təmin etmək üçün mənzilə gizli daxil olmaq lazımdır. Vaxtı elə seçmək lazımdır ki, tutulacaq şəxs müqavimət göstərməyə hazır olmasın. Belə hallarda səhər tezdən və ya gecə vaxtı

tutulacaq şəxs yatan zaman, yuxuda olarkən, onu yaxalamaq daha əlverişlidir. Kənd yerlərində qadınlar kişilərdən bir az erkən yuxudan durur, səhər yeməyi hazırlayır, toyuqları və heyvanları yemləyirlər. Ona görə də qapını qadın açarkən, mənzilə girmək hələ yuxudan durmamış ərini, (və ya kışı cinsindən olan şəxsi) tutmaq taktiki cəhətdən daha düzgüngür. Lakin, səhər yerlərində qapını açmaq və mənzilə girərək, tutmaq üçün daxil olmaq nisbətən çətindir. Əgər tutulacaq şəxs bunu gözləyirsə, o kiçik bir səsdən oyaq düşür və yaşadığı yerin «gizli tərəf» lərini yaxşı bildiyi üçün qaçıb getmək və müqavimət göstərmək üçün vaxt və imkan qazanır. Ona görə də əvvəlcədən evin və ya mənzilin giriş və çıxışı öyrənilir. Tutulacaq şəxsin gizlənə biləcəyi yerlər öyrənilir. Həmin yerlərə nəzarət edən şəxslər qoyulur, əvvəlcədən həmin yerlər nəzarətə götürülür. Belə hallarda mənzilə və ya evə müxtəlif bəhanılırlı daxil olmaq məqsədəmüvafiqdir. Məişət xidməti işçilərindən (elektrik) qaz cihazlarını və telefon aparatını təmir edən şəxs kimi, çilingər kimi və s. dəvət etmək olar. Mənzil-kommunal təsərrüfatı işçilərindən, qonşulardan, yerli ictimaiyyət nümayəndələrindən də istifadə etmək olar. Təcili yardım, yanğınsöndürən xidmətlərinin işçilərindən belə hallarda istifadə etmək, qapı bağlıdırsa və qapını döymək lazımdırsa, onlar təhlükəsizliyi təmin etmək üçün qapının qarşısında yox, yanında dayanmaq lazımdır ki, içəridən atəş açılarsa, güllə tutan şəxsə dəyməsin. Əgər qapı sındırılarsa, onda qapı çətinliklə, eləcədə ling fomka və başqa alətlərlə tez sındırılır, tutma əməliyyatının iştirakçıları cəldliklə içəri girməlidir. Qapı və qıfıl sındırma halları əvvəlcədən dəvət olunmuş hal şahidləri mənzil-kommunal təsərrüfatı işçiləri və yerli icra hakimiyyəti orqanının işçilərinin iştirakı ilə həyata keçirilir. Adətən sonra mənzildə axtarış da aparılır. Tutmanın gedişini

lazım gələrsə, fotoaparatla şəklini çəkmək və ya videolentə almaq olar. Əlaqə və nəqliyyatı təmin edən qrupun nümayəndələri qruplar arasında və PŞ-nin (Pİ-nin) növbətçi hissəsi ilə mütəmadi rabitə əlaqəsi saxlayır. Ehtiyat qrupu isə yaxın bir yerdə köməyə gəlmək üçün hazır vəziyyətdə dayanır. Müstəsna hallarda mənzillərdə və qapalı yerlərdə tutulma zamanı «Çeryomuxa» və başqa xüsusi vəsitələrdən də istifadə etmək olar.

Əgər mənzildə tutulacaq şəxs tapılmasa, onda mənzildə axtarış aparıb, onun nəticəsindən şəxsin axtarışı üçün istifadə etmək lazımdır.

### *B) Silahlı cinayətkarın tutulması və həbsinin taktiki xüsusiyyətləri*

Silahlı cinaytəkarın tutlması və həbsinə xüsusilə ciddi hazırlaşmaq lazımdır. Belə ki, həmin şəxs silahlı müqavimət göstərə bilər. Silahlı cinayətkarın tutulması və həbsi DİN-nin xüsusi əmrləri ilə nəzərdə tutulmuş planla həyata kesirilir. Planda silahlı cinayətkarı tutmaq üçün qarşıya çıxa biləcək, ehtimal olunan şəraitlər nəzərə alınmaqla, müxtəlif konkret hallarda qüvvələrin və vasitələrin sayını, şəxsi heyətin hərəkət qaydası öz əksini tapmalıdır.

Silahlı şəxsləri tutmaq üçün əvvəlcədən bir xüsusi qrupları yaradılır və onların üzərinə konkret vəzifələr qoyulur.

- bilavasitə tutmanı həyata keçirən qrup;
- tutma qrupunun himayəedici (qoruyucu) qrupu;
- əməliyyat keçirilən rayonu mühasirəyə alan qrup;
- əməliyyat məlumatları ilə təmin edən qrup və s.

Həmin qruplar mühasirə hüdudlarını və çıxış mövqeyini tutduqdan sonra, eləcə də şəraiti, həmin yerdə

bir-birilə əlaqə saxlama qaydalarını dəqiqləşdirdikdən sonra, fəaliyyət göstərməyə başlayırlar.

Əgər cinayətkarlar, onları tutacaq şəxslərdən aktiv hərəkətlər gözləmirlərsə və birbaşa silahlı müqavimətə hazır deyillərsə, onda «gözlənilməzlik» üsulundan istifadə etmək məqsədə müvafiqdir. Belə hallarda polis işçilərinin tam maskalanmalarını təmin etmək üçün əməliyyat rayonunu mövqelərə görə mühasirəyə almaq lazımdır.

Mühasirənin bir və ya bir neçə məntəqələrində gizli surətdə himayəedici «qoruyucu» qrup yerləşdirilir. Qoruyucu qrup tutma qrupunun kömək göstərməyə hazır olmağa mühasirə mövqeyini yarıb keçməyə cəhd göstərən cinayətkarı tutmalıdır.

Tutulma qrupu mühasirə mövqeyində ilkin vəziyyət tutur. Əməliyyatın rəhbərinin siqnalına – (işarəsinə) əsasən, təbii daldanacaqlardan (evlərdən), çökəkliklərdən, ağaclardan istifadə etməklə tutulma qrupu cinayətkarların olduqları yerləri tapıb oraya yaxınlaşırlar. Cinayətkarların, tutma qrupunun onlara hansı tərəfdən yaxınlaşmasını duymasınlar deyə, diqqəti yayındıran hərəkətlər də edilir. Şəxsi heyətin maskalanmasını təmin etmək üçün tutma qrupunun üzvləri, tibbi yardım işçiləri, mənzil-istismar sahələrinin (MİS) nümayəndələri və s. işçilər kimi özlərini qələmə verirlər.

Cinayətkara yaxınlaşan tutma qrupu gözlənilməz və qəfil hərəkətlərə sambo, karate fəndləri, eləcədə xüsusi vasitələrin tətbi etməklə cinayətkarların aktiv hərəkətlərini dəf edir, onları silahsızlaşdıraraq, tutmanı başa çatdırır.

Əgər cinayətkarlar silahlı basqına müqavimət göstərərsə, onda onların müqavimətini qırmaq üçün xüsusi vasitələrdən başqa, müəyyən olunmuş qaydada silah da tətbiq edilir.

Tutma qrupu bundan sonra daldanacaq yerlərinə girir, qoruyucu qrup isə irəli çıxaraq, yaxın ətrafda qaçıb gizlənməyə səy göstərə cinayətkarları tutur və tutma qrupunu öz hərəkətləri ilə himayə edir.Tutulma zamanı ilk növbədə, tutulan şəxsin şəxsi axtarışı aparılır. Onun üstündə və ciblərində silah və onun cinayət etməsinə dəlalət edən predmetlər axtarılır. Hal şahidləri dəvət olunurlar və protokol tərtib edilir. Əgər onlar yoxdursa, onda şöbəyə və ya müstəntiqin yanına gətiridikdən sonra, şəxsi axtarış aparmaq məqsədəmüvafiqdir.

Tutulan şəxs ciblərində olan predmetləri, dəlilləri gizləyə və ya ata bilər. Özünü öldürməyə cəhd və ya müqavimət göstərə bilər. Belə arzu olunmaz halların qarşısı vaxtında alınmalıdır. Tutulan şəxsləri adətən, xüsusi polis maşınları ilə xidməti otaqlara aparırlar. Bəzən xüsusi təşkilat və idarələrə məxsus olan avtomaşınlardan da istifadə olunur. İctimai nəqliyyatdan istifadə etmək olmaz. Əgər tutulan şəxsi avtomaşınla şöbəyə aparmaq lazım gələrsə, çalışmaq lazımdır ki, marşrut çox insan olan yerlərdən, keçidi olan yerlərdən meşəli sahələrdən keçməsin. Əgər tutulanı piyada 2 nəfər polis işçisi şöbəyə aparırsa, onlardan biri irəlidə, o biri bir qədər arxada hərəkət edir. Əgər, tutulanı bir nəfər polis işçisi şöbəyə aparırsa, o tutulanın sağ tərəfindən bir qədər arxada və ya onunla yanaşı hərəkət etməlidir. Tutulan şəxsdən irəli keçmək və ya onun yanında əyilmək olmaz.

Əgər cinayətkarlar ağır cinayət törətmişsə və ya müqavimət göstərirsə, onda onun qollarını bağlamaq lazımdır (qandal). Zəruri hallarda ona sambo fəndi də tətbiq edilir. Lakin, azyaşlılara və qadınlara qarşı eləcədə əlillərə qarşı sambo işlətmək olmaz (əgər onlar silahla hücum etməsələr). Polis işçisi əl-qol bağlama, sambo

fəndi və sarımaqdan nə vaxt, hansı şəraitdə və kimə qarşı, hansı tətbiq barədə növbətçi hissəyə raport yazır. Tutulan şəxs polis şöbəsinə və ya müstəntiqin yanına gətirdikdən sonra, protokol tərtib edilir. Orada tutulan şəxsin anket məlumatları, tutulma vaxtı (il, gün, saat və dəqiqə), tutmanın əsası və mötivi göstərilir. Protokolda tutulmanın aparılma qaydası və şəraiti tutulan şəxsin müqavimət göstərib göstərməməsi, onun özünü necə aparması, tutmanı aparan şəxslər, tutlanın paltarları, şəxsi axtarışda onun üstündən və ciblərindən çıxan əşyalar, şəxsi axtarış zamanı tutulanın bədənində xəsarətin olub-olmaması və hal şahidlərinin iştirakı qeyd olunur. Tutulma tarixi müvəqqəti saxlama təcridxanasına salınan vaxt deyil, faktiki tutulma vaxtı hesab edilir və eləcədə protokolda qeyd edilir. Protokol üç nüsxədən ibarət olur. Onlardan biri cinayət işinə əlavə olunur, ikincisi tutulanın şəxsi işinə, üçüncü isə növbətçi hissədə saxlanmağa verilir. Protokola tutma əməliyyatı keçirilən zaman və ya şübhəli şəxsi izləyən zaman çəkilən fotoşəkillər, videolentlər, konoçəkiliş lentləri əlavə olunur.

Biz tutma və həbsə almanın bu və ya digər hallarda taktiki xüsusiyyətlərini araşdırdıq. Bəs azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı polis əməkdaşlarının vəzifələri hansılardır? Bu vəzifələr ümumi şəkildə «Polis haqqında» qanunun 23-cü maddəsində öz əksini tapmışdır.

1. Zəruri müdafiə və son zərurət halları istisna olmaqla, şəxsin tutulması və ya həbsə alınması təhlükəsiz üsul və vasitələrdən istifadə etməlidir.
2. Tutulan və ya həbsə alınan şəxsə özünü təqdim etməklə xidməti vəsiqəsini göstərməlidir.
3. Tutulan və ya həbsə alınan anda, müqavimət göstərən və ya anlaqsızlıq vəziyyətində olan şəxslər

istisna olmaqla, hər hansı şəxsə onun tutulmasının əsaslarını bildirməli və hüquqlarını izah etməlidir.

4. Tutulmuş və ya həbsə alınmış şəxsi təxirəsalınmadan polis orqanına gətirilməli, tutulma və həbsə alma faktına, Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyənləşdirilmiş qaydada protokollaşdırmalı, tutulmuş və ya həbsə alınmış şəxsi protokolla tanış etməli, hər bir tutulma və ya həbsə alma faktını müvafiq polis orqanında qeydiyyatdan kesirməlidir.
5. Xüsusi təhlükəli dövləti cinayəti törətmiş şəxs istisna olmaqla, tutulmuş və ya həbsə alınmış şəxsin yaxın qohumlarına, onun tələbi ilə iş və ya təhsil yerinə tutulması və ya həbsə alınması barədə təxirə salınmadan məlumat verməlidir.
6. Tutulmuş və ya həbsə alınmış şəxsin tələbi ilə onun müdafiəçisinin köməyindən istifadə etmə hüququnu təmin etməlidir.
7. Tutululmuş və ya həbsə alınmış şəxslə davranışda onun vəziyyətinə və ləyaqətinə hörmətlə yanaşmalı, qadınlara, yetkinlik yaşına çatmayanlara, qocalara, xəstələrə və əlillərə xüsusi diqqət yetirməlidir.
8. 3 saatdan artıq müddətə tutulmuş və ya həbsə alınmış şəxs barədə onun tutulmasından və ya həbsə alınmasından 24 saat keçənədək hakimə yazılı məlumat verilməlidir.
9. Məhkəmənin qərarına əsasən, habelə tutulma və ya həbsə alma müddətləri keçəndən sonra tutulan və ya həbsə alınan şəxsi dərhal azad etməlidir.

Şəxsi tutmağa hazırlaşarkən və onun tutulması və həbsə almasını icra edərkən, polis əməkdaşları tərtib edilmiş plan əsasında, müxtəlif funksiyaları hər kəs ayrılıqda yerinə yetirməklə bərabər,eyni

məqsəd naminə bir-birilə əlaqəli surətdə fəaliyyət göstərirlər.

Belə ki, mövzunun əvvəlində bu və ya digər hallarda (meşədə, mənzildə) tutma və ya həbsə almanın taktiki xüsusiyyətlərini açıqladıq. Hər bir halda, istər tutma və həbsə hazırlaşarkən, istərsə də, onları icra edərkən, polis əməkdaşları birgə əlaqəli surətdə hərəkət edirlər. Çünki, bu əməliyyatları həyata keçirmək üçün həm də taktiki cəhətdən effektli təhlükəsiz üsulla icra etmək üçün polis əməkdaşları əlaqəli,planlaşdırılmış qaydada fəaliyyət göstərirlər. Belə ki, tutlulmaya hazırlaşarkən, tutulmanın məqsədlərindən tutulacaq şəxsin və ya şəxslərin şəxsiyyətindən, onların sayından əməliyyat aparılacaq yerin şəraiti və xüsusiyyətlərindən eləcə də vaxtından asılı olaraq, taktiki fəndlər seçilir və bu fəndləri icra etmək üçün güc və vəsaitlər nəzərə alınmaqla plan tərtib olunur.

Əməliyyat keçirilərkən, polis idarə, şöbə və bölmələrinin növbətçi hissələri daimi olaraq əməliyyatın gedişini izləyir, ayrı-yarı əməliyyat qrupları arasında əlaqə yaradır. Xüsusilə silahla müqavimət göstərən cinayətkarın tutulmasında və həbsində, eləcə də bir neçə silahlı şəxsin tutulmasında və həbsində, nəqliyyat vasitələrindən istifadə etməklə cinayət törədən və nəqliyyat vasitələri ilə qaçıb gizlənməyə cəhd göstərən cinayətkarların tutulmasında və həbsə alınmalarında növbətçi hissələrin əməkdaşları dövlət yol polisinin əməkdaşları ilə əlaqəli surətdə tutma qrupunun əməkdaşlarına planlı şəkildə kömək göstərirlər.

Əgər şəraitdən və şübhəli şəxslərin şəxsiyyətindən asılı olaraq, mənzil-istismar əməkdaşlarından, məişət xidməti işçilərindən, ictimaiyyətin köməyindən əməliyyat zamanı istifadə etmək ehtiyacı yaranarsa, növbətçi hissə,

konsperativliyə riayət etməklə, əməliyyatın rəhbərliyinin gösətirişinə əsasən, həmin qüvvələrlə dərhal əlaqə yaradaraq, müvafiq tədbirlər həyata keçirir, əməliyyatın effektiv keçirilməsi üçün şərait yaradır.

### *Tutma və həbsə alma zamanı texniki vasitələrdən istifadə olunması.*

Tutma və həbsəalma zamanı texniki vasitələrdən geniş istifadə edilir. Əksər halarda, fiziki və silahlı müqavimət göstərən və göstərmək ehtimalı olan şəxslər tutularkən və həbsə alınarkən, əl-qolu bağlama vasitələrindən (qandal) istifadə edilir. Lazım olan hallarda kəskin müqavimət göstərən şəxsləri ayaqları, əlləri və bədəni kəndirlə bağlanır. Tutlacaq və ya həbs ediləcək şəxslərin fiziki müqavimətlərinin dəf olunması üçun rezin dəyənəklərdən, suatan vasitələrdən istifadə olunur. Nəqliyyat vasilərdən hərəkət edən cinayətkarları tutmaq və həbs etmək üçün nəqliyyat vasitələrini məcburi dayandırma vasitələri tətbiq edilir. Silahlı müqavimət göstərən bir və bir neçə cinayətakr mənzildə, evdə, sarayda, mağarada, vaqonda gizlənərsə, xüsusi təyinatlı gözyaşardıcı qazlardan (çeryomuxa və s.) istifadə olunur.

Adətən, polis orqanlarına gətirilən şəxslərə ilk araşdırmanı növbətçi hissənin əməkdaşları aparır. DİO-nın rəisləri, onların müavinləri və xidmət rəhbərləri araşdırmanı başqa işçilərə də həvalə edə bilərlər. Gecə vaxtları adətən araşdırmanı növbətçi əməliyyat müvəkkili, aşkar işlər üzrə isə növbətçi müstəntiq aparırlar.

Polis orqanına gətirilən şəxslər növbətçi hissədə kitabda qeyd olunur.

Qeydiyyat kitabında gətirilən şəxsin: soyadı, adı, atasının adı, anadan olduğu il və ay, yaşadığı ünvan, şəxsiyyətini müəyyən edən məlumatlar, iş yeri, oxuduğu yer, partiyalılığı, polisə gətirilmə əsası (yəni nə vaxt,

harada, hansı hüquqpozuntusu törətmişdir), kim tərəfindən polisə gətirilib, gətirilmə vaxtı. Sonrakı sütunda gətirilən şəxs barədə tədbirlər görülməsi qeyd olunur və ya haraya, nə vaxt göndərilməsi göstərilir.

Bəs hansı sənədlər əsasında kitabda qeydlər aparılır?

- əvvəllər şəxsiyyətini təsdiq edən sənədə (şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə və s.) əsasən;
- tərtib olunmuş raport, protokol, akt və s. sənədlərə əsasən;
- ünvanlar bürosunun arayışına əsasən.

İctimai təhlükəli əməl barədə qeydiyyat, hadisələr barədə məlumatlar jurnalında da aparılır. Belə ki, ola bilsin hadisə yerinə çıxmaq və inzibati yoxlama aparmaq lazım gəlsin.

Əgər cinayət törədilməsi barədə rəsmi ərizə və məlumat alınarsa, bu cinayətlər barədə ərizə və məlumatların qeydiyyatı aparılır. Cinayət törədilməsi barədə məlumatlar kitabına də qeyd edilir və nəticə qrafasında «HK-1» istinad edilir ki,cinayətlər barədə qeydiyyat jurnalına keçirilib və qeydiyyat sayı, tarixi göstərilir.

Cinayət barədə məlumatın kitaba qeyd olunmasına nəzarət etmək üçün eyni saylı iki hissədən ibarət olan çağırış talonundan istifadə olunur. Talonun birinci hissəsi məlumatı qəbul edən polis işçisinin imzası vaxt və tarixi qeyd olunmaqla, məluumatı verən şəxsə təqdim olunur. İkinci hissəsi növbətçi hissədə qalır.

Qeyd etmək lazımdır ki, tutub saxlama haqqında qərarı yalnız icraatında cinayət işi olan müstəntiq və ya təhqiqatçı çıxara bilərlər. Amma, şübhəli şəxsi polis orqanına istənilən polis əməkdaşı gətirə bilər, o cümlədən də polis nəfərləri. Tutub saxlama haqqında qərarları isə

yalnız, buna səlahiyyətləri qanunla müəyyən edilmiş şəxslər qəbul edə bilərlər. Bunlar, ibtidai araşdırmanı aparmağa hüququ olan şəxsdirlər.

Nəzərə alınmalıdır ki, tutma haqqında qərar qəbul edilərkən, onun üçün əsas kimi yoxlanılmamış məlumatlar, ehtimallar, əməliyyat və başqa məlumatları və başqa məlumatlar götürmək olmaz.

Hansı əsaslara şəxsin şübhəli şəxs kimi tutulması Azərbaycan Respublikasının CPM-nin 147-cu məddəsində göstərilmişdir. Bunlar barədə mövzunun əvvəlində qeyd olunub.

İndi isə barəsində tutulma haqqında qərar çıxarılmış şəxsə qətimkan tədbirinin tətbiq edilməsi məsələsini araşdıraq.

Müstəntiq və ya təhqiqatçı tutub saxlanmış şəxsə o vaxt həbs qətimkan tədbiri tətbiq edə bilər ki, onun aşağıdakı əsasları olsun.

- şəxs azadlıqda qalarsa, o, təhqiqat, istintaq və məhkəmədən yayınacaq;
- iş üzrə həqiqətin müəyyən olunmasına maneəçilik törədəcək;
- cinayətkar fəaliyyəti ilə məşğul olacaq.

Göründüyü kimi həbsə almanın əsasları, tutub saxlamının əsasları ilə uyğunluq təşkil edir. Bu belə də olmalıdır çünki, hər iki halda söhbət şəxsin azadlığının az - və ya – uzun - müddətə məhdudlaşdırılmasından gedir. Lakin, həbsə almanın əsası ilə tutub saxlamanın motivi eyni deyildir. Belə ki, şəxsi tutub saxlamağa nisbətən, şəxsi həbsə almaq üçün daha çox sübutların yığılması tələb olunur. Bu da ki, təbiidir, ona görə ki, şəxsi tutub saxlamayanda, adətən vaxt məhdudluğu üzündən kifayət qədər sübütları yığmaq mümkün olmur.

Lakin, tutub saxlama muddətində, yəni, cəmi 48 saat ərzində bir çox məsələrə aydınlaşdırılır. Təhqiqat və

istintaq materialından alınan məlumatlar, tutub saxlanılan şəxsə həbs qətiimkan tədbirinin seçilib-seçilməməsi məsələsini həll etmək üçün kifayət qədər əsas verir. Məsələn: təhqiqat və istintaq nəticəsində məlum olur ki, tutub saxlaılan şəxs bir neçə gün əvvəl yaşadığı yerdən qeydiyyatdan çıxıb və ya başqa uzaq yerlərə getmək üçün təyyarəyə bilet alıb, yaxud ev əşyalarını satıb və ya satmağa cəhd edib. Bunlar əsas verir ki, həmin şəxs təhqiqat, istintaq və məhkəmədən yayınmaq istəyir. Tutub saxlanılan zərərçəkənin və şahidlərin hədələməsi, sənədləri məhv etməsi onu göstərir ki, o, iş üzrə həqiqətən müəəyən olunmasına maneəçilik törədir. Əgər şəxsin silah alması, onunla əlbir olmaq üçün başqa şəxsləri axtarması, eləcədə cinayət törədiləcək müəssisədə iş rejiminin öyrənilməsi məlum olarsa, deməli o, cinayət fəaliyyəti ilə məşğul olmaq istəyir.

Həbs qətimkan tədbirinin tətbiq edilməsi üçün motiv olaraq, bir çox ağır cinayətlərin ağırlıq dərəcəsi götürülür. Təcrübədə həbs qətimkan tədbiri yalnız təqsirləndirilən şəxslərə tətbiq edilir. Yəni, o şəxslər ki, haqqında cinayəti törətməsi barədə qərarla ittiham elan edilmişdir. Özu də o cinayəti törətməsi barədə həmin cinayətə görə Cinayət Məcəlləsində sanksiyada cəza tədbiri olaraq bir ildən artıq həbs nəzərdə tutulmuş olsun.

Həmçinin qətimkan tədbiri tətbiq edilərkən, şübhəli şəxsin və ya təqsirləndirilən şəxsin yaşı, səhhəti, ailə vəziyyəti, ittihamın ağırlığı və başqa xüsusiyyətləri nəzərə alınır.

Həbs qətiimkan tədbiri seçilməsi barədə qərar hakim tərəfindən sanksiya verməklə təsdiqlənir və qanuni qüvvəyə minir. Bunun üçün hakim cinayət işinin materialları ilə tanış olur, təqsirləndirilən şəxsi dinləyir, lazım gəlsə, özü onu dindirir. Yetkinlik yaşına çatmayan müttəhimlərə isə həbs qətimkan tədbiri tətbiq edilərkən,

bütün hallarda onları hakim özü dindirməlidir. Hətta kiçik səhv nəticəsində başqa şəxsin anket məlumatları dəqiq yoxlanılır ki, cüzi səhvə yol verilməsin. Hətta kiçik səhv nəticəsində başqa şəxsin anket məlumatları ilə həbs ediləcək şəxsin məlumatları üst-üstə düşə bilər. Ona görə də şübhəli şəxsin və təqsirləndirilən şəxsin anket məlumatlıra rəsmi sənədlərə əsaslanmalıdır. Belə ki, təcrübədə bu səbəbdən axtarışda olan şəxslərin anket məlumatları il demək olar ki, üst-üstə düşən şəxslərin qanunsuz olaraq azadlıqlarının məhdudlaşdırılması hallarına yol verilmişdir. Məsələn: Rusiyadan alınmış teleqram əsasında səhvən anket məlumatları təxminən eyni olan şəxmi qanunsuz bir müddət tutub saxlamışlar.

Tutulub saxlanılan şəxs o vaxt saxlanılma yerindən buraxılır ki,

Şəxsin cinayəti törətməsi barədə şübhə təsdiq olunması (cinayət hadisəsi və ya şəxsin əməlində cinayət tərkibi olmadıqda);

Ona həbs qətimkan tədbirin tətbiq edilməsinə ehtiyac olmasın (qərar verilməyəndə və başqa qətimkan tədbiri seçiləndə, əməldə başqa cinayətin tərkibi olduğu üçün həbs qətimkan tədbiri lazım olmayanda, eləcədə cinayət işi şəxsin əməlində cinayət tərkibi olmadıqda və şəxsin cinayət etməsi sübuta yetirmədiyindən xitam edildikdə);

Şəxsin tutulab saxlanma vaxtı qurtardıqda.

Şəxsin azad edilməsi barədə dörd nüsxədən ibarət qərar çıxarılır.Birinci nüsxə cinayət işinə tikilir,ikincisi saxlanma yerinə verilir, üçüncüsü hakimə göndərilir, dördüncüsü nəzarət icraatına tikilir.

### *Tutulma və həbsə almanın nəticələrinin qeyd edilməsi*

Tutulma və həbsə almanın nəticələrinin düzgün qeyd edilməsi üçün görünən işlərin hesabını təmin edir,qəbul edilən qərarların sənədli əsasını təşkil edir, polis orqanlarının müntəzəm fəaliyyəti üçün şərait yaradır və onların qanuniliyinə zəmanət verir. Nəticələrin düzgün qeyd edilməsi prokuror nəzarəti və müəsissə daxili nəzarət üçün də effektli şərait yaradır. Ən nəhayət, nəticələrin düzgün qeyd olunması cinayət işi üzrə sübutetməyə xidmət edən şəraitlərdən biridir.
İ.F.Frank qeyd etmişdir ki, cinayət başında tutulma həm tutlmaya əsas verir, həm də cinayət işi üzrə ilk əsas və düz ittihamedici sübutdur.

Tutub saxlamanın şəraiti, tutulan şəxsın özünü necə aparması, tutulma zamanı ondan götürülmüş əşyalar və sənədlər birlikdə cinayətin törədilməsinin hallarını müəyyən etməyə imkan verir. Polis işçilərindən tələb olunur ki, mümkün qədər göstərilən məlumatları tərtib edilən sənədlərdə ətraflı və düzgün qeyd etsinlər. Təsadüfi deyil ki, bir sıra cinayətlərin, məsələn: cibdən oğurluq, qanunsuz olaraq narkotik vasitələrin saxlanılması, qanunsuz olaraq soyuq silah və odlu silahların gəzdirilməsi və əksər hallarda tutub saxlamanın və madi sübutların həmin vaxt götürülməsi barədə toplanmış sənədlərə istinad etməklə sübuta yetirilir.

Ümumiyyətlə tutub saxlama barədə sənədləşmə tam, hərtərəfli və düzgün aparılır.

## Mövzu 16:

## *Dindirmə və üzləşdirmə taktikası*

PLAN:

1. Dindirmənin anlayışı, mahiyyəti və növləri
2. Dindirmənin psixoloji əsasları
3. Dindirməyə hazırlıq və onun keçirilməsinin taktiki üsulları
a) Şahidin dindirilməsi taktikası
b) Zərər çəkmiş şəxsin dindirilməsinin taktiki üsulları
v) Şübhəli şəxsin dindirilməsi taktikası
q) Təqsirləndirilən şəxsin dindirilməsi taktikası
4. Üzləşdirmə taktikası.
Dindirmənin nəticələrinin rəsmləşdirilməsi

### *Sual 1. Dindirmənin anlayışı, mahiyyəti və növləri*

### *Dindirmənin anlayışı və mahiyyəti*

Dindirmə cinayət işi üçün əhəmiyyət kəsb edən hallar barədə dindirilən şəxsdən qanunvericiklə nəzərdə tutulmuş qaydada məlumatların alınması və onların düzgün rəsmiləşdirilməsindən ibarət olan verbal istintaq hərəkətidir. Dindirmə ibtidai araşdırma zamanı istifadə olunan mühüm istintaq hərəkətlərindən biridir. Elə bir cinayət işi yoxdur ki, onun istintaqı zamanı müstəntiq dindirmədən istifadə etməsin. Müstəntiq dindirmə vasitəli yeni sübutlar əldə edə, habelə işdə mövcud olan sübutları yoxlaya bilər.

Müstəntiq dindirmə zamanı şəxsdən iş üçün əhəmiyyət kəsb edə hallar barədə məlumatlar əldə etməklə yanaşı, onun cinayət hadisəsinə olan münasibətini, mövqeyini, fikir və mülahizələrini aydınlaşdırmış olur. Başqa sözlə

desək, dindirmə təkcə cinayətin obyektiv cəhəti deyil, eyni zamanda onun subyektiv cəhəti ilə bağlı olan halları müəyyən etməyə imkan verir. Müstəntiq dindirmə vasitəsilə təqsirləndirilən şəxsin törətdiyi əmələ münasibəti, onun motiv və məqsədi, habelə özünü təqsirli bilib-bilməməsi; təqsirləndirilən şəxsin cinayətkar fəaliyyətinin yeni epizodları; cinayətin törədilməsinə şərait yaradan hallar barədə məlumatlar əldə edə bilər. Bu da dindirməni digər istintaq hərəkətlərindən fərqləndirən əsas cəhətlərdən biridir.

Dindirmənin mahiyyəti iş üçün əhəmiyyət kəsb edən hallara dair məhz gerçək məlumatların əldə edilməsindən ibarətdir. Öz növbəsində bu dindirmənin məqsəd və vəzifəsini təşkil edir. Kriminalistik ədəbiyyatda dindirmənin məqsədi ilə bağlı müxtəlif fikirlər mövcuddur. S. K. Piterçev və A. A. Stepanov dindirmənin iki məqsədə malik olduğunu bildirirlər: 1) iş üçün əhəmiyyətli olan yeni faktların və məlumatların əldə etmək; 2) işdə olan və mötəbərliyi şübhə doğuran sübutları yoxlamaq.[1]

V. N. Çomartov isə dindirmənin məqsədi kimi aşağıdakıları göstərir: dindirilən şəxslə psixoloji kontaktın yaradılması; şəxsin faktın yada salınmasına köməklik göstərilməsi; dindirmənin nəticələrinin təhlili; yalan ifadə verən şəxslərin ifşa olunması və onların düzgün məlumat verməyə məcbur edilməsi və s.[2]

İstintaq hərəkətləri içərisində dindirmə ifadələrin yerində yoxlanılması və tanınma üçün təqdimetmə çox yaxındır. Bu da onların verbal xarakter daşıması və iş üçün əhəmiyyət kəsb edən hallar barədə məlumatın

---

[3] Питерцев С. К. и Степанов А.А. Тактика допроса на предварительном следствии и в суде. Санкт-Петербург, 2001 s. 9.

[2] Цомартов В. Н. Тактические приемы допроса и пределы их допустимости. канд. дисс. М., 1977, s. 32.

dindirilən şəxsdən alınmasından irəli gəlir. Lakin bu istintaq hərəkətləri arasında oxşar cəhətlərlə yanaşı, ciddi fərqlər də vardır. Dindirmənin ifadələrin yerində yoxlanılması istintaq hərəkətindən fərqi:

1) Dindirmə cinayət hadisəsilə bağlı məlumatların əldə edilməsi məqsədilə aparılır. İfadənin yerində yoxlanılmasının əsas məqsədi isə şahidin, zərərçəkmiş, şübhəli və təqsirləndirilən şəxsin ifadələrindəki məlumatların yerində aydınlaşdırılması və yoxlanılmasıdır.

2) Dindirmədə müstəntiq şahid, zərərçəkmiş, şübhəli və təqsirləndirilən şəxsdən əldə olunmuş məlumatları dindirmə protokolunda əks etdirir. İfadələrin yerində yoxlanılmasında isə təkcə dindirilən şəxsin ifadəsi deyil, həm də onun hərəkətləri, nümayiş etdirdiyi ayrı-ayrı hallar və s. rəsmləşdirilir.

Dindirmə tanınmaya təqdimetmə istintaq hərəkətindən fərqi:

1) Tanınmaya təqdim etmə bir qayda olaraq istintaqı aparılan hadisə ilə əlaqədar hər hansı bir obyektin dindirilən şəxs tərəfindən əvvəllər müşahidə edildiyi barədə ifadə verdiyi hallarda aparılır. Dindirmə isə şəxsin cinayət hadisəsilə bağlı məlumat vermək ehtimalı olduğu halda aparılır.

2) Dindirmə zamanı dindirilən şəxsdən iş üçün əhəmiyyət kəsb edən bütün hallar barədə məlumat alınır. Tanınmaya təqdimetmə də isə şəxs cinayət hadisəsilə ilə əlaqədar əvvəllər müşahidə etdiyi obyektin ona təqdim olunan obyekt olub-olmaması haqqında məlumat verir.[3]

Dindirmə iş üçün əhəmiyyətli olah hallara və faktlara dair dindirilən şəxsdən müəyyən məlumatın alınmasından ibarət vahid prosesdir. Lakin bu proses

---

[3] Яблоков Н. П. Криминалистика. М., 1995, s. 231.

onun iştirakçıları, şəraiti və ardıcıllığı ilə əlaqədar olaraq bir sıra özünəməxsus əlamətləri vardır. Məhz bu əlamətlər dindirməni müxtəlif növlərə ayrılmasına imkan verir.

Dindirilən şəxsin prosessual vəziyyətindən aslı olaraq dindirmənin aşağıdakı növlərə bölünür: şahidin dindirilməsi; zərərçəkmiş şəxsin dindirilməsi; şübhəli şəxsin dindirilməsi; təqsirləndirilən şəxsin dindirilməsi.

Dindirilən şəxslə müstəntiq arasında olan münasibətdən aslı olaraq dindirmə münaqişəli və münaqişəsiz xarakterli olur. Yalan ifadə verən və yaxud ifadə verməkdən imtina edən şəxslərin dindirilməsi münaqişəli xarakterlidir. Bu xüsusiyyət bir qayda olaraq təqsirləndirilən və  şübhəli şəxsin dindirilməsi üçün xasdır. Düzgün ifadə verən şəxslərin dindirilməsi isə münaqişəsiz xarakterlidir.

Dindirmənin məqsədindən aslı olaraq ilkin və təkrar dindirmə növləri vardır. Təkrar dindirmənin məqsədi ilkin ifadənin düzgünlüyünü yoxlamaq və ya iş üçün əhəmiyyətli olan hallara dair yeni məlumatlar əldə etməkdir.

Dindirmə şəxsin subyektiv əlamətlərinə görə də fərqləndirilir. Məsələn, yetkinlik yaşına çatmayan şəxslərin dindirilməsi onun xüsusi bir növüdür.  Qüvvədə olan qanunvericilik yetkinlik yaşına çatmayan şəxslərin dindirilməsinin xüsusi prosessual qaydalarını müəyyən etmişdir. Bu da onların psixi xüsusiyyətləri ilə bağlıdır.

Dindirmə onun aparılma mərhələsindən aslı olaraq iki növə ayrılır: ibtidai istintaqda dindirmə və məhkəmədə dindirmə. Qüvvədə olan qanunvericilik şahidin, zərərçəkmiş və təqsirləndirilən şəxsin məhkəmə istintaqında dindirilməsinin xüsusi qaydaları müəyyən etmişdir. Bu qaydalar bir sıra cəhətlərinə ilə həmin

şəxslərin ibtidai istintaqda dindirilməsi qaydalarından fərqlənir.

Dindirmənin xüsusi bir növü üzləşdirmədir. Üzləşdirmə müstəqil istintaq hərəkətidir. Lakin dindirmənin digər növlərindən fərqli olaraq üzləşdirmə dindirilən şəxslərin ifadələri arasında olan ziddiyyətlərin səbəblərini aydınlaşdırmaq və bu ziddiyyətlərdən düzgün nəticə çıxarmaq məqsədi daşıyır.

### *Sual 2. Dindirmənin psixoloji əsasları*

**İfadənin formalaşması mərhələləri.** Cinayət işi üçün əhəmiyyətli olan faktlara dair dindirilən şəxs tərəfindən verilən informasiya mürəkkəb psixoloji proses keçərək, ifadə verən şəxsin təfəkküründə formalaşır. Bu psixoloji proses **ifadənin formalaşması prosesi** adlanır. Ümumiyyətlə, ifadənin formalaşma prosesi psixoloji və kriminalistik mənada başa düşülür. Psixoloji mənada ifadənin formalaşması şəxsin istintaq üçün əhəmiyyətli faktın qavradığı, kriminalistik mənada isə şəxsin faktın cinayət hüquqi xarakter daşıdığını dərk etdiyi andan başlanılır. Şahid ifadələri isə bəzən şəxsin dindirməyə çağırış vərəqəsi aldığı və yaxud daha gec, dindirmə zamanı müstəntiqin konkret sualların verdiyi andan başlanıla bilər. Zamana görə, ifadənin psixoloji formalaşması həmişə kriminalistik formalaşmadan əvvəl olur. Belə ki, şəxs hadisəni əvvəl qavrayır, sonra isə onun mənasını dərk edir.

İfadənin formalaşması mürəkkəb psixoloji proses olduğundan müəyyən mərhələlərə bölünür. İfadənin formalaşma mərhələləri əlaqədar kriminalistika ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Kriminalistlər əksəriyyəti ifadənin formalaşma prosesini aşağıdakı mərhələlərə bölürlər: 1) müəyyən faktı və hadisəni

qavramaq 2) həmin faktı və hadisəni yadda saxlamaq 3) faktı və hadisəni ifadə etmək və yaxud reproduksiya etmə.

İfadənin formalaşmasının ilkin mərhələsi qavramadır. Qavrama maddi aləmin predmet və hadisələrini insanın hiss üzvlərində inikası deməkdir. Qavramanın əsasını hissetmə, yəni hadisə və predmetlərin ayrı-ayrı keyfiyyətlərinin insan beynində əks olunması təşkil edir. Hissetmə psixi dərk etmənin ilkin sadə forması olub, maddi aləmin predmet və hadisələrinin ayrı-ayrı xüsusiyyətlərinin əks etdirilməsidir. Hissetmə materiyanın insanın hiss üzvlərinə - görmə, eşitmə və s. orqanlarını təsir etməklə başlanılır və həmin hiss üzvləri vasitəsilə əldə olunmuş informasiya beyindəki sinirlərə ötürülür. Predmetin müxtəlif xüsusiyyətləri insanın ayrı-ayrı hiss üzvlərinə təsir etməsi kompleks hissetmə yaradır. Bu kompleks hissetmə insanın predmeti tam qavramasına gətirib çıxarır.

İfadənin predmeti olan faktlar və halların qavranılması hələ əsil gerçəkliyin dərk olunması demək deyildir. Qavramaya təsir edə bilən elə faktorlar vardır ki, onlar predmet və hadisələrin olduğu kimi dərk edilməsinə mane olurlar. Belə faktorlar iki qrupa bölünür:

1) subyektiv faktorlar - hiss üzvlərinin anatomik qüsuru və ya xəstəliyi; güclü emosional təsir; diqqətsizlik; laqeyidlik; qavrama obyektinin mahiyyətini bilməmək, şəxsin emosional vəziyyəti, peşəsi, temperamenti, təhsili və s. Faktın dərk edilməsinə və yadda saxlanılmasına şəxsin emosional vəziyyəti əhəmiyyətli rol oynayır. Belə ki, ruh düşkünlüyü vəziyyətində olan şəxsin hadisəni dərk etmə qabiliyyəti zəifləyir. Qavramaya şəxsin peşəsi də təsir edir. Şahid öz peşə sahəsində baş verən hadisələrə dair digər şahidlərə nisbətən daha dolğun ifadə verir. Şəxsin müəyyən faktı öz peşə hazırlığına, biliyinə görə

daha mükəmməl dərk etməsinə **peşə qavraması** deyilir. Qavramaya həmçinin şəxsin sərxoş vəziyyətdə olması təsir edir. Psixoloqlar sərxoş vəziyyətdə olan şəxslərin hadisənin dərk edilməsində uydurma və subyektivizmə yol verdiyini, baş vermiş hadisənin düzgün qiymətləndirməməsini göstərirlər.

2) obyektiv faktorlar – hadisənin müşahidənin qısa müddətdə davam etməsi; qavrama zamanı meteoroloji şərait; işıqlanmanın zəif olması; qavrama obyektinə olan məsafə; katalizator təsiri gücünün çox və ya az olması; qavrama obyektinin həcmi və s.

İfadənin formalaşmasının ikinci mərhələsi yadda saxlamadır. Yadda saxlama dedikdə, maddi aləmin qavranılmış predmet və hadisələrin beyin qabığında əks olunması başa düşülür.[4] Yadda saxlama zamanı, dərk olunmuş hadisə beyin qabığında müvəqqəti sinir əlaqəsi formasında saxlanılır. Bu müvəqqəti sinir əlaqələri **yaddaş** adlanır. Yaddaş - əvvəl qavranılmış informasiyanın saxlanması və ifadə edilməsi formasında zehni fəaliyyətdir.

Qavranılmış faktın yadda möhkəm qalması bir sıra faktorlardan, o cümlədən yaddaşın növündən də aslıdır. Yaddaşın aşağıdakı növləri fərqləndirilir: 1) obraz yaddaşı – predmetlərin və hadisələrin zahiri əlamətlərini müşahidə etmək nəticəsində yaranır 2) təsviri-məntiqi yaddaş – bilavasitə faktı müşahidə nəticəsində deyil, onun haqqında müəyyən mənbədən oxumaq, eşitmək nəticəsində yaranır 3) emosional yaddaş – emosional hisslər ( sevinc, həyəcan, qorxu və s. ) təsiri altında yaranan 4) məzmun yaddaş – şahid hadisəni deyil, onun yaddaşda qalmış obrazını təsvir edir və bu hadisənin bütün incəlikləri ilə üst-üstə düşməyə bilər 5) dinamik

[4] Sarıcalinskaya K. Q və b. İstintaq taktikası. Bakı, 1991, s. 118.

yaddaş – müəyyən fiziki iş və yaxud hərəkətlə bağlı yaranır.

Faktın qavranılmasından sonra keçən müddət yadda saxlamaya böyük təsiri vardır. Psixoloji tədqiqatlar göstərmişdir ki, qavramadan sonra faktın yaddaşdan silinməsi prosesi ilk vaxtlarda çox intensiv olur ( 3-7 sutka ), sonra isə zəifləyir və təxminən 10-14 sutkadan sonra nisbətən sabitləşir. Yaddaşın silinməsi prosesinin intensivliyi həmin faktı qavradığı anda yaranan emosional vəziyyətdən, yaddaşın qüsurundan da aslıdır.

İfadənin formalaşma prosesinin sonuncu mərhələsi faktı və ya hadisəni ifadə etməkdir. İfadə etmək şəxsin yada saldığı və ya yadına düşdüyü fakt barədə məlumat verməsi, başqa sözlə, həmin faktı əks etdirməsi, canlandırması deməkdir. İfadə etmə ifadənin formalaşması prosesinin sonuncu mərhələsidir. Əgər şəxs gördüyü, eşitdiyi və hiss etdiyi faktı düzgün qavramış və yadda saxlamışdırsa, lakin onu düzgün ifadə edə bilmirsə, həmin məlumat əsasında həqiqəti aşkar etmək mümkün deyildir.

İfadə vermənin keyfiyyətinə bir sıra faktorlar təsir göstərir: ifadə etmə şəraiti, emosional hisslər, ifadə etmə qabiliyyəti, intellektual inkişaf səviyyəsi və s.

Bəzən dindirilən şəxs müstəntiqi aldatmaq məqsədi olmadan, yəni şəxs pozitiv mövqe tutduğu halda hadisənin bu və ya digər halını unudaraq, düzgün ifadə vermir. Müstəntiq dindirilən şəxsin yaddaşında olan belə boşluqları aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirməlidir:

- Dindirməni müxtəlif istiqamətlərdə aparmaq. Əgər şəxs faktların təhrifinə çalışmırsa, lakin onları düzgün və məntiqi ardıcıllıqla söyləməyi bacarmırsa, dindirilən şəxsə təklif olunmalıdır ki, əvvəlcə iş üçün əhəmiyyətli olan hallara dair ümumi şəkildə bütünlüklə məlumat

versin. Bundan sonra müstəntiq ondan həmin halların başlanğıcı, gedişi, nəticəsi və əsas epizodları dair təkrar ifadə verməyi xahiş etməlidir. Əksər hallarda dindirilən şəxs təkrar ifadə verərkən ilkin dindirmə zamanı unutduğu faktları yada salmış olur.

- Unudulmuş faktla birbaşa və ya dolayı əlaqəsi olan maddi sübutların təqdim edilməsi.
- Dindirməni hadisə yerində həyata keçirmək. Hadisə yeri dindirilən şəxsin yaddaşında cinayətin canlandırılmasına, onun ayrı-ayrı detallarının yada salınmasına müsbət təsir edir.
- Dindirilən şəxsi digər şəxslərin ifadələri ilə tanış etmə. Bu zaman müstəntiq dindirilən şəxsə bütün ifadə ilə deyil, yalnız onun faktın yada salınmasına kömək edə bilən hissəsi ilə tanış etməlidir. Bu məqsədlə dindirilən şəxsə onun əvvəlki ifadələri də göstərilə bilər.

İfadənin formalaşma prosesinin yuxarıda izah olunan mərhələləri və bu mərhələlərə təsir göstərən faktorlar dindirmənin nəticələrinin qiymətləndirilməsi uçun mühüm əhəmiyyət kəsb edir.

**Dindirilən şəxslə psixoloji kontaktın yaradılmasının anlayışı, əhəmiyyəti, üsulları.** İnsanlar arasında qarşılıqlı münasibətlərin əsas elementlərindən biri psixoloji kontaktdır. Psixoloji kontakt dedikdə, ünsiyyət zamanı inama əsaslanan qarşılıqlı təsir etmə sistemi və informasiya mübadiləsi prosesi başa düşülür. Psixoloji kontakt yalnız hər iki tərəfin bu əlaqənin yaradılmasında marağı olduğu halda mümkündür.

Dindirmə zamanı psixoloji kontakt dedikdə, müstəntiqlə dindirilən şəxs arasında yaranan, iş üçün əhəmiyyətli olan hallara dair doğru ifadələrin alınmasını təmin edən psixoloji münasibət başa düşülür. Psixoloji kontakt müstəntiqə dindirilən şəxsin fikir, düşüncələrini anlamaq və ondan düzgün ifadələrin almağına yardım edən

vasitədir. Kriminalistik ədəbiyyatda müstəntiqlə dindirilən şəxs arasında psixoloji kontaktın şərti xarakter daşıdığı göstərilir. Bu mövqedən çıxış edən A.B.Solovyov qeyd edir: "Psixoloji kontakt müstəntiqə dindirilən şəxsin fikir, düşüncələrini anlamaq və ondan düzgün ifadələrin almağına yardım edən vasitədir. Bununla bərabər müstəntiq iş üzrə ona məlum olan faktları dindirilən şəxsə bildirmir".[5] Müəllif buradan belə nəticəyə gəlmiş olur ki, müstəntiqlə dindirilən şəxs arasında olan psixoloji kontakt birtərəfli xarakter daşıyır, başqa sözlə desək informasiya yalnız dindirilən şəxsdən daxil olur. Dindirmə zamanı psixoloji əlaqənin birtərəflilikdən başqa istintaqın şərtlərindən irəli gələn digər xüsusiyyətlərini də göstərmək olar: kontaktın məcburi xarakter daşıması; tərəflərin maraqlarının üst-üstə düşməməsi; müstəntiqin hər bir halda kontaktın yaradılmasında maraqlı olması və dindirmədə aktivliyi.

Dindirilən şəxslə psixoloji kontaktın yaradılması düzgün ifadələrin əldə olunmasının zəruri şərtidir.[6] Məhz buna görə də müstəntiq dindirilən şəxslə psixoloji kontaktın yaradılmasına çalışmalıdır. Psixoloji kontakt tərəflərin bir-birinə simpatiyanın olması kimi başa düşülməməlidir. Çətin ki, istintaq zamanı müstəntiqdə cinayət törətmiş şəxsə qarşı hər hansı simpatiya hissləri yaransın. Psixoloji kontakt zamanı tərəflər arasında münaqişəli vəziyyət, habelə psixi gərginlik aradan qalxaraq, qarşılıqlı münasibət – informasiya mübadiləsi baş verir.

---

[5] Соловьев А. Б. Очная ставка на предварительном следствии. М., 1970, s. 10.

[6] Ратинов А. Р. Психологическая характеристика показаний обвиняемого. Сбр.: « Вопросы предупреждения преступлений », вып. 1. М., 1965, s. 157.

Psixoloji kontakt dindirmənin əvvəlində yaranır və dindirmə prosesində daha da möhkəmlənir. Psixoloji kontaktın yaradılmasında hər hansı standartdan, şablondan istifadə etmək olmaz. Bu zaman dindirilən şəxsə fərdi yanaşmalı, onun fərdi psixoloji xüsusiyyətləri, prosessual vəziyyəti nəzərə alınmalıdır. Bir qayda olaraq, təqsirləndirilən və şübhəli şəxslə psixoloji kontaktın yaradılması prosesin digər iştirakçılarından fərqli olaraq daha çətindir. Bu da həmin şəxslərin psixikasının daim təsir altında olmasından irəli gəlir.

Dindirilən şəxslə psixoloji kontaktın yaradılmasının müxtəlif üsulları vardır:

1) Müstəntiq dindirilən şəxsdə ifadə verməyə maraq oyatmaqla psixoloji kontakt yarada bilər. Əgər dindirilən şəxs nə məqsədlə çağrıldığını, ifadələrinin iş üçün böyük əhəmiyyət kəsb etdiyini anlayarsa, onda ifadə verməyə maraq yaranar və o, hadisə haqqında daha ətraflı məlumat verməyə başlayacaq. Bu dindirilən şəxsin müsbət mənəvi keyfiyyətlərinə təsir etməklə psixoloji kontaktın yaradılması üsuludur.

2) Müstəntiq iş üzrə yoxlanılmış və mötəbərliyi şübhə doğurmayan sübutları təqdim edərək dindirilən şəxsi yalan ifadə verməyin mənasız olduğunu inandırmaqla psixoloji kontakt yarada bilər. Bu zaman təqdim olunmuş sübutlar isə məntiqi sübutlar **( ad rem )** adlanır. Bu isə şəxsin məntiqinə təsir etməklə psixoloji əlaqənin yaradılması üsuludur.

3) Müstəntiq dindirilən şəxsi emosional vəziyyətə çatdırmaqla onunla psixoloji əlaqə yaradıla bilər. Bu zaman dindirilən şəxsdə müstəntiqə qarşı apatiya, ünsiyyət zamanı psixi gərginlik aradan qalxaraq, özünəinam və vətəndaşlıq borcu hissləri meydana gəlir. Emosional vəziyyətin yaradılması zamanı müstəntiq qanunçuluq prinsipinə zidd olan, şəxsi aldatmaq, yalan

vədlər vermək, psixiki və fiziki məcbur etmə üsullarından istifadə edə bilməz.

Psixiloji kontaktın yaradılması müstəntiqin peşəkarlığından, təcrübəsindən və psixiki keyfiyyətlərindən də aslıdır. Ona görə də müstəntiq dindirmə zamanı müəyyən davranış qaydalarına əməl etməlidir:

- Müstəntiq dindirmə zamanı təmkinli, mədəni və sakit olmalı, təhqiredici ifadələrdən istifadə etməməli, habelə şəxsə qarşı etinasızlıq göstərməməlidir.
- Müstəntiq dindirilən şəxsin söylədiklərinə dərhal öz münasibətini, reaksiyasını nümayiş etdirməməlidir. Əhəmiyyətindən aslı olmayaraq, şəxsin verdiyi ifadələrə ciddi yanaşmalıdır. Müstəntiqin ifadələrlə qane olub-olmamasını nümayiş etdirməsi, habelə jestləri, mimikası, səs intonasiyası, dindirilən şəxsdə müəyyən təəsüratlar yarada bilər, bu da öz növbəsində ifadələrin obyektivliyinə təsir etmiş olur.
- Müstəntiq öz vəzifələrini yerinə yetirərkən qəti və inadkar olmalıdır. Əgər müstəntiq öz hərəkətlərində inamsızlıq göstərərsə və yaxud tərəddüd edərsə, dindirilən şəxs bunu dərhal hiss edib, müstəntiqə olan etibarını itirəcəkdir. Bu da lazımı psixoloji kontaktın yaradılmasına qeyri-mümkün edir.

Bəzən müstəntiqlər dindirilən şəxsə “sən” deyə müraciət etməklə, ünsiyyət zamanı əxlaqsız sözlərdən, ifadələrdən istifadə etməklə, mühafizəçini otaqdan çıxartmaqla təkbətək söhbət etmək və s. bu kimi üsullarla psixoloji kontakt yaratmağa çalışır. Belə üsullardan istifadə etmək yol verilməzdir. Ona görə ki, müstəntiq dindirilən şəxsdən fərqli olaraq hakimiyyət nümayəndəsidir və o, bunu təkcə hüquqi statusu ilə deyil, mənəvi keyfiyyətləri, davranış qaydası və intelektual səviyyəsi ilə sübut etməlidir. Bundan başqa

təqsirləndirilən və şübhəli şəxslərlə belə primitiv üsullarla psixoloji kontakt yaradılması cox da böyük effekt vermir.

Müstəntiq həmçinin dindirilən şəxslə psixoloji kontaktın yaradılmasını təmin edən müəyyən keyfiyyətlərə də malik olmalıdır. Bura aiddir:

- Ünsiyyət yaratmaq qabiliyyəti. Dindirilən şəxsin fərdi xüsusiyyətlərindən — yaşından, təhsilindən, mədəniyyət səviyyəsindən aslı olaraq ünsiyyət yaratmaq bacarığı başa düşülür.
- Emosional cəhətdən stabillik. Daim əsəbi vəziyyətdə olmaq, səbrsizlik, özündən tez çıxma, dindirilən şəxsin söylədiklərinə dərhal münasibət bildirmə müstəntiqə şəxslə psixoloji kontaktın yaradılmasına mane olan hallardır. Ona görə də, müstəntiq dindirmə zamanı sakit və təmkinli olmalı, özünü idarə edə bilməlidir.
- Nitq mədəniyyətinin olması. Dindirilən şəxsin şüurunu, iradəsinə təsir etmək və başa düşülmək üçün müstəntiq nitq mədəniyyətinə fikir verməlidir. Müstəntiq ədəbi dildə danışmaqla bərabər, onun nitqi aydın, məzmunlu, ifadəli və təsirli olmalıdır. Məhz müstəntiqin yüksək nitq mədəniyyətinə malik olması dindirilən şəxsdə ona qarşı etimad, inam yaradır. Bildiyimiz kimi, inam da psixoloji kontaktın əsasını təşkil edir.

İfadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbardarlıq etmə forması şahid və ya zərərçəkmiş şəxslə psixoloji kontaktın yaradılmasına mühüm təsir edən amillərdəndir. Şahid və ya zərərçəkmiş şəxsi ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşımasını başa salarkən müstəntiq çalışmalıdır ki, həmin şəxslərdə qorxu, həyəcan hissi yaratmasın.

Psixoloji kontaktın yaradılmasında dindirmə şəraiti də mühüm rol oynayır. Dindirmə təyin olunan vaxtda və işgüzar şəraitdə aparılmalıdır. Bunun üçün zərurət olmadan dindiriləcək şəxsi gözlətməyə məcbur etmək, dindirmə prosesində kənar şəxslərin iştirakına yol vermək, dindirmənin gedişində telefonla uzun-uzadı danışmaq və s. bu kimi hallara yol verilməməlidir.

Beləliklə də, psixoloji əlaqə dindirmənin zəruri şərti olub, müstəntiqlə dindirilən şəxs arasında yaranan psixoloji münasibətdir.

**Dindirilən şəxsə psixoloji təsir üsulları.** Dindirmə zamanı müstəntiq düzgün ifadələrin alınması məqsədilə dindirilən şəxsə psixoloji təsir üsullarından istifadə edə bilər. Psixoloji təsir üsulları müəyyən prosessual formada, məhdud zaman kəsiyində və dindirilən şəxsin psixi xüsusiyyətləri nəzərə alınmaqla tətbiq olunmalıdır.

İstintaq təcrübəsində əsasən aşağıdakı psixoloji təsir üsullarından istifadə olunur:

1) Dindirilən şəxsin ifadəsinin təhlili metodu. Bu zaman müstəntiq dindirilən şəxsin ifadəsini təhlil etməklə oradakı ziddiyyətləri və uyğunsuzluqları açıq-aydın göstərir, belə halda dindirilən şəxs yalan danışmağın mənasızlığını anlayaraq öz mövqeyini dəyişməli olur. Dindirmə zamanı ifadənin təhlilinin bir neçə taktiki üsulu vardır: 1) ifadənin daxili ziddiyyətlərini aşkar etmək; 2) ifadənin digər sübutlarla ziddiyyətini müəyyənləşdirmək;

Dindirilən şəxsin ifadəsində daxili ziddiyyətin aşkar edilməsi onun eyni fakta dair verdiyi məlumatlardan birinin və ya hamısının yalan olduğunu göstərir. Odur ki, müstəntiq dindirilən şəxsə ifadəsindəki ziddiyyətləri əyani olaraq göstərməli və onun səbəbinin düzgün izahını təklif etməlidir. Nəticədə dindirilən şəxs bu ziddiyyətləri heç nə ilə izah edə bilmir və yalan danışmağın mənasız olduğunu görərək düzgün ifadə verməyə başlayır.

Dindirilən şəxsin ifadəsindəki məlumatların iş üzrə digər sübutlarla ziddiyyət təşkil etməsi ona psixoloji təsir göstərir. Bu ziddiyyətləri aşkara çıxarmaq üçün müstəntiq məhz yoxlanılmış və mötəbərliyi şübhə doğurmayan sübutlara əsaslanmalıdır. İfadə ilə digər sübutların ziddiyyətli olduğunu təsdiq etmək üçün müstəntiq həmin sübutları dindirilən şəxsə göstərməlidir. Bir sıra hallarda müstəntiq dindirilən şəxsi digər şəxsin ifadəsinin konkret epizodları ilə tanış edə və yaxud ona işdəki maddi sübutları, sənədləri, foto şəkilləri göstərə bilər.

2) İnandırma metodu. Bu metoddan istifadə edərək müstəntiq iş üzrə konkret materiallara, istintaq təcrübəsinə əsaslanmaqla dindirilən şəxsi düzgün mövqe tutmadığını inandırmağa çalışır. Bu metod dindirilən şəxsin müsbət mənəvi keyfiyyətlərinə təsir etməni nəzərdə tutur. İnandırma metodu yalnız dindirilən şəxsin müstəntiqlə ünsiyyət olmaq və onu dinləmək istəyinin olduğu halda mümkündür. Məhz buna görə də, dindirilən şəxslə psixoloji kontaktın yaradılması inandırma metodunun həyata keçirilməsinin zəruri şərtidir.

Müstəntiq inandırma metodundan istifadə edərkən, dindirilən şəxsin inkişaf səviyyəsini, təhsilini, intelektual səviyyəsini və psixi xüsusiyyətlərini mütləq nəzərə almalıdır.[7]

3) Emosional təsir metodu. Bu zaman müstəntiq dindirilən şəxsin emosional vəziyyətinin dəyişməsinə səbəb olan şərait yaradaraq, onun iş üçün əhəmiyyət kəsb edən hallardan xəbardar olub-olmamasını müəyyən etmiş olur. Məhz bu üsul vasitəsilə dindirilən şəxsin cinayətdə iştirakını müəyyən etmək olar. Dindirilən şəxsin emosional vəziyyəti müstəqil sübut əhəmiyyət kəsb etməsə də, şəxsi düzgün ifadə verməyə məcbur

[7] Ковалев А. Г. Психология личности. М., 1967, s. 297.

edir. Dindirilən şəxsə emosional təsir etmə zamanı qanunçuluq prinsipinə zidd olan aldatmaqla, yalan vədlər verməklə, psixiki və fiziki məcbur etmə üsullardan istifadə oluna bilməz.

4) Nümunə metodu. Bu zaman müstəntiq öz şəxsi nümunəsi əsasında və yaxud digər şəxslərin müsbət hərəkətləri barədə məlumat verməklə dindirilən şəxsə psixoloji təsir edə bilər. Müstəntiqin dindirmə zamanı düzgün davranışı dindirilən şəxsə tərbiyəvi təsir göstərir. Bu psixoloji təsir dindirmədən əvvəl, müstəntiqlə dindirilən şəxsin ilk tanışlığından başlanılır. Ona görə də müstəntiqin xarıcı görünüşünə fikir verməli, səliqəli olmalı və öz simasında hakimiyyət nümayəndəsi təcəssüm etməlidir. Müstəntiq dindirilənə digər şəxslərin müsbət davranışları, hərəkətləri barədə məlumat verərkən çalışmalıdır ki, həmin nümunələr real, dindirmənin mahiyyətinə uyğun və onun iştirakçıları dindirilənə tanış olsun. Nümunə metodu dindirilən şəxsi ifadə verməyə maraq oyadır. Bu metodundan istifadə edərkən müstəntiq gərək müəyyən pedaqoji bacarığa malik olmalıdır.

### *Sual 3. Dindirməyə hazırlıq və onun keçirilməsinin taktiki üsulları*

Dindirmə zamanı müsbət nəticələrin əldə olunması müstəntiqin dindirməyə hazırlıq zamanı həyata keçirdiyi tədbirlərdən xeyli dərəcədə aslıdır. Dindirməyə hazırlıq dedikdə, dindirilən şəxsəndən tam və düzgün ifadələrin alınmasını təmin edən kompleks ilkin hazırlıq tədbirləri başa düşülür. Dindirməyə hazırlıq hərəkətlərinə aiddir: 1) cinayət işi materiallarının hərtərəfli öyrənilməsi 2) dindirilən şəxsin şəxsiyyətini xarakterizə edən məlumatların toplanması və öyrənilməsi 3) dindirməyə çağırış qaydasının müəyyən edilməsi 4) dindirmənin

yerinin və vaxtının müəyyən 5) dindirmə zamanı tətbiq ediləcək texniki vasitələrin hazırlanması.

Cinayət işi materiallarının öyrənilməsi dedikdə, istintaq hərəkətləri protokollarının, maddi sübutların, ekspert rəyinin, sənədlərin, habelə əməliyyat axtarış tədbirləri vasitəsilə əldə olunmuş məlumatların, bir sözlə işdə mövcud olan sübutların təhlili və qiymətləndirilməsi başa düşülür. Cinayət işi materiallarını hərtərəfli öyrənməklə müstəntiq istintaq zamanı sübut edilməli olan halları, dindirilməli olan şəxslərin dairəsini, dindirmənin predmetini, dindirilən şəxsin hansı məlumatlara malik olduğunu, dindirmə zamanı şəxsə veriləcək sulları, dindirmə zamanı şəxsin yalan ifadə vermə hallarını asanlıqla müəyyən edə bilər.

Psixoloji kontaktın yaradılması və dindirmənin düzgün taktikasının secimi uçun müstəntiq dindirilən şəxsin şəxsiyyətini xarakterizə edən kifayət qədər məlumat toplamalı və öyrənməlidir. Belə məlumatlara aiddir: dindirilən şəxsin mənəvi simasını, psixoloji xüsusiyyətlərini, həyat tərzini, intellektual səviyyəsini, işdə iştirak edən digər şəxslərlə olan münasibətlərini və s. Dindirilən şəxs haqqında məlumatlar onun iş yerindən, təhsil aldığı müəssisədən xasiyyətnamələr almaqla; iş yoldaşlarının, qonşularının, yaxınların sorğusu; müxtəlif istintaq və əməliyyat axtarış tədbirlər həyata keçirməklə əldə olunur.

Şəxsin dindirməyə hansı qaydada çağrılması dindirmənin nəticəsinə təsir göstərən əsas amillərdəndir. CPM 226-cı maddəsinə görə şəxs dindirməyə cağırış vərəqəsi, teleqram, telefonaqram, faksoqram vasitəsilə cağrıla bilər. Dindirməyə çağırış qaydasının müəyyən edilməsi konkret istintaq şəraitindən aslıdır. Şəxsi ( barəsində həbs qətimkan tədbiri secilmiş şəxslər istisna olmaqla ) dindirməyə çağırarkən müstəntiq calışmalıdır

ki, bu barədə kənar şəxslər- iş yoldaşları, qonşular və s. xəbərdar olmasınlar. Bu tədbir ilk növbədə dindirilən şəxsə işdə marağı olan şəxslər tərəfindən qanunsuz təsirin qarşısını almaq üçün görülür.

Dindirmənin vaxtı dindirilən şəxsin prosessual vəziyyətindən, şəxsin malik ola biləcək məlumatdan, habelə dindirilən şəxsin işdə iştirak edən digər şəxslərlə münasibətindən aslıdır. AR CPM görə təqsirləndirilən şəxs ona ittiham elan edildikdən dərhal sonra; şübhəli şəxs isə onun tutulmasından və ya barəsində qətimkan tədbirinin tətbiq edilməsi barədə qərar ona elan edildikdən dərhal sonra dindirilməlidir. Şahid və zərərçəkmiş şəxsin dindirilməsi isə mümkün qədər tez aparılmalıdır. Çünki məhz onların ifadələri cinayətkarı ifşa etməyə, cinayət işi üzrə obyektiv həqiqəti müəyyən etməyə imkan verir.

Dindirmə bir qayda olaraq müstəntiqin otağında aparılır. Lakin bəzi hallarda dindirməni hadisə yerində aparmaq daha məqsədəuyğundur. Çunki məhz hadisə yerində aparılan dindirmə şəxsə cinayət işi üçün əhəmiyyət kəsb edən halları yada salmağa kömək edir. Ahıl yaşlı şəxslər və xəstələr onların olduqları yer üzrə dindirilməlidir.

### 1. *Dindirmənin taktikası*

**Dindirmənin taktiki üsullarının anlayışı.** Dindirmənin ümumi qaydaları cinayət-prosessual qanunvericiliklə müəyyən edilmişdir. Lakin onun prosessual qaydalarından fərqli olaraq taktiki üsullar qanunvericilik tərəfindən göstərilməmişdir. Qanun bununla da müstəntiqə dindirmə zamanı müxtəlif taktiki üsullardan hər hansı birini seçməsinə və tətbiq etmək üçün geniş imkanlar verir.

Düzgün və tam ifadə almağı, habelə dindirmənin rasional qaydada təşkil edilməsini təmin edən taktiki

üsullar dindirmənin taktikasını təşkil edir. Dindirmənin taktikası – konkret cinayət işinin hallarını, dindirilən şəxsin xüsusiyyətlərini və dindirmə şəraitindən aslı olaraq tətbiq olunan taktiki üsulların məcmusudur. Dindirmənin taktikasının məqsədi dindirilən şəxsdən obyektiv həqiqəti əks etdirən məlumatın alınmasıdır. Dindirmənin səmərəli nəticə verməsi hər bir halda düzgün taktikanın seçilməsindən aslıdır. Məhz bu səbəbdən taktiki üsul dindirilən şəxsin fərdi xüsusiyyətlərinə, müstəntiqin hansı informasiyaya malik olmasına və dindirmənin şəraitinə müvafiq olaraq müəyyən edilməlidir. Düzgün seçilmiş və səmərəli tətbiq edilmiş taktiki üsul tam və doğru ifadələrin alınmasına, şəxsin yalan ifadə vermək hallarının ifşa edilməsinə, habelə onların yoxlanılmasına imkan verir.

Dindirmənin taktiki üsulları müəyyən tələblərə cavab verməlidir. Taktiki üsullar cinayət-prosessual qanunvericiliyə, habelə mənəvi prinsiplərə uyğun olmalıdır. Bu baxımdan dindirilən şəxsin şərəf və ləyaqətini alçaldılması ilə müşayət olunan taktiki üsullardan istifadə etmək, habelə fiziki, yaxud mənəvi zor tətbiq olunması yolverilməzdir.

Dindirmənin taktiki üsulları onun növündən, dindirilən şəxsin prosessual vəziyyətindən aslı olaraq müəyyən edilməlidir.

**Şahidin dindirilməsi taktikası.** Şahid dedikdə, iş üzrə əhəmiyyət kəsb edən hallardan xəbərdar olan şəxs başa düşülür ( A.R CPM 95.1 ). Şahid cinayət təqibi üçün əhəmiyyət kəsb edən hər bir hal üzrə, o cümlədən şübhəli, təqsirləndirilən, zərərçəkmiş şəxsin, digər şahidlərin şəxsiyyəti barədə dindirilə bilər ( A.R CPM 227 ). Şahidin dindirilməsi zamanı müstəntiq cinayət işinin və şahidin spesifik cəhətləri nəzərə alınmaqla konkret taktiki üsullardan istifadə etməlidir. Bu taktiki üsulların əsas

məqsədi şahidin iş üçün əhəmiyyət kəsb edən hallara dair doğru ifadə verməsinə nail olmaqdır.

Dindirmədən əvvəl müstəntiq eyni iş üzrə çağrılan şahidlərin hansı ardıcıllıqla dindiriləcəyini taktiki cəhətdən düzgün müəyyən etməlidir. Bunun üçün şahidlərdən hansının hadisəni bilavasitə və hansı şəraitdə müşahidə etməsinə, şahidin işin nəticəsində maraqlı olub-olmamasına və s. bu kimi hallara fikir verilməlidir. İlk öncə istintaq üçün əhəmiyyət kəsb edən hallar və faktlar barəsində düzgün ifadə verməsi ehtimal olunan şahidlərin dindirilməlidir. Habelə şahidlərin dindirilməsi ardıcıllığını müəyyən edərkən hadisələrin xronoloji axını da nəzərə alınmalıdır. Belə ki, əvvəlcə nisbətən uzaq keçmişə aid məlumat verə bilən şahidlərin dindirilməsi məqsədəmüvafiqdir. İşin nəticəsi ilə maraqlı olan şəxslərin əvvəlcə dindirilməsi taktiki cəhətdən düzgün deyildir. Çünki belə şəxslərin doğru ifadə verə bilməyəcəyi ehtimal olunur. Eyni fakta dair ifadə verən şahidlərin hamısı dindirilməlidir. Belə ki, şahidlərin hamısı eyni faktı heç də eyni dərəcədə qavramırlar.[8]

Müstəntiq hər bir şahidi digər şahidlərdən ayrı dindirməlidir və dindirmə qurtaranədək eyni iş üzrə çağrılmış şahidlərin öz aralarında ünsiyyətdə olmaması üçün tədbirlər görməlidir ( A.R CPM 227.3 ). Qanunun bu tələbinin əsas məqsədi şahidlər arasında informasiya mübadiləsinin qarşısını almaqdır. Çünki şahidlər arasında informasiya mübadiləsi onların ifadələrinin obyektivliyinə təsir edə bilər. Ona görə də, müstəntiq mümkün qədər eyni iş üzrə olan şahidləri müxtəlif vaxtlarda dindirməlidir.

Dindirmədən əvvəl müstəntiq şahidin şəxsiyyətini müəyyən edir, ona hansı iş üzrə çağrıldığı barədə

---

[8] Sarıcalinskaya K. Q və b. İstintaq taktikası. Bakı, 1991, s.130.

məlumat verir və iş üzrə ona məlum olan bütün hallar barədə danışmaq vəzifəsi, habelə ifadə verməkdən imtina etməyə, boyun qaçırmağa, bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə xəbərdarlıq edir. Bundan sonra müstəntiq şahidlə şübhəli, təqsirləndirilən, zərərçəkmiş şəxslə münasibətlərini müəyyənləşdirir və dindirməyə başlayır. Dindirmə şahidə cinayət təqibi ilə bağlı bütün halları danışmaq təklifi ilə başlanılır və bundan sonra ona suallar verilə bilər (CPM 227 ).

Qanunvericilikdə şahidin ilk öncə sərbəst danışıq formasında ifadə vermənin nəzərdə tutulması həm şahid, həm də müstəntiq üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, şahid öz fikrini cəmləşdirə, unutduğu halları yadına sala, onların ardıcıl danışa bilər. Bu zaman müstəntiq şahidin psixologiyası, xarakteri, yada salma qabiliyyəti barədə müəyyən nəticəyə gəlir, iş üzrə istintaq məlum olmayan yeni halları da müəyyənləşdirir. Habelə, şahidin sərbəst danığı müstəntiqə ifadənin doğruluğu barədə nəticə çıxarmağa imkan verir. Şahid sərbəst danışarkən ona suallar vermək məqsəduyğun deyil, çünki bu şəxsə öz fikrini cəmləşdirə bilməsinə mane ola, bəzən hətta mənfi psixiloji təsir də göstərə bilər. Dindirmənin sərbəst danışıq formasında aparılması şahidin düzgün olmayan məlumat vermək və yaxud yalan ifadə vermə ehtimalını azaldır. Müstəntiq dindirmə zamanı şahidə sual verməyə tələsməməlidir. Belə ki, müstəntiq bir qayda olaraq şahidin hansı hallardan xəbərdar olduğunu bilmir, şahid isə müstəntiqin ondan soruşacağından daha çox informasiyaya malik ola bilər. Habelə sərbəst danışıq formasında dindirilən şahid bəzən müstəntiqin ümumiyyətlə məlumatı olmayan hallar barədə xəbər verə bilər.

Bəzən təcrübədə müstəntiqlər şahidin dindirilməsini sərbəst danışıq formasında deyil, suallar verməklə həyata keçirməyə üstünlük verirlər. Belə dindirmə forması taktiki cəhətdən düzgün deyildir: 1) müstəntiqin sualları və ona cavablar bir qayda olaraq hadisəni bütünlüklə əhatə edə bilmir və bu da şahid ifadələrində boşluqlar yaranmasına gətirib çıxarır 2) müstəntiqin öz sualları ilə arzuolunan cavabı şahidin beyninə yeridə bilər 3) müstəntiqin öz sualları ilə işdə olan sübutları vicdansız şahid qarşısında açıqlaya bilər.

Azərbaycan Respublikasının CPM-nin 227.1 maddəsinə görə dindirmə şahidə cinayət təqibi ilə bağlı bütün halları danışmaq təklif ilə başlanılır və bundan sonra ona sullar verilə bilər. Göründüyü kimi, şahidə sual vermək müstəntiqin vəzifəsi deyil, hüququ kimi nəzərdə tutulmuşdur. Lakin bu o demək deyil ki, müstəntiq həmişə bu hüquqdan istifadə etməlidir. Şahid sərbəst surətdə ifadə verdikdən sonra müstəntiq zərurət olduqda ona suallarla müraciət edir. Burada zərurət dedikdə, şahidin ifadələrinin natamamlığı, qeyri-müəyyənliyi və işdə olan materiallarla ziddiyyət təşkil etməsi başa düşülür.[9] Ona görə də müstəntiq tərəfindən şahidə sual verməyin əsas məqsədi onun ifadələrini tamamlamaq, dəqiqləşdirmək və yaxud yoxlamaqdır. Şahidlərə verilən sualların vahid sxemini göstərmək çətindir, çünki bu suallar iş üzrə konkret hallardan irəli gələrək olduqca müxtəlif məzmunlu ola bilər. Bununla belə, şahidə dindirmənin predmetinə dair aydın və konkret suallar verilməli və elə formulə edilməlidir ki, onlara ətraflı cavab almaq mümkün olsun.

---

[9] Порубов Н. И. Тактика допроса на предварительном следствии. М., 1998, s. 158.

Dindirmə zamanı bəzən şahidlər dindirmənin predmeti ilə bağlı müəyyən fikir və mülahizələr irəli sürürlər: cinayətin konkret şəxs tərəfindən törədilməsini və s. Müstəntiq belə hallara ciddi yanaşaraq şahidin hansı faktlara əsaslanıb belə fikrə gəldiyini aydınlaşdırmalıdır. Belə ki, faktlara əsaslanmayan fikir və mülahizələr nəzərə alınmır və heç bir sübuti əhəmiyyət kəsb etmir.

Şahidlər düzgün və yaxud yalan ifadə verməkdən aslı olaraq vicdanlı və vicdansız şahidlərə bölünürlər. Buna uyğun olaraq onların dindirilmə taktikası da fərqlidir. Təqsirləndirilən şəxslə tanışlığın və işin nəticəsində marağın olmaması, düzgün ifadə vermək istəyi, habelə yüksək mənəvi keyfiyyətlər şahidin vicdanlı olmasına dəlalət edən faktorlardır. Düzgün ifadə verməyə çalışan vicdanlı şahidlərin dindirilmə taktikasının əsas məqsədi istintaq üçün əhəmiyyət kəsb edən halların onların yadına salmaq və düzgün ifadə verməyə kömək etməkdir.

Vicdansız şahidlər dedikdə bilə-bilə yalan ifadə verən və yaxud ifadə verməkdən imtina edən şəxslər başa düşülür. Vicdansız şahidlərin dindirilməsi zamanı müstəntiq onların yalan ifadə vermə hallarını ifşa edən taktiki üsullardan istifadə etməlidir. Yalan ifadə verən şahidlərin dindirilməsinin özünəməxsus taktiki üsulları vardır. Hər şeydən əvvəl müstəntiq şahidin yalan ifadə verməsinə əmin olmalıdır və bunun üçün ifadənin özündəki ziddiyyətlər, habelə onun digər sübutlarla təzad yaradan cəhətləri aydınlaşdırılmalıdır. Sonra isə müstəntiq şahidin yalan ifadə verməsinin səbəblərini müəyyənləşdirməli və onları aradan qaldırmağa çalışmalıdır. Bu səbəblər müxtəlif ola bilər: şahidin işin nəticəsində maraqlı olması, təqsirləndirilən və ya zərərçəkmişlə şəxslə razılaşması, qisas almaq arzusu,

qorxaqlıq, yoldaşlıq borcunun düzgün dərk edilməməsi və s.

Şahidin doğru ifadə verməsinə nail olmaq üçün müstəntiq ilk növbədə mənəvi təsir vasitələrindən istifadə etməlidir. O, şahidə başa salmalıdır ki, doğru danışmaq onun vətəndaşlıq borcu olub, cinayətkarlığa qarşı mübarizə aparmaq vəzifəsindən irəli gəlir, doğru danışmaqla o, həqiqətin üzə çıxarılmasında istintaq orqanlarına yaxından kömək etmiş olur və s.

Müstəntiq vicdansız şahidləri ifşa etmək və düzgün informasiya verməyə məcbur etmək məqsədilə onlara digər şəxslərin ifadələri daxil olmaqla işdə olan sübutları təqdim edə; digər şahidlərlə və yaxud təqsirini boynuna almış təqsirləndirilən şəxslə üzləşdirmə apara bilər. Bəzən şahid təqsirləndirilən şəxsin və yaxud onun qohumlarının qisas alacağından qorxaraq ifadə vermir. Belə halda müstəntiq onun təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görməli və düzgün ifadə verməsinə nail olmalıdır.

Bütün bunlar müsbət nəticə vermədikdə isə müstəntiq şahidə yalan ifadə üstündə cinayət məsuliyyəti daşımasını bir daha xatırlatmalı və bu cinayətə hansı növ cəzanın tətbiq edilməsini bildirməlidir.

**Zərərcəkmiş şəxsin dindirilməsi taktikası.** Zərərçəkmiş cinayət qanununda nəzərdə tutulmuş əməl nəticəsində birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmuş şəxsdir ( CPM 87.1 ). Azərbaycan Respublikası CPM-nin 231-ci maddəsinə görə zərərçəkmişin dindirilməsi şahidin dindirilməsi üçün nəzərdə tutulmuş qaydalara müvafiq aparılır. Habelə zərərçəkmişin dindirilməsi zamanı şahidin dindirilməsinin taktiki üsullarından istifadə olunur. Buna baxmayaraq zərəçəkmiş şəxsin dindirilməsinin özünəməxsus cəhətləri də vardır. Bu isə ilk növbədə zərərçəkmişin prosessual

vəziyyəti və əksər hallarda hadisəni bilavasitə müşahidə etməsi ilə əlaqədardır. Məhz zərərçəkmiş şəxsin ifadələri müstəntiqə hadisə ilə bağlı fərziyyələrin qurulmasına və sübutların aşkarlanmasına imkan verir. Ona görə də, bir qayda olaraq ibtidai araşdırma zərərçəkmiş şəxsin dindirilməsi ilə başlanılır.

Zərərçəkmiş şəxsin dindirilməsi müstəntiqin onu bilə-bilə yalan ifadə verməyə, ifadə verməkdən imtina etməyə və ya boyun qaçırmağa görə cinayət məsuliyyəti barədə xəbərdar etməklə başlanılır. Sonra isə müstəntiq zərərçəkmiş şəxsə ona qarşı törədilmiş hadisəsi ilə bağlı hər bir şeyi söyləməyi təklif edərək, sərbəst danışmaq imkanı yaradır. Zərərçəkmiş sərbəst surətdə ifadə verdikdən sonra, müstəntiq ifadəni dəqiqləşdirmək, onu tamamlamaq və yaxud onun düzgünlüyünü yoxlamaq məqsədilə sual verə bilər.

Ümumiyyətlə zərərçəkmiş şəxs işin nəticəsində maraqlı olması onun ifadələrinin obyektivliyinə təsir göstərir. Zərərçəkmiş şəxsin ifadələri əksər hallarda ittiham xarakterli olur. Lakin zərərçəkmiş şəxsin işin nəticəsində maraqlı olması özlüyündə heç də o demək deyildir ki, onun ifadəsi bütün hallarda şübhə altına alınmalıdır. Buna görə də, zərərçəkmiş şəxsin ifadələrinə formal yanaşılmamalı və digər sübutlar ilə müqayisəli şəkildə, bərabər əsaslarla qiymətləndirilməlidir.

Zərərçəkmiş şəxsin dindirilməsi zamanı belə bir cəhət nəzərə alınmalıdır ki, cinayət edilməsi zamanı o, gərgin emosional şəraitə düşdüyü uçun iş üzrə halları düzgün qavramaya da bilər. Təcrübə göstərir ki, zərərçəkmiş şəxs məhz gərgin emosiyaların təsirindən iş üzrə halları düzgün qavraya bilmir, yaxud təhrif olunmuş şəkildə qavrayır və sonradan onları şişirdirmiş şəkildə təsvir edir. Bir sıra hallarda zərərçəkmiş şəxs cinayətin baş verdiyi ilk günlərdə tamamilə ifadə verə bilmir. Bu da ondan irəli

gəlir ki, o, ilk günlərdə cinayətin edilməsi prosesində yaranmış gərgin emosiyaların təsiri altında olur. Məhz bu səbəbdən zərərçəkmiş şəxsin dindirməsini bir qədər sonraya saxlamaq daha məqsədəuyğundur. Lakin bəzən dindirmənin təxirə salınması mənfi nəticələr də verə bilər. Belə ki, cinayət hadisəsindən  zərərçəkmiş şəxs qarşı cinayətkarlar tərəfindən ələ alma, hədə-qorxu gəlmə və digər təsirlərə məruz qala bilər. Bu da öz növbəsində zərərçəkmiş şəxsin ifadələrinin obyektivliyinə təsir edir. Əgər zərərçəkmiş şəxs cinayətin baş verməsindən dərhal sonra dindirilmişsə, onda işin xüsusiyyətlərindən aslı olaraq onu bir-neçə  gün keçdikdən sonra təkrar dindirmək məsləhətdir. Təcrübə göstərir ki, belə şəxslər təkrar dindirilərkən ilk ifadələrinə nisbətən daha ətraflı və dəqiq ifadə verirlər.

Bir sıra hallarda zərərçəkmiş şəxs müəyyən səbəblərdən doğru ifadə vermir, işın mühüm əhəmiyyət kəsb edən cəhətlərini demir, yaxud ifadə verməkdən yayınmağa çalışır. Bu müxtəlif səbəblərdən ola bilər: zərərçəkmiş şəxs özünün hər hansı qeyri-qanuni hərəkətinin ifşa olunmasından, onu nüfuzdan salan məlumatların yayılmasından, müəyyən faktın etiraf etməkdən və s. Xüsusilə də zorlama cinayətlərində zərərçəkmiş şəxs bir qayda tam ifadə vermir. Bu da əksər hallarda, onun müstəntiqdən çəkinməsindən, utanmasından, habelə intim həyatına dair məlumatların yayılmasını istəmədiyindən  irəli gəlir. Hər bir halda müstəntiq belə səbəbləri aşkar etməli, imkan dairəsində onların aradan qaldırılması üçün tədbirlər görməli və zərərçəkmiş şəxsin doğru ifadə verməsinə nail olmalıdır.

Uydurma cinayətlər üzrə “ zərərçəkmiş şəxsin “ dindirilməsininin  xüsusi taktiki üsulları vardır. Uydurma cinayətlərdə yalançı zərərçəkmiş şəxs dövlət əmlakını və ya digər əmlakın mənimsənilməsini, yaxud hər hansı

başqa cinayəti ört-basdır etmək, müəyyən maddi, mənəvi mənfəətə nail olmaq məqsədi güdür. Bunu aşkar etməkdən ötrü müstəntiq zərərçəkmiş şəxsin ifadəsinə olduqca tənqidi yanaşmalıdır. Zərərçəkmiş şəxsin yalan ifadə verdiyini müəyyən etmək üçün onun eyni faktlara dair təkrar dindirilməsi müsbət nəticə verə bilər. Çünki yalançı zərərçəkmiş şəxs uydurduğu halların incəliklərini vaxt keçdikcə dəqiq yadda saxlaya bilmir. Nəticədə onun ilkin ifadəsi ilə təkrar ifadəsi arasında ziddiyyət yaranır. Uydurma cinayətlərin ifşa edilməsində **neqativ hallar** da mühüm rol oynayır. Neqativ hallar dedikdə, hadisənin normal axınına zidd olan faktiki hallar başa düşülür.

Ümumiyyətlə müstəntiq zərərçəkmiş şəxsə qarşı diqqətli olmalı, şəfqət göstərməli, onu cinayətin üstünün tezliklə açılmasına və cinayətkarın cəzalandırılmasına inandırmalıdır. Çünki məhz belə münasibət zərərçəkmişlə psixoloji kontaktın yaradılmasına imkan verir.

**Şübhəli şəxsin dindirilməsi taktikası.** Şübhəli şəxsin dindirilməsi onun tutulduğu andan və ya barəsində qətimkan tədbirinin tətbiq edilməsi barəsində qərar ona elan edildikdən dərhal sonra aparılır ( A.R CPM 232.1). Şübhəli şəxsin dindirilməsi təqsirləndirilən şəxs üçün nəzərdə tutulmuş prosessual qaydada həyata keçirilir( A.R CPM 232.5). Lakin buna baxmayaraq, onların aparılma taktikası fərqlidir. Bu da onların prosessual vəziyyətindən və işdə olan sübutlarla təqsirinin müəyyən edilməsi dərəcəcəsindən irəli gəlir.

Ümumiyyətlə şübhəli şəxsin dindirilməsi müəyyən psixoloji xüsusiyyətlərə malikdir: 1) dindirmə zamanı şübhəli şəxs özünü müdafiə etmək və həqiqətin gizlədilməsinə çalışması 2) şübhəli şəxsin müstəntiqə mənfi münasibət və apatiya bəsləməsi 3) şübhəli şəxsin psixi gərginlik  və çaşqın vəziyyətdə olması 4) şübhəli

şəxsin müstəntiqin hansı sübutlara malik olduğunu öyrənmək istəyi.[10]

Dindirmənin dərhal aparılması tələbi təkcə şübhəli şəxsin hüquqlarının pozulmaması üçün prosessual təminat olmayıb, həm də taktiki əhəmiyyət kəsb edir. Belə ki, dindirmə dərhal aparıldıqda şübhəli şəxs qanunsuz vasitələrlə özünü müdafiə etmək üçün tədbirlər görməyə vaxt tapmır və iş üçün əhəmiyyət kəsb edən hallara dair doğru ifadə verməyə məcbur olur.

Şübhəli şəxsin dindirilməsinin əsas xüsusiyyyətlərindən biri dindirməyə hazırlığın çox az müddətdə baş verməsidir. Buna görə də bir sıra hallarda müstəntiq şübhə edilən şəxsin şəxsiyyətini xarakterizə edən hallara dair məlumata malik olmur. Ona görə də müstəntiq bu halları bilavasitə dindirmə prosesində müəyyən etməli və buna müvafiq taktiki üsul seçməlidir.

Dindirməyə hazırlıq zamanı, şübhə edilən şəxsin cinayətdə iştirakının dərəcəsi, onun digər şübhəli şəxslərlə münasibəti, hansı əsasa görə tutulması da nəzərə alınmalıdır. Bu kimi hallara dair məlumatları iş üzrə toplanmış materiallar vasitəsilə aydınlaşdırmaq olar. Göstərilən məlumatlar şübhəli şəxsə veriləcək sualların dairəsini, dindirmənin vaxtını, ardıcıllığını və s. müəyyənləşdirməyə imkan verir.

Müstəntiq dindirmədən əvvəl şübhəli şəxsi hansı faktlar barəsində xəbərdar edəcəyini, hansıları isə gizli saxlayacağını müəyyən etməlidir. Belə faktların qabaqcadan müəyyən edilməsi dindirmə zamanı mühüm rol oynayaraq, şübhəli şəxsin yalan ifadə vermə hallarının ifşa edilməsinə, habelə şübhəli şəxsin onun

---

[10] Ямпольский А. Е. Изучение психологических особенностей подозреваемого. Сб.: «Вопросы судебной психологии» вып. 1, Минск, 1970, s. 159.

tərəfindən törədilmiş, lakin istintaqa məlum olmayan cinayətlərə dair ifadə verməsinə imkan vermış olur.[11]

Müstəntiq dindirməyə şübhəli şəxsə şübhə barəsində və onun mülahizələrinə görə iş üçün əhəmiyyət kəsb edən bilən digər hallar barədə ifadə vermək təklifi ilə başlayır. Bu zaman müstəntiq şübhə edilən şəxsin cinayətin baş verdiyi yerə necə və nə üçün gəlməsi; hansı şəraitdə tutulması; hadisə yerində onu kimlərin görməsi; hansı cinayətin alətlərinin onda olması və nə üçün bu alətləri əldə etməsi; hansı cinayət alətlərinin onda olması və nə üçün bu alətləri əldə etməsi; onun özündə, paltarlarında yaxud mənzilində cinayətin aşkar izlərinin olduğunu nə ilə izah etməsi və s. aydınlaşdırılmalıdır.

Şübhəli şəxsin dindirilməsi zamanı belə bir cəhət nəzərə alınmalıdır ki, şübhəli şəxs adətən müstəntiqdə onu ifşa etmək üçün kifayət qədər sübut olmadığına düşünür. Ona görə də həqiqəti müstəntiqdən gizlətməyə və bununla da şübhənin əsassızlığını sübuta yetirməyə çalışır. Belə hallarda müstəntiq sərəncamında olan ifşaedici sübutları ona elan etməlidir. Nəticədə şübhə edilən şəxs fakt qarşısında qalaraq həqiqəti etiraf etməli olur.

Əksər hallarda şübhəli şəxs məsuliyyətdə yaxa qurtarmaq üçün müxtəlif üsullardan istifadə edirlər: düzgün olmayan məlumatlar verir və yaxud müəyyən alibi irəli sürür. Hər bir halda onun ifadələri dəqiq yoxlanılmalıdır. Əsas yoxlama üsulu isə şübhəli şəxsin ətraflı dindirilməsi və onun ifadələrinin işdə olan digər sübutlarla müqayisə edilməsidir. Bəzi hallarda şübhəli şəxs dindirmə zamanı alibi irəli sürür. Alibi – cinayətin

[11] Кертес И. Тактика и психологические основы допроса. М., 1965, s. 153.

bilavasitə şübhəli və yaxud təqsirləndirilən şəxs tərəfindən edilməməsini göstərən düzünə bəraitverici sübutdur.[12] Odur ki, müstəntiq alibinin yoxlanılmasına ciddi yanaşmalıdır. Bəzən təcrübəli cinayətkarlar yalandan alibi irəli sürmək üçün qabaqcadan tədbirlər görürlər: guya cinayətin edildiyi vaxt onları başqa yerdə görmüş şəxslərlə sövdələşir, ezamiyyə vərəqələri və nəqliyyat biletləri hazırlayırlar. Yalançı alibini ifşa etmək üçün birinci növbədə şübhəli şəxsi alibiyə dair hallar üzrə ətraflı dindirmək lazımdır. Burada ən incə anlar belə əhəmiyyət kəsb edə bilər. Şübhəli şəxsi kənar adamların görməsi güman edilsə, həmin şəxsləri də dindirmək lazımdır. Şübhəli şəxs həmin şəxslərlə sövdələşmiş olsa belə, onların ifadələrində müəyyən ziddiyyət tapmaq mümkündür. Nəzərə almaq lazımdır ki, hadisənin bütün kiçik cəhətləri üzrə şərtləşmək və onların hamısını yadda saxlamaq qeyri-mümkündür. Əgər şübhəli şəxs cinayətin edildiyi vaxtdan uzun müddət keçməsinə baxmayaraq həmin gün nə ilə məşğul olduğunu, hara getdiyini, həm də bütün təfsilatı ilə ardıcıl danışarsa, bu müstəntiqin diqqətini cəlb etməlidir. Çünki keçmişə aid hadisələri bütün incəlikləri ilə yadda saxlamaq olduqca çətindir.

Şübhəli şəxsin cinayətə hazırlaşmasını müəyyənləşdirməkdən ötrü ona təklif edilməlidir ki, cinayətin törədilməsindən bir qədər əvvəlki və ya sonrakı günləri necə keçirdiyini təfsilatı ilə danışsın. Aydındır ki, şübhəli şəxs həmin günü lazımı qədər ətraflı təsvir edə bilməyəcəkdir. Nəticədə belə bir vəziyyət yaranır ki, şəxs uzaq keçmişdə baş verən hadisələri tam dəqiqliklə xatırladığı halda, yaxın zamanlarda olan hadisələri isə xatırlamır. Belə bir uyğunsuzluğun müəyyən edilməsi

[12] Строгович М. С. Курс советского уголовного процесса. Т. 1, М., 1968, s. 379.

şübhəli şəxsin əvvəlcədən yalan alibi hazırladığını göstərir.

Yalan alibinin ifşası üçün onu təsdiq və ya inkar edə biləcək şəxslər dərhal dindirilməlidir. Alibinin doğruluğunu sübuta yetirmək üçün şübhəli şəxsin istinad etmədiyi şəxslərin dindirilməsi daha müsbət nəticə verə bilər. Həmin şəxslər şübhəli şəxslə qabaqcadan razılaşmadıqlarına görə onların ifadəsi obyektiv olur.

Alibi irəli sürən şübhəli şəxsin bir neçə dəfə təkrar dindirilmək, habelə onun təqdim etdiyi sənədlərin doğruluğunu ekspertiza vasitəsilə yoxlamaqla da alibinin yalan olduğunu müəyyən etmək olar.

Şübhəli şəxsin dindirilməsi zamanı onun cinayətkar məlumatlılığı, yəni yalnız cinayət törətmiş şəxsə məlum olan faktlardan xəbərdar olmasını aydınlaşdırılmalıdır. Bunun üçün şübhəli şəxsin ifadələri işdə olan materiallarla müqayisə edilməlidir.

Müstəntiq şübhəli şəxsin ifadələrinin həqiqətə uyğunluğunu müəyyən edərkən bəzi hallara diqqət yetirməlidir. Cinayətlə əlaqəsi olan şübhəli şəxslər isə məsuliyyətdən yayınmaq üçün əksər hallarda primitiv faktlarla ona qarşı şübhənin əsassızlığını sübut etməyə çalışır və yaxud ümumiyyətlə ifadə verməkdən imtina edir. Belə növ şübhəli şəxslərin ifşa edilməsinin əsas üsullarından biri zərərçəkmiş şəxslə üzləşdirmənin həyata keçirilməsidir. Bu üsul yalnız zərərçəkmişin şübhəli şəxsin tanıdığı halda mümkündür. Məhz zərərçəkmişlə üzləşdirmə şübhəli şəxsi fakt qarşısında qoyaraq düzgün ifadə verməyə məcbur edir.

Əgər dindirmə zamanı şübhəli şəxs cinayətin törədilməsini etiraf edirsə müstəntiq bununla kifayətlənməyib onu daha ətraflı dindirməli və işdə olan digər sübutlarla yoxlamalıdır. Çünki şübhəli şəxs daha ağır cinayətə görə məsuliyyətdən yaxa qurtarmaq üçün,

yaxınlarının törətdiyi cinayətləri boynuna almaq və s. məqsədlərlə cinayətdə təqsirkar olduğunu etiraf edə bilər.

Dindirmə zamanı şübhəli şəxs bir qayda olaraq öz həyəcanını, əsəbi vəziyyətdə olmasını, nədənsə narahat olduğunu hərəkətlərində nümayiş etdirir. Müstəntiq şübhəli şəxsin davranışına fikir verməklə, dindirmə zamanı hansı məsələlərin onun üçün əhəmiyyət kəsb etdiyini müəyyən edə bilər. Şübhəli şəxsin belə davranışları sübut əhəmiyyət kəsb etməsə də dindirmənin hansı istiqamətdə həyata keçirilməsinə müəyyən etməyə imkan verir.[13] Lakin dindirmə zamanı şübhəli şəxsin bu və ya digər davranışı onun təqsirini sübut edən dəlil kimi qiymətləndirilməməlidir. Çünki belə davranış dindirmənin predmeti ilə bağlı olmayıb digər hallardan da irəli gələ bilər.

**Təqsirləndirilən şəxsin dindirilməsi taktikası.** Təqsirləndirilən şəxsin dindirilməsi ona ittiham elan edildikdən sonra aparılmalıdır. Təxirəsalınmaz hallar istisna olmaqla, təqsirləndirilən şəxsin dindirilməsi yalnız gündüz vaxtı mümkündür.

Cinayət işlərinin hərtərəfli, tam və obyektiv araşdırılmasında, habelə iş üzrə obyektiv həqiqətin müəyyən edilməsində təqsirləndirilən şəxsin ifadələrinin böyük rolu vardır.[14] Bu da təsadüfü deyildir, çünki təqsirləndirilən şəxs cinayət hadisəsi barədə şahid və zərərçəkmiş şəxsdən fərqli olaraq daha cox məlumata malikdir. Təqsirləndirilən şəxs ona elan edilmiş ittihamın mahiyyətinə dair, habelə iş üzrə ona məlum olan bütün

[13] Ратинов А. Р., Гаврилов О. А. Использование данных психологии в буржуазной криминалистике. В сб.: « Вопросы криминалистики ». № 8-9, М., 1963, s. 306-307

[14] Mövsümov C. Azərbaycan SSR Cinayət prosesi. Bakı, 1980, s. 203.

hallar haqqında ifadə vermək hüququna malikdir. O, dindirmə zamanı elan edilmiş ittihama münasibətini bildirir və bununla əlaqədar olaraq işdə olan sübutları izah edir və onların həqiqiliyi haqqında mülahizələrini bildirir.

Təqsirləndirilən şəxsin dindirilməsinin özünəməxsus cəhətləri vardır. Bu da təqsirləndirilən şəxsin işin nəticəsində maraqlı olduğundan, ifadə verməkdən imtina etmək hüququnun və cinayət hadisəsi barədə şahid, zərərçəkmiş şəxsdən daha cox məlumata malik olmasından irəli gəlir.

Təqsirləndirilən şəxsin dindirilməsinin əsas məqsədi ondan iş üçün əhəmiyyət kəsb edən hallar barədə düzgün ifadə almaqdır. Dindirmə zamanı müstəntiq təqsirləndirilən şəxsin nə zaman, harada və nəyin təsiri altında cinayəti törətməyə qərara gəldiyini; cinayətin hazırlıq mərhələsində nə kimi hərəkətlər etdiyini və bu zaman ona kömək edən şəxslərin dairəsini; cinayət törədərkən hansı üsul, alət və vasitələrdən istifadə etdiyini; öz məqsədinə nail olub-olmadığını; cinayəti törətdikdən sonra hadisə yerində nə kimi hərəkətlər etdiyini; cinayət məsuliyyətinə cəlb olunduğu ana qədər yol verdiyi hərəkətləri aydınlaşdırmalıdır. Onu da qeyd etmək lazımdır ki, təqsirləndirilən şəxsin dindirilməsinin predmetini təkcə ittihamın formulası ilə məhdudlaşdırmaq olmaz. Təqsirləndirilən şəxs həmçinin cinayət təqibini istisna edən və məsuliyyəti yüngülləşdirən hallar barədə də dindirilməlidir.

Təqsirləndirilən şəxsin dindirilməsinin hazırlıq mərhələsində müstəntiq təqsirləndirilən şəxslərin hansı ardıcıllıqla dindiriləcəyini aydınlaşdırmalır. Bu zaman aşağıdakı hallar nəzərə alınmalıdır: 1) təqsirləndirilən şəxs bu və ya digər cinayətin edilməsində nə kimi rol oynadığını; 2) toplanmış materiallar hansı təqsirləndirilən

şəxsin təqsirini daha inandırıcı surətdə sübut edir; 3) təqsirləndirilən şəxslərin bir-birinə münasibəti; 4) təqsirləndirilən şəxsin öz hərəkətlərinə münasibəti; 5) təqsirləndirilənin şəxsiyyətini xarakterizə edən hallar. İstintaq taktikası baxımından cinayətin təşkilatçılarının, təhrikçilərinin və ya köməkçilərinin əvvəlcə dindirilməsi daha məqsədəmüvafiqdir. Çünki belə təqsirləndirilən şəxslər cinayətin edilməsində özlərini o qədər də təqsirkar bilmədiklərinə görə çox vaxt yalan ifadə verməyə cəhd göstərmirlər.

Dindirmənin əvvəlində müstəntiq təqsirləndirilən şəxsin ona elan edilmiş ittiham üzrə özünün təqsirli bilib-bilmədiyini aydınlaşdırmalıdır. Sonra isə təqsirləndirilən şəxsə ittihamın mahiyyəti, habelə onun mülahizələrinə görə cinayət işi üçün əhəmiyyətli olan digər hallar üzrə ifadə vermək təklif etməlidir ( A. R CPM 233 ). Təqsirləndirilən şəxsin dindirilməsinin taktikası onun elan olunmuş ittihamla özünü təqsirli bilib-bilmədiyindən aslı olaraq müəyyən edilir.

Əgər təqsirləndirilən şəxs elan olunmuş ittihamla özünü tam təqsirli bilirsə, müstəntiq onu işi üçün əhəmiyyət kəsb edən bütün hallar barədə dindirməli və bu etirafın düzgünlüyünü yoxlamalıdır. İstintaq təcrübəsi göstərir ki, bir çox hallarda təqsirləndirilən şəxs ona yaxın şəxsləri cinayət məsuliyyətindən yayındırmaq məqsədilə; onu nüfuzdan salan məlumatın aşkar olunması qorxusu altında; maraqlı şəxslərdən mükafat almaq arzusu ilə; daha ağır cinayətdə ifşa olunmamaqdan ötrü və s. səbəblərdən cinayətin onun tərəfindən edilməsini yalandan etiraf edir.

Təqsirini etiraf etmiş təqsirləndirilən şəxsin dindirilməsi əsas taktiki üsullarından biri onun ifadələrinin dəqiqləşdirilməsidir. Bu üsul təqsirləndirilən şəxsin cinayət hadisəsilə əlaqədar hərəkətlərinin ardıcıllığını

müəyyən etməyə imkan verir. Dindirmənin belə taktiki üsulla aparılması iş üçün əhəmiyyət kəsb edə bilən bütün faktların aydınlaşdırmasına, habelə yalan ifadə vermə hallarının ifşa edilməsinə imkan verir.

Təqsirini boynuna almış təqsirləndirilən şəxsin dindirilməsinin digər taktiki üsulu onu ifadə verdiyi hallar barədə təkrar dindirmədir. Əgər təqsirləndirilən şəxs təkrar dindirmə zamanı əvvəlki ifadələri ilə ziddiyyət təşkil edən məlumat verirsə, bu onun yalan etiraf etdiyini dəlalət edir.

Əgər təqsirləndirilən şəxs elan olunmuş ittihamla özünü təqsirli bilmirsə, müstəntiq ona ittihamın mahiyyəti üzrə, habelə təqsirləndirilən şəxsin mülahizələrinə görə iş üçün əhəmiyyət kəsb edən hallar barədə ifadə verməyi təklif etməlidir. Təqsirləndirilən şəxsin öz təqsirini inkar etməsi doğru və yalan ola bilər.[15] Bir qayda olaraq təqsirini inkar edən təqsirləndirilən şəxslər öz mövqeyini tutarlı, inandırıcı olmayan dəlillər gətirməklə əsaslandırmağa çalışırlarlar. Bəzi hallarda isə təqsirləndirilən şəxs öz izahatlarında ittihamın əsaslandığı sübutların mövcud olduğunu inkar etməyərək, bunları başqa cür izah edir və ya istintaqa məlum olmayan yeni dəlillər gətirir. Lakin təqsirləndirilən şəxsin verdiyi ifadənin xarakterindən aslı olmayaraq, hər bir halda, istər təqsirləndirilən şəxs təqsirini inkar edər əsaslı dəlillər gətirdikdə, istərsə də o, heç bir dəlil gətirmədən təqsirini əsassız inkar etdikdə müstəntiq həmin ifadələri işdə olan sübutlarla tam və mükəmməl yoxlamalıdır.

Əgər yoxlama nəticəsində təqsirləndirilən şəxsin yalan ifadə verdiyi məlum olarsa, bu zaman müstəntiq işdə olan sübutların ona elan olunması taktiki üsulundan

---

[15] Mövsümov C. Azərbaycan SSR Cinayət prosesi. Bakı, 1980, s. 204.

istifadə etməlidir. Bu taktiki üsul təqsirləndirilən şəxsin yalan ifadə vermə hallarının ifşa etmək və onu düzgün məlumat verməyə məcbur etmək məqsədi daşıyır. Sübutlar təqsirləndirilən şəxsə elan etməzdən əvvəl onların həqiqiliyi yoxlanılmalı və təqsirləndirilən şəxsin bu sübutlara necə münasibət göstərəcəyi, öz ifadəsilə ilə həmin sübutlar arasındakı ziddiyyəti nə ilə izah edə biləcəyi nəzərə alınmalıdır. Əks təqdirdə bu sübutlarla təqsirləndirilən şəxsin ifadəsinin yalan olduğunu üzə çıxarmaq mümkün deyildir.

Təqdim olunan sübutlar təqsirləndirilən şəxsdə müstəntiq işin hallarından tam xəbərdar olması barədə fikir yaratmalıdır. Ona görə də elə sübutlar elan edilməlidir ki, onlar təqsirləndirilən şəxs üçün tam gözlənilməz olsun. Əgər təqsirləndirilən şəxs cinayət hadisəsilə bağlı incəliklərin belə müstəntiqə məlum olduğunu gördükdə, yalan danışmağın mənasızlığını dərk edərək doğru ifadə vermiş olur. Təqsirləndirilən şəxsə şahid ifadələri elan olunmazdan əvvəl onun şahidə münasibətini aydınlaşdırmaq zəruridir. Əgər təqsirləndirilən şəxs şahidlə yaxın münasibətdə olduğunu təsdiq etsə, onda şahidin ittihamedici ifadəsini aralarındakı pis münasibətlə izah etmək imkanından məhrum olur.

Sübutlar təqsirləndirilən şəxsə aşağıdakı üsullarla təqdim edilir: 1)ifşaedici təsirin artan istiqaməti üzrə 2) dindirmənin ilk mərhələsində ən kəsərli sübutun təqdim edilməsi 3) birdəfəyə bütün sübutların təqdim edilməsi. Hər bir halda sübutların elan etmə üsulu işin konkret halından və təqsirləndirilən şəxsin xüsusiyyətlərindən aslı olaraq müəyyən edilməlidir. Təqsirləndirilən şəxsin ifşa etmək üçün sübutları epizodlarla elan olunması daha məqsəduyğundur. Ona görə ki, sübut təqsirləndirilən şəxsə tam məlum olduqda o, ifadəsinin sonrakı

istiqamətini özü üçün əlverişli şəkildə tənzim edə bilər. Bu da çox zaman yalan ifadənin ifşa edilməsini çətinləşdirir.

Əgər cinayəti bir neçə təqsirləndirilən şəxs törətmişsə və onlardan heç biri təqsirini boynuna alaraq düzgün ifadə vermirsə, müstəntiq aşağıdakı taktiki üsuldan istifadə edə bilər. Müstəntiq təqsirləndirilən şəxslərin birindən iş üzrə az əhəmiyyət kəsb edən fakt barədə düzgün ifadə almağa çalışmalıdır. Sonra isə ondan digər təqsirləndirilən şəxslər üzləşdirmə zamanı bu fakt barədə ifadə vermək təklif olunur. Üzləşdirmə zamanı digər təqsirləndirilən şəxslərdə elə fikir yaranır ki, həmin şəxs cinayəti törədilməsini etiraf edərək, müstəntiqə cinayət hadisəsilə bağlı digər hallar barədə də məlumat verib. Məhz bu səbəbdən, onlar yalan ifadə verməyin mənasızlığını görüb, təqsirlərini boynuna alırlar. Lakin bu taktiki üsul təqsirləndirilən şəxslərə onlardan birinin cinayəti etiraf etməsi barədə yalandan məlumat vermək kimi qiymətləndirilməməlidir. Çünki belə üsulla əldə edilmiş ifadə sübut əhəmiyyət kəsb edə bilməz (C PM 125.2.2 ).

Şübhəli və təqsirləndirilən şəxsin dindirilməsi zamanı taktiki kombinasiyalardan da istifadə oluna bilər. Taktiki kombinasiyalar dedikdə, dindirilən şəxs tərəfindən mövcud istintaq şəraitini düzgün qiymətləndirilməməsi nəticəsində öz iradəsi əleyhinə doğru ifadə verməsinə yönəlmiş üsullar başa düşülür. İstintaq təcrübəsində aşağıdakı taktiki kombinasiyalar tətbiq olunur: 1) dindirilən şəxsdə müstəntiq “hər şeydən xəbərdar olması” təsəvvürünü yaratmaqla 2) dindirilən şəxsdən işin bu və ya digər halları haqqında müstəntiqin xəbəri olmasını gizlətmək 3) dolayı dindirmə- ikinci dərəcəli suallarla cinayət işi ilə əlaqədar əsas sualın

maskalanması 4) cinayətlə əlaqədar müxtəlif halları təsdiqləyən ifadələrin alınması üçün şəraitin yaradılması.

### *Sual 4. Üzləşdirmə taktikası . Dindirmənin nəticələrinin rəsmiləşdirilməsi.*

Üzləşdirmə dindirmənin xüsusi bir növüdür. CPM 235.1 maddəsinə görə ifadələrində əhəmiyyətli ziddiyyətlər olduqda müstəntiq əvvəl dindirilmiş iki şəxs arasında üzləşdirmə aparmaq hüququna malikdir. Beləliklə də üzləşdirmə cinayət işi üçün əhəmiyyət kəsb edən hal barədə ziddiyyətli ifadələr verən iki şəxsin eyni zamanda dindirilməsidir. Üzləşdirmə cinayət işləri üzrə obyektiv həqiqətin müəyyən edilməsinə yönələn prosessual hərəkətlərdən biridir. Üzləşdirmənin əsas məqsədi dindirilən şəxslərin ifadələrindəki ziddiyyəti aradan qaldırmaq və dindirmə zamanı əldə olunmuş məlumatları yoxlamaqdır.

Üzləşdirmə yalnız ifadələrdəki ziddiyyət cinayət işi ücün mühüm əhəmiyyət kəsb etdiyi halda aparılmalıdr. Başqa sözlə desək, dindirilən şəxslərin ifadələrində olan istənilən uyğunsuzluğa görə üzləşdirilmə aparıla bilməz. Bundan başqa, əgər üzləşdirmə zamanı üzləşdirilən şəxslərin hər hansı bir məsələyə dair razılığa gələ biləcəkləri ehtimal olunanarsa, bu halda da üzləşdirmə aparıla bilməz.

Üzləşdirmə zamanı müsbət nəticələrin əldə olunması xeyli dərəcədə görülən hazırlıq hərəkətlərin aslıdır. Belə hazırlıq hərəkətlərinə aiddir: üzləşdirməni kimlər arasında, hansı ardıcıllıqla, kimlərin iştirakı ilə, hansı məsələlərə dair aparılacağı müəyyən edilməsi; üzləşdiriləcək şəxslərin əvvəlki ifadələrinin hərtərəfli öyrənilməsi; üzləşdirələcək şəxsləri xarakterizə edən məlumatların toplanması; onların bir-birinə olan

münasibəti araşdırılması; üzləşdirmənin vaxtının və yerinin müəyyən edilməsi; üzləşdirmə zamanı təqdim ediləcək sübutların dairəsinin dəqiqləşdirilməsi; üzləşdirmənin gedişatını və nəticələrini qeyd edəcək texniki vasitələrin hazırlanması və s.

Üzləşdirməni əvvəlində aralarında üzləşdirmə aparılan şəxslərin bir-birini tanıması və onların münasibətləri dəqiqləşdirilir. Bu halın müəyyən edilməsi öznövbəsində ifadələrin düzgün qiymətləndirilməsinə təsir edir. Üzləşdirmə şahid və ya zərərçəkmiş şəxsin iştirakı ilə aparılarsa, bu zaman müstəntiq onu ifadə verməkdən imtinaya, ifadə verməkdən boyun qaçırmağa və bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti barədə; habelə özünün və yaxın qohumlarının əleyhinə ifadə verməmək hüququ barədə xəbərdar edir. Daha sonra isə üzləşdirilməyə çağırılmış şəxslərə aydınlaşdırılması üçün üzləşdirmənin aparıldığı işin halları üzrə növbə ilə ifadə vermək təklif olunur. Bir qayda olaraq dogru ifadə verəcəyi güman edilən şəxs ilkin dindirilməlidir. Əgər üzləşdirmə bu istintaq hərəkətinin iştirakçılarının birinin vəsatəti üzrə aparılırsa, bu zaman həmin şəxs ilkin ifadə verməsi daha məqsədəuyğundur.

Üzləşdirilən şəxslərin hər ikisi ifadə verdikdən sonra müstəntiq onlara sullar verir. Müstəntiqin icazəsi ilə üzləşdirilən şəxslər də bir-birinə suallar verə bilərlər.

Üzləşdirmə zamanı hər hansı bir halın üzləşdirilən şəxslərin yadına salmaq məqsədilə müstəntiq cinayət işində olan sübutları onlara təqdim edə bilər. Üzləşdirmə iştirakçılarının əvvəlki dindirmədə verdikləri ifadələrinin səsləndirilməsinə, onların üzləşdirmə zamanı ifadə vermədikdən və həmin ifadələrin protokola daxil edildikdən sonra icazə verilir.

Üzləşdirmə zamanı müstəntiq çalışmalıdır ki, üzləşdirilən şəxslər hər hansı bir məsələyə dair razılığa

gələ bilməsinlər. Məhz buna görə də üzləşdirmə zamanı müstəntiqlə bərabər istintaq orqanın digər əməkdaşlarının iştirakı zəruridir.

Üzləşdirmənin sonunda müstəntiq protokol tərtib edir. Protokolda üzləşdirmə iştirakçılarına verilmiş suallar və bu suallara onların cavabları, habelə işin hallarının mahiyyəti barədə onların ifadələri qeyd olunur.

**Dindirmənin nəticələrinin rəsmiləşdirilməsi.**Dindirmənin nəticələri protokol vasitəsilə rəsmiləşdirilir. Protokol müstəntiq tərəfindən tərtib olunur. Protokolda dindirilmiş şəxsin işin hallarının mahiyyəti üzrə sərbəst ifadələri, ona verilmiş suallar və bu suallara onun cavabları göstərilir. Dindirilən şəxsin ifadələri və onun verilmiş suallara cavabları dindirmə protokolunda birinci şəxs adından və mümkün qədər hərfi şəkildə qeyd edilməlidir. Dindirilən şəxsin xahişi ilə ona ifadələrini əlyazma üsulu ilə vermək imkanı verilir və bu barədə dindirmə protokolunda müvafiq qeyd aparılmalıdır. Bir qayda olaraq jarqon ifadələr və əxlaqsız sözlər protokolda əks olunmur.

Əgər dindirmə zamanı şəxs hər hansı sxem, plan tərtib etmişdirsə, bu müvafiq qeydiyyat aparmaqla dindirmə protokoluna əlavə olunur. Dindirmə zamanı şəxsə maddi sübut, sənəd, digər istintaq hərəkətlərinin protokolları, audio və video yazıları təqdim olunmuşdursa, bu da dindirmə protokolunda göstərilməlidir.

Müstəntiq dindirmə zamanı audio yazıdan, video və çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etmişdirsə, bu dindirmə protokolunda qeyd olunur. Müvafiq yazı, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları isə protokola əlavə edilir.

Dindirmə qurtardıqdan sonra isə müstəntiq dindirilən şəxsi dindirmə protokolu ilə tanış edir. Əgər

dindirmə zamanı audio yazıdan, video və çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etmişdirsə, onda müvafiq yazı, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları da dindirilən şəxsə nümayiş etdirilməlidir. Bundan sonra müstəntiq dindirilən şəxsdən dindirmə protokola əlavə və düzəlişlər olub-olmayacağını aydınlaşdırır. Əgər əlavə və düzəlişlər olarsa, onlar da protokola daxil edilir. Daha sonra isə dindirmə protokolu müstəntiq və dindirilən şəxs tərəfindən onun axırında, habelə dindirilən şəxs tərəfindən əlavə olaraq onun hər bir səhifəsi imzalanır.

## *Mövzu № 17.*

## *«İfadələrin yerində yoxlanılmasının taktikası»*

PLAN:

1.İfadələrin yerində yoxlanılmasının anlayışı, mahiyyəti və
vəzifələri.
2.İfadələrin yerində yoxlanılmasına hazırlıq və keçirilməsinin
texniki xüsusiyyətləri.
3.İfadələrin yerində yoxlanılmasının nəticələrinin
rəsmiləşdirilməsi.

***SUAL 1. İfadələrin yerində yoxlanılmasının anlayışı, mahiyyəti və əhəmiyyəti.***

Cinayət işi üzrə sübutların toplanmasında keçirilən istintaq hərəkətləri ilə yanaşı ifadələrin yerində yoxlanılmasının böyük əhəmiyyəti vardır.

İfadələrin yerində yoxlanılması istintaq hərəkəti istintaqın tam və obyektiv aparılması, alınmış məlumatların yoxlanılması, yeni sübutların əldə edilməsi məqsədilə həata keçirilir.

İfadələrin yerində yoxlanılmasının təcrübədə geniş istifadə olunmasına baxmayaraq 01.09.00-ci il tarixədək onu tənzimləyən vahid prosessual norma olmamışdır.

Təcrübənin tələbatını nəzərə alaraq 01.09.00-ci il tarixindən fəaliyyətdə olan CPM-də bu istintaq hərəkətini tənzimləyən norma daxil edilmişdir.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti CPM-nin 260-cı maddəsi ilə tənzimlənir. Həmin maddədə qeyd olunur ki, ifadənin yerində yoxlanılması sahidin, zərərçəkmiş, şübhəli və təqsirləndirilən şəxslərin dəqiq məlum yerdə baş vermiş hadisə ilə bağlı ifadələrin düzgünlüyünü müəyyən etmək və ya dəqiqləşdirmək məqsədi ilə aprılır.

İfadənin yerində yoxlanılması kompleks xarakterə malik olan istintaq hərəkəti olub, onun tərkibində digər istintaq hərəkətlərinin elementləri də vardır (dindirmə, istintaq eksperimenti, tanınma üçün təqdim etmə və s.).

Bu istintaq hərəkətinin təcrübədə geniş tətbiq edilməsinə baxmayaraq, onun prosessual mahiyyəti və taktiki xüsusiyyətləri barədə kriminalistik ədəbiyyatlarda alimlər arasında fikir ayrılığı mövcuddur.

Bəzi almlərin fikrincə ifadənin yerində yoxlanılmasının mahiyyəti ifadəsi yoxlanılan şəxsin baş vermiş cinayət hadisəsinin ayrı-ayrı hallarını, eləcədə bu halların baş verdiyi yeri göstərilməsindən ibarətdir.

Göstərilən fikirlər S.S.Stepiçevə və A.N.Vasilyevə məxsusdur. Bu fikirdə ifadələrin yerində yoxlanılmasıinn bütün elementləri əks olunmamışdır. Yəni göstərilən fikirdə ifadələrin dəqiqləşdirilməsi, alınmış sübutların yoxlanılması, yeni maddi sübutların əldə edilməsi barədə heç nə deyilmir.

Lakin bununla yanaşı P.S.Belkinin ifadələrin yerində yoxlanılmasının mahiyyəti barədə fikri daha təqdirə layiqdir. Onun fikrincə ifadələri yerində yoxlayarkən bilavasitə dindirilən şəxsin necə və hansı yolla gəlib-getməsi, eləcədə bir-neçə şahid və təqsirləndirilənin ifadələri arasında hansı yer haqqında

zidiyyətin olub-olmaması barədə, dindirilən şəxsin işin həqiqi halları barədə bilib-bilməməsi və s. barədə qəti qənaətə gəlməkdən ibarətdir.

Alimlərin fikrincə ifadələrin yerində yoxlanılmasının mahiyyəti şəxsin ifadələrini yoxlamaq, həmin ifadələrin dəqiqliyini müəyyənləşdirmək və yeni maddi sübutlar əldə etməkdən ibarətdir.

Göstərilənləri nəzərə alaraq K.Sarıçalinskaya ifadələrin yerində yoxlanılması zamanı müstəntiq tərəfindən aşağıdakı məsələlərin müəyyənləşdirilməsinin mümkünlüyü də göstərir:

- əvvəl istintaqa məlum olmayan digər şəxsin aşkar edilməsi;
- dindirilən şəxsin hərəkətləri ilə əlaqədar ayrı-ayrı halların müəyyən edilməsi və ya fərqləndirilməsi müstəntiqə aydın olmadıqda və digər üsullarla onun dəqiqləşdirilməsi mümkün olmadıqda;
- şübhə edilən şəxsin digər cinayətlə əlaqəsi barədə istintaqa məlum olduqda, akin cinayətkar haqqında məlumat olmadıqda.

İfadələrin yerində yoxlanılmasının xarakterik xüsusiyyətləri:

- ifadələrin yerində yoxlanılması cinayət işinə başladıqdan sonra və digər istintaq hərəkətləri həyata keçirildikdən və prosessual cəhətdən rəsmiləşdirildikdən sonra aparılır;
- cinayət işi üzrə ifadəsi yoxlanılan şəxs dindirildikdən sonra bu istintaq hərəkəti istintaqın istənilən mərhələsində həyata keçirilir;
- ifadələrin yerində yoxlanılması dindirilən şəxsin ifadəsində göstərdiyi yerdə aparılmalıdır. Müstəntiqin mülahizəsindən asılı olaraq mütəxəssis də dəvət oluna bilər;

- ifadələrin yerində yoxlanılmasında dtndirilən şəxs bu istintaq hərəkətinin məcburi iştirakçısı olub, onda fəal iştirak edir.

İfadələrin yerində yoxlanılması digər istintaq hərəkətləri ilə oxşar cəhətləri olsa da fərqli cəhətləri daha çoxdur.

Hadisə yerinə baxışdan fərqli cəhəti ondan ibarətdir ki, baxış zamanı müstəntiq müşahidə etdiklərini protokolda qeyd edir, amma ifadələrin yerində yoxlanılmasında əsasən dindirilən şəxsin ifadələri və göstərdikləri protokolda qeyd olunur.

İstintaq ekspertimentindən fərqi ondan ibarətdir ki, ifadələrin yerində yoxlanılması hadisə yerində, yaxud hadisənin baş verməsinin güman edildiyi yerdə aparılır, amma eksperimentin aparılması yeri isə işin konkret hallarından asılı olaraq müstəntiq özü müəyyən edir. Belə ki, eksperiment hadisə baş verən yerdə və ya başqa yerdə aparıla bilər.

Digər tərəfdən isə istintaq ekspeimentinin bütün hallarda müəyyən şəraitdə aparılması zəruridir, bu qaydanın gözlənilməsi, eksperimentin sübut əhəmiyyətini azaldır. İfadələrin yerində yoxlanılması isə istənilən vaxt, hər cür hava şəraitində həyata keçirilə bilər.

Dindirmə istintaq hərəkəti zamanı şəxs müəyyən məlumatları ifadə edir, lakin ifadələrin yerində yoxlanılmasında əxs həm ifadə verir, həm də onları göstərir və nümayiş etdirir.

Axtarış müstəntiqin vəsatəti, prokurorun təqdimatı və məhkəmənin qərarı ilə aparılır, ifadələrin yerində yoxlanılması istintaq hərəkətinin həyata keçirilməsi üçün isə müstəntiqin vəsatəti və prokurorun təqdimatı, məhkəmənin qərarı tələb olunmur.

Axtarış zamanı müstəntiq onu maraqlandıran predmetləri özü axtarır, bəzi hallarda isə harada gizlədilə bmləcəyini güman edir.

İfadələrin yerində yoxlanılmasında isə dindirilmiş şəxs axtarılan predmetlərin və ya sahənin aşkar edilməsində özü fəal iştirak edir.

İfadələrin yerində yoxlanılması istintaq hərəkəti bilavasitə hadisə yerinin həqiqi vəziyyətinin müəyyən edilməsinə, istintaq və axtarış fərziyyələrinin yoxlanılmasına, cinayətin səbəb və şəraitinin müəyyən edilməsinə kömək göstərir.

Bəzən müxtəlif səbəblərdən hadisə yerinin vəziyyəti müstəntiq hadisə yerinin baxışını həyata keçirənədək tam və ya qismən dəyişir. İstintaq prosesində isə hadisə zamanı real şəraitin müəyyən edilməsi zərurəti meydana çıxır. Dindirilən şəxslərin ifadələrində təsvir edilən hadisə yeri, eləcədə ayrı-ayrı obyektlər haqqında onların əvvəlcədən məlumatlarıınn olub-olmamasını müəyyən etmək üçün ifadələrin yerində yoxlanılması həyata keçirilir.

Bəzən dindirilən şəxs ayrı-ayrı obyektlərin adlarını və ünvanlarını, yerləşmə xüsusiyyətlərini dəqiq bilmir, lakin cinayət yerinə necə getməsi, öz hərəkətlərinn xarakteri barədə danışır, bunların isə müəyyən edilməsinin istintaq üçün böyük əhəmiyyəti vardır. Dindirilən şəxsin öz hərəkətlərini nümayiş etdirməsi cinayəti törədən halları aydınlaşdırmağa köməklik göstərir. Bu isə gələcəkdə həmin hərəkətlərin qarşısının alınması üçün tədbirlərgörməyə imkan verir.

İfadələrin yerində yoxlanılması digər istintaq hərəkətləri kimi fərziyyələrin yoxlanılmasına da xidmət edir. Əsasən cinayətkarın cinayətə və ya onun ayrı-ayrı hallarına aidiyyətinə dair irəli sürülmüş fərziyyələrin

yoxlanılması üçün bu istintaq hərəkəti daha çox səmərə verir.

İfadələrin yerində yoxlanılması aşağıdakı vəzifələri həll edir:

1. Müstəntiqə məlum olmayan bir və ya bir-neçə hadisə yerlərini aşkar etmək.

Bəzi hallarda dindirilən şəxs cinayət işi üçün əhəmiyyət kəsb edən hadisənin baş verdiyi yeri və ya onun ayrı-ayrı hallarının təsvir edilməsinə çətinlik çəkir və müstəntiq də həmin yeri müstəqil şəkildə aşkar edə bilmir. Belə hallarda dindirilən şəxslə ifadələrin yerində yoxlanılması istintaq hərəkətini keçirərək buna nail olur.

2. Cinayət işi üçün əhəmiyyət kəsb edən və əvvəllər istintaq prosesində müəyyən edilməsi mümkün olmayan cinayət törətmiş şəxsin hadisə yerinə gəlmə - getmə yollarını müəyyənləşdirmək.

Belə bir hal çox vaxt şəxs tərəfindən hadisənin baş verdiyi yerin dəqiq harada yerləşməsini, küçələrin adlarının bilməməsi səbəbindən meydana çıxır.

3. İstintaqa məlum olmayan və şəxsin verdiyi ifadələr əsasında yerləşdiyi yerin dəqiqləşdirilməsi qeyri-mümkün olan cinayət izlərinin və maddi sübutların aşkar edilməsi.
4. İstintaqa məlum olmayan və dindirilən şəxslərin ifadələrində barəsində heç bir məlummat verilməyən yeni maddi sübutların aşkar edilməsi.
5. Əvvəllər istintaqa məlum olmayan zərərçəkmiş şəxslərin aşkar edilməsi.

İstintaq təcrübəsi göstərir ki, bəzi hallarda müəyyən səbəblər üzündən zərərçəkmiş ona qarşı törədilmiş cinayət hadisəsi barədə hüquq-mühafizə orqanlarına xəbər vermir.

Belə hallarda təqsirləndirilən şəxs öz ifadəsində istintaqa hələ məlum olmayan cinayət hadisəsi barədə

xəbər verir. Bu məqsədlə müstəntq cinayət hadisəsinin baş verdiyi yeri təqsirləndirilən şəxsin ifadələrinin yerində yoxlanılması istintaq hərəkəti vasitəsilə müəyyən edir və həmin yerdə yaşadıqları və ya obyektin məxsus olduğu şəxsi fakt üzrə dindirir. Dindirmə zamanı müstəntiq həmin şəxslərə qarşı həqiqətən cinayətin törədilməsini, onun nə vaxt və harada baş verməsini müəyyənləşdirir.

6. Əvvəllər istintaqa məlum olmayan şahidlərin müəyyən edilməsi.

   Əvvəllər müstəntiqə məlum olmayan yerə ifadələrin yoxlanılması məqsədi ilə gəldikdə bir sıra tədbirlər həyata keçirilir. İlk növbədə müstəntiq hadisə yerinin ümumi şəraiti ilə tanış olur, ətrafda yerləşən yaşayış və qeyri-yaşayış binaları, başqa obyektlər barədə təsəvvür əldə edir. Bu isə həmin obyektlərdə cinayət hadisəsi barədə müəyyən məlumata malik şahidlərin müəyyən edilməsi üçün şərait yaradır.

7. Digər şübhəli və təqsirləndirilən şəxslərin müəyyən edilməsi.

   Əgər dindirilən şəxs cinayətin digər iştirakçıları haqqında məlumat verirsə, lakin həmin iştirakçılar haqqında məlumatlar istintaq orqanlarına məlum deyilsə, onların mövcud olduğu və yaşayış yerlərini müəyyənləşdirmək məqsədi ilə ifadələrin yerində yoxlanılması istintaq hərəkəti keçirilir.

8. Şübhəli və təqsirləndirilən şəxsin başqa cinayətə aiddiyyatının yoxlanılması.

   Təqsirləndirilən (şübhəli) şəxs haqda cinayətin törədilməsi barədə məlumat verirsə, onda müstəntiq ifadələrin yerində yoxlanılması istintaq hərəkəti vasitəsilə təqsirləndirilən şəxsin baş vermişcinayətə, onun ayrı-ayrı hallarına aidiyyətini müəyyənləşdirir

və alınmış məlumatları cinayət işi üzrə yığılmış başqa məlumatlaarla müqayisə edir.

9. Cinayətin törədilməsinə kömək göstərən səbəb və şəraitin müəyyən edilməsi.

Bəzən dindirilən şəxs iş üzrə müəyyən edilməsi əhəmiyyət kəsb edən ayrı-ayrı obyektlərin dəqiq ünvanını, adlarını, xüsusiyyətlərini və yerləməsini, onun obyektə daxil olma və çıxma marşrutlarını, həmin obyektdə baş vermiş cinayət hadisəsinin halları barədə məlumatları ifadə etməkdə çətinlik çəkdiyinə görə, ifadələrin yerində yoxlanılmasının keçirilməsi daha yaxşı səmərə verir.

10. Müstəntiqə məlum olmayan və digər üsullarla müəyyən edilməsi mümkün olmayan dindirilən şəxsin cinayət hadisəsi ilə bağlı ayrı-ayrı hallarının müəyyən edilməsi və dəqiqləşdirilməsi.

11. Cinayət hadisəsinin baş verdiyi anda hadisə yerinin real şəraitinin müəyyən edilməsi.

Bəzi hallarda müxtəlif səbəblər üzündən müstəntiqin hadisə yerinə gələnədək, hadisə yeri tam və ya qismən dəyişikliyə məruz qalır. Məsələn: ölüm hadisəsi baş verdikdən sonra mənzildə ayrı-ayrı predmetlər yığışdırılır, müxtəlif izlər məhv edilir, orada olan mebellərin əvvəlki yeri dəyişdirilir. Analoji dəyişikliklər yol nəqliyyat hadisəsinin baş verdiyi yerdə də ola bilər. Bəzi hallarda müstəntiq hadisə yerində ona qədər baş vermiş dəyişikliklərin olmasını bilmədən baxışı həyata keçirir.

Əgər hadisə ilə əlaqədar şəxslərin dindirilməsi prosesində hadisə yerinin və ya onun ayrı-ayrı şəraitlərinin baxışa qədər müəyyən dəyişikliyə məruz qalması faktı müəyyən edilərsə onda müstəntiq həmin şəxslərin iştirakı ilə hadisə yerinin

cinayətin baş verdiyi anda olan şəraiti bərpa etmək məqsədi ilə ifadələrin yerində yoxlanılması hərəkətini keçirir. Bu da öz növbəsində hadisənin baş verməsinin real mexanizmini və ayrı-ayrı şəxslərin hərəkətlərinin ardıcıllığını, həmçinin istintaqda zəruri əhəmiyyət kəsb edən halların müəyyən edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

12. Dindirilən şəxsin və ya şəxslərin ifadələrində təsəvvür etdikləri ayrı-ayrı obyektlər və ya marşrutlar haqqında hansı dərəcədə məlumata malik olduqlarını müəyyən etmək.
13. Bilavasitə cinayət hadisəsinin müşahidəçiləri olan dindirilmiş şəxslərin hadisənin ayrı-ayrı halalrı və cinayəti törətmiş şəxslərin hərəkətləri barədə hansı dərəcədə məlumata malik olduqlarını öyrənmək.

    Belə hallarda müstəntiq şəxs tərəfindən dindirmə zamanı verilmiş ifadəsindəki məlumatlarla onun ifadələrinin yerində yoxlanılması nəticəsində alınmış məlumatlarla müqayisə edərək verilmiş ifadələrin yalnız və düz olmasına real şəkildə əmin olur. Bu isə öz növbəsində həmin ifadələrin sübut kimi qəbul edilməsi, həmçinin yalan ifadə vermiş şəxslərin ifşa edilməsi üçün şərait yaradır.

14. İstintaq və axtarış fəaliyyətlərinin yoxlanılması.
15. İfadələrin yerində yoxlanılması istintaq hərəkətinin iştirakçıları.

Müstəntiq bu istintaq hərəkətinin keçirilmsəsi barədə qərarı qəbul edir. Bu barədə xüsusi qərarın çıxarılması tələb olunmur.

Azərbaycan Respublikası CPM-nin 260.3-cü maddəsində qeyd olunur: «Zəruri hallarda ifadələrin yerində yoxlanılmasında müstəntiqin dəvəti ilə, həmçinin tərcüməçi, mütəxəssis, ifadəsi yoxlanılan cinayət prosesi

iştirakçısının qanuni nümayəndəsi, habelə müəllim, həkim və digər şəxslər iştirak edirlər».

Mütəxəssisin ifadələrin yerində yoxlanılması istintaq hərəkətinin gedişatında müstəntiq tərəfindən dəvət olunması qanunla tənzimlənir.

Bu zaman mütəxəssisin qarşıda duran məsələrin həllində müəyyən səlahiyyətlərə malik olmasını müstəntiq aydınlaşdırmalıdır. Müstəntiq ifadələrin yerində yoxlanılması istintaq hərəkətini keçirməzdən əvvəl mütəxəssisə onun hüquq və vəzifələrini izah edir.

Tərcüməçi isə ifadələrin yerində yoxlanılan şəxs istintaqın aparıldığı dili bilmirsə dəvət olunur. Bu zaman müstəntiq tərcüməçini bilə-bilə yalan tərcüməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdarlıq edir, həmçinin onun qanunla müəyyən edilməsi hüquq və vəzifələrini izah edir.

İfadələrin yerində yoxlanılması prosesində müəllim də iştirak edə bilər. Bu istintaq hərəkəti 14 yaşına çatmamış şəxsin iştirakı ilə aparılarsa müəllimin iştirakı hökməndir, 14 yaşından 16 yaşınadək isə müstəntiqin mülahizəsinə əsasən dəvət olunur. Bundan başqa ifadələrin yerində yoxlanılması prosesində müstəntiq şəxsin qanuni nümayəndəsini və yaxın qohumlarını da dəvət edə bilər.

Azərbaycan Respublikası CPM-nin 260.2-ci maddəsində qeyd olunur ki, təqsirləndirilən və ya şübhəli şəxsin ifadələrinin yerində yoxlanılmasında, həmçinin onların müdafiəçisi iştirak etmək hüququna malikdir. Bu istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiəçi ifadələrin yerində yoxlanılmasında iştirak etmək arzusunu bildirdikdə, müstəntiq bu hüququnu təmin etməlidir.

İfadələrin yerində yoxlanılmasının iştirakçıları, şahid, zərəçəkmiş, şübhəli şəxs olur, hansı ki, ifadələri bilavasitə yoxlanılır.

İfadələrin yerində yoxlanılmasından əvvəl şahid və ya zərərçəkmiş şəxs bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdarlıq edilir.

Yuxarıda göstərilən şəxslərin ifadələrinin yerində yoxlanılmasından əvvəl müstəntiq onlara keçirilən istintaq hərəkətinin məqsədini, vəzifələrinin keçirilmə ardıcıllığını dəqiq izah edir və hər bir iştirakçı tərəfindən bunun başa düşülməsinə əmin olur.

***SUAL 2. İfadələrin yerində yoxlanılmasına hazırlıq və keçirilməsinin taktiki xüsusiyyətləri.***

İfadələrin yerində yoxlanılması istintaq hərəkətinin həyata keçirilməzdən əvvəl müstəntiq şəxslərin ifadələrini, işdə olan digər materialları, başvermiş cinayətlə əlaqədar olaraq əməliyyat tədbirləri nəticəsində əldə olunmuş məlummatları ətraflı öyrənir.

Müstəntiq bu istintaq hərəkətini həyata keçirdiyi zaman hansı məsələlərin və hansı ardıcıllıqla yoxlamanın və tədqiq etməyin zəruriliyini, hadisə yerinə necə yaxınlaşmağı, bəzi obyektlərin və izlərin yerləşdiyi yerin şəraitini mümkün dərəcədə aydınlaşdırmalıdır. Bununla yanaşı bəzi təşkilati məsələlər də fikir verilməlidir.

İfadələrin yerində yoxlanılması zamanı ilkin hazırlıq hərəkətləri aşağıdakılardan ibarətdiir:

1. İfadələrin yerində yoxlanılması istintaq hərəkəti aşağıdakılardan ibarətdir:
2. Zəruri elmi-texniki vasitələrin, yardımçı alətlərin və materialların seçilməsi və hazırlanması.

3. İstintaq hərəkətinin keyfiyyətli aparılması iştirakçıların dairəsinin müəyyən edilməsi və onların təlimatlandırılması.
4. Zəruri hallarda istintaq iştirakçılarının nəqliyyat vasitəsilə təmin edilməsi.

İfadələrin yerində yoxlanılması düzgün aparılmalıdır. Lakin bu istintaq hərəkətinin müvəffəqiyyətlə aparılması üçün bəzi halalrda bütün məsələlərin tam aydınlaşdırılması üçün yerli şərait nəzərə alınır və aparılması vaxtı hətta dəqiqliklə müəyyən edioir. Məsələn: əgər ifadələrin yoxlanılması istehsalat prosesinin getdiyi və əhalinin çox olduğu yerdə, yaxud nəqliyyat vasitələrinin hərəkət etdiyi yerdə aparılarsa, onda dəzgahların, müəyyən mexanizmlərin, nəqliyyat vasitələrinin hərəkəti, istintaq hərəkəti iştirakçılarının həyatı üçün təhlükə törədə bilər, çoxlu adamların yığılması isə dindirilən şəxsə psixoloji müəyyən təsir göstərə bilər.

Məhz bu cəhətdən bu istintaq hərəkətinin həyata keçirilməsi üçün elə bir vaxt seçmək lazımdır ki, bu maneələr aradan qaldırılsın. Məsələn: sexdə fasilə vaxtı, iş vaxtından sonra, küçədə səhər tezdən və yaxud axşam nəqliyyat vasitələrinin və piyadaların hərəkətlərinin xeyli azaldığı vaxt və s.

İfadələrin yerində yoxlanılmasının nəticələrindən və onun xüsusiyyətlərindən asılı olaraq, bu istintaq hərəkətini həyata keçirən şəxs zəruri elmi-texniki vasitələri (fotoapparatlar, videokamera, maqnitafon, ölçü cihazları, izlərlə işləmək üçün vasitələr) əvvəlcədən seçməli və onların iş üçün yararlı olub-olmamasını yoxlamalıdır.

İşin halından asılı olaraq, bəzi hallarda metal axtaran, meyit axtaran cihazlardan, normativ ultrabənövşəyi lampadan, həm də müxtəlif şəraitdə

maneələrin dəf edilməsi üçün müxtəlif alətlərdən və yardımçı qurğulardan və qablaşdırmaq üçün materiallardan da istifadə oluna bilər.

Bildiyimiz kimi ifadələrin yerində yoxlanılması istintaq hərəkətinin keyfiyyətli həyata keçirilməsi üçün müxtəlif şəxslər iştirak edə bilərlər. Əgər bu istintaq hərəkətinin həbsdə olan şəxsin iştirakı ilə aparılacaqsa, onda ilk növbədə onun mühafizəsini təmin etmək lazımdır (qaçmaması, cinayət iştirakçıları ilə görüşməməsi və onlara müəyyən məlumat verməməsi,və i.a.

Başqa istintaq hərəkətlərində olduğu kimi ifadələrin yerində yoxlanılmasının planı tərtib edilir. Planda aşağıdakıların müəyyən edilməsi məqsədəuyğundur:

- yoxlamanın məqsədi və yoxlama nəticəsində hansı araşdırılacaq məsələnin dairəsi;
- yoxlamanın yeri və vaxtı;
- istintaq hərəkətinin iştiraçıları və onların hər birinin vəzifəsi;
- yoxlamanın mərhələləri, keçirilmə ardıcıllığı;
- yoxlama yerinə getmə marşurutu, həmin yoxlamanı həyata keçirməsi mərhələsində istifadə olunacaq foto və video aparatlarından istifadə olunması;
- yoxlama iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi;
- istintaq hərəkətinin rəsmiləşdirilməsi izlərin və başqa maddi sübutların qablaşdırılması;
- hər-hansı obyektlərin axtarışı və götürülməsi üçün istifadə olunacaq elmi-texniki vasitələrin müəyyən edilməsi.

Müstəntiq ilkin hazırlıq hərəkətlərini həyata keçirdikdən sonra iştirakçıları təlimatlandırır. İfadələrin yerində yoxlanılmasının vaxtını və onların harada toplanaşacaqlarını müəyyən edir.

Əgər təqsirləndirilən şəxs həbsdədirsə, onda onun gətirilməsini təmin edir.

Təyin edilmiş vaxtda müstəntiq iştrakçıların hamısının gəlib-gəlməməsini, istifadə ediləcək texniki vasitələrin yararlı olub-olmamasını, yoxlayır. Bu hərəkətləri həyata keçirdikdən sonra müstəntiqbütün iştirakçıları bir yerə yığır və aparılan istintaq hərəkətinin məqsədini onlara izah edir. Onlar hansı ardıcılılqla hərəkət edəcəklərini başa salır.

Bundan başqa onlar müxtəlif hərəkətlərin müəyyən ardıcıllıqla aparılmasını və müəyyən nəticələrin elınmasını yadda saxlamalı və istintaq hərəkəti başa çatandan sonra gördüklərini protokolda öz imzaları ilə təsdiq etməlidirlər. İfadələrin yerində yoxlanılması zamanı ifadəsi yoxlanılan şəxsə dindirmə zamanı haqqında danışdığı yerin, izin, obyektlərin harada yerləşdiyini göstərməsi izah edilir. Əgər ifadələrin yerində yoxlanılması zərərçəkmiş, şahidin ifadələrinə əsasən aparılacaqsa, belə olan həmin şəxslər Azərbaycan Respublikası CM-nin 297-ci maddəsinə əsasən bilə-bilə yalan ifadə verməyə görə məsuliyyət barədə xəbərdarlıq edilir və bu barədə protokolda müvafiq qeydlər aparılır.

Həmin şəxslər istintaqı maraqlanlıran obyektlər haqıqnda müstəntiqə sərbəst izahatlar verir və iş üçün əhəmiyyəti olan obyektlər yaxınlaşarkən müstəntiqin fikrini həmin obyektlərə yönəldirlər. Bu hal isə həmin yerin xüsusiyyətlərini daha ətraflı öyrənməyə, lazımi hallarda isə zəruri əşyaların fotoşəklini çəkməyə və video çəkilişini həyata keçirməyə imkan verir. Həmin şəxslər bu və ya digər izlərin aşkar olunması, maddi sübutların götürülməsi və qeydə alınması ilə əlaqədar məsləhətlər verirlər.

### *İfadələrin yerində yoxlanılmasının taktiki xüsusiyyətləri.*

Bildiyimiz kimi istintaq təcrübəsində hər bir istintaq hərəkətinin özünəməxsus taktiki xüsusiyyətləri vardır. Bu baxımdan ifadələrin yerində yoxlanılması aşağıdakı qaydada aparılır.

Müstəntiq əvvəlcədən ifadəsi alınmış şəxsi təklif edir ki, haqqında ifadə verdiyi yeri göstərsin və orada baş vermiş hadisə barəsində izahat versin. Bu istintaq hərəkətini yerinə yetirən zaman dindirilmiş şəxsin ifadəsinə əsasən onun hərəkətlərinin və göstərişlərinin müstənqilliyi prinsipi təmin edilməlidir. Bu hərəkətlərin düzgün alınması üçün müstəntiq bütün lazımi şərtlərə əməl etməlidir. Bundan sonra dindirilən şəxs istintaqı maraqlandıran yerə doğru hərəkət edir.

İstintaqı maraqlandıran yerə doğru hərəkət başlanan andan nə müstəntiq, nə də ki, digər iştirakçılar dindirilmiş şəxsin hərəkətlərinə qarışmamalı, hansı səmtə hərəkət etməklə əlaqədar olaraq ona göstəriş verməməlidir. Əks halda bu istintaq hərəkətinin nəticələrinin doğruluğuna şübhə yaranar və dindirilmiş şəxs məhkəmə prosesində elan edə bilər ki, bu və ya digər obyektlərə müstəntiqin və ya ifadənin yerində yoxlanılmasının digər iştirakçılarının göstərişi ilə yaxşılaşmış və həmin obyektlər haqqında izahatlar vermişdir. Belə olan halda bu istintaq hərəkəti məhkəmə prosesində öz sübut əhəmiyyətini itirir.

Bizə məlumdur ki, dindirmə zamanı müstəntiq ifadə verən şəxsin psixi xüsusiyyətlərini nəzərə almalıdır, lakin yaddan çıxarmaq lazım deyil ki, məhz ifadənin yerində yoxlanılması zamanı da, müstəntiq ifadəsi yoxlanılan şəxsin psixoloji xüsusiyyətlərində nəzərə alınmalıdır. Belə ki, topoqrafik parametrlərin qavranılması təkcə obyektiv amillərdən deyil, subyektiv amillərdən (məsələn:

ifadəsi yoxlanan şəxsin görmə, eşitmə orqanlarının qüsurlu olması, hadisəyə biganə münasibət bəsləməsi) çox asılıdır.

Yadda saxlamaq lazımdır ki, şəxsin topoqrafik təsəvvürləri müxtəlif cür inkişaf edir. Məhz elə bu cəhətdən hər bir hadisəni onu dərk etdiyi kimi qəbul edir.Məsələn kənddə yaşayanlar, meşə təsərrüfatında işləyənlər, geoloqlar, ovçular bir qayda olaraq daha yüksək seçiciliklə yerli şəraitləri qavramaq qabiliyyətinə malikdirlər. Təbiidir ki, həmin şəxslərin konkret yer haqqında verdikləri ifadələr daha dolğun və tam olacaqdır.

Əgər lazım gələrsə istintaq hərəkətinin keçirilməsi zamanı lazımi yerlərdə piyada getmək məqsədəuyğundur.

Əvvəlcə irəlidə ifadəsi yoxlanılan şəxs, onun ardınca hal şahidləri, müstəntiq və ifadənin yerində yoxlanılmasının digər iştirakçıları getməlidirlər. Bunların həyata keçirilməsi üçün müstəntiq elə təşkil etməlidir ki, dindirilən şəxs həmin yerə hadisə baş verməmişdən qabaq getdiyi yolla getsin və hadisə baş verdikdən sonra qayıtdığı yolla da qayıtsın. Bu hərəkətin belə bir ardıcıllıqla təşkil edilməsində məqsəd ondan ibarətdir ki, ifadəsi yoxlanılan şəxsin assosiasiyalarının canlanması prosesi güclənir, onun yaddaşı aktivləşir.bu cəhətdən dindirilən şəxsin ifadəsinin yerində yoxlanılması zamanı verdiyi izahat müstəntiqin kabinetində verdiyi ifadədən daha dolğun olur.

İfadələrin yerində yoxlanılması yerinə nəqliyyat vasitəsi ilə gedərkən, sürücüyə hansı istiqamətdə getməyi, nə vaxt dönməyi və avtomaşını harada saxlamağı ifadəsi yoxlanılan şəxs deməlidir. Əgər bu zaman müstəntiqi maraqlandıran suallar meydana

çıxarsa, onda müstəntiq müvafiq yerlərdə avtomaşınını dayandırır və onu maraqlandıran halları aydınlaşdırır.

Hadisə yerinə gəldikdən sonra elə şərait yaratmaq lazımdır ki, dindirilən şəxs həmin şəraitə uyğunlaşıb baş vermiş hadisənin ayrı-ayrı elementlərini yadına salsın və lazımi obyektlərin harada yerləşməsi barədə dəqiq məlumat verə bilsin.

Əgər ifadənin yerində yoxlanılması bir çox səbəblər üzündən bir-neçə dəfə həyata keçirilirsə, hər dəfə həmin yerin vəziyyətində dəyişiklik edilib-edilməməsini aydınlaşdırmaq lazımdır. Bu cəhətdən dindirilən şəxsdən hadisə yerində dəyişiklik olub-olmaması barədə soruşulur və dəyişikliyin məhz nədən ibarət olması aydınlaşdırılır. Əgər müəyyən dəyişiklik varsa və istintaq hərəkətinin həyata keçirilməsində müəyyən əhəmiyyət kəsb edirsə mövcud şərait protokolda qeyd edilməlidir və bundan sonra dindirilən şəxsə hadisə zamanı ayrı-ayrı obyektlərin vəziyyətini bərpa etmək təklif olunur. İlkin vəziyyətin fotoşəkli çəkilir və protokolda bu barədə lazımi qeydlər aparılır.

Bu hərəkətləri həyata keçirdikdən sonra müstəntiq hadisə yerinə baxış protokolu ilə tutuşdurur. Hadisə yerinə baxış zamanı bu və ya digər hallar səthi əks olunubsa, ona ifadələrin yerində yoxlanılması zamanı göstərilən hallar təkcə ətraflı təsdiq edilməli və ifadələrin yerində yoxlanılması protokolunda ətraflı təsvir olunmalıdır.

Törədilmiş cinayətdən asılı olaraq iş üzrə bir-neçə təqsirləndirilən şəxs və ya şahid varsa və onların ifadələrinin yerində yoxlanılması zərurəti yaranıbsa, onda bu istintaq hərəkəti onların hər biri ilə ayrı-ayrılıqda aparılmalıdır. Dindirilmiş şəxsin onun göstərdiyi obyektlər üzrə müxtəlif faktiki hallarla bərabər, göstərmədiyi digər hallara da fikir verilməlidir. Müstəntiq istintaq hərəkəti

zamanı dindirilən şəxsə axıradək qulaq asmalı, sözünü kəsməməli və irad tutmamalıdır. Unutmaq olmaz ki, dindirilən şəxsin ifadələri yoxlanılarkən o təkcə aktiv fəaliyyət göstərmir, həm də gərgin psixoloji hiss keçirir. Ona görə də bu istintaq hərəkətinin həyata keçirilən zaman «sərbəst danışıq» taktiki üsuluna ciddi riayət olunması məqsədə müvafiqdir.

İstintaq təcrübəsində elə hallara rast gəlinir ki, dindirilən şəxsin ifadəsi real şəraitdə və həmin yerdə verdiyi izahatlara uyğun gəlmir. Belə hallara rast gəldikdə müstəntiq dindirilən şəxsin diqqətni buna yönəltməli və bu uyğunsuzluqların səbəbini aydınlaşdırmağı təklif etməlidir. Əgər dindirilən şəxs öz ifadəsinin düzgünlüyünü inkar etmirsə, onda müstəntiq ifadələrin yerində yoxlanılmasını davam etdirməli və yaxud əksinə, dindirilən şəxs etdiy ini bildirirsə ifadələrin yalan olduğunu və öz əvvəlki ifadəsindən imtina edir, onda təkrar dindirmə aparmaq və bunu müvafin protokolda rəsmiləşdirmək lazımdır.

İfadələrin yerində yoxlanılması protokolunda isə qeyd etmək lazımdır ki, dindirilən şəxs yoxlanılan hadisənin şəraitini və yerini göstərə bilmədi və əvvəlki ifadəsindən imtina etdi.

İstintaq təcrübəsi göstərir ki, bəzən ifadələrin yerində yoxlanılması zamanı dindirilən şəxs istintaqa məlum olmayan yeni bir sahə göstərir və orada isə maddi izlər aşkar edilir. Belə hallarda müstəntiq istintaq hərəkətini dayandırıb, həmin tərkibdə hadisə yerinə baxış istintaq hərəkətini həyata keçirməli və bu barədə protokol tərtib etməlidir. Bu hərəkətlər həyata keçirildikdən sonra isə ifadələrin yerində yoxlanılmasına davam etdirilir.

## *SUAL 3. İfadələrin yerində yoxlanılmasının nəticələrinin rəsmiləşdirilməsi.*

İfadələrin yerində yoxlanılmasının nəticələrinin rəsmiləşdirilməsi, bu istintaq hərəkətinin tərkib elementlərindən biri olub, onun sonuncü mərhələsini təşkil edir.

İfadələrin yerində yoxlanılması qurtardıqdan sonra müstəntiq Azərbaycan Respublikası CPM-nin 261-ci maddəsinə müvafiq olaraq protokol tərtib edir.

İfadələrin yerində yoxlanılması protokolunda ifadələrin yerində yoxlanılmasının bütün halları əvvəldən axıradək tam və dəqiq əks olunmalıdır. Əks təqdirdə yoxlanılmanın nəticələrini obyektiv qiymətləndirmək çətinlik törədir. Ona görə də protokol bir qayda olaraq ifadələrin yerində yoxlanılması prosesində yazılmalıdır.

İfadələrin yerində yoxlanılması protokolü 3 hissədən ibarətdir: giriş, təsvir, nəticə.

Giriş hissədə bu istintaq hərəkətinin aparıldığı tarix, yer, müstəntiqin soyadı, adı, atasının adı, vəzifəsi,iştirak edən digər şəxslərin (müdafiəçilərin, tərcüməçilərin, mütəxəssislərin, qanuni nümayəndələrin, müəllimlərin, həkimlərin və s.) soyadı, adı və atasının adı, habelə onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer, ifadələri yoxlanılan şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer, ifadələri yerində yoxlanılan şxsə və digər iştirakçılara onların hüquq və vəzifələrinin izah edilməsi barədə qeydlər aparılır.əgər bu istintaq hərəkəti şahid və zərərçəkmiş şəxslərin iştirakı ilə həyata keçirilirsə, onda onlar bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşımaları barədə (Azərbaycan Respublikası CM-nin 296-cı maddəsi) xəbərdar edirlər.

Protokolun təsvir hissəsində bu istintaq hərəkətinin həyata keçirilməsi prosesi, yəni proses iştirakçılarının hansı istiqamətdə hərəkət etmələri, dindirilən şəxsin izahatları, ona verilən suallar, orada olan əşyalarvə s. ətraflı şərh edilir və ifadələrin yerində yoxlanılmasının nəticələri qeyd edilir.

İfadələrin yerində yoxlanılması zamanı izlərin, yaxud əşyaların aşkar edilməsi qeydə alınaraq rəsmiləşdirilməsi prosesində istifadə olunan elmi-texniki vasitələr də protokolda göstərilir.

İfadələrin yerində yoxlanılması protokolu ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan bu istintaq hərəkətinin bütün iştirakçıları tərəfindən imzalanır. Protokol bir-neçə səhifədə tərtib edildikdə onun hər birvərəqi göstərilən istintaq hərəkətinin iştirakçıları tərəfindən ayrıca imzalanır.

CPM-nin 261.3-cü maddəsində qeyd olunur ki, ifadələrin yerində yoxlanılması zamanı foto, video və kino çəkilişindən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq yazılar, foto şəkillər, çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları da protokola əlavə olunur.

***Plan və sxemlərin tərtib edilməsi***

İfadələrin yerində yoxlanılması prosesini əyani şəkildə təsvir etmək məqsədi ilə plan və sxemlər tərtib olunur.

Bu istintaq hərəkətinin həyata keçirildiyi yerlərin və binaların miqyas planının və sxeminin tərtib edilməsi daha məqsədəuyğundur.

Plan və sxemdə istintaq hərəkətinin keçirildiyi yerdə yerləşən obyektlər, iştirakçıların gediş istiqamətləri,

marşrutları, dayanma məntəqələri, həmçinin istintaq üçün əhəmiyyət kəsb edən digər məlumatlar əks olunur.

Sxemlərin tərtib edilməsi zamanı əgər iştirakçılar uzun məsafəni qət ediblərsə, onda sxemə həmin məsafə yerləşən bütün obyektlərin əks olunması vacib deyil. Sadəcə olaraq mühüm əhəmiyyət kəsb edən yerləri sxemdə əks etdirməklə kifayətlənmək olar.

Həmçinin tərtib edilmiş sxemdə məntəqələr arasında məsafəni, döngələrin əyilmə bucaqlarını da göstərmək olar.

Əgər istintaq hərəkəti böyük ərazidə keçirilirsə onda 3 ayrıca sxemin tərtib olunması vacibdir. 1-ci sxemdə istintaq hərəkətinin keçirildiyi yerə gəlmə marşurutu, 2-ci bilavasitə yer, 3-cə isə getmə marşurutu əks olunur.

Əgər müstəntiqdə topoqrafik xəritə varsa, həmin xəritənin sürətini çıxarır, onda iştirakçıların hərəkət istiqaməti oxla, ifadəsi yoxlanılan şəxsin dayanma yerlərini və orada göstərdikləri obyektləri dairə ilə qeyd etmək lazımdır.

Əgər eyni yerdə bir-neçə şəxsin ifadələrinin yoxlanılması keçirilirsə, onda hər dəfə ayrıca plan və sxem tərtib olunur.

Plan və sxem ifadələrin yerində yoxlanılan şəxs, müstəntiq tərəfindən imzalanır və protokola əlavə edilir.

İfadələrin yerində yoxlanılması prosesində foto, kino çəkilişin və video yazının tətbiq edilməsi.

İfadələrin yerində yoxlanılması zamanı aşağıda göstərilən tövsiyyələrin nəzərə alınması məqsədəuyğundur:

- foto-şəkilçəkmə vasitəsi ilə istintaq hərəkəti iştirakçılarının hərəkət istiqaməti, onların bir-birinə münasibətdə yerləşməsini əyani şəkildə əks etdirmək;

- ifadələri yerində yoxlanılan şəxsin göstərdikləri obyektlərin, sahələrin ümumi və ayrı-ayrı fraqmentləri geniş və detal şəkildə əks etdirilməsi;
- ifadələri yerində yoxlanılan şəxsin ayrı-ayrı hərəkətlərinin əks etdirilməsi;
- foto şəkillər foto - cədvələ yapışdırılır və hər bir şəklə müvafiq olaraq lazımi qeydiyyatlar aparılır.

Foto-şəkil çəkmə zamanı təqsirləndirilən şəxslə bir yerdə polis əməkdaşlarının əks etdirilməsi məsləhət görülmür. İfadələrin yerində yoxlanılması prosesində bir-neçə şəxs tərəfindən göstərilən obyektlərin eyni nöqtədən əks olunması məqsədəuyğundur.

İfadələrin yerində yoxlanılması videoçəkilişdən və səsyazmadan da istifadə olunur.Videoyazını və səsyazmanı tətbiq etməzdən əvvəl bütün içtirakçılar bu barədə xəbərbarlıq edilir.

İstintaq hərəkətinə başlamazdan əvvəl bütün iştirakçılar, həmçinin hərəkətin başlanğıc yerinin bütün şəraiti geniş planda götürülərək əks olunur. Əgər hadisə yerinə gedən hərəkət marşrutu cinayət hadisəsi üçün əhəmiyyət kəsb edərsə, onda videoçəkiliş zamanı marşrutu ətraf mühitlə bir yerdə əks etmək lazımdır. İfadələri yoxlanılan şəxs hadisə yerində cinayət hadisəsi ilə bağlı öz hərəkətlərini nümayiş etdirirsə, onun hərəkətləri əvvəldən axıra qədər əks olunmalıdır.

İfadəsi yoxlanılan şəxs hadisə yerində müəyyən əşyaları axtarırsa onda videoçəkiliş zamanı həmin yerin ümumi şəraiti, sonra isə konkret yer əks olunur.

Videoçəkiliş başa çatdıqdan sonra istintaq hərəkətinin iştirakçılarına nümayiş olunur və bu barədə protokolda qeydlər aparılır.

## Mövzu № 18.

### *«İstintaq eksperimenti taktikası»*

PLAN:

1.İstintaq eksperimentinin anlayışı, növləri və əhəmiyyəti.
2.İstintaq eksperimentinə hazırlıq və keçirilməsinin taktiki üsulları.
3.İstintaq eksperimenti nəticələrinin rəsmiləşdirilməsi və qiymətləndirilməsi.

.

### *SUAL 1. İstintaq eksperimentnini anlayışı, növləri və əhəmiyyəti.*

Cinayətlərin istintaqı zamanı bu və ya digər halın mümkün olub-olmamasını yoxlamaq məqsədilə istintaq eksperimenti keçirilir. İstintaq eksperimentin nəticələrinin sübutu əhəmiyyəti barədə Azərbaycan Respublikasının CPM-nin 282-ci maddəsi ilə tənzimlənir. Maddədə qeyd olunur ki, cinayət təqibi üçün əhəmiyyətli olan təcrübə və digər tədqiqat hərəkətlərinin aparılması şərti ilə araşdırıla biləcək məlumatların yoxlanılması və dəqiqləşdiriməsi məqsədi ilə müstəntiq istintaq eksperimenti apara bilər.

Maddənin məzmunundan göründüyü kimi istintaq eksperimenti hadisənin baş vermə şəraitini və vəziyyətini yenidən yaratmaqdan ibarətdiir. Bundan başqa maddədə bu istintaq hərəkətinin aparılmasının prosessual qaydaları da ətraflı əks etdirilmişdir.

**Birincisi,** istintaq eksperimenti yalnız cinayət işi başlanması haqda qərar qəbul edildikdən sonra aparılır.

**İkincisi,** istintaq eksperimentinin aparılması məcburi deyildir, yalnız zəruri hallarda müstəntiqin mülahizəsindən asılı olaraq aparıla bilər. Bu zaman o, sərəncamında olan bütün materialların tam, obyektiv və hərtərəfli təhlilini verməli, bu və ya digər halın başqa istintaq hərəkətləri vasitəsilə aydınlaşdırılmasının qeyri-mümkünlüyünü yəqin etdikdən sonra istintaq eksperimenti aparılması qərarına gəlməlidir.

**Üçüncüsü,** istintaq eksperimentinin aparılması üçün əsaslı qərar çıxarılması tələb olunur. Kriminalistik ədəbiyyatda da bu məsələyə müxtəlif yanaşmalar mövcuddur. Belə ki, bir qrup müəlliflər istintaq eksperimentinin aparılması üçün qərar çıxarılmasının zəruri olması, digər qrup müəlliflər isə qərar çıxarılmasına ehtiyac olmadığını göstərirlər.

**Dördüncüsü,** yoxlanılan haldan, faktdan asılı eksperimentin aparılacağı yeri müstəntiq özü müəyyən edir.

**Beşincisi,** bu istintaq hərəkəti iştirakçıların çoxluğu ilə xarakterizə olunur.

**Altıncısı,** eksperiment təcrübələrin aparılmasına o vaxt yol verilir ki, eksperiment iştirakçılarının şərəf və ləyaqəti alçaldılmasın və həmin təcrübənin aparılması onların səhhəti üçün təhlükəli olmasın.

**Yeddincisi,** 282-ci maddənin məzmunundan göründüyü kimi eksperimentin nəticələri müxtəlif üsullarla rəsmiləşdirilə bilər.

İstintaq eksperimentinin aparılmasına dair kriminalistik ədəbiyyatın təhlili də göstərir ki, əksər müəlliflər bu mövqedən çıxış edirlər. Lakin onu da qeyd etmək lazımdır ki, hadisənin baş vermə şəraitinin və vəziyyətinin «yenidən yaratma» şərti qəbul edilir. Belə ki, bu və ya digər faktı, halı yenidən bərpa etmək və yenidən canlandırmsa, yenidən eyni faktın, halın alınması deməkdir. Lakin dialektin materializmin tələblərindən biri də odur ki. maddi aləmdə iki eyni faktın, halın mövcudluğu mümkün deyil.

Beləliklə, istintaq eksperimenti prosessual istintaq hərəkəti olub, müstəntiq tərəfindən tədqiq edilən hadisəyə maksimum dərəcədə yaxınlaşdırılmış, xüsusi yaradılmış şəraitdə təcrübələrin aparılmasından ibarətdir.

Hüquq ədəbiyyatında mübahisəli məsələlərdən biri də istintaq eksperimentinin məqsədi ilə əlaqədardır. Belə ki, əksər müəlliflər qeyd edirlər ki, istintaq eksperimentinin əsas məqsədi iş üzrə toplanmış sübutları yoxlamaqdan ibarətdir. Digər müəlliflər isə istintaq eksperimentinin keçirilməsinin məqsədini yeni sübutlar əldə etməkdən ibarət olduğunu göstərirlər. Qeyd etmək lazımdır ki, istintaq eksperimentinin məqsədini məhz işdə olan materialları yoxlamaqla məhdudlaşdırmaq olmaz. İstintaq eksperimentinin məqsədinə aiddir: iş üzrə toplanmış sübutların yoxlanılması, istintaq fərziyyələrinin yoxlanılması və qiymətləndirilməsi, cinayətin baş verməsinə kömək edən səbəb və şəraitin müəyyənləşdirilməsi, yeni sübutların əldə edilməsi, iş üçün əhəmiyyəti olan məlumatların dəqiqləşdirilməsi.

İstintaq eksperimentindən iş üzrə toplanmış sübutların yoxlanılması üsulu kimi ibtidai istintaqda geniş istifadə edilir.

Sübutlar aşağıdakı üsullarla yoxlanıla bilər: işin materialları ilə müqayisə edilməsi, təqsirləndirilən şəxsin, şahidin, ifadələri təcrübə yolu ilə də yoxlanıla bilər. Bu istintaq eksperimenti vasitəsilə həyata keçirilir.

Sübutların eksperiment yolu ilə yoxlanılması konkret şəraitdə bu faktın mümkün olub-olmamasını təcrübə yolu ilə aydınlaşdırmaq deməkdir. İstintaq təcrübəsinə müraciət edək:

Bakı şəhəri, Fəhlə prospektində VAZ-2101markalı avtomaşını idarə edən sürücü «F» zərərçəkmiş «D»-ni vurmuş, nəticədə həmin şəxs hadisə yerində keçinmişdir . Bakı şəhər prokurorluğunun müstəntiqi avtomobilin sürətini və şahid «S»-nin avtomaşınların sürətini nə dərəcədə qavramasını aydınlaşdırmaq məqsədilə istintaq eksperimenti keçirmişdir.

İstintaq eksperimenti cinayətin baş verdiyi şəraitə maksimum dərəcədə yaxınlaşdırılaraq cinayət yerində eyni markalı avtomaşından istifadə edilməsilə keçirilmişdir.

Eksperiment nəticəsində avtomobilin sürəti müəyyənləşdirilmiş və sürücü «F»-nin təqsirliyi barədə sübutlar əldə edilmişdir.

İstintaq eksperimentinin əsas məqsədlərindən biri də istintaq fərziyyələrinin yoxlanılması və qiymətləndirilməsidir. İstintaq eksperimentinin bu məqsədini R.S.Belkin və digər müəlliflər irəli sürürlər.

N.İ.Tinovskaya haqlı olaraq yazır ki, fərziyyələrin hər bir halda həmişə sübutların yoxlanılmasına gətirib çıxarır ona görə də fərziyyələrin yoxlanılması istintaq eksperimentinin müstəqil məqsədi kimi ayırmaq düzgün deyildir.

N.İ.Tinovskaya fikrini bununla izah edir ki, bu istintaq hərəkətinin məqsədi sübutların toplanması və

yoxlanılmasından ibarət olduğu üçün həm də fərziyələrin yoxlanılması vasitəsidir.

İstintaq eksperimenti habelə sübutlar əldə edilməsi üçün vasitədir. Hüquq ədəbiyyatında bu barədə də müxtəlif fikirlər mövcuddur. Belə ki, bəzi müəlliflər qeyd edirlər ki, istintaq eksperimenti sübutlar əldə etmək üçün bir vasitə ola bilməz. Əlbəttə bu fikirlə razılaşmaq olmaz. Çünki istintaq eksperimentinin müstəqil istintaq hərəkəti kimi əhəmiyyətini azaldır.

Cinayət prosesində istintaq hərəkətləri sübutlar əldə edilməsi vasitəsi kimi qiymətləndirilir. Ona görə də istintaq eksperimenti də sübutlar əldə edilməsində bir vasitədir və bu mənada onu digər istintaq hərəkətlərindən fərqləndirmək lazım deyil.

İstintaq eksperimenti kriminalistika elminin xüsusi bir metodu kimi cinayətkarlıqla mübarizədə bir vasitədir. İstintaq eksperimentinin aşağıdakı növləri var:

1. Eşitmək imkanını yoxlamaq məqsədilə keçirilən istintaq eksperimenti;
2. Görmək imkanını yoxlamaq məqsədilə keçirilən eksperiment;
3. Hər-hansı hərəkət etmək imkanını yoxlamaq məqsədilə keçirilən istintaq eksperimenti;
4. Müəyyən vaxt ərzində hər-hansı hərəkət etmək imkanını yoxlamaq məqsədilə keçirilən istintaq eksperimenti;
5. Konkret şəxsin xüsusi və professional vərdişlərini yoxlamaq üçün keçirilən istintaq eksperimenti;
6. Hadisənin və ya onun ayrı-ayrı hallarının necə baş verməsini yoxlamaq üçün keçirilən istintaq eksperimenti.

R.S.Belkin qeyd edir ki, istintaq eksperimentinin növlərinin təsnifatı onun məqsədindən

asılı olaraq verilməlidir. O, istintaq eksperimentinin aşağıdakı növlərini fərqləndirir:

1. Hər-hansı faktın, halın müşahidəsi, qavranılması, imkanının müəyyən edilməsi məqsdilə keçirilən istintaq eksperimenti;
2. Hər-hansı hərəkətin həyata keçirilməsi siqnalının mümkünlüyünün müəyyən edilməsi məqsədilə keçirilən istintaq eksperimenti;
3. Hər-hansı halın mümkün olub-olmasını müəyyən etmək məqsdilə keçirilən istintaq eksperimenti;
4. Müəyyən hadisənin mexanizmininaa detallarının müəyyən edilməsi məqsdilə keçirilən istintaq eksperimenti;
5. İstintaq prosesində aşkar edilmiş izlərin yaranma prosesini müəyyən etmək məqsdilə keçirilən istintaq eksperimenti.

Beləliklə, istintaq eksperimentinin növləri barədə kriminalistik ədəbiyyatın təhlili göstərir ki, bu məsələyə ayrı-ayrı müəlliflər müxtəlif məqsədlərdən yanaşsalar da mahiyyət etibarilə onlar arasında elə bir ciddi fərq yoxdur. Ona görə də istintaq eksperimentinin növlərini 4 qrupa ayırmq olar:

1. Hər-hansı faktın, halın müşahidə edilməklə qavranılması imkanının mümkünlüyünü yoxlamaq məqsdilə keçirilən istintaq eksperimenti;
2. Hər-hansı hərəkətin həyata keçirilməsi imkanının mümkünlüyünü yoxlamaq məqsdilə keçirilən istintaq eksperimenti;
3. Hər-hansı halın mümkün olub-olmamasını yoxlamaq məqsədilə həyata keçirilən istintaq eksperimenti;
4. Müəyyən hadisənin mexanizminin ayrı-ayrı detallarının müəyyən edilməsi məqsdilə keçirilən istintaq eksperimenti.

Hər-hansı faktın, halın müşahidə edilməklə qavranılması imkanının mümkünlüyünü yoxlamaq məqsdilə keçirilən istintaq eksperimenti ən çox yayılmış növlərindəndir. Bu növ eksperimetə konkret şəraitdə bu və ya digər obyektləri görmək, müxtəlif səmləri eşitmək, müəyyən söhbəti qavramaq və s. aiddir.

Hər-hansı hərəkətin həyata keçirilməsi imkanının mümkünlüyünü yoxlamaq məqsdilə keçirilən istintaq eksperimenti zamanı müəyyən şəraitdə,müəyyən üsulla hər-hansı binaya girmə imkanı, müəyyən müddət ərzində hər-hansı predmetin müəyən yerdən aparılması imkanı və s. aydınlaşdırır.

Sürücü «D» texniki cəhətdən saz olan VAZ-21-1 markalı avtomaşını 40-50 km sürətlə idarə edərək R.Behbudov küçəsi ilə Bakıxanov küçəsinə doğru hərəkət etdiyi zaman yolu sağdan sola keçən piyadanı görmüş və avtomaşını tormozlayaraq sağa vermişdir. Lakin buna baxmayaraq piyada iri addım ataraq keçid hissəsindən sürətlə keçmək istərkən avtomaşının qabaq sol hissəsi ilə vurulmuşdur.

Piyadanın keçdiyi yolu və həmin yolu qət etmə vaxtını müəyyən etmək məqsədilə istintaq eksperimenti keçirilmişdir. Eksperiment zamanı müəyyən edilmişdir ki, piyadanın keçdiyi yol 1,9m; qət etmə vaxtı 1,1; 1,2; 1,3 saniyədir.

Eksperiment 3 dəfə təkrar edilmiş və 1,9m məsafənin 1,1 saniyədə qət edilməsi mümkünlüyü aydınlaşdırılmışdır.

Hər-hansı halın (məsələn: hər-hansı konkret şəraitə müəyyən maddələrin özü-özünə alışa bilməsi və s.) mümkün olub-olmamasının yoxlanılması istintaq eksperimenti vasitəsilə həyata keçirilir.

Müəyyən hadisənin mexanizminin, ayrı-ayrı detalların müəyyən edilməsi məqsdilə keçirilən istintaq

eksperiment zamanı hadisənin gedişi aydınlaşdırır, onun məhz hansı qaydada baş verə bilməsi yoxlanılır, başqa sözlə onun şahid, şübhəli şəxs və təqsirləndirilən şəxsin ifadəsində verildiyi kimi olub-olmaması aydınlaşdırılır.

Hüquq ədəbiyyatında istintaq eksperimentinin məhkəmə və istintaq eksperimentinə bölməklə də fərqləndirirlər. S.Suxova haqlı olaraq qeyd edir ki, belə bir bölgünün heç bir əhəmiyyəti yoxdur, çünki hər iki ekspertimentin həyata keçirilməsi taktikası eynidir. Onlar arasında prinsipial fərq yoxdur.

Daha sonra istintaq eksperimentinin aparılma ardıcıllığına görə ilkin və təkrar, aparılma həcminə görə ilkin və təkrar, aparılma həcminə görə isə əsas və əlavə eksperimentə ayrırırlar.

Ümumiyyətlə, eksperimentin növlərinin təsnifatını verərkən ilk növbədə onun məqsədi nəzərə alınmalıdır. Əksər kriminalistlər də bu mövqedən çıxış edirlər. Bununla əlaqədar olaraq bütün eksperimentləri iki yerə bölürlər:

1. İş üçün əhəmiyyətli olan məlumatların yoxlanılması məqsədilə keçirilən eksperiment;
2. Onların dəqiqləşdirilməsi məqsədilə keçirilən eksperiment.

İndi isə istintaq eksperimenti ilə digər istintaq hərəkətlərinin (istintaq baxışının, ifadələrin yerində yoxlanılmasının və tanınma üçün təqdim etmənin və s.) fərqini nəzərdən keçirək.

İstintaq baxışı dedikdə, iş üçün əhəmiyyətli olan obyektlərin bilavasitə aşkar edilməsi, rəsmiləşdirilməsi, eləcədə onların əlamətləri və vəziyyətlərinin öyrənilməsi başa düşülür. Öz təbiəti etibarilə baxış istintaq eksperimentinə oxşayır. Onların oxşarlığı ondan ibarətdir ki, müayinə və istintaq eksperimenti zamanı müstəntiq bilavasitə bu və ya digər obyektləri, halları qavrayır. Lakin

bu istintaq hərəkətlərini bir-birindən fərqləndirən cəhətlər də vardır. Belə ki, istintaq eksperimenti gedişində biz hadisələri baxışda olduğu kimi (onun izlərinə, əkslərinə görə) yaranma, düzəlmə və dəyişmə prosesində görürük. Baxış zamanı biz təkcə hadisənin nəticəsini, istintaq eksperimentində isə həm hadisəni, həm də onun nəticəsini qavrayır. Müstəntiq baxış apardığı yerdə baş vermiş hadisəni gözü ilə görmür. Eksperimentdə isə müstəntiq baş verən hadisəni, təcrübəni gözü ilə görür.

Baxış zamanı müstəntiq hadisə yerində aşkar etdiyi obyektləri olduğu vəziyyətdə tədqiq edir. Eksperimentdə isə obyektlər, hallar öz əksləri ilə eyni olmur.

Prosessual cəhətdən baxış ilə eksperimentin rəsmiləşdirilməsi çox oxşar olsa da, hər halda onlar fərqlənirlər. Belə ki, istintaq eksperimenti protokolun məzmununu aparılmış təcrübənin nəticələrinin rəsmiləşdirilməsi təşkil edir. İstintaq baxışı protokolunda isə baxışın hansı üsullarla aparılması göstərilir.

İstintaq eksperimenti ilə ifadələrin yerində yoxlanılması da bir-birindən fərqlənir.

İstintaq eksperimenti ilə tanınma üçün təqdimetmə zahiri cəhətdən bir-birinə çox oxşayırlar.

Bəzi halalrda hər-hansı faktın, halın müşahidə edilməsi, qavranılması imkanlarını müəyyən etmək məqsədilə keçirilən eksperiment səsə görə tanınma üçün təqdimetmə ilə qarşılaşdırılır. Lakin bunlar bir-birindən fərqlənir. Belə ki, səsə görə tanınma üçün təqdimetmə zamanı tanıyan şəxs səsə görə eyniləşdirmə aparılır.İstintaq eksperimentində isə müəyyən şəraitdə səsin eşidilib-eşidilməməsi imkanı yoxlanılır. İstintaq eksperimenti ilə ekspertizanın fərqini nəzərdən keçirək.

İstintaq eksperimenti ekspertizadan aşağıdakı əlamətlərə görə fərqlənir. Əvvəla, eksperimentin

aparılması üçün xüsusi bilik tələb olunmur. Ekspertiza isə yalnız biliyə malik olan şəxs ekspert tərəfindən aparıla bilər (Azərbaycan Respublikası CPM-nin 264-cü maddəsi).

Ekspertizanın aparılması üçün mütləq müstənti qərar çıxarmalıdır. Eksperiment üçün isə belə bir qərarın çıxarılması tələb olunmur. Ekspertiza bir qayda olaraq yalnız ekspert idarələrində aparılmalıdır. Eksperiment isə müstəntiqin mülahizəsindən asılı olaraq istənilən yerdə aparıla bilər.

Əgər ekspertiza zamanı təcrübələr aparılarsa, bu həmin tədqiqatın bir mərhələsini əhatə edir.

Eksperiment zamanı aparılan təcrübələri isə bu istintaq hərəkətinin əsas məzmununu təşkil edir. Eksperimentin nəticələri protokolda əks etdirilir və təcrübənin aparılması prosesi müvafiq ardıcılılqla əks edilsə də onun nəticələri müstəntiq tərəfindən qiymətləndirilmir. Ekspert tədqiqatının nəticələri isə ekspert rəyində əks etdirilir və bu zaman tədqiqatın bütün mərhələləri və onun nəticələri təsvir olunur. Həmçinin müəyyən edilmiş faktların elmi izahı verilir. Başqa sözlə, ekspert apardığı tədqiqatın nəticələrini bütün hallarda qiymətləndirməlidir.

Azərbaycan Respublikası CPM-nin 262.3-cü maddəsində qeyd olunur ki, müstəntiqin dəvəti ilə istintaq eksperimentinin aparılmasına mütəxəssis, müəllim, həkim və digər şəxslər iştirak edirlər.

Bəzi istintaq eksperimentinin keçirilməsi üçün müstəntiq tərəfindən mütəxəssis də dəvət edilə bilər. Bu zaman onun əsas vəzifəsi bir mütəxəssis kimi müstəntiqə bu və ya digər məsələyə dair məsləhət verməkdən ibarətdir.

İstintaq eksperimentinin təşkilatçısı və rəhbəri müstəntiqdir. O, eksperimentlə əlaqədar bütün hazırlıq

hərəkətlərini həyata keçirir, təcrübənin həyata keçirilməsini planlaşdırır və nəhayət, müstəntiq öz eksperimentinin nəticələrinin müşahidəçisi olur.

Müstəntiq eksperimentdə iştirak edəcək mütəxəssislərin sayını və ixtisasını eləcədə istintaq eksperimentinin digər iştirakçılarının dairəsini müəyyənləşdirir.

Bəzi mürəkkəb hallarda istintaq eksperimentinin keçirilməsi zamanı prokuror da iştirak edə bilər. Prokuror istintaq eksperimentinin keçirilməsi ilə əlaqədar göstərişlər verə, eksperimenti özü apara, təkrar eksperiment keçirilərkən bir müstəntiqi digəri ilə əvəz edə bilər.

Mütəxəssis müstəntiqə təcrübənin hazırlanmasında zəruri materialların seçilməsində, təcrübənin nəticələrinin rəsmiləşdirilməsində və s. kömək edir.

İstintaq eksperimentində şahidlər – hadisəni gözü ilə görənlər və zərərçəkmiş şəxslər də iştirak edə bilərlər. Onlar hadisənin şəraitini düzgün bərpa etmək üçün müstəntiqə kömək edirlər.

Bunun üçün təcrübənin ayrıca detalları başqa məlumatlarla kifayətlənmək məqsədə müvafiqdir. Məsələn: eşitmək imkanını aydınlaşdırmaq üçün zəruri deyildir ki, eksperiment iştirakçıları hansı sözü eşidəcəklərini və nə vaxt eşidəcəklərini əvvəlcədən bilsinlər. Hər hansı hərəkətin edilməsinin mümkünlüyünü yoxlayarkən iştirakçının həmin şəraitə uyğunlaşmasına nail olmaq lazımdır. Bu bir-neçə yoxlayıcı hərəkətlərin yerinə yetirilməsi ilə həyata keçirilir ki, bu zaman həmin şəxs şəraitlə tanışlıq və daxildən eksperimentə hazır olmaq imkanı qazanır. Müəyyən şəraitdən asılı olaraq təcrübənin keçirilməsi zamanı insanın imkanları azala bilər və yaxud əksinə (məsələn: qorxunun, peşmançılığın və s. təsiri nəticəsində). Ona görə də istintaq

eksperimentinin nəticələrini qiymətləndirərkən çox ehtiyyatlı olmaq və ona təsir edə biləcək şəraiti nəzərə almaq lazımdır.

### *SUAL 2. İstintaq eksperimentinə hazırlıq və keçirilməsinin taktiki üsulları.*

İstintaq eksperimentinin müvəffəqiyyəti istintaq eksperimentinə hazırlıqdan çox asılıdır. İstintaq eksperimentinə hazırlıq hərəkətlərini iki mərhələyə ayırmaq olar:

A. Eksperiment keçiriləcək yerə getməmişdən əvvəl görülən hazırlıq hərəkətləri;
B. Eksperiment keçiriləcək yerə gələndən sonra görülən hazırlıq hərəkətləri.

Eksperiment keçiriləcək yerə gəlməmişdən əvvəl görülən tədbirlərə aşağıdakılar aiddir:

1. Təcrübənin keçirilməsinin məzmunu və üsulunun müəyyən edilməsi.

   Mahiyyət etibarilə bu eksperimentin planlaşdırılmasıdır. Müstəntiq təcrübənin bütün mümkün olan variantlarını, onların hər birinin məqsədini və ardıcıllığını nəzərə almalıdır.
2. İstintaq eksperimentinin vaxtının müəyyən edilməsi.

   Bu zaman aşağıdakı məsələlər həll edilir, istintaqın hansı mərhələsində, günün hansı vaxtında (səhər, günorta, axşam) eksperimentin keçirilməsi məqsədə müvafiqdir.

   Müstəntiq eksperimenti cinayətin baş verdiyi vaxtda keçirməlidir.
3. İstintaq eksperimenti keçiriləcək yerin müəyyən edilməsi.

Bu zaman təcrübənin laboratoriyada, yaxud hər-hansı başqa yerdə (binada, sahədə vəs.) keçirilməsi məsələsi həll edilir.

4. Eksperiment iştirakçılarının dairəsinin və onların iştirakının təmin edilməsi.
5. Eksperiment keçirilən zaman zəruri olan maddi sübutların və ya onları əvəz edəcək əşyaların hazırlanması.
6. İstifadə ediləcək elmi-texniki vasitələrin sazlığının, yoxlanılması və nəqliyyat vasitələrinin hazırlanması.

İstintaq eksperimentinin keçirilməsi zamanı foto-video çəkilişdən geniş istifadə edilməlidir. Onun köməyilə eksperimentin ümumi görünüşü və ayrı-ayrı mərhələləri və s. əks etdirilir.

Foto aparatdan başqa müstəntiqin istifadəsində plan və sxem tərtib etmək üçün ölçücü alətlər də olmalıdır. Bundan başqa optik cihazlar da tələb oluna bilər. Məsələn: binokl, güzgü, işıqlandırıcı qurğular, küləyin istiqamətni və gücünü müəyyən edən cihaz və s.

Eksperiment keçiriləcək yerə gələndən sonra müstəntiq eksperimentə başlamazdan əvvəl aşağıdakıları aydınlaşdırmalıdır:

Şəraitin dəyişib-dəyişməməsi;

Eksperiment iştirakçıları arasında siqnal və əlaqə.

Bundan savayı:

1. İştirakçıları dəvət edir (əgər onlar gəlməyibsə);
2. Eksperiment iştirakçılarını təlimatlandırır.

Eksperiment iştirakçılarının təlimatlandırılması məsələsinə xüsusilə fikir vermək lazımdır. Eksperiment iştirakçılarının hər biri dəqiq bilməlidir ki, təcrübə keçirilən zaman onlar harada olmalıdırlar.

3. Müstəntiq eksperiment keçirilən yerə kənar şəxslərin gəlməməsi üçün onun mühafizəsini təşkil edir.

Eksperiment iştirakçılarının, hal şahidlərini, zərərçəkmişləri və eksperimentin digər iştirakçılarını eksperimentin məzmunu və nəticələrinin yayılması barədə xəbərdar edir.

Bütün hazırlıq hərəkətləri öz əksini istintaq eksperimenti planında tapmalıdır.

İştirakçıları çox olan və müxtəlif təcrübələr keçirilməsi nəzərdə tutulan mürəkkəb eksperimentlərin planlarının yazılı surətdə tərtib edilməsi daha məqsədə müvafiqdir.

İstintaq eksperimentinin növündən, məzmunundan, mürəkkəbliyindən asılı olmayaraq onun həyata keçirilməsinin ümumi taktiki şərtləri vardır. Bütün hallarda həmin şərtlər CPM-nin tələblərinə cavab verməlidir.

İstintaq eksperimenti zamanı cinayət hadisəsinin ayrı-ayrı halları modelləşdirilir, şərait yenidən düzəldilir. Bəzən isə cinayət alətlərindən və yaxud onları əvəz edən əşyaların istifadə edilir. Ona görə də istintaq eksperimentinin keçirilməsi zamanı eksperimentin iştirakçılarına zərər vurulması, onların qanuni hüquq və mənafelərinin pozulması təhlükəsi meydana çıxa bilər. Bu barədə Azərbaycan Respublikası CPM-nin 262-ci maddəsində qeyd edilmişdir: *«İstintaq eksperimentinin aparılmasına insanların həyatı və sağlamlığı üçün təhlükə yaranmadıqda, şərəf və ləyaqəti alçalmadıqda, onlara maddi zərər vurulmadıqda yol verilir».*

Ona görə də istintaq eksperimentinin həyata keçirilməsini müstəntiq planlaşdırarkən mütləq cinayətin baş vermə şəraitini, həyata keçiriləcək təcrübi hərəkətlərin xarakterini təhlil etməli, onların mümkün nəticələrini təsəvvürünə gətirməli, iştirakçıların dairəsini

müəyyənləşdirməli, cinayət edilərkən şahidlərin və zərərçəkmişin fiziki keyfiyyətlərini, psixi vəziyyətlərini nəzərə almalıdır.

Lakin istintaq təcrübəsində istintaq eksperimentini həyata keçirərkən qeyd edilən tələblərin pozulması hallarına təsadüf olunur. Taktiki üsul istintaqın obyektivliyini təmin etməlidir.

İstintaq eksperimenti taktikası bir sıra amillərdən – eksperimentin növlərindən, məqsədindən, aparılan təcrübənin xarakteri və mürəkkəbliyindən asılıdır. Buna baxmayaraq kriminalistika elmində işlənib hazırlanmış ümumi taktiki üsullar eksperiment prosesində əldə edilmiş nəticələrin obyektivliyini təmin edir. Kriminalistikaya dair ədəbiyyatda əsasən istintaq eksperimentinin 3 şərti qeyd edilir. R.S.Belkin 4-cü şərtin olduğunu da göstərir:

1. İstintaq eksperimentinin baş vermiş hadisəyə, fakta maksimum dərəcədə yaxınlaşdırılması;
2. Eyni təcrübənin təkrar həyata keçirilməsi;
3. Təcrübənin mərhələlərlə həyata keçirilməsi;
4. Eksperiment iştirakçılarının sayının məhdudlaşdırılması.

İstintaq eksperimentinin hadisənin baş verdiyi şəraitə maksimum dərəcədə yaxınlaşdırılması dedikdə, eksperimentin hadisənin baş verdiyi yerdə və eyni vaxtda, eyni iqlim şəraitində, uyğun tempdə aparılması və s. başa düşülür.

P.İ.Tarasov-Rodionov qeyd edir ki, cinayət həftənin hansı günündə baş veribsə, eksperimenti də o gün aparmaq lazımdır.

*İstintaq eksperimentinin tədqiq edilən hadisənin baş verdiyi şəraitə maksimum dərəcədən yaxınlaşdırmaqla keçirilməsi.* Bu taktiki üsulun tətbiqi onunla əlaqədardır ki, maksimum dərəcədə

eksperimentin şəraiti tədqiq edilən hadisənin şəraitinə yaxınlaşdırılsın.

Təhlil edilən taktiki üsul aşağıdakı hallarda tətbiq edilməyə bilər: əgər hadisə baş verən yer hazırda mövcud deyildirsə, məsələn: ev yanıbsa, boş sahədə binalar tikilibsə, eksperimentin tam aparılmasının zəruriliyi tələb olunarsa: əgər eksperimentin harada keçirilməsi onun nəticələrinə təsir etməyəcəksə (məsələn: bəzi professional vərdişlərin yoxlanılması zamanı).

Eksperimentin aparılması üçün iqlim şəraitinin düzgün seçilməsinin də böyük əhəmiyyəti vardır. Belə ki, iqlim şəraiti (havanın isti-soyuqluğu, nəmliyi, küləkliliyi, tutqunluğu və s.) bəzi hallarda eksperimentin nəticələrinə təsir göstərir.

*Təcrübənin süni işıqlandırma şəraitində hadisə baş verərkən mövcud olan şəraitə uyğun olaraq keçirilməsi.* Bu taktiki üsul görmə şəraitinin uyğunluğunu təmin etməkdən ibarətdir. Belə hallarda eksperimentin həyata keçirilməsi prosesində hadisə baş verərkən hansı süni işıq mənbələrindən və necə istifadə edilməsi müəyyənləşdirilir.

*Təcrübənin həyata keçirilməsi üçün şəraitin yenidən düzəldilməsi.* Şəraitin yenidən düzəldilməsi o halllarda zəruridir ki, təcrübənin həyata keçirilməsi cinayətin baş verdiyi şəraitə maksimum dərəcədə yaxınlaşdırılsın.

Şəraitin yenidən düzəldilməsi dedikdə, eksperiment keçiriləcək yerdə əşyaların (həmin, yaxud onları əvəz edən) hadisə baş verən zaman olduğu vəziyyətdə yenidən düzəldilməsi başa düşülür. Şəraiti yenidən düzəltməklə biz hələ heç bir təcrübə aparmırıq, yalnız həmin təcrübənin aparılması üçün şərait yaradırıq, başqa sözlə əsl şəraitə maksimum dərəcədə uyğun şərait yaradırıq.

Eksperiment zamanı həmin, əşyalarıdan yaxud onların əvəz edicilərindən istifadə edilməsi: şəraitin yenidən düzəldilməsi zamanı təcrübədə istifadə edilən əşyalarıdan başqa, cinayət baş verərkən istifadə edilmiş əşyalar və ya onlara oxşar əşyalar də tələb edilə bilər. Lakin bu bütün hallarda mümkün deyil. Əgər cinayət zamanı istifadə edilmiş əşyalar tədqiqata məruz qalıblarsa, onda onlardan ekspertiza keçirildikdən sonra istifadə edilməsinə yol verilir.

*Təcrübənin həyata keçirilməsi tempi ilə hadisə baş verərkən mövcud olmuş tempin uyğunluğu.* Eksperimentin keçirilməsi surəti baş vermiş hadisənin sürətilə eyni olmalı, eksperimental yolla həyata keçirilən faktorların ardıcıllığı hadisə baş verərkən mövcud olmuş surətə və ardıcıllığa maksimum dərəcədə yaxınlaşdırılmalıdır.

Səs şəraitinin (səsin xarakteri, gücü, tonu və s.) uyğunluğu, həm cinayət, həm də eksperimental hadisələr müəyyən səs şəraitində cərəyan edir. Bu eksperimentin keçirilmsəsi vaxtından, yerindən, onun məzmunundan asılıdır. Əlbətdə eksperimentin keçirilməsinin baş vermiş şəraitə maksimum dərəcədə yaxınlaşdırılması məsələsi həll edilərkən eksperimentin nəticəsi ondan asılı olduqda səs şəraitini nəzərdən qaçırmaq lazım deyildir (məsələn: əgər eksperiment müəyyən səsin eşidilib-eşidilməməsini müəyyən etmək üçün keçirilirsə).

Müstəntiq tədqiq edilən hadisə ilə eksperimentin keçirilməsi şəraitini maksimum dərəcədə bir-birinə yaxınlaşdırmağa heç də bütün hallarda nail olmur. Məsələn: eksperiment yolu ilə bu və ya digər obyektin yanma sürətini müəyyən etmək lazımdır. Lakin həmin obyekt yandığı üçün eksperimenti bilavasitə onunla həyata keçirmək mümkün deyildir. Bu zaman hadisə yerində onu əvəz etmək üçün də obyekt yoxdur. Lakin bu

o demək deyildir ki, belə hadisə üzrə eksperimenti keçirmək qeyri-mümkündur. Eksperiment keçirilir, lakin onun nəticələri qiymətləndirilərkən eksperiment arasındakı uyğunsuzluq nəzərə alınmalıdır.

Növbəti taktiki şərt istintaq eksperimentinin keçirilməsi prosesində eyni təcrübənin imkan dairəsində bir-neçə dəfə aparılmasıdır.

Eyni istintaq eksperimenti prosesində eyni təcrübənin təkrar edilməsi tədqiq edilən hadisənin daha ətraflı öyrənilməsi, eləcədə alınmış nəticələrin təsadüfi deyil, həqiqi olduğuna inam yaradır. Lakin bu taktiki şəraitin mahiyyəti həyata keçirilən təcrübənin kəmiyyət etibarilə təkrar edilməsi ilə bitmir.

Eyni təcrübəni dəyişdirilmiş şəraitdə aparmaq da zəruridir. Bu taktiki üsulu tətbiq etməklə müstəntiq şəraitin dəyişdirilməsinin eksperimentin nəticələrinə nə kimi təsir göstərdiyini aydınlaşdırır. Eləcədə dəyişdirilmiş şəraitlə də eyni nəticələrin alınması onun sübuti əhəmiyyətinə bir daha təsir edir. Məsələn: səsin eşidilməsi mümkünlüyünü yoxlamaq məqsədilə eksperiment keçirilərkən eşitmə şəraitini çətinləşdirirlər. Əgər mürəkkəb şəraitdə zəruri səsləri eşitməyə müvəffəq olarlarsa, onda eksperimentin nəticəsi daha inandırıcı təsir bağışlayır.

Eksperiment zamanı təcrübənin təkrar edilməsi ilə təkrar eksperimenti bir-birindən fərqləndirmək lazımdır.

Taktiki şərtlərdən biri də ondan ibarətdir ki, həyata keçirilən təcrübələr bir-neçə mərhələdən ibarət olaraq həyata keçirilir. Bu zaman müstəntiq hər bir mərhələni müəyyən ardıcıllıqla öyrənir.

Nəhayət, sonuncu,yəni 4-cü şərt eksperiment iştirakçılarının sayının məhdudlaşdırılmasıdır. Fikrimizcə, bunun eksperimentin müstəqil şərti kimi qəbul edilməsi məqsədə müvafiq deyildir. Belə ki, digər istintaq hərəkətlərinin yerinə yetirilməsi zamanı da bu şərt

gözlənilir. İstintaq təcrübəsi göstərir ki, yuxarıda qeyd edilən şərtlərdən hər-hansı birinə əməl edilməməsi istintaq eksperimentinin nəticələrinə mənfi təsir göstərir və eksperimentin təkrar aparılmasına səbəb olur.

Müstəntiq eksperiment iştirakçılarına öz yerlərini tutmağı təklif edir və təcrübi hərəkətlərin başlanması barədə göstəriş verir. Hərəkətlərin başlanmasından sonra şahid və təqsirləndirilən şəxs müvafiq yerlərini tuturlar. Sonra onlara müstəntiqin icazəsi ilə cinayət hadisəsi baş verərkən etdikləri hərəkətləri təkrarlamaq təklif edilir. Bir qayda olaraq təcrübi hərəkətləri müstəntqi özü yox, onun göstərişi ilə eksperiment iştirakçıları həyata keçirirlər. Bununla yanaşı, eksperiment iştirakçıları diqqətlə təcrübəni və onun nəticələrini izləyirlər. Bu zaman onlar hadisə baş verərkən bu və ya digər faktların mümkün olub-olmaması barədə qənaətə gəlirlər.

Təcrübələr ifadəsi yoxlanılan şəxslərin tələbi ilə təkrar edilə bilər. Hər bir təcrübi hərəkətin nəticəsini müstəntiq əvvəlcə öz qeyd kitabında qeyd edir. Əgər lazım gələrsə obyektlərin, yaxud eksperimenti, ayrı-ayrı hallarının foto-şəklini çəkir, protokol üçün xüsusi qeydlər edir.

### *SUAL3.İstintaq eksperimentinin nəticələrinin rəsmiləşdirilməsi.*

İstintaq eksperimentinin nəticələri barədə Azərbaycan Respublikası CPM-nin 263-cü maddəsinə müvafiq olaraq protokol tərtib edir. Tərtib edilmiş protokol prosessual sənəd olub istintaq eksperimentinin bütün nəticələrini özündə əks etdirir. İstintaq eksperimenti protokolü 3 hissədən ibarətdir: *Giriş, təsvir və nəticə.*

Protokolun **giriş hissəsində** əsasən istintaq eksperimentinin aparıldığı tarix, vaxt, yer, müstəntiqin

soyadı, adı və atasınn adı, rütbəsi, eksperimentin aparılmasında iştirak edən şəxslərin (şübhəli, təqsirləndirilən şəxsin, müdafiəçinin, şahidin, mütəxəssisin, müəllimin, həkimin və iştirak edən digər şəxslərin soyadı, adı və atasının adı, doğulduğu il, ay, gün və yer, iş yeri və ya vəzifəsi, faktiki yaşadığı və qeydiyyatda olduğu yer ), barədə istintaq eksperimenti aparan şəxsə və digər iştirakçılara, onların hüquq və vəzifələrinin izah edilməsi barədə qeyd, istintaq eksperimentinin aparılmasının xüsusiyyətləri, o cümlədən eksperiment zamanı hansı mülumatların yoxlandığı (dəqiqləşdirildiyi), habelə foto, video çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə qeydlər əks olunur.

**Təsviri hissədə** istintaq eksperimenti iştirakçılarının təcrübə zamanı bütün hərəkətləri əks etdirir: istintaq eksperimentini aparıldığı vaxt, yer, şərait; eksperiment iştirakçılarının təcrübə başlamamışdan əvvəlki vəziyyətləri, onların arasındakı əlaqə və siqnallar təsvir olunur. Təcrübənin nəticələri, sayı göstərilir. Əgər təcrübə keçirilərkən şərait dəyişdirilərsə (mürəkkəbləşdirilib və ya sadələşdirilirsə) o da qeyd edilir.

**Nəticə hissəsində** aşağıdakılar olmalıdır: eksperiment iştirakçılarının adı, və soyadı, atasının adı; eksperimenti başlama və qurtarma vaxtı; iştirakçıların eksperimentin nəticələrinin yayılmaması barədə xəbərdar olunması istintaq eksperimenti protokolu bütün iştirakçılar tərəfindən imza edilir.

Bundan başqa, zəruri halalrda istintaq eksperimenti keçirilən yerin planı və sxemi də tərtib ediilr.

Təcrübənin aparılması zamanı onun daha mühüm cəhətlərinin fotoşəklinin çəkilməsi və ya video çəkilişindən istifadə edilməsi məqsədə müvafiqdir. Belə

foto-şəkillər və video çəkilişlər eksperimentin nəticələri haqqında əyani olaraq təsəvvür yaratmağa imkan verəcək. Məsələn: fotoşəkildən pəncərədən konkret bir əşyanı çıxarılması yaxud şəxsin keçməsinin mümkünlüyünü əyani olaraq görünür.

İstintaq eksperimentinin gedişini və nəticələrinin qiymətləndirmək zəruridir.

İstintaq eksperimentinin nəticələri həqiqətə uyğun gəlməsində onların heç bir sübuti əhəmiyyəti olmayacaqdır.

Ümumiyyətlə, eksperimentin nəticələrini qiymətləndirərkən, aşağıdakılara diqqət yetirmək vacibdir:

a) təcrübənin keçirildiyi şərait tədqiq edilən hadisənin şəraitinə uyğun gəlməsi?

b) eksperimentin nəticəsi qanunauyğundurmu, yaxud təsadüfi halalrdan asılı olaraq mövcud olmması?

Eksperimentin nəticələrinin təsadüfiliyinin qarşısını almaq üçün təcrübələr bir-neçə dəfə aparılır.

Təcrübi yolla müəyyənləşdirilən faktlara qiymətləndirilməsi prosesində istintaq eksperimentlərinin müsbət və mənfi nəticələrini fərqləndirmək lazımdır. Əgər təcrübi yolla alınmış nəticə yoxlanılan halın obyektiv mümkünlüyünü sübuta yetirirsə, deməli müsbətdir. Eksperimentin müsbət nəticəsi yoxlanılan hadisənin mövcudluğunun obyektiv mümkünlüyünü (içəri girə bilməyin, səs eşitməyin və s. mümkünlüyünü) sübut edir və göstərir ki, bu və ya digər hadisə baş verə bilər. Lakin bu heç də o demək deyildir ki, hadisə həqiqətən də belə olmuşdur.

Eksperimentin mənfi nəticəsi yoxlanılan halın həmin şəraitdə obyektiv qeyri-mümkünlüyünü göstərir. Məsələn: əgər eksperimentlə müəyyənləşdirilsə ki, eksperiment zamanı adamın biri digərini görə bilməz, onda bu o deməkdir ki, şahid həqiqətən təqsirləndirilən

şəxsi görməmişdir. Beləliklə, mənfi qərar (nəticə) qəti xarakterli olur.

Buna görə də ibtidai istintaq prosesində müstəntiq toplanmış sübutları əsaslı surətdə tədqiq etməli və qiymətləndirməlidir, yəni onların doğruluğunu, digər sübutlarla əlaqəsini yoxlamalı və onların sübut əhəmiyyətini aydınlaşdırmalıdır. İstintaq eksperimentinin aparılması zamanı foto, video və kino çəkmədən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq yazılar, fotoşəkillər və çəkiliş lentləri, yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunur.

## *MÖVZU № 19 .*

## *"Tanınma üçün təqdimetmə taktikası"*

PLAN:

1. Tanınma üçün təqdimetmənin mahiyyəti, növləri və psixoloji əsasları.
2. Tanınma üçün təqdimetmənin mərhələləri
3. Tanınma üçün təqdimetmənin taktiki aspektləri. Tanınma üçün təqdimetmənin nəticələrinin rəsmiləşdirilməsi

***Sual 1.Tanınma üçün təqdimetmənin mahiyyəti, növləri və psixoloji əsasları***

Tanınma üçün təqdimetmə müstəqil bir istintaq hərəkəti kimi uzun proses ərzində formalaşmışdır. Bu istintaq hərəkətinin meydana çıxması bilavasitə cinayətkarlığa qarşı mübarizə təcrübəsinin tələbatından irəli gəlmişdir. Tanınma üçün təqdimetmə cinayətkarlığa qarşı mübarizədə ilk dəfə olaraq 1918-ci ildə Rusiyada tətbiq edilmişdir. Həmin dövrdə bu müstəqil istintaq hərəkəti deyil, dindirmənin xüsusi forması kimi adlanırdı. 1918-1936-cı illərə qədər tanınma üçün təqdimetmənin hüquqi əsasını tənzimləyən norma yox idi. Alimlərin gərgin əməyi nəticəsində tanınma üçün təqdimetmə müstəqil bir istintaq hərəkəti kimi 1936-cı ildə formalaşmışdır.

Tanınma üçün təqdimetmənin müstəqil istintaq hərəkəti kimi formalaşmasında alimlərdən V.Qromovun, M.Stroviçin, S.Qolunskinin, P.Svetkovun, A.Ginzburqun rolu çox böyükdür.

Tanınma üçün təqdimetmə müstəqil istintaq hərəkəti olub, əvvəlcə dindirilmiş şahidə, zərərçəkmiş şəxsə, şübhəli şəxsə, müttəhimə təqsirləndirilən şəxsin,

əşyanın və başqa predmetlərin eyniliyini müəyyənləşdirmək məqsədilə təqdim edilməsi başa düşülür (Azərbaycan Respublikası CPM-in 239- mad.).

Tanınma üçün təqdimetmə istintaq hərəkətinin əsas məqsədi cinayət hadisəsi ilə əlaqədar şahidin, zərərçəkmiş şəxsin, yaxud təqsirləndirilən şəxsin müşahidə edilən obyektin yaddaş obrazı və ya əlamətləri ilə tanınma üçün təqdim olunan obyektin əlamətləri ilə eyniləşdirməkdən ibarətdir.

Tanınma üçün təqdimetmə prosesində obyektlərin xassələrini daha dəqiq və tam aydınlaşdırılmasının mühüm əhəmiyyəti vardır. Bu prosesdə tanıyan şəxs tərəfindən obyektin fərdi xüsusiyyətlərinin nə dərəcədə düzgün qavranılması mühüm əhəmiyyət kəsb edir. Şəxs müşahidə etdiyi predmeti öz şüurunda əks etdirir və yaddaşında həmin predmetin obrazını yaradır. Bu zaman tanınmanın tamlığına və doğruluğuna təsir edən obyektiv və subyektiv amillər nəzərə alınmalıdır. Bilavasitə qavrama şəraitindən, müddətindən, insanın psixi vəziyyətindən, yaddaşından və digər obyektiv və subyektiv faktorlardan asılı olaraq obyektin yaddaş obrazı şüurda uzun müddət qala bilər.

Şəxsdə olan qüsurlar qavrama prosesinə təsir göstərir. Müstəntiq tanınma üçün təqdimetmədən əvvəl bunları müəyyən etməli və obyektin qavrama prosesinin obyektivliyini təmin etməlidir. Bu məqsədlə müstəntiq detal dindirmə, ifadənin yerində yoxlanması, istintaq eksperimenti və zəruri hallarda digər istintaq hərəkətlərini həyata keçirə bilər. Qavrama prosesində şəxsin psixi vəziyyətinin müəyyən edilməsinin də böyük əhəmiyyəti vardır. Obyekti müşahidə edən şəxs emosional, sərxoş, yorğun vəziyyətdə olduqda, onun əlamətlərini düzgün qavraya bilmir, onun yaddaş obrazının formalaşmasına mənfi təsir göstərir. Bunları nəzərə alaraq qeyd etmək

olar ki, tanınma üçün təqdimetmə istintaq hərəkətinin keçirilməsi tanıyan şəxsin ifadəsinin psixoloji cəhətdən formalaşması mühüm əhəmiyyət kəsb edir.

Psixoloji cəhətdən ifadlənin formalaşması 3 mərhələdən ibarətdir:

1. qavrama, yadda saxlama və obyektin obrazının yaddaşda formalaşması;
2. obyektin əlamətlərinin şifahi portret vasitəsilə yadına salınması yolu ilə formalaşması;
3. xüsusi tanınma, yəni istintaq prosesində tanınma üçün təqdim edilmiş obyektin əlamətlərinin əvvəllər müşahidə edilmiş obyektin əlamətləri ilə müqayisə etmə yolu ilə formalaşması.

Yaddaşın köməyi ilə şəxs müşahidə etdiyi obyekti onun əlamətlərinə görə tanıya bilər.

Hər hansı bir şəxs ona təqdim edilən obyekti görmə üzvlərinin köməyi ilə qavrayır. Əvvəllər müşahidə etdiyi obyekti yaddaş obrazı ilə müqayisə edir və müxtəlifliyi haqqında nəticə çıxarır. Beləliklə, psixologiya tanınmanı iki yerə bölür:

1. simultan (sintetik) tanınma;
2. suksessiv (analitik) tanınma.

*Simultan tanınma* zamanı tanıyan şəxs ona göstərilən obyekti ümumi qavraması ilə əlaqədar olaraq onun eyniliyi və qrup mənsubiyyəti barədə bir anda nəticə çıxarır (yaxın qohumların, dostların, şəxsi predmetlərin tanınması).

*Suksessiv tanınma* isə tanınmaya təqdim edilən obyektlərin ayrı-ayrı əlamətlərinin ayrılması və təhlili yolu ilə həyata keçirilir və yaxud müxtəlifliyi barədə nəticə çıxarılır.

Tanınma kriminalistik eyniləşdirmənin bir növü olub özünəməxsus xüsusiyyətlərə malikdir.

1) Digər eyniləşdirmələrdən fərqli olaraq, tanınmada aparılan eyniləşdirmənin obyekti keçmişdə müşahidə edilən şəxsin yaddaş obrazıdır.

2) Tanınma üçün təqdimetmə məhz müstəntiqin fəal iştirakı ilə aparılır və istintaq hərəkəti sayılır;

3) Digər eyniləşdirmə isə mütəxəssis (ekspert) tərəfindən həyata keçirilir. Yuxarıda göstərilənlərə əsasən tanınma üçün təqdim edilən obyekt şəxs tərəfindən bilavasitə qavranıldığı hallarda aparıla bilər.

4) Tanınma üçün təqdimetmə ı Azərbaycan Respublikası CPM-nin 239, 240-cı maddələri ilə tənzimlənir. Bütün bunlarla əsasən tanınma üçün təqdimetmənin aşağıdakı növləri vardır:

1. Şəxsin onun anatomik və başqa əlamətlərə görə tanınması;

2. Meyidin və onun hissələrinin tanınması;

3. Əşyaların tanınması (cinayət əlamətləri, sənədləri);

4. Heyvanların tanınması;

5. Şəxsin, meyidin və predmetlərin fotoşəkilləri əsasında tanınma üçün təqdim edilməsi;

6. Mənzilin və açıq yerlərin tanınma üçün təqdim edilməsi.

Əgər tanıyan şəxs tanınan şəxsi tanıdığını bildirərsə və onun adını və soyadını düzgün deyərsə, tanınan şəxs isə bunu inkar etməzsə, tanınma üçün təqdimetmə öz əhəmiyyətini itirir və belə hallarda ziddiyət yarandıqda üzləşdirmənin aparılması daha məqsədəuyğundur. Bundan başqa əgər tanıyan şəxs əvvəl müşahidə etdiyi obyekti yadında qalmadığını və onu tanıya bilmədiyini bildirərsə, belə hallarda tanınma üçün təqdim etmənin keçirilməsi məsləhət görülmür.

Tanınma üçün təqdim edilən obyektlər özlərinin xüsusi əlamətlərinə əsasən onlarla eyni cinsdən və növdən olan obyektlərdən fərqlənməlidir. Bu xüsusi əlamətlər həm açıq-aydın görünə bilər, həm də xüsusi cihazlar vasitəsi ilə aşkar edilə bilər. Ancaq tanınma üçün aparılan istintaq hərəkətləri nəzərdə tutulan obyektin fərdi əlamətləri o dərəcədə açıq-aydın ifadə olunmalıdır ki, onu müşahidə edən şəxs heç bir xüsusi elmi-texniki vasitələrdən istifadə etmədən həmin obyekti qavrasın və yadda saxlaya bilsin. Bildiyimiz kimi, tanıyan şəxs obyekti öz hiss orqanları ilə qavrayır. Həmin orqanların qüsurlu olması müşahidə edilən obyektin tam və dəqiq qavranmasına ciddi maneçilik törədə bilər, ona görə də, müstəntiq tanımanın nəticələrinin doğruluğunu və tamlığını təmin etmək məqsədi ilə bütün bunları nəzərə almalı, obyektin, xüsusilə də onun fərdi əlamətlərinin təsvirini mümkün qədər tam, dəqiq və konkret aparmalıdır.

Tanımanın düzgün aparılması və tanıyan şəxsin tanıdığı obyekti hansı şəraitdə və harada görməsini müəyyən etmək üçün Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 239-cu maddəsinə əsasən tanıyan şəxs ətraflı dindirilməlidir. Həmin şəxs dindirildikdən sonra müstəntiq dindirmənin nəticələrinə əsasən tanınma üçün təqdimetmənin hansı şəraitdə keçiriləcəyini müəyyən edir.

Tanınma üçün təqdimetmə istintaq hərəkətinin keçirilməsinin şərtləri bunlardır:

1. Tanınmalı şəxs eyni cinsə malik (bu qayda meyidlərin tanınmasına şamil edilmir) olan, xarici görünüşcə ona oxşayan başqa şəxslərlə birlikdə (azı üç nəfər) tanıyan şəxsə təqdim edilir. Əgər tanıyan şəxs şahid və ya zərərçəkmiş şəxsdirsə, ifadə verməkdən

imtina etmək və bilə-bilə yalan ifadə verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdarlıq edilir.

2. Tanınma üçün göstərilən şəxsə təqdim edilən şəxslər sırasında istədiyi yeri tutması ona təklif edilir.

3. Zəruri hallarda təqsirləndtrilən, şübhə edilən şəxs, zərərçəkmiş şəxs, şahid tanınmalı şəxsin və ya əşyanın təqdim edilməsində iştirak etmək üçün cəlb oluna bilər.

4. Müstəsna hallarda tanınma yuxarıdakı şərtlərə əməl etməklə fotoşəkil ilə aparılır.

5. Tanıyan şəxsə təklif edilir ki, tanıdığı şəxsi və ya əşyanı göstərsin, hansı əlamətlərinə və xüsusiyyətlərinə görə həmin şəxsi və ya əşyanı tanıdığını izah etsin.

6. Tanınma üçün təqdimetmənin gedişi barədə protokol tərtib edilir.

Tanınma üçün təkcə təqsirləndtrilən və şübhə edilən şəxsin deyil, habelə əgər lazım gələrsə şahid və zərərçəkmiş şəxsin də təqdim olunması mümkündür.

İstintaq hərəkətləri içərisində tanınma üçün təqdimetmə dindirməyə çox yaxındır. İstər tanınma üçün təqdimetmədə, istərsə də dindirmədə həmin istintaq hərəkətləri nəticəsində alınan ifadələr sübut hesab edilir. Tanınma üçün təqdimetmə dindirmə keçirildikdən sonra aparılır. Bu iki istintaq hərəkətləri oxşar olmaları ilə bərabər, bir-birindən ciddi surətdə fərqlənirlər. Məsələn, təqsirləndtrilən şəxs ona elan edilmiş ittihamın mahiyyətinə dair və iş üçün ona lazım olan bütün hallar haqqında ifadə verməyə haqlıdır. Tanınma bir fakt haqqında, yəni istintaqı aparılan cinayət hadisəsi ilə əlaqədar əvvəllər müşahidə etdiyi obyektin ona təqdim olunan obyekt olub-olmaması haqqında məlumat verməlidir. Dindirmə aparılarkən obyektin təqdim edilməsi taktiki üsul kimi istifadə edilir. Tanınma təkcə dindirmə zamanı deyil, digər istintaq hərəkətləri zamanı da aparıla

bilər (hadisə yerinə baxış, ifadələrin yerində yoxlanılması və s). Bununla belə, digər istintaq hərəkətləri zamanı aparılan tanınmanı tanınma üçün təqdimetmədən fərqləndirmək lazımdır. Tanınma üçün təqdimetmədən fərqli olaraq ayrı-ayrı istintaq hərəkətləri zamanı həyata keçirilən tanınma sadəcə olaraq müstəqil istintaq hərəkəti deyil, keçirilən istintaq hərəkətinin bir elementidir.

Tanınma üçün təqdimetmə təkcə eyniliyi müəyyən etmək üçün deyil, həm də obyektin qrup mənsubiyyətinin uyğunlaşdırılması məqsədilə aparıla bilər.

*1-ci sual üzrə nəticə:* Beləliklə, tanınma prosesi kriminalistik eyniləşdirmənin bir növü olub bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. Digər növ eyniləşdirmədən fərqli olaraq tanınma prosesində aparılan eyniləşdirmənin obyekti keçmişdə müqayisə edilən obyektin yaddaş obrazıdır. Tanınma üçün təqdimetmədə müstəntiq fəal iştirak edir və onu aparır. Bu eyniləşdirməni ekspert-mütəxəssis yox, obyekti keçmişdə müşahidə edən şəxs, yəni tanıyan şəxs aparır və obyekti qavrama nəticəsində yadında qalan obrazını tanınma üçün təqdim olunan obyektlə müqayisə edir. Ona görə də eyniləşdirmə müəyyən edilməli olan obyekt onu keçmişdə tanıyan şəxs tərəfindən bilavasitə qavranıldığı hallarda aparıla bilər.

## *Sual 2. Tanınma üçün təqdim etmənin mərhələləri*

Tanınma üçün təqdim etmə istintaq hərəkəti 3 mərhələdən ibarətdir: hazırlıq,işçi və nəticələrin rəsmiləşdirilməsi.

Hazırlıq mərhələsində müstəntiq tərəfindən aşağıdakı tədbirlər həyata keçirilir:

a) tanınma üçün təqdim etmənin konkret məqsədi;
b) tanıyan şəxsi dindirməli;
c) tanınan obyektlə birlikdə təqdim olunan obyektləri seçməli;
ç) tanımanın nə vaxt və harada aparılmasını müəyyənləşdirməli;
d) elmi-texniki vasitələri seçməli;
e) istintaq hərəkəti iştirakçılarını və onların hər birinin vəzifəsini müəyyən etməli.

Tanınma üçün təqdim etmənin hazırlıq mərhələsində əsas məqsəd müstəntiq tərəfindən hansı obyektin, hansı şəxsə və nə üçün təqdim edəcəyini müəyyən edir, həmçinin tanıyan ilə tanınan şəxslərin əlaqələri, hər hansı əşyanın tanıyan şəxsə məxsus olması və sair hallar barədə dəqiq məlumat bu istintaq hərəkətinin məqsədini təşkil edir. Tanıyan şəxsin dindirilməsi bu istintaq hərəkətinin mühüm şərtlərindən biridir. Tanıyan şəxsin dindirilməsində həmin şəxsi təqdim olunan obyekti hansı şəraitdə görməsi, necə qavraması və həmin obyekti hansı xüsusi əlamətlərinə görə tanımasını müəyyənləşdirilir. Dindirmə zamanı yönəldici sualların verilməsi qəti qadağandır. Dindirmə zamanı tanınmalı olan şəxsin zahiri əlamətlərinə və ya əşyanın əlamətlərinə dair toplanmış mükəmməl məlumatlar onların axtarışını asanlaşdırır, təqdim olunan bütün obyektlərin düzgün seçilməsini, tanınma prosesində alınan məlumatların doğruluğunu və bunların düzgün qiymətləndirilməsini təmin edir.

İlk dindirmə səthi keçirildikdə təkrar dindirmə keçirilməlidir. Dindirmə zamanı müstəntiq şəxsin zahiri əlamətlərini aydınlaşdırarkən, "şifahi portret" metodu əsasında aydınlaşdırialıdır. Şəxsin zahiri əlamətlərini, onun ümumi görünüşünü (cinsi, yaşı, boyu, bədən quruluşu), milliyyəti, başının və sifətinin ümumi forması,

sifətinin ayrı-ayrı fərdi xüsusiyyətlərini (alın, burun, çənə, qulaq, ağız, dodaq, göz, qaş, saç), bədəni və onun ayrı-ayrı hissələrini (boyun, çiyin, sinə, kürək, qol, qıç) xarakterizə edən halları mümkün qədər dəqiq aydınlaşdırmalıdır. Bununla birgə şəxsin anatomik qüsurları (qısa qol, qozbel) diqqətdən yayınmamalı, həmçinin dinamik əlamətlərə (yerişi, mimikası, nitqində olan çatışmamazlıqlar) xüsusilə fikir verilməlidir. Müstəntiq dindirmə zamanı şəxsin qavrama hissini nəzərdən qaçırmamalıdır, belə ki, qavramaya təsir göstərən obyektiv və subyektiv amillər müəyyən etməlidir.

Obyektiv amillər – qavrama yeri (otaq, açıq yer), havanın və işıqlanmanın vəziyyəti, tanıyan şəxsin tanınan obyektdən hansı məsafədə olması.

Subyektiv amillər – tanıyan şəxsin görmə, eşitmə, yadda saxlama orqanlarının vəziyyəti, onun görmə və eşitmə qabiliyyəti, qavrama vaxtı psixi vəziyyəti (qorxu hissi, həyəcanlı olması) aiddir.

Tanınmanın mükəmməl keçirilməsi üçün dindirmə zamanı müstəntiqin tanıyan şəxsin yadında qalan əlamətlərə xüsusi fikir verməli və həmin əlamətlərin daha dəqiq aydınlaşdırılmasını təmin etməlidir. Belə ki, tanıyan şəxsin təqdim ediləcək şəxsin və əşyaların ümumi əlamətlərini (boyu, forması, ölçüsü, rəngi və s.), xüsusi əlamətlərin (bədənin ayrı-ayrı hissələrində çapıq, xal olması), dişlərin olmaması və s., əşyalarda isə hər hansı çatışmamazlıqların və digər fərqləndirici əlamətlərin olmasını, sualların verilməsi və onların necə qavranılmasını müəyyənləşdirilməlidir.

Tanınma üçün təqdimedilmənin daha səmərəli keçməsi üçün təqdim ediləcək obyektlərin düzgün seçilməsindən çox şey asılıdır. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 239-241-ci maddələrinə

müvafiq olaraq tanınma üçün təqdim edilən obyektlər imkan dairəsində xarici görünüşdə bir-birinə oxşar seçilməlidir. Qanunun bu tələbini təcrübədə həyata keçirmək çətin olsa da zəruridir. Oxşarlıq deyəndə, biz nəyi başa düşürük ?

Burada şəxsin boyu, yaşı, bədən quruluşu, sifətinin ayrı-ayrı hissələrinin ölçülərinin, üzünün, saçının, gözlərinin rəngi, saçının forması, üst geyiminin rəngi, forması və s. aiddir.

Eyni növ əşyalar tanınma üçün təqdim edilərkən, onların markası, rəngi, ölçüsü, forması, istismar müddəti, hazırlandığı material və s. eyni olmalıdır.

Heyvanlar tanınmaya təqdim edilərkən mütəxəssisdən (zootexnik) istifadə etmək məqsədəuyğundur, belə ki, heyvanlar seçilərkən onların cinsi, yaşı, rəngi, növü və s. nəzərə alınmalıdır. Meyidin tanınması üçün təqdim edilməsinə yuxarıda göstərilənlər şamil olunmur, yəni meyid bir neçə meyidlə deyil, tanınma üçün tək təqdim olunur. Bəzi hüquqşünasların fikrincə müstəsna hallarda nadir incəsənət əsərlərinin də tanınma üçün tək təqdim edilməsi barədə fikir irəli sürürlər. Bu isə cinayət-prosessual qanunvericiliyin normalarına zidd olduğu üçün həmin hüquqşünasların fikirləri ilə razılaşmaq olmaz. Belə ki, Azərbaycan Respublikası CPM-nin 240-cı maddəsində əşyaların tanınma üçün təqdim olunması barədə göstəriş verilmişdir. Bəzi hallardazərurət yarandıqda şəxslərin əksləri (fotoşəkilləri) üzrə tanınma keçirilir. Bu vaxt fotoşəkil həmin şəxsin xüsusi əlamətlərini özündə əks etdirməlidir. Ortaya belə bir sual çıxa bilər: həmin fotoşəkilləri necə əldə etmək olar ? Bunun üçün hər bir rayon polis idarələrinin pasport və viza-qeydiyyat bölməsinin imkanlarından istifadə edilməlidir.

Tanınma üçün təqdim etmənin vaxtının və yerinin müəyyən edilməsi bu istintaq hərəkətinin nəticəsinə ciddi təsir göstərir. Belə ki, tanınma üçün təqdim etmənin vaxtında keçirilməməsi bu istintaq hərəkətinin nəticələrinin obyektivliyinə şübhə doğura bilər. Ona görə də psixoloji nöqteyi-nəzərdən şəxs əvvəllər müşahidə etdiyi obyekti uzun müddət görməzsə, onun əlamətlərini, xüsusiyyətlərini tanınma üçün lazımi olan digər halları yaddan çıxara bilər. Belə olduqda isə həmin şəxsə təqdim olunmuş obyekti ona oxşar obyektlər arasında qarışıq sala bilər. Məhz bu səbəbdən tanınma üçün təqdim etmənin zaman faktoru ilə sıx əlaqədə olmasının müstəntiq unutmamalı və buna məsuliyyətlə yanaşmalıdır. Tanınma üçün təqdim etmə adətən müstəntiqin otağında aparılır. Lakin bu istintaq hərəkəti müstəntiqin öz təşəbbüsü ilə başqa yerlərdə keçirilə bilər. Belə olan halda müstəntiq tanınma keçirilən yerin işıqlanma şəraitini, obyektlərin necə yerləşməsini, işığın təsirindən obyektlərin rənginin dəyişilə bilməsini, tanıyacaq şəxsin həmin obyektləri hansı məsafədən müşahidə etməsini olmasını mütləq nəzərə almalıdır. Tanınmanın müvəffəqiyyətlə keçirilməsi onun hansı şəraitdə aparılmasından da çox asılıdır. Bu istintaq hərəkəti həyata keçirilən zaman müstəntiq elə etməlidir ki, tanıyan şəxs həyəcan keçirməsin, və ona kənar təsirlər göstərilməsin və s.

Tanınma üçün təqdim etməyə hazırlığın əsas meyarlarından biri də təqdim etmə ərəfəsində tətbiq olunan elmi-texniki vəsaitlərin düzgün müəyyən edilməsidir. Elmi-texniki vəsaitlərə aşağıdakıları misal göstərmək olar: fotoaparat, videokamera, diktofon, maqnitofon.

Tanınma üçün təqdim etmənin iştirakçılarını müstəntiq hazırlıq mərhələsində müəyyən etməlidir. Belə

ki, müstəntiq hal şahidlərini əvvəlcədən müəyyənləşdirməlidir.

Bəzi hallarda elə olur ki, tanıyan və ya tanınmalı olan şəxs istintaq aparılan dili bilmir. Belə olan hallarda tərcüməçi dəvət edilməlidir. Əgər tanınmalı və yaxud tanıyan şəxs kor və ya laldırsa, istintaq prosesi onları başa düşə biləcək şəxsin iştirakı ilə aparılmalıdır.

Bu istintaq hərəkəti həyata keçirilən zaman bəzi hallarda mütəxəssis biliyindən istifadə etmək lazım gəlir. Belə halda müstəntiq mütəxəssis dəvət edib, sonra istintaq hərəkətini başlamalıdır. Məsələn, tanıyan şəxs azyaşlı olanda, onda müəllimin iştirakı ilə aparılması məqsədəuyğundur. Əşyaların seçilməsində əmtəəşünas köməklik göstərə bilər.

Meyidlərin tanınma üçün təqdim etmə zamanı bəzən mütəxəssislərin iştirakı zəruridir. O adətən, meyiddə təbii olaraq ciddi dəyişikliklər baş verdikdə, sifəti tanınmaz hala salındıqda meyidin tualetini keçirir. Meyidin "tualeti"ni həyata keçirən mütəxəssisin tanınma üçün təqdim etmədə iştirakı məqsədəuyğundur. Yuxarıda göstərilənləri aşağıdakı misal üzrə təhlil edək.

Əliyevə qarşı törədilmiş quldurluq faktı üzrə üç nəfər şübhəli şəxs tutulub saxlanılmışdır. Əliyev öz ifadəsində bildirmişdir ki, o həmin cxinayətkarı onların geyimi, mimikaları ilə tanıya bilər. Həmin cinayət işi üzrə müstəntiq tanınma üçün təqdim etmə istintaq hərəkətini keçirmiş və Əliyev üç nəfər cinayətkarı – Talıbovu, Qurbanovu və Sadıqovu tanımışdır.

Əgər ilkin dindirmədən çox vaxt keçmişsə, belə olan halda təkrar dindirmə keçirilməli və ondan sonra tanınma üçün təqdimetmə həyata keçirilməlidir. Bu təkrar dindirmə ondan ötrü keçirilir ki, tanıyan şəxsin yaddaş sistemini yoxlamaq və ondan sonra tanınma üçün təqdimetmənin

keçirilməsini məqsədəuyğun olub-olmamasını müəyyənləşdirmək olar.

Tanınma üçün təqdim etmənin sonrakı mərhələsi işçi mərhələsidir. İşçi mərhələsi hazırlıq mərhələsinə əsasən aparılır. Bu mərhələ proses iştirakçılarının istintaq hərəkətinin aparıldığı yerə dəvət olunması ilə başlanır.

Tanınmanın növündən asılı olaraq obyektlər yerləşdirilir. Əgər şəxs tanınma üçün təqdim olunarsa, tanınan şəxslər və iştirakçılar otağa dəvət olunurlar. Müstəntiq proses iştirakçılarına istintaq hərəkətinin məqsədini izah edir və onları bir daha təlimatlandırır. Tanınan şəxsə təqdim olunan şəxslər arasında istənilən yeri seçməyi təklif olunur. Tanıyan şəxsin otağa dəvət olunmasının özünəməxsus xüsusiyyətləri vardır. Tanıyan tanınma üçün təqdim olunan şəxslərin ayağa qalxmasını, müəyyən məsafə keçməsini, onların yaxından müşahidə etməsini tələb edə bilər.

İstintaq hərəkəti prosesində tanınmaya aid olmayan sualların araşdırılması yolverilməzdir. Əgər proses zamanı hər hansı bir mübahisə və ya anlaşılmazlıq yaranarsa, müstəntiq bunları başqa istintaq hərəkətləri ilə aradan qaldırmalıdır.

Proses zamanı tanınan şəxs gedişatı pozarsa, bu barədə protokolda qeydlər aparılır. Bunların səbəbini aydınlaşdırmaq üçün dindirmə istintaq hərəkəti keçirilir.

***Sual 3. Tanınma üçün təqdimetmənin taktiki aspektləri***

***Tanınma üçün təqdimetmənin nəticələrinin rəsmiləşdirilməsi***

Tanınma üçün təqdimetmə istintaq hərəkətinin keçirilməsinin obyektləri müxtəlif ola bilər. Bir çox dövlətlərin Cinayət-Prosessual Məcəllələrində şəxslərin,

predmetlərin, meyidlərin və heyvanların tanınma üçün təqdim edilməsi barədə konkret normalar nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 239-240-cı maddələrində yalnız şəxslərin və əşyaların, tanınma üçün təqdim edilməsi nəzərdə tutulmuşdur. Heyvanların və meyidlərin tanınma üçün təqdim edilməsi nəzərdə tutulmamışdır. Ancaq bu o demək deyildir ki, təcrübədə heyvanlar və meyidlər tanınma üçün təqdim olunmur. Bəzən elə hallar da olur ki, əşyaları natural halda təqdim etmək mümkün olmur. Belə olan hallarda tanınma fotoşəkillər üzrə həyata keçirilir. Burada qeyd etmək lazımdır ki, son zamanlar fonoqram üzrə tanınma üçün təqdim etmənin geniş imkanları barədə kriminalistika sahəsində ədəbiyyatlarda müsbət təkliflər irəli sürülmüşdür.

Tanınma üçün təqdim etmənin obyektləri müxtəlif olduğu üçün bu obyektlərin tanınma üçün təqdim edilməsinin taktikası da müxtəlifdir. Tanınma üçün təqdimetmə zamanı dindirilən şəxsə imkan yaratmaq lazımdır ki, o sərbəst tanıyacağı obyekt haqqında danışmağa başlasın. Həmin şəxsin danışığını kəsmək, o danışarkən otağa digər şəxslərin gəlib getmələri, telefonla danışmaq məsləhət görülmür. Dindirilən şəxs öz ifadəsini qurtardıqdan sonra dindirmə aparan şəxs tanınma üçün təqdimetmənin obyektindən asılı olaraq aydın olmayan məsələlər barədə suallar verməli və tanınacaq şəxsin və əşyanın hansı xüsusi əlamətlərinə görə tanıyacağını müəyyənləşdirməlidir. Yönəldici sualların verilməsi qəti qadağandır.

Tanınma üçün təqdim etmənin tanıyan şəxs tərəfindən obyektin qavranması şəraitinə mümkün qədər uyğun aparılması məqsədəuyğundur.

Tanınma üçün təqdim edilən obyektlə bir yerdə təqdim ediləcək obyektlərin müəyyən edilməsi tanınma üçün təqdim etmə istintaq hərəktinin əsas elementlərindən biridir. Məsələn, dindirmə zamanı müstəntiq müəyyən etmişdir ki, tanınacaq şəxs qırmızı rəngli geyimdə olmuşdur. Buna baxmayaraq o tanınacaq şəxslə birlikdə təqdim ediləcək şəxslərin başqa rəngli geyimdə təqdim etmişdir. Buna görə də o cinayət-prosessual qanunvericiliyini kobud surətdə pozmuş və tanınma üçün təqdimetmə istintaq hərəkəti düzgün aparılmamışdır. Gəlin indi biz tanınma üçün təqdimetmənin tanınmış üsullarını nəzərdən keçirək.

I. Şəxsin tanınma üçün təqdim edilməsi.

Tanınma üçün şəxsin təqdim edilməsi, istintaq təcrübəsində ən çox təsadüf edilən istintaq hərəkətlərindən olub, insanın anatomik və dinamik əlamətlərinə əsasən həyata keçirilir. Bu istintaq hərəkəti aşağıdakı cinayətlərdə daha çox təsadüf edilir – banditizm, quldurluq, dələduzluq, bədən xəsarətləri,və s.Müstəntiq tanınma üçün təqdim etmə zamanı aşağıdakı taktiki üsullardan istifadə etməlidir:

1. Tanınan şəxs iki nəfərdən az olmayan şəxslərin sırasında təqdim edilir.

Tanınan şəxs cinsi, yaşı, zahiri görkəmi oxşar şəxslərin içərisində tanınmaya təqdim edilməlidir. Belə olan halda onların geyimlərinə xüsusi fikir vermək lazımdır. Tanınmaya təqdim edilən şəxs ona oxşar şəxslərin arasında istədiyi yeri seçmək təklif edilir, sonra isə tanıyan şəxs dəvət olunur. İstintaq təcrübəsində bəzi hallar olur ki, tanınmalı şəxslər təklikdə təqdim olunur, bu isə həm müsbət nəticə vermir, həm də cinayət-prosessual qanunvericiliyin tələblərinə ziddir.

2. Azərbaycan Respublikası CPM-nin 239-cu maddəsinə əsasən təqdim edilən şəxs tanıyan şəxsə,

tanıyan şəxs onu əvvəllər hansı geyimdə görübsə, həmin və ya oxşar geyimdə təqdim edilməlidir.

Bunun üçün təqdim edilən şəxslər də həmin geyimdə olmalıdırlar. Həmin şəxslərin ayrı-ayrı geyimlərdə olmasına yol verilə bilməz. Məsələn, mənzil oğurluğu faktı üzrə cinayət işi üzrə müstəntiq oğurluq üzrə məhkum olunmuş Əliyev Əli İslam oğlunu tanınmaq üçün təqdim etmişdir.

Tanınmanın taktiki üsulunu pozaraq müstəntiq Əliyev Əli İslam oğlunun onunla təqdim olunan şəxslərdən üzünün tüklü olması, rənginin ağ olması, paltarının başqa olmasına fikir vermiş və tanıyan şəxs həmin şəxsi tanıdığını bildirmiş və qeyd etmişdir ki, oğurluq hadisəsi olan gün o həmin şəxsi digər şəxslə birlikdə öz qonşusunun evindən çıxdığını müşahidə etmişdir. Tanınma üçün təqdimetmə zamanı əvvəllər məhkum olunmuş Əliyev Ə.İ. bildirdi ki, o həbsdə olduğuna görə xarici görünüşündən tanıyan şəxs onu tanıdı və bunların protokola yazılmasını xahiş etdi. Məhkəmə prosesində bu hal mübahisəyə səbəb olmuş, Əliyevin müdafiəçisi bunun maddi sübut kimi qəbul edilməsinə imtina etmişdir.

3. Tanınma üçün təqdimetmə istintaq hərəkətini həyata keçirən zaman tanıyan şəxs başqa bir otaqda gözləməli, yalnız tanınan şəxslər öz yerlərinə keçib oturduqdan sonra tanıyan şəxs içəri dəvət oluna bilər. İstintaq təcrübəsi göstərir ki, bəzən tanıyan ilə tanınma üçün təqdim edilən şəxsi uzun müddət görmədiyindən və yaxud həmin şəxsin görkəmində bəzi dəyişikliklər olduğundan onu tanımır. Ona görə də müstəntiq ilkin dindirmə zamanı bunu nəzərə almalıdır. Belə hallarda tanınmanın təkrarən keçirilməsinə ehtiyac duyulur.

Əgər müstəntiq güman edirsə, tanıyan şəxs tanınmaması barədə qəsdən yalan məlumat verir. Bu

zaman təkrar tanınma keçirilə bilər. Əgər tanıyan şəxs tanınma üçün təqdim edilən şəxslərdən birinin tanınmasını bildirirsə, müstəntiq tanıyan şəxsdən onun zahiri görünüşündə dəyişikliklərin olub-olmamasını soruşur. Əgər belə dəyişikliklər varsa, onların nədən ibarət olmasını aydınlaşdırmalıdır.

4. Tanınma üçün təqdim edilən şəxslər öz yerlərinə keçməzdən əvvəl tanınan şəxs özü istədiyi yeri iştirakçılar arasında seçir. Bu da istintaq hərəkətini obyektiv keçirilməsini təmin edir.

5. Əgər cinayət işinin başa çatdırılması və cinayətkarın tutulması məhz tanınma üçün təqdimetmədə istintaq hərəkətindən asılıdırsa, onda müstəntiq iş üzrə bütün materialları nəzərdən keçirib tanınma üçün təqdimetməni səslə (əgər zərərçəkmiş bunu bildirərsə), sonra isə xarici əlamətlərinə əsasən aparmalıdır. Belə ki, şəxs tanınma üçün dinamik əlamətlərinə (səsin, nitqin, yerişin xüsusiyyətləri) görə də təqdim edilə bilər. Səsin, nitqin və yerişin nisbi dəyişməzliyi insanı bu əlamətlərə görə eyniləşdirməyə imkan verir. Səsin və nitqin xüsusiyyətlərinə görə tanınmaya təqdim edilən şəxs tanıyan şəxsi görməməlidir. Çünki, həmin şəxs səsini, nitqini dəyişə bilər. Tanıyan şəxs digər şəxslərin səslərini, nitqlərini də dinləməli və onları müqayisə etməlidir. Yaxşı olar ki, tanınmaya təqdim edilən şəxslər eyni mətn 2-3 dəfə oxunsunlar. Bu tanınmanın obyektivliyini və doğruluğunu bir daha təmin etmiş olar.

6. Yerişə görə tanınma üçün təqdim edilən şəxs yerişi onun yerişinə oxşayan digər şəxslərlə birlikdə tanıyan şəxsə təqdim olunur . Yaxşı olar ki, onlar tanıyan şəxsin qarşısından bir-bir keçsinlər. Bu cür tanınma tanınan şəxsin yerişinin müəyyən anomaliyaların olduğu hallarda aparılır.

*II. Tananmı üçün meyidlərin təqdim edilməsi.*

Tanınma üçün meyidlərin təqdim edilməsi öz məqsəd və prosessual qaydasına görə şəxsin tanınma üçün təqdim edilməsindən fərqlənir. Meyid tanınmaya başqa meyidlərlə birlikdə deyil, tək halda təqdim edilir. Əksər hallarda meyidlərin tanınma üçün təqdim edilməsi şəxsiyyəti məlum olmayan meyid tapıldıqda və yaxud meyiddə tapılan sənədlərin ölənə məxsus olmadıqda həyata keçirilir. Şəxsiyyəti məlum olmayan meyid tapıldıqda əməliyyat müvəkkili əvvəllər itkin düşmüş şəxslərin qeydiyyat üzrə arayış tərtib edir. Meyid tapıldıqdan sonra onun əl-barmaq izləri çıxarılır, şəkili çəkilir. Meyid tapıldığı yerdə, eləcə də ölüxanada tanınma üçün təqdim edilə bilər. Məhkəmə-tibbi ekspertizası aparılana qədər meyiddə dəyişikliklər edilməsinə yol verilmir. Əgər meyidin sifəti tanınmaz hala salınıbsa, onun "tualeti" məhkəmə-tibbi ekspertizasından sonra həyata keçirilir.

Şəxsiyyəti məlum olmayan meyid tapıldıqda adətən onu bir qrup şəxslərə tanınma üçün təqdim edirlər. Məsələn, hər hansı kəndin kənarında şəxsiyyəti məlum olmayan meyid tapıldıqda, həmin kəndin sakinləri tanınma üçün təqdimetmədə iştirak edirlər. Belə olan halda həmin şəxslər dindirilmir. Əgər sakinlərdən hər hansı biri həmin meyidi tanıyırsa, onda həmin şəxs dindirilir və tanıyan şəxsdən ölən şəxsi ondan başqa daha kimlərin tanıdığını müəyyən edilir. Əgər belə şəxslər varsa, onları çağırtdırmaq, sonra isə dindirmək lazımdır. Dindirmə ərəfəsində ifadə verən şəxsdən ölən şəxsin onlarla qohumluq münasibəti, onu sonuncu dəfə nə vaxt görmələri, hansı yadda qalan əlamətlərin (xal, çapıq, tatuirovka və s.) olması aydınlaşdırılmalıdır. Müəyyən müddət keçdikdən sonra aydındır ki, meyiddə ciddi dəyişikliklər baş verir. Bu cəhətdən dindirmə zamanı müstəntiq nisbi dəyişməyən əlamətlərə (diş aparatına,

çapıqlara, tatuirovkalara və s.) daha çox fikir verməlidir. Meyidin paltarla və ya paltarsız tanınmaya təqdim edilməsi konkret vəziyyətdən asılıdır.

İstintaq təcrübəsində adətən meyid paltarsız təqdim edilir.

*III. Əşyaların tanınma üçün təqdim edilməsi.*

Əşyaların tanınma üçün təqdim edilməsi cinayətkarlar, zərərçəkmiş və şahidlərin şəxsiyyətinin müəyyən edilməsi və ifadələrinin yoxlanılmasından ötrü aparılır.

Əgər cinayətkarın şəxsiyyəti müəyyən edilməmişsə, müstəntiq və təhqiqat aparan şəxs hadisə yerindən götürülmüş əşyaları tanınma üçün təqdim edir və bu üsulla cinayətkarın şəxsiyyətini və cinayətdə iştirak edən şəxslərin dairəsini müəyyən edir.

Əşyaların tanınma üçün təqdim edilməsi Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 240-cı maddəsi ilə tənzimlənir. Orada deyilir ki, hər hansı əşyanı tanınma üçün təqdim etmək zərurəti yarandıqda müstəntiq tanıyan şəxsi bu əşyanın əlamətləri və həmin əşyanı hansı şəraitdə görməsi haqqında qabaqcadan dindirir və dindirmə protokolu tərtib edilir.

Dindirmə zamanı həmin əşyaların haradan, nə vaxt alınması, onun istismar müddəti, təmir edilib-edilməməsi və digər hallar aydınlaşdırılmalıdır.

Əşyaların tanınma üçün təqdim edilməsi ümumi prinsiplər üzrə aparılır. Belə ki, tanıyan şəxs tanınmadan əvvəl dindirilir. Dindirmə zamanı müəyyən etmək lazımdır ki, tanıyan şəxs həmin əşyaları hansı xüsusi əlamətlərinə görə tanıya bilər, sonra isə həmin əşyaları ona oxşar əşyalarla  yanaşı (ən azı iki) masanın üzərinə qoyulur və nömrələnir. Tanıyan şəxs daxil olur və tanıdığı əşyalani hansı xüsusi əlamətinə görə tanıdığını bildirir. Həmin əşyaların  fotoşəkilləri çəkilir. Bəzən istintaq təcrübəsində

maddi sübut kimi sənədlərin təqdim edilməsi məsələsi ortaya çıxır. Belə olan halda sənədlər, onların mətni, qrafikası və xarici görünüşü üzrə təqdim edilə bilər.

İlkin dindirmə zamanı şəxsdən sənədin hansı xüsusi əlamətləri olması aydınlaşmalıdır: boyanın rəngi, möhür yerləşdiyi yer, səhifələrin olması, hər hansı sözün və hərflərin mümkün dərəcədə yerləşdiyi yer və s. Sənədlər də tanınma üçün başqa sənədlərlə birlikdə təqdim edilir.

*IV. Heyvanların tanınma üçün təqdim edilməsi*.

Heyvanların tanınma üçün təqdim edilməsi də əşyaların tanınma üçün təqdim edilməsi kimi həyata keçirilir. Bu növ tanınmanın obyektləri diri heyvanlar, onların cəsədləri, həmçinin başları, dəriləri və s. ola bilər. Bu növ tanınma da ümumi prinsiplər üzrə aparılır. Belə ki, tanıyan şəxs dindirilir və heyvanın yaşı, təxəllüsü, xüsüsi əlamətləri aydınlaşdırılır.

Heyvanlar eyni cinsdən, eyni yaşda, eyni rəngdə və s. olan digər heyvanlarla birlikdə tanınmaya təqdim edilir. Bu halda müstəntiq diri heyvanın tanıyan şəxsə qarşı reaksiyasına da xüsusi fikir verməlidir. Heyvanların tanınma üçün təqdim edilməsi zamanı baytar həkimlərin, zootexniklərin mütəxəssis kimi dəvət olunması məqsədəmüvafiqdir.

*V. Fotoşəkillər üzrə tanınma*

İstintaq təcrübəsi göstərir ki, konkret vəziyyətlə əlaqədar olaraq, tanınmaya təqdim edilməli olan şəxs istintaq orqanlarından gizləndikdə, şəxsiyyəti məlum olmayan meyit tapıldıqda, tanıyan şəxs istintaq aparılan yerdən çox uzaqda olduqda tanınma fotoşəkillər üzrə aparıla bilər.

Tanıyan şəxsin fotoşəkili ona oxşar şəxslərin fotoşəkilləri ilə birgə tanınmaya təqdim edilir. Şəxslərin fotoşəkillər üzrə tanınması məhkəmə baxışı zamanı

mühüm bir sübut növü kimi çıxış edir. Ancaq təcrübədə elə olur ki, təqdim olunmuş fotoşəkildə olan şəxs məhz cinayətkar olmasına baxmayaraq, tanıyan şəxs fotoşəklin keyfiyyətli olmaması səbəbindən həmin şəxsi tanımır. Belə olan halda şəxsin tanınma üçün təqdim edilməsi keçirilməlidir. O cəhətdən fotoşəkilləri tanınma üçün təqdim etməzdən əvvəl onun hansı vaxtda çəkilməsinə diqqət yetirməlidir.

Tanınmaya təqdim edilən fotoşəkilləri xüsüsi cədvəllərə yapışdırılır və möhür ilə rəsmiləşdirilir. Bu fotoşəkillər tanıyan şəxslərin sayından asılı olmayaraq, onların hər birinə ayrı-ayrılıqda təqdim edilir.

*VI. Mənzilin və açıq yerlərin tanınma üçün təqdim edilməsi.* Kriminalistik ədəbiyyatlarda bu növ tanınma haqqında məlumatlarla rastlaşmaq olar. Ancaq bu cür tanınma özünün hüquqi əsasını tapmamışdır. Buna baxmayaraq, istintaq təcrübəsi göstərir ki, bəzi hallarda şahidin, zərərçəkmiş şəxsin, təqsirləndirilən şəxsin verdikləri ifadələri yoxlamaq məqsədilə həmin növ tanınmanın həyata keçirilməsi zərurəti ortaya çıxır. Məsələn, baxmayaraq ki, zərərçəkmiş şəxs törədilmiş cinayətin hansı mənzildə və həmin mənzilin harada yerləşdiyini bilmir, öz ifadəsində həmin mənzilin özünəməxsus xüsüsiyyətləri barədə məlumat verən zaman bildirir ki, əgər onu həmin mənzilə aparsalar, o həmin mənzili tanıyar. Belə olan halda həmin zərərçəkmiş şəxsə bir neçə mənzil göstərmək lazımdır ki, ona qarşı törədilmiş cinayətin məhz hansı mənzildə törədildiyini bildirsin.

### ***Tanınma üçün təqdimetmənin nəticələrinin rəsmiləşdirilməsi***

Tanınma üçün təqdimetmənin nəticələri barədə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 241-ci maddəsinə müvafiq olaraq protokol tərtib edilir.

Tanınma protokolunda tanınmanın aparıldığı yer ,tarix, vaxt,müstəntiqin soyadı, adı ,atasının adı,tanınmada iştirak etmiş şəxslərin souadı, adı , atasının adı, doğulduğu il,ay ,gün,yer,vətəndaşlığı,təhsili,iş yeri,məşğuliyyət növü,vəzifəsi,yaşadığı və qeydiyyatda olduğu yer barədə məlumatlar qeyd olunmalıdır.

Tanınmada iştirak edən şəxslərə onların hüquq və vəzifələri izah olunur. Zəruri hallarda tanınmanın günün hansı vaxtında, hansı havada və hansı işıqlanmadan istifadə edilməsi barədə məlumat da protokolda qeyd olunur. Tanıyan şəxs (əgər iş üzrə o şahid və zərərçəkmişdirsə), bilə-bilə yalan ifadə verməyə görə məsuliyyət daşıması barədə xəbərdarlıq edilir. Tanıyan şəxsin tanıdığı obyekti hansı xüsusi əlamətlərinə görə tanıdığı barədə dəqiq məlumatlar öz əksini protokolda tapmalıdır.

Bundan başqa tanınma üçün təqdim etmə protokolunda hansı kriminalistik-texniki vasitələrdən istifadə edilməsi barədə məlumatlar da protokolda əksini tapmalıdır.

Tanınma protokolunu ona öz qeydlərinin əlavə edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları imzalayırlar.

Tanınmanın aparılmasında foto,video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə, müvafiq yazılar ,fotoşəkillər,çəkiliş lentləri yaxud başqa məlumat daşıyıcıları protokola əlavə olunr.

# Ə D Ə B İ Y Y A T:


1. “Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı” haqqında 22 fevral 2000-ci il tarixli qanunu.
2. Azərbaycan Respublikası “Dovlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” 18 noyabr 2001-ci il tarixli Qanunu.
3. Azərbaycan Respublikası CPM. Bakı, 2000.
4. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004.
5. Kriminalistika: Ali məktəblər üçün dərslik. Prof. K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı, 1999.
6. Sarıcalinskaya K.Q., Cavadov F.M., Mahmudov A.M., Əliyev B.Ə. “Məhkəmə ekspertizası” dərs vəsaiti. Bakı, 2003.
7. Mahmudov A.M., Əliyev B.Ə. Kriminalistika: Sxemlər, şərhlər, terminlər. Tədris-metodik vəsait. Bakı, “Qanun”, 2003.
8. Белкин Р.С. “Криминалистика”. Учебник для вузов. М., 1999.
9. Белкин Р.С. Курс криминалистики. Том 1, 2 и 3. М., 1997.
10. Майлис Н.П. “Судебная трасология”. Учебник. М., 2003.
11. Вандер М.Б. Использование микрочастиц при расследовании преступлении. Санкт-Петербург, 2001.
12. Коршунов В.М. Следы на место происшествия. М.,2001.
13. Трасология. Справочник криминалиста. Т.1. Гомеоскопия. Авт. сост. Степанов Г.Н. Бронников А.И. Волгоград, 1997.

14. Ручкин В.Н. Оружие и следы его применение. М., 2003.
15. Фомин А.В. Общий курс фотографии. Москва, 1987.
16. Криминалистическая техника. Учебник. Под редакции Балашова Н.М., Парфененкова А.П. М., 2002.
17. Судебная фотография. Под. ред. А.В. Дупова. Минск, 1978.
18. Осмотр места происшествие. Справочник следователя. М., 1982.
19. Эксперт. Руководство для экспертов органов внутренних дел. Под. ред. Т.В.Аверьяновой и Статкуса. М.,2003.
20. Подшибдкин А.С. Холодное оружие. М., 2002.
21. Белкин Р.С. Криминалистика. Учебный словарь-справочник. М., 1999.
22. Возгрин И.А., Степанов А.А. Криминалистика. Основы методики и дидактики курса. Санкт-Петербург, 2002.
23. Портретная экспертиза. Под. ред. Б.П.Смагоринского. Волгоград, 1997.
24. Фиктова О.Н. Справочник эксперта-криминалиста. М., 2001.
25. Корниенко Н.А. Следы человека в криминалистике. Санкт-Петербург, 2001.
26. Моисеева Т.Ф. Комплексное криминалистическое исследование. Потожировых следов человека. М., 2000.
27. Общетеоретические вопросы криминалистики. Санкт-Петербург, 2000.
28. Бельков А.А. Взрывчатые вещества и взрывные устройства (Криминалистическая взрывотехника. М., 2003.

29. Сяфийева Ж.И. Мящкямя трасолоји експертизаларын исраатында криминалистик ящямийййятли излярдян истифадянин вя онларын тядгигинин нязяри ясаслары. Бакы, 2002.
30. Руководство для следователей. Под редакции. Селиванова Н.А. и Снеткова В.А. М., 1998.
31. Криминалистика. Учебник. Под.ред. А.Г.Филипова. М., 1998.
32. Криминалистика. Под.ред. доктора юридических наук. Профессора Д.И.Сулейманова. Баку, 2000.
33. Криминалистика: Учебник. /Под. Ред. В.А.Образцова. М., 1995.
34. Криминалистика: Учебник для вузов. /Под. Ред. А.Ф.Волынского, А.А.Запотова. Волгоград, 1994.
35. Зинин А.М. Внешности человека в криминалистике. Учебное пособие. М., 1995.
36. Зинин А.М. и др. Особенности портретной криминалистической идентификации с использованием видеоизоброжений: Методические рекомендации. М., 1994.
37. Криминалистика: учебник для вузов. Под. ред. Р.С.Белкина, В.Г. Коломацкого. И.М.Лузкина. М., 1995.
38. Крылов И.Ф. В мире криминалистики. Л., 1987.
39. Торвальд Ю. Век Криминалистики. М., 1985.
40. Криминалистика. Учебник. Под. Ред. И.П.Яблоква, М., 1996.
41. Криминалистика: Учебник. Под. Ред. В.А.Образцова. М.,1995.
42. Русаков М.Н. Следы преступления. Омск, 1988.
43. Криминалистика.учебник под редакцией заслуженного деятеля науки РФ профессора А.И.Бастыркина издателства «Дело»,Москва 2001.

44. «Следы человека в криминалистике» Санк-Петербург Москва-Харков-Минск, 2001.
45. Руководство по криминалистической технике, юридическая литература,Москва, 1975.
46. .Сова Ф.П «Следы шин автомототранспортных средств и их исползование в розыскной и следственной практике» Москва, 1978.
47. Салтевский М.В. «Следы человека и приемы их для получения информации о преступление и обстоятелствах преступления» Киев-1983.
48. Гасымов С. «Истинтаг фярзиййяляринин мащиййяти вя функсийалары», «Ганунчулуг» журналы №12.1996.
49. Дубровская Л.П., Лузгин И.М. «Планирование расследования» Москва, 1972.
50. Бедняков Д.И «Непроцессуалная информация и расследо- вание преступлений» Москва,1991
51. Сидоров В.И. «Началний этап расследования. Организация. Взоимодействие. Тактика» Москва, 1992.
52. Махов В.Н. «Исползование знаний сведущих лиц при раследований преступлений» Москва, 2000
53. Азярбайъан Республикасы ДИН-нин 19.10.01-ъи ил тарихли 408
сайлы ямри.
54. Азярбайъан Республикасы ДИН-нин 22.04.2002-ъи ил тарихли 155
сайлы ямри.
55. Оркин А.Н. «Исползование специальных познаний при расследований пожаров» Хабаровск .1988.
56. Справочник следователя. Практикческое пособие. Москва,1990. с. 4-12.
57. Руководство для следователей. 1 часть. Москва,1981. с.226-275.

58. Галкин И.С., Косетков В.С. «Процессуальное положение подазреваемого» Москва 1977
59. Григорев В.И. «Задержание подозреваемого органами внутренних дель» Ташкент 1987
60. А.Р.Ратинов. “Судебная психология”. Москва, 1967.
61. Дулов А.В. “Судебная психология”. Минск, 1975.
62. Сулейманов Д и другие. “Тактика допроса обвиняемого в конфликтных ситуациях”. Баку, 1993.
63. Леви А.А., Селиванов Н.А. «Получение и проверка показаний следователем» Москва ,1987
64. Пантелейев И.Ф., Селиванов Н.А. Москва, 1993, ст. 341-348;
65. Селиванов Н.А. Руководство для следователей. Москва, 1998, глава VIII;
66. Аверянова Т.В., Р.С.Белкин "Криминалистика". Москва, 2000, ст. 648-663;
67. Крикунов А.Е., Майевский А.Ф. "Тактика и психологические основы предявления лица для опазнания. Киев , 1977;